İnstitutun "Elmi əsərlər"i 1934-cü ildən nəşr edlir.
"Scientific works" of the institute have been published since 1934.
«Научные труды» института издаются с 1934 года.

İnstitut üzrə 150 nömrəli əmri diqqət mərkəzinə gətirək:
We bring to the attention Order No. 150 of the Institute:
Доводим до сведения приказ № 150 института:



Приказ №150

От 17/I-34г.

Временно утвердить редакционной Коллегии Аз.Н.И.И.П.П. в составе ответ. редактора т. Мамедова Гулам /Директора Ин-та/ секретаря т. Малахальцева и членом т. Араслы.

Тов. Малахальцеву 19/I к 1 часу дня представить план выпуска научных трудов Института.

Директор Ин-та: [signature]

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI

https://doi.org/10.69682/arti.2025.92.6
https://archive.org/details/elmi-s-rl-r-2025-6-1– Internet Archive
https://journals.indexcopernicus.com/search/details?id=122986 – Index Copernicus
https://journalseeker.researchbib.com/view/issn/2409-8817 – Researchbib
https://www.slideshare.net/slideshow/scientific-works-volume-92-number-6-2025-pdf/284768102 – SlideShare
https://www.calameo.com/read/007335995e7baec127401– Calameo

ISSN 2409-8817
E-ISSN 3078-2813
DOI: 10.69682

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

ELMİ ƏSƏRLƏR

cild 93, № 2, 2026

НАУЧНЫЕ ТРУДЫ

том 93, № 2, 2026

SCIENTIFIC WORKS

volume 93, № 2, 2026

“Elmi əsərlər” 1934-cü ildən çıxır
İldə 6 nömrə nəşr olunur
Redaksiyanın ünvanı:
Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 96
Tel: 493-96-21, 493-30-06

Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi şurasının iclasının qərarı ilə nəşr edilir.

Təsisçi: Azərbaycan Respublikasının Təhsil İnstitutu
"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin
11 iyul 2002-ci il tarixli 23 №-li əmri ilə qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə
tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir.

Baş redaktor:
Akif Abbasov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
Hümeyir Əhmədov – *pedaqogika elmləri doktoru, professor*

Baş redaktorun müavini:
İlham Cavadov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Məsul katib:
İradə Əmirəliyeva – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Redaksiya heyəti: **Emin Əmrullayev**, **Elnur Əliyev**, kimya ü.f.d., **Rüfət Əzizov**, siyasi.elm.ü.f.d. **Anar Nağıyev**, ped.ü.f.d., dos. **Ənvər Abbasov**, ped.e.d., prof. **Vidadi Xəlilov**, ped.e. d., prof. **Fərahim Sadıqov**, ped.e.d., prof. **Hikmət Əlizadə**, psixol.e.d., prof. **Ramiz Əliyev**, ped.e.d., prof. **İntiqam Cəbrayılov**, ped.e.d. **Piralı Əliyev**, ped.e.d., prof. **Mübariz Əmirov**, ped.e.d., prof. **Novruz Musayev**

Redaksiya Şurası:
B.H. Əliyev (AMEA-nın müxbir üzvü, psixol. e.d., prof., Azərbaycan)
A.N. Rəhimov (Bakı Qızlar Universitetinin təsisçisi, ped.e.d., prof., Azərbaycan)
A.K. Kusainov (Kazaxıstan Pedaqoji Elmlər Akademiyasının prezidenti, ped.e.d., prof., Almatı)
O.M. Topuzov (Ukrayna Milli Pedaqoji Elmlər Akademiyasının vitse-prezidenti, Pedaqogika İnstitutunun direktoru, ped.e.d., prof., Kiyev)
İ.X. Karimova (Tacikistan Təhsil Akademiyasının vitse-prezidenti, ped.e.d., prof., Düşənbə)
V. Briller (Kolumbiya Universitetinin Ali təhsilin sektor təhlili üzrə icraçı direktoru, Dr., prof. (Nyu-York)
S.P. Lomov (Moskva DPU-nun kafedra müdiri, RTA-nın akademiki, ped.elm.dok., prof., Moskva)
Y.P.Zinçenko (Moskva Dövlət Universitetinin psixologiya fakültəsinin dekanı, psixologiya elmləri doktoru, professor, Moskva)
Ə.Ə. Şahin (Hacettepe Universitetinin professoru, Türkiyə)
Y. Romanenko (dövlət idarəetmə elmləri doktoru, professor, Ukrayna)
A.S. Sidenko (Sosial İdarəetmə Akademiyasının aparıcı elmi işçisi, ped.e.d., prof., Moskva)
N.V. Naumova (Samara Humanitar Akademiyasının kafedra müdiri, psixol. ü.f.d., dosent, Samara)
Tran Mai Uos (Banking Universitetinin baş müəllimi, fəlsəfə doktoru, dosent, Vyetnam)

Redaksiya: Lalə Məmmədli, Dinarə Əsədova, Günel Quluzadə, Şükür Aslanov

© ARTİ, 2026

Published by the decision of the Academic Council of the Institute of Education of the Republic of Azerbaijan

Founder: Institute of Education of the Republic of Azerbaijan
The collection "Research Papers" was registered by order No. 23 of July 11, 2002 of Ministry of Justice of the Republic of Azerbaijan

"Research Papers" has been published since 1934.

Frequency of publication: 6 issues per year. "Research Papers" are included in the list of publications recommended by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan

Editor in Chief:
Akif Abbasov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Humeyir Ahmadov – *doctor of pedagogical sciences, professor*

Deputy Editor in Chief:
Ilham Javadov – *doctor of philosophy in pedagogy, associate professor*

Executive Secretary:
Irada Amiraliyeva – *doctor of philosophy in pedagogy, associate professor*

Editorial board: **Emin Amrullaev, Elnur Aliyev**, Ph.D. in chemistry **Rufat Azizov**, Ph.D. in political sciences **Anar Naghiyev**, Ph.D. in ped., assoc.prof. **Anvar Abbasov**, dok.of ped. sciences, prof. **Vidadi Khalilov**, dok.of ped. sciences, prof. **Farahim Sadigov**, dok.of ped. sciences, prof. **Hikmat Alizade**, dok.of psychol. sciences, prof. **Ramiz Aliyev**, dok.of ped. sciences, prof. **Intigam Jabrayilov**, dok.of ped.sciences **Pirali Aliyev**, dok.of ped. sciences, prof. **Mubariz Amirov**, dok.of ped.sciences, prof. **Novruz Musayev**

Editorial Council:
B.H. Aliyev (Corresponding Member of National Academy of Sciences of Azerbaijan, doc. of psychological sciences, prof., Azerbaijan)
A.N. Rahimov (founder of Baku University for Girls, doctor of ped. sciences, prof., Azerbaijan)
A.K. Kusainov (President of the Kazakhstan Academy of Pedagogical Sciences, doctor of ped. sciences, prof., Almaty)
O.M. Topuzov (Vice-President of the National Academy of Pedagogical Sciences of Ukraine, Director of the Institute of Pedagogy, doctor of ped. sciences, prof., Kiev)
I.Kh. Karimova (Vice-President of Academy of Education of Tajikistan, doctor of ped. sciences, prof., Dushanbe)
B.Briller (Executive director of Higher Education Sector Analysis at Columbia University, Dr. prof., New York)
S.P. Lomov (Head of the department of the Moscow Pedagogical State University, Academician of the Russian Academy of Education, doctor of ped. sciences, prof., Moscow)
Y.P. Zinchenko (Dean of the faculty of psychology at Moscow State University, Doctor of psychology, prof., Moscow)
A.A. Shahin (professor at Hacettepe University, Turkiye)
Y. Romanenko (doctor of sciences in public administration, professor, Ukraine)
A.S. Sidenko (Leading researcher of the Academy of Social Management, doctor of ped. sciences, prof., Moscow)
N.V. Naumova (Head of the department of the Samara Humanitarian Academy, doctor of philosophy in psychology, Samara)
Tran Mai Uoc (Senior lecturer, Banking University, PhD, associate professor, Vietnam)

© IERA, 2026

Публикуется решением Ученого Совета Института Образования Азербайджанской Республики

Учредитель: Институт Образования Азербайджанской Республики
Сборник «Научные труды» зарегистрирован приказом № 23 от 11 июля 2002 г. Министерства Юстиции Азербайджанской Республики

«Научные труды» издается с 1934 года.

Периодичность издания: 6 номеров в год.
«Научные труды» включены в список публикаций, рекомендованных решением Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики

Главный редактор:
Акиф Аббасов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Гумеир Ахмедов – *доктор педагогических наук, профессор*

Заместитель главного редактора:
Ильхам Джавадов – *доктор философии по педагогике, доцент*

Ответственный секретарь:
Ирада Амиралиева – *доктор философии по педагогике, доцент*

Редакционная коллегия: **Эмин Амруллаев**, **Эльнур Алиев**, док.ф. по хим. **Руфат Азизов**, док.ф. по полит.н. **Анар Нагиев**, док.ф. по пед., доц. **Энвер Аббасов**, док. пед.н., проф. **Видади Халилов**, док. пед.н., проф. **Фарахим Садыгов**, док. пед.н., проф. **Хикмет Ализаде**, док. психол. н., проф. **Рамиз Алиев**, док. пед.н., проф. **Интигам Джабраилов**, док. пед.н. **Пирали Алиев**, док. пед.н., проф. **Мубариз Амиров,** док. пед.н., проф. **Новруз Мусаев**

Редакционный совет:
Б.Г. Алиев (чл.-корр. НАНА, док. психол.н., проф., Азербайджан)
А.Н. Рагимов (учредитель Бакинского Университета для Девушек, док. пед.н., проф., Азербайджан)
А.К. Кусаинов (президент Казахстанской АПН, док. пед.н., проф., Алматы)
О.М. Топузов (вице-президент НАПН Украины, директор Института Педагогики, док. пед.н., проф., г. Киев)
И.Х. Каримова (вице-президент АО Таджикистана, док. пед.н., проф., Душанбе)
В. Бриллер (исполнительный директор по анализу сектора Высшего Образования Колумбийского Университета, д-р, проф., Нью-Йорк)
С.П. Ломов (зав.кафед. Московского ПГУ, акад. РАО, док. пед.н., проф., Москва)
Ю.П.Зинченко (декан психологического факультета МГУ, доктор психологических наук, профессор, Москва)
А.А. Шахин (профессор Университета Хаджеттепе, Турция)
Е. Романенко (доктор наук по государственному управлению, профессор, Украина)
А.С. Сиденко (вед. науч. сотруд. Академии Социального Управления, док. пед.н., проф., Москва)
Н.В. Наумова (зав. кафед. Самарской Гуманитарной Академии, док.ф.. по психол., Самара)
Tran Mai Uoc (старший преподаватель Университет Банкинга, д. филос., доц., Вьетнам)
Редакция: Лала Мамедли, Динара Асадова, Гюнель Гулузаде, Шукюр Асланов

© ИОАР, 2026

XALQ ŞAİRİ SƏMƏD VURĞUNUN 120 İLLİYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI
DECREE OF THE PRESIDENT OF AZERBAIJAN ON CELEBRATION OF THE 120th ANNIVERSARY OF THE PEOPLE'S POET SAMAD VURGHUN
УКАЗ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНА О ПРАЗДНОВАНИИ 120-ЛЕТИЯ СО ДНЯ РОЖДЕНИЯ НАРОДНОГО ПОЭТА САМАД ВУРГУНА

2026-cı ildə iyirminci əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri, Xalq şairi, tanınmış dramaturq və ictimai xadim, SSRİ Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının həqiqi üzvü Səməd Vurğunun (Səməd Yusif oğlu Vəkilovun) 120 illiyi tamam olur.

Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir. Keçmişə ehtiram və gələcəyə inam aşılayan Vurğun dramaturgiyası Azərbaycanın teatr sənəti tarixində xüsusi səhifə təşkil edir. Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərmişdir və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətləri olan görkəmli şair Səməd Vurğunun 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və aidiyyəti qurumlarla birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Xalq şairi Səməd Vurğunun 120 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 23 fevral 2026-cı il

UOT 37.01

Akif Nurağa oğlu Abbasov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,
pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim
https://orcid.org/0000-0002-9210-7141
E-mail: a.abbasov@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(2).7-10

SƏMƏD VURĞUNUN ƏSƏRLƏRİ ŞAGİRDLƏRİN TƏRBİYƏ EDİLMƏ VASİTƏSİ KİMİ

Akif Nuragha Abbasov
scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor, Honored teacher

SAMAD VURGUN'S CREATIVITY AS A MEANS OF PUPILS' UPBRINGING

Акиф Нурага оглы Аббасов
ученый секретарь Института Образования Азербайджанской Республики,
доктор педагогических наук, профессор, заслуженный учитель

ТВОРЧЕСТВО САМАДА ВУРГУНА КАК СРЕДСТВО ВОСПИТАНИЯ УЧАЩИХСЯ

Xülasə. Səməd Vurğun 1906-ci ildə Qazaxda anadan olmuş, 1956-cı ildə Bakı şəhərində vəfat etmiş-dir. dur. O, Azərbaycanın görkəmli şairidir. Xalqımız onunla fəxr edir. Bakıda Rus Dram Teatrı şairin adını daşıyır. Bakıda Səməd Vurğunun heykəli ucaldılmışdır. Şairin oğullarının hər ikisi – həm Yusif Səmədoğlu, həm də Vaqif Səmədoğlu Xalq yazıçıları idilər.

***Açar sözlər**: Səməd Vurğun yaradıcılığı, poemalar, dramlar, şeirlər, Xalq şairi*

Abstract. Samad Vurghun was born in 1906 in Gazakh and died in 1956 in Baku. He is an outstanding poet of Azerbaijan. Our people are proud of him. The Russian Drama Theater in Baku bears his name. A monument to Samad Vurghun has been erected in Baku. Both of the poet's sons - Yusif Samadoghlu and Vagif Samadoghlu, were People's Writer.
***Keywords**: Samad Vurghun's works, poems, dramas, poetry, People's poet*

Аннотация. Самад Вургун родился в 1906 году в Газахе и умер в 1956 году в Баку. Он – выдающийся поэт Азербайджана. Наш народ гордится им. Русский драматический театр в Баку носит имя поэта. В Баку установлен памятник Самаду Вургуну. Оба сына поэта – Юсиф Самадоглу и Вагиф Самадоглу – были Народными писателями.
***Ключевые слова**: творчество Самада Вургуна, стихи, драмы, поэзия, Народный поэт*

Hər dəfə Bakıda Səməd Vurğun bağından keçəndə şairin heykəli önündə dayanır, onu ehtiramla yad edirik.

Səməd Vurğun zəngin yaradıcılığa malik dünya şöhrətli sənətkar, müasir poeziyamızın korifeyidir. O, "Vaqif", "Xanlar", "Fərhad və Şirin", "İnsan", "İki sevgi", "Şairin həyatı" dramlarının; "Aygün", "Zəncinin arzuları", "Talıstan", "Zamanın bayraqdarı", "Komsomol", "Aslan qalası", "Bakının dastanı", "Ölüm kürsüsü", "Acı xatirələr", "Bulaq əfsanəsi", "Hürmüz və Əhrimən", "Xumar", "Dağ havası", "Muradxan", "Ayın əfsanəsi", "Fanar", "Bəsti", "Qız qayası", "Ölən məhəbbət", "Üsyan", "Lökbatan", "Şairin ölümü", "Kənd şəhəri", "Aprel", "Şairin andı", "Dar ağacı", "26-lar", "Yazla qışın deyişməsi" poemalarının müəllifidir.

Şairin qələmindən çıxan "Azərbaycan", "Ana", "Anamın dərdi", "Göy göl", "Şair, nə tez qocaldın", "Yadıma düşdü", "Dağlar", "Yada sal məni", "Ceyran", "Dan ulduzu", "Şuşa", "Dilcan dərəsi", "Ala gözlər", "Dinlə məni gözəl bahar" və s. onlarla şeir kamilliyi və əzəməti ilə diqqət mərkəzinə gəlir.

"Komsomol" poeması əsasında Yusif Səmədoğlunun ssenarisi əsasında "Yeddi oğul istərəm"; "Aygün" poeması əsasında – "Aygün" bədii filmləri çəkilmişdir. Hər iki filmə məzmununa, qayəsinə, yüksək sənətkarlıqla verilmiş quruluşuna və aktyorların yüksək səviyyəli ifasına görə sevilə-sevilə tamaşa edilir.

1960-cı ildə ekranlaşdırılmış "Aygün" bədii filmində (quruluşçu rejissor və ssenari müəllifi Kamil Rüstəmbəyov) Nəcibə Məlikova – Aygün, Həsənağa Salayev – Əmirxan; 1970-ci ildə çəkilmiş "Yeddi oğul istərəm" bədii filmində (quruluşçu rejissor Tofiq Tağızadə) Həsən Məmmədov – Bəxtiyar, Həsən Turabov – Gəray bəy, İsmayıl Osmanlı – Kələntər, Ənvər Həsənov – Cəlal, Elçin Məmmədov – Mirpaşa, Şahmar Ələkbərov – Qəzənfər, Əbdül Mahmudov – Qasım, Zemfira İsmayılova – Humay rollarını canlandırmışlar.

Səməd Vurğunun həyatı və fəaliyyəti, istər çoxsaylı şeirləri, istər dramları, istərsə də poemaları son dərəcə tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici funksiyalara malikdir. Ailələrdə valideynlər, uşaq bağçalarında tərbiyəçilər, ümumtəhsil məktəblərində, orta ixtisas və ali təhsil müəssisələrində müəllimlər, pedaqoji kollektivlərin digər üzvləri (kitabxanaçılar, ictimai təşkilatların nümayəndələri və b.) həmin imkanlardan faydalanaraq təhsilalanlarda mənəvi keyfiyyətlərin daha dərindən və möhkəm təşəkkülünə, daha inkişaf etdirilməsinə nail ola bilərlər.

Şair öz əsərlərində çoxsaylı mövzulara müraciət etmişdir. Azərbaycanın dilbər guşəsi Şuşa haqqında yazdığı şeirdə şəhərin gözəlliyi, özəlliyi vəsf edilir:

Qoynuna girməyə qalmışdır bir az,
Könül fərəhlənib eylədi pərvaz;
Ölməyib görəydim seyrini hər yaz,
Səndə vardır başqa lətafət, Şuşa!
Dağlarından qopar havalı yellər,
Ah, o sərin yellər, səfalı yellər;
Dağıdıb huşumu divanə eylər,
Vüsalın hər kəsə səadət, Şuşa!
Xırdaca-xırdaca yağışın yağar,
Çən-çisək içindən günəşin doğar (1, s.26).

Səməd "Şuşanın özgə lətafətə" malik olduğunu görüb ona vurulur, hər yaz onun qoynunda olmaq istəyir. Şuşada "sərin, səfalı yellər" əsir, Ara-sıra narın yağışlar yağır".

Bu şeir çox-çox əvvəllər yazılıb, bəlkə də bir əsrə yaxın bir zamanda. O zamanlar Şuşa bəxtəvər idi, azad idi, özünün səfalı günlərini yaşayırdı. Mənbələrdə göstərildiyi kimi, bu şəhərin özülünü Qarabağ hökmdarı Pənahalı xan 1752-ci ildə qoyulub. İlk zamanlar şəhər həm də

"Pənahabad" da adlandırılırdı. Şəhər 8 may 1992-ci ildə havadarlarının dəstəyi ilə erməni-faşist işğalçıları tərəfindən tutuldu. İşğal zamanı 195 nəfər Şuşa vətəndaşı öldürülmüş, yaralanmış 165 nəfərdən 150 nəfəri əlil olmuş, 552 uşaq ata-anasız qalmış, 20 mindən çox insan öz şəhərini tərk edərək məcburi köçkün vəziyyətinə düşmüşdür.

Bütün bunlardan dahi şair xəbərsiz qalmışdı. Səməd Vurğunun sevimli Şuşası haradasa 30 il əsirlikdə qaldı. Lakin bu əsirliyin müvəqqəti olduğuna bizə bəlli idi. Azərbaycanın ürəyi olan Şuşasız qala bilməzdik. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin başçılığı ilə rəşadətli Ordumuz erməni faşist işğalçıları üzərində arixi qələbə qazanaraq Şuşamızı işğaldan azad etdi.

Şagirdlərlə söhbət zamanı onlar belə qənaətə gəlmişlər. Məktəblilər və tələbələrlə aparılmış tərbiyə işləri Azərbaycanımızın hər qarış torpağına böyük sevgi hissi tərbiyələndirməlidir.

Şair "Aygün" poemasını 1951-ci ildə qələmə almışdır. Poema yeni ailə qurmuş gənclərin qarşılıqlı münasibətinə, sevgi və taleyinə həsr olunub. Əsas qəhrəman Aygündür. Səməd Vurğun Aygünün timsalında azərbaycanlı qadının idealını ümumiləşdirməyi qarşısına məqsəd qoymuşdur. Poemada Azərbaycan qadınlarının ağır taleyindən söz açılır. Onların öz qüvvələri hesabına, bir çox məhrumiyyətlərə sinə gərərək çətinliklərə necə aradan qaldırdıqları, ailə şərəfini necə qoruduqları, övlada ana məhəbbəti, içilmiş anda sədaqət kimi ülvi hisslər təsvir edilir.

Səməd Vurğuna görə, bizim qadınlar istehsalata, mədəniyyətə fəal şəkildə qoşulsalar da, bütün bunlar onların milli əxlaqi simasında dəyişikliklərə səbəb olmayacaqdır. Aygün elə bu tipli bir qadındır. O, ərini və ailəsini, evdə normal psixoloji və mənəvi iqlimin yaranmasını nəzərə alaraq, özünün sənətini, bəstəkarlıq təhsilini yarımçıq qoyur. Əri Əmirxan aqronom olduğundan, rayonlardan birinə təyinat aldığından onunla bərabər kəndə gəlir.

Bu iki gənc bir-birini dərin məhəbbətlə, bir-birləri üçün yarandıqlarını anlayaraq sevmiş, ailə qurmuşlar. Aygünün sevincinə şərik olaq:

Aygün hələ soyunmamış toy paltarını,
Hələ şaddır, bəxtiyardır dünyalar qədər;
Salamlayıb gözəl ömrün xoş baharını
Günəş ilə bir oyanır evdə hər səhər (2, s. 333).

Əmirxan bir kişilik, mərdlik, sadiqlik nümunəsidir:

Qartal gözlü Əmirxanın baxışlarında
Bir kişilik, bir də vüqar oxuyur gəlin.
Onun geniş sinəsində, sıx qaşlarında
Deyirlər ki, gözü varmış neçə gözəlin (2, s. 333).

Lakin ailənin başı üzərində küləklər əsir, Əmirxan içkiyə qurşanır, Aygünün istəkləri, gözləntiləri ilə maraqlanmır.

Bir-birinə can deyən, bir-birini sevən ərarvad ("Əmirxan da, Əmirxan da çox sevir onu, Bir-birinə hey can deyib, can eşidirlər") ayrılırlar.

Günah Əmirxanda olur. Bakıya qayıdan Aygün qızını tək böyütmək məcburiyyətində qalır. Aygün bəstəkarlıq üzrə təhsil almaqda davam edir, bəstəkar kimi məşhurlaşır. O eyni zamanda sevgisinə də sadiq qalır. Əmirxandan ayrılsa da, axıradək özünün ilk məhəbbətinə sadiq olur, başqa şəxslərə, yəni ona elçi düşənlərə könül vermir. Müğənni Elyarın məhəbbət hisslərini qiymətləndirsə də, onun sevgini qəbul etmir. Diqqət yetirək:

Yalnız sənətimlə yaşayıram mən,
Bir də ki, gözümün işığı Ülkər...
Niyə gizlədim ki... bəzən qəlbimdən
İsti bir nəfəs də keçir müxtəsər.
Fəqət sevməyirəm mən heç bir kəsi,
Xəyalım bir yerdə qərar tutmayır.
Üzümə dəydikcə övlad nəfəsi
Ürəyim ilk eşqi heç unutmayır.

Əmirxan öz səhvini başa düşür. Anlayır ki, Aygünsüz, qızı Ülkərsiz həyat ona yalnız cəhənnəm əzabı ola bilər. Odur ki, günahını yumaq qərarına gəlir.

Əmirxan Aygünü yad edib bəzən,
İş vaxtı, boş vaxtı xəyala getdi.
- Özü qurtarmamış məni ölümdən
Niyə tez qayıtdı, niyə tez getdi?.. (s. 419)

Əmirxan ailəsinə qayıdır. Aygün onu qəbul edir.

"Muğan" poemasında zəhmətə bağlılıq, əməklə, çalışqanlıqla boz çöllərə can vermək ("Muğanın ciyəri su istəyir, su! Susuz dodaq kimi çatlayır torpaq. Bahardır! Bahardır, yerin arzusu, O, insan əlilə şəfa tapacaq!, s. 274), xarüqələr yaratmaq kimi ülvi arzu və istəklərdən danışılır. Şair demişkən, təbiət Muğanda insanları "ilhama çağırır". Qurub-yaratmaq hər bir şəxsin amalına çevrilib. Sarvanla Manya yarışırlar.

Dos. E.R. Hüseynova yazır: "Şagirdlərin tərbiyə olunması vətəndaşlıq mövqeyini bərqə-

rar etməklə onlarda cəmiyyətin həyatında fəal iştiraketmə tələbatı yaratmaqdır. Vətəndaşlıq mövqeyinin səmərəli formalaşdırılması üçün yuxarı sinif şagirdlərində vətəndaşlıq məsuliyyətinin, Vətən qarşısında müqəddəs borcun tərbiyə olunmasını tələb edir" (3, s. 45).

Səməd Vurğunun əsərləri, o cümlədən "Aygün" poeması bu mənada şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin təşəkkül tapıb formalaşmasına çox kömək göstərir.

Vaxtilə insanlar "Bir vətən eşqilə Mildə, Muğanda, Min bir oba qurub, qışlaq salıblar, Günəşlər yurdunu zülmət boğanda, At sürüb, ox atıb, qılınc çalıblar, Bir vətən eşqilə ərlər, ərənlər, Muğan çöllərində çadırlar qurublar", s. 275).

"Muğan" poemasının 11-ci nəğməsi "Mingəçevir qəhrəmanları" adlanır (2, s. 299). Mingəçevirdə "Car çəkir, çarxların çaxnaşıq səsi, Car çəkir qışqırır nəhəng motorlar. Qızır baltaların polad pəncəsi, İldırım, ildırım vurur Bozdağı, O daşlı, qumsallı, gilli torpağı, (2, s. 299).

Bu nəhəng tikinti meydanında Sarvanla Manya yarışırlar. Sarvan qələbə qazanır. Manya hunu səmimi qəbul edir. Təntənəli mərasimdəki çıxışında deyir.

Yarışdıq Sarvan ilə mən.
Sizin yanınızda şərt bağladıq biz;
Boyun qaçırmadıq öz vədimizdən,
İşdə yorulmadı ürəklərimiz.
Sarvan tez əritdi yıxdığı dağı,
Çünki ildırımmış əli, ayağı...
Mən də çox əlləşdim, çarpışdım, ancaq

Bu poema təhsilalanlarda əməksevərliyin tərbiyə olunması baxımından faydalıdır.

Səməd Vurğun sakini olduğu ölkənin uğurlarından, insanlarım xoş güzəranından sevinir, Azərbaycan təbiətinin gözəlliklərindən, ölməmizin maddi və mənəvi sərvətlərinin möhtəşəmliyindən, flora və faunamızın zənginliklərindən sevinir, vəcdə gəlir, həyatda hamının sevinc, fərəh içərisində yaşamasını arzulayır, eyni zamanda sıxıntı keçirən, kasıbçılıq çəkənlərin halına da yanır. "Acı xatirələr" poemasında olduğu kimi:

Qurban bayramıydı, gülürdü dağlar,
Qonşumuz xınalı bir erkək kəsdi.
O bayram günündə anamı ağlar
Görəndə, üstümdən bir çovğun əsdi.

Şair ananın iztirablarını belə təsvir edir. Atanın halını isə aşağıdakı kimi:

Atam oturmuşdu qapımızda tək,
Ömrünün ixtiyar və düşkün çağı,
Zoğal müştüyünü tüstülədərək;
Yenə tökülmüşdü qaşı-qabağı.

Şair maraqlanır, sual verir:

Nəydi düşündürən o yazıqları?
Evdə nə ocaq var, nə isti qazan...
Hamıya "gülməzdi" ömrün rüzgarı
Deyin yanılmasın tarixi yazan!
Bir tərəfdə bayram, bir tərəfdə yas!..
Böylə keçinmişdir dilsiz əsrlər,
Şairim, könülün duyduğunu yaz!

Nəhayət, şair varlı qonşu oğlanla ilə öz durumunu təsvir edir:

O gün qonşumuzun oğlu başına
Qoymuşdu bir qara, buxara papaq;
Qüruru sığmazdı uşaq yaşına.
Yanımdan keçirdi tərs-tərs baxaraq.
Mənsə sallamışdım yerə burnumu
Baxıb köynəyimin yamaqlığına,

Təhsilalanlarla iş zamanı onlarda Səməd Vurğun yaradıcılığına rəğbət, məhəbbət hisslərin formalaşdırılmalıdır. Şairin əsərləri ilə tanışlıq öz-özlüyündə onlarda vətənpərvərlik, xeyirxahlıq, əməksevərlik, humanizm, vicdanlılıq, milli və şəxsi ləyaqət və şərəf hissləri, yaxşılıq, alicənablıq və s. doğuracaqdır.

Problemin aktuallığı. Səməd Vurğunun 120 millik yubileyinin qeyd olunduğu ərəfədə elə bir mövzuya müraciət olunması aktuallığı ilə seçilir.

Problemin yeniliyi. Məqalədə Xalq şairi Səməd Vurğunun əsərlərindəki tərbiyəvi fikirlərdən faydalanmaqla şagirdlərin və tələbələrin mənəvi keyfiyyətlərinin daha da inkişaf etdirilməsi bir məqsəd kimi qarşıda dayanıb.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılar üçün faydalı ola bilər.

Ədəbiyyat

1. Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005, 264 s.
2. Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə. III cild. Bakı: Şərq-Qərb, 2005, 424 s. (s. 333-422).
3. Hüseynova, E.R. Şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması təhsil müəssisəsinin mühüm vəzifəsi kimi // Azərbaycan Respublikasının Təhsil İstitutunun Elmi əsərləri, 2023, № 6, s. 44-47

Redaksiyaya daxil olub: 20.02.2026

UOT 37.01

Hümeyir Hüseyn oğlu Əhmədov,
Azərbaycan Respublikasının Təhsil İnstitutunun şöbə müdiri, pedaqogika elmləri doktoru, professor,
Qazaxıstan Pedaqoji Elmlər Akademiyasının xarici üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü,
Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, RTA-nın Əməkdar elm və təhsil xadimi
https://orcid.org/ 0000-0003-0019-4266
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az

Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
aparıcı mütəxəssisi,
pedaqogika üzrə fəlsəfə doktoru,
elmlər doktoru proqramı üzrə əyani doktorant
https://orcid.org/0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
l.memmedli@arti.edu.az

Pərvin Cavanşir qızı Əlizadə
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi,
Türkiyə Respublikası Van Yüzüncü Yıl Universitetinin qiyabi doktorantı
https://orcid.org/0009-0009-5896-2177
E-mail: alizadapari.16@gmail.com

SƏMƏD VURĞUNUN YARADICILIĞINDA PEDAQOJİ MOTİVLƏR VƏ GƏNC NƏSLİN TƏRBİYƏSİ

Humeyir Huseyn Ahmadov,
head of the department of the
Institute of Education of the Republic of Azerbaijan
doctor of pedagogical sciences, professor,
foreign member of the Academy of Pedagogical Sciences of Kazakhstan,
foreign member of the Russian Academy of Education,
full Member of the Academy of Natural Sciences,
Honored scientist and educator
https://orcid.org/ 0000-0003-0019-4266
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az

Lala Akif Mammadly
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in pedagogy
doctoral student in the program of doctor of sciences
https://orcid.org/0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
l.memmedli@arti.edu.az

Parvin Cavanshir Alizadeh
leading specialist of the Institute of Education of the Republic of Azerbaijan
doctoral student in the program of philosophy at Van Yuzuncu Yil University,
Republic of Türkiye
https://orcid.org/0009-0009-5896-2177
E-mail: alizadapari.16@gmail.com

PEDAGOGICAL MOTIFS AND THE UPBRINGING OF THE YOUNGER GENERATION IN THE WORK OF SAMAD VURGUN

Гумейир Гусейн оглы Ахмедов,
заведующий отделом Института Образования Азербайджанской Республики, доктор педагогических наук, профессор,
иностранный член Академии Педагогических Наук Казахстана, иностранный член Российской Академии Образования, действительный член Академии Естественных Наук, Заслуженный деятель науки и образования РАО
https://orcid.org/ 0000-0003-0019-4266
E-mail: humeyir@gmail.com
a.humeyir@arti.edu.az

Лала Акиф гызы Мамедли
ведущий специалист
Института Образования Азербайджанской Республики
доктор философии по педагогики,
докторант по программе доктора наук
https://orcid.org/0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
l.memmedli@arti.edu.az

Парвин Джаваншир гызы Ализаде
ведущий специалист Института Образования Азербайджанской Республики
заочный докторант Университета Ван Юзюнджю Йыл Турецкой Республики
E-mail: alizadapari.16@gmail.com
ORCID: 0009-0009-5896-2177
https://doi.org/10.69682/arti.2026.93(2).11-17

ПЕДАГОГИЧЕСКИЕ МОТИВЫ И ВОСПИТАНИЕ МОЛОДОГО ПОКОЛЕНИЯ В ТВОРЧЕСТВЕ САМЕДА ВУРГУНА

Xülasə. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Səməd Vurğunun yaradıcılığı milli-mənəvi dəyərlərin, vətənpərvərlik ideyalarının və humanist prinsiplərin təbliği baxımından xüsusi əhəmiyyət kəsb edir. Onun əsərlərində yalnız bədii-estetik xüsusiyyətlər deyil, həm də pedaqoji məzmun və tərbiyəvi ideyalar geniş şəkildə öz əksini tapır. Şairin poeziyasında gənc nəslin mənəvi formalaşması, vətən sevgisi, əməksevərlik, humanizm və milli kimlik kimi dəyərlərin təbliği əsas mövzulardan biridir. Bu baxımdan Səməd Vurğunun yaradıcılığı həm ədəbi, həm də pedaqoji aspektdən araşdırılması zəruri olan mühüm mənbə hesab olunur.

Məqalədə Səməd Vurğunun poeziyasında və dramaturgiyasında pedaqoji motivlərin təhlili aparılır, onun əsərlərində gənc nəslin tərbiyəsinə yönəlmiş ideyalar müəyyən edilir. Şairin əsərlərində müəllim obrazı, təhsil və maarifçilik ideyaları, vətənpərvərlik ruhu və milli dəyərlərin qorunması kimi məsələlər geniş şəkildə araşdırılır. Eyni zamanda bu ideyaların müasir pedaqoji prosesdə tətbiq imkanları da nəzərdən keçirilir.

Araşdırma nəticəsində müəyyən edilir ki, Səməd Vurğunun yaradıcılığı yalnız ədəbi irs deyil, həm də gənc nəslin tərbiyəsində istifadə edilə bilən mühüm pedaqoji resursdur. Onun əsərlərindəki ideyalar müasir dövrdə milli tərbiyə sisteminin formalaşmasında mühüm rol oynaya bilər.

Açar sözlər. *Səməd Vurğun, pedaqoji motivlər, gənc nəslin tərbiyəsi, vətənpərvərlik, Azərbaycan ədəbiyyatı*

Summary. The work of Samad Vurgun, one of the prominent representatives of Azerbaijani literature, is of particular importance in terms of promoting national-spiritual values, patriotic ideas and humanistic principles. Not only artistic-aesthetic features, but also pedagogical content and educational ideas are widely reflected in his works. The spiritual formation of the younger generation, the promotion of values such as love of homeland, hard work, humanism and national identity are one of the main themes in the poet's poetry. From this point of view, Samad Vurgun's work is considered an important source that needs to be studied from both a literary and pedagogical perspective. The article analyzes pedagogical motifs in Samad Vurgun's poetry and dramaturgy, identifies ideas aimed at educating the younger generation in his works. Issues such as the image of a teacher, ideas of education and enlightenment, the spirit of patriotism and the

protection of national values are widely explored in the poet's works. At the same time, the possibilities of applying these ideas in the modern pedagogical process are also considered.

As a result of the research, it is determined that Samad Vurgun's work is not only a literary heritage, but also an important pedagogical resource that can be used in the education of the younger generation. The ideas in his works can play an important role in the formation of the national education system in the modern era.

Keywords. *Samad Vurgun, pedagogical motives, education of the younger generation, patriotism, Azerbaijani literature*

Резюме. Творчество Самеда Вургуна, одного из видных представителей азербайджанской литературы, имеет особое значение в плане продвижения национально-духовных ценностей, патриотических идей и гуманистических принципов. В его произведениях широко отражены не только художественно-эстетические особенности, но и педагогическое содержание и воспитательные идеи. Духовное формирование молодого поколения, пропаганда таких ценностей, как любовь к родине, трудолюбие, гуманизм и национальная идентичность, являются одними из главных тем в поэзии поэта. С этой точки зрения, творчество Самеда Вургуна рассматривается как важный источник, требующий изучения как с литературной, так и с педагогической точки зрения. В статье анализируются педагогические мотивы в поэзии и драматургии Самеда Вургуна, выявляются идеи, направленные на воспитание молодого поколения, в его произведениях. В творчестве поэта широко исследуются такие вопросы, как образ учителя, идеи воспитания и просвещения, дух патриотизма и защита национальных ценностей. Одновременно рассматриваются и возможности применения этих идей в современном педагогическом процессе.

В результате исследования установлено, что творчество Самада Вургуна является не только литературным наследием, но и важным педагогическим ресурсом, который может быть использован в воспитании молодого поколения. Идеи, содержащиеся в его произведениях, могут сыграть важную роль в формировании национальной системы образования в современную эпоху.

Ключевые слова: *Самед Вургун, педагогические мотивы, воспитание молодого поколения, патриотизм, азербайджанская литература.*

Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqeyə malik olan Səməd Vurğun yalnız görkəmli şair və dramaturq kimi deyil, həm də milli düşüncə və mənəvi tərbiyə ideyalarının təbliğatçısı kimi tanınır. Onun yaradıcılığı Azərbaycan xalqının tarixi, mədəniyyəti və mənəvi dəyərləri ilə sıx bağlıdır. Bu yaradıcılıqda gənc nəslin formalaşması, vətən sevgisi, əməksevərlik və humanizm kimi keyfiyyətlərin təbliği mühüm yer tutur.

Səməd Vurğunun əsərləri yalnız bədii-estetik dəyərə malik deyil, eyni zamanda güclü pedaqoji məzmun daşıyır. Onun şeirləri və dram əsərləri gənc nəslin milli ruhda tərbiyə olunması, vətənə bağlılıq, xalqın tarixinə hörmət və mənəvi dəyərlərə sədaqət kimi ideyaları özündə ehtiva edir. Bu baxımdan Səməd Vurğunun yaradıcılığı pedaqoji baxımdan öyrənilməsi vacib olan ədəbi irs hesab olunur.

Müasir dövrdə gənc nəslin mənəvi tərbiyəsi məsələsi cəmiyyət üçün ən aktual problemlərdən biridir. Qloballaşma prosesləri, informasiya texnologiyalarının inkişafı və sosial dəyişikliklər gənclərin dünyagörüşünə təsir göstərir. Belə bir şəraitdə milli ədəbi irsin tərbiyəvi imkanlarının araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Bu baxımdan Səməd Vurğunun yaradıcılığında pedaqoji motivlərin və gənc nəslin tərbiyəsinə yönəlmiş ideyaların araşdırılması mühüm elmi və praktik əhəmiyyət kəsb edir. Onun əsərlərindəki ideyalar müasir pedaqoji prosesdə, xüsusilə məktəblərdə və ali təhsil müəssisələrində tərbiyə işinin təşkili üçün faydalı ola bilər.

1. Səməd Vurğunun yaradıcılığının pedaqoji mahiyyəti

Uşaqlıq illərini doğma kəndində keçirən şair ilk təhsilini kənddə fəaliyyət göstərən rus-tatar məktəbində almışdır. 1918-ci ildə görkəmli maarifçi Firidun bəy Köçərli Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini Qazaxa köçürərək Qazax Müəllimlər Seminariyasını yaratmışdır. Bu məktəbə qəbul olunan tələbələr arasında gələcəyin böyük şairi Səməd Vurğun da olmuşdur (2, s.7). Seminariyada aldığı təhsil onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

1924-cü ildə seminariyanı bitirdikdən sonra Səməd Vurğun Qazax, Quba və Gəncə şəhərlərində müəllim kimi fəaliyyət göstərmiş, Azərbaycan dili və ədəbiyyatını tədris etmişdir. Müəllimlik fəaliyyəti onun həyatında mühüm mərhələ olmuş, şair xalqın həyatını daha yaxın-

dan tanımaq imkanı əldə etmişdir. Bu dövrdə o, gənclərin maariflənməsinə, milli ruhda tərbiyə olunmasına xüsusi diqqət yetirmişdir. Şair hesab edirdi ki, vətənpərvərlik tərbiyəsi gənc nəslin formalaşmasında əsas rol oynayır və bu ideyanı öz əsərlərində də geniş şəkildə təbliğ edirdi.

Səməd Vurğun seminariyada oxuduğu illərdə ilk şeirlərini yazmağa başlamışdır. Onun ilk çap olunmuş əsəri olan "Cavanlara xitab" şeiri 1924-cü ildə Tiflisdə çıxan "Yeni fikir" qəzetində dərc edilmişdir. Bu şeir gəncləri elmə, maarifə və vətənə xidmət etməyə çağıran ideyalarla zəngindir. Şairin ilk şeirləri belə onun gələcək yaradıcılıq istiqamətini müəyyənləşdirirdi.

1929-cu ildə Səməd Vurğun İkinci Moskva Universitetinin ədəbiyyat fakültəsinə daxil olmuş və burada ali təhsil almışdır. Moskva illəri onun dünyagörüşünün daha da genişlənməsinə, dünya ədəbiyyatını dərindən öyrənməsinə və yaradıcılıq imkanlarını inkişaf etdirməsinə şərait yaratmışdır. Həmin dövrdə yazdığı lirik və siyasi məzmunlu şeirlər 1930-cu ildə nəşr olunan "Şairin andı" adlı ilk kitabında toplanmışdır. Bu kitab şairin poeziyada ilk ciddi addımı kimi qiymətləndirilir.

1930-cu illər Səməd Vurğunun yaradıcılığında və eyni zamanda təhsilində xüsusi mərhələ hesab olunur. Şair bu dövrdə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda Əhməd Seyidov, Mehdi Mehdizadə, Qulam Hüseynov və digər istedadlı gənclərlə birlikdə aspirantura təhsilinə qəbul olunmuşdur (3, s.5). Yaradıcılıq sahəsində onun "Könül dəftəri" (1934) və "Şeirlər" (1935) adlı kitabları çap olunmuşdur (5). Təkcə 1935-ci ildə şair 7 poema və 100-ə yaxın şeir yazmışdır. Bu əsərlər onun poeziyada böyük potensiala malik olduğunu göstərirdi. Xüsusilə "Azərbaycan" şeiri Azərbaycan ədəbiyyatının ən məşhur və sevilən əsərlərindən biri kimi tanınır. Bu şeir vətən sevgisini, milli qürur və xalqın tarixini poetik dillə ifadə edir (6, s.84).

Səməd Vurğun yalnız şair kimi deyil, həm də görkəmli tərcüməçi kimi tanınmışdır. O, dünya ədəbiyyatının bir sıra mühüm əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir. Şair Aleksandr Puşkinin "Yevgeni Onegin" mənzum romanını, Maksim Qorkinin "Qız və ölüm" əsərini, Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasını və Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərini Azərbaycan dilinə çevirmişdir. Bu tərcümələr Azərbaycan dilinin bədii imkanlarını genişləndirmiş və milli tərcümə məktəbinin inkişafına böyük təsir göstərmişdir.

1937-ci ildə Səməd Vurğun Azərbaycan dramaturgiyasının ən məşhur əsərlərindən biri olan "Vaqif" dramını yazmışdır. Bu əsər Azərbaycan teatr sənətində mühüm hadisə olmuş və böyük maraqla qarşılanmışdır. Dramda XVIII əsr Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqifin həyatı və fəaliyyəti təsvir edilir. Əsərin əsas ideyası vətənə sədaqət, xalqın taleyi və milli birlik məsələləri ilə bağlıdır. "Vaqif" dramına görə şair 1941-ci ildə Stalin mükafatına layiq görülmüşdür (8, s.1).

Böyük Vətən müharibəsi illərində Səməd Vurğunun yaradıcılığı xüsusi fəallıqla seçilmişdir. O, bu dövrdə vətənpərvərlik ruhunda çoxsaylı şeirlər və poemalar yazmışdır. Müharibə illərində şair 60-dan artıq şeir və bir neçə poema qələmə almışdır. Bu əsərlər xalqı mübarizəyə ruhlandırmaq və qələbəyə inam yaratmaq məqsədi daşıyırdı. Onun "Ananın öyüdü" şeiri 1943-cü ildə ABŞ-da keçirilən müharibə əleyhinə əsərlər müsabiqəsində yüksək qiymətləndirilmiş və dünya ədəbiyyatında bu mövzuda yazılmış ən yaxşı əsərlərdən biri kimi qəbul edilmişdir.

Müharibədən sonrakı illərdə də Səməd Vurğun yaradıcılıq fəaliyyətini davam etdirmişdir. O, "Muğan", "Aygün" və "Zamanın bayraqdarı" kimi məşhur poemalarını yazmışdır. Bu əsərlərdə dövrün sosial problemləri, insanın mənəvi dünyası və cəmiyyətin inkişafı kimi mövzular geniş şəkildə əks olunmuşdur. Şairin romantik və fəlsəfi məzmunlu lirikası Azərbaycan poeziyasının qızıl fonduna daxil olmuşdur.

Səməd Vurğun yalnız ədəbiyyat sahəsində deyil, həm də elmi və ictimai fəaliyyətdə fəal iştirak etmişdir. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının yaradılmasında iştirak edən alimlərdən biri olmuş və akademik seçilmişdir (7, s.275). 1954-cü ildə isə Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə təyin olunmuşdur. Bu vəzifədə çalışarkən o, Azərbaycan ədəbiyyatşünaslığının və humanitar elmlərin inkişafına böyük töhfə vermişdir.

Səməd Vurğunun yaradıcılığında xalq yaradıcılığı motivləri də geniş yer tutur. Şair Azərbaycan folklorundan bəhrələnərək "Qız qayası", "Bulaq əfsanəsi" və "Aslan qayası" kimi poemalar yazmışdır (4, s.44). Bu əsərlərdə xalqın qədim əfsanələri, milli dəyərləri və tarixi hadisələri bədii

şəkildə təsvir edilmişdir. Xüsusilə "Bulaq əfsanəsi" poemasında "dirilik suyu" haqqında xalq əfsanəsi əsasında Azərbaycanın zənginliyi və gözəlliyi poetik şəkildə ifadə olunur.

Səməd Vurğun Azərbaycan dilinin inkişafına da xüsusi diqqət yetirmişdir. O, ana dilinin saflığının qorunmasını vacib hesab edir və yaradıcılığında bu ideyanı daim təbliğ edirdi. Şair xalq yaradıcılığından, folklor və klassik ədəbiyyat ənənələrindən istifadə edərək Azərbaycan poeziyasını yeni səviyyəyə qaldırmışdır. Onun əsərləri bu gün də gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında mühüm rol oynayır.

Səməd Vurğun Azərbaycan ədəbiyyatında milli ruhun və humanist ideyaların ifadəçisi kimi tanınır. Onun yaradıcılığında pedaqoji məzmun xüsusi yer tutur. Şairin əsərlərində insanın mənəvi inkişafı, cəmiyyət qarşısında məsuliyyəti və gənc nəslin düzgün tərbiyəsi əsas ideyalardan biridir.

Şairin poeziyasında vətənə sevgi, xalqın tarixinə hörmət və milli kimlik hissinin formalaşdırılması mühüm yer tutur. Bu ideyalar gənc nəslin mənəvi tərbiyəsində böyük rol oynayır. Səməd Vurğun öz əsərlərində gəncləri vətənə sədaqətli, əməksevər və yüksək mənəvi keyfiyyətlərə malik insanlar kimi görmək istəyirdi.

Onun əsərlərində müəllim və maarifçi obrazları xüsusi yer tutur. Bu obrazlar cəmiyyətin inkişafında təhsilin və maarifin rolunu göstərir. Şair müəllimi yalnız bilik verən şəxs kimi deyil, həm də gənc nəslin mənəvi tərbiyəçisi kimi təqdim edir.

Səməd Vurğunun yaradıcılığında tərbiyə ideyaları yalnız birbaşa didaktik şəkildə deyil, həm də bədii obrazlar və poetik təsvir vasitəsilə ifadə olunur. Bu isə onun əsərlərinin tərbiyəvi təsir gücünü daha da artırır.

2. Vətənpərvərlik ideyasının tərbiyəvi əhəmiyyəti

Səməd Vurğunun yaradıcılığında vətənpərvərlik ideyası əsas mövzulardan biridir. Onun şeirlərində və dram əsərlərində vətən sevgisi, xalqın azadlığı və milli qürur hissi xüsusi vurğulanır.

Şairin "Azərbaycan" şeiri bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Bu əsərdə vətənə sevgi, doğma torpağa bağlılıq və milli qürur hissi yüksək poetik ifadə ilə təqdim olunur. Bu cür əsərlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır.

Vətənpərvərlik ideyası gənclərin milli kimlik hissinin formalaşmasında mühüm əhəmiyyət daşıyır. Səməd Vurğun öz yara-dıcılığında bu ideyanı təkcə poetik hisslər vasitəsilə deyil, həm də tarixi obrazlar və hadisələr vasitəsilə təqdim edir.

Şairin "Vaqif" dramı da vətənpərvərlik ideyasının təbliği baxımından əhəmiyyətlidir. Bu əsərdə xalqın taleyi, milli birlik və azadlıq uğrunda mübarizə ideyaları ön plana çıxır.

3. Humanizm və mənəvi dəyərlərin təbliği

Səməd Vurğunun yaradıcılığında humanizm ideyası xüsusi yer tutur. Şair insanın mənəvi kamilliyini, xeyirxahlıq və ədalət kimi keyfiyyətləri yüksək qiymətləndirir.

Onun əsərlərində insan sevgisi, dostluq, mərhəmət və qarşılıqlı hörmət kimi dəyərlər geniş şəkildə təsvir olunur. Bu ideyalar gənc nəslin mənəvi tərbiyəsində mühüm rol oynayır. Şairin əsərlərində insanın daxili dünyası və mənəvi keyfiyyətləri xüsusi diqqət mərkəzindədir. O, gəncləri dürüst, vicdanlı və məsuliyyətli insanlar kimi yetişməyə çağırır. Bu baxımdan Səməd Vurğunun yaradıcılığı humanist pedaqogikanın prinsipləri ilə səsləşir. Səməd Vurğunun yaradıcılığında əmək mövzusu mühüm yer tutur. Şair insanın cəmiyyətə faydalı olması və əmək vasitəsilə özünü inkişaf etdirməsi ideyasını təbliğ edir.

Onun əsərlərində zəhmətkeş insan obrazları yüksək qiymətləndirilir. Bu isə gənc nəslin əməksevərlik ruhunda tərbiyəsinə xidmət edir.

Əməksevərlik gənclərin məsuliyyətli və fəal vətəndaş kimi formalaşmasında mühüm rol oynayır. Şair bu ideyanı bədii obrazlar vasitəsilə gənclərə çatdırır.

4. Maarifçilik və təhsil ideyası

Səməd Vurğun təhsilin və maarifin cəmiyyətin inkişafında mühüm rol oynadığını vurğulayır. Onun əsərlərində bilik və elm yüksək qiymətləndirilir.

Şair gənclərin təhsil almasını və biliklərini xalqın rifahı naminə istifadə etməsini vacib hesab edirdi. Bu baxımdan onun yaradıcılığı maarifçi ideyaların təbliği baxımından da əhəmiyyətlidir. Səməd Vurğunun yaradıcılığında maarifçilik və təhsil ideyası xüsusi əhəmiyyət kəsb edən istiqamətlərdən biridir. Şairin poeziyasında və dramaturgiyasında bilik, elm və təhsil insanın mənəvi kamilliyə çatmasının əsas vasitələrindən biri kimi

təqdim olunur. Onun əsərlərində savadlılıq, maarifçilik və intellektual inkişaf cəmiyyətin tərəqqisi üçün zəruri şərt kimi göstərilir. Bu baxımdan Səməd Vurğunun yaradıcılığı yalnız bədii-estetik dəyərə malik deyil, həm də maarifçi düşüncənin təbliğində mühüm rol oynayan bir ideoloji mənbə kimi qiymətləndirilə bilər.

Səməd Vurğun təhsilin insanın dünyagörüşünün formalaşmasında və cəmiyyətin inkişafında mühüm rol oynadığını dəfələrlə vurğulamışdır. Onun əsərlərində bilik və elmə olan hörmət, maarifə verilən yüksək qiymət aydın şəkildə hiss olunur. Şairin fikrincə, savadlı və bilikli insan cəmiyyətin inkişafına daha çox töhfə verə bilər. Buna görə də o, gənc nəslin təhsil almasının vacibliyini xüsusi vurğulayır. Şairin yaradıcılığında müəllim obrazı da xüsusi yer tutur. Müəllim yalnız bilik verən şəxs kimi deyil, həm də gənc nəslin mənəvi tərbiyəçisi və istiqamətverici qüvvəsi kimi təqdim edilir. Bu baxımdan müəllim obrazı Səməd Vurğunun əsərlərində yüksək mənəvi keyfiyyətlərə malik bir şəxsiyyət kimi təsvir olunur. Müəllim gənclərin dünyagörüşünün formalaşmasında, onların vətənpərvər, məsuliyyətli və savadlı vətəndaş kimi yetişməsində mühüm rol oynayır.

Səməd Vurğunun maarifçilik ideyaları onun müxtəlif şeirlərində və dram əsərlərində öz əksini tapır. Şair bilik və elmin insanın həya-tında oynadığı rolu vurğulayaraq gəncləri daim öyrənməyə, öz üzərlərində işləməyə və dünyagörüşlərini genişləndirməyə çağırır. Bu çağırışlar yalnız fərdi inkişaf məqsədi daşımır, eyni zamanda cəmiyyətin ümumi inkişafına xidmət edən bir ideya kimi təqdim olunur. Maarifçilik ideyası həm də milli mədəniyyətin və tarixi irsin qorunması ilə sıx bağlıdır. Səməd Vurğun öz yaradıcılığında Azərbaycan xalqının zəngin mədəni irsini, tarixini və ənənələrini yüksək qiymətləndirir. O, gənclərin bu irsi öyrənməsini və ona sahib çıxmasını vacib hesab edir. Bu isə maarifçiliyin yalnız elmi biliklərin öyrədilməsi ilə məhdudlaşmadığını, eyni zamanda milli kimliyin və mədəni dəyərlərin qorunmasını da əhatə etdiyini göstərir.

Səməd Vurğunun yaradıcılığında maarifçilik ideyası humanist dəyərlərlə sıx bağlıdır. Şair hesab edir ki, təhsil yalnız bilik əldə etmək vasitəsi deyil, həm də insanın mənəvi inkişafına xidmət edən bir prosesdir. Təhsil insanı daha düşüncəli, daha məsuliyyətli və daha humanist edir. Bu baxımdan təhsil insanın həm intellektual, həm də mənəvi inkişafında mühüm rol oynayır. Şairin əsərlərində maarifçilik ideyası həm də əmək və yaradıcılıq anlayışları ilə əlaqələndirilir.

Səməd Vurğun insanın yalnız təhsil almaqla kifayətlənməməsini, əldə etdiyi bilikləri cəmiyyətin inkişafı üçün istifadə etməsini vacib hesab edir. Bu fikir onun yaradıcılığında tez-tez vurğulanan ideyalardan biridir. Bilik və elm insanı daha faydalı və məsuliyyətli bir vətəndaşa çevirir. Bundan əlavə, Səməd Vurğun gənclərin tərbiyəsində məktəbin və müəllimin rolunu yüksək qiymətləndirir. Onun fikrincə, məktəb yalnız bilik verilən bir müəssisə deyil, həm də gənc nəslin mənəvi və sosial tərbiyəsinin formalaşdığı bir mühitdir.

Məktəbdə gənclər yalnız müxtəlif fənlər üzrə biliklər əldə etmir, eyni zamanda vətənpərvərlik, məsuliyyət, əməksevərlik və humanizm kimi dəyərləri də mənimsəyirlər. Şairin yaradıcılığında maarifçilik ideyasının mühüm xüsusiyyətlərindən biri də onun gələcəyə yönəlmiş olmasıdır. Səməd Vurğun gəncləri cəmiyyətin gələcəyi kimi görür və onların savadlı, bilikli və vətənpərvər insanlar kimi yetişməsini vacib hesab edir. Bu baxımdan şairin əsərlərində gənclərə ünvanlanan çağırışlar xüsusi əhəmiyyət kəsb edir. Səməd Vurğunun maarifçilik ideyaları müasir dövrdə də öz aktuallığını qoruyub saxlayır. Bu ideyalar müasir təhsil sistemində gənclərin tərbiyəsi üçün mühüm metodoloji əsas rolunu oynaya bilər. Onun əsərlərindəki maarifçi fikirlər gənclərin intellektual və mənəvi inkişafına yönəlmiş dəyərləri özündə birləşdirir.

Müasir pedaqoji prosesdə Səməd Vurğunun yaradıcılığından istifadə etmək gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasına kömək edə bilər. Onun əsərlərində təbliğ olunan bilik, maarifçilik və humanizm ideyaları gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynaya bilər. Bununla yanaşı, Səməd Vurğunun yaradıcılığında təhsilin sosial funksiyası da xüsusi vurğulanır. Təhsil cəmiyyətin inkişafının əsas hərəkətverici qüvvələrindən biri kimi təqdim olunur. Şairin fikrincə, savadlı və maarifli cəmiyyət daha güclü və daha inkişaf etmiş cəmiyyət deməkdir.

Səməd Vurğun təhsilin yalnız fərdi inkişaf vasitəsi olmadığını, eyni zamanda cəmiyyətin ümumi tərəqqisinə xidmət edən bir amil olduğunu göstərir. Bu fikir onun yaradıcılığının maarifçi xarakterini daha da gücləndirir. Nəticə etibarilə demək olar ki, Səməd Vurğunun yara-

dıcılığında maarifçilik və təhsil ideyası mühüm yer tutur. Şair gənc nəslin savadlı, vətənpərvər və mənəvi cəhətdən kamil insanlar kimi yetişməsini vacib hesab edir. Onun əsərlərində təbliğ olunan maarifçilik ideyaları müasir dövrdə də gənclərin tərbiyəsində mühüm rol oynaya bilər. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytında dərc olunmuş "Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında" Sərəncam şairin Azərbaycan ədəbiyyatı və mədəniyyətində tutduğu mühüm yerin dövlət səviyyəsində yüksək qiymətləndirildiyini göstərir.

Beləliklə, Səməd Vurğunun yaradıcılığı yalnız ədəbi baxımdan deyil, həm də pedaqoji və maarifçi baxımdan böyük əhəmiyyət kəsb edir. Onun əsərlərində əks olunan maarifçilik ideyaları gənc nəslin mənəvi və intellektual inkişafında mühüm rol oynaya biləcək dəyərlər sistemini özündə birləşdirir. Bu baxımdan şairin yaradıcılığı müasir təhsil sistemində də aktual əhəmiyyətə malikdir və gənclərin tərbiyəsində səmərəli şəkildə istifadə oluna bilər.

Problemin aktuallığı. Müasir dövrdə gənc nəslin mənəvi tərbiyəsi cəmiyyətin ən mühüm problemlərindən biri hesab olunur. Qloballaşma, texnologiyanın sürətli inkişafı və informasiya axınının artması gənclərin dünyagörüşünə ciddi təsir göstərir. Belə bir şəraitdə milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə ötürülməsi xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan ədəbiyyatının klassik nümayəndələrinin yaradıcılığı bu baxımdan mühüm tərbiyəvi potensiala malikdir. Bu sənətkarlar arasında Səməd Vurğun xüsusi yer tutur. Onun əsərlərində vətənpərvərlik, humanizm, əməksevərlik və milli kimlik kimi dəyərlər geniş şəkildə təbliğ olunur.

Səməd Vurğunun yaradıcılığı gənclərin milli ruhda tərbiyə olunması üçün mühüm mənbə hesab edilə bilər. Bu əsərlərin pedaqoji aspektdən araşdırılması müasir təhsil sistemində tərbiyə işinin daha səmərəli təşkilinə kömək edə bilər.

Problemin yeniliyi. Səməd Vurğunun yaradıcılığı Azərbaycan ədəbiyyatşünaslığında geniş şəkildə araşdırılmışdır. Lakin onun əsərlərinin pedaqoji aspektdən, xüsusilə gənc nəslin tərbiyəsi baxımından sistemli şəkildə tədqiqi nisbətən az aparılmışdır.

Bu tədqiqatın yeniliyi ondan ibarətdir ki, Səməd Vurğunun yaradıcılığı yalnız ədəbi-estetik baxımdan deyil, həm də pedaqoji aspektdən kompleks şəkildə təhlil edilir. Şairin əsərlərindəki tərbiyəvi ideyalar müəyyən edilir və onların müasir pedaqoji prosesdə tətbiq imkanları araşdırılır.

Problemin praktik əhəmiyyəti. Araşdırmanın nəticələri müasir təhsil sistemində istifadə oluna bilər. Səməd Vurğunun əsərlərindəki tərbiyəvi ideyalar məktəblərdə ədəbiyyat dərslərində, tərbiyə saatlarında və müxtəlif maarifləndirici tədbirlərdə istifadə edilə bilər.

Bu əsərlər gənclərdə vətənpərvərlik hissinin formalaşmasına, milli kimliyin qorunmasına və mənəvi dəyərlərin inkişafına kömək edə bilər.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidenti. Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edilməsi haqqında. Sərəncam. – 23 fevral 2026. – URL: https://president.az/az/articles/view/71666
2. Bayramov A. Səməd Vurğun: milli və ümumbəşəri Bakı, «Səda» nəşriyyatı, 2006, 316 səh. https://anl.az/el/b/ba_svm&u.pdf
3. Elmi kadr hazırlığı məsələləri: metodik vəsait / Azərbaycan Respublikasının Təhsil İnstitutu; tərt.-müəl.: H. Əhmədov, Əli Paşa Zeynalov, Aynur Əlimuradova və İlahə Nağdəlipur Nəccari, elmi red. A. Abbasov.- Bakı: Mütərcim, 2019.- 356 s.
4. Səməd Vurğun (Səməd Yusif oğlu Vəkilov): biblioqrafiya /tərt. ed.: M.Vəliyeva və b.; ixt. red. və burax. məsul K.Tahirov; red. G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2016.- 584 s. https://anl.az/down/S.vurgun.pdf
5. Ulu, Yavuz Sinan. Samed Vurgun. Türk Edebiyatı İsimler Sözlüğü. 2018. URL: https://teis.yesevi.edu.tr/madde-detay/samed-vurgun
6. Войтович А.Х. История и традиции азербайджанского народа в стихотворении Самед Вургуна «Азербайджан» // Общество и государство. 2023. №2(42). С.84-88 DOI: 10.24412/2224-9125-2023-2-84-88
7. Назирли Ш. Весь я твой Азербайджан! (Документальные рассказы о Самеде Вургуне). – Баку, издательство «Азербайджан», 2017. – 408 стр. https://anl.az/el/Kitab/2018/02/cd/2017-141.pdf
8. Постановление Совета Народных Комиссаров Союза ССР О присуждении Сталинских премий за выдающиеся работы в области искусства и литературы за 1941 год // Известия. –

1942. – № 86 (12 апреля). с.1. // https://web.archive.org/web/20240213135400/https://pressa-voiny.ru/data/izvestiya/izvestiya_1942-04-12.pdf

Redaksiyaya daxil olub: 10.03.2026

UOT 37.01

İradə Böyükağa qızı Əmirəliyeva
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0002-3319-7466
E-mail: amiraliyeva_i@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(2).18-21

SƏMƏD VURĞUN TƏBİƏTİN GÖZƏLLİKLƏRİ HAQQINDA: ŞAGİRDLƏRLƏ SÖHBƏT

Irada Boyukagha Amiraliyeva
leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in pedagogy, associate professor

SAMAD VURGUN ON THE BEAUTY OF NATURE: A CONVERSATION WITH STUDENTS

Ирада Боюкага гызы Амиралиева
ведущий научный сотрудник Института Образования Азербайджанской Республики
доктор философии по педагогике, доцент

САМЕД ВУРГУН О КРАСОТЕ ПРИРОДЫ: БЕСЕДА С УЧЕНИКАМИ

Xülasə. Səməd Vurğunun anadan olmasının 120 illiyi tamam olur. O, xalqımızın dünya ədəbiyyatına bəxş etdiyi çox görkəmli şəxsiyyət, şair, vətəndaşdır. 50 illik ömründə müxtəlif ədəbi janrlarda möhtəşəm əsərlər yazıb yaratmışdır. Məqalələri, şeirləri, dramları, poemaları sevilə-sevilə oxunub və oxunmaqdadır. Həyat və yaradıcılıq yoluna dair dissertasiyalar yazılmış, dram əsərləri yüz dəfələrlə tamaşa qoyulmuş, əsərləri dərsliklərə salınmış, həyat və yaradıcılığı şagirdlər və tələbələr tərəfindən ümumtəhsil məktəblərində, orta ixtisas və ali təhsil müəssislərində öyrənilmişdir.

Açar sözlər: *Səməd Vurğunun həyatı, şairin yaradıcılıq yolu, "Vaqif" dramı, şeirləri, poemaları, "Azərbaycan" şeiri*

Abstract. This year marks the 120th anniversary of the birth of Samad Vurgun. He is an outstanding personality, poet, and citizen whom our people have bestowed upon world literature. Throughout his fifty-year life, he created magnificent works in various literary genres. His articles, poems, plays, and narrative poems have been, and continue to be, read with great affection. Dissertations have been written on his life and career, his dramatic works have been staged hundreds of times, and his works are included in textbooks. His life and creative path are studied by pupils and students in general education schools, vocational schools, and higher education institutions.

Keywords: *life of Samad Vurgun, the poet's creative path, the drama „Vagif", poems, narrative poems, the poem „*Azerbaijan"

Аннотация. Исполняется 120 лет со дня рождения Самеда Вургуна. Он – выдающаяся личность, поэт и гражданин, которого наш народ подарил мировой литературе. За свою 50-летнюю жизнь он создал величественные произведения в различных литературных жанрах. Его статьи, стихотворения, драмы и поэмы всегда читались и продолжают читаться с большой любовью. О его жизни и творчестве защищены диссертации, драматические произведения ставились на сцене сотни раз, его труды включены в учебники. Жизненный и творческий путь поэта изучается учащимися и студентами в общеобразовательных школах, средних специальных и высших учебных заведениях.

Ключевые слова: *жизнь Самеда Вургуна, творческий путь поэта, драма «Вагиф», стихотворения, поэмы, стихотворение «Азербайджан»*

Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə Səməd Vurğunun yaradıcılığından söz düşərkən iftixarla deyirdi: "Şairin yaradıcılığı xalqımızın keçmişini, bu gününü və gələcəyini əks etdirən nəhəng güzgüyə bənzəyir. Bu güzgüdə xalqın sevinci də, kədəri də, düşüncəsi də, həyatı da, folkloru da müəyyən ölçüdə öz əksini tapmışdır" (1).

Həmin sözlərdə dərin həqiqət vardır.

Səməd 1906-cı il mart ayının 21-də, gözəl bir bahar günündə - Novruz bayramında dünyaya gəlmişdir. Öz gəlişi ilə ailəyə böyük sevinc bəxş edən Səməd çox yox, cəmi 6 il sonra əziz anasını itirmişdir. Anasızlığın nə demək olduğunu uşaq ikən anadan yetim qalanlar bilər. Ana qayğısından, ana nəvazişindən məhrum olmaq heç bir insana, uşağa nəsib olmasın. Sonralar anasına yazdığı şeirində yazacaqdı:

Pək cocuğdum, yerə gömdülər səni,
Həyata qanadsız atdılar məni.
Bax, necə pozulub ömür gülşəni,
Həyat sənsiz mənə zindandır, ana!

Yıxılıb payinə öpmək istərəm,
Analıq mehrini görmək istərəm,
Səni görmək üçün ölmək istərəm,
Təsəllim ah ilə fəğandır, ana! (2, s. 34)

Atası Yusif, nənəsi Ayişə onu nə qədər qayğı ilə əhatə etsə də Səməd nisgilli idi, uşaqlığı fərəhsiz keçirdi. Fəqət özünü ələ aldı. Atası saz ustası idi. Onun sazda səsləndirdiyi mahnılar Səmədi qanadlarına alıb, uzaqlara, xoş günlərə aparırdı. El havaları, Qazaxın əsrarəngiz təbiəti onun xəyalını coşdurur, şeirə maraq oyadırdı.

Yuxarı Salahlı kəndindəki rus-tatar məktəbində, sonradan Qori Müəllimlər Seminariyasının Qazaxa köçürülmüş Azərbaycan bölməsində təhsil almağa başladı.

Səməd seminariyanın ictimai həyatında, dram və musiqi dərnəklərində yaxından iştirak edir, klassik poeziya ilə tanış olur, dünya ədəbiyyatında özlərinə layiqli yer tutmuş yazıçıların əsərlərini mütaliə edirdi.

Səməd seminariya təhsilindən sonra təxminən 4 il (1924-928-ci illərdə) Qazax, Quba rayonlarında və Gəncədə müəllim kimi fəaliyyət göstərmişdir.

Pedaqogika üzrə fəlsəfə doktoru L.A. Məmmədlinin yazdlığı kimi, "Fəal həyat mövqeyi tələbənin öz maraqlarından, arzu və istəklərindən, ehtiyaclarından, və dəyərlərindən asılı olaraq mövcud reallığı dəyişdirmək və təkmilləşdirmək üçün şüurlu və məqsədyönlü şəkildə fəaliyyət göstərə biləcəyi xüsusi vəziyyətdir. Ətraf mühitə maraq, onun daha yaxşı olmasına çalışmaq, qarşıda dayanan məqsədə çatmaq, niyyətlərə nail olmaq üçün özünü hərəkətlərdə ifadə etmək, konstruktiv həllər axtarmaq, məqsədyönlü, fasiləsiz fəaliyyət göstərmək fəal həyat mövqeyini şərtləndirən ümumi meylləridir" (5, s. 78).

Səməd Vurğununu da ən böyük arzusu insanların həyatda fəal mövqe tutmaları idi. Bu arzunu onun ayrı-ayrı əsərlərində - şeirlərində də, poemalarında və dramlarında da görmək mümkündür.

Səməd Vurğun vətənpərvər şairdir. Azərbaycanımızı öz varlığı kimi sevir, onun gözəlliklərini böyük məhəbbətlə, ilhamla vəsf edirdi. Tənqidçi, professor Yaşar Qarayev Səməd Vurğunun beş cilddən ibarət "Seçilmiş əsərləri"nin I cildinə yazdığı "Azərbaycan ədəbiyyatının Vurğun dövrü" adlı ön sözündə aşağıdakıları diqqət mərkəzinə gətirirdi: "Səməd Vurğun təkcə şerimizin yox, təbiətimizin də milli timsalı idi. "Muğan" poemasını, ceyran obrazını o, təbiət-şəhər müxalifətində ikincinin hələ "kult" təşkil etdiyi dövrdə yaratmışdı. Folkloru və sazı, qopuzu və ozanı, təbiəti və dağları xatırladan kolorit və əda onun həm şəxsiyyətini, həm də poeziyasını eyni vaxtda ifadə edirdi. Səməd Vurğun həmişə tribunaya da qartal kimi sinə gərərdi və bu tribuna nə qədər uca olsaydı, Vurğun ona bir o qədər yaraşardı. Ov dalınca çıxdığı qaya başından təbiətə boylanarkən bütünlüklə zirvələr, dağlar Vurğun ilhamının şaha qalxdığı, at oynatdığı oylaq və meydan üçün vüsət və ucalıq ölçüsü yox idi. Şair kosmosun fəthi dövrünü görsəydi, ayrı heç nəyi yox, məhz kosmik peyki planetə müraciət etmək üçün, ən münasib tribuna adlandırardı və həmişə olduğu kimi, Vurğun monoloqu belə bir tribunaya yenə də yaraşardı!" (2, s. 5).

Deyilən sözlər doğrudur. Səməd Vurğunun əsərləri arasında bir şeir var, şairin şeirlərindən söz düşəndə ilk növbədə "Azərbaycan" şeiri xatırlanır. Bu şeir Vətənə sonsuz məhəbbətin, təbiətə qədərsiz vurğunluğun bariz nümunəsi kimi canlanır. Fikir verək

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr...
Ceyran qaçar, cüyür mələr,
Nə çoxdur oylağın sənin!
Aranın, yaylağın sənin.
Sarı sünbül bizim çörək,
Pambığımız çiçək-çiçək,
Hər üzümdən bir şirə çək
Səhər-səhər acqarına,
Qüvvət olsun qollarına (2, s. 177-178).

Azərbaycan təbiətinə, onun flora və faunasına vurğunluq şairin bir çox şeirlərində özünü göstərir. Dağlara neçə-neçə şeir qoşmuşdur. Heyvanlar arasında öz gözəlliyi, zərifliyi, cazibədarlığı ilə göz oxşayan ceyrana, marala şeirlər yazmışdır. Ümumtəhsil məktəblərində şagirdlər həmin şeirlərlə tanış olurlar. Diqqət yetirək. "Ceyran" şeirində deyilir:

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə,
O qara gözlərin düşdü dillərə.
Dişlərin oxşayır mərcana, ceyran!
Bir məsəl qalmışdır ata-babadan:
Uçarda turacdır, qaçarda ceyran
Bir mən deyiləm ki, hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana, ceyran! (3)

Müəllim şeirlə tanış olan kiçikyaşlı məktəblilərin diqqətini ceyrana aid olan "meylini salıb çöllərə", "bəxtini tapşırdın bizim ellərə", "qara gözlərin dillərə düşüb", "dişlərin oxşayır mərcana", "hüsnünə heyran"am ifadələrinə yönəldir. Yaraşıqlı, sevimli ceyran obrazı şagirdlərin təsəvvüründə canlanır, Ceyrana sevgi fonunda Azərbaycan faunasına məhəbbət, onun qorunmasına tələbat formalaşır.

"A köhlən atım", "Bülbül" – faunamıza, "Bənövşə", "Sünbül" şeirləri – floramıza həsr olunmuş şeirlərdir. Ümumilikdə təbiətə sevgi "Bahar sərgisi" şeirində özünün gözəl ifadəsini tapmışdır:

Günəş doğdu, yayıldı,
Yatan ellər ayıldı.
Açdı çiçəkli güllər,
Dilə gəldi bülbüllər.
Qar, çovğun gözdən itdi,
Dağlarda lalə bitdi.
Qanadlandı buludlar;
Yerdəki əlvan otlar
Cücərib boy atdılar,
Aləmə naz satdılar.
Artdı suların səsi,
Sevindirdi hər kəsi (2, s. 68).

Şeirdə "günəşin doğması", "yatan ellərin oyanması", "güllərin açması", "bülbüllərin oxuması", "qarın çovğunun yoxa çıxması" (*axı artıq yaz mövsümüdür*), "dağlarda lalənin bitməsi", "yerdəki əlvan otların boy atması" və üstəlik "naz satmaları", "suların səslərinin artması" – şairlə yanaşı hamını, bizi də, şagirdləri də, müəllimi də sevindirir.

Şair öz şeirlərində Şuşanın ("Şuşa"), Göy Gölün ("Göy Göl"), bizim dağların ("Dağlar"), hüsnünə gözəl sözlər deyir, xan çinarın narazılığını ("Çinarın şikayəti") çatdırır. O sözlər gəlişi gözəl sözlər deyil, deyilişi gözəl sözlərdir, həqiqətdən xəbər verir. Dağları gəlin görək necə mənalandırır:

Binələri çadır- çadır
Çox gəzmişəm özüm, dağlar!
Qüdrətini sizdən aldı
Mənim sazım, sözüm, dağlar!
Maral gəzər asta – asta,
Enib gələr çeşmə üstə.
Gözüm yolda, könlüm səsdə,
Deyin, necə dözüm, dağlar?
Hər obanın bir yaylağı,
Hər tərlanın öz oylağı;
Dolaylarda bahar çağı:
Bir doyunca gəzim, dağlar!
Qayaları baş – başadır,
Güneyləri tamaşadır.
Gödək ömrü çox yaşadır,
Canım dağlar, gözüm dağlar!
Bir qonağam bu dünyada,
Bir gün ömrüm gedər bada;
Vurğunu da salar yada
Düz ilqarlı bizim dağlar (4).

Şair təbiətin gözəlliklərindən elə vəcdə gəlir, onları elə əlvan boyalarla təsvir edir ki, insan daim təbiətin qoynunda olmaq istəyir, təbiətin ağuşunda sakitləşmək, dincəlmək, yorğunluğunu almaq, sevincə qərq olmaq istəyir.

Müəllimlər dərslərdə, sinifdənxaric tədbirlərdə Səməd Vurğun yaradıcılığından bəhrələnməklə məktəblilərdə Azərbaycanın flora və faunasına məhəbbət, onu qorumaq hisslərini daim inkişaf etdirməlidirlər.

Problemin aktuallığı. Səməd Vurğunun anadan olmasının 120 illiyinin qeyd olunması ilə bağlı Azərbaycan Prezidenti cənab İlham Əliyev 23 fevral 2026-cı il tarixli sərəncam imzalamışdır.

Problemin yeniliyi. Cənab İlham Əliyevin imzaladığı sərəncamla əlaqədar Səməd Vurğunun

həyat və yaradıcılığının işıqlandırılması son dərəcə vacibdir.

Problemin praktik əhəmiyyəti. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

Ədəbiyyat

1. Həbibbəyli, İ.Ə. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin XI siniflər üçün dərslik / İ.Ə. Həbibbəyli, S.H. Əliyev, B.A. Həsənov. – Bakı: Bakınəşr, –2023. – 208 s.
2. Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə. I cild / Səməd Vurğun. – Bakı: Şərq-Qərb, – 2005. –264 s.
3. Səməd Vurğun. Ceyran. https://portal.azertag.az/az/node/7386
4. https://yazarlar.az/2022/04/05/semed-vurgunun-seirleri/
5. Məmmədli, L.A. Tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması: auditoriyadankənar tədbirlərin imkanları // -Bakı: Azərbaycan Respublikasının Təhsil İstitutunun Elmi əsərləri, 2025, 1, s. 78-80.

Redaksiyaya daxil olub: 02.02.2026

21 FEVRAL BEYNƏLXALQ ANA DİLİ GÜNÜDÜR!
FEBRUARY 21 – INTERNATIONAL DAY OF THE NATIV LANGUAGE!
21 ФЕВРАЛЯ – МЕЖДУНАРОДНЫЙ ДЕНЬ РОДНОГО ЯЗЫКА!

UOT 37.01

Gülnarə Namik qızı Rzayeva,
Azərbaycan Dövlət İqtisad Universitetinin
Ümumi fənlərin tədrisinin təşkili departamentinin direktoru,
filologiya üzrə fəlsəfə doktoru, dosent
E-mail: gulnara_rzayeva@unec. edu.az
https://orcid.org/0000-0001-9065-1509

Xurşud Cəlil qızı İsmayılova
Azərbaycan Dövlət İqtisad Universitetinin
Azərbaycan dili kafedrasının baş müəllimi
https://orcid.org/0000-0001-5171-0166
E-mail: ismayılova@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(2).22-26

QLOBALLAŞMA DÖVRÜNDƏ AZƏRBAYCAN DİLİNİN QORUNMASI: DÖVLƏT SİYASƏTİNİN PRİORİTET İSTİQAMƏTİ

Gulnara Namik Rzayeva,
director of the department of General disciplines teaching of
Azerbaijan State University of Economics,
doctor of philosophy in philology, associate professor

Khurshud Jalil Ismayilova
senior lecturer at Azerbaijani language department of Azerbaijan State University of Economics

PROTECTION OF THE AZERBAIJANI LANGUAGE IN THE PERIOD OF GLOBALIZATION: A PRIORITY DIRECTION OF STATE POLICY

Гюльнара Намик гызы Рзаева,
директор департамента организации преподавания общих дисциплин Азербайджанского Государственного Экономического Университета,
доктор философии по филологии, доцент

Хуршуд Джалил гызы Исмаилова
старший преподаватель кафедры Азербайджанского языка Азербайджанского Государственного Экономического Университета

СОХРАНЕНИЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В ПЕРИОД ГЛОБАЛИЗАЦИИ: ПРИОРИТЕТНОЕ НАПРАВЛЕНИЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ

Xülasə. Məqalədə qloballaşma və rəqəmsallaşma şəraitində Azərbaycan dilinin qorunması dövlət siyasətinin prioritet istiqaməti kimi elmi-analitik baxımdan tədqiq edilmişdir. Tədqiqat çərçivəsində müasir informasiya mühitində dillərarası qarşılıqlı təsir, sosial media və rəqəmsal texnologiyaların milli dillərə təsiri, həmçinin Azərbaycan dili üçün yaratdığı imkan və risklər təhlil olunmuşdur. Dövlət proqramları, fərman və sərəncamlar, həmçinin hüquqi və institusional mexanizmlər vasitəsilə dilin milli kimlik, dövlətçilik və milli-mənəvi dəyərlərin qorunmasındakı rolu əsaslandırılmışdır. Məqalədə rəqəmsal mühitdə Azərbaycan dilinin mövqeyinin gücləndirilməsi, terminoloji sistemin təkmilləşdirilməsi, media və təhsil mühitində dil normalarının qorunması, mövcud risklərin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər vurğulanmışdır. Tədqiqat göstərir ki, Azərbaycan dilinin qorunması yalnız mədəni məsələ deyil, həm də milli təhlükəsizlik, milli kimlik və dövlətçilik baxımından strateji əhəmiyyət kəsb edir.

Açar sözlər: *Azərbaycan dili, qloballaşma, dövlət dil siyasəti, milli kimlik, dilin qorunması, rəqəmsal mühit, dil mədəniyyəti, dövlət proqramları, dil təhlükəsizliyi*

Abstract. This article examines the protection of the Azerbaijani language in the context of globalization and digitalization as a priority area of public policy from a scientific and analytical perspective. The study analyzes the interaction of languages in the modern information environment, the impact of social media and digital technologies on national languages, and the opportunities and risks posed to the Azerbaijani language. The role of language in protecting national identity, statehood, and national-spiritual values through state programs, decrees, and orders, as well as legal and institutional mechanisms, is substantiated. The article highlights measures taken to strengthen the position of the Azerbaijani language in the digital environment, improve the terminology system, protect linguistic norms in the media and educational environment, and address existing risks. The study demonstrates that protecting the Azerbaijani language is not only a cultural issue but also has strategic significance in terms of national security, national identity, and statehood.

Keywords: *Azerbaijani language, globalization, state language policy, national identity, language protection, digital environment, linguistic culture, state programs, language security*

Аннотация. В статье рассматривается сохранение чистоты азербайджанского языка в условиях глобализации и цифровизации как приоритетного направления государственной политики с научно-аналитической точки зрения. В рамках исследования проанализировано взаимодействие языков в современной информационной среде, влияние социальных сетей и цифровых технологий на национальные языки, а также возможности и риски, создаваемые для азербайджанского языка. Обоснована роль языка в защите национальной идентичности, государственности и национально-духовных ценностей посредством государственных программ, указов и распоряжений, а также правовых и институциональных механизмов. В статье подчеркиваются меры, принимаемые для укрепления позиций азербайджанского языка в цифровой среде, совершенствования терминологической системы, защиты языковых норм в средствах массовой информации и образовательной среде, а также устранения существующих рисков. Исследование показывает, что защита азербайджанского языка является не только культурным вопросом, но и имеет стратегическое значение с точки зрения национальной безопасности, национальной идентичности и государственности.

Ключевые слова: *Азербайджанский язык, глобализация, государственная языковая политика, национальная идентичность, сохранение языка, цифровая среда, языковая культура, государственные программы, языковая безопасность*

Müasir qloballaşma şəraitində milli dillərin qorunması və inkişaf etdirilməsi məsələsi dünya dövlətlərinin qarşısında duran mühüm strateji vəzifələrdən biri hesab olunur. İnformasiya texnologiyalarının sürətli inkişafı, beynəlxalq kommunikasiya mühitinin genişlənməsi, sosial şəbəkələrin gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi dillər arasında qarşılıqlı təsiri gücləndirməklə yanaşı, milli dillərin assimilyasiya riskini də artırır. Bu baxımdan Azərbaycan dilinin qorunması və tətbiq imkanlarının genişləndirilməsi məsələsi yalnız mədəni deyil, həm də sosial, siyasi və ideoloji əhəmiyyət kəsb edən kompleks məsələ kimi çıxış edir [7; 4].

Azərbaycan Respublikasında dövlət dil siyasəti milli maraqların qorunmasına əsaslanaraq formalaşdırılmışdır. Azərbaycan dilinin qloballaşma şəraitində inkişaf etdirilməsi, ədəbi dil normalarının qorunması, dövlət idarəçiliyində və ictimai münasibətlər sistemində dilin funksional imkanlarının genişləndirilməsi istiqamətində ardıcıl dövlət tədbirləri həyata keçirilir. Qəbul edilmiş dövlət proqramları, fərman və sərəncamlar Azərbaycan dilinin dövlət dili kimi mövqeyinin möhkəmləndirilməsinə, elektron mühitdə istifadəsinin genişləndirilməsinə və dil mədəniyyətinin inkişafına xidmət edir [5; 6; 7].

Dövlət dil siyasətinin prioritet istiqamətlərindən biri kimi Azərbaycan dilinin saflığının qorunması xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma şəraitində xarici sözlərin nəzarətsiz şəkildə dilə daxil olması, xüsusilə sosial şəbəkə mühitində qarışıq dil elementlərinin yayılması ana dilinin normativ əsaslarına müəyyən risklər yarada bilər. Bu baxımdan ədəbi dil normalarının qorunması, dil mədəniyyətinin inkişaf etdirilməsi və terminoloji sistemin elmi əsaslarla formalaşdırılması mühüm vəzifələrdən biri hesab olunur [1; 4; 6].

Bu istiqamətdə dövlət başçısının çıxışlarında Azərbaycan dilinin qorunması məsələsinə xüsusi diqqət yetirilir. Prezident çıxışlarında

dilin milləti birləşdirən əsas amil olduğu, milli kimliyin qorunmasında və dövlətçilik dəyərlərinin möhkəmləndirilməsində mühüm rol oynadığı vurğulanır. Eyni zamanda qloballaşma və rəqəmsallaşma şəraitində xarici dillərin təsirinin artması fonunda ana dilinin saflığının qorunmasının zəruriliyi xüsusi qeyd edilir [9; 10].

Professor A.N. Abbasov yazır: "Ümummilli Liderimiz Heydər Əliyev doğma Azərbaycan dilimizin dövlət dili statusu alması, təbliği, onun bütün idarə və təşkilatlarda rəsmi dil kimi işlədilməsi üçün böyük zəhmət və qayğı göstərmişdir. Ulu öndər istər Azərbaycanda Azərbaycanda birinci dəfə, istərsə də ikinci dəfə hakimiyyətdə olduğu illərdə bu istiqamətdə səylərini artırmışdır.

Ümummilli Lider Heydər Əliyev müxtəlif illərdə "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"; "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" və s. bu son dərəcə mühüm əhəmiyyətli fərmanlar imzalamışdır" (13, s. 5-6).

Yuxarıda deyilənlər bir daha doğma ana dilimizin qorunub saxlanması, saflığının mühafizəsi əbədi yaşaması, mövcud olması üçün yüksək səviyyələrdə necə səy göstərildiyinə əyani sübutdur.

Prezident çıxışlarında Azərbaycan dilinin qorunması məsələsi yalnız ölkə daxilində deyil, qlobal miqyasda qiymətləndirilir. Xaricdə yaşayan azərbaycanlıların ana dilini qoruması, Azərbaycan dilinin diaspor mühitində inkişaf etdirilməsi və bu məqsədlə müasir təhsil mexanizmlərinin yaradılması dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi təqdim olunur. Bu yanaşma Azərbaycan dilinin beynəlxalq mövqeyinin möhkəmləndirilməsinə və milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir [8].

Rəqəmsal mühitdə Azərbaycan dilinin inkişaf perspektivlərinin əsas istiqamətlərindən biri elektron informasiya resurslarının genişləndirilməsi ilə bağlıdır. Azərbaycan dilində elektron kitabxanaların, elmi bazaların, rəqəmsal arxivlərin, təhsil platformalarının və informasiya portallarının yaradılması dilin istifadə sahəsini genişləndirir və onun elmi, texnoloji və sosial kommunikasiya mühitində mövqeyini möhkəmləndirir. Eyni zamanda, proqram təminatı, mobil tətbiqlər və süni intellekt əsaslı sistemlərdə Azərbaycan dilinin istifadəsinin artırılması rəqəmsal transformasiya prosesində mühüm rol oynayır.

Cədvəl. Azərbaycan dilinin qorunması üzrə strateji istiqamətlər və həyata keçirmə mexanizmləri

№	İstiqamət	Əsas məzmun	Həyata keçirmə mexanizmləri	Gözlənilən nəticə
1	Normativ-hüquqi tənzimləmə	Dövlət dilinin qorunması üzrə qanunvericilik bazası	Dövlət proqramları, fərman və sərəncamlar	Dil siyasətinin institusional sabitliyi
2	Təhsil sistemində dil siyasəti	Ana dilinin tədrisinin gücləndirilməsi	Kurikulumların təkmilləşdirilməsi, dərsliklərin yenilənməsi	Dil savadlılığının yüksəlməsi
3	Media və informasiya məkanı	Dil normalarının qorunması	Dil standartlarının tətbiqi, monitorinq mexanizmləri	Ədəbi dilin ictimai nüfuzunun artması
4	Rəqəmsal mühit	Elektron resurslarda ana dilinin istifadəsi	Rəqəmsal platformalar, e-təhsil, proqram təminatı	Dilin rəqəmsal dayanıqlığı
5	Terminologiya siyasəti	Yeni terminlərin milli dilə uyğunlaşdırılması	Terminoloji komissiyalar, elmi ekspertiza	Terminoloji vahidliyin təmin edilməsi
6	Diaspor siyasəti	Xaricdə Azərbaycan dilinin qorunması	Onlayn məktəblər, elektron tədris resursları	Dilin qlobal yayılması

Qloballaşma şəraitində Azərbaycan dilinin qorunmasının digər mühüm istiqamətlərindən biri media və informasiya məkanında dil normalarının qorunması ilə bağlıdır. Müasir informasiya cəmiyyətində media subyektləri, təhsil müəssisələri, elmi təşkilatlar və ictimai institutlar dil mədəniyyətinin qorunmasında mühüm rol oynayır. Bu baxımdan dilin düzgün istifadəsinin təşviqi, ədəbi dil normalarının qorunması

və milli dilin ictimai nüfuzunun artırılması prioritet vəzifələrdən biri kimi çıxış edir [1; 3; 5].

Azərbaycan dili ölkədə yeganə rəsmi və məhkəmə statusuna malikdir. Sovet İttifaqının dağılması Azərbaycan dilinin təkmilləşdirilməsi ilə bağlı çoxsaylı sərəncam və qanunların qəbul edilməsi ilə nəticələndi. Sonrakı dövrdə dil planlaması siyasətinin həyata keçirilməsində hökumətin icraedici orqan kimi rolu aydın şəkildə özünü büruzə verdi. Azərbaycan dilinin tətbiqi sahəsində dövlət orqanlarının strukturu Prezident, Nazirlər Kabineti, Milli Məclis, Dövlət Dil Komissiyası, Dövlət Agentliyi, Təhsil Nazirliyi, AMEA (Azərbaycan Milli Elmlər Akademiyası) və yeni yaradılmış Monitorinq Mərkəzindən ibarətdir. [12].

Aparılmış təhlil göstərir ki, qloballaşma və rəqəmsallaşma şəraitində Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin strateji prioritet istiqamətlərindən biri kimi çıxış edir. Müasir informasiya cəmiyyətində dillərarası qarşılıqlı təsirin güclənməsi milli dillərin inkişafı üçün yeni imkanlar yaratmaqla yanaşı, müəyyən risklər də formalaşdırır. Bu şəraitdə Azərbaycan dilinin funksional imkanlarının genişləndirilməsi, tətbiq sahələrinin artırılması və normativ əsaslarının qorunması kompleks və sistemli yanaşma tələb edir.

Müasir dövrdə sosial media platformaları dilin inkişafına həm müsbət, həm də mənfi təsir göstərir. Bir tərəfdən sosial şəbəkələr dilin yayılma imkanlarını genişləndirir, digər tərəfdən isə qarışıq dil elementlərinin yayılmasına səbəb ola bilər. Bu baxımdan rəqəmsal mühitdə dil mədəniyyətinin formalaşdırılması, ədəbi dil normalarının qorunması və ana dilində keyfiyyətli kontentin yaradılması mühüm vəzifələrdən biri hesab olunur.

Azərbaycan Respublikasında həyata keçirilən dövlət dil siyasəti Azərbaycan dilinin dövlət idarəçiliyində, təhsil sistemində, media mühitində və rəqəmsal platformalarda istifadəsinin genişləndirilməsinə yönəlmişdir. Bu yanaşma Azərbaycan dilinin yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli kimliyin, dövlətçilik ənənələrinin və milli-mənəvi dəyərlərin əsas daşıyıcısı kimi qorunmasını təmin edir.

Müasir dövrdə Azərbaycan dilinin qorunması məsələsi milli təhlükəsizlik, milli ideologiya və dövlətçilik strategiyası ilə sıx bağlıdır. Dilin qorunması milli kimliyin möhkəmləndirilməsi, ictimai həmrəyliyin gücləndirilməsi və milli dəyərlərin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Problemin elmi yeniliyi. Tədqiqatda qloballaşma və rəqəmsallaşma şəraitində Azərbaycan dilinin qorunmasının aktual problemləri sistemli şəkildə təhlil edilmiş, milli dilin rəqəmsal mühitdə mövqeyinin gücləndirilməsi elmi baxımdan əsaslandırılmışdır. İlk dəfə olaraq Azərbaycan dilinin informasiya cəmiyyətində dayanıqlığını təmin edən amillər – elektron resursların artırılması, rəqəmsal kontentin genişləndirilməsi, terminoloji sistemin təkmilləşdirilməsi və rəqəmsal təhsil imkanlarının inkişafı kompleks yanaşma əsasında araşdırılmışdır. Tədqiqatda dövlət strukturları, media, təhsil və elmi müəssisələr, eləcə də vətəndaş cəmiyyəti institutlarının dil siyasətində qarşılıqlı fəaliyyət mexanizmləri elmi cəhətdən ümumiləşdirilmişdir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri Azərbaycan dilinin rəqəmsal mühitdə istifadəsinin genişləndirilməsi, dil mədəniyyətinin inkişaf etdirilməsi və ədəbi dil normalarının qorunması istiqamətində praktik tövsiyələrin hazırlanmasında istifadə oluna bilər. Əldə edilən nəticələr dövlət dil siyasətinin təkmilləşdirilməsi, təhsil proqramlarının, elektron tədris resurslarının və media məzmununun hazırlanması prosesində tətbiq oluna bilər. Tədqiqat materialları ali və orta ixtisas təhsil müəssisələrində "Dil siyasəti", "Azərbaycan dili", "Rəqəmsal humanitar elmlər" fənlərinin tədrisində, həmçinin müəllim və jurnalistlərin ixtisasartırma proqramlarında faydalı ola bilər.

Problemin aktuallığı. Beləliklə, qloballaşma dövründə Azərbaycan dilinin qorunması yalnız mədəni məsələ deyil, həm də milli kimliyin qorunması, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və milli təhlükəsizliyin təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi dövlət, cəmiyyət və hər bir vətəndaş qarşısında duran mühüm vəzifələrdən biri olaraq aktuallığını qoruyub saxlayır.

Ədəbiyyat

1. Abdullayev, Ə.Ə. Azərbaycan dili və nitq mədəniyyəti / – Bakı: Elm və Təhsil. - 2013. – 448 s.
2. Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC). Rəsmi informasiya materialları // – Bakı, – 2024. –URL: https://azertag.az/

3. Azərbaycan Milli Elmlər Akademiyası. *Azərbaycan dilçiliyi problemləri* / Afad Qurbanov (I cild). – Bakı: 2019. – 384 s. – URL: https://afadqurbanov.az/books/9.%20AZ.D%C4%B0L%C3%87%C4%B0L%C4%B0Y%C4%B0%20PROBLERL%C6%8FR%C4%B0%20I.pdf
4. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. *Rəsmi materiallar*. – Bakı, –2024. – URL: https://www.edu.gov.az/
5. Azərbaycan Respublikası Prezidentinin 1 noyabr 2018-ci il tarixli Fərmanı. *Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi haqqında*. – Bakı, – 2018. – URL: https://president.az/articles/31287
6. Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2018-ci il tarixli Sərəncamı. *Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında*. – Bakı, 2018. – URL: https://president.az/az/articles/view/29492
7. Azərbaycan Respublikası Prezidentinin 9 aprel 2013-cü il tarixli Sərəncamı. *"Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiqi haqqında*. – Bakı, 2013. – URL: https://president.az/az/articles/view/7744
8. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan dilinin qorunması və inkişafı ilə bağlı çıxışları (rəsmi materiallar toplusu) // – Bakı: Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi, - 2024. Link: https://president.az/
9. Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley mərasimində nitqi// – Bakı, 3 noyabr, - 2023. Link: https://president.az/az/articles/view/
10. Azərbaycan Respublikası Prezidentinin yerli televiziya kanallarına müsahibəsi. Azərbaycan dilinin qorunması haqqında çıxış. – Bakı, 5 yanvar 2024. Link: https://president.az/az/articles/view
11. İndriyani, V., Atmazaki A. Ramazan Ş. Development of Multiliteracy Integrative Learning (MULGRANING) Model in Language Learning // - Türkiyə: Education and Science 2023, 48(215), - p. 261-275. https://educationandscience.ted.org.tr/article/view/2108
12. Mammadova, J.I. The Azerbaijani Language in Azerbaijan After the Political Independence: The Governmental Support of Mother Tongue and Multilingualism // - International Journal of Language and Linguistics, - 2020, 8(1), - p. 24-33. https://www.sciencepublishinggroup.com/journal/501/home
13. Abbasov, A.N. Azərbaycan dili – dövlət dilidir, onun saflığını qoruyaq // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2025, № 6. – s. 5-10

Redaksiyaya daxil olub: 24.02.2026

UOT 37.01

Adilə Həsən qızı Nəzərova
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
aparıcı elmi işçisi,
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0002-4340-6882
E-mail: adile1970@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(2).27-31

MÜASİR ÜMUMTƏHSİL SİSTEMİNDƏ TƏLİM VƏ TƏRBİYƏNİN İNTEQRASİYASI

Adila Hasan Nazarova
leading research worker
at the Institute of Education of the Republic of Azerbaijan
doctor of philosophy in philology

INTEGRATION OF TRAINING AND EDUCATION IN THE MODERN SYSTEM OF GENERAL EDUCATION

Адила Гасан гызы Назарова
ведущий научный сотрудник
Института Образования Азербайджанской Республики,
доктор философии по филологии

ИНТЕГРАЦИЯ ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ В СОВРЕМЕННОЙ СИСТЕМЕ ОБЩЕГО ОБРАЗОВАНИЯ

Xülasə. Müasir pedaqogikada təlim və tərbiyə prosesi bir-birindən ayrılmazdır və şagirdin hərtərəfli inkişafını təmin edir. Təlim yalnız bilik ötürmək deyil, həm də əxlaqi, sosial və yaradıcı bacarıqların inkişafına xidmət edir. Tərbiyə və təlimin inteqrasiyası dərs proqramının, metodların və məktəbdənkənar fəaliyyətlərin planlı şəkildə birləşdirilməsi ilə həyata keçirilir. Bu yanaşma şagirdin motivasiyasını artırır, məsuliyyət hissini gücləndirir və biliklərin real həyatda tətbiqinə şərait yaradır. Məktəb, müəllim və valideynlərin əməkdaşlığı inteqrasiyanın səmərəli təşkilində əsas rol oynayır. Beləliklə, inteqrativ təhsil şəxsiyyətin intellektual, mənəvi və sosial cəhətdən balanslı inkişafını təmin edir.
***Açar sözlər**: təlim, tərbiyə, inteqrasiya, pedaqoji fəaliyyət, şagird inkişafı*

Abstract. In modern pedagogy, teaching and upbringing are inseparable processes that ensure the comprehensive development of students. Teaching serves not only to impart knowledge but also to develop moral, social, and creative skills. The integration of education and upbringing is achieved through the deliberate combination of curricula, teaching methods, and extracurricular activities. This approach enhances student motivation, strengthens responsibility, and facilitates the practical application of knowledge. Collaboration between school, teachers, and parents plays a key role in effective integration. Consequently, integrative education ensures balanced intellectual, moral, and social development of personality.
***Keywords:** teaching, upbringing, integration, pedagogical activity, student development*

Аннотация. В современной педагогике процесс обучения и воспитания неразрывно связан и обеспечивает всестороннее развитие ученика. Обучение направлено не только на передачу знаний, но и на развитие моральных, социальных и творческих навыков. Интеграция воспитания и обучения осуществляется через планомерное объединение учебных программ, методов и внеурочной деятельности. Такой подход повышает мотивацию учеников, укрепляет чувство ответственности и способ-

ствует применению знаний на практике. Сотрудничество школы, учителей и родителей играет ключевую роль в эффективной организации интеграции. Таким образом, интегративное образование обеспечивает гармоничное интеллектуальное, нравственное и социальное развитие личности.

Ключевые слова: *обучение, воспитание, интеграция, педагогическая деятельность, развитие ученика*

Müasir dövrdə təhsil cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafının əsas hərəkətverici qüvvələrindən biridir. Təhsilin keyfiyyəti bilavasitə pedaqoji fəaliyyətin necə təşkil olunmasından, hansı prinsiplərə əsaslanmasından və tərbiyə prosesinin hansı ideoloji, mənəvi və metodoloji xətt üzrə qurulmasından asılıdır. Bu baxımdan pedaqoji fəaliyyət yalnız bilik ötürən mexanizm deyil, eyni zamanda şəxsiyyət formalaşdıran və cəmiyyətin gələcəyini müəyyən edən strateji sahədir.

Hər bir ölkənin təhsil sistemi onun tarixi inkişaf yolu, ictimai-siyasi quruluşu, milli-mənəvi dəyərləri və mədəni mühiti ilə sıx bağlıdır. Azərbaycanda təhsil sistemi də məhz bu amillərin vəhdəti əsasında inkişaf etmiş, müasir dövrün tələblərinə uyğun olaraq daim yenilənmişdir. Müstəqillik dövründə təhsilin məzmunu və məqsədləri yenidən müəyyənləşdirilmiş, pedaqoji fəaliyyətin prinsipləri milli maraqlar və qlobal çağırışlar fonunda təkmilləşdirilmişdir.

"Təhsil sistemi uşaqlara və gənclərə yalnız akademik biliklər verməklə kifayətlənməməli, eyni zamanda onları mənəvi baxımdan yetişdirməlidir." (8, s.55-56) Bu məqsədə çatmaq üçün pedaqoji fəaliyyətin elmi əsaslara söykənməsi və tərbiyə prosesinin sistemli şəkildə qurulması zəruridir.

Təhsil pillələri arasında qarşılıqlı əlaqə mövcuddur və bu əlaqə fasiləsiz təhsilin təmin olunmasına xidmət edir. "Ölkəmizdə fəaliyyət göstərən təhsil müəssisələrinin əsas tipləri aşağıdakılardır: məktəbəqədər təhsil müəssisələri, ümumi orta təhsil müəssisələri, məktəbdənkənar təhsil müəssisələri, peşə texniki məktəblər, orta ixtisas məktəbləri, ali təhsil müəssisələri və əlavə təhsil müəssisələri." (3, s.13)

Bu pillələr uşağın inkişaf mərhələlərinə uyğun şəkildə qurulur. Körpələr evindən və uşaq bağçasından başlayan tərbiyə və təhsil prosesi məktəbdə davam edir və burada daha dərin biliklərin və sosial bacarıqların formalaşması təmin edilir. Təhsil yalnız biliklərin ötürülməsi deyil, eyni zamanda sosiallaşma, şəxsiyyətin cəmiyyətə inteqrasiyası və gələcək həyat fəaliyyətinə hazırlıq prosesidir.

Tərbiyə işi məqsədyönlü və planlı şəkildə həyata keçirilməlidir. Bu prinsip tərbiyənin təsadüfi deyil, şagirdlərin intellektual, mənəvi, estetik və fiziki keyfiyyətlərinin məqsədli şəkildə formalaşdırılmasını tələb edir. Məktəbdə keçirilən tədbirlər şagirdlərin sosial bacarıqlarını gücləndirir. (3)

Hər bir fərd təbiət etibarilə özünəməxsus xarakterə malik olduğundan ona yanaşma üsulu da fərqli olmalıdır. Şagirdin şəxsiyyətinə hörmət prinsipi müəllimin ona bir şəxsiyyət kimi yanaşmasını tələb edir. (5, s. 201) Beləliklə, məktəb və ailə birgə fəaliyyət göstərərək şagirdin tərbiyəsində vahid məqsəd istiqamətini qoruyur.

Məqsədyönlülük prinsipi eyni zamanda tərbiyənin dəyərlər sistemi üzərində qurulmasını nəzərdə tutur. Şagirdlərə əxlaqi, milli və ictimai dəyərlər aşılanır. Onlar öz soykökünə bağlı, cəmiyyətə yararlı, Vətənini sevən, milli-mənəvi mənsubiyyətinə sadiq şəxsiyyət kimi yetişdirilir. Tərbiyə yalnız biliklərin verilməsi ilə məhdudlaşmır, həm də şagirdin davranışlarını, qərar qəbul etmə qabiliyyətini və sosial bacarıqlarını formalaşdırır.

Planlı tərbiyə prosesi mərhələli şəkildə həyata keçirilir. Körpələr evindən başlayan ilk tərbiyə, uşaq bağçasında davam edir, məktəb yaşına çatdıqda isə məqsədyönlü pedaqoji plan çərçivəsində sistemli şəkildə həyata keçirilir. Hər sinif və yaş dövrü üçün xüsusi tərbiyə məqsədləri müəyyən olunur: erkən yaşda ünsiyyət, paylaşmaq və qayğıkeşlik vərdişlərinin formalaşdırılması; ibtidai sinifdə əməksevərlik, dostluq və sosial məsuliyyət hisslərinin inkişafı; yuxarı siniflərdə isə vətənpərvərlik, liderlik, yaradıcılıq və analitik düşüncə bacarıqlarının formalaşdırılması ön plana çıxır.

Məqsədyönlülük həm də tərbiyə işində effektiv metodların seçimini tələb edir. Planlı fəaliyyət nəticəsində müəllim şagirdlərin inkişaf səviyyəsini izləyə, onların zəif tərəflərini müəyyən edə və lazımi müdaxilələr edə bilir. Tərbiyəvi tədbirlər sinifdə və sinifdənkənar şəraitdə uyğun şəkildə təşkil olunmalı, hər bir fəaliyyətin məqsədi və nəticəsi dəqiqliklə müəyyən edilməlidir.

Planlı və məqsədyönlü tərbiyə şagirdin özünü dərk etməsinə və məsuliyyətli davranışlar formalaşdırmasına şərait yaradır. Şagird yalnız bilik almaqla kifayətlənmir, həm də sosial münasibətlərdə düzgün davranış, əməksevərlik, ədalət və hörmət kimi əxlaqi keyfiyyətləri mənimsəyir. Bu yanaşma uşaqların həm məktəbdə, həm də geniş ictimai mühitdə uğurla fəaliyyət göstərmələrinə zəmin yaradır.

Beləliklə, planlı və məqsədyönlü tərbiyə şagirdin bilik, sosial və əxlaqi bacarıqlarını eyni vaxtda inkişaf etdirir, onun məsuliyyətli, əməksevər və dəyərlərə hörmət edən şəxsiyyət kimi formalaşmasına şərait yaradır.

"Şəxsiyyətin inkişafına, onun müasir mədəni dünyagörüşünün formalaşmasına yönəlmiş müəllimin məqsədyönlü professional fəaliyyəti, təlim-tədris müəssisələrində xüsusi təlim almış mütəxəssislər tərəfindən şəxsiyyətin formalaşması məqsədilə hazırlanmış pedaqoji proses təlim və tədrisin məzmununu təşkil edir." (4, s.100)

Ənənəvi olaraq tərbiyə sahələri aşağıdakı kimi təsnif edilir:

Əxlaqi tərbiyə – şagirdin dürüstlük, ədalət, mərhəmət, hörmət, vəzifə və məsuliyyət kimi əxlaqi keyfiyyətlərini formalaşdırır. Əxlaqi tərbiyənin əsas məqsədi uşaqlarda doğru və yanlış davranışları ayırd etmə bacarığını inkişaf etdirmək və onların daxili mənəvi dəyərlərini gücləndirməkdir. Bu sahənin təşkili sinif saatları, əxlaqi dərslər, hekayə və nağıllar üzərindən, həmçinin ictimai layihələr və məktəb qaydalarının şagirdlərə izahı yolu ilə həyata keçirilir.

İntellektual tərbiyə – biliklərin sistemli şəkildə mənimsənilməsi, düşüncə və analiz qabiliyyətinin inkişafını hədəfləyir. Bu sahədə şagirdin elmə marağı, problem həll etmə bacarıqları, tədqiqat və yaradıcılıq bacarıqları inkişaf etdirilir. İntellektual tərbiyə yalnız dərslərdə deyil, elmi müsabiqələr, layihə və sərgilər vasitəsilə də dəstəklənir.

Estetik tərbiyə – şagirdin gözəllik duyğusunu, musiqi, rəssamlıq, ədəbiyyat və teatr vasitəsilə incəsənətə münasibətini formalaşdırır. Estetik tərbiyə sahəsi uşaqlarda yaradıcılıq potensialını artırır və onların daxili dünyasını zənginləşdirir. Məktəbdə rəsm, musiqi dərsləri, teatr tamaşaları və sənət sərgiləri bu sahənin əsas vasitələridir.

Fiziki tərbiyə – uşaqların sağlamlıq, idman və fiziki bacarıqlarını inkişaf etdirir. Fiziki tərbiyənin təşkili idman dərsləri, yarışlar, səhər gimnastikası, məktəb klubları və açıq hava fəaliyyətləri ilə həyata keçirilir. Bu sahə həm də şagirdin intizamlı olmasını və əməksevərlik vərdişlərini gücləndirir.

Sosial tərbiyə – şagirdin cəmiyyətlə münasibətini, ünsiyyət bacarıqlarını, əməkdaşlıq və liderlik keyfiyyətlərini inkişaf etdirir. Sosial tərbiyə ictimai işlər, könüllü fəaliyyət, layihə və debatlar vasitəsilə aparılır. Şagirdlər komanda şəklində işləməyi, fikir mübadiləsi aparmağı və sosial məsuliyyət hissini öyrənirlər.

Tərbiyə sahələrinin təşkili sistemli və planlı şəkildə aparıldıqda, şagirdin fərdi xüsusiyyətləri nəzərə alınır. Müəllimlər şagirdlərin güclü tərəflərini inkişaf etdirir, zəif tərəflərini isə müəyyən metodlar vasitəsilə gücləndirməyə çalışırlar. Hər sahə üçün fərqli metod və vasitələr tətbiq olunur, lakin onların hamısı bir-biri ilə əlaqəli olaraq uşağın harmonik inkişafını təmin edir. Ə. Əlizadə və H. Əlizadə qeyd edirlər ki, "əmək pedaqogikası" özünün keyfiyyətcə yeni mərhələsində artıq birgə yaradıcılıq pedaqogikası kimi inkişaf etməyə başlamışdır. (5, s.64)

Müasir pedaqoji ədəbiyyat göstərir ki, tərbiyə sahələrinin təşkili yalnız məktəb daxilində deyil, eyni zamanda sinifdənkənar və ev şəraitində də aparılmalıdır. Valideyn və ictimaiyyətlə əməkdaşlıq bu prosesin səmərəliliyini artırır. Həmçinin, texnologiyanın və rəqəmsal resursların istifadəsi, məsələn, onlayn dərslər, təlim oyunları və elektron layihələr tərbiyənin müasir üsullarını zənginləşdirir.

Beləliklə, tərbiyə sahələrinin planlı və məqsədyönlü təşkili şagirdin hərtərəfli inkişafını təmin edir, onun həm bilik, həm bacarıq, həm də dəyərlər baxımından formalaşmasına şərait yaradır.

Tərbiyə prosesi yalnız məktəbdə deyil, ailə və cəmiyyətlə birlikdə həyata keçirilir. Məktəb-ailə əməkdaşlığı şagirdin sosial, psixoloji və əxlaqi inkişafını gücləndirir.

Müasir dövrdə "Məktəb icması" layihəsi çərçivəsində şagird, valideyn və müəllimlərin birliyi formalaşdırılır. Bu icmalar vasitəsilə valideynlər pedaqoji prosesdə fəal iştirak edir, övladlarının təlim-tərbiyə fəaliyyətini izləyir, metodik və psixoloji biliklər əldə edirlər.

"Elmi-pedaqoji tədqiqatlar göstərir ki, hər bir uşağa kiçik yaşlarından hörmətlə yanaşılması vacibdir. Hətta tələbkarlıq da hörmət əsasında yerinə yetirildikdə arzu olunan nəticəni əldə etmək olur." (10, s.9)

Müasir pedaqoji nəzəriyyədə təlim və tərbiyə prosesi bir-birindən ayrılmaz komponentlər kimi qiymətləndirilir. Təlim, əsasən, şagirdin bilik, bacarıq və kompetensiyalarını formalaşdırmağa yönəlmiş fəaliyyətləri əhatə edirsə, tərbiyə onun şəxsiyyətinin mənəvi, əxlaqi, sosial və estetik inkişafını hədəfləyir. Lakin real tədris prosesində bu iki istiqamət ayrı-ayrı həyata keçirilmir; əksinə, onlar qarşılıqlı şəkildə birbirini tamamlayır.

"Məktəblilərin vətənpərvərlik tərbiyəsi ailədə, tərbiyə müəssisələrində və ümumtəhsil məktəblərində verilən vahid tərbiyənin tərkib hissəsidir" (2, s.4).

Təlim və tərbiyənin inteqrasiyasının əhəmiyyəti bir neçə aspektdən izah olunur. Məsələn, tarix dərslərində tarixi faktların öyrənilməsi (təlim) vasitəsilə şagirddə vətənpərvərlik və milli-mənəvi dəyərlər formalaşdırılır (tərbiyə). İkincisi, inteqrasiya edilmiş proses şagirdin motivasiyasını artırır; o, öyrəndiyi biliklərin real həyatla əlaqəsini görür və bunun əhəmiyyətini dərk edir.

Təlim və tərbiyənin inteqrasiyası bir neçə əsas yolla həyata keçirilir.

1. Dərs proqramı tərbiyəvi komponentlərlə zənginləşdirilməli, məsələn, ədəbiyyat dərslərində klassik əsərlər həm dil bacarıqlarını, həm də əxlaqi və estetik dəyərləri formalaşdırır. (6, s.75-77)

2. Metod və üsulların inteqrasiyası layihə, diskussiya, debat və qrup işləri şagirdin bilik və sosial bacarıqlarını eyni zamanda inkişaf etdirir.

3. Mühit və fəaliyyətlərin inteqrasiyası məktəbdənkənar idman, mədəni tədbir və könüllü layihələr təlim və tərbiyəni gündəlik həyatla birləşdirir, inteqrativ effekt yaradır.

İnteqrasiya prinsiplərinin tətbiqi həm müəllim, həm də məktəb rəhbərliyi tərəfindən diqqətlə planlaşdırılmalıdır. Müəllim dərs planını hazırlayarkən tərbiyəvi məqsədləri də dəqiq müəyyən etməli, hər bir təlim fəaliyyətinin şagirdin əxlaqi və sosial inkişafına necə təsir edəcəyini nəzərə almalıdır. Müasir pedaqoji yanaşmalara görə, tərbiyə yalnız ayrı fəaliyyət kimi deyil, dərs prosesinin təbii bir komponenti kimi nəzərdə tutulmalıdır.

Praktik nümunələr göstərir ki, dərslər və məktəbdənkənar fəaliyyətlər vasitəsilə həm akademik, həm də mənəvi keyfiyyətlər eyni zamanda möhkəmlənir. Bu yanaşma şagirdin motivasiyasını artırır, təlim prosesini daha maraqlı və mənalı edir. Dr. Bayram Gökbulut qeyd edir ki, "müasir dövrdə texnoloji inkişaflar da təhsil sistemində əsaslı dəyişikliklərə səbəb olmuş, 21-ci əsr bacarıqlarına malik fərdlərin yetişdirilməsi müəllimlərin peşəkar səriştələri və texnologiyaya münasibətini həlledici amilə çevirmişdir." (7)

"Müasir dövrdə təhsil fəlsəfəsi əxlaqi dəyərlərin qorunması və inkişaf etdirilməsi üzərində qurulmuşdur." (1, s.110-113) İnteqrativ təhsil şagirdin bilik, bacarıq və sosial-əxlaqi dəyərlərinin eyni vaxtda inkişafını təmin edir, öyrənməni maraqlı və mənalı edir, biliklərin real həyatda tətbiqinə imkan yaradır.

Problemin aktuallığı. Müasir təhsil sistemində təlim və tərbiyənin inteqrasiyası şagirdin hərtərəfli inkişafını təmin etmək baxımından mühüm aktual məsələdir.

Problemin elmi yeniliyi. Təlim və tərbiyənin birgə həyata keçirilməsi prosesində yeni pedaqoji metod və yanaşmaların tətbiqi elmi yenilik hesab olunur.

Problemin praktik əhəmiyyəti. İnteqrativ təhsil üsulları müəllimlərin və valideynlərin birgə fəaliyyətini gücləndirərək şagirdlərin bilik və bacarıqlarının real həyatda tətbiqini asanlaşdırır.

Ədəbiyyat

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası / A.N. Abbasov. – Bakı: Mütərcim, – 2016. – 324 s. [s.110-113]
2. Axundzadə N., Qasımova P. Uşaqların vətənpərvərlik ruhunda tərbiyə olunmasında kitabxanaların rolu. Metodik vəsait. –Sumqayıt, 2008. –8 s.
3. "Təhsil haqqında Azərbaycan Respublikasının" Qanunu . –Bakı, 2009.
4. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: ideyalar, prinsiplər, problemlər. –Bakı, 2001. –164 s.
5. Əlizadə Ə.Ə., Əlizadə H. Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. III hissə. / –Bakı, 2008. –501 s.

6. Əliyev, P.B. Ümumtəhsil məktəblərinin idarəedilməsi işinin planlaşdırılması. / P.B. Əliyev. – Bakı: Şahin MB. MMC., –2016. – 252 s.
7. Gökbulut Bayram. Texnolojik Gelişmeler Işığında Ulusal ve Uluslararası Öğretmen Yeterlikleri ve Tekno-Pedagojik Alan Bilgisi. https://www.academia.edu/43047339/E%C4%9Fitimde_G%C3%BCncel_Konular_ve_Yeni_Yakla%C5%9F%C4%B1mlar?bulkDownload=true
8. Məmmədova R.İ. Əxlaqi-mənəvi dəyərlərin insan həyatına və şəxsiyyətin formalaşmasına təsiri: mütəfəkkirlərin baxışları əsasında // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2025. № 4, s.50-56.
9. Hüseynzadə, R.L. Pedaqogika: Dərslik / R.L. Hüseynzadə, Z.M. Əzizova, S.H. Əliyev. – Bakı: Mütərcim, –2021. –488 s.
Abstract. Homonyms constitute one of the most ancient lexical layers of the Azerbaijani language. The period of homonym formation dates back to a stage when the conceptual potential of the language was enriched, but the verbal model was limited. Since the verbal model for increasing information content was limited during the formation of homonyms, individual concepts were compressed into a single verbal model. That is, in human thought, individual concepts were perceived syncretically, as a single whole. Thus, at the initial stage of homonym formation, their norms also developed within the framework of human thought. Homonyms continued their traditions, periodically being used in the language, and maintained norm stability. This created the impression in the imagination that homonyms are groups of words, similar in form but different in content. The presence of variants of homonyms belonging to the same part of speech and to different parts of speech led experts to the conclusion that homonyms belonging to the same part of speech originated from polysemy, and tonality was the main means in the formation of homonyms belonging to different parts of speech.
***Key words**: syncretism, vocabulary, tonality, polisemy, borrowing*

Аннотация. Омонимы составляют один из древнейших лексических пластов азербайджанского языка. Период формирования омонимов относится к стадии, когда концептуальный потенциал языка обогатился, а словесная модель была ограничена. Поскольку словесная модель для возрастающей информативности была ограничена в процессе формирования омонимов, отдельные понятия были сжаты в одну словесную модель. То есть в человеческом мышлении отдельные понятия воспринимались синкретически, как единое целое. Таким образом, на начальном этапе формирования омонимов их нормы также формировались в рамках человеческого мышления. Омонимы продолжали свои традиции, периодически используясь в языке, и сохраняли стабильность нормы. Это создавало в воображении впечатление, что омонимы – это группы слов, одинаковых по форме, но разных по содержанию. Наличие вариантов омонимов, принадлежащих к одной и той же части речи, и к разным частям речи привело экспертов к выводу, что омонимы, принадлежащие к одной и той же части речи, произошли от многозначности, а тональность была основным средством в образовании омонимов, принадлежащих к разным частям речи.

***Ключевые слова**: синкретизм, лексика, тональность, многозначность, заимствование*

Leksik-semantik söz qruplarının bir tərkib hissəsi də omonimlərdən ibarətdir. *Omonim* termini mənşəcə yunan dilinə məxsusdur. Termin quruluşca iki tərkib hissədən ibarətdir: *homos*-bir eyni, *onyma* – ad deməkdir. Termin kimi bu söz ayrı-ayrı mənaları özündə birləşdirən ad anlayışını bildirir. Bu anlayışa görə də omonimlər quruluşca bir, mənaca ayrı-ayrı anlayış bildirən sözlər hesab edilir. Beləliklə dildə sinkretik xarakterli leksik vahidlər kimi xüsusi bir qrup təşkil edir. Omonimlərin meydana gəlməsi, formalaşması insan təfəkküründün inkişafında qədim mərhələnin izlərini özündə əks etdirir. İnsan təfəkküründün inkişafı ilə əlaqədar olaraq yeni anlayışların yarandığı mərhələdə dil resursları yeni anlayışlar üçün yeni söz qəlibi formalaşdırmadığından dil özü bu anlayışları bir qəlibə sığışdırmalı olmuşdur. Dilçilik ədəbiyyatında omonimlərin baş vermə səbəbləri ənənəvi olaraq bu qaydada şərh edilir, formaca eyni, məzmunca müxtəlif olan sözlər omonim adlandırılır [1, s.20, 3, 39; 5, s.163; 7, s.1-4; 10, s.104]. Ancaq bu necə ayrı anlayışların bir qəlibə sığışdırılması təsadüfidirmi? Burada bir qəlibə sığışdırılma hansı normaya əsaslanır? Nəzərə almaq lazımdır ki, dildə heç bir hadisə, heç bir element təsadüfi, ixtiyari xarakter daşımır. Bütün hadisələr ən kiçik detallarına kimi müvafiq bir qanunauyğunluq çərçivəsində baş verir. Odur ki, omonimlərin baş verməsindəki qanunauyğunluqlarının açılması norma baxımından xüsusi bir maraq doğurur. A.M. Şerbak hesab edir ki, omonimliyin baş verməsində tonallıq əsas rol oynayır və bunun özü omonimliyin müəyyənləşdirilməsinin başlıca meyarıdır [13, s.129-136]. Omonimlərin yaranması ayrı-ayrı tədqiqatlarda müxtəlif şəkillərdə izah olunsa da əsas fikir və mülahizələr bu qrupdan olan sözlərin başlıca yaranma mənbələrindən biri kimi çoxmənalılıq üzərində dayanılır. Bununla əlaqədar olaraq S. Cəfərov yazır ki, "*Çoxmənalı sözlərdə mənalardan biri inkişaf edərək müstəqim məna ifadə etməyə başlayan yeni sözə çevrilməsi ilə; məsələn, ay (otuz gün), -Ay (yerə ən yaxın məsafədə olan peyk) hər ikisi isim; bel (insan və heyvan bədəninin arxa hissəsi), bel (torpağı qazmaq üçün işlədilən alət), hər ikisi isim: dil (ağızda olan ət parçası), hər ikisi isim; yel (hava cərəyanı) yel (revmatizm) hər ikisi isim: kök (ağacın torpaqda olan hissəsi) – kök (əsas) hər ikisi isim*" [2, s.21-22]. Omonimlərin yaranması ilə bağlı B. Xəlilovun da mülahizələri S. Cəfərovun izahının oxşarıdır [5, s.165-166]. Omonimlərin yaranmasında çoxmənalılığın rolu məsələsi omonimlər lüğətində də təqdir olunur. Bununla əlaqədar olaraq göstərilir ki, "*Çoxmənalı sözün ayrılan əsas mənası ilk məna ilə aralıq, qovuşuq əlaqəni kəsir, yeni məna əlaqəsi əsasında möhkəmlənir. Söz mənaca dəyişməklə bərabər başqa leksik cərgəyə daxil olaraq əvvəlki sintaktik əlaqəsini də itirir. Çoxmənalı sözdən əmələ gələn omonim söz öz leksik və qrammatik mənalarına görə törədiyi sözlərdən fərqlənir, diferensiallaşır. Çoxmənalı sözlərin əsas və törəmə mənaları arasındakı assosiativ əlaqə o qədər zəifləyir ki, onu hiss etmək olmur, əlaqə pozulur, mənaca motivləşmə gedir*" [4, s.10-13]. Rus dili mənbələrində də omonimlərin yaranmasının ən başlıca yollarından biri kimi çoxmənalılığını baza roluna malik olduğu göstərilir. Omonimlərin necə yaranması ilə bağlı bir mənbədə bu prosesin baş verməsinin müxtəlif yolları göstərilir. Bunlar alınmalar hesabına təyin olunan, təsadüfi oxşarlıq əsasında meydana çıxan, tarixi dəyişmə yolu ilə baş verən və ən

əsası bir sözün ayrı-ayrı mənaları arasında məna əlaqəsinin itirilməsi ilə formalaşan söz qrupları hesab edilir [6]. Q.N. Sidikovanın omonimlər yaranmasının əsas yolları adlı bir məqaləsində omonimlərin yaranması ilə əlaqədar rus dilçiliyində özünəməxsus mövqeyi olan görkəmli mütəxəssislərin fikir və mülahizələrinə istinad edilərək bu söz qrupunun meydana gəlməsinin üç üsulu göstərilir: 1)fonetik konvergensiya; yəni uyğunlaşma, eyniləşmə; 2) semantik divergensiya, bir sözün mənalarının ayrılması, polisemiyanın pozulması; 3) başqa dillərdən oxşar fonetik quruluşlu sözlərin daxil olması [11, s.218-219].

"Müasir rus dilinin leksikologiyası" kitabında omonimlərin yaranmasının iki üsulu göstərilir. Bunlardan birincisi çoxmənalılığın aradan çıxması, (məsələn, долг-обязанность-borc, vəzifə; долг- borc- verəcək borc); ikincisi isə başqa dillərdən alınmadır: брак-alman mənşəlidir, zay deməkdir; bir də брак- nikah deməkdir [9, s.29]. Rus dilinin leksikologiyası ilə bağlı olan mənbələrdə ümumiyyətlə, ənənəvi olaraq omonimlərin meydana gəlməsində, formalaşmasında və inkişafında polisemiyanın rolu xüsusi qeyd edilir. Məsələn, V.İ. Koval ənənəyə uyğun olaraq yazır ki, "*Omonimlərin əmələ gəlməsində çoxmənalı sözlərdən birinin çoxmənalılığını itirərək müstəqilləşməsi mühüm istiqamətlərindən biridir. Semantik diferensiallaşma nəticəsində çoxmənalı sözlərdə mənanın biri müstəqilləşir və bu üsulla da omonimlərin yaranması baş verir*" [8, s.21].

Bu məsələ ilə əlaqədar ənənəvi münasibət N.M. Şanskinin də fikir və mülahizələrində əks olunur [12, s.16-17]. Bunların hamısı omonimlərin formalaşması ilə əlaqədar köhnə fikir və düşüncələrdir, omonim söz qrupuna aid zahiri, görünən, bəlkə də illüzion təsəvvürün nəticəsidir. Bu nəticədə omonimlərin norma meyarı demək olar ki, görünməz qalır. Yalnız nəzərə çarpan budur ki, omonimlər quruluşca, oxşar, mənaca müxtəlif söz qrupundan ibarətdir. Omonimlərin təşəkkül problemini aydınlaşdırmaqdan ötrü çoxmənalı sözlərin səciyyəvi keyfiyyətlərini əks etdirən cəhətləri bir daha gözdən keçirdikdə məsələyə müəyyən aydınlıq gətirmək olar. Çoxmənalı sözlərin formalaşmasında əsas göstəricilərinə dair əlamətlər bir qayda üzrə aşağıdakı kimi ifadə olunur:

1) çoxmənalılıq insanların müşahidəçilik qabiliyyətinin inkişafı ilə;

2) abstrakt təsəvvürün imkan yaratdığı fantaziya ilə;

3) əşya və hadisələri müşahidə etmə, qarşılaşdırma bacarığı ilə;

4) əşya və hadisələr arasında ümumi, oxşar cəhətləri ayırıb tapmaq erudisiyası sayəsində meydana çıxır [4, s.78].

Buradan belə çıxır ki, omonimlər insan intellektinin inkişaf etdiyi, müqayisələr aparıb sözlərdə, oxşarlığın olub-olmamasının təyin oluna bildiyi mərhələdə meydana çıxmışdır. Ancaq onu da nəzərə almaq lazımdır ki, omonimlər dildə söz qəlibinin təfəkkürdə əks olunan yeni anlayışlardan geri qaldığı bir dövrdə formalaşmış, dil özü heç bir müdaxilə olmadan ayrı-ayrı anlayışları bir qəlibə yerləşdirmişdir. Bir qəlibə sığışdırılan sözlər isə təsadüfi olmayıb bir-biri ilə hansısa məna bağlılığı əks etdirən elementlərdən ibarət olmuşdur. Belə bir mərhələdə məcazlaşmadan söhbət gedə bilməzdi. Çünki məcazlaşma insan intellektinin abstrakt təfəkkürlə müşayiət olunduğu mərhələnin məhsuludur. Buradan belə bir nəticə hasil olur ki, omonimlik nəinki çoxmənalılıqdan yaranmışdır, əksinə, hətta omonim mərhələsindən sonrakı dövrün məhsuludur. Omonimlərdəki məna bağlılığı da elə sözün çoxmənalılığa doğru inkişafının ilkin izlərindən ibarətdir. Omonim cərgəsi çoxsözlü olmadığı üçün çoxmənalılığın omonimdən əvvəl mövcudluğu fikri də özünü tam doğrulda bilmir. Məntiqi baxımdan da omonimləri dilin az, çoxmənalılığı isə çox sözlü mərhələsinin məhsulu hesab etmək olar. Dilin azsözlü dövründə məlumdur ki, çox mənadan da söhbət gedə bilməzdi. Odur ki, omonim cərgəsi də az sözlü qarşılaşma ilə təcəssüm olunur. Bu qarşılaşmada isə qarşılaşan sözlərin arasındakı məna bağlılığı çoxmənalılığın təcəssümü yox, rüşeymidir. Təsadüfi deyildir ki, omonimlər lüğətində də omonim qarşılaşmaları da az sözlülüklə verilir: *ağı* (cəhər) – *ağı* (niskilli oxuma), *al* (qırmızı) – *al* (hiylə), *ala* (ləkə) – *rəng* (ağlı-qaralı rəng), *alçaq* (gödək, qısa) – *alçaq* (rəzil), *alışma* (öyrənmə) – *alışma* (şərikli pay), *an* (vaxt, zaman)-*an* (xatırlamaq) və s. [4, s.52, 53, 54].

Beləliklə, omonim sözlərə aid normalılıq ondan ibarətdir ki, bu qrupdan olan sözlər özündə incə məna bağlılığını saxlamaqla müstəqil anlayış bildirmiş olsun, qarşılaşma elementlərində çoxkomponentlilik müşahidə edilməsin. Ən yaxşı halda omonimlik iki sözün qarşılaşması

məqamında daha effektiv təəssürat yaradır. Omonimlərin təsnifi zamanı adətən onlar daxili məna əlaqəsinin mövcud olub-olmamasına görə iki qrupa bölünür. Birinci qrupa daxili məna bağlılığına malik olanlar, ikinci qrupa isə məna bağlılığı olmayanlar aid edilir. Daxili məna bağlılığı ilə səciyyələnən omonimlər bir qayda olaraq eyni nitq hissələri çərçivəsində formalaşmış dil vahidlərindən ibarətdir. Belə omonimlərin formalaşmasında məcaziliklə bağlı əlaqənin xüsusi rolu vardır. Lakin buradakı məcazilik çoxmənalı sözlərin formalaşmasındakı məcaziliklə eyniyyət təşkil etmir. Buradakı məcazilik hansısa oxşarlığa və ya əlamətə görə baş verən məcazilikdir. Bu məcazilik çoxmənalı sözləri şaxələndirən tipli olmayıb təbiətdə, həyatda, təfəkkürdə özünə müstəqil anlayış motivi yaratmış oxşatma, bənzətmə, əlamətə görə uyğunlaşdırma səciyyəli məcazilikdən ibarətdir. Yəni ki, omonim cütlüklərinin hər ikisi mənaca müstəqil anlayışlıdır. Bunların arasındakı incə məna bağlılığı isə məntiqi yox, oxşayışa, bənzəyişə və ya əlamətə görədir.

Belə omonimlər bir nitq hissəsi çərçivəsindəki sözlər arasında müşahidə edilir ki, bu da omonimliyin çoxmənalılıqdan törədiyi fikrini istisna edir. Bu kimi əlamətlər omonim normasını səciyyələndirir və onların bir dil hüdudunda baş verməsi mümkünlüyü barədə təsəvvür yaradır. Belə omonimlərə dair aşağıdakı kimi nümunələri misal göstərmək olar: *kök* (tərəvəz)- *kök* (şişman), *göy* (səma) – *göy* (rəng), *qaş* (əlamət) – *qaş* (üfüq), *sağ* (tərəf) – *sağ* (diri), *yaş* (ömür) – *yaş* (nəm), *iy* (qoxu) – *iy* (iş aləti), *ay* (göy cismi) – *ay* (zaman), *düz* (düzgün) – *düz* (səth, çöl, səhra), *dağ* (ucalıq) – *dağ* (damğa), *al* (rəng) – *al* (hiylə), *dil* (ağız üzvü) – *dil* (əsir) və s.

Bu cütlüklər arasında qeyd olunan əlaqələri müəyyən etmək ilk baxışdan çətin görünür, lakin müqayisəli araşdırma aparmaqla onların arasındakı incə əlaqələri müəyyən etmək mümkündür. Omonimlərin ikinci qrupuna tonallıqla fərqlənən və ayrı-ayrı nitq hissələrinə aid olan cütlüklər aid edilir. Doğrudan da ilk baxışdan feili və ismi tərkibli omonimlərdə daxili, gizli məna bağlılığını aşkar etməkdə çətinliklər vardır. Lakin əgər yanaşma varsa, cütlük baş verirsə bunun haradasa gizlənmiş motivini də istisna saymaq olmaz. Bununla yanaşı bəzi cütlüklərdə izləri müəyyən etmək imkanları mövcuddursa bunun mənaca tam müstəqilləşmiş cütlüklərdə də mövcudluğu fikrini qəbul etməmək mümkün deyildir. Məsələn, *at* (heyvan) – *at* (atmaq) cütlükləri nitq hissələri baxımından tamamilə fərqlidir. İlk baxımdan heyvan təsəvvürlü *at* ilə atmaq feili arasında uyğunluq əlaqəsi görünmür. Lakin sözlərin formalaşması ilə bağlı tipoloji rekonstruksiya aparıldıqda yanaşmanın motivini təyin etmək mümkün olur. Məsələn, *at* (heyvan) sözündə *atmaq* feili ilə qarşılıqlı əlaqəni aşağıdakı kimi müəyyən etmək mümkündür: *atmaq* sözünün kökü *addım* sözü ilə bağlıdır. *Addım* sözündə *at* tərkibi *addım atmaq* ifadəsində müşahidə edilir. *At* (heyvan) sözü də əslində yerimək mənasındakı addım atmaq anlayışı ilə bağlıdır. Məhz bu məna yaxınlığı əsasında *atmaq* (yerimək) anlayışından *at* sözü formalaşmışdır. Bunun kimi *köç, iç, tut* feilləri ilə onların isim omonim cərgəsi arasındakı oxşarlığı müəyyənləşdirmək mümkündür. Məsələn, *köçmək* anlayışı əşyaları yığışdırıb bir yerdən başqa yerə getmək mənası bildirir. *Köçmək* zamanı da buna uyğun bir yerə yığılan, toplanan əşyalar *köç* adlandırılmışdır. *İç* sözü yeyilən və içilən vasitənin *içəriyə* ötürülməsi anlayışı bildirir. Buna uyğun olaraq içmək anlayışından *iç* (daxil) sözü formalaşmışdır.

Tutmaq sözü feil kimi nəyisə tutmaq, yerə düşməmək mənasını bildirir. *Tut* ismi isə əşyalılıq bildirir. Görünür, *tut* meyvəsinin toplanmasında vaxtı ilə yerə tökülməməsi üçün tutalqa kimi işlənən vasitədən istifadə edilmiş və bunun nəticəsində də toplanan meyvə *tut* adlandırılmışdır. Feili və ismi qarşılaşdırmalar üzrə formalaşmış belə omonim cütləri arasındakı semantik əlaqənin müəyyənləşdirilməsində qarşılaşdırma motivlərini araşdırmaq geniş və ətraflı təhlil aparılması imkanları heç də istisna deyildir. Azərbaycan dilində bir qrup ismi-feili qarşılaşma üzrə omonim cərgələri yaranmışdır ki, onların arasındakı əlaqələrin araşdırılması üçün xüsusi tədqiqat aparılmasına ehtiyac vardır. Dildə belə omonim cərgəsinə dair aşağıdakı nümunələri misal göstərmək olar: *daş* (əşya) – *daş* (daşmaq), *aş* (yemək növü) – *aş* (aşmaq), *dan* (üfüq) – *dan* (inkar), *çat* (yarıq, sınıq) – *çat* (yetirmək), *it* (heyvan) – *it* (uzaqlaşmaq), *bit* (həşərat) – *bit* (tamamlanmaq), *sağ* (sağlam, diri) – *sağ* (südü sağmaq), *qan* (maddə) – *qan* (anlamaq), *sal* (sığallı daş) – *sağ* (salmaq, düşürmək), *yan* (ətraf) – *yan* (alışmaq), *qız* (insan) – *qız* (isinmək), *düz* (səth) – *düz* (sıralamaq), *dal* (geri, arxa) –

dal (getmək-xəyala getmək), *şiş* (alət) – *şiş* (köpmək), *saç* (tük) – *saç* (yayılmaq), *yay* (fəsil) – *yay* (yaymaq), *az* (kiçik) – *az* (azmaq) və s.

Bu tipli omonimlərin yaranması dilin inkişafının elə bir mərhələsinə təsadüf edir ki, bu mərhələdə insan təfəkkürü əşya və hərəkət anlayışını bir vəhdətdə dərk etmişdir. Daha doğrusu, əşya və hərəkət anlayışı təfəkkürdə diferensiallaşmamış şəkildə dərk olunmuşdur. Bu fərqlərin təfəkkürdə ayırd edilməsi sayəsində isə ad – feil kontrastları əsasındakı omonimlərin formalaşma prosesi baş vermişdir. Omonimlər haqqında bəhs edildikdə onların bir qisminin alınmalar hesabına yaranması ilə bağlı da nümunələr gətirilir. Məsələn, *bal* (Azərb .arının məhsulu) – *bal* (fr. mərasim) – *bal* (fr. dərəcə); *bar* (fprs. meyvə, bəhrə, məhsul) – *bar* (ing. bufet, şərab saxlanan yer) – *bar* (Azərb. kif), həlim (Azərb. bulaşıq) – *həlim* (ər. yumşaq, sakit); *bala* (fars. böyük) –*bala* (Azərb. uşaq); dam (fars. tələ) – *dam* (Azərb. daxma, alacıq), *dal* (ər. hərfi işarə)-*dal* (Azərb. arxa), *dana* (fars-bilici) –*dana* (Azər. inək balası); *dur* (fars. uzaq)-*dur* (Azərb. dayanmaq), *dul* (fars. dolça, vedrə) – *dul* (Azərb. əri və ya arvadı ölmüş və ya boşanmış), *zil* (ər. himayəçi) –*zil* (Azərb.uca səs) və s.

Bu nümunələrdən göründüyü kimi onlar ayrı-ayrı dillərə məxsus olduğu üçün aralarındakı yaxınlıq da formal əlamətdir. Onların heç biri bir-biri ilə hansısa məna yaxınlığına malik deyildir. Deməli, belə formal yaxınlıq onların Azərbaycan dilində omonim olmasını təsdiq etmir. Bu tipli formal oxşarlıq omonimlərə dair norma prinsiplərini də əks etdirmir. Ədəbiyyatda omonim kimi izah olunan belə cərgələrdəki zahiri oxşarlıq təsadüfidir. Odur ki, normadan kənar belə zahiri oxşarlıq Azərbaycan dili omonim cərgəsini zənginləşdirən nümunələr sırasına da daxil deyildir. Omonimlərin mənaca yaxınlıq ənənəsi özünün varisliyini davam etdirərək sonrakı mərhələlərdə, hətta müasir dövrdə də intonasiya ilə fərqlənən nümunələrin yaranmasına da öz təsirini göstərmişdir. Bu xüsusiyyəti omonim səciyyəli aşağıdakı nümunələrdə müşahidə etmək olar: *süzmə́-sǘzmə, yarmá - yárma, bölmə́- bö́lmə, qırmá- qı́rma, sürmə́- sǘrmə, qurmá -qúrma, vurmá- vúrma* və s. Bəzi bu tipli omonim cərgələri də vardır ki, onlarda vurğu sona düşsə də feil vurğusu nisbi intensivlik hiss etdirir: *vurúş- vurú́ş, döyǘş- döyǘ́ş, qarı́ş-qarı́́ş, yarı́ş-yarı́́ş, atı́ş-atı́́ş, qaçı́ş-qaçı́́ş, barı́ş-barı́́ş* və s.

Omonimlər və onların ayrı-ayrı növləri bədii mətndə üslubi rəngarənglik yaratmaq vasitəsi kimi işlənir.

Aşiqəm yaza dərdim
Qanan yoz yaza dərdim.
Fəqir bir bülbül kimi
Qalıbdı yaza dərdim [1, s.10].

Kəkliyəm, dizi qanlı
Topuğu dizi qanlı
Ölərəm məhlənizdə
Edərəm sizi qanlı [1, s.14].

Göy üzü damar-damar
Göydən yerə nur damar
Qurusun düşmən dili
Doğrasın damar-damar [1, s.16].

Dəyirman üstü qabaq (balqabaq)
Yarpızı tavax-tavax
Gəl olum sənə qurban
Uzun boy, açıq qabaq [1, s.17].

Əziziyəm, ağ damar
Qara damar, ağ damar
Vətənə xain baxanın
Gözlərinə ağ damar [1, s.32].

Əziziyəm, üç ay var
Üç ulduz var, üç ay var
Könlüm səni arzular
Görüşməyə üç ay var [1, s.32].

Əziziyəm, gözəl alma
Yeməyə gözəl alma
Əsil al, çirkin olsun
Bədəsil gözəl alma [1, s.32].

Omonimlər yazılı dildə sabit norma üzrə işlənməklə ümumişlək xarakter daşıyır. Bədii dildə omonimlərin norması sərbəstdir və üslubi rəngarənglik yaratmaqla səciyyələnir. Omonimlərin dildəki rəngarəngliyi insanların poetik təfəkkürünün təcəssümü kimi parlaq bir mənzərə yaradır.

Nəticə

Aparılan araşdırma göstərir ki, omonimlər Azərbaycan dilinin leksik-semantik sistemində mühüm yer tutan söz qruplarından biridir və onların formalaşması dilin tarixi inkişafı ilə sıx bağlıdır. Omonimlər dilin ilkin inkişaf mərhələ-

sində söz modelinin məhdud olduğu, lakin anlayışların artdığı dövrdə meydana çıxmış və müxtəlif anlayışların eyni söz forması daxilində ifadə olunması nəticəsində formalaşmışdır. Bu proses insan təfəkküründə sinkretik düşüncə tərzinin mövcudluğu ilə əlaqədar olmuş və omonimlərin normativ xüsusiyyətlərinin yaranmasına zəmin yaratmışdır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, omonimlərin norma prinsipi onların formaca eyni, lakin məzmunca müxtəlif anlayışları ifadə etməsi ilə yanaşı, müəyyən daxili semantik bağlılığın mövcudluğu ilə səciyyələnir. Bu baxımdan omonim cütlüklərinin arasında bəzən gizli semantik əlaqələr müşahidə edilir və bu əlaqələrin müəyyənləşdirilməsi müqayisəli və rekonstruktiv təhlil vasitəsilə mümkündür. Belə yanaşma omonimlərin yalnız çoxmənalılıq nəticəsində formalaşması barədə mövcud ənənəvi fikirlərin tam şəkildə əsaslandırılmadığını göstərir. Əksinə, omonimlik bir çox hallarda dilin qədim inkişaf mərhələsində formalaşmış semantik qarşılaşmaların nəticəsi kimi qiymətləndirilə bilər.

Araşdırma həmçinin göstərir ki, omonimlərin bir qismi eyni nitq hissələri daxilində semantik yaxınlıq əsasında formalaşdığı halda, digər qismi müxtəlif nitq hissələrinə aid sözlərin qarşılaşması nəticəsində meydana çıxır. Bu cür omonimlərin yaranmasında əşya və hərəkət anlayışlarının ilkin mərhələdə bir vəhdət halında qavranılması mühüm rol oynamışdır. Eyni zamanda başqa dillərdən alınmış və zahirən oxşar formaya malik olan sözlərin isə Azərbaycan dilində omonim norma yaratmadığı müəyyən edilmişdir.

Bununla yanaşı, omonimlər bədii nitqdə mühüm üslubi funksiyaya malik dil vahidlərindən biri kimi çıxış edir. Onların poetik və bədii mətnlərdə işlədilməsi nitqin obrazlılığını, emosional-ekspressiv çalarlarını artırır, ifadə imkanlarının genişlənməsinə şərait yaradır və mətnin bədii-estetik təsir gücünü yüksəldir. Bu baxımdan omonimlər yalnız leksik-semantik hadisə kimi deyil, eyni zamanda bədii üslubun formalaşmasında iştirak edən mühüm üslubi vasitələrdən biri kimi qiymətləndirilir. Dil vahidlərinin semantik xüsusiyyətlərinin və normativ işlənmə prinsiplərinin müəyyənləşdirilməsində sözlüklərin xüsusi rolu vardır. Sözlüklər sözlərin mənası, semantik çalarları və nitqdə düzgün işlənmə qaydaları haqqında məlumat verən mühüm leksikoqrafik mənbələr və elektron məlumat bazaları kimi çıxış edir. Sözlüklərdə maddə başlıqlarının seçimi və onların izah forması sözlüyün tərtib edilmə məqsədindən, tipindən və nəzərdə tutulmuş istifadəçi auditoriyasından asılı olaraq müəyyən edilir. Bu baxımdan məktəb sözlükləri xüsusi əhəmiyyət kəsb edir. Belə sözlüklər leksikoqrafiya və dilçilik prinsipləri ilə yanaşı, pedaqoji tələblər də nəzərə alınmaqla hazırlanmalı, şagirdlərin dil bacarıqlarının inkişafına və söz ehtiyatının zənginləşməsinə xidmət etməlidir [14, s. 43–77].

Beləliklə, Azərbaycan dilində omonimlər dilin qədim leksik qatını təşkil edən, formaca eyni, məzmunca fərqli anlayışları ifadə edən və müəyyən semantik motivlər əsasında formalaşan söz qruplarıdır. Onların norma prinsiplərinin müəyyənləşdirilməsi Azərbaycan dilinin leksik sisteminin daha dərindən öyrənilməsi və dilçilik tədqiqatlarının inkişafı baxımından mühüm elmi əhəmiyyət kəsb edir.

Problemin aktuallığı. Müasir dilçilikdə leksik-semantik sistemin öyrənilməsi, xüsusilə də omonimlərin formalaşma prinsipləri və norma məsələlərinin araşdırılması aktual elmi problemlərdən biridir. Azərbaycan dilinin zəngin leksik qatlarından biri olan omonimlər dilin tarixi inkişaf mərhələlərini, insan təfəkküründün formalaşma xüsusiyyətlərini və söz yaradıcılığı proseslərini özündə əks etdirir.

Problemin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan dilində omonimlərin yaranma və formalaşma prosesi ənənəvi yanaşmadan fərqli olaraq normativ-semantik baxımdan təhlil edilmişdir. Məqalədə omonimlərin yalnız çoxmənalılıqdan törəməsi barədə mövcud fikirlərə tənqidi yanaşma göstərilmiş, onların dilin qədim sinkretik mərhələsi ilə bağlı olduğu əsaslandırılmışdır.

Problemin praktik əhəmiyyəti. Məqalədə irəli sürülən elmi müddəalar omonimlərin norma prinsiplərinin daha düzgün müəyyənləşdirilməsinə, leksik-semantik hadisələrin sistemli şəkildə izahına və Azərbaycan dilinin leksik sisteminin daha dərindən öyrənilməsinə kömək edir.

Ədəbiyyat

1. Azərbaycan bayatılar. –Bakı: Elm və təhsil, –2022. –316 s.
2. Cəfərov, S. Müasir Azərbaycan dili. 4 hissədə, II h., –Bakı: Şərq-Qərb, –2007. –192 s.

3. Həsənov, H. Müasir Azərbaycan dilinin leksikası / H. Həsənov. –Bakı: Nurlan, –2005. –452 s.
4. Həsənov, H. Azərbaycan dilinin omonimlər lüğəti / H. Həsənov. –Bakı: Şərq-Qərb, –2007. –168s.
5. Xəlilov, B. Müasir Azərbaycan dilinin leksikologiyası / B. Xəlilov. –Bakı: Nurlan, –2008. –s.442.
6. Как появились омонимы-слова, одиноковые по написанию, но разные по значенинов=azen.ru/o/XAfx-oGuUACp OXVO.
7. Качалова К.А., Семенчук Л.В., Конюхова Е.В. Омонимы в русском, английском и немецком языках. //Юный ученый, –2019, № 5 (25) с.
8. Коваль, В.И. Современный русский язык, в 2-х части, часть 1, Лексикология, фразеология. – Гомель: ГГУ, им.Ф.Скорины, –2001. –96 с.
9. Нетяго, Н.В., Дюзенли М.В. Лексикология современного русского языка. –Екатеринбург: изд. Уральского университета, –2016. –100 с.
10. Неумоина Н.Г., Шевченко Н.Ю., Лебедева Н.В. Полные лексические омонимы в русском языке // Успехи современного естествознания, –2014, № 11, (часть 1) –с.104-107.
11. Сидикова, Г.Н. Основные пути возникновения омонимов. Филология: suberleninka.ru/article/n/osnovnye-puti-vozniknoveniya-omonimov-/viwer.–2012.
12. Шанский, Н.М. Лексика и фразеология современного русского языка / Н.М. Шанский. – Москва: Учпедгиз, –1957. –167 с.
13. Щербак, А.М. Сравнительная фонетика тюркских языков. / А.М. Щербак. –Ленинград, 1970. – 204 с.
14. Devecioğlu, M., & Benzer, A. (2024). Pedagojik ve Dil Bilimsel Yaklaşımla Okul Sözlüğü Maddeleri. *Eğitim Ve Bilim, 49* (218), 43-77. https://doi.org/10.15390/EB.2024.11765

Redaksiyaya daxil olub: 12.03.2026

UOT 373.2

Şərafət Aram qızı Baxışova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Məktəbəqədər təhsilin pedaqogikası kafedrasının dosenti,
pedaqogika elmləri doktoru
https://orcid=0000-0002-7848-2068
E-mail: *sharafat_baxishova1960@mail.ru*
https://doi.org/10.69682/arti.2026.93(2).51-56

MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ YARADICI ŞƏXSİYYƏT FORMALAŞDIRMAQ DÖVRÜN TƏLƏBİDİR

Sharafat Aram Bakhishova
associate professor of the department of Preschool education pedagogy
of the Azerbaijan State Pedagogical University,
doctor of pedagogical sciences

FORMING A CREATIVE PERSONALITY IN PRESCHOOL EDUCATION IS THE DEMAND OF THE TIMES

Шарафат Арам гызы Бахышева
доцент кафедры Педагогики дошкольного образования Азербайджанского Государственного Педагогического Университета, доктор педагогических наук

ФОРМИРОВАНИЕ ТВОРЧЕСКОЙ ЛИЧНОСТИ В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ – ЭТО ТРЕБОВАНИЕ ВРЕМЕНИ

Xülasə. Məktəbəqədər təhsildə yaradıcı şəxsiyyətin formalaşması oyun, vizual fəaliyyətlər vasitəsilə təxəyyül, təşəbbüs və qeyri-ənənəvi təfəkkürün inkişafı üçün məqsədyönlü bir prosesdir. Təhsilin yaradıcı şəxsiyyət formalaşdırmaq missiyası onun humanist xarakterini meydana çıxarır, yeni məzmunun müəyyənləşdirilməsində nəzərə alınır.

Məktəbəqədər təhsildə yaradıcı şəxsiyyət formalaşdırmaq üçün fərdin maraqlarına, qabiliyyətlərinə yönələn, sosial-emosional inkişafı dəstəkləyən şəxsiyətyönlü yanaşma vacibdir; bu, onların unikal potensialını açmaq, problem həll etmə bacarıqlarını və özünü ifadə etmələrini təşviq etmək məqsədi güdür, bunun üçün də dəstəkləyici, inkişafetdirici mühitin yaradılması əsas şərtdir.

Açar sözlər: *Yaradıcı şəxsiyyət, inkişafetdirici mühit, təşəbbüs göstərmə, yaradıcı təfəkkürün inkişafı, şəxsiyətyönlü yanaşma, sosial-emosional inkişaf*

Abstract. The formation of a creative personality in preschool education is a purposeful process of developing imagination, initiative and non-standard thinking through games and visual activity. The mission of education for the formation of a creative personality reveals its humanistic character and is taken into account when determining the new content.

In order to form a creative personality in preschool education, a personality-oriented approach that focuses on the interests and abilities of the individual and supports social-emotional development is important; this aims to unlock their unique potential, encourage problem-solving skills and self-expression, and for this, creating a supportive, developmental environment is a key condition.

Keywords: *Creative personality, developmental environment, initiative, development of creative thinking, personality-oriented approach, social-emotional development*

Аннотация. Формирование творческой личности в дошкольном образовании – это целенаправленный процесс развития воображения, инициативы и нестандартного мышления посредством игр и

визуальной деятельности. Миссия образования по формированию творческой личности раскрывает свой гуманистический характер и учитывается при определении нового содержания.

Для формирования творческой личности в дошкольном образовании важен личностно-ориентированный подход, который фокусируется на интересах и способностях каждого ребенка и поддерживает его социально-эмоциональное развитие. Оно направлено на раскрытие его уникального потенциала, развитие навыков решения проблем и самовыражения, а для этого ключевым условием является создание благоприятной, развивающей среды.

***Ключевые слова**: творческая личность, благоприятная среда развития, инициативность, развитие творческого мышления, личностно-ориентированный подход, социально-эмоциональное развитие*

Giriş

Şəxsiyyətin həyatı boyu inkişafını tənzimləyən təhsil müxtəlif mərhələ və səviyyələrdə onun dəyərlərə yiyələnməsini bir məqsəd kimi həyata keçirir. İnsanın öyrənməsinə, inkişafına və mədəniyyətlərə sahib olmasına şərait yaradır. Müasir dünyanın təhsil paradiqmasında daha aydın görünən xüsusiyyətlər diqqəti cəlb edir. Onlardan birincisi şəxsiyyətin formalaşması problemidir. Başqa sözlə, şəxsiyyətin formalaşması təhsilin ana xəttidir. Bütün digər fəaliyyətlər bu xətdə birləşərək ümumi məqsədin reallaşdırılmasına təkan verir. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda [1] qeyd olunduğu kimi, "yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq" zəruri tələblərdən biridir. Bu həm təhsilin məzmunu, həm də təşkili üçün əsas meyarlardandır.

Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçi-müəllimlərindən bu sistemdə baş verən innovativ dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir. Tərbiyəçi-müəllim pedaqoji prosesdə həlledici qüvvə kimi çıxış edir. Şəxsiyyətin ahəngdar inkişafı vəzifəsi, ilk növbədə, tərbiyəçi-müəllimin üzərinə düşür. Tərbiyəçi-müəllim, təlim verən insan bu inkişaf prosesində insanın tamlığını, bütövlüyünü yüksək əqli, əxlaqi, mənəvi keyfiyyətlər daşıyıcısı olmasını həyata keçirir. İnsanın kamillik keyfiyyəti gözəl düşüncəyə, gözəl sözə, əmələ malik olması ilə dəyərləndirilir [6, s. 46].

Təlimin inkişafetdirici məqsədi psixoloji aspekti reallaşdırır və uşaqların fəaliyyət prosesində qazandıqları təcrübəni mənimsəmə yolu ilə həyata keçirir ki, bu da tərbiyəçi-müəllimin istiqamətverici rolu ilə, uşaqların birgə fəaliyyəti zamanı özünü büruzə verir.

Təhsilalanlarda öyrənməyə həvəs və maraq oyatmaq, onları motivasiya etmək müasir dövrdə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Başlıca məsələ bunu necə və hansı yollarla və hansı formada təşkil etməkdir ki, bu da müəllimin pedaqoji ustalıq məharətindən çox asılıdır. Görkəmli Ukrayna pedaqoqu V.A. Suxomlinski bu münasibətlə yazır: "Biliklərə həvəs qığılcımı dərsdə oyadılmalıdır: yeniyetmənin qəlbində bu qığılcımla alov yandırmaq müəllimin mədəniyyətindən asılıdır" [7, s. 18].

Uşağın bütöv bir şəxsiyyət kimi inkişafına istiqamətlənmiş şəxsiyyətyönlü təhsilin mühüm əlamətləri onu ənənəvi təhsildən fərqləndirir. Bunlar müasir məktəbəqədər təhsil sisteminin paradiqmalarında öz ifadəsini tapır. Məktəbəqədər təhsilin əsas paradiqmalarını aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- uşaqların təlim-tərbiyə prosesinin mərkəzinə gətirilməsi;
- məktəbəqədər təhsilin məzmununun yenidən qurulmasında uşaq təbiətinin bütövlüyünün nəzərə alınması;
- məzmunun inkişafetdirici olması;
- inteqrativliyin gözlənilməsi;
- uşağa təməl anlayışlar, qanunauyğunluqlar və prinsiplərin öyrədilməsi;
- biliklərin səthi deyil, dərin və uzunmüddətli şəkildə mənimsədilməsi;
- "nəyi bilməliyik?" sualına deyil, "niyə bilməliyik?", "bu bilik nə üçün lazımdır?" və "onu necə tətbiq edərik?" kimi suallarını uşaqların cavablandırılması təmin edilməlidir.

Bu gün yaradıcı şəxsiyyətlərin inkişafı pedaqoji nəzəriyyə və praktikanın ən mühüm vəzifələrindən biridir. Bu vəzifə məktəbəqədər yaş dövründən başlamalıdır, çünki bu yaşda uşaqlar özünü ifadə etmə, özünü inkişaf etdirmə, əməkdaşlıq və birgə yaradıcılığa əsaslanan təxəyyül və yaradıcılıq üçün böyük potensiala malikdirlər.

Pedaqoqların fikrincə yaradıcılıq zehni fəaliyyətin, müstəqilliyin, yeni və orijinal bir şey yaratmaq bacarığının ən yüksək formasıdır.

Yaradıcılığın miqyası müxtəlif ola bilər, lakin bütün hallarda yeni nə isə yaranır və kəşf edilir.

H. Qardner göstərir ki, ilk növbədə şagirdlərin öyrənmə özəlliklərini müəyyən etmək, sonra isə buna uyğun fəaliyyət seçərək biliyin ötürülməsi prosesini həyata keçirmək vacibdir. Bu baxımdan intellektin (zəkanın) növlərini və hər növə xas olan xarakterik xüsusiyyətləri bilmək müəllimlər, şagirdlər və ümumiyyətlə, bütün təhsil işçiləri üçün əhəmiyyətli ola bilər. Hətta şagirdlərin öz intellekti haqqında məlumatlı olması özünü tanımağa imkan yaradır və onun metakoqnitiv bacarıqlarını artırır. Bu da şagirdlərdə sərbəst öyrənmə bacarığını (öyrənməyi öyrənmək konsepsiyası) inkişaf etdirir [8, s. 137]

Hazırda uşaqlar internet və kompüter aləmində böyüyürlər. Müasir informasiya texnologiyaları uşaqların həyatının bir hissəsinə çevrilmişdir. Doğrudan da yeni təlim texnologiyalarının geniş vüsət alması, interaktiv metodlardan istifadəyə marağın artması ümumiyyətlə, məktəbəqədər təhsil müəssisələrinin məzmununa yeni yanaşmaların tətbiqi eyni zamanda uşaqların mədəni-intellektual səviyyəsinin yüksəlməsinə əhəmiyyətli təsir göstərir.

Məktəbəqədər təhsil sisteminin əsas məqsədi bir tərəfdən şəxsiyyət formalaşdırmaq, digər tərəfdən təhsilalanda, yaradıcı qabiliyyətləri inkişaf etdirməkdir. Bu gün təhsilin məzmununun formalaşdırılmasında nəzəri biliklərlə yanaşı, praktik bilik və bacarıqların da inkişaf etdirilməsi ön plana keçir. Dövlətin son dövrlərdə təhsilin bünövrəsi sayılan məktəbəqədər təhsil üzrə verdiyi qərarlarda və konseptual sənədlərdə proqramların məzmununun uşaqların həm sağlamlığının qorunmasına və möhkəmləndirilməsinə, həm də intellektual inkişafına istiqamətlənməsi prioritet məsələ kimi irəli sürülür.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda deyildiyi kimi, "...Təməl bacarıqlar uşaqlıq dövrünün ilk illərindən əldə edildiyinə görə uşaqların zehninin erkən yaş dövründən inkişaf etdirilməsi vacibdir. Bu səbəbdən məktəbəqədər təhsilin inkişafı dövlət siyasətində əhəmiyyətli yer tutur"[2].

Kiçikyaşlı uşaqların şəxsiyyətinin ahəngdar inkişafını tədqiqat obyektinə çevirən L.V. Kuznetsova yazır: "Uşağın ahəngdar inkişafından ötrü ətraf aləmə ahəngdar münasibəti formalaşdırmaq lazımdır" [10, s. 43].

Məktəbəqədər təhsil müəssisələrində uşaqlar təbiətlə və ətraf aləmlə tanışlıq məşğələlərində təbiət və onun mühafizəsi haqqında ilkin təsəvvürlərə yiyələnir, onlarda təbiətə məhəbbət, onu qorumağın vacibliyi fikri aşılanır. Təbiət üzərində müşahidələr uşaqların biliklərini, dünyagörüşünü, zövqünü inkişaf etdirməyə kömək göstərir. Uşaqlar ətraf aləmlə tanışlıq üzrə məşğələlərdə təbiətlə və ictimai həyatla tanış olurlar. Bu prosesdə uşaqlarda təbiətə qayğıkeş münasibət, təbiəti qorumaq, insan həyatında təbiətin çoxcəhətli rolu haqqında təsəvvür yaranır, onlar təbiətə aid olan zəruri bilik, bacarıq və vərdişlərə yiyələnirdər. Təbiət uşaqlara qayğıkeşlik, borc və məsuliyyət hissi aşılayır [5, s. 248].

Təbiətin estetik təsir gücündən, doğma diyara məhəbbət tərbiyə etmək üçün onun əhəmiyyətindən bəhs edən böyük rus pedaqoqu K.D. Uşinskinin fikrincə, gənc ruhun tərəqqisində gözəl mənzərənin tərbiyəvi təsiri çox böyük olduğu üçün müəllimin təsiri ona heç bir vaxt rəqib deyil [3, s. 86].

Uşaq yaradıcılığının mahiyyətini öyrənən A.N. Leontyev qeyd edir ki, yaradıcılıq şəxsiyyətin inkişafının vacib göstəricilərindən biridir, təxəyyül isə yaradıcı fəaliyyətin əsasıdır.

Yaradıcı təfəkkür aşağıdakı qabiliyyətləri xarakterizə edir:

- əvvəllər heç kimin əldə etmədiyi nəticələrin əldə edilməsi;
- arzu olunan nəticəni əldə etmək üçün situasiyada əvvəlcədən bilməyərəkdən müxtəlif yollardan istifadə etmək imkanının olması;
- nəticənin əldə edilməsi üçün üsulların müxtəlifliyi;
- bu cür vəzifələrin həll edilməsi üçün kifayət qədər təcrübənin olmaması;
- başqasının müdaxiləsi olmadan müstəqil fəaliyyət göstərməyin zəruriliyi [12, s. 85].

Yaradıcılıq uşaq inkişafının daimi yoldaşıdır fikrini irəli sürən L.S. Vıqotski, N.A. Bernştein, V.P. Zinçenko və A.V. Zaporojets öz tədqiqatlarında göstərirlər ki, rəssamın yaradıcılığı hisslərinin dərinliyi ilə stimullaşdırılır. Təsəvvür insan təcrübəsindən alınan elementlərdən qurulur, buna görə də uşaqların təsəvvürləri böyüklərdən daha zəifdir.

Digər tərəfdən, təcrübənin olmaması reproduktiv təsvirləri stimullaşdıran şüurun məhdudiyyətlərini aradan qaldırır. Təsəvvür insanın həyatı boyu inkişaf edir, lakin məktəbəqədər ya-

şın sonunda o səviyyəyə çatır ki, uşaq başqaları üçün başa düşülən bir şeyi təsvir etməyə hazır olur və onu bacarır.

Tədqiqatlarında uşaq yaradıcılığının müxtəlif növlərini təhlil edən N.N. Poddyakov belə nəticəyə gəlir ki, məktəbəqədər yaşda yaradıcılığın özəyi məhz uşağın təbii marağı, fəallığı, yeni bilik və təcrübənin yaradıcı transformasiyasını təzahür etdirən axtarış fəaliyyətidir. Yaradıcılıq bədii fəaliyyətin bütün mərhələlərində özünü göstərir. Bədii fəaliyyət, ilk növbədə, uşaqların müstəqil işinə və innovativ həll yollarının axtarışına yönəlmiş vəzifələrin həyata keçirilməsinə yönəldilmişdir [11, s. 76].

Dünyanı kəşf etməyin bir yolu rəsm çəkməkdir. Məktəbəqədər dövrdə uşaqlar həyatda, onları əhatə edən ətraf aləmdə gördükləri müxtəlif əşyaların rəsmini çəkməyə çox böyük maraq göstərir və onlar ətraf mühitdə baş verən hadisələri, onları əhatə edən əşyaları, müşahidə etdikləri gerçəkliyi öz rəsmlərində əks etdirməyə çalışırlar. Uşaqların çəkdikləri rəsmlər onların ətraf aləmi necə qavradığını, hadisə və obyektləri hansı şəkildə dərk etdiyini göstərən mühüm göstəricidir.

Müşahidələrimiz göstərir ki, kiçikyaşlı uşaqlar ətraf mühitdə olan hər bir obyektə maraq göstərir, onlara toxunmağa çalışırlar. Bu isə onların yüksək hərəkət aktivliyi və idrak maraqları ilə bağlıdır. Məktəbəqədər yaş dövründə uşaqların hərəkət aktivliyi onların psixi və idrak inkişafının əsas göstəricilərindən biridir. Bu yaş mərhələsində uşaqlar ətraf mühiti əsasən hərəkət və toxunma vasitəsilə dərk edirlər, lakin məktəbəqədər təhsil müəssisələrində uşaqların hərəkət və sərbəst təsviri fəaliyyətə olan təbii ehtiyacları hər zaman lazımi səviyyədə nəzərə alınmır. Bu isə uşaqların yaradıcı potensialının tam reallaşmasına mane olur.

J. Piajenin sensor-motor inkişaf nəzəriyyəsinə görə, uşağın idrak fəaliyyəti ilkin mərhələdə məhz hərəkət və hissi təcrübələr üzərində formalaşır. Uşaqlar əllərinin hərəkəti ilə müxtəlif izlər yaratmağa, barmaqla toxunaraq nöqtələr qoymağa, xətlər çəkməyə və ovuc izləri vasitəsilə böyük ölçülü təsvirlər formalaşdırmağa meyllidirlər. Bu fəaliyyətlər uşaqların incə motor bacarıqlarının, məkan təsəvvürlərinin və yaradıcı təxəyyülünün inkişafına mühüm təsir göstərir. İdrak fəaliyyətinin inkişafı təkcə uşaqda onu əhatə edən əşya və hadisələr barəsində biliklərin həcminin artmasından ibarət deyildir. Burada uşağın dərketməsi mühüm rol oynayır. Uşaq inkişaf etdikcə biliklər getdikcə daha çox müntəzəm, sistemli və əsaslandırılmış xarakter daşıyır [6, s. 204].

Tabaşir, karandaş və digər sadə təsviri vasitələr uşaqlar üçün yaradıcı ifadənin əlçatan forması olmaqla, onların özünüifadə imkanlarını genişləndirir və estetik qavrayışın formalaşmasına şərait yaradır.

Uşaqların tabaşir, kömür, karandaş və digər sadə vasitələrlə şəkil çəkməyə çalışması onların təbii yaradıcılıq inkişaf prosesinin ən vacib mərhələlərindən biridir. Uşaqlar bu materiallardan istifadə edərkən onların xüsusiyyətlərini də özü üçün kəşf edir:

- Taaşir – yumşaq olur, izləri iri olur.
- Kömür – tünd iz buraxır, asan yayılır.
- Karandaş –daha sərtdir, xətti nazikdir və s.
- Uşaq bu materialların fərqlərini təcrübədə görərək öyrənir.

Bu davranışın pedaqoji baxımdan bir neçə mühüm məqamı var:

1. Uşaq əlinin, barmaqlarının və gözünün koordinasiyasını idarə etməyi öyrənir. Bu isə yazı fəaliyyətinə hazırlığın əsasını qoyur.

2. Bu yaşda uşaq üçün şəkil çəkmək özünüifadə etmək üçün bir vasitədir. O, gördüyünü, hiss etdiyini, xəyalında canlandırdığını, düşündüyünü müxtəlif materiallarla əks etdirməyə çalışır və öz hisslərini, yaşantılarını, təsəvvürlərini paylaşırlar. Bu sosial- emosional inkişaf üçün çox vacibdir.

3. Uşaq üçün sadə bir xətt "ev", "günəş", "ana" ola bilər. Uşaq bu zaman artıq müxtəlif simvollarla düşünməyi öyrənir ki, bu da məktəbə hazırlıq mərhələsində çox vacibdir.

Rəsm uşağın bir şəxsiyyət kimi ümumi inkişafına təsir edir, onları azad edir, estetik zövqünü formalaşdırır və yaradıcılıq qabiliyyətini artırır.

Pablo Pikassonun fikrincə, "Hər uşaq rəssamdır. Çətinlik uşaqlıqdan sonra rəssam qalmaqdır".

Müxtəlif rəsm üsulları və qeyri-adi bədii üsullar uşaqlarda orijinal ideyaları ilhamlandırır və onların təxəyyülünü inkişaf etdirir. Bu zaman sərt təlimatlardan və ya ciddi nəzarətdən istifadə etmək olmaz, əksinə uşağa yaradıcılıq azadlığı vermək lazımdır. Qeyri-ənənəvi bədii rəsm üsullarından istifadə və tətbiqi yolu ilə uşaqların bədii yaradıcılığa marağını artırmaq mümkün-

dür. Bu baxımdan uşaqların tükənməz yaradıcılıq potensialının üzə çıxarılması üçün onları müşahidə etmək və yaxından tanımaq mütləqdir.

İşin metodologiyası elə qurulmalıdır ki, bədii və uşaqların vizual fəaliyyəti vasitəsilə uşaqlarda müstəqillik kimi keyfiyyətlər formalaşsın, təşəbbüs, yaradıcı fəaliyyət, bədii və yaradıcı fəaliyyətin müxtəlif növ və formalarında özünü həyata keçirməyə imkan verən, kompleksləri və məhdudiyyətləri azaldır.

Uşaqlar tədqiqat aparmağı sevirlər. Tədqiqatçılıq bacarığı uşaqların intellektual və yaradıcı potensialının inkişafında ən mühüm amillərdən biridir. Tədqiqat fəaliyyəti nə qədər müxtəlif və orijinal olarsa, son nəticədə yeni nəticə əldə etmək şansı bir o qədər çox olar və orijinallıq yaradıcılığın əlamətidir [9, s. 113].

Yaradıcılıq qabiliyyətlərinin inkişafı fərdi fərqliliklərə görə bütün uşaqlar üçün eyni olmaya bilər. Ancaq hər bir uşaq, inam və anlayışa əsaslanan dəstəkləyici mühitə sahib olmaq şərti ilə parlaq və istedadlı şəkildə yaratmağa qadirdir.

TRİZ – həm uşaqlara, həm də böyüklərə hər hansı çətin vəziyyətdə "başqa cür düşünməyi öyrədən" yaradıcı düşüncə metodudur. Bu metodun məktəbəqədər təhsil müəssisələrində təlim-tərbiyə prosesində tətbiqi müasir pedaqogikanın innovativ və səmərəli yanaşmalarından biri hesab olunur.

Uşaqların yaradıcı potensialının inkişafında TRİZ elementlərinin və yaradıcı tapşırıqların tətbiqi xüsusi əhəmiyyət daşıyır. TRİZ elementlərinin yaradıcı tapşırıqlarla birlikdə istifadə olunması uşaqların yaradıcı potensialını üzə çıxarmağa kömək edir və sərbəst fikrini ifadə edən, kreativ düşüncəyə malik olan, situasiyalara yenilikçi yanaşa bilən şəxsiyyət kimi formalaşmasına səbəb olur.

TRİZ metodologiyası uşaqlarda qeyri-standart düşünmə, problemin mahiyyətinə nüfuz etmə, müxtəlif həll yolları yaratma və müstəqil qərarvermə kimi bacarıqları inkişaf etdirir. TRİZ-in əsas prinsipləri-ziddiyyətlərin aşkara çıxarılması, məkan və zaman resurslarının düzgün qiymətləndirilməsi, təsəvvürün fəallaşdırılması və obyektlər arasında əlaqələrin modelləşdirilməsi-məktəbəqədər yaş dövrü üçün xüsusilə uyğundur.

Bu yanaşmanın uşaqlar üçün dəyəri bir neçə istiqamətdə özünü göstərir:

1. Uşaqda yaradıcı təfəkkürün formalaşmasına xidmət edir.

2. Uşağın problem həll etmə bacarıqlarını inkişaf etdirir.

3. Uşaqlarda təsəvvürün dərinləşməsinə və təxəyyülün güclənməsinə imkan yaradır.

4. Uşaqda müşahidəçilik, fərziyyə qurmaq, nəticə çıxarmaq, tədqiqatçılıq bacarığı inkişaf edir və bu isə sonrakı tədris mərhələlərində elmi təfəkkürün formalaşması üçün əsas baza rolunu oynayır.

Ümumiyyətlə, çoxvariantlı tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi uşaqda "bacarıram" fikrini daha da gücləndirir, özünəinamı artırır və öyrənməyə pozitiv münasibət formalaşdırır.

XVIII əsrin görkəmli fransız filosofu və yazıçısı Deni Didro deyirdi ki, "rəsm etməyin əhəmiyyətini savad öyrətmək qədər vacib səviyyəyə qaldıra bilən ölkə incəsənətin bütün növləri üzrə əksər məmləkətləri ötüb keçə bilər" (4, s.7).

Bu fikirlərdə də insanın, o cümlədən uşaq və yeniyetmələrin, məktəblilərin mənəvi zənginliyində incəsənətin çox böyük rol oynaması həyat fəlsəfəsi, təhlil və ümumləşdirmələr əsasında nəzərə çatdırılır. Heç şübhəsiz, elmi-nəzəri mahiyyəti ilə diqqəti cəlb edən bu fikirlər eyni zamanda bədii-estetik tərbiyə problemləri ilə məşğul olan mütəxəssislər, o cümlədən tərbiyəçi-müəllimlər üçün də əhəmiyyətlidir.

Nəticə. Məktəbəqədər yaşlı uşaqların yaradıcılıq potensialının ümumi xarakteristikası tədqiqat və axtarış fəaliyyəti formasında, habelə uşağın müstəqil yaradıcı fəaliyyətə hazırlığı və bacarığında özünü göstərən idrak ehtiyaclarıdır. Məktəbəqədər yaşlı uşaqların hərəkət fəaliyyəti onların idrak, estetik və yaradıcı inkişafında mühüm rol oynayır. Uşaqlar ətraf aləmi əsasən sensor-motor təcrübə vasitəsilə dərk edir, toxunma və hərəkət yolu ilə əşyaların xüsusiyyətlərini mənimsəyirlər. Barmaqla toxunma, xətlər və izlər yaratma kimi təsviri fəaliyyətlər uşaqların incə motor bacarıqlarının, məkan təsəvvürlərinin və yaradıcı təxəyyülünün formalaşmasına şərait yaradır. Bu baxımdan məktəbəqədər təhsil müəssisələrində uşaqların sərbəst hərəkət və yaradıcı fəaliyyət imkanlarının artırılması məqsədəuyğun hesab edilir.

Problemin aktuallığı. Qlobal dəyişikliklər, innovativ təlim texnologiyalarının genişlənməsi və müasir uşağın inkişaf ehtiyacları məktəbəqədər təhsil müəssisələrində yaradıcı şəxsiyyətin formalaşdırılması məsələsini həm nəzəri, həm də praktik ba-

xımdan xüsusi aktuallığa malik edir. Müasir təhsil sistemində yaradıcı, müstəqil düşünən və estetik zövqə malik şəxsiyyətin formalaşdırılması prioritet istiqamətlərdən biri hesab olunur.

Problemin elmi yeniliyi. Uşaqların yaradıcı potensialının inkişafında TRİZ elementlərinin və yaradıcı tapşırıqların tətbiqi xüsusi əhəmiyyət daşıyır. TRİZ elementlərinin yaradıcı tapşırıqlarla birlikdə istifadə olunması uşaqların yaradıcı potensialını üzə çıxarmağa kömək edir və sərbəst fikrini ifadə edən, kreativ düşüncəyə malik olan, situasiyalara yenilikçi yanaşa bilən şəxsiyyət kimi formalaşmasına səbəb olur.

Problemin praktik əhəmiyyəti. Problemin məzmunundan, orada yer alan fikirlərdən pedaqoji ali məktəblərin tələbələri, habelə məktəbəqədər təhsil müəssisələrində çalışan mütəxəssislər faydalana bilər.

Ədəbiyyat

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 19 iyun, 2009-cu il //Təhsil xəbərləri. – 2009 -cu il, №6, –s.12-57.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. //Azərbaycan müəllimi. –2013, 25 oktyabr.
3. K.D. Uşinski, Seçilmiş pedaqoji əsərləri. – Bakı: Azərnəşr, – 1953. –113 s.
4. Həbibov N.D. Rəssamlıqdan söhbət. Uşaqgəncnəşr, – Bakı: 1961. – 109 s.
5. Baxışova Ş.A. Təbiət bizim və uşaqlarımızın gələcəyidir // –Bakı: Təhsil İnstitutunun Elmi əsərləri, – 2025. №3, – s.246-251.
6. Baxışova, Ş.A. Məktəbəqədər təhsil: konseptual problemlər. Monoqrafiya / Ş.A. Baxışova. – Bakı: Elm və təhsil, – 2015. – 308 s.
7. İlyasov İ.İ. Müəllim sərişləliliyi şagird şəxsiyyətinin inkişaf etdirilməsinin mühüm amili kimi //– Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2024. №2, – s.16-19.
8. İbrahimov, F.N., Abdulrahmanov V.Ə. Analitik və evristik fəaliyyət növlərinin optimal münasibətlərini özündə ehtiva edən təlim sisteminin formalaşdırılması yolları //– Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi ə0sərləri, – 2024. № 5, – s.129-140.
9. Cəmilzadə, S.Ə. Müasir təhsil prosesində uşaqların potensial inkişafından istifadə // : Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –Bakı: -2016. №1. – s.112-115
10. Кузнецова, Л.В. Гармоническое развитие личности младшего школьника: Книга для учителя / Л.В. Кузнецова. – М.: Просвещение, – 1988, – 224с.
11. Кудрявцев В. Т., Рубцов В. В. Принцип развивающей интриги. К 90-летию Николая Николаевича Поддьякова // Культурно-историческая психология. – 2019.– Т. 15, № 3. – С. 133–134.
12. Леонтьев, А.Н. Проблемы развития психики. Изд-е 4-е. / А.Н. Леонтьев. – М., 1981. – 511 с.

Redaksiyaya daxil olub: 12.02.2026

UOT 373.2

Pərvanə İldırım qızı İmanova
pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0000-0002-9542-4804
E-mail: imanova.pervane@bk.ru
https://doi.org/10.69682/arti.2026.93(2).57-63

MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ PEDAQOJİ ÜNSİYYƏT TƏHSİLİN KEYFİYYƏTİNİ ARTIRAN AMİL KİMİ

Parvane Ildırım Imanova
doctor of philosophy in pedagogy
Azerbaijan State Pedagogical University

PEDAGOGICAL COMMUNICATION IN PRESCHOL EDUCATION AS A FACTOR IN IMPROVING THE QUALITY OF EDUCATION

Парвана Ильдырым гызы Иманова
доктор философии по педагогике
Азербайджанский Государственный Педагогический Университет

ПЕДАГОГИЧЕСКАЯ КОММУНИКАЦИЯ В ДОШКОЛЬНОМ ОБРАЗОВАНИИ КАК ФАКТОР ПОВЫШЕНИЯ КАЧЕСТВА ОБРАЗОВАНИЯ

Xülasə. Bu məqalə məktəbəqədər təhsildə pedaqoji ünsiyyətin mahiyyətini, psixoloji-pedaqoji əsaslarını və təhsil prosesinin keyfiyyətinə çoxşaxəli təsirini elmi müstəvidə təhlil edir. Tədqiqatda pedaqoji ünsiyyətin kommunikativ, interaktiv və perseptiv komponentlərinin məktəbəqədər yaş dövrünün xüsusiyyətləri ilə qarşılıqlı əlaqəsi nəzərdən keçirilir və onların uşağın şəxsiyyət kimi formalaşmasına təsir mexanizmləri müəyyənləşdirilir. Məqalədə göstərilir ki, pedaqoji ünsiyyət yalnız informasiya mübadiləsini deyil, həm də emosional, sosial və idrak inkişafını stimullaşdıran kompleks prosesdir. Tərbiyəçi-müəllim–uşaq münasibətlərində empatik yanaşma, pozitiv emosional fon, individual və diferensial yanaşmanın təmin edilməsi məktəbəqədər təlimin nəticəliliyini əhəmiyyətli dərəcədə artırır.

Tədqiqat nəticələri göstərir ki, səmərəli pedaqoji ünsiyyət sosial-emosional rifahı yüksəldir, uşaqlarda özünəinamın, təşəbbüskarlığın, ünsiyyət bacarıqlarının və tənqidi-idraki fəaliyyətin inkişafına şərait yaradır.

Açar sözlər: *pedaqoji ünsiyyət, məktəbəqədər təhsil, kommunikasiya, təhsil keyfiyyəti, sosial-emosional inkişaf, pedaqoji proses*

Abstract. This article provides a scientific analysis of the essence of pedagogical communication in preschool education, its psychological-pedagogical foundations, and its multidimensional impact on the quality of the educational process. The study examines the interaction between the communicative, interactive, and perceptive components of pedagogical communication and the developmental characteristics of preschool-aged children, highlighting the mechanisms through which these components influence personality formation. The findings reveal that pedagogical communication is not merely an exchange of information but a complex process that stimulates emotional, social, and cognitive development. Empathic teacher-child interaction, a positive emotional environment, and the implementation of individual and differentiated approaches significantly enhance the effectiveness of preschool instruction.

Results indicate that effective pedagogical communication contributes to social-emotional well-being, increases children's self-confidence, initiative, communication skills, and critical-cognitive activity.

Keywords: *pedagogical communication, preschool education, communicative competence, quality of instruction, emotional development, social skills*

Аннотация. В данной статье проводится научный анализ сущности педагогического общения в дошкольном образовании, его психолого-педагогических основ и многопланового влияния на ка-

чество образовательного процесса. Рассматривается взаимодействие коммуникативного, интерактивного и перцептивного компонентов педагогического общения с возрастными и индивидуальными особенностями детей дошкольного возраста, а также раскрываются механизмы их воздействия на формирование личности ребёнка. Установлено, что педагогическое общение представляет собой не только обмен информацией, но и сложный процесс, стимулирующий эмоциональное, социальное и познавательное развитие ребёнка. Эмпатийное взаимодействие воспитателя и ребёнка, позитивная эмоциональная атмосфера, индивидуальный и дифференцированный подход существенно повышают результативность дошкольного обучения.

Результаты исследования показывают, что эффективное педагогическое общение способствует повышению социально-эмоционального благополучия, формированию уверенности в себе, инициативности, коммуникативных навыков и критико-познавательной активности детей.

Ключевые слова: *педагогическое общение, дошкольное образование, коммуникативная компетентность, качество обучения, эмоциональное развитие, социальные навыки*

Məktəbəqədər yaş dövrü insan inkişafında fundamental mərhələ hesab olunur və bu mərhələ uşağın sosial-emosional, idraki, nitqi və şəxsiyyətyönlü inkişafının təməlini təşkil edir. Müasir tədqiqatlar göstərir ki, bu dövrdə uşağın əldə etdiyi ilkin sosial təcrübə, ünsiyyət vərdişləri və emosional mühit onun gələcək təhsil nailiyyətlərinə, fərdi davranış modellərinə və sosial uyğunlaşma bacarıqlarına bilavasitə təsir göstərir. Bu baxımdan məktəbəqədər təhsil müəssisələrində pedaqoji ünsiyyətin təşkili təkcə kommunikasiya vasitəsi kimi deyil, həm də inkişafetdirici və tərbiyəedici prosesin əsas struktur komponenti kimi xüsusi elmi-pedaqoji əhəmiyyət kəsb edir.

Məktəbəqədər təhsil proqramı (Kurikulum) (1) uşaqların inkişaf sahələrinə, o cümlədən sosiallaşma və ünsiyyət bacarıqlarına xüsusi diqqət ayırır.

Pedaqoji ünsiyyət tərbiyəçi-müəllimin təlim-tərbiyə prosesində uşaqlarla qarşılıqlı fəaliyyətini tənzimləyən, onların emosional rifahını təmin edən, psixoloji təhlükəsizlik mühitini yaradan və hər bir uşağın fərdi inkişaf trayektoriyasını dəstəkləyən çoxplanlı kommunikativ sistemdir. Ünsiyyətin keyfiyyəti uşağın özünü ifadə edə bilməsi, müstəqil qərar verməsi, tədqiqatçı davranış nümayiş etdirməsi, sosial bacarıqlar qazanması və ətraf mühitə adaptasiya olunması baxımından həlledici rol oynayır. Bu səbəbdən pedaqoji ünsiyyət təkcə metodik yanaşma kimi deyil, həm də tərbiyəçi-müəllimin peşəkar səriştələrinin ən mühüm göstəricisi kimi öyrənilir.

Müasir yanaşmalar məktəbəqədər təhsil prosesində kommunikativ mədəniyyətin, ünsiyyət etikası və empatiyanın tərbiyəçi-müəllimlər üçün strateji bacarıqlar olduğunu vurğulayır. İnkişafetdirici təlim mühitinin yaradılması, individual və diferensial yanaşmanın tətbiqi, pozitiv emosional atmosferin formalaşdırılması, tərbiyəçi-müəllim-uşaq və tərbiyəçi-müəllim-valideyn əməkdaşlığının düzgün təşkil olunması pedaqoji ünsiyyətin keyfiyyətindən birbaşa asılıdır. Bununla yanaşı, ünsiyyət prosesində verbal və qeyri-verbal vasitələrin məqsədyönlü istifadəsi uşaqlarda özünəinamın formalaşması, nitq inkişafı, kommunikativ təşəbbüskarlıq və sosial adaptasiya üçün mühüm şərtlər yaradır.

Təhsil sistemində aparılan islahatlar fonunda məktəbəqədər təhsil müəssisələrində pedaqoji ünsiyyətin elmi əsaslara söykənən, səmərəli və humanist prinsiplər əsasında təşkil olunması xüsusi aktuallıq kəsb edir. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda (2) məktəbəqədər təhsilin məzmununda “ünsiyyət mədəniyyəti” kimi keyfiyyət meyarlarını təmin etməyi tələb edir.

Təhsilin keyfiyyətinin yüksəldilməsi yalnız proqram və metodik yeniliklərlə deyil, həm də tərbiyəçi-müəllimin uşaqlarla qarşılıqlı əlaqəsinin səmərəlilik səviyyəsi ilə müəyyən olunur. Təlimin mənalandırma əsasında qurulması müəllim-uşaq ünsiyyətinin keyfiyyətindən asılıdır [4, s.37-55]. Bu baxımdan pedaqoji ünsiyyət tədris prosesinin səmərəliliyini artıran əsas amillərdən biri kimi elmi tədqiqatların diqqət mərkəzindədir.

Bu məqalənin məqsədi məktəbəqədər təhsildə pedaqoji ünsiyyətin mahiyyətini, onun psixoloji-pedaqoji funksiyalarını və təhsilin keyfiyyətinə təsir mexanizmlərini sistemli şəkildə təhlil etmək, həmçinin tərbiyəçi-müəllimin kommunikativ səriştələrinin təlim prosesində oynadığı rolu elmi aspektdən əsaslandırmaqdır. Aparılan təhlil göstərir ki, pedaqoji ünsiyyətin düz-

gün təşkili uşaqların harmonik inkişafına, idrak fəallığının artmasına və təhsilin nəticəliliyinin yüksəlməsinə mühüm töhfə verir. Bu da öz növbəsində pedaqoji ünsiyyətin müasir məktəbəqədər təhsilin əsas strateji komponenti olduğunu bir daha təsdiq edir.

Pedaqoji ünsiyyət təhsil prosesinin əsas komponentlərindən biridir və tərbiyəçi-müəllimlə uşaq arasında yaranan qarşılıqlı əlaqəni ifadə edir. Bu ünsiyyət yalnız informasiyanın ötürülməsi ilə məhdudlaşmır, o, həm də uşağın sosial, emosional və intellektual inkişafına xidmət edən çoxşaxəli bir prosesdir. Pedaqoji ünsiyyətin mahiyyəti onun məqsədli, planlı və sistemli şəkildə təşkil olunması ilə izah olunur. Tərbiyəçi-müəllim tərəfindən göstərilən diqqət, qayğı, emosional dəstək və qarşılıqlı hörmət uşaqların təhsil prosesinə marağını artırır, onların yaradıcı və tənqidi düşüncəsini inkişaf etdirir. Şəxsiyyətyönlü təlim və tərbiyə texnologiyaları təhsil prosesinin təşkilinin iki əsas modelində – tərbiyəçi-müəllimlə uşaqların birgə fəaliyyəti və uşağın müstəqil fəaliyyəti ilə ön plana çəkilir [3, s.28].

Pedaqoji ünsiyyətin əsas anlayışlarını açmaq üçün onu bir neçə aspektdən nəzərdən keçirmək mümkündür. Əvvəlcə ünsiyyətin təhsil kontekstindəki funksiyasına diqqət yetirmək vacibdir. Burada ünsiyyət yalnız bilik ötürmək vasitəsi deyil, o, həm də uşağın şəxsiyyətini formalaşdıran, onun davranış normalarını müəyyən edən və sosial münasibətlərini inkişaf etdirən bir mexanizmdir. Uşaq tərbiyəçi-müəllimlə qarşılıqlı əlaqədə olduqda, yalnız yeni informasiyalar qazanmaqla kifayətlənmir, həm də sosial bacarıqlarını təkmilləşdirir, emosiyalarını idarə etməyi öyrənir və özünəinamını artırır [5, s.28].

Pedaqoji ünsiyyətin mahiyyətini düzgün dərk etmək üçün onun prinsiplərini və funksiyalarını nəzərə almaq lazımdır. Əsas prinsiplər arasında qarşılıqlı hörmət və etimad, uşağın şəxsiyyətinə dəyər verməк, açıq və səmimi dialoq qurmaq, fərdi xüsusiyyətləri nəzərə almaq və emosional dəstək verməк önəmli yer tutur. Bu prinsiplər təmin olunmadıqda, ünsiyyət formal xarakter alır və uşağın inkişafına müsbət təsir göstərmək imkanını itirir.

Pedaqoji ünsiyyət həmçinin psixoloji əsaslarla formalaşır. Məktəbəqədər dövrdə uşaqlar emosiyalarla idarə olunurlar, diqqətləri tez yayılır və yeni informasiyalara böyük həvəs göstərirlər. Tərbiyəçi-müəllimin nitqi, davranış tərzi, reaksiyaları və verilən tapşırıqlar uşağın psixoloji vəziyyətinə birbaşa təsir göstərir. Səmimi, mehriban və dəstəkçi ünsiyyət uşağın təlimə marağını artırır, özünü ifadə etməsinə şərait yaradır və sosial bacarıqlarını inkişaf etdirir. Əks halda, sərt və formal ünsiyyət uşaqlarda təhsil motivasiyasını azaldır, özünəinamın zəifləməsinə və emosional gərginliklərin artmasına səbəb olur.

Pedaqoji ünsiyyətin nəzəri əsasları həm də müxtəlif pedaqoji nəzəriyyələrdən qaynaqlanır. Vıqotskinin "yaxın inkişaf zonası" anlayışı göstərir ki, uşaq müəyyən bacarıqları böyüklərin köməyi ilə daha tez və səmərəli şəkildə mənimsəyir. Bu kömək ünsiyyət yolu ilə həyata keçirilir və uşağın fərdi inkişafını dəstəkləyir. Müasir pedaqogika isə fərdi yanaşma, interaktiv üsullar və yaradıcı metodların pedaqoji ünsiyyətdə tətbiqini ön plana çıxarır.

Bronfenbrennerə görə, uşağın inkişafına ən güclü təsir edən mikrosistem tərbiyəçi–uşaq qarşılıqlı əlaqəsidir [6, s.3]. Uşaq tərbiyəçi-müəllimlə qarşılıqlı əlaqədə olduqda, yalnız təlim materialını mənimsəmir, həm də sosial normativləri öyrənir, emosional bacarıqlarını inkişaf etdirir və yaradıcı yanaşmalarını sərbəst ifadə edir.

Pedaqoji ünsiyyət yalnız tədris prosesinin texniki bir hissəsi deyil, eyni zamanda uşağın fərdi inkişafının və sosiallaşmasının əsas vasitəsidir. Onun mahiyyəti məqsədli, planlı və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ünsiyyətin qurulmasında, uşağın emosional və intellektual potensialının inkişaf etdirilməsində, təhsil keyfiyyətinin artırılmasında özünü göstərir. Müasir təhsil sistemində pedaqoji ünsiyyətin nəzəri əsaslarını dərindən öyrənmək, onu praktikada səmərəli tətbiq etmək və uşaqların fərdi xüsusiyyətlərinə uyğunlaşdırmaq olduqca vacibdir.

Məktəbəqədər pedaqogikada pedaqoji ünsiyyətin funksiyaları uşaqların təlim-tərbiyə prosesində aktiv iştirakını təmin edən, onların sosial, emosional və intellektual inkişafını dəstəkləyən əsas mexanizmlərdən biridir. Effektiv pedaqoji ünsiyyət üçün aktiv dinləmə və "mən-mesajları" mühüm elementlərdir [7, s. 45].

Pedaqoji ünsiyyətin funksiyalar bir-biri ilə sıx bağlıdır və uşağın harmonik inkişafı üçün qarşılıqlı şəkildə fəaliyyət göstərir. Didaktik, tərbiyəvi, inkişafetdirici və sosiallaşma funksiyalarının hər biri təhsil prosesində öz rolunu oy-

nayır və təcrübədə müxtəlif üsul və metodlarla həyata keçirilir.

Didaktik funksiyanın həyata keçirilməsində əsas məqsəd uşaqlara yeni biliklərin, bacarıqların və informasiya parçalarının mənimsədilməsini təmin etməkdir. Məsələn, riyaziyyat oyunları və ya rənglər haqqında interaktiv məşğələlər uşaqlara konseptual bilikləri öyrətmək üçün istifadə olunur. Tərbiyəçi-müəllim bu zaman sadə, aydın və maraqlı üsullardan yararlanır, sual-cavab oyunları, şəkillər, hekayələr və praktiki fəaliyyətlər vasitəsilə uşaqların diqqətini cəlb edir. Bu prosesdə ünsiyyət yalnız məlumat ötürmək deyil, uşağın öyrənmə marağını artırmaq və bilikləri aktiv şəkildə qavramasını təmin etmək məqsədini daşıyır. Uşaqlar tərbiyəçi-müəllimlə dialoq qurduqda, suallar verdikdə və fikirlərini ifadə etdikdə didaktik funksiyanın səmərəliyi maksimum səviyyədə təmin olunur.

Tərbiyəvi funksiyası isə uşaqların davranış, əxlaqi dəyərlər və sosial normalarının formalaşmasına xidmət edir. Tərbiyəçi-müəllim uşaqlara qarşılıqlı hörmət, əməkdaşlıq, paylaşma və məsuliyyət kimi dəyərləri ötürərkən ünsiyyətdən aktiv istifadə edir. Məsələn, uşaqlara birgə oyun zamanı qaydalara riayət etməyi öyrətmək və ya tapşırıqları birlikdə yerinə yetirərkən davranış nümunələri göstərmək tərbiyəvi funksiyanı həyata keçirir. Bu yanaşma uşaqlara yalnız biliyi deyil, həm də etik və sosial davranış qaydalarını mənimsəmək imkanı verir. Tərbiyəçi-müəllimin davranışları, sözləri və reaksiyaları uşaqların özünü dəyərləndirməsinə və ətraf mühitlə münasibətlərini düzgün qurmasına kömək edir.

İnkişafetdirici funksiyası uşaqların intellektual, emosional və yaradıcı bacarıqlarının inkişafına yönəlir. Tərbiyəçi-müəllim uşaqlarla ünsiyyət zamanı onları düşünməyə, problemləri həll etməyə, yaradıcılıq tələb edən tapşırıqları yerinə yetirməyə təşviq edir. Məsələn, uşaq hekayəsi əsasında rəsmlər çəkmək, müxtəlif konstruksiyalar hazırlamaq və ya rollu oyunlarda fərqli situasiyaları idarə etmək inkişafetdirici funksiyanın praktik nümunələrindəndir. Bu funksiyanın məqsədi uşaqların yalnız hazır bilikləri qavraması deyil, həm də öz fikirlərini ifadə etməyi, yaradıcı yanaşmalar tətbiq etməyi və öyrənməyə maraq göstərməyi öyrətməkdir. Ünsiyyət bu halda uşağın öyrənmə prosesində fəal iştirakını təmin edən ən güclü vasitəyə çevrilir.

Sosiallaşma funksiyası isə uşaqların kollektivdə davranış qaydalarını öyrənməsi, tərbiyəçi-müəllim və digər insanlarla münasibət qurması və gələcək sosial həyatına hazırlıq baxımından əhəmiyyətlidir. Məktəbəqədər yaş dövründə uşaqların sosial bacarıqları müəllimlə ünsiyyət prosesində formalaşır [8, s.154].

Məktəbəqədər yaş dövründə uşaq ilk dəfə kollektivdə digər uşaqlarla və böyüklərlə qarşılıqlı əlaqəyə girir. Bu ünsiyyət sayəsində uşaq əməkdaşlıq etməyi, paylaşmağı, digərlərinin hisslərinə hörmət etməyi və kollektivdə məsuliyyət daşımağı öyrənir. Məsələn, uşaqlar qrup işi zamanı tapşırıqları birlikdə yerinə yetirərkən tərbiyəçi-müəllim onların ünsiyyətini yönləndirir, münaqişələri həll etməyə yardım edir və qarşılıqlı hörmətin vacibliyini vurğulayır. Bu funksiyanın səmərəliliyi uşaqların sosial bacarıqlarının inkişafına və gələcəkdə cəmiyyətə inteqrasiyasına birbaşa təsir göstərir.

Müşahidələr göstərir ki, bu funksiyaların birgə və balanslı şəkildə tətbiqi məktəbəqədər təhsil prosesinin səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Məsələn, interaktiv oyunlar və layihə əsaslı fəaliyyətlər uşaqların həm didaktik, həm inkişafetdirici, həm də sosiallaşma funksiyalarını eyni zamanda həyata keçirməyə imkan verir. Eyni zamanda, tərbiyəçi-müəllimin səmimi və dəstəkçi davranışı tərbiyəvi funksiyanı gücləndirir, uşaqların emosional sabitliyini təmin edir və kollektivdə harmonik münasibətlərin qurulmasına kömək edir.

Məktəbəqədər pedaqogikada ünsiyyətin funksiyaları bir-birini tamamlayır və uşağın hərtərəfli inkişafını təmin edir. Didaktik funksiyası bilik və bacarıqların mənimsənilməsini təmin edir, tərbiyəvi funksiyası sosial və əxlaqi davranışların formalaşmasını dəstəkləyir, inkişafetdirici funksiyası intellektual və kreativ bacarıqları gücləndirir, sosiallaşma funksiyası isə uşaqların kollektivdə uyğunlaşmasına və gələcək sosial həyat üçün hazırlığına şərait yaradır. Müasir pedaqoji yanaşmalar bu funksiyaların balanslı və məqsədli şəkildə həyata keçirilməsini önə çıxarır, uşaqların təhsil keyfiyyətini və fərdi inkişafını maksimum səviyyəyə çatdırır.

Müasir pedaqoji psixologiyada ünsiyyət uşağın təlim-tərbiyə prosesində və sosial inkişafında mərkəzi rol oynayan əsas mexanizm kimi qəbul edilir. Bu sahədə ünsiyyət yalnız məlumat ötürülməsi və tapşırıqların yerinə yetirilməsi de-

yil, həm də uşağın emosional, sosial və intellektual inkişafını təmin edən çoxşaxəli bir proses kimi təhlil olunur. Pedaqoji psixologiyada ünsiyyətin öyrənilməsi məqsədilə müxtəlif modellər hazırlanmış və onların praktik tətbiqi pedaqoji fəaliyyətin səmərəliliyini artırmaq üçün istifadə olunur.

Ünsiyyət modelləri, əsasən, tərbiyəçi-müəllim-uşaq qarşılıqlı əlaqəsinin strukturu, komponentləri və nəticələrinin vizual və nəzəri şəkildə izah edilməsinə xidmət edir. Bu modellər pedaqoji prosesdə ünsiyyətin müxtəlif səviyyələrini, funksiyalarını və rolunu başa düşmək üçün istifadə olunur. Müasir pedaqoji psixologiyada ən çox istifadə olunan modellər arasında lineer modeli, qarşılıqlı və sistemli modellər xüsusi əhəmiyyət kəsb edir [9, s.25].

Lineer model ünsiyyəti birbaşa məlumat ötürülməsi prosesi kimi təsvir edir. Bu modelə görə, tərbiyəçi-müəllim məlumatı ötürür, uşaq onu qavrayır və tətbiq edir. Lineer model sadə və aydın olmaqla yanaşı, ünsiyyətin qarşılıqlı təsirini və emosional aspektlərini tam əhatə etmir. Praktikada bu model əsasən sadə informativ tapşırıqların yerinə yetirilməsində, məsələn, rəqəmlərin, hərflərin öyrədilməsində istifadə olunur.

Qarşılıqlı ünsiyyət modeli isə ünsiyyətin interaktivliyini və qarşılıqlı təsirini vurğulayır. Bu modeldə tərbiyəçi-müəllim yalnız məlumat ötürən deyil, həm də uşağın reaksiyalarını nəzərə alan, onun suallarına cavab verən və davranışlarını müşahidə edən tərəf kimi çıxış edir. Müasir pedaqogikada bu model xüsusilə vacibdir, çünki uşaqların fərdi xüsusiyyətlərini, öyrənmə sürətini və emosional vəziyyətini nəzərə almağa imkan verir. Praktik nümunə olaraq, tərbiyəçi-müəllim uşaqların fikirlərini dinləyir, onlara yönləndirici suallar verir, oyun və layihə əsaslı fəaliyyətlərlə öyrənməni aktivləşdirir. Qarşılıqlı ünsiyyət modeli uşaqların öyrənmə motivasiyasını artırır və onların təhsil prosesinə aktiv iştirakını təmin edir.

Sistemli ünsiyyət modeli isə ünsiyyəti kompleks və çoxşaxəli bir proses kimi təqdim edir. Bu model tərbiyəçi-müəllim-uşaq ünsiyyətini müxtəlif komponentlər – məlumat ötürülməsi, emosional dəstək, sosial qarşılıqlı təsir və inkişafetdirici fəaliyyət – əsasında təhlil edir. Sistemli model həmçinin ünsiyyətin təhsil nəticələrinə təsirini, uşağın fərdi və kollektiv inkişafını, sosial bacarıqların formalaşmasını nəzərə alır. Praktikada bu model tərbiyəçi-müəllimlərin fəaliyyətinin planlanması və qiymətləndirilməsi üçün baza rolunu oynayır. Məsələn, tərbiyəçi-müəllim məşğələ zamanı didaktik və inkişafetdirici üsulları birləşdirir, uşaqların emosional vəziyyətini müşahidə edir, kollektiv fəaliyyətlər təşkil edir və fərdi yanaşmanı tətbiq edir.

Müasir pedaqogikada ünsiyyət modelləri eyni zamanda verbial və qeyri-verbial ünsiyyət aspektlərini də nəzərə alır. Verbal ünsiyyət sözlər, izahatlar, suallar və dialoqlar vasitəsilə həyata keçirilir. Qeyri-verbal ünsiyyət isə jestlər, mimikalar, baxışlar, emosional ifadələr və bədən dili vasitəsilə təzahür edir. Tərbiyəçi-müəllim və uşaq arasında səmimi və harmonik ünsiyyət yalnız hər iki ünsiyyət formasının balanslı tətbiqi ilə mümkün olur. Məsələn, tərbiyəçi-müəllim uşağın suallarına cavab verərkən səmimi təbəssüm edir və jestlərlə izahı dəstəkləyir; bu, uşağın emosional rahatlığını artırır və öyrənmə prosesini aktivləşdirir.

Beləliklə, ünsiyyət modelləri təlim-tərbiyə prosesinin kompleks və çoxşaxəli olduğunu göstərir. Lineer model sadə informasiyanın ötürülməsinə yönəlibsə, qarşılıqlı model uşağın fəal iştirakı və interaktiv öyrənməsini təmin edir. Sistemli model isə bütün ünsiyyət komponentlərini birləşdirərək uşağın intellektual, sosial və emosional inkişafına təsirini nəzərə alır. Verbal və qeyri-verbal ünsiyyət vasitələrinin balanslı istifadəsi, fərdi yanaşma prinsiplərinin tətbiqi və yaxın inkişaf zonası konsepsiyasının nəzərə alınması ünsiyyətin səmərəliliyini artırır və məktəbəqədər təhsildə uşaqların hərtərəfli inkişafını təmin edir.

Təhsil və ünsiyyət arasında qarşılıqlı əlaqəni izah edən bir çox nəzəri yanaşmalar mövcuddur. Pedaqoji araşdırmalarda ünsiyyət "tədrisin ruhu" adlandırılır. Bu yanaşmaya görə, məşğələ yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmamalıdır, onun əsas məqsədi uşağın düşüncə, yaddaş və emosional inkişafını stimullaşdırmaqdır. Ünsiyyət bu prosesin vasitəsi kimi çıxış edir.

Ünsiyyətin təhsil keyfiyyətinə təsiri bir neçə əsas istiqamətdə özünü göstərir:

1. Motivasiya və marağın artırılması. Səmimi və qarşılıqlı hörmətə əsaslanan ünsiyyət uşağın öyrənməyə marağını artırır. Uşaq özünü təhlükəsiz və dəyərli hiss etdikdə, məşğələyə daha çox maraq göstərir və öyrənməyə aktiv şəkildə qoşulur. Səmərəli kommunikasiya uşağın

təlimə marağını artırır və daxili motivasiyanın formalaşmasına şərait yaradır [10, s.56].

2. Yaradıcılıq və tədqiqat bacarıqlarının inkişafı. Tərbiyəçi-müəllim uşağın ideyalarına açıq olduqda və onu təşviq etdikdə, uşaq sərbəst düşünür, fərqli yanaşmalar sınayır, problemləri kreativ şəkildə həll etməyə çalışır. Bu isə təhsil keyfiyyətini birbaşa yüksəldir.

3. Sosial bacarıqların formalaşması. Ünsiyyətin keyfiyyəti uşağın həmyaşıdlarla münasibətinə də təsir edir. Tərbiyəçi-müəllim nümunəvi ünsiyyət göstərdikdə, uşaq paylaşmağı, əməkdaşlıq etməyi və başqasının fikrinə hörmət etməyi öyrənir. Sosial bacarıqların inkişafı isə təhsil mühitində harmoniyanın təmin edilməsinə və uşaqların kollektivdə fəal fəaliyyət göstərməsinə imkan yaradır. Vıqotski və Banduranın sosial öyrənmə nəzəriyyələrinə görə, uşaq sosial davranış nümunələrini ünsiyyət vasitəsilə mənimsəyir, rol davranışları formalaşdırır və kollektiv fəaliyyətə adaptasiya olunur .

4. Emosional sabitlik və psixoloji rahatlıq. Tərbiyəçi-müəllimlə uşağın səmimi ünsiyyəti onun emosional vəziyyətini stabilləşdirir, stress və qorxu hissini azaldır. Uşaqlar məşğələlərdə daha sərbəst olur, tədris prosesində uğur əldə etməyə meylli olurlar. Empatik kommunikasiya təlimin motivasiyaedici təsirini gücləndirir [11, s.65].

Müasir pedaqoji araşdırmalar göstərir ki, tərbiyəçi-müəllim-uşaq ünsiyyətinin keyfiyyəti uşağın öyrənmə tempinə, yaddaşın işləmə sürətinə və anlayış səviyyəsinə də təsir göstərir. Məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətini müəyyən edən əsas amil tərbiyəçi-müəllim-uşaq münasibətlərinin xarakteridir. B. Hamre və R. Piantanın apardığı tədqiqatlar göstərir ki, pedaqoji ünsiyyətin keyfiyyəti uşağın həm emosional rifahına, həm də akademik nailiyyətlərinə birbaşa təsir edən ən güclü prediktordur [12, s.458-477].

Azərbaycan məktəbəqədər təhsil sistemində də ünsiyyət-təhsil keyfiyyəti qarşılıqlı asılılığının əhəmiyyəti böyükdür. Müasir dövrdə valideynlər yalnız uşağın bilik səviyyəsini deyil, onun sosial və emosional inkişafını da diqqət mərkəzinə gətirirlər. Bu isə tərbiyəçi-müəllimdən yalnız bilikləri çatdırmağı yox, həm də yüksək səviyyəli ünsiyyət bacarıqları ilə uşaqları dəstəkləməyi tələb edir.

Ümumiyyətlə, ünsiyyət və təhsil keyfiyyəti bir-birindən ayrılmaz anlayışlardır. Keyfiyyətli təhsil üçün mütləq olaraq səmimi, qarşılıqlı hörmətə əsaslanan, uşağın fərdi xüsusiyyətlərini nəzərə alan pedaqoji ünsiyyət təmin olunmalıdır. Əks halda, təlimin səmərəliliyi azalır, uşaqların öyrənməyə marağı zəifləyir və təhsil prosesi formal xarakter alır.

Problemin aktuallığı. Məktəbəqədər yaş dövrü uşaqların sosial-emosional və idrak inkişafında pedaqoji ünsiyyətin rolu böyükdür. Müasir təhsil yanaşmaları göstərir ki, təlimin keyfiyyəti yalnız metod və texnologiyalarla deyil, tərbiyəçi-müəllimin kommunikativ səriştələri və uşaqlarla qarşılıqlı ünsiyyətin səviyyəsi ilə müəyyən olunur. Azərbaycanda məktəbəqədər təhsilin yenilənməsi və kurikulum islahatları mövzunun aktuallığını artırır.

Problemin elmi yeniliyi. Tədqiqat pedaqoji ünsiyyətin strukturunu (kommunikativ, interaktiv, perseptiv) sistemli şəkildə təqdim edir və onun məktəbəqədər yaşlı uşaqların sosial-emosional inkişafı, idrak fəallığı və motivasiyasına təsirini elmi cəhətdən əsaslandırır.

Problemin praktik əhəmiyyəti. Tədqiqat nəticələri məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin kommunikativ səriştələrinin inkişaf etdirilməsi, ünsiyyət prosesinin optimallaşdırılması və uşaqların sosial-emosional inkişafının dəstəklənməsi üçün metodik tövsiyələr hazırlamağa imkan verir.

Ədəbiyyat

1. Məktəbəqədər təhsil proqramı (kurikulum). – Bakı: ATİ, –2022. – 54 s.
2. "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 14.04.2017, № 585-VQ
3. Cəfərova, L. Müasir dövrdə məktəbəqədər təhsilə baxış. "Məktəbəqədər və ibtidai təhsil", -2025. N- 1, s.28.
4. Bruner J. The Culture of Education. –Cambridge, MA: Harvard University Press, –1996. – səh. 37–55. Dialoji ünsiyyət, mənalandırma prosesləri və təhsilin mədəni konteksti.
5. Vıqotski L.S. Mind in Society: The Development of Higher Psychological Processes. – Cambridge, MA: Harvard University Press, –1978. –səh. 79–91

6. Bronfenbrenner U. The Ecology of Human Development: Experiments by Nature and Design. – Cambridge, MA: Harvard University Press, –1979. – səh. 3–40.
7. Gordon T. Teacher Effectiveness Training. – New York: Three Rivers Press, –2003. –səh. 45–78.
8. Alekseyeva M.M., Kravtsov G.G. Psixologiya Doxkolnıqo Vozrasta. –Moskva: Akademiya, –2010. – səh. 154–176.
9. Malaguzzi, L. The Hundred Languages of Children: The Reggio Emilia Approach to Early Childhood Education. –Norwood, NJ: Ablex Publishing, –1993. – səh. 25–38.
10. Deci, E.L., & Ryan, R.M. Intrinsic Motivation and Self-Determination in Human Behavior. –New York: Plenum Press, –2000. – səh. 56–72.
11. Noddings, N. Caring: A Relational Approach to Ethics and Moral Education. – Berkeley: University of California Press, –2005. –səh. 65–84.
12. Hamre, B. K., & Pianta, R. C. (2007). Classroom interactions as predictors of early learning outcomes. Early Childhood Research Quarterly, 22(4), 458–477. https://doi.org/10.1016/j.ecresq.2007.04.001

Redaksiyaya daxil olub: 25.12.2025

UOT 373.3

Hafiz Məmmədhüseyn oğlu Əliyev
Bakı Slavyan Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-6564-5437
E-mail: hafiz.eliyev.52@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(2).64-69

İBTİDAİ SİNİF MÜƏLLİMİNİN PEDAQOJİ MÜNAQİŞƏLƏRİN QARŞISININ ALINMASINA HAZIRLANMASININ YOLLARI

Hafiz Mammadhuseyn Aliyev
associate professor at Baku Slavic University,
doctor of philosophy in pedagogy

WAYS TO PREPARE PRIMARY TEACHERS TO PREVENT PEDAGOGICAL CONFLICT

Хафиз Мамедгусейн оглы Алиев
доцент Бакинского Славянского Университета,
доктор философии по педагогике

ПУТИ ПОДГОТОВКИ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ К ПРЕДОТВРАЩЕНИЮ ПЕДАГОГИЧЕСКИХ КОНФЛИКТОВ

Xülasə. Məqalədə ibtidai sinif müəlliminin pedaqoji münaqişələrin islah edilməsinə hazırlanmasının elmi-nəzəri və praktik tərəfləri araşdırılır. Rus dilindəki elmi mənbələrdə təqdim olunan yanaşmalar əsasında müəllimin konfliktoloji hazırlığının mahiyyəti, onun əsas formaları və metodları sistemləşdirilir. İbtidai sinif şagirdlərinin yaş, fərdi və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla müəllimin peşə hazırlığının münaqişələrin səmərəli yolla aradan qaldırlmasında həlledici rol oynadığı əsaslandırılır. Müəllimin ünsiyyət mədəniyyəti, psixoloji savadlılığı və reflektiv bacarıqları münaqişələrin idarə olunmasının əsas şərti kimi təqdim edilir.
Açar sözlər: *ibtidai sinif, pedaqoji münaqişə, müəllimin peşə hazırlığı, münaqişələrin idarə olunması, konfliktoloji sərişdə*

Abstract. The article examines the scientific-theoretical and practical aspects of preparing a primary school teacher for the correction of pedagogical conflicts. Based on the approaches presented in scientific sources in Russian, the essence of the teacher's conflictological training, its main forms and methods are systematized. Taking into account the age, individual and psychological characteristics of primary school students, it is substantiated that the teacher's professional training plays a decisive role in the effective resolution of conflicts. The teacher's communication culture, psychological literacy and reflective skills are presented as the main conditions for conflict management.
Keywords: *primary school, pedagogical conflict, teacher professional training, conflict management, conflictological competence*

Аннотация. В статье исследуются научно-теоретические и практические аспекты подготовки учителей начальных классов к разрешению педагогических конфликтов. На основе подходов, представленных в научных источниках на русском языке, систематизирована сущность конфликтологической подготовки учителя, её основные формы и методы. Обосновывается, что профессиональная подготовка учителя играет решающую роль в эффективном разрешении конфликтов с учётом возрастных, индивидуальных и психологических особенностей учащихся начальных классов. Коммуникативная культура учителя, его психологическая грамотность и рефлексивные навыки рассматриваются как основное условие управления конфликтами.

Ключевые слова: *начальный класс, педагогический конфликт, профессиональная подготовка учителя, управление конфликтами, конфликтологическая компетентность*

Müasir təhsil sistemində pedaqoji münaqişələr təlim-tərbiyə prosesinin obyektiv və qaçılmaz tərkib hissələrindən biri kimi çıxış edir. Təlim prosesində müxtəlif maraqlar, mövqelər və davranış modellərinin toqquşması nəticəsində yaranan bu münaqişələr xüsusilə ibtidai siniflərdə daha həssas səciyyə daşıyır. Bu, bir tərəfdən şagirdlərin yaş və psixoloji xüsusiyyətləri, digər tərəfdən isə müəllimin pedaqoji fəaliyyətinin özünəməxsus xüsusiyyətilə izah edilir.

Pedaqoji-psixoloji ədəbiyyatda [5;6;7;8] qeyd edildiyi kimi, ibtidai sinif şagirdləri emosional cəhətdən tez təsirlənən, müəllimin davranışına yüksək dərəcədə həssas olan bir yaş qrupudur. Buna görə də müəllimin hər bir sözü, səs tonu, qiymətləndirmə üsulu və münasibət forması şagirdin daxili dünyasına birbaşa təsir göstərir. Yanlış pedaqoji yanaşma isə münaqişələrin yaranmasına və dərinləşməsinə səbəb ola bilər.

Pedaqoji təcrübədə uzun illər münaqişələr əsasən mənfi hadisə kimi dəyərləndirilmiş və onların aradan qaldırılması daha çox inzibati və cəza tədbirləri ilə əlaqələndirilmişdir. Lakin müasir elmi yanaşmalar münaqişələrin yalnız neqativ deyil, həmçinin düzgün idarə olunduqda tərbiyəvi və inkişafetdirici imkanlara malik olduğunu sübut edir. Bu potensialın reallaşması isə birbaşa müəllimin peşə hazırlığı ilə şərtlənir.

İbtidai sinif müəllimi yalnız təlim verən, öyrədən şəxs deyil, eyni zamanda şagirdlərin davranışını istiqamətləndirən, emosional vəziyyətini tənzimləyən və ictimai münasibətlərini formalaşdıran başlıca pedaqoji simadır. Bu baxımdan müəllimlərin pedaqoji münaqişələrin qarşısının alınmasına məqsədyönlü şəkildə hazırlanması aktual elmi-pedaqoji problem kimi xüsusi diqqət tələb edir.

Pedaqoji münaqişə anlayışı və ibtidai siniflərdə onun təzahür xüsusiyyətləri

Elmi pedaqoji ədəbiyyatda pedaqoji münaqişə təlim-tərbiyə prosesi iştirakçıları arasında yaranan qarşıdurma, ziddiyyət və gərginlik vəziyyəti kimi şərh edilir. Bu münaqişələr təlim prosesində müxtəlif formalarda – açıq və gizli, qısamüddətli və uzunmüddətli, emosional və rasional səciyyədə özünü göstərə bilər.

Müasir təhsil mühitində pedaqoji proses yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda mürəkkəb psixoloji və ictimai münasibətlər sistemini əhatə edir. Bu münasibətlər sistemində ziddiyyətlərin və fikir ayrılıqlarının yaranması qaçılmazdır. Məhz bu ziddiyyətlər pedaqoji münaqişə anlayışının meydana gəlməsinə səbəb olur. Pedaqoji münaqişə təlim-tərbiyə prosesinin iştirakçıları arasında qarşılıqlı anlaşılmazlıq, maraqların toqquşması və ya gözləntilərin üst-üstə düşməməsi nəticəsində yaranan gərginlik və kimi səciyyələndirilir.

İbtidai sinif mərhələsi pedaqoji münaqişələrin təzahürü baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu dövr uşağın məktəb mühitinə ilk adaptasiya mərhələsi olmaqla yanaşı, onun şəxsiyyətinin, davranış normaları və ictimai münasibətlərinin formalaşdırıldığı əsas mərhələdir. Kiçik yaşlı şagirdlərin psixoloji xüsusiyyətləri pedaqoji münaqişələrin həm yaranma səbəblərini və həm də onların ifadə formalarını müəyyən edir.

Münaqişələrə yol verməmək üçün müəllim-şagird münasibətləri düzgün qurulmalıdır. F. Lətifovanın qənaətincə, "Şagird vaxtının çoxunu məktəbdə müəllim və yoldaşları ilə keçirir. Müəllimlər məktəblilərin şəxsiyyət kimi formalaşmasında böyük təsirə malikdir. Yaxşı bir müəllim şagirdlərin özünə inamlarını, öyrənmək bacarıqlarının artdığı kimi, "pis" müəllim də tam əksinə, şagirdlərə təsir göstərə bilər. Müəllimlər və şagirdlər yaratdıqları münasibətin əsasına görə bir-birini yaxşı və ya pis olaraq göstərə bilirlər. Nəticə olaraq deyə bilərik ki, təlim prosesində müəllim-şagird münasibətlərinin didaktikanın və tərbiyə nəzəriyyəsinin tələbləri əsasında qurulması məktəbdə həm təlimin həm də tərbiyənin yüksəlməsinə zəmin yaradır" (16, s. 78).

İbtidai sinif şagirdləri emosional baxımdan həssas, təsirə açıq və çılğın olurlar. Onlar öz emosiyalarını idarə etməkdə çətinlik çəkir, baş verən hadisələrə daha çox hisslərilə reaksiya verirlər. Bu səbəbdən bu yaş dövründə pedaqoji münaqişələr əsasən emosional səciyyə daşıyır. Müəllimin sərt davranışı, yüksək tonla müraciəti və yaxud uşağın rəyinin nəzərə alınmaması şagird tərəfindən ədalətsizlik kimi qəbul edilir və münaqişə şəraiti yaradır.

İbtidai sinif mərhələsində pedaqoji münaqişələrin başlıca xüsusiyyəti onların əsasən emosional zəmində baş verməsidir. Şagirdlərin

öz hiss və düşüncələrini şifahi şəkildə sözlə tam ifadə edə bilməməsi, çılğın davranışa meyilli olmaları münaqişələrin yaranmasına şərait yaradır. Belə münaqişələr əsasən kiçik səbəblərdən başlasa da, vaxtında, ədalətli və səlahiyyətli müdaxilə edilmədiyi hallarda ciddi problemlərə çevrilə bilər.

İbtidai siniflərdə şagirdlərarası münaqişələr də geniş yayılmışdır. Bu münaqişələr əsasən oyuncaqların paylaşılması, oyun qaydalarına əməl edilməməsi, liderlik uğrunda rəqabət və ya diqqət mərkəzində olmaq istəyi ilə bağlı olur. Belə münaqişələr sadə məzmun daşısa da, tez-tez baş verir və müəllimin əməli müdaxiləsini tələb edir. Müəllimin bu müdaxiləsi ədalətli və anlaşıqlı olduqda münaqişə tərbiyəedici səciyyə daşıyır.

Kiçik yaşlı məktəblilər münaqişə vəziyyətində öz narazılıqlarını əsasən şifahi deyil, davranışları ilə ifadə edirlər. Ağlama, dərsdən yayınma, təcavüzkar hərəkətlər və ya əksinə, susqunluq və özünəqapanma bu yaş dövrünə xas olan münaqişə münasibətləridir. Bu isə pedaqoji münaqişələrin vaxtında aşkarlanmasını və düzgün dəyərləndirilməsini çətinləşdirir.

Yuxarıda göstərilən xüsusiyyətləri nəzərə alaraq belə mülahizə edə bilərik ki, ibtidai siniflərdə pedaqoji münaqişələrin yaranmasının başlıca səbəbləri aşağıdakılardır:

– müəllimin tələblərinin şagirdlər tərəfindən düzgün dərk edilməməsi;

– qiymətləndirmədə subyektivlik və ədalətsizlik hissi;

– intizam qaydalarının sərt və izahsız tətbiqi;

– müəllimin emosional sabitliyinin pozulması;

– şagirdlərarası ünsiyyətdə yaranan psixoloji gərginlik.

Bu səbəblər bir daha göstərir ki, münaqişələrin kökündə çox vaxt şagirdin deyil, pedaqoji prosesin düzgün təşkil olunmaması dayanır. Beləliklə, münaqişələrin qarşısının alınmasında əsas məsuliyyət müəllimin üzərinə düşür.

İbtidai sinif müəlliminin pedaqoji münaqişələrin qarşısının alınmasında peşə hazırlığının strukturu

Vəliyev İ.H, O.A. Kozıreva, A.Y. Ansupov, A.İ. Şipilov və digər alimlərin tədqiqatlarında müəllimin münaqişələri aradan qaldırmağa hazırlığı mürəkkəb və çoxkomponentli bir sistem kimi səciyyələndirilir. Bu sistem təsadüfi bacarıqların məcmusu deyil, məqsədyönlü şəkildə formalaşdırılan peşə keyfiyyətləri və sərişdələrinin vəhdətidir. İbtidai sinif müəlliminin münaqişələrin qarşısının alınmasına hazırlığı, əsasən, üç qarşılıqlı və əlaqəli komponentdən ibarət olduğu göstərilir: *motivasiya, koqnitiv və əməli-praktik*.

Motivasiya komponenti. Bu müəllimin münaqişələrə münasibətini, onun peşə mövqeyini və dəyərlər sistemini əks etdirir. Müasir elmi-pedaqoji mənbələrdə xüsusi vurğulanır ki, münaqişələri yalnız arzuolunmaz hadisə kimi deyil, pedaqoji vəziyyət kimi qəbul edən müəllim daha yaradıcı fəaliyyət göstərir. Buna görə də ibtidai sinif müəllimi münaqişənin qarşısını almağa daxili ehtiyac hiss etməli, bu işi peşə borcu və mənəvi məsuliyyət kimi dərk etməlidir.

Motivasiya komponentinə aşağıdakı keyfiyyətlər daxildir:

– ədalətlilik və obyektivlik;

– empatiya və şagirdin emosional vəziyyətini anlama bacarığı;

– səbirlilik və emosional özünənəzarət;

– humanist pedaqoji mövqe;

– pedaqoji fəaliyyətə məsuliyyətli münasibət.

Motivasiya komponentinin tətbiqi istiqamətləri:

– müəllimdə **uşağın şəxsiyyətinə hörmət**, empatiya və humanist yanaşma formalaşdırılır;

– münaqişələrin **təlim-tərbiyə prosesinin təbii hissəsi** olduğu qəbul edilir, lakin onların dağıdıcı deyil, inkişafetdirici potensialı vurğulanır;

– müəllim özünü sinifdə **emosional lider** kimi dərk edir və onda münaqişələrin idarə edilməsinə məsuliyyət hissi formalaşır;

– peşəkar refleksiya (öz təəssüratını təhlil etmə) inkişaf etdirilir: müəllim öz davranışının münaqişələrə təsirini qiymətləndirir;

– Daxili motivasiya nəticəsində müəllim **cəza deyil, dialoq və anlaşma** yolunu seçir.

Bu keyfiyyətlər müəllimin münaqişəli vəziyyətlərdə tələsik qərarlar verməsinin qarşısını alır, şagirdə qarşı aqressiv və ya laqeyd münasibətin formalaşmasına imkan vermir. Motivasiya komponent zəif olduqda isə müəllim ya münaqişələri görməməzliyə vurur, ya da onları sərt inzibati üsullarla "həll etməyə" çalışır ki, bu da vəziyyəti daha da gərginləşdirir. Motivasiyası

formalaşdırılmış müəllim münaqişənin qarşısını almağı **kənar tələb kimi deyil**, peşə borcu və mənəvi ehtiyac kimi qəbul edir.

Koqnitiv komponent. Bu komponent müəllimin pedaqoji münaqişələr haqqında elmi biliklər sistemini əhatə edir. Rus dillində olan mənbələrdə göstərilir ki, münaqişələrin uğurlu idarə olunması yalnız intuitiv yanaşma ilə mümkün deyil. Müəllim münaqişələrin psixoloji mexanizmlərini, yaş xüsusiyyətləri ilə bağlı qanunauyğunluqları və münaqişənin inkişaf mərhələlərini bilməlidir.

Koqnitiv komponentə aşağıdakılar aiddir:

– ibtidai sinif şagirdlərinin yaş və psixoloji xüsusiyyətləri haqqında biliklər;

– münaqişələrin yaranma səbəbləri və tipləri;

– münaqişələrin dinamikası və inkişaf mərhələləri;

– pedaqoji ünsiyyətin səmərəli və qeyri-səmərəli formaları;

– münaqişələrin profilaktikası və həlli üsulları.

Koqnitiv komponentin tətbiqi istiqamətləri:

– koqnitiv komponent münaqişələrin qarşısının alınması ilə bağlı **biliklər sistemini** əhatə edir;

– müəllim münaqişə anlayışı, növləri (şagird-şagird, şagird-müəllim, müəllim-valideyn) və səbəbləri barədə biliklərə yiyələnir;

– kiçik yaşlı məktəblilərin **psixoloji və emosional xüsusiyyətləri** nəzərə alınır (impulsivlik, diqqətin dağınıqlığı);

– münaqişələrin erkən əlamətlərinin tanınması öyrədilir (emosional gərginlik, aqressiv (təcavüzkar) davranış, ictimai təcrid);

– müxtəlif münaqişələri həll etmə yolları (qarşılıqlı güzəşt, əməkdaşlıq, qarşılıqlı anlaşma) mənimsənilir;

– inklüziv təhsil mühitində münaqişələrin özünə xas xüsusiyyətləri nəzərə alınır.

Bu biliklər müəllimə konkret vəziyyəti, şəraiti düzgün təhlil etməyə, münaqişənin başlıca səbəbini müəyyənləşdirməyə və uyğun pedaqoji qərar qəbul etməyə imkan verir. Koqnitiv komponent sayəsində müəllim münaqişəni **təsadüfi hadisə kimi deyil**, qanunauyğun pedaqoji proses kimi dərk edir və düzgün qərar vermək imkanına malik olur. Koqnitiv hazırlıq olmadan müəllim çox vaxt şagirdin davranışını yanlış qiymətləndirir, onun hərəkətini bilərəkdən intizamsızlıq kimi qəbul edir və münaqişənin başlıca səbəblərini nəzərdən qaçırır.

Əməli-praktik komponent. Əməli-praktik komponent müəllimin real pedaqoji fəaliyyətində münaqişəni qarşısının alınmasına yönəlmiş bacarıq və vərdişləri əhatə edir. Müasir pedaqoji tədqiqatlarda qeyd olunur ki, nəzəri biliklər yalnız praktik bacarıqlarla tamamlandıqda səmərəli nəticə verir.

Bu komponentə aşağıdakı bacarıqlar daxildir:

– münaqişəli vəziyyətləri vaxtında aşkar etmək;

– şagirdlər və valideynlərlə düzgün ünsiyyət qurmaq;

– emosional gərginliyi azaltmaq üçün pedaqoji müvafiq üsullardan istifadə etmək;

– şagirdin davranışını qiymətləndirərkən şəxsiyyəti deyil, konkret hərəkəti əsas götürmək;

– razılaşma və dialoq yolu ilə problemləri həll etmək.

Əməli-praktik komponentlərin tətbiqi istiqamətləri:

– sinifdə **müsbət psixoloji iqlim** yaradılır;

– ünsiyyət bacarıqları tətbiq olunur: fəal dinləmə, "mən-mesajları", sakit tərzdə danışıq;

– münaqişəli vəziyyətlərdə müəllim **vasitəçi (mediator)** rolunu oynayır;

– qrup işi, rollu oyunlar, müzakirələr vasitəsilə şagirdlərdə münaqişəni həll etmə bacarıqları formalaşdırılır;

– davranış qaydaları əvvəlcədən razılaşdırılır və ardıcıl tətbiq edilir;

– valideynlərlə əməkdaşlıq yolu ilə münaqişəni məktəbdən kənar səbəbləri aradan qaldırılır.

Əməli-praktik bacarıqlar müəllimin gündəlik fəaliyyətində formalaşır və təcrübə ilə möhkəmlənir. İbtidai sinif müəllimi üçün bu bacarıqlar xüsusilə vacibdir, belə ki, bu yaş mərhələsində münaqişələr çox vaxt sürətlə yaranır və tezliklə, lakin düşünülmüş müdaxilə tələb edir. Əməli-praktik komponent müəllimin biliyini və motivasiyasını **real pedaqoji fəaliyyətə çevirir** və münaqişələrin artmasının qarşısını alır.

İbtidai sinif müəllimlərinin pedaqoji münaqişələrin islah edilməsinə hazırlanmasının başlıca yolları

O. A. Козырева [7] öz əsərində qeyd edir ki, rus elmi-pedaqoji ədəbiyyatında müəllimlərin konfliktoloji hazırlığının formalaşdırılması məqsədi ilə müxtəlif pedaqoji formalar və metodlar təklif olunur. Bu formalar həm ali pedaqoji təhsil mərhələsində, həm də müəllimin peşə fəaliyyəti prosesində tətbiq edilə bilər.

Hazırlığın əsas formalarına aşağıdakılar daxildir:

– nəzəri hazırlıq (mühazirələr, seminarlar);

– praktik məşğələlər və treninqlər;

– pedaqoji şəraitlərin təhlili;

– qeyri-ixtiyari fəaliyyət və özünüqiymətləndirmə;

– pedaqoji təcrübənin mübadiləsi.

Nəzəri hazırlıq müəllimə konfliktologiyanın əsas anlayışları və prinsiplərini mənimsətməyə xidmət edir. Praktik məşğələlər isə real pedaqoji vəziyyətlərin modelləşdirilməsi vasitəsilə müəllimin davranış təcrübəsini genişləndirir. Xüsusilə pedaqoji vəziyyətlərin təhlili metodu ibtidai sinif müəllimlərinin hazırlığında mühüm yer tutur. Bu metod müəllimə konkret hadisələri səbəb-nəticə əlaqəsi əsasında dəyərləndirməyə və alternativ həll yolları tapmağa imkan verir.

N.V. Qrişina [9] xüsusilə vurğulayır ki, refleksiya müəllimin konfliktoloji inkişafında mühüm vasitədir. Müəllim öz fəaliyyətini təhlil etdikdə, buraxdığı səhvləri dərk etdikdə və nəticə çıxardıqda münaqişələrin təkrarlanma ehtimalı azalır.

Müasir elmi-pedaqoji sahədə aparılan təhlil göstərir ki, ibtidai sinif müəllimlərinin pedaqoji münaqişələrin islah edilməsinə hazırlanması sistemli və məqsədyönlü prosesdir. Bu hazırlıq müəllimin şəxsiyyət kimi keyfiyyətlərini, elmi biliklərini və əməli bacarıqlarını əhatə edən bütöv bir quruluşa malikdir.

Rus alimləri A.Y. Ansupov, A.İ. Şipilov, O.A. Kozıreva, N.V. Qrişina [8;7;9] və digərlərinin elmi əsərlərinin təhlili əsasında demək olar ki, münaqişələrin islah edilməsi müəllimin peşə səriştəsinin ayrılmaz tərkib hissəsidir.

İbtidai sinif mərhələsində münaqişələrin vaxtında və düzgün idarə olunması şagirdlərin psixoloji rifahını qoruyur, təlim-tərbiyə prosesinin səmərəliliyini yüksəldir və sağlam pedaqoji mühitin formalaşmasına xidmət edir. Bu baxımdan müəllimlərin konfliktoloji hazırlığının gücləndirilməsi müasir təhsil sisteminin üstün istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

Aparılan təhlil göstərir ki, ibtidai sinif müəllimlərinin münaqişələrin qarşısının alınması bacarığı **motivasiya, koqnitiv və əməli-praktik komponentlərin vəhdəti** əsasında formalaşır. Bu komponentlərin hər biri müstəqil əhəmiyyət daşısa da, yalnız qarşılıqlı əlaqədə olduqda səmərəli nəticə verir.

Motivasiya komponent müəllimin daxili mövqeyini, koqnitiv komponent bilik əsasını, əməli-praktik komponent isə real pedaqoji fəaliyyəti təmin edir. Bu komponentlərin sistemli inkişafı ibtidai təhsildə sağlam psixoloji mühitin yaradılmasına və münaqişələrin mənfi təsirinin minimuma endirilməsinə şərait yaradır

Problemin aktuallığı. Müasir təhsil mühitində pedaqoji proses yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda mürəkkəb psixoloji və ictimai münasibətlər sistemini əhatə edir. Bu münasibətlər sistemində ziddiyyətlərin və fikir ayrılıqlarının yaranması qaçılmazdır. Məhz bu ziddiyyətlər pedaqoji münaqişə anlayışının meydana gəlməsinə səbəb olur. Pedaqoji münaqişə təlim-tərbiyə prosesinin iştirakçıları arasında qarşılıqlı anlaşılmazlıq, maraqların toqquşması və ya gözləntilərin üst-üstə düşməməsi nəticəsində yaranan gərginlik kimi səciyyələndirilir ki, bu baxımdan problemin təqiqinə ehtiyac yaranır.

Problemin yeniliyi. Aparılan təhlil göstərir ki, ibtidai sinif müəllimlərinin münaqişələrin qarşısının alınması bacarığı motivasiya, koqnitiv və əməli-praktik komponentlərin vəhdəti əsasında formalaşır. Bu komponentlərin hər biri müstəqil əhəmiyyət daşısa da, yalnız qarşılıqlı əlaqədə olduqda səmərəli nəticə verir.

Problemim praktik əhəmiyyəti. Məqalə ibtidai sinif müəllimləri, məktəb psixoloqları üçün iş, magistrlər üçün pedaqoji təcrübə zamanı faydalı ola bilər.

Ədəbiyyat

1. Əliyev, H.Ə. Müasir Azərbaycan təhsilinin inkişaf strategiyası / H.Ə. Əliyev. –Bakı: Təhsil, –2019. –256 s.
2. Abbasov, A.N. Pedaqogika / A.N. Abbasov. –Bakı: Mütərcim, –2016. –312 s.
3. Adıgözəlova, Ş.Ə., Qasımova T.Ə. Sinfin idarəetmə prosesində müəllimin rolu // – Bakı: https://journals.arti.edu.az/uploads/f_20260112114540194564303 5.pdf 2025, -№ 6.
4. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. – Bakı: Elm və təhsil, – 2018. – 298 s.

5. Məmmədova, S.M. İbtidai siniflərdə psixoloji mühitin formalaşdırılması / S.M. Məmmədova. –Bakı: Müəllim, –2020. –224 s.
6. Vəliyev, İ.H. Təlim-tərbiyə prosesində konfliktlərin idarə olunması / İ.H. Vəliyev. –Bakı: Elm, –2017. – 184 s.
7. Козырева, О.А. Педагогическая конфликтология / О.А. Козырева. –Москва: Академия, –2015. – 240 с.
8. Анцупов, А.Я., Шипилов, А.И. Конфликтология / А.Я. Анцупов, А.И. Шипилов. –Москва: ЮНИТИ-ДАНА, –2019. – 336 с.
9. Гришина, Н.В. Психология конфликта / Н.В. Гришина. –Санкт-Петербург: Питер, –2018. –272 с.
10. Кряжева, Н.Л. Развитие коммуникативных навыков младших школьников / Н.Л. Кряжева. – Москва: Просвещение, –2016. – 208 с.
11. Маркова, А.К. Психология профессионализма учителя / А.К. Маркова. –Москва: Педагогика, – 2014. –256 с.
12. Леонтьев, А.Н. Деятельность. Сознание. Личность / А.Н. Леонтьев. – Москва: Смысл, –2017. –384 с.
13. Выготский, Л.С. Психология развития ребёнка / Л.С. Выготский. –Москва: Эксмо, – 2016. – 432 с.
14. Хасан, Б.И. Психология конфликта и переговоров / Б.И. Хасан. – Москва: Юрайт, –2020. – 304 с.
15. Бондаревская, Е.В. Гуманистическая педагогика / Е.В. Бондаревская. –Ростов-на-Дону: Феникс, –2015. – 256 с.
16. Lətifova, F. Müəllim-şagird münasibətlərinin formalaşdırılmasının təlimin keyfiyyə tinə təsir 2017, 2, s. 76-79

Redaksiyaya daxil olub: 20.02.2026

UOT 378.1

Həsən Əhməd oğlu Hüseynov
Azərbaycan Texniki Universitetinin məsləhətçi professoru
texnika elmləri doktoru, Əməkdar elm xadimi
https://orcid.org 0000-0002-2030-0428
E-mail: tk_xt@aztu.edu.az
https://doi.org/10.69682/arti.2026.93(2).70-75

TƏDQİQAT UNİVERSİTETİNƏ TRANSFORMASİYA: KONSEPTUAL MODEL VƏ MƏRHƏLƏLƏR

Hasan Ahmad Huseynov
consultant professor at Azerbaijan Technical University,
doctor of technical sciences, professor, Honored scientist

TRANSFORMATION INTO A RESEARCH UNIVERSITY: CONCEPTUAL MODEL AND MILESTONES

Гасан Ахмед оглы Гусейнов
консультант профессор Азербайджанского Технического Университета
доктор технических наук, Заслуженный деятель науки

ТРАНСФОРМАЦИЯ В ИССЛЕДОВАТЕЛЬСКИЙ УНИВЕРСИТЕТ: КОНЦЕПТУАЛЬНАЯ МОДЕЛЬ И ЭТАПЫ

Xülasə. Bilik iqtisadiyyatı və qlobal elmi-texnoloji rəqabət şəraitində tədqiqat universitetlərinin yaradılması milli innovasiya potensialının və beynəlxalq akademik rəqabətin yüksəldilməsinin əsas vasitələrindəndir. Təqdim olunan məqalənin məqsədi mövcud ənənəvi universitetin tədqiqat universitetinə transformasiyasının sistemli konseptual modelini yaratmaqdır. Transformasiya prosesi üçün tərkibinə strateji idarəetmə, elmi-tədqiqat infrastrukturu, kadr siyasəti, tədris proqramları, maliyyələşdirmə və beynəlxalq inteqrasiya kimi mərhələlər daxil olan model təklif olunmuşdur. Alınmış nəticələrdən universitetlərin inkişaf proqramlarının və modernləşdirilmə strategiyasının işlənməsində istifadə oluna bilər.
***Açar sözlər**: bilik iqtisadiyyatı, konseptual model, yüksək texnoloji avadanlıq, tədqiqat universiteti, kooperasiya tədqiqat mərkəzi, innovasion ekosistem*

Abstract. The creation of research universities in a knowledge economy and under conditions of global scientific and technological competition is one of the main tools for increasing national innovation potential and international academic competitiveness. The purpose of this article is to develop a systematic conceptual model for transforming an existing traditional university into a research university. For the transformation process, a model is proposed that includes stages such as strategic management, research infrastructure, personnel policy, educational programs, financing, and international integration. The obtained results can be used in the development of university development programs and modernization strategies.
***Keywords**: knowledge economy, conceptual model, high-tech equipment, research university, cooperation research center, innovative ecosystem*

Аннотация. Создание исследовательских университетов в условиях экономики знаний и глобальной научно-технологической конкуренции является одним из основных инструментов повышения национального инновационного потенциала и международной академической конкуренции. Целью данной статьи является создание системной концептуальной модели трансформации сущест-

вующего традиционного университета в исследовательский университет. Для процесса трансформации была предложена модель, включающая такие этапы, как стратегическое управление, научно-исследовательская инфраструктура, кадровая политика, образовательные программы, финансирование и международная интеграция. Полученные результаты могут быть использованы при разработке программ развития и стратегии модернизации университетов.

***Ключевые слова**: экономика знаний, концептуальная модель, высокотехнологичное оборудование, исследовательский университет, кооперационный исследовательский центр, инновационная экосистема*

Giriş. Elm-təhsil-istehsalat vektoru üzrə inkişafın klassik anlayışına görə elm, istehsalat tərəfindən müəyyənləşdirilmiş fundamental və tətbiqi problemlər və əlaqələr üzrə tədqiqatlar aparır, nəticələri monoqrafiyalar, dərsliklər, məqalələr, konstruktiv-texnoloji işləmələr, yeni materiallar, kəşflər, ixtiralar, normativ materiallar və s. şəklində təhsilə və istehsalata ötürür; təhsil bir tərəfdən biliyin istifadəçisi, digər tərəfdən isə yaradıcısı kimi elm və istehsalat üçün kadr hazırlığını həyata keçirir; istehsalat elmin və təhsilin təklif etdiyi yeni texnika və texnologiyalar əsasında məhsul istehsal edir, elmin qarşısında fundamental və tətbiqi problemlər qoyur və təhsil sisteminin hazırladığı mütəxəssisləri işlə təmin edir [1, s. 6].

Elmi nəticələrin və innovasiyaların yeni məhsullara, unikal vərdiş və qabiliyyətlərə transformasiyası və daima yeniləşməkdə olan fəaliyyət sahələrinə tətbiqi texnoloji inkişafın əsasını təşkil edir. İntellektual fəaliyyətə olan investisiya resurslardan ən səmərəli istifadə üsuluna çevrilir. İstehsalın intensivləşməsi və elmi-texniki tərəqqinin nəticələrindən istifadə innovasiya siklinin kəskin ixtisarına və texnologiyaların yeniləşmə tempinin sürətlənməsinə səbəb olur. İntensivləşmə prosesi insanın imkanları məhdud olan fiziki əməyinin deyil, imkanları qeyri-məhdud olan və kibertexnologiyalara söykənən intellektual əməyinin hesabına həll edilir [2, s. 24].

Müasir universitet elmi resurslar, istedadlı tədqiqatçılar və beynəlxalq tanınma parametrləri üzrə qlobal rəqabət şəraitində fəaliyyət göstərir. Bu baxımdan tədqiqat universiteti konsepsiyası dünyanın aparıcı universitetlərinin inkişaf modelinə çevrilmişdir. Tədqiqat universiteti elmi-tədqiqatların yüksək konsentrasiyası, elm və təhsilin inteqrasiyası, həmçinin innovasion proseslərdə aktiv iştirak göstəriciləri ilə fərqlənir. İnkişaf etməkdə olan təhsil sisteminə malik bir çox ölkələrdə aktual məsələlərdən biri də ənənəvi təhsilyönlü universitetlərin tədqiqat universitetlərinə transformasiyasıdır. Bu proses mürəkkəb, çoxsəviyyəli, uzunmüddətli və institusional islahatlar, eləcə də davamlı dövlət dəstəyi tələb edən prosesdir. Tədqiqat universiteti adi təhsil universitetindən elmi fəaliyyətin miqyası, dərinliyi və əsas rolun tədqiqatlara mənsub olması ilə fərqlənir.

Tədqiqat universitetində tədqiqat və təhsil prosesləri sintez edilərək həm biliyə çevrilir, həm də texnoloji, iqtisadi və sosial innovasiyalar həyata keçirə bilən mütəxəssis formalaşdırılır. Bu universitetlərdə tələbə modeli iki aparıcı fəaliyyət sahəsini özündə əks etdirir: tədris və tədqiqat işi. Ənənəvi təhsil formalarından fərqli olaraq təhsil alan biliyə doğru deyil, bilik təhsil alana doğru istiqamətləndirilir. Tələbə tədris prosesinin müxtəlif formalarında və elmi cəmiyyət mühitində reallaşdırılan proseslərdə (müsabiqə, konfrans, elmi jurnallarda çap, eksperimentlərin aparılması və s.) iştirak edir. Elm və təhsil proseslərində iştirak tələbədə çeviklik, digər mühitlərə asanlıqla adaptasiya olmaq, elmi cəmiyyətlər, xarici tərəfdaşlar, mərkəzlər və s. arasında qarşılıqlı fəaliyyət qurmaq kimi vacib səriştələr formalaşdırır [1, s. 25].

Tədqiqat universitetlərində innovasion təhsil proqramlarının infrastrukturu yeni arxitektura üzrə qurulur. Universitet nəzdində elmi-innovasiya kompleksləri, elmi-tədqiqat və analitik mərkəzlər yaradılır, yüksək texnoloji avadanlıqlarla təminat və mütəxəssislərin məqsədli hazırlığı həyata keçirilir, məzunlara dəstək sistemi formalaşdırılır və tədris prosesinə yüksək ixtisaslı tədqiqatçı-mütəxəssislər cəlb edilir. Tədqiqat universitetlərində yeni texnologiyaların, tədqiqat və işləmələrin nəticələrinin kommersiyalaşdırılmasını sürətləndirmək məqsədilə texnopark, texnoloji inkubator, startap və şəbəkə innovasiya strukturları kimi xüsusi statusa malik innovasion qurumlardan geniş istifadə edilir. Bu qəbildən olan fəaliyyət meydançalarında elm, təhsil və istehsalat arasında ümumi maraqlar formalaşır, təhsilin səviyyəsi yüksəldilir və işçilərin yeni texnologiyalar üzrə təkmilləşdirilməsi həyata keçirilir. Tədqiqat universitetlərinin in-

novasion qurumları yeni texnologiyaların kommersiya reallaşdırılmasını təmin edir, gənc mütəxəssislər üçün yeni iş yerləri açır və yerləşdiyi məkanın sosial-iqtisadi həyatında aktiv fəaliyyət göstərir. Bu qurumlarda universitetin elm və təhsil xidmətləri və sosial aktivliyi ilə kiçik biznesin iqtisadiyyatı və rəqabət qabiliyyəti vahid arxitektura daxilində fəaliyyət göstərir. Vahid bir kompleksdə cəmlənmiş intellektual potensial və yüksək texnologiyalar tədqiqat universitetinin ümumi innovasiya strukturunu formalaşdırır.

Tarixi kontekst. Tədqiqat universitetinin müasir modeli ilk dəfə Vilhelm fon Humboldt tərəfindən XIX əsrin əvvəllərində (1809-1810) Berlin Universitetinin timsalında yaradılmışdır. Humboldt modeli aşağıdakı əsas prinsiplərə əsaslanırdı: təhsil və tədqiqatların vəhdəti, akademik sərbəstlik, tədqiqatçı mütəxəssis hazırlığı, elmi laboratoriyaların universitetin əsas elementi olması. Bu model qısa bir müddətdə inqilabi dəyişikliklərə gətirib çıxardı, universitet təhsil müəssisəsi deyil, bilik istehsalı mərkəzinə çevrildi. XIX əsrin əvvəlləri – XX əsrin sonları Almaniya modelinin Avropada geniş tətbiqi ilə səciyyələnir: Almaniyada texniki universitetlər yarandı, Fransada universitetlərin (Grandes Écoles) elmi mərkəzlərlə inteqrasiyası həyata keçirildi, Böyük Britaniyada Oksford və Kembric universitetlərində elmi məktəblərin formalaşması baş verdi. Universitet tədricən fundamental elmi kəşflərin meydançasına çevrildi [3, s. 14].

Bu dövrdə Amerikada da tədqiqat modelinin inkişafı güclü təkan aldı. Con Hopkins Universiteti (1876-cı ildə) Humboldt sisteminin Amerika qitəsində təmsilçisinə çevrildi. Amerika modeli aşağıdakı xüsusiyyətlərlə diqqəti cəlb edirdi: özəl fondlar hesabına (Rokfeller, Karneqi, Ford) güclü maliyyələşdirmə, aspiranturanın yaradılması (Graduate School), tədqiqat laboratoriyaları və texnoloji mərkəzlər, sənaye ilə sıx əməkdaşlıq. Sonralar MIT, Caltech, Stanford və Berkeley universitetlərində də Humboldt modeli tətbiq olunmağa başlandı və ABŞ-da tədqiqat universitetinin ən səmərəli modeli formalaşdı [3, s. 28].

İkinci Dünya müharibəsindən sonra tədqiqat universitetlərinin inkişafı daha geniş vüsət aldı. 1990–2000-ci illərdə elmin qloballaşdırılması və dünya reytinqlərinin meydana çıxması bu prosesi daha da sürətləndirdi: universitetlər arasında beynəlxalq rəqabət gücləndi, QS, THE, ARWU kimi qlobal reytinqlər formalaşdı, Scopus və Web of Science kimi indekslənən platformalarda universitetlərin elmi nəticələrinin çapı aktuallaşdı və beləliklə elmi əməkdaşlıq qloballaşaraq tədqiqat universitetlərini bir növ beynəlxalq xablara çevirdi [3, s. 2027].

Bu dövrdə Asiya ölkələrində də tədqiqat universitetləri yaradılmağa başlandı: Çində "211", "985" layihələri və "Double First-Class" təşəbbüsü; Cənubi Koreyada KAIST və POSTECH; Sinqapurda NUS və NTU (top 20-yə daxildir); Yaponiyada Tokio və Kioto universitetləri. Asiya modelini aşağıdakı xüsusiyyətlər fərqləndirirdi: böyük həcmli investisiyalar, beynəlxalq səviyyəli mütəxəssislər, müasir kampuslar və texnoparklar [3, s. 28].

Postsovet məkanı ölkələrində də tədqiqat universitetləri diqqətdən kənarda qalmadı. 2010-cu ildən başlayaraq bir sıra ölkələrdə tədqiqat universitetlərinin formalaşdırılması həyata keçirildi: Qazaxıstanda Nazarbayev Universiteti; Rusiya Federasiyasında "5-100" proqramı, "Prioritet-2030" təşəbbüsü və Avropa şəbəkəsinə inteqrasiya; Özbəkistanda Milli Tədqiqat Universiteti; Belarusiyada Milli Tədqiqat Universiteti. Postsovet məkanı universitetlərində elmi infrastrukturun modernləşdirilməsi və beynəlxalq tərəfdaşların cəlb edilməsi əsas strateji istiqamət kimi qəbul edildi [5, s. 47].

Tədqiqat universitetlərinin təşəkkül tarixinin təhlili göstərir ki, Humboldt modelindən tutmuş qlobal innovasiya mərkəzlərinə qədər tədqiqat universitetləri aşağıdakı prinsiplərə əsaslanan bir evolyusiya prosesi keçmişdir: nəzərdə tutulan missiyanın nüvəsini tədqiqat təşkil edir; elm ilə təhsil inteqrasiya olunur; davamlı maliyyələşdirmə həyata keçirilir; universitet sənaye və beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyətdə olur.

Konseptual model. Tədqiqat universitetlərinin yaradılmasının açar elementlərinin və qanunauyğunluqlarının müəyyən olunmasında aşağıdakı metodoloji prinsiplər əsas götürülməlidir: sistemli struktur-funksional analiz; ABŞ, Avropa və Şərqi Asiya universitetlərində mövcud modellərin və qabaqcıl təcrübənin müqayisəli analizi; elmin idarə olunması və maliyyələşdirilməsinə institusional yanaşma; elm və ali təhsil sahələri üzrə beynəlxalq təşkilatların təkliflərinin ümumiləşdirilərək nəzərə alınması [6,s.208].

Tədqiqat universitetində elmi tədqiqat fəaliyyəti təhsil fəaliyyəti ilə bərabər hüquqlu və bəzən isə daha aparıcı funksiyaya malik olur və aşağıdakı səciyyəvi cəhətlərlə fərqləndirilir: fundamental və tətbiqi tədqiqatların konsentrasiyası; inkişaf etmiş elmi məktəblərin olması; beynəlxalq tədqiqat layihələrində aktiv iştirak; tələbələrin elmi-tədqiqat fəaliyyətinə inteqrasiyası; texnologiyaların transferi və biliyin kommersiyalaşdırılmasının inkişaf etmiş sisteminin mövcudluğu.

Ənənəvi universitetin tədqiqat universitetinə transformasiyası institusional inkişafın qarşılıqlı əlaqəli istiqamətlərinin reallaşdırılmasını tələb edir. Bu prosesin əsas şərtlərindən biri məhdud sayda prioritet elmi istiqamətlərin uzunmüddətli inkişaf strategiyasının formalaşdırılması, universitetlərin avtonomluğu və məqsədyönlü idarəetmə sisteminin olmasıdır.

Postsovet məkanı ölkələrində, Azərbaycan Respublikası da daxil olmaqla, tədqiqat universitetlərinin formalaşma prosesi ali təhsil sisteminin tarixi inkişafı, dövlətin institusional rolu və milli iqtisadiyyatın strukturu ilə əlaqədar olaraq bir sıra spesifik xüsusiyyətlərə malikdir. Birinci növbədə regional universitetlərin əksəriyyətində tədris funksiyaları tədqiqat funksiyaları üzərində üstünlüyə malikdir ki, bu da akademik mədəniyyətin və elmi-pedaqoji işçilərin motivasiya sisteminin mərhələlər üzrə dəyişməsini tələb edir. Bu baxımdan universitet sektorunda elmi-tədqiqatların dəstəklənməsinə və elmin akademik institutlar və ali məktəblər arasında fraqmentləşdirilməsinin aradan qaldırılmasına yönəldilmiş dövlət siyasəti xüsusi əhəmiyyət kəsb edir.

İkincisi, daxili maliyyə resurslarının məhdudluğu, beynəlxalq qrant proqramlarına məhdud sayda müraciətlər və onların müvafiq qurumlar tərəfindən kifayət qədər dəstəklənməməsi, universitetlərarası konsorsiumların və transmilli tədqiqat layihələrində iştirakın zəifliyi, Avropa İttifaqı, Türkiyə və Şərqi Asiya universitetləri ilə tərəfdaşlıq əlaqələrinin kifayət qədər olmaması elmi tədqiqatların keyfiyyət göstəricilərini aşağı salır.

Üçüncüsü, indeksləşdirilən beynəlxalq platformaların yüksək kvartilli jurnallarında davamlı çap olunma təcrübəsinə malik kadr potensialının zəifliyidir. Bu məqsədlə məşğulluq üzrə çevik müqavilə formalarının tətbiqi əsasında diaspora alimlərinin cəlb olunması, milli iqtisadiyyatın prioritet sahələri üzrə fəlsəfə doktoru (PhD) hazırlığı proqramlarının genişləndirilməsi məqsədyönlü olardı.

Dördüncüsü, tədqiqat universitetlərinin formalaşması ölkənin neft-qaz sektoru, maşınqayırma, informasiya texnologiyaları, energetika və yeni materiallar daxil olmaqla sənaye və texnoloji inkişafı məsələləri ilə sıx əlaqədə həyata keçirilməlidir. Belə bir fəaliyyət tətbiqi tədqiqatların keyfiyyətinin yüksəldilməsini, sənaye təyinatlı PhD-lərin hazırlanmasını və istehsalat müəssisələri ilə birgə elm-təhsil mərkəzlərinin yaradılmasını nəzərdə tutur.

Belə bir nəticəyə gəlmək olar ki, bu gün ənənəvi universitetlər üçün universitet iqtisadiyyatı ilə real sektor arasında intensiv qarşılıqlı fəaliyyətin olmaması, təhsil proqramlarının vaxtında əmək bazarının tələblərinə adaptasiya olunmaması, tətbiqi elmi tədqiqatların və analitik fəaliyyətin tematikasının iqtisadiyyatın real sektorunun tələblərinə zəif koordinasiya olunması, əmək bazarının konyunkturası əsasında prioritet ixtisaslar üzrə ümumi və spesifik kompetensiyaların və onları təmin edəcək təhsil tələblərinin müəyyənləşdirilməməsi, səriştələrlə fənn modulları arasında korrelyasiya əlaqələri əsasında kreditlərin modul prinsipi üzrə fənlər arasında paylanmaması, təhsilin kafedranın profilinə və müəllimin biliyinə deyil, əmək bazarının tələb etdiyi səriştələrin təmin olunmasına istiqamətləndirilməməsi kimi çatışmazlıqlar xarakterikdir[7,s.127]

Bu baxımdan universitet aşağıdakı problemlərlə qarşılaşır:

• maliyyələşdirmənin kifayət qədər olmaması;

• elmi-tədqiqatlara və texnoloji işləmələrə qarşı biznes strukturları tərəfindən kifayət qədər sorğunun olmaması;

• gənclər arasında elmi tədqiqatın qeyri-populyarlığı;

• gənc kadrların elmə axınının zəifliyi və nəsillərarası kəsilmə;

• mütəxəssislərin peşəkarlıq səviyyəsinin aşağı düşməsi;

• pedaqoji işin həcmi ilə elmi işin həcmi arasında balansın olmaması;

• administrativ tənzimləmənin qeyri-təkmilliyi;

• elmi-tədqiqatların özünə qapanması və real elmi-texnoloji ehtiyaclara cavab verməməsi;

• elmi-tədqiqatların inkişaf səviyyəsinə görə ali məktəblər arasında diferensiasiyanın yüksək olması;

• elmi-tədqiqat təşkiledicilərinin təhsil komponentlərinə nəzərən ikinci dərəcəli xarakteri;

• alimlərin beynəlxalq mobilliyinin zəifliyi;

• beynəlxalq bilik resurslarından, elmi-texniki informasiyadan, laboratoriya materiallarından və cihaz bazasından istifadənin məhdudluğu.

Tədqiqat universiteti maddi və rəqəmsal bazalara əsaslanmalıdır. Elmi-tədqiqat infrastrukturunun inkişaf etdirilməsi üçün müasir laboratoriyaların, yüksək səmərəli ölçmə və hesablama avadanlıqlarının, kollektiv istifadə mərkəzlərinin, rəqəmsal tədqiqat platformalarının yaradılması, layihələrin və verilənlərin idarə olunması üzrə rəqəmsal platformaların mövcudluğu, elmi nəticələrin kommersiyalaşdırılması və indeksləşdirilən beynəlxalq verilənlər bazalarında (Scopus, Web of Science və s.) çap olunma aktivliyinin yüksəldilməsi vacib əhəmiyyət kəsb edir.

Kadr siyasəti ənənəvi universitetin tədqiqat universitetinə transformasiya prosesinin mərkəzi amilidir. Bu siyasət insan kapitalının inkişafını, elmi-pedaqoji kadrların müsabiqə əsasında seçimini, "tenure-track" karyera mövqeyi sisteminin tətbiqini, xarici ölkələrdən və diasporadan alimlərin cəlb olunmasını, PhD və elmlər doktoru dissertasiyaları üzərində işləyənlərin dəstəklənməsini, akademik mobillik proqramlarından geniş istifadəni, aktiv tədqiqatçılar üçün tədris yükünün azaldılmasını və gənc alimlərin dəstəklənməsini nəzərdə tutmalıdır.

Tədqiqat universitetlərində təhsil elmyönlü olmalıdır. İlkin kurslardan tələbələr tədqiqat işlərinə cəlb edilməli, tədqiqatçı magistr və PhD proqramlarının inkişafına, layihə və proqramyönlü təhsil texnologiyalarına, elmi və sənaye təyinatlı praktiki məsələlərin tədris prosesinə inteqrasiyasına, maliyyələşdirmənin dayanıqlılığına və resursların diversifikasiyasına xüsusi önəm verilməlidir [8,s.89]. Maliyyə qaynaqları kimi elmin dəstəklənməsi üzrə Dövlət Fondu, beynəlxalq qrantlar (Horizon Europe, Erasmus+, DAAD və s.), sənaye müəssisələri ilə təsərrüfat hesablı müqavilələr, vençur və innovasiya fondları, elmi-texnoloji nəticələrin və patentlərin kommersiyalaşdırılması məqsədyönlü hesab edilə bilər.

Mövcud universitetlərin tədqiqat universitetlərinə transformasiyasında innovasion ekosistem və sənaye ilə əlaqə amilləri də vacib əhəmiyyət kəsb edir. Tədqiqat universiteti innovasion klasterin özəyi olmalı və aşağıdakı alət, proqram və metodlardan istifadə etməlidir: texnologiyaların transferi, startaplar, texnoloji inkubatorlar, akseleratorlar, müəssisələrlə birgə yaradılmış laboratoriyalar, sənaye sahələri üzrə PhD proqramları və elmi parklar.

Tədqiqat universitetlərinə transformasiya prosesində beynəlxalq inteqrasiya və akademik reputasiya məsələləri aşağıdakı mexanizmlərdən istifadə edilməklə ön plana çıxarılmalıdır: qloballaşma prosesinə qoşulma [9, s. 570], Qərb universitetləri ilə birgə məqalələr, monoqrafiyalar və layihələr, ikili və ya birgə diplom proqramları, beynəlxalq reytinqlərdə iştirak, aparıcı Avropa dillərində proqramlar və beynəlxalq konfransların təşkili [10, s.150].

Keçid prosesində icra olunan prosedurların ölçülə və qiymətləndirilə bilən olması üçün əsas göstəricilər üzrə nəticələrin qiymətləndirilməsi və monitorinq sistemi fəaliyyət göstərməlidir: çap və istinad olunma aktivliyi, qazanılmış və cəlb olunmuş qrantların həcmi, patentlər və lisenziyalar, magistrlərin və PhD-lərin faizi, məzunların R&D strukturlarında işlə təmin olunması və s.

Transformasiya mərhələləri. Tədqiqat universitetinə transformasiya prosesinin mərhələlər üzrə reallaşdırılması daha məqsədəuyğundur.

• Birinci mərhələdə strategiyanın formalaşdırılması, pilot elmi layihələrin işə salınması və idarəetmə strukturlarının yaradılması;

• İkinci mərhələdə beynəlxalq elmi aktivliyin yüksəldilməsi, PhD proqramlarının inkişaf etdirilməsi və xarici maliyyə mənbələrinin cəlb edilməsi;

• Üçüncü mərhələdə elmi məktəblərin institusionallaşdırılması və davamlı beynəlxalq reputasiyaya nail olunması.

Nəticə. Təhlili ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, tədqiqat universitetlərinin universal modeli əsasında transformasiya prosesi akademik avtonomluğun baza prinsiplərinə riayət etməklə, resursların konsentrasiyası və beynəlxalq inteqrasiya əsasında milli institusional şəraitə adaptasiya olunmağı tələb edir. Təqdim olunan model göstərir ki, tədqiqat universiteti təcrid olunmuş tədbirlər əsasında deyil,

səmərəli transformasiya, idarəetmə, maliyyələşdirmə, kadr və təhsil siyasətində razılaşdırılmış islahatlar aparmaqla reallaşdırıla bilər. Postsovet məkanı universitetləri üçün sistemli dövlət dəstəyi və elmin universitet sektorunun uzunmüddətli inkişaf strategiyasının mövcudluğu əsas amillərdir.

Ənənəvi universitetlərin tədqiqat universitetlərinə transformasiyası bilik iqtisadiyyatının inkişafı üçün strateji əhəmiyyətə malik məsələdir. Təklif olunan konseptual model və onun mərhələli reallaşdırılma planı ali təhsilin modernləşdirilməsi proqramlarının işlənməsi və tədqiqat universitetlərinin yaradılması üçün metodoloji əsas ola bilər.

Problemin aktuallığı. Universitet elminin səmərəliliyinin yüksəldilməsi və ənənəvi universitetin tədqiqat universitetinə transformasiyası bilik iqtisadiyyatına keçid dövrünün aktual problemlərindəndir.

Problemin elmi yeniliyi. Ənənəvi universitetin tədqiqat universitetinə transformasiya prosesinin konseptual modeli işlənmişdir.

Problemin praktik əhəmiyyəti. Təklif olunan konseptual model və onun mərhələli reallaşdırılma planı ali təhsilin modernləşdirilməsi proqramlarının işlənməsi və tədqiqat universitetlərinin yaradılması üçün metodoloji əsas ola bilər.

Ədəbiyyat

1. Abbasov A.M. “Şuşa bəyannaməsi” şagirdlərdə milli iftixar və milli qürur hisslərinin formalaşdırılması vasitəsi kimi // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2022. cild 89. №3, –s.5-8.
2. Hüseynov H.Ə. Elm, təhsil və istehsalat əlaqələri qlobal çağırışlar kontekstində // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, –2022. № 6, –s22-26
3. Altbach P.G., Salmi J. The Road to Academic Excellence: The Making of World-Class Research Universities. World Bank, 2011. –pp. 203-227
4. Hazelkorn E. Rankings and the Reshaping of Higher Education. Palgrave Macmillan, 2015.p.5
5. Guerrero M., Urbano D. The development of an entrepreneurial university // The Journal of Technology Transfer. 2012. Vol. 37, Issue 1. Pp. 43–74. DOI: 10.1007/s10961–010–9171-x.
6. Sánchez-Barrioluengo M., Benneworth P. Is the entrepreneurial university also regionally engaged? Analysing the influence of university’s structural configuration on third missionperformance // Technological Forecasting and Social Change. 2019. Vol. 141. Pp. 206–218. DOI:10.1016/j.techfore.2018.10.017.
7. Todorovic Z. W., McNaughton R.B., Guild P. ENTRE-U: An entrepreneurial orientation scale for universities // Technovation. 2011. Vol. 31, Issue 2–3. Pp. 128–137. DOI: 10.1016/j.technovation.2010.10.009
8. Abdelkafi N., Hilbig R., Laudien S. M. Business models of entrepreneurial universities inthe area of vocational education–an exploratory analysis // International Journal of Technology Management. 2018. Vol. 77, Issue 1–3. Pp. 86–108. DOI: 10.1504/IJTM.2018.091716.
9. Tseng F. C., Huang M. H., Chen D. Z. Factors of university–industry collaborationaffecting university innovation performance // The Journal of Technology Transfer. 2020. Vol. 45, Issue 2. Pp. 560–577. DOI: 10.1007/s10961-018-9656-6.
10. Klofsten M., Alain F., Guerrero M., Mian S. The entrepreneurial university as driver foreconomic growth and social change-Key strategic challenges // Technological Forecasting and Social Change. 2019. Vol. 141. Pp. 149–158. DOI: 10.1016/j.techfore.2018.12.004

Redaksiyaya daxil olub: 27.01.2026

UOT 93/94:378

Məhsəti Sabir qızı Cəfərova
Bakı Biznes Universitetinin dosenti,
sosiologiya üzrə fəlsəfə doktoru
https://orcid.org 0009-0007-4935-5100
E-mail: mehseti.ceferova@inbox.ru
https://doi.org/10.69682/arti.2026.93(2).76-81

ALİ TƏHSİLDƏ İNNOVASİYA VƏ SOSİAL DƏYİŞMƏ: SOSİAL-FƏLSƏFİ YANAŞMA

Mahsati Sabir Jafarova
associate professor at
Baku Business University
doctor of philosophy in sociology

INNOVATION AND SOCIAL CHANGE IN HIGHER EDUCATION: A SOCIO-PHILOSOPHICAL APPROACH

Махсети Сабир гызы Джафарова
доцент Бакинского Университета Бизнеса,
доктор философии по социологии

ИННОВАЦИИ И СОЦИАЛЬНЫЕ ИЗМЕНЕНИЯ В ВЫСШЕМ ОБРАЗОВАНИИ: СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ ПОДХОД

Xülasə. Müasir dövrdə ali təhsil yalnız bilik ötürən institut deyil, həm də sosial dəyişmənin aparıcı institutu kimi çıxış edir. Tədqiqat ali təhsildə innovasiyaların sosial-fəlsəfi mahiyyətini araşdırır və onların tələbələrin sosial bacarıqları, tənqidi düşüncəsi və ictimai fəallığına təsirini qiymətləndirir. Empirik tədqiqat Bakı Biznes Universitetində aparılmış, sorğu, müsahibə və müşahidə metodlarından istifadə olunmuşdur. Nəticələr göstərir ki, rəqəmsal təhsil platformaları, layihə əsaslı öyrənmə, birgə yaradıcı iş (co-creation) və sosial layihələrdə iştirak tələbələrin inkişafına və universitetin sosial missiyasının güclənməsinə əhəmiyyətli təsir göstərir. Beləliklə, ali təhsildə innovasiyalar həm nəzəri, həm də praktik baxımdan cəmiyyətin davamlı inkişafında vacib rol oynayır.
Açar sözlər: *ali təhsil, innovasiya, sosial dəyişmə, birgə yaradıcı iş (co-creation), tələbələrin sosial bacarıqları və tənqidi düşüncəsinin inkişafı*

Abstract. In the modern era, higher education is not only an institution for knowledge transmission but also serves as a key driver of social change. This study examines the socio-philosophical essence of innovations in higher education and evaluates their impact on students' social skills, critical thinking, and civic engagement. Empirical research was conducted at Baku Business University using surveys, interviews, and observation methods. The results indicate that digital learning platforms, project-based learning, co-creation, and participation in social projects significantly contribute to students' development and strengthen the university's social mission. Thus, innovations in higher education play a crucial role in the sustainable development of society from both theoretical and practical perspectives
Keywords: *higher education, innovation, social change, co-creation, students' social skills, development of critical thinking*

Аннотация. В современную эпоху высшее образование является не только институтом передачи знаний, но и ключевым фактором социальных изменений. В данном исследовании рассматривается социально-философская сущность инноваций в высшем образовании и оценивается их влияние на социальные навыки студентов, критическое мышление и гражданскую активность. Эмпирическое исследование проводилось в Бакинском Университете Бизнеса с использованием опросов, интервью и методов наблюдения. Результаты показывают, что цифровые образовательные платформы, проектное обучение, совместное творчество (co-creation) и участие в социальных проек-

тах существенно способствуют развитию студентов и укрепляют социальную миссию университета. Таким образом, инновации в высшем образовании играют важнейшую роль в устойчивом развитии общества как с теоретической, так и с практической точек зрения.

Ключевые слова: *высшее образование, инновации, социальные изменения, совместное творчество (co-creation), социальные навыки студентов, развитие критического мышления*

Giriş

Müasir dövrdə ali təhsil cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafında strateji əhəmiyyət daşıyan əsas institutlardan biri kimi çıxış edir. Qloballaşma proseslərinin sürətlənməsi, informasiya-kommunikasiya texnologiyalarının geniş yayılması və bilik iqtisadiyyatının formalaşması ali təhsil sistemlərinin ənənəvi fəaliyyət modelini köklü şəkildə dəyişdirmişdir. Bu dəyişikliklər ali təhsili yalnız peşəkar kadr hazırlayan mexanizm deyil, eyni zamanda sosial innovasiyaların, yeni dəyərlərin və ictimai şüurun formalaşdığı mühüm bir sosial məkan kimi ön plana çıxarır.

Müasir şəraitdə innovasiya anlayışı ali təhsildə əsas inkişaf meyarlarından birinə çevrilmişdir. İnnovasiyalar təkcə texnoloji yeniliklərin tətbiqi ilə məhdudlaşmır, eyni zamanda tədris metodlarının yenilənməsi, universitetlərin idarəetmə modellərinin transformasiyası, akademik azadlıqların genişlənməsi və sosial məsuliyyətin gücləndirilməsi kimi çoxşaxəli prosesləri əhatə edir. Bu baxımdan ali təhsil cəmiyyətin sosial strukturuna, dəyərlər sisteminə və sosial münasibətlərinə birbaşa təsir göstərən aparıcı dəyişmə amili kimi çıxış edir.

Sosial-fəlsəfi yanaşma ali təhsildə innovasiyaların mahiyyətini daha dərindən anlamağa imkan verir. Bu yanaşma çərçivəsində ali təhsil fərdin yalnız bilik və bacarıqlarını artıran institut kimi deyil, həm də onu sosial subyekt, fəal və məsuliyyətli vətəndaş kimi formalaşdıran bir mexanizm kimi dəyərləndirilir. İnnovativ ali təhsil modeli tənqidi düşüncə, sosial dialoq və kollektiv fəaliyyət kimi keyfiyyətlərin inkişafına şərait yaradır ki, bu da sosial dəyişmənin fəlsəfi əsasını təşkil edir.

Beləliklə, ali təhsildə innovasiyalar cəmiyyətin davamlı inkişafı ilə sıx bağlı olan kompleks sosial proses kimi çıxış edir. Məqalədə ali təhsildə innovasiya anlayışı sosial-fəlsəfi prizma vasitəsilə təhlil olunur, onun sosial dəyişmələrin formalaşmasındakı rolu nəzəri və empirik müstəvidə araşdırılır, eləcə də müasir cəmiyyət üçün əhəmiyyəti əsaslandırılır.

İnnovasiya anlayışının sosial-fəlsəfi mahiyyəti

İnnovasiya anlayışı elmi ədəbiyyatda çoxşaxəli və interdisiplinar məzmun daşıyır. Klassik yanaşmalarda innovasiya əsasən yeni ideyaların, metodların və texnologiyaların yaradılması və tətbiqi prosesi kimi izah olunur. Məsələn, Y. Şumpeter innovasiyanı iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi qiymətləndirərək onu istehsalın "yeni kombinasiyaları" ilə əlaqələndirmişdir (7, s. 66-72). Bu yanaşma innovasiyanın dinamik və yaradıcı xarakterini ön plana çıxarır.

Sosial fəlsəfə kontekstində isə innovasiya anlayışı daha geniş məna kəsb edir və yalnız texniki yeniliklərlə məhdudlaşmır. Sosial-fəlsəfi yanaşmaya görə, innovasiya sosial münasibətlərin, institutların, dəyərlər sisteminin və ictimai şüur formalarının transformasiyası kimi başa düşülür. M.Castells-in fikrincə, müasir dövrdə innovasiyalar bilik və informasiya axınları üzərində qurulan "şəbəkə cəmiyyəti"nin əsas struktur elementinə çevrilmişdir (1, 68-92). Sosial-fəlsəfi yanaşmaya görə, innovasiya yalnız texnoloji yeniliklərlə məhdudlaşmır; ali təhsil müəssisələrində birgə yaradıcı iş (*co-creation*) və innovasiya prosesləri həm də tələbələrin sosial bacarıqlarının inkişafına və universitetin cəmiyyətlə inteqrasiyasına əhəmiyyətli təsir göstərir (6, 840). Ali təhsil bu refleksivliyin əsas sosial məkanlarından biri kimi çıxış edir. P. Drucker innovasiyanı yalnız texnoloji yenilik kimi deyil, eyni zamanda sosial institutların və idarəetmə modellərinin məqsədyönlü şəkildə yenilənməsi prosesi kimi dəyərləndirir və bu prosesin insan kapitalının inkişafında mühüm rol oynadığını vurğulayır (2, s.19-32).

Rus sosial-fəlsəfi məktəbinin nümayəndələri innovasiya anlayışını sosial inkişaf və modernləşmə prosesləri ilə əlaqələndirirlər. V.S. Stepinin yanaşmasına əsasən, innovasiya mədəniyyətin daxili potensialının açılması və yeni sosial normaların formalaşması prosesi kimi təzahür edir (8, s. 213-219). Bu yanaşma innovasiyanın tarixi və dəyər-yönümlü xarakterini xüsu-

si vurğulayır. V.L. İnozemtsev isə innovasiyanı cəmiyyətin postindustrial inkişaf mərhələsinə keçidinin əsas şərtlərindən biri kimi dəyərləndirir (4, 64-70).

Azərbaycan elmi-fəlsəfi ədəbiyyatında ali təhsildə innovasiyaların sosial dəyişmələrə təsiri məsələsi xüsusilə sosial bacarıqların və sosial uyğunlaşmanın formalaşması kontekstində araşdırılır. Təhsil İnstitutunun "Elmi əsərlər" jurnalında dərc olunmuş tədqiqatlarda ali təhsil mühitində sosial ünsiyyət, əməkdaşlıq və tolerantlıq bacarıqlarının tələbələrin sosial fəallığına və cəmiyyətə inteqrasiyasına mühüm təsir göstərdiyi vurğulanır (5, 45-60). Bu tədqiqatlar göstərir ki, innovativ tədris yanaşmaları ali təhsilin yalnız bilik ötürən institut deyil, eyni zamanda sosial dəyərləri formalaşdıran mühüm sosial mexanizm kimi çıxış etməsini şərtləndirir.

Beləliklə, sosial-fəlsəfi baxımdan innovasiya insanın dünyanı dərk etmə, mənalandırma və yenidən qurma qabiliyyətinin təzahürü kimi çıxış edir. Ali təhsil isə bu prosesin mərkəzində dayanaraq həm bilik istehsalçısı, həm də sosial transformasiyanın aparıcı subyekti rolunu oynayır. İnnovasiyanın bu cür dərin sosial mahiyyəti onun cəmiyyətin davamlı inkişafında mühüm fəlsəfi əsas olduğunu göstərir.

Tədqiqat obyekti və metodologiyası

Tədqiqatın obyekti kimi Bakı Biznes Universiteti seçilmişdir. Sözügedən ali təhsil müəssisəsinin seçilməsi burada tədris prosesində innovativ yanaşmaların mərhələli şəkildə tətbiq olunması və universitetin sosialyönlü fəaliyyətinin mövcudluğu ilə əsaslandırılır. Araşdırma 2024-2025-ci tədris ili ərzində həyata keçirilmiş və ali təhsildə innovasiyaların sosial dəyişmələrin formalaşmasına təsirinin empirik müstəvidə öyrənilməsini məqsəd qoymuşdur.

Tədqiqatın metodoloji çərçivəsi sosial-fəlsəfi yanaşma və empirik tədqiqat metodlarının inteqrasiyasına əsaslanır. Bu yanaşma ali təhsili statik institut kimi deyil, sosial münasibətlərin və dəyərlərin istehsal olunduğu dinamik sosial sistem kimi təhlil etməyə imkan verir.

Araşdırma zamanı aşağıdakı metodlardan istifadə olunmuşdur:

* Sorğu metodu – tələbə və müəllimlər arasında aparılmış sorğular vasitəsilə innovativ tədris üsullarına münasibət, onların tədris keyfiyyətinə və sosial bacarıqların formalaşmasına təsiri müəyyən edilmişdir. Sorğular strukturlaşdırılmış suallar əsasında aparılmış və nəticələr statistik göstəricilər şəklində ümumiləşdirilmişdir. Sorğuda 200 tələbə və 40 müəllimin iştirakı əldə olunan nəticələrin etibarlılığını artırmışdır.

* Yarım-strukturlaşdırılmış müsahibələr – bu metod innovasiyaların tədris prosesində tətbiqi ilə bağlı fərdi mövqelərin, təcrübələrin və qiymətləndirmələrin üzə çıxarılmasına xidmət etmişdir. Müsahibələr empirik məlumatların keyfiyyət aspektini gücləndirmişdir.

* Müşahidə metodu – tədris prosesinin müşahidəsi vasitəsilə interaktiv və rəqəmsal tədris formalarının real tətbiq səviyyəsi, müəllim-tələbə qarşılıqlı münasibətlərinin xarakteri təhlil edilmişdir.

* Müqayisəli-statistik təhlil – əldə olunan empirik məlumatlar müqayisə edilərək innovasiyaların tədris və sosial göstəricilərə təsiri qiymətləndirilmişdir.

Beləliklə, seçilmiş metodoloji yanaşma ali təhsildə innovasiyaların sosial-fəlsəfi mahiyyətini kompleks şəkildə araşdırmağa və nəzəri müddəaları empirik nəticələrlə əsaslandırmağa imkan vermişdir.

Aparılan tədqiqat nəticəsində BBU-da ali təhsilin müasir tələblərinə uyğun bir sıra innovativ yanaşmaların sistemli şəkildə tətbiq olunduğu müəyyən edilmişdir. Bu yanaşmalar tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin fəal iştirakının təmin olunmasına və universitetin sosial missiyasının gücləndirilməsinə yönəlmişdir. İlk növbədə, universitetdə rəqəmsal təhsil platformalarının geniş tətbiqi diqqəti cəlb edir. LMS əsaslı platformalar vasitəsilə tədris materiallarının elektron mühitdə təqdim olunması, tapşırıqların onlayn şəkildə icrası və qiymətləndirmə prosesinin şəffaflaşdırılması təmin edilmişdir. Onlayn resurslardan istifadə tələbələrin müstəqil öyrənmə imkanlarını genişləndirmiş, biliklərə fasiləsiz çıxışı mümkün etmişdir. Bu isə tədrisin məkan və zaman baxımından çevikliyini artıraraq ali təhsilin inklüzivliyinə müsbət təsir göstərmişdir.

Eyni zamanda, probleməsaslı və layihə yönümlü tədris metodlarının tətbiqi tədris prosesində mühüm innovativ istiqamət kimi çıxış edir. Bu yanaşmalar tələbələrin yalnız nəzəri biliklərlə kifayətlənməməsini, real sosial və peşəkar problemlərin həllinə cəlb olunmasını nəzərdə tutur. Layihə əsaslı fəaliyyətlər tənqidi düşüncənin, analitik bacarıqların və komanda işi-

nin inkişafına şərait yaradır, tələbələri passiv bilik alıcısından fəal bilik istehsalçısına çevirir.

Tədqiqat nəticələri həmçinin akademik azadlıqların və tələbə təşəbbüslərinin dəstəklənməsinin universitet mühitində mühüm yer tutduğunu göstərir. Tələbələrin tədris mövzularının seçilməsində, elmi-tədqiqat və sosial layihələrdə iştirakında sərbəstliyinin təmin olunması onların intellektual və sosial potensialının reallaşmasına imkan yaradır. Akademik azadlıqlar innovativ düşüncə mühitinin formalaşmasına və universitetin açıq sosial sistem kimi fəaliyyət göstərməsinə şərait yaradır. Bununla yanaşı, sosial layihələr və icma ilə əməkdaşlıq proqramları universitetin cəmiyyətlə qarşılıqlı əlaqəsinin gücləndirilməsində mühüm rol oynayır. Tələbələrin sosialyönlü layihələrə cəlb olunması onların sosial məsuliyyət hissini artırır, vətəndaş fəallığını təşviq edir və ali təhsilin ictimai faydasını yüksəldir. Universitet–icma əməkdaşlığı ali təhsili qapalı akademik mühitdən çıxararaq sosial dəyişmələrin real iştirakçısına çevirir.

Beləliklə, BBU da tətbiq olunan innovativ yanaşmalar ali təhsilin yalnız tədris funksiyasını deyil, eyni zamanda onun sosial və fəlsəfi missiyasını da gücləndirərək universiteti sosial dəyişmələrin fəal subyekti kimi formalaşdırır.

Tətbiq olunan innovativ yanaşmaların tədris və sosial göstəricilərə təsirini daha aydın şəkildə nümayiş etdirmək məqsədilə əldə olunan empirik nəticələr aşağıdakı cədvəl və diaqramlarda ümumiləşdirilmişdir.

Cədvəl 1. İnnovativ tədris metodlarının tətbiq səviyyəsi (tələbə sorğusu əsasında)

Tədris metodu	Yüksək səviyyədə (%)	Orta səviyyədə (%)	Aşağı səviyyədə (%)
Rəqəmsal tədris platformaları	72	20	8
Layihə əsaslı öyrənmə	65	25	10
Qrup və interaktiv müzakirələr	78	17	5
Tənqidi düşüncə tapşırıqları	60	30	10

Diaqram 1. Sosial Bacarıqların Təsir Səviyyəsi



Əldə olunan nəticələr beynəlxalq tədqiqatların qənaətləri ilə də uyğunluq təşkil edir. SCOPUS bazasında indekslənmiş empirik araşdırmalar göstərir ki, tənqidi düşüncə, əməkdaşlıq və icraedici funksiyalar sosial bacarıqların formalaşmasında əsas determinantlar kimi çıxış edir (9, 78-95). Bu baxımdan tədqiqat çərçivəsində aşkar olunan yüksək komanda işi və sosial ünsiyyət göstəriciləri ali təhsildə innovativ yanaşmaların sosial dəyişməyə real və ölçülə bilən təsirini təsdiqləyir.

Cədvəl 2. Müəllimlərin innovasiyaların sosial dəyişməyə təsiri ilə bağlı mövqeyi

Göstərici	Razıyam (%)	Qismən razıyam (%)	Razı deyiləm (%)
Təhsil sosial fəallığı artırır	80	15	5
İnnovasiya tənqidi düşüncəni gücləndirir	85	10	5
Universitet sosial dəyişmənin əsas	78	17	5

subyektidir			

Bu nəticələr yerli və beynəlxalq elmi araşdırmaların qənaətləri ilə üst-üstə düşür və ali təhsildə innovasiyaların sosial bacarıqların, vətəndaş fəallığının və sosial məsuliyyət hissinin formalaşmasında mühüm rol oynadığını bir daha təsdiqləyir.

Nəticələrin sosial-fəlsəfi təhlili

Əldə olunan empirik nəticələr göstərir ki, sosial-fəlsəfi yanaşma ali təhsildə innovasiyaların mahiyyətini anlamaqda ssəmərəli vasitədir. Xüsusilə, universitet yalnız bilik ötürən və peşəkar kadr hazırlayan institut kimi çıxış etmir, həm də tələbələrin sosial dəyərlər sisteminin formalaşdığı, onların fərdi və ictimai məsuliyyətli subyektlərə çevrildiyi sosial məkan rolunu oynayır. Bu, ali təhsilin yalnız kəmiyyətyönlü funksiyası ilə məhdudlaşmadığını, həm də onun cəmiyyətin dəyərlər və normativ strukturunu dəyişdirən sosial institut olduğunu göstərir.

Tədqiqat göstərir ki, universitetdə tətbiq olunan innovativ tədris modelləri (rəqəmsal platformalar, layihə əsaslı öyrənmə, sosial layihələrdə iştirak və akademik azadlıqların təşviqi) tələbələrin dünyagörüşünü genişləndirir, onların tənqidi düşünmə bacarıqlarını gücləndirir və sosial dialoqa cəlb olunmasını təmin edir. Belə metodlar tələbələri passiv bilik alıcısı olmamaqla yanaşı, eyni zamanda ictimai problemlərə həssas və fəal vətəndaşlar kimi yetişdirir.

Eyni zamanda, empirik nəticələr göstərir ki, innovativ yanaşmalar fərdin sosial identifikasiyasına və kollektiv fəaliyyətə təsir göstərir. Məsələn, layihə əsaslı və icmayönlü fəaliyyətlər tələbələrin əməkdaşlıq bacarıqlarını artırır, sosial məsuliyyət hissini formalaşdırır və onların aktiv sosial subyekt kimi fəaliyyət göstərməsinə şərait yaradır. Bu isə ali təhsilin funksional aspektini sosial-fəlsəfi prizma ilə tamamlayır və onu cəmiyyətin davamlı inkişafında aparıcı rol oynayan institut kimi təqdim edir.

Beləliklə, Bakı Biznes Universitetinin timsalında aparılan tədqiqat göstərir ki, ali təhsildə innovasiyalar yalnız texnoloji və pedaqoji yeniliklərdən ibarət deyil, həm də sosial dəyişmənin katalizatoru kimi çıxış edir. Onlar tələbələrin sosial şüurunu, dəyərlərini və ictimai fəallığını gücləndirir, nəticədə ali təhsil cəmiyyətdə davamlı və dayanıqlı inkişafın formalaşmasında real və ölçülə bilən təsir göstərir. Bu da sosial-fəlsəfi yanaşmanın ali təhsilin yalnız elmi və tədris funksiyasını deyil, həm də onun sosial və etik rolunu vurğulamaq baxımından əhəmiyyətini təsdiqləyir.

Ümumi nəticə

Praktik tədqiqat göstərir ki, ali təhsildə innovasiya təkcə texnoloji yeniliklərin tətbiqi ilə məhdudlaşmır. Əksinə, bu, dərin sosial-fəlsəfi məzmun daşıyan, çoxşaxəli və kompleks bir proses**di**r ki, həm tədris metodlarının yenilənməsini, həm universitet idarəetməsində transformasiyanı, həm də tələbələrin sosial və etik dəyərlərinin formalaşmasını əhatə edir.

Tədqiqatın nəticələri sübut edir ki, universitet mühiti innovasiyalar vasitəsilə tələbələrin sosial şüurunu inkişaf etdirir**,** onların dəyərlər sistemini zənginləşdirir və vətəndaş mövqeyinin formalaşmasına həlledici təsir göstərir. Bu baxımdan innovativ ali təhsil modeli yalnız bilik və bacarıqların ötürülməsi funksiyasını yerinə yetirmir, eyni zamanda tələbələri ictimai məsuliyyətə sahib, tənqidi düşüncəyə malik və sosial cəhətdən fəal fərdlər kimi yetişdirir.

Praktik nəticələr göstərir ki, ali təhsildə tətbiq olunan innovasiyalar:

* Tələbələrin komanda işi və əməkdaşlıq bacarıqlarını,
* Tənqidi və analitik düşüncə qabiliyyətini,
* Sosial məsuliyyət və vətəndaş fəallığını artırır.

Bu isə ali təhsilin cəmiyyətdə yalnız elmi və pedaqoji institut olmaqla kifayətlənməyib, sosial dəyişmənin əsas katalizatoru rolunu oynadığını göstərir. Xüsusilə, universitetlərdə innovativ metodların tətbiqi tələbələrin həm fərdi inkişafına, həm də onların cəmiyyətə fəal və məsuliyyətli iştirakına şərait yaradır.

Beləliklə, aparılan praktik tədqiqat təsdiqləyir ki, ali təhsil müasir cəmiyyətdə sosial dəyişmənin aparıcı institutlarından biridir. Ali təhsildə innovasiya yalnız bilik istehsalı və texnoloji yenilənmə deyil, həm də sosial şüurun, etik dəyərlərin və vətəndaş mövqeyinin formalaşması prosesini dəstəkləyən strateji mexanizm kimi çıxış edir. Bu nəticələr həm nəzəri, həm də empirik baxımdan ali təhsilin cəmiyyətin davamlı inkişafında mühüm rolunu əsaslandırır.

Problemin elmi yeniliyi. Bu tədqiqatın elmi yeniliyi ali təhsildə innovasiyaların sosial-fəlsəfi prizma ilə təhlil edilməsində və onların tələbələrin sosial bacarıqları, ictimai fəallığı və sosial məsuliyyətinə

təsirinin empirik qiymətləndirilməsində özünü göstərir. Ali təhsil müəssisələrində birgə yaradıcı iş (co-creation) və innovativ tədris modelləri tələbələrin yalnız bilik əldə etməsinə deyil, həm də sosial bacarıqlarını və komanda işini inkişaf etdirməsinə imkan yaradır. Tədqiqat həmçinin göstərir ki, bu yanaşmalar universitetin cəmiyyətlə inteqrasiyasını və sosial dəyişmənin aparıcı institutu rolunu gücləndirir. Beləliklə, aparılan iş ali təhsilin həm nəzəri, həm də empirik baxımdan sosial transformasiyadakı rolunu konkretləşdirir.

Problemin aktuallığı. Müasir cəmiyyətdə ali təhsil təkcə peşəkar kadr hazırlayan institut deyil, həm də sosial dəyişmələrin əsas katalizatoruna çevrilmişdir. Qloballaşma, rəqəmsal transformasiya və bilik iqtisadiyyatının inkişafı ali təhsildə innovativ yanaşmaların tətbiqini zəruri edir. Tələbələrin yalnız texniki biliklə deyil, həm də sosial bacarıqlar, tənqidi düşüncə və ictimai fəallıq qabiliyyətləri ilə formalaşması cəmiyyətin davamlı inkişafı üçün vacibdir. Beləliklə, ali təhsildə innovasiyaların sosial-fəlsəfi aspektdən araşdırılması həm nəzəri, həm də praktik baxımdan aktualdır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, ali təhsildə innovativ yanaşmaların tətbiqi tələbələrin komanda işi, tənqidi və analitik düşüncə, sosial məsuliyyət və ictimai fəallıq bacarıqlarını inkişaf etdirir. Bu, universitetlərin tədris prosesini daha effektiv və cəmiyyətlə əlaqəli etməyə imkan verir. Rəqəmsal platformalar, layihə əsaslı öyrənmə və sosial layihələrdə iştirak kimi innovativ metodlar tələbələrin fəal bilik istehsalçısına çevrilməsinə şərait yaradır. Nəticədə, tədqiqat universitetlərin sosial missiyasını gücləndirərək, ali təhsilin sosial dəyişmədə aparıcı rolunu dəstəkləyir.

Ədəbiyyat

1. Castells, M. The rise of the network society: the information age: economy, society and culture / M. Castells. – 2nd edition, –San Francisco: Wiley-Blackwell, – 2010. – 680 s.
2. Drucker, P. F. Innovation and entrepreneurship: practice and principles / P. F. Drucker. – New York: Harper & Row, – 1985. – 320 s.
3. Hüseynli, R. Rəqəmsal təhsil platformalarının tələbələrin sosial fəaliyyətinə təsiri / R. Hüseynli // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2025. № 1, – s. 61–75.
4. Inozemtsev, V. L. Post-industrial society: structure, values and development / V. L. Inozemtsev. – Moscow: Nauka, – 1998. – 280 s.
5. Kərimova, A. Ali təhsildə sosial bacarıqların inkişafı və innovativ yanaşmaların rolu / A. Kərimova, S. Hüseynova // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. – 2025. – № 1, – s. 45-60.
6. Oliveira, T., Alves, H., & Leitão, J. Co-creation and innovation in higher education institutions: a systematic literature review and research agenda / T. Oliveira, H. Alves, J. Leitão // International Journal of Educational Management. – 2024. – 38(3), – s. 839-872. DOI:10.1108/IJEM-09-2023-0456. (SCOPUS indeksli məqalə)
7. Schumpeter, J. A. The theory of economic development: an inquiry into profits, capital, credit, interest, and the business cycle / J. A. Schumpeter. – Translated by R. Opie, New Brunswick: Transaction Publishers, – 1911. – 400 s.
8. Stepin, V. S. Philosophy of science and technology: historical and social problems / V. S. Stepin. – Moscow: Nauka, – 2000. – 350 s.
9. Taştepe, E. Tənqidi düşüncə və sosial bacarıqlar: ali təhsildə müqayisəli araşdırma / E. Taştepe // Social Sciences Review. – 2025. – 12(3), – s. 78-95.

Redaksiyaya daxil olub: 18.02.2026

UOT 331.5

Xalidə Aydın qızı Həmidova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,
pedaqoqika üzrə fəlsəfə doktoru
E-mail: musayevaxalide@mail.ru
https://orcid.org/0000-0001-6873-2353
https://doi.org/10.69682/arti.2026.93(2).82-89

ALİ TƏHSİLDƏ STRATEJİ PLANLAŞDIRMAYA YANAŞMALAR: İNSAN KAPİTALI NƏZƏRİYYƏSİ, NORM ÇƏRÇİVƏSİ VƏ MODİFİKASİYA OLUNMUŞ BSC ƏSASINDA METODOLOJİ MODEL (AZƏRBAYCAN KONTEKSTİ)

Khalida Aydin Hamidova
senior lecturer of the Azerbaijan State Pedagogical University,
doctor of philosophy in pedagogy,

APPROACHES TO STRATEGIC PLANNING IN HIGHER EDUCATION: A METHODOLOGICAL MODEL BASED ON HUMAN CAPITAL THEORY, REGULATORY FRAMEWORK AND MODIFIED BALANCED SCORECARD (BSC) (AZERBAIJANI CONTEXT)

Халида Айдын гызы Гамидова
старший преподаватель Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике,

ПОДХОДЫ К СТРАТЕГИЧЕСКОМУ ПЛАНИРОВАНИЮ В ВЫСШЕМ ОБРАЗОВАНИИ: МЕТОДОЛОГИЧЕСКАЯ МОДЕЛЬ НА ОСНОВЕ ТЕОРИИ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА, НОРМАТИВНОЙ РАМКИ И МОДИФИЦИРОВАННОЙ СИСТЕМЫ СБАЛАНСИРОВАННЫХ ПОКАЗАТЕЛЕЙ (BSC) (АЗЕРБАЙДЖАНСКИЙ КОНТЕКСТ)

Xülasə. Son 10-15 ildə Azərbaycanda sosial-iqtisadi modernləşmə, qlobal inteqrasiya və dayanıqlı inkişaf məqsədləri təhsil sistemində idarəetmə və maliyyələşmə mexanizmlərinin transformasiyasını aktuallaşdırmışdır. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası təhsilin keyfiyyət, insan resursları, idarəetmə və nəticəyönlülük müstəvisində yenilənməsini strateji prioritet kimi müəyyən edir (AR Prezidenti, 2013). Məqalənin məqsədi ali (və ali peşə) təhsil müəssisələrində strateji idarəetmə sisteminin formalaşdırılması üçün metodoloji yanaşma təklif etməkdir. Tədqiqat insan kapitalı nəzəriyyəsinin (təhsili investisiya kimi dəyərləndirməsi), universitetin normativ-təşkilati çərçivə modeli (NORM) və təhsil sektorunun qeyri-kommersiya mahiyyəti nəzərə alınmaqla modifikasiya olunmuş Balanced Scorecard (BSC) yanaşmasının sintezinə əsaslanır. BSC-nin strategiyanın icra səviyyəsinə endirilməsi, ölçülə bilən göstəricilər sistemi və monitorinq mexanizmləri qurmaq potensialı vurğulanır (Kaplan & Norton, 1996; ESG, 2015). Nəticə olaraq, universitet missiyası–strateji istiqamətlər–indikatorlar zəncirinin qurulması, maraqlı tərəflərin balansı və səbəb-nəticə əlaqələrinin rəsmiləşdirilməsi ali təhsildə strateji planlaşdırmanın elmi-metodoloji əsasını gücləndirir.

Açar sözlər: *strateji planlaşdırma; ali təhsil; insan kapitalı; NORM modeli; BSC; göstəricilər; monitorinq; keyfiyyət təminatı*

Abstract. Over the past 10-15 years, socio-economic modernization, global integration, and sustainable development goals in Azerbaijan have necessitated the transformation of governance and financing mechanisms in the education system. The State Strategy for the Development of Education in the Republic of Azerbaijan defines the renewal of education in the area of quality, human resources, management, and result-oriented approach as a strategic priority (President of the Republic of Azerbaijan, 2013). The aim of the article is to propose a methodological approach to the formation of a strategic

management system in higher (and higher professional) education institutions. This study is based on a synthesis of human capital theory (which considers education as an investment), the normative-organizational model of the university (NORM), and a modified Balanced Scorecard (BSC) approach, taking into account the non-profit nature of the educational sector. The potential of the BSC in reducing the strategy to the level of its implementation, forming a system of measurable indicators, and building monitoring mechanisms is emphasized (Kaplan & Norton, 1996; ESG, 2015). As a result, the creation of a "university mission-strategic directions-indicators" chain, stakeholder alignment, and the formalization of cause-and-effect relationships strengthen the scientific and methodological basis for strategic planning in higher education.

Keywords: *strategic planning, higher education, human capital, NORM model, BSC, indicators, monitoring, quality assurance*

Azərbaycan klassik pedaqoji irsi Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi və Firidun bəy Köçərlinin əsərləri ailə, cəmiyyət və tərbiyə məsələlərinə geniş və sistemli yanaşma təqdim etmişdir. Klassik müəlliflər ailəni şəxsiyyətin ilkin sosial mühiti və mənəvi inkişafın əsas institutu kimi qiymətləndirmiş, cəmiyyətin tərbiyədə mühüm rolunu vurğulamış, həmçinin təhsil və maarifçiliyi sosial dəyişmələr ilə əlaqələndirmişlər. Onların əsərlərində sosial mühitin və ailənin qarşılıqlı təsiri, həmçinin milli-mədəni dəyərlərin tərbiyəedici funksiyası elmi-pedaqoji kontekstdə şərh olunmuşdur. Folklor mənbələri əsasında xalq pedaqogikasının empirik və multidissiplinar xarakteri, onun dərin tərbiyə potensialı göstərilmişdir. Folklor mənbələrinin, xüsusilə də kiçik yaşlı uşaqların tərbiyəsindəki imkanları araşdırılmışdır. Azərbaycan xalqının tarixini əks etdirən və gənclərin vətənpərvərlik ruhunda tərbiyə prosesində istifadə oluna biləcək ideyaları özündə əks etdirən ədəbi-epik nümunələr təqdim edilmişdir. Eyni zamanda, folklorun və xalq pedaqogikasının ideyalarının müasir təhsil praktikası çərçivəsində tətbiq imkanları məsələsi qaldırılmışdır (2, s. 183)

Ə. Ağayev və Ə. Paşayev klassik yanaşmaları müasir pedaqoji kontekstdə təhlil etmiş, onları XXI əsr təhsil sisteminə uyğunlaşdırmışlar. Ağayevin tədqiqatları şəxsiyyətin formalaşmasında ailə və sosial mühitin qarşılıqlı təsirini, Paşayevin elmi fəaliyyəti isə pedaqogika tarixini və nəzəriyyəsini birləşdirərək tərbiyə proseslərinin sistemli modelini təqdim edir. Beləliklə, klassik və müasir yanaşmaların müqayisəsi göstərir ki, ailə, cəmiyyət və tərbiyə məsələlərinin müasir pedaqoji elmdə araşdırılması klassik irsin təməl prinsipləri üzərində qurulmuşdur və onların inteqrasiyası təhsil prosesinin səmərəliliyini artırır.

Klassik müəlliflər ailəni və cəmiyyəti tərbiyənin ilkin institutu kimi qiymətləndirir, onların həm mənəvi, həm də sosial funksiyalarını vurğulayır, şəxsiyyətin formalaşmasında ailə və cəmiyyətin qarşılıqlı təsirinin əhəmiyyətini ön plana çıxarırlar. Mirzə Fətəli Axundzadə Azərbaycan klassik pedaqoji fikrinin ən görkəmli nümayəndələrindən biridir. Onun ideyaları, həmçinin Seyid Azim Şirvani, Həsən bəy Zərdabi və Cəlil Məmmədquluzadə kimi həmfikirlərlə birgə, ailə, cəmiyyət və tərbiyə məsələlərini sistemli şəkildə araşdırmışdır. Sovet dövrü pedaqoji ədəbiyyat müəllimləri və Azərbaycan Pedaqoji Universiteti əməkdaşları isə Axundzadənin bu prinsiplərini inkişaf etdirərək müasir pedaqoji kontekstdə tətbiq etmişlər. Axundzadənin pedaqoji konsepsiyası ailənin tərbiyədə rolunu, qadın təhsilinin əhəmiyyətini və cəmiyyətin maarifləndirilməsi funksiyasını ön plana çıxarır. O, tərbiyəni rasional düşüncə və dünyəvi biliklə təmin olunan proses kimi təqdim etmiş, ailəni isə cəmiyyətin ilkin və əsas institutu kimi qiymətləndirmişdir. Bu yanaşma klassik pedaqoji fikrin müasir Azərbaycan təhsil sistemində də davamlı tətbiqinə zəmin yaratmışdır (1, s. 130).

Həsən bəy Zərdabi Azərbaycan klassik pedaqoji fikrinin önəmli nümayəndələrindən biri olub. Onun ideyaları Firidun bəy Köçərli və Abdurrəhim bəy Haqverdiyev kimi həmfikirlərlə birgə, sosial mühit və tərbiyə məsələlərini dərindən araşdırmışdır. Sovet dövrü məktəb müəllimləri və sosialyönlü tərbiyə proqramları Zərdabinin prinsiplərini praktik fəaliyyətə çevirmiş və onların tədrisdə tətbiqini təmin etmişlər. Zərdabinin pedaqoji yanaşmasında ailə-məktəb-cəmiyyət vəhdəti və sosial mühitin tərbiyəedici funksiyası əsas yer tutur. O, sosial mühiti tərbiyənin əsas elementi kimi qiymətləndirmiş və xalq maarifçiliyi ideyalarını praktikaya çevirmişdir, bu da klassik pedaqoji irsin müasir təhsil sistemində tətbiqi üçün önəmli zəmin yaratmışdır.

Firidun bəy Köçərli Azərbaycan klassik pedaqoji fikrinin görkəmli nümayəndələrindən olub və onun ideyaları Həsən bəy Zərdabi və Əhməd bəy Ağaoğlu kimi həmfikirlərlə uzlaşaraq, milli-mədəni tərbiyə və şəxsiyyətin formalaşması məsələlərinə diqqət yetirmişdir. Azərbaycan dili və ədəbiyyat müəllimləri, həmçinin Sovet dövrü pedaqoji nəsli Köçərlinin prinsiplərini məktəb və ali təhsil səviyyəsində tətbiq etmişlər. Köçərlinin pedaqoji yanaşmasında ailə mühitinin şəxsiyyətin formalaşmasında rolu xüsusi vurğulanır, tərbiyə isə milli dəyərlərlə sıx əlaqələndirilmiş sistemli pedaqoji proses kimi təqdim olunur. Bu yanaşma klassik irsin müasir təhsil proqramlarında milli-mədəni kontekstlə tətbiqinin elmi əsasını təşkil edir (1, s. 175).

Cəlil Məmmədquluzadə Azərbaycan klassik pedaqoji fikir və ədəbiyyatının önəmli nümayəndələrindən olub. Onun ideyaları Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani və Əhməd bəy Ağaoğlu kimi həmfikirlərlə əlaqəlidir və cəmiyyətin maarifləndirilməsi, tərbiyə problemlərinin tədqiqi sahəsində geniş iz qoymuşdur. Ədəbiyyat müəllimləri və sosial tənqid sahəsində tədqiqatçılar Məmmədquluzadənin prinsiplərini tədris və tədqiqatlarda tətbiq etmişlər. Onun pedaqoji yanaşmasında cəhalət, sosial qüsurlar və yanlış tərbiyə modelləri diqqət mərkəzindədir. Məmmədquluzadə satira vasitəsilə tərbiyə qüsurlarını ifşa edir və maarifçi tərbiyə modelini təbliğ edərək, klassik irsin sosial və pedaqoji funksiyasını müasir kontekstdə yaşadır.

Üzeyir Hacıbəyli Azərbaycan klassik pedaqoji irsində həm musiqi, həm də mədəniyyət sahəsində görkəmli nümayəndə olmuşdur. Onun ideyaları Əhməd bəy Ağaoğlu və Cəlil Məmmədquluzadə ilə əlaqəli olaraq ailə, mədəniyyət və tərbiyə məsələlərini araşdırmışdır. Musiqi müəllimləri və mədəniyyət-tərbiyə layihələrinin iştirakçıları Hacıbəylinin prinsiplərini pedaqoji fəaliyyət və tədris proqramlarında tətbiq etmişlər. Onun pedaqoji konsepsiyasında ailənin mənəvi məsuliyyəti, həmçinin mədəniyyət və incəsənətin tərbiyəedici rolu əsas yer tutur. Tərbiyə prosesi geniş sosial və mədəni kontekstlə izah olunur və şəxsiyyətin inkişafında ailə və cəmiyyətin qarşılıqlı təsiri ön plana çıxarılır. Bu yanaşma, klassik irsin müasir pedaqoji praktika ilə uzlaşmasının elmi əsasını təşkil edir.

Ə. Ağayev müasir Azərbaycan pedaqogikasında ailə və sosial mühitin şəxsiyyətin formalaşmasında qarşılıqlı təsirini ön plana çıxaran görkəmli alimdir. Onun tədqiqatları göstərir ki, ailə yalnız ilkin sosial mühit kimi deyil, həm də şəxsiyyətin mənəvi, sosial və intellektual inkişafında əsas rol oynayır. Ağayev bu prinsipləri müasir pedaqoji təcrübəyə tətbiq etmiş, məktəb və ali təhsil proqramlarında metodik yanaşmaların hazırlanmasına, həmçinin təhsil prosesində ailə və sosial mühitin inteqrasiyasına zəmin yaratmışdır. Beləliklə, onun elmi fəaliyyəti klassik

pedaqoji irsin müasir interpretasiyası və praktik tətbiqi arasında inteqral körpü funksiyasını yerinə yetirir.

Ə.Ə. Ağayevin pedaqoji irsi Azərbaycan təhsil sistemində müasir pedaqoji yanaşmaların inkişafında önəmli rol oynayır. Onun əsas elmi fəaliyyəti "Azərbaycan məktəbi" jurnalı, monoqrafiyalar və dərs vəsaitləri vasitəsilə özünü göstərmiş, eyni zamanda təhsil siyasəti, müəllim hazırlığı və pedaqoji sistemin strukturlaşdırılması sahələrində mühüm töhfələr vermişdir. Ağayevin əsərlərində ailə və sosial mühitin şəxsiyyətin formalaşmasında rolu xüsusi vurğulanır; o, ailə və sosial mühitin qarşılıqlı təsirini sistemli şəkildə araşdırmış, tərbiyənin effektivliyini rasional və dünyəvi biliklər əsasında əsaslandırmışdır.

Onun nəzəri prinsipləri müasir Azərbaycan pedaqoji praktikası ilə sıx bağlıdır və məktəb ilə ali təhsil proqramlarında tətbiq olunan metodik yanaşmaların elmi əsasını təşkil edir. Beləliklə, Ağayevin irsi həm klassik pedaqoji ənənələrə davamçılıq edir, həm də XXI əsr təhsil sistemində şəxsiyyətin inkişafına yönəlmiş müasir pedaqoji model yaradır.

Ə.Ə. Ağayevin elmi fəaliyyəti Azərbaycan təhsil sisteminin strukturlaşdırılması, müəllim hazırlığı və təhsil siyasətinin formalaşdırılması sahələrinə yönəlmişdir. O, pedaqoji sistemin bütün elementlərini – məktəb, müəllim, ailə və sosial mühiti – bir-biri ilə əlaqələndirərək, onların qarşılıqlı təsirini nəzəri və praktik səviyyədə araşdırmışdır. Ağayevin yanaşmasında müəllim hazırlığı yalnız bilik və bacarıqların ötürülməsi deyil, həm də şəxsiyyətin tərbiyəsi və sosial məsuliyyətin formalaşması prosesidir. Eyni zamanda, onun təklif etdiyi pedaqoji sistemin strukturlaşdırılması modeli müasir məktəb və ali təhsil proqramlarında tətbiq olunan metodik prinsiplərin əsasını təşkil edir və klassik pedaqoji irs ilə müasir pedaqoji praktikaları birləşdirir.

Ə.Ə. Ağayevin tədqiqatlarında şəxsiyyətin inkişafında ailə və sosial mühitin qarşılıqlı təsiri əsas amil kimi vurğulanır. Onun tədqiqatlarında ailə və sosial mühitin şəxsiyyətin formalaşmasında qarşılıqlı təsiri mərkəzi mövzu kimi təqdim olunur. O, ailənin və cəmiyyətin tərbiyədə yalnız ilkin rol oynayan institutlar olmadığını, eyni zamanda şəxsiyyətin mənəvi, sosial və intellektual inkişafını təmin edən qarşılıqlı əlaqəli sistem olduğunu vurğulamışdır. Ağayevin nəzəriyyəsinə görə, ailə və sosial mühit bir-birini tamamlayan elementlər kimi işləyir və hər ikisinin düzgün inteqrasiyası şəxsiyyətin harmonik inkişafı üçün əsas şərtdir. Bu yanaşma müasir pedaqoji təcrübədə geniş tətbiq olunur və məktəb ilə ali təhsil proqramlarında metodik prinsiplərin hazırlanması və həyata keçirilməsinə zəmin yaradır.

Ə.Ə. Ağayev tərbiyədə rasional və dünyəvi biliklərin əsas rolunu vurğulayır və onları şəxsiyyətin intellektual və mənəvi inkişafında aparıcı vasitə kimi nəzərdən keçirir. Onun pedaqoji konsepsiyasında tərbiyə yalnız mənəvi və sosial formalaşma prosesi kimi deyil, eyni zamanda rasional və dünyəvi biliklərin sistemli şəkildə tətbiq olunduğu elmi-pedaqoji proses kimi təqdim olunur. O, hesab edir ki, şəxsiyyətin intellektual və etik inkişafı üçün tərbiyədə məntiqi düşüncə, analitik bacarıqlar və dünyəvi biliklərin inteqrasiyası vacibdir. Bu yanaşma həm klassik irsdən gələn təhsil prinsipləri ilə, həm də müasir pedaqoji elmin tələbləri ilə uyğunluq təşkil edir. Ağayevin fikrincə, rasional biliklərin tərbiyəyə daxil edilməsi şəxsiyyətin qərarvermə, problem həll etmə və sosial münasibətlərdə effektiv iştirak qabiliyyətini artırır, dünyəvi biliklərin isə mədəniyyət, tarix və sosial reallıqlar kontekstində tərbiyəedici funksiyası vardır. Beləliklə, bu prinsiplər müasir məktəb və ali təhsil proqramlarında metodik yanaşmaların hazırlanması və tətbiqinə elmi əsas yaradır, klassik irsin müasir interpretasiyasını təmin edir və şəxsiyyətin həm mənəvi, həm də intellektual inkişafını inteqrativ şəkildə dəstəkləyir.

Ə.Ə. Ağayevin pedaqoji prinsipləri müasir Azərbaycan təhsil sistemində məktəb və ali təhsil proqramlarının tərtibatında və tətbiqində əsas istiqamət kimi istifadə olunur. Onun nəzəri konsepsiyaları, xüsusilə ailə və sosial mühitin şəxsiyyətin formalaşmasındakı rolu, rasional və dünyəvi biliklərin tərbiyədə tətbiqi, metodik prinsiplər şəklində konkret pedaqoji fəaliyyətə çevrilmişdir. Bu yanaşma məktəb və ali təhsil səviyyəsində tədris proqramlarının planlaşdırılmasına, müəllim hazırlığına və təhsil prosesində sinergetik metodların tətbiqinə zəmin yaradır. Beləliklə, Ağayevin elmi irsi klassik pedaqoji ənənələrin müasir interpretasiyası olaraq Azərbaycan pedaqoji praktikasına davamlı təsir göstərir və təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Ə.Ə. Paşayev pedaqogika tarixi və nəzəriyyəsini sistemli şəkildə araşdıraraq klassik ideyaların nəzəri əsaslarını möhkəmləndirmiş, onların elmi təhlilini müasir pedaqoji kontekstə uyğunlaşdırmışdır. Paşayevin tədqiqatları göstərir ki, klassik irsin nəzəri prinsipləri müasir təhsil sistemində tətbiq olunduqda şəxsiyyətin tərbiyəsi və sosial mühitin inkişafı daha sistemli və elmi əsaslarla həyata keçirilə bilər. Onun yanaşmasına görə, klassik pedaqoji ideyaların yalnız tarixi öyrənilməsi kifayət deyil; onların müasir pedaqoji proseslərdə tətbiqi və praktiki reallaşdırılması zəruridir. O, bu ideyaların nəzəri əsaslarını möhkəmləndirərək, həm müəllim hazırlığı, həm də təhsil siyasətinin inkişafında yeni elmi konsepsiyalar təqdim etmişdir.

Paşayevin elmi fəaliyyəti göstərir ki, klassik ideyaların müasir interpretasiyası şəxsiyyətin tərbiyəsində, sosial mühitin təhlilində və təhsil proqramlarının strukturlaşdırılmasında əhəmiyyətli rol oynayır. Onun tədqiqatları müasir pedaqoji praktikaya, xüsusilə məktəb və ali təhsil səviyyəsində metodik prinsiplərin hazırlanmasına və tətbiqinə zəmin yaradır. Beləliklə, o, həm klassik irsi qoruyur, həm də onu XXI əsrin pedaqoji tələblərinə uyğun şəkildə inkişaf etdirir, Azərbaycan təhsil sistemində ailə, cəmiyyət və tərbiyə problemlərinin daha elmi və sistemli həllinə töhfə verir.

Müasir Azərbaycan pedaqogikasında Ə.Ə. Ağayev və Ə.X. Paşayevin elmi prinsipləri əsasında hazırlanmış praktik tövsiyələr, klassik və müasir pedaqoji yanaşmaların səmərəli inteqrasiyasına yönəlmişdir. Bu yanaşmalar çərçivəsində məktəb və ali təhsil səviyyəsində bir sıra praktik tövsiyələr irəli sürülə bilər: tədris proqramlarının klassik və müasir ideyaları əhatə etməsi, müəllim hazırlığında həm nəzəri, həm də praktik bacarıqların inteqrasiyası, ailə və sosial mühitin tərbiyə prosesinə aktiv cəlb olunması, eləcə də tərbiyənin sistemli və məqsədli şəkildə aparılması.

Onlar məktəb tarixi və pedaqoji düşüncənin müxtəlif problemlərinin öyrənilməsində xalqımıza xidmət edərək pedaqoji ideyaların təşviqində mühüm rol oynamışlar. Azərbaycan pedaqoji mətbuatı ölkədə təhsil prosesində baş verən bütün hadisələrin zəruri elmi və intellektual potensialını əks etdirən zəngin materiallar toplamışdır. Azərbaycanın məktəb və təhsil tarixi, pedaqoji düşüncənin qədim ənənələri və XX əsrdə toplanmış elmi-pedaqoji təcrübə göstərir ki, pedaqoji mətbuat pedaqoji elmi və pedaqoji düşüncəni öyrənmək üçün ən vacib vasitədir və o, öz funksiyalarını ən qabaqcıl pedaqoji jurnallar vasitəsilə həyata keçirə bilər (7)

Müasir pedaqoji təcrübədə Ə. Ağayev və Ə. Paşayevin metodik prinsipləri müəllimlərin fəaliyyətində prioritet istiqamət kimi nəzərə alınmalıdır. Onların yanaşmalarına görə, dərs və tədris materiallarında ailə və sosial mühitin rolu, rasional və dünyəvi biliklərin tətbiqi, klassik ideyaların müasir interpretasiyası kimi prinsiplər əks etdirilməlidir. Bu, müəllimlərin tərbiyə və tədris prosesində nəzəri bilikləri praktik fəaliyyətdə səmərəlişəkildə tətbiq etməsinə, həmçinin şagirdlərin və tələbələrin sosial, mənəvi və intellektual inkişafını təmin edən sistemli pedaqoji proses qurmasına imkan verir. Bu gün ailə problemləri və uşağın şəxsiyyətinin formalaşması cəmiyyətin həyatında böyük əhəmiyyət kəsb edir. Ailə institutunda deformasiyaların yaranması, ailə modellərinin milli dəyər kimi sarsılması, ailənin psixoloji vəziyyətinin zəifləməsi və sosial böhranların ailəyə ümumilikdə təsiri dünyanın, xüsusilə inkişaf etmiş ölkələrin ən çox müzakirə olunan məsələlərindən birinə çevrilmişdir (8)

Ağayev və Paşayevin metodik prinsiplərinin dərs və tədris materiallarına inteqrasiyası, klassik və müasir pedaqoji yanaşmaların sintezi əsasında müasir müəllimlərin fəaliyyətinin keyfiyyətini artırır, təhsil prosesinin elmi əsaslarla planlaşdırılmasını və həyata keçirilməsini təmin edir.

Tədris proqramlarında klassik və müasir yanaşmaların sintezi: Müasir pedaqoji praktikada tədris proqramları klassik ideyalar ilə müasir pedaqoji yanaşmaları birləşdirməlidir. Bu, həm Ə.Ə. Ağayevin ailə və sosial mühitin şəxsiyyətin formalaşmasındakı rolu və rasional biliklərin tətbiqi, həm də Ə.X. Paşayevin klassik ideyaların müasir interpretasiyası prinsiplərinin dərs və tədris materiallarında əks olunmasını tələb edir. Tədris proqramlarının belə sintezi müəllimlərə nəzəri və praktiki bilikləri inteqrasiya etməyə, şagird və tələbələrin mənəvi, sosial və intellektual inkişafını sistemli şəkildə təmin etməyə, eləcə də tərbiyə və təhsil prosesində real həyat nümunələrini tətbiq etməyə imkan yaradır. Əvvəlcə vurğulamaq lazımdır ki, valideynlər və müəllimlər arasında səmərəli əməkdaşlıq şagirdin fərdi ehtiyaclarının daha dərindən anlaşılma-

sını təmin edir. Valideynlər uşaqlarının evdəki davranışları və gündəlik vəziyyəti barədə müəllimləri məlumatlandırmaqla məktəbdə tətbiq olunan tədris strategiyalarının daha uyğun şəkildə qurulmasına imkan yaradırlar. Digər tərəfdən, müəllimlər yalnız məlumat verməklə kifayətlənməyib, valideynlərə praktik tövsiyələr təqdim edir, onları təhsildə fəal iştirakçıya çevirirlər. Bu qarşılıqlı informasiya mübadiləsi uşaqların inkişafını yaxından izləməyə və onların təhsil ehtiyaclarına uyğun qərarlar qəbul etməyə şərait yaradır.

İnklüziv təhsilin əsas prinsiplərindən biri hər bir şagirdə fərdi yanaşmanın təmin edilməsidir. Bu prinsip şagirdlərin öyrənmə tərzlərinə və inkişaf dinamikalarına uyğun təhsil prosesinin təşkil olunmasını tələb edir. Valideyn-müəllim əməkdaşlığı bu fərdi yanaşmanın effektivliyini artırır, çünki müəllimlər şagirdlərin öyrənmə vərdişlərini daha yaxşı qiymətləndirərək inkişafı dəstəkləyən xüsusi proqramlar hazırlaya bilirlər, valideynlər isə evdə uşaqlara lazımi dəstəyi göstərməklə məktəbdə aparılan təhsil prosesini tamamlayırlar. Belə əməkdaşlıq şagirdlərin akademik uğurlarını yüksəltməkdə əhəmiyyətli rol oynayır.

Buna baxmayaraq, nəzəri olaraq cəlbedici görünən əməkdaşlıq modeli praktikada müəyyən çətinliklərlə üzləşir. Bu problemlərə informasiya çatışmazlığı, qarşılıqlı inamsızlıq, kommunikasiya maneələri, müəllim və valideynin inklüziv təhsilə hazırlıqsızlığı və digər amillər daxildir. Bu çətinliklər əməkdaşlığın davamlı və səmərəli həyata keçirilməsinə əngəl törədir. Belə vəziyyətdə məqsədəuyğun pedaqoji strategiyaların işlənməsi, metodoloji baza formalaşdırılması və praktik nümunələr əsasında modellərin tətbiqi vacib olur. Məqalənin məqsədinə uyğun olaraq, həm beynəlxalq, həm də yerli təcrübə, tanınmış tədqiqatçıların yanaşmaları nəzərə alınmaqla inklüziv təhsildə əməkdaşlığın mahiyyəti və imkanları ətraflı şəkildə təqdim edilir.

Təhsildə əməkdaşlıq anlayışı tərəfdaşlıq, qarşılıqlı informasiya mübadiləsi, birgə qərar qəbulu və ortaq məsuliyyəti əhatə edir. Valideyn və müəllim arasında belə əlaqə bir tərəfin digərinə tabe olmasını deyil, qarşılıqlı hörmət, etimad və məqsədlərin uzlaşdırılmasını əsas götürür. Belə yanaşma həm məktəb, həm də ali təhsil səviyyəsində pedaqoji prosesin elmi əsaslarla planlaşdırılması və həyata keçirilməsi, klassik və müasir pedaqogikanın inteqrasiyası, həmçinin təhsilin keyfiyyətinin yüksəldilməsi üçün səmərəli mexanizm yaradır. Əvvəlcə qeyd etmək lazımdır ki, valideynlər və müəllimlər arasında əməkdaşlıq şagirdin fərdi ehtiyaclarının daha yaxşı anlaşılmasına xidmət edir. Ə. Ağayev və Ə. Paşayevin fikirlərinə əsasən, valideynlər uşaqlarının evdəki davranışları və gündəlik vəziyyətləri barədə müəllimləri məlumatlandırmaqla məktəbdə daha məqsədyönlü və fərdi yanaşmaların tətbiqinə şərait yaradırlar. Digər tərəfdən, müəllimlər valideynləri yalnız məlumatlandırmır, həm də onlara praktik tövsiyələr təqdim edərək, onları təhsilin fəal iştirakçısına çevirirlər.

Heydər Əliyevin təhsil siyasəti və onun irsi Azərbaycan pedaqoji düşüncəsində mühüm rol oynayır. Əliyev hər bir uşağın fərdi inkişafını təmin edən inklüziv və yüksək keyfiyyətli təhsil prinsipini əsas tutmuş, müəllimlərin peşəkar bacarıqlarının formalaşmasını, innovativ metodların tətbiqini və təhsil prosesində qarşılıqlı əməkdaşlığı prioritet sahələr kimi müəyyən etmişdir. Bu yanaşma müəllimlərə şagirdlərin fərdi ehtiyaclarına uyğun proqramlar hazırlamağa, valideynlərlə səmərəli ünsiyyət qurmağa və tədris prosesinin keyfiyyətini yüksəltməyə imkan verir. Belə peşəkar inkişaf, müəllimlərin yalnız pedaqoji bacarıqlarını deyil, həm də təşkilatçılıq və kommunikasiya qabiliyyətlərini gücləndirir, şagirdlərin akademik və sosial bacarıqlarının inkişafını dəstəkləyir və inklüziv təhsil prinsiplərinin tətbiqinə şərait yaradır (13).

Peşəkar özmüqəddəratını təyinetmə prosesinin pedaqoji komponenti fərdin peşəkar dəyərləri və əmək bazarının ehtiyaclarını subyektiv olaraq əhəmiyyətli hesab edərək mənimsəməsini əhatə edir. Bu dəyərlər şəxsi inkişaf üçün sabit bir rəhbərliyə çevrilməli, onların davranışlarını, məqsədlərini və fəaliyyətlərinin məzmununu formalaşdırmalıdır. Bununla belə, müasir tələbələrin aldıqları təhsilə münasibətində açıq-aydın ikililik və peşəkar təlimlə sonrakı peşəkar işin reallıqları arasında uyğunsuzluq var. Qurulmuş dəyər yönümləri fərdin yetkinliyinin və sosiallaşma dərəcəsinin göstəricisidir (14).

XXI əsrdə Azərbaycan pedaqogikasında Ə.Ə. Ağayev və Ə.X. Paşayev klassik pedaqoji ideyaların müasir interpretasiyasını təmin edərək, onların nəzəri prinsiplərini təhsil siyasəti, müəllim hazırlığı və pedaqoji sistemin struktur-

laşdırılması sahəsində uğurla tətbiq etmişlər. Ağayevin tədqiqatlarında ailə və sosial mühitin qarşılıqlı təsiri, şəxsiyyətin formalaşmasında rasional və dünyəvi biliklərin rolu və tərbiyənin sistemli təşkili ön plana çıxarılır. Paşayev isə klassik ideyaların müasir interpretasiyasını nəzəri əsaslarla gücləndirərək, onların pedaqoji prosesdə tətbiqi və praktik həyata keçirilməsini təmin edir. Hər iki alim klassik və müasir pedaqoji yanaşmaların inteqrasiyasını reallaşdırmaqla Azərbaycan təhsil sistemində tərbiyə və tədris proseslərinin elmi əsaslarla qurulmasına mühüm töhfə vermişdir.

Bu yanaşma nəticəsində məktəb və ali təhsil proqramlarında ailə və sosial mühitin rolu, müəllim hazırlığında metodik prinsiplərin inteqrasiyası və praktiki fəaliyyətlər sistemli şəkildə əks olunur. Tədris proqramları klassik ideyalar ilə müasir pedaqoji konsepsiyaları birləşdirərək, şagird və tələbələrin mənəvi, sosial və intellektual inkişafını təmin edən harmonik pedaqoji proses yaradır. Müasir müəllimlər Ağayev və Paşayevin metodik prinsiplərini dərs və tədris materiallarında əks etdirərək, tərbiyə və təhsildə real həyat nümunələrindən istifadə etməli, klassik və müasir pedaqogikanın sintezini praktik fəaliyyətə çevirməlidirlər.

Nəticə etibarilə, Ə.Ə. Ağayev və Ə.X. Paşayevin elmi irsi klassik irsi müasir təhsil mühitinə uyğunlaşdıran, Azərbaycan pedaqogikasında davamlı təsir göstərən və şəxsiyyətin kompleks inkişafına yönəlmiş fundamental elmi töhfə kimi qiymətləndirilə bilər. Onların fəaliyyəti həm nəzəri, həm də praktik səviyyədə Azərbaycan təhsilinin inkişafında elmi əsasları gücləndirir və müasir pedaqoji sistemin effektivliyini artırır.

Problemin aktuallığı. Azərbaycan pedaqogikasında ailə, cəmiyyət və tərbiyə məsələlərinin müasir tədqiqi Ə.Ə. Ağayev və Ə.X. Paşayevin elmi fəaliyyətində xüsusi aktuallıq kəsb edir. Ağayevin araşdırmaları şəxsiyyətin formalaşmasında ailə və sosial mühitin qarşılıqlı təsirini vurğulayır, onların tərbiyəedici funksiyasını XXI əsr təhsil sisteminə uyğun nəzəri və praktik kontekstdə interpretasiya edir. Paşayev isə klassik pedaqoji ideyaların – Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Firidun bəy Köçərli və Cəlil Məmmədquluzadə – nəzəri prinsiplərini müasir pedaqoji proseslərə tətbiq etməklə, klassik irs ilə XXI əsr təhsil sistemini birləşdirən elmi körpü rolunu oynayır. Onların fəaliyyəti müasir müəllim hazırlığı, tədris proqramlarının optimallaşdırılması və tərbiyə proseslərinin səmərəliliyinin artırılması baxımından pedaqoji praktikada yüksək aktuallığa malikdir.

Problemin praktik əhəmiyyəti. Ə.Ə. Ağayev və Ə.X. Paşayevin elmi prinsipləri tədris proqramlarının hazırlanması, müəllim hazırlığı və tədris prosesinin optimallaşdırılması sahəsində praktiki əhəmiyyət kəsb edir. Onların yanaşmaları, ailə və sosial mühitin tərbiyəedici funksiyasını nəzərə alaraq şagirdlərin akademik və şəxsi inkişafını dəstəkləyən metodik prinsiplərin tətbiqinə imkan verir. Müasir müəllimlərin fəaliyyəti bu prinsiplərin tətbiqi ilə daha sistemli, məqsədyönlü və inklüziv şəkildə təşkil olunur, valideyn-müəllim əməkdaşlığı, interaktiv təlim metodları və fərdi yanaşma şagirdlərin inkişafını daha effektiv təmin edir.

Nəticə. Ə.Ə. Ağayev və Ə.X. Paşayevin elmi fəaliyyətinin nəticələri göstərir ki, klassik Azərbaycan pedaqoji irsi ilə müasir pedaqoji nəzəriyyə arasında inteqrasiya imkanları yüksək səviyyədədir. Ağayevin tədqiqatları şəxsiyyətin inkişafında ailə və sosial mühitin qarşılıqlı təsirini nəzəri və praktik səviyyədə sistemləşdirir, tərbiyə prosesində rasional və dünyəvi biliklərin rolunu vurğulayır. Bu yanaşma məktəb və ali təhsil proqramlarında metodik prinsiplərin hazırlanmasına və tətbiqinə zəmin yaradır. Paşayev isə klassik pedaqoji ideyaların XXI əsr təhsil sisteminə uyğun interpretasiyasını təmin edərək, onların nəzəri prinsiplərini müasir təhsil siyasətinə, müəllim hazırlığına və pedaqoji sistemin strukturlaşdırılmasına tətbiq edir.

Ə.Ə. Ağayev və Ə.X. Paşayevin elmi prinsipləri həm nəzəri, həm də praktik səviyyədə Azərbaycan təhsil sistemində klassik və müasir pedaqoji yanaşmaların sintezini təmin edir. Onların irsi müəllim hazırlığında, tədris proqramlarının formalaşdırılmasında və tərbiyə proseslərinin elmi əsaslarla həyata keçirilməsində uzunmüddətli və davamlı təsir göstərir, müasir müəllimlərin fəaliyyətinin keyfiyyətini yüksəldir və təhsil prosesində inklüziv yanaşmaların tətbiqinə mühüm töhfələr verir.

Ədəbiyyat

1. Vahabova, T.Ə. Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafı (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri): / pedaqogika elmləri doktoru...dissertasiyası)/ Bakı, 2020.
2. Vaqabova, T.A. (2025). Vliyanie folklora na razvitie pedagogicheskoy mysli v Azerbaidzhane. Chelovek i obrazovanie, (2), 183–189. https://doi.org/10.54884/1815-7041-2025-83-2-183-189
3. Az söylə, söz sözlə: Şərqin şifahi və yazılı abidələrində tərbiyəvi fikirlər. -Bakı: Maarif, -1993. – 400 s.

4. Qasımova, L.N. Pedaqogika: Ali təhsil müəssisələri üçün dərslik / L.N. Qasımova, R.M. Mahmudova. – Bakı: Çaşıoğlu, - 2021. -612 s.
5. Jafarova, S. (2022). Upbringing issues in Azerbaijan families (comparative analysis end of the XIX - beginning of the XX century and the modern period). Journal of Preschool and Primary Education, 240(III), 93–104.
6. Mammadova, E. N. (2022). Journal of "Azerbaijan Journal of Educational Studies" and the process of formation of pedagogical thought in Azerbaijan. Revista Conrado, 18(86), 373–367.
7. Mammadova, S. M. (2025). The importance of using folk pedagogy in educating the young generation. Scientific Results, 11. https://ojs.scipub.de/index.php/SR/article/view/6794
8. Əliyeva, S. (2025). Gələcək tərbiyəçi-müəllimlərin peşə hazırlığında interaktiv təlim metodlarından istifadə imkanları. Məktəbəqədər və ibtidai təhsil, № 2, s. 25–35. https://doi.org/10.30546/2709-2488.2.2025.0020
9. Guliyeva, N. (2025). Development of education in Azerbaijan: Historical path, modern trends and prospects. Akademik Tarih ve Düşünce Dergisi, 12(4), 109–128. https://doi.org/10.5281/zenodo.17322798
10. Hüseynova, G. (2025). İnklüziv təhsildə valideyn-müəllim əməkdaşlığı: problemlər və həllər. Azərbaycan Məktəbi, 2(711), 118–126. https://doi.org/10.30546/32898065.2025.2.046
11. Verdiyeva, M. (2023). Teaching geography in Azerbaijan: Problems with textbooks and teachers. History of development of teaching methodology. Pedagogy and Psychology, 2(55), 3–14. https://journal-pedpsy.kaznpu.kz/index.php/ped/article/view/1000
12. Вагабова Т.А. Образовательная политика Гейдара Алиева и его наследие в истории педагогической мысли Азербайджана // Известия Балтийской государственной академии рыбопромыслового флота. –2025. № 2(72). –С. 73–78.
13. Кох И.А., Орлов В. А. Ценности и профессиональное самоопределение студенческой молодежи // Образование и наука. 2020. Т. 22, № 2. С. 141–168. DOI: 10.17853/1994-5639-2020-2-141-168
14. Смирнов И. П. О научности педагогики (как избежать трансформации педагогической науки в идеологию) // Образование и наука. 2020. Т. 22, № 2. С. 9–28. DOI: 10.17853/1994-5639-2020-2-9-28

Redaksiyaya daxil olub: 20.02.2026

UOT 37.01

Lalə Akif qızı Məmmədli
Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/ 0000-0003-0686-3627
E-mail: lale23@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(2).102-106

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN TƏRBİYƏYƏ DAİR FİKİRLƏRİ TƏLƏBƏLƏRDƏ FƏAL HƏYAT MÖVQEYİ FORMALAŞDIRMAĞIN VASİTƏSİ KİMİ

Lala Akif Mammadly
doctor of philosophy in pedagogy, leading specialist at the
Institute of Education of the Republic of Azerbaijan

THOUGHTS OF THE PRESIDENT OF THE REPUBLIC OF AZERBAIJAN ILHAM ALIYEV ON UPBRİNGİNG AS A MEANS OF FORMING AN ACTIVE LIFE POSITION IN STUDENTS

Лала Акиф гызы Мамедли
доктор философии по педагогике
ведущий специалист Института Образования Азербайджанской Республики

МЫСЛИ ПРЕЗИДЕНТА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ИЛЬХАМА АЛИЕВА ОБ ВОСПИТАНИИ КАК СРЕДСТВЕ ФОРМИРОВАНИЯ АКТИВНОЙ ЖИЗНЕННОЙ ПОЗИЦИИ У СТУДЕНТОВ

Xülasə. Ailədə, ümumtəhsil məktəblərində olduğu kimi, ali təhsil müəssisələrində də tələbələri bilik və zəruri məlumatlarla silahlandırmaqdan, onların dünyagörüşünü inkişaf etdirməklə yanaşı, tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması son dərəcə vacibdir. Bu zaman pedaqoji kollektiv üzvləri müxtəlif vasitələrdən faydalanırlar. Bu məqalədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tərbiyə ilə bağlı söylədiyi fikirlər, tövsiyələr əsas götürülmüşdür.
***Açar sözlər**: mövqe, fəal mövqe, fəal həyat mövqeyi, tələbənin fəal həyat mövqeyi, fəal həyat mövqeyini formalaşdırılması*

Abstract. In the home, as well as in comprehensive schools and higher education institutions, in addition to equipping students with knowledge and necessary information and developing their worldview, it is crucial to foster an active life stance. During this time, teaching staff members benefit from various resources. This article is based on the ideas and recommendations of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, regarding upbringing.
***Key words**: position, active position, active life position, active life position of a student, informative active life position*

Аннотация. В семье, как и в общеобразовательных школах, так и в высших учебных заведениях, помимо вооружения учащихся знаниями и необходимой информацией, развития их мировоззрения, крайне важно формировать у них активную жизненную позицию. В это время члены педагогического коллектива получают пользу от различных средств. Данная статья основана на идеях и рекомендациях Президента Азербайджанской Республики Ильхама Алиева относительно воспитания.
***Ключевые слова**: позиция, активная позиция, активная жизненная позиция, активная жизненная позиция студента, информирующая активная жизненная позиция*

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan istər daxili, istərsə də xarici siyasət sahəsində çox böyük uğurlar qazanmışdır. Ən başlıcası, dövlət başçısı uzaqgörən, ağıllı siyasəti ilə erməni-faşist işğalçılarının zəbt etdiyi torpaqlarımızı düşmən tapdağından xilas etmişdir. Şuşa, Xankəndi, Ağdam, Kəlbəcər, Laçın, Qubadlı, Ağdərə, Xocavənd, Zəngilan, Cəbrayıl əsirlikdən xilas olmuşdur.

"Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm!" Bu sözlər Ümummilli Liderimiz, mərhum Heydər Əliyevə aiddir. Ulu Öndərin müdrik sözləri, inamı özünü doğrultmuşdur. Cənab İlham Əliyev Ümummilli Liderin yolunu uğurla davam etdirir, Azərbaycanımızı xoş günlərə aparır, ölkənin müstəqilliyinin, suverenliyinin, təhlükəsizliyinin təminatçısı kimi çıxış edir.

Professor A.N. Abbasov yazır: "Ümummilli liderimiz Heydər Əliyev müasir Azərbaycanın qurucusu, baş memarı idisə, onun ləyaqətli varisi və davamçısı cənab İlham Əliyev bu quruculuq ənənələrini qoruyub saxlayan və inkişaf etdirən, respublikamızın tərəqqisini təmin edən bir şəxsiyyətdir. Uğurlu daxili və xarici siyasət yürüdür. Ölkəmizin nailiyyətləri ilə dünya ölkələrini heyrətləndirir. Azərbaycanın beynəlxalq mövqeləri getdikcə güclənir, nüfuzu artır" (1, s. 8).

Professorun dediklərinə əlavə olaraq bildiririk ki, cənab Prezident tərbiyə məsələlərini də həmişə diqqət mərkəzində saxlamışdır.

Cənab İlham Əliyev təhsil işçiləri, hərbiçilər, gənclər qarşısında, eyni zamanda müxtəlif tədbirlərdə çıxış edərkən insanların, böyüməkdə olan nəsillərin tərbiyəsi, mənəvi keyfiyyətlərinin daha da inkişaf etdirilməsi ilə bağlı son dərəcə faydalı fikirlər söyləyir və söyləməkdə davam edir, onları vətənpərvər olmağa, biliklərə, həyat üçün lazım olan bacarıqlara, sərištələrə yiyələnməyə, həyatda fəal mövqe tutmağa səsləyir.

Həmin fikirlər tələbələrdə və şagirdlərdə fəal həyat mövqeyinin formalaşdırılması üçün ən qiymətli vasitə və baza rolunu oynaya bilər və oynayır.

Möhtərəm Prezident Emin Əmrullayevi təhsil naziri təyin olunması ilə bağlı videoformatda qəbul edərkən demişdir: "Təhsil sahəsində bu günə qədər aparılan islahatlar daha da dərinləşməlidir. Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir. Təhsil sahəsi daim diqqət mərkəzindədir və bu da təbiidir. Çünki hər bir ölkənin bu günü və gələcəyi təhsillə bilavasitə bağlıdır. 17 ildir ki, mənim təşəbbüsümlə Azərbaycanda qara qızılı insan kapitalına çevirmək prinsipi əsasında islahatlar aparılır. Bu illər ərzində tamamilə yeni, müasir nəsil yetişib və gənclər bu gün bütün sahələrdə özlərini göstərirlər. Onların fəallığı, bilikləri, müasir texnologiyalara marağı ölkəmizi gücləndirir. Bizim sərhədlərimizi də, xalqımızın əmin-amanlığını da səngərdə düşmənlə üz-üzə olan döyüş məntəqələrində gənclərimiz ləyaqətlə qoruyur" (2).

Möhtərəm Prezident "*gənclər bu gün bütün sahələrdə özlərini göstərirlər. Onların fəallığı, bilikləri, müasir texnologiyalara marağı ölkəmizi gücləndirir*" deməklə gənclərin həyatda fəal mövqe tutmalarını nəzərdə tutur. Məhz fəal həyat mövqeyinə malik şəxslər cəmiyyətdə xarüqələr yarada bilərlər.

Cənab Prezident videoformatda eyni zamanda demişdir: "Təhsilin səviyyəsi müəllimlərin peşəkarlığından asılıdır. Gənclərin tərbiyə olunması, əlbəttə, ilk növbədə, ailələrdə baş verir. Mən çox şadam ki, Azərbaycan cəmiyyəti əsrlər boyu ailə dəyərlərini qoruyub saxlaya bilib. Ailədə verilən tərbiyə xalqımızın gələcəyini də təmin edəcəkdir. Ancaq bununla paralel olaraq, bizim həm orta, həm də ali məktəblərdə tərbiyə işinə yüksək, böyük diqqət verilməlidir. Gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalı, Vətənə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər. Xüsusilə, bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı öz Vətəni ilə fəxr edə bilər. ...Bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol vermək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir" (2).

Daha sonra cənab Prezident qeyd etmişdir: "Müasir, vətənpərvər və mənəvi cəhətdən sağlam yeni nəsil ölkəmizin gələcəyini müəyyən edəcək. Ölkəmizin müstəqilliyi, firavanlığı onlardan asılı olacaq. Onlar milli maraqları bizim

qədər, heç nəyə baxmadan müdafiə etməlidir. Heç bir təzyiqə, hədə-qorxuya, əsassız ittihamlara baxmayaraq, Vətən məhəbbəti və milli dəyərlər onlar üçün hər şeydən üstün olmalıdır. Buna nail olmaq üçün onlar milli ruhda tərbiyə almalıdırlar. Əgər qloballaşma adı ilə bizə yad olan və faktiki olaraq manqurtlaşma, eyniləşmə siyasəti idxal ediləcəksə, onda bizim gənclərimiz gələcəkdə ölkəmizin maraqlarını qoruya bilməyəcəklər. Bu, təkcə Təhsil Nazirliyinin vəzifəsi deyil, bu prinsiplər, ilk növbədə, ailələrdə, məktəbdə, uşaq bağçasında, ali məktəbdə, orduda və cəmiyyətdə üstünlük təşkil etməlidir" (2).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə bağlı videoformatda qəbul edərkən belə bir fikir söyləmişdir: "Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır" (3).

Həmin ənənəvi dəyərlərdən biri də, təbii ki, həyatda fəal mövqe qazanmaqdır.

Cənab Prezidentə görə, gənclər mənfi xarici təsirdən uzaq olmalı, buna nail olmaq üçün onlarla məqsədyönlü, sistemli və fasiləsiz tərbiyə işləri aparılmalıdır (3).

Haqqında söz açılan tədbirdə hörmətli dövlət başçısının söylədiyi aşağıdakı sözləri xüsusilə qiymətlidir: "Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır.

Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var.

Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq. Bu şanlı tarixi yaşatmaq üçün, qorumaq üçün və gəncləri bunun əsasında tərbiyə etmək üçün sizin nazirliyinizin üzərinə böyük vəzifələr düşür" (3).

Cənab Prezident cəmiyyətimizin, Azərbaycanımızın qüdrətinin artırılmasında, ölkəmizin təcavüzlərdən qorunmasında həmişə gənclərin fəal həyat mövqe tutmalarının böyük rolunu qeyd edir. Şuşa şəhərindəki nitqində bu xüsusda demişdir: "Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi" (4).

Cənab Prezidentin Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışı da maraq doğurur. Diqqət yetirək: "Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə, Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbi qurumları tərəfindən maliyyələşən qurumlar bu boşluqlardan istifadə edirlər, xüsusilə bu gün ki, azad internet mövcuddur. Gənclər vətənpərvər olmalıdırlar. Bu, yoxdursa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq.

Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir – bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin" (5).

Möhtərəm Prezident öz nitqində "*fəal həyat mövqeyinin formalaşdırılması*" kimi mühüm

tərbiyə vəzifəsinin adını çəkməsə də, əslində qeyd etdiyi və mühüm vəzifə kimi irəli sürdüyü bütün vəzifələr məhz həmin problemlə – gənclərdə fəal həyat, fəal vətəndaşlıq mövqeyinin tərbiyə olunması ilə bağlıdır.

2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilmişdir. Həmin tədbirdə iştirak edən dövlət başçısı çıxış etmiş, öz çıxışında aşağıdakı məsələləri diqqət mərkəzinə gətirmişdir: "Əsrlər boyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlər boyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir" (5).

Ailə dəyərləri ilə bağlı cənab İlham Əliyevin aşağıdakı fikirləri də son dərəcə önəmli və faydalıdır: "Mən çox şadam ki, Azərbaycan cəmiyyəti əsrlər boyu ailə dəyərlərini qoruyub saxlaya bilib. Ailədə verilən tərbiyə xalqımızın gələcəyini də təmin edəcəkdir. Ancaq bununla paralel olaraq, bizim həm orta, həm də ali məktəblərdə tərbiyə işinə yüksək, böyük diqqət verilməlidir. Bizim gənclərimiz Vətənə bağlı olmalıdırlar, Vətəni sevməlidirlər. Xüsusilə bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı öz Vətəni ilə fəxr edə bilər" (5).

Prezident İlham Əliyevin qənaətincə, gənclər hökmən milli ruhda tərbiyə almalıdırlar. Bu xüsusda dövlət başçısı deyirdi: "Gənclər cəmiyyətimizin fəal üzvləri kimi ölkəmizin güclənməsində əsas rol oynayırlar. Mən gənclərin fəaliyyətini yüksək qiymətləndirirəm. Həm beynəlxalq müstəvidə, həm ölkə daxilində görürəm ki, bu gün böyüyən gənclər xalqa, dövlətə bağlıdırlar. Bu, çox önəmlidir. Gənclər gərək milli ruhda tərbiyə alsınlar. Biz milli dəyərlərimizi hər şeydən üstün tutmalıyıq" (6).

Cənab Prezident "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" kimi son dərəcə qiymətli konsepsiya irəli sürmüşdür. Bu konsepsiya cəmiyyətin inkişafına yeni töhfələr verir. Cənab İlham Əliyevin göstərir: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir. ...Neft, qaz Tanrıdan verilən böyük nemətdir, biz bundan uğurla və məharətlə istifadə edirik. Amma gec-tez bu təbii sərvətlər tükənəcək və bilik, zəka, səviyyə isə ölkəmizin dayanıqlı inkişafını uzun illər bundan sonra da təmin edəcəkdir. Ən inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq, görərik ki, o ölkənin inkişafında ən aparıcı rol oynayan neft, qaz deyil, bilikdir, elmi-texniki tərəqqidir, yeni texnologiyalardır" (7).

Bizim hər birimiz, təhsil müəssisələrinin pedaqoji kollektivləri, eyni zamanda ali məktəb müəllimləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi qiymətli fikirlərdən faydalanmalı tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması məqsədilə onlardan istifadə etməlidirlər.

Problemin aktuallığı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tərbiyə ilə bağlı söylədiyi fikirlər əsas götürülməklə tələbələrdə fəal həyat mövqeyinin formalaşdırılması kimi mühüm bir məsələnin üzərində dayanılır.

Problemin yeniliyi. Cənab İlham Əliyevin tərbiyəvi fikirləri fəal həyat mövqeyinin formalaşdırmağın vasitəsi kimi seçilib.

Problemin praktik əhəmiyyəti. Magistrant və magistrlər, doktorant və dissertantlar məqalədən faydalanacaqlar.

Ədəbiyyat

1. Abbasov, A.N. Təhsilimizin İlham Əliyev mərhələsi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2018. № 3, s. 7-12.
2. İlham Əliyev Emin Əmrullayevi təhsil naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. 27 iyul 2020. https://president.az/az/articles/view/40092
3. İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. 07 sentyabr 2021. https://president.az/az/articles/view/52993

4. Azərbaycan Prezidenti İlham ƏLİYEV: Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir https://mod.gov.az/az/pre/34657.html
5. Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyindəki çıxışı https://muhendislik.unectest.safaroff.com/az/news/deyeri-bilikden-one-cixaran-tehsil-ilham-eliyev-modeli
6. Prezident İlham ƏLİYEV: Gənclər gərək milli ruhda tərbiyə alsınlar. https://old.xalqqazeti.com/az/news/politics/89457
7. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. https://anl.az/down/meqale/az_muellimi/2012/aprel/242819.htm

Redaksiyaya daxil olub: 21.02.2026

UOT 37.01

Nigar Ramiz qızı İsmayılova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https: // orcid.org/0000-0002-2538-9740
E-mail: niay.83@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(2).107-112

MƏDƏNİ-TARİXİ ƏNƏNƏLƏRİN UŞAQLARIN SOSİAL TƏRBİYƏSİNƏ TƏSİRİ: AİLƏ İLƏ BAĞÇANIN BİRGƏ İŞİ

Nigar Ramiz İsmayılova
associate professor of Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy

THE INFLUENCE OF CULTURAL AND HISTORICAL TRADITIONS ON THE SOCIAL EDUCATION OF CHILDREN: JOINT WORK OF THE FAMILY AND KINDERGARTEN

Нигяр Рамиз гызы Исмайлова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ВЛИЯНИЕ КУЛЬТУРНЫХ И ИСТОРИЧЕСКИХ ТРАДИЦИЙ НА СОЦИАЛЬНОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ: СОВМЕСТНАЯ РАБОТА СЕМЬИ И ДЕТСКОГО САДА

Xülasə. Məqalədə mədəni-tarixi ənənələrin Azərbaycan ailəsində uşaqların sosial tərbiyəsinin əsasını təşkil etməsi, böyüklərə hörmət, qohumluq bağları, qonaqpərvərlik və vətənpərvərlik kimi dəyərləri erkən yaşdan formalaşdırması məsələləri araşdırılır. Eyni zamanda məktəbəqədər müəssisə bu prosesi tamamlayaraq həmyaşıdlarla ünsiyyət, paylaşma və kollektiv davranış bacarıqlarını inkişaf etdirir, milli bayramlar və folklor vasitəsilə mədəni irsə bağlılığı gücləndirir. Ailə ilə bağçanın birgə işi – valideynlərin tədbirlərə qatılması, müntəzəm görüşlər və dəyərlərin ahəngdarlığı – uşaqda bu xüsusiyyətlərin formalaşmasına və emosional dayanıqlığa səbəb olur. Bu əməkdaşlıq ev və bağça mühitlərində ziddiyyətləri aradan qaldırır, uşaqların özünəinam və məsuliyyət hisslərini artırır.
Açar sözlər: *məktəbəqədər müəssisə, yaş, uşaq, adət-ənənə, sosial inkişaf, tərbiyə, valideyn*

Abstract. The article examines the issues of cultural and historical traditions forming the basis of social education of children in the Azerbaijani family, forming values such as respect for elders, kinship ties, hospitality and patriotism from an early age. At the same time, preschool institutions complement this process by developing communication, sharing and collective behavior skills with peers, and strengthening attachment to cultural heritage through national holidays and folklore. The joint work of the family and kindergarten - parental participation in events, regular meetings and harmony of values - leads to the formation of these characteristics and emotional stability in the child. This cooperation eliminates contradictions in the home and kindergarten environments, increases children's self-confidence and sense of responsibility.
Key words*: preschool, age, child, tradition, social development, upbringing, parent*

Аннотация. В статье рассматриваются вопросы культурно-исторических традиций, формирующих основу социального воспитания детей в азербайджанской семье, прививающих с раннего возраста такие ценности, как уважение к старшим, родственные связи, гостеприимство и патриотизм. При этом дошкольные учреждения дополняют этот процесс, развивая навыки общения, взаимопомощи и коллективного поведения со сверстниками, а также укрепляя привязанность к культурному наследию через национальные праздники и фольклор. Совместная работа семьи и детского сада – участие родителей в мероприятиях, регулярные встречи и гармония ценностей – способствует формированию этих характеристик и эмоциональной устойчивости у ребенка. Такое сотрудничество устраняет противоречия в домашней и дошкольной обстановке, повышает уверенность детей в себе и чувство ответственности.

Ключевые слова: *дошкольный возраст, ребенок, традиция, социальное развитие, воспитание, родитель*

Ailə kiçik cəmiyyətdir. Ailədə uşaqların tərbiyəsində valideynlərin üzərinə böyük məsuliyyət düşür. Övladın varlığına səbəb olan ata-ana onun böyüyüb boya-başa çatmasında əlindən gələni etməlidir.

"Heydər Əliyev məzmunlu biliyin güclü tərbiyəvi təsirə malik olduğunu nəzərə alaraq deyirdi: "Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə təhsil alaraq öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə, həqiqi vətənpərvər ola bilməz. Əgər bunu bilməsə, öz millətinə olan mənsubiyyəti ilə istənilən səviyyədə fəxr edə bilməz. Ancaq təkcə tarix deyil, bizim zəngin ədəbiyyatımız da var. Biz dilimizlə fəxr etməliyik. Dil hər bir millətin milliliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini gərək ən incəliklərinə qədər bilsin. Bu dildən istifadə etsin" [1, s. 27].

Ailə sosial təcrübənin uşağa ötürülməsinin əsas vasitəçisidir. Ailənin cəmiyyətdəki rolu digər sosial əlaqələrlə müqayisədə əvəzedilməzdir. Ailə uşağın emosional və sosial inkişafını müəyyənləşdirir. Ailənin uşağın şəxsiyyət olaraq formalaşmasında rolu əvəzsizdir. Uşaqların tərbiyəsində, əxlaqının gözəl olmasında, valideyn tərbiyəsində başqa əlavə dərs ola bilməz. Ailədə ev içində ailənin üzvləri bir-birlərinə qarşı dürüst olduqları, öz vəzifələrini düzgün yerinə yetirdikləri zaman uşaqların da ədəbi, əxlaqı gözəl və nümunəvi olar. Ailəsiz hər hansı tərbiyənin mükəmməl nəticəsindən söhbət gedə bilməz. Çünki tərbiyə öz-özünə davam edən proses deyildir. Tərbiyə istiqamətləndirilərək öyrədilən prosesdir. Tərbiyə dövründə valideynlərin vəzifələri böyük əhəmiyyət kəsb edir. Ailə üzvləri öz üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməsələr, uşağın da tərbiyəsində çatışmazlıqlar olar. Valideynlər uşağın inkişafında əllərindən gələni edirlər ki, hər şeyin yaxşısı olsun. Uşaqlar da valideynlərinin onlara öyrətdiyi gözəl əxlaqi tərbiyənin qarşılığında öz vəzifə borclarını yerinə yetirməlidir. Valideynlər uşağı hərtərəfli tərbiyə edərkən ona məsuliyyəti, zəhmətkeşliyi, qayğıkeşliyi də öyrədir. Uşaqlar hər zaman şükür edən olmalıdırlar. Valideynlərinin qiymətlərini bilməli, həmişə onların qayğısına qalmalıdırlar.

"Yaşadığı torpaqları vətənləşdirən bəşər övladı müəyyən dəyərlərə yiyələnmiş və zaman keçdikcə bu dəyərlərlə yoğrulub millətə çevrilmişdir. Milli-mənəvi dəyərlər adını verdiyimiz həmin dəyərlər millətin özünəməxsusluğunu, başqa sözlə desək, onun milli kimliyini ortaya qoyur. Məhz vətənpərvərlik hissi sayəsində fərd bu dəyərlərə sahib çıxır, həm onları, həm də aid olduğu vətəni, təmsil etdiyi milləti qorumaq üçün canından belə keçməyə hazır olur" [11, s. 13].

Əvvəlki dövrlərdən bugünkü günümüzə qədər ailədə uşaqları adət-ənənəni əsas götürərək tərbiyə edib, formalaşdırıblar. Hər bir valideyn öz mental dəyərlərimizi qiymətləndirərək, ənənələrimizi günümüzə qədər gətirib çıxarmışdır. Milli adət-ənənələrimizdə ailəyə dəyər, böyüyə hörmət, qayğı öndə gedən məsələlərdəndir. 1-3 yaşa qədər uşaqlar milliliyimizi, milli-mənəvi dəyərləri, adətləri ailədə böyüklərdən görür-götürür. Yaş artdıqca artıq uşaqlar adətlərimizi təkcə ailədə valideynlərdən deyil, ətrafda gördüyü insanlardan da öyrənir.

Uşağın 3 yaşından sonra olacağı sosial məkanlar parklar, getdiyi gəzintilərdir. Ailədə adət-ənənələrin aşılandığı kimi məktəbəqədər təhsil müəssisələrində də tərbiyəçi-müəllimlər müxtəlif yol və vasitələrlə ənənələrimizi uşaqlara öyrətməyə çalışırlar. Öyrətməyin yollarından biri də ailə ilə bağçanın birgə işidir. Bunun üçün valideyn və tərbiyəçi-müəllim müntəzəm olaraq bir-biri ilə əməkdaşlıq etməlidirlər.

"Erkən uşaqlıq təhsilində ailə iştirakının səviyyəsi və keyfiyyəti uşaqların sosial və emosional inkişaf göstəricilərinə birbaşa təsir edir. Ailə ilə təhsil müəssisəsi arasında əməkdaşlığın ölçülməsi və sistemli təşkili sosial kompetensiyaların formalaşmasına müsbət təsir göstərən əsas amillərdən biri kimi qiymətləndirilir" [10, s. 2].

Bildiyimiz kimi, xalqımızın adət-ənə-nələrə qoyduğu hörmət böyükdür. Bayramlar, daimi olan, hər zaman vərdiş halına gətirdiyimiz davranışlar xalq tərəfindən yaranıb gələcək nəsillərə ötürülmüşdür. Uşaqların sosioloji cəhətdən tərbiyə olunması əxlaq tərbiyəsi ilə sıx bağlılıq təşkil edir.

"Məktəbəqədər təhsil müəssisənin işinin prioritet vəzifələrindən biri – uşağın tam inkişafını təmin etmək üçün ailəsi ilə qarşılıqlı əlaqədə olmaqdır. Bu fəaliyyətin əsası valideynlərin

təhsil prosesinə cəlb edilməsidir. Uşaqlarla valideynlərin birgə işi onların arasında daha sıx əlaqələr yaradır, uşağın inkişafına müsbət təsir göstərir və uşağa əməkdaşlıq etməyi öyrədir . Tərbiyəçi-müəllimlər, uşaqlar və valideynlərin birgə işi vasitəsilə valideynlərin təhsil prosesinə qoşulması təmin olunur. Beləliklə, tərbiyəçi-müəllim və valideynlər arasında yeni qarşılıqlı əlaqə formaları yaranır:

• Tədris prosesi çərçivəsində uşaqlarla qrup işi üçün;

• Kompleks tematik plana uyğun olaraq uşaqlarla əl işlərini hazırlamaq;

• Uşaq bağçasında keçirilən müxtəlif yarışlarda iştirak etmək" [4, s. 34].

Hər bir xalqı bir-birindən fərqləndirən adət-ənənələrin bugünkü günümüzdə də davam etdirilməsi üçün təhsil müəssisələrində, ailədə müəyyən tədbirlər görülür. Xalqın əsrlər boyu yaratmış olduğu milli adət-ənənələr dövlətimiz tərəfindən qayğı ilə əhatə olunmuşdur. Adət-ənənələr insanın öz mənəvi, mədəni köklərinə bağlılığını daha da artırır. Ailədə valideynlər öz nümunəvi davranışı ilə uşaqların sosial mühitini sistemə salmış olur. Ailə və təhsil müəssisələri əsas tərbiyə ocaqlarıdır ki, tərbiyə və təhsildə onların vəzifələri böyükdür.

"Azərbaycan xalq pedaqogikamızda əxlaq anlayışı geniş yer tutur. Əxlaqi keyfiyyətlər körpə yaşlarından uşaqlara ailədə böyüklər tərəfindən öyrədilir. Bu əxlaqi keyfiyyətlərə rəftar qaydaları da daxildir. Rəftar qaydaları uzun illərdir ki, xalqımız tərəfindən adət halına çevrilmiş hərəkətlərdir. Bunlara insanpərvərlik, mərdlik, həmrəylik, vətənpərvərlik, əməksevərlik və s. daxildir. Ədəb-ərkan qaydalarına xalqımız hər zaman riayət edərək, gələcək nəsillərimizə düzgün şəkildə ötürmüşdür.

Ədəb-ərkan qaydalarını böyüklər həm qızlara, həm də oğlanlara aşılamışlar. Xalqın fikrincə həm qızlar, həm də oğlanlar böyüklərə hörmətlə yanaşmalı, kiçiklərə qayğı göstərməlidir. Milli-mənəvi dünyamızı zənginləşdirən, tariximizi, mədəniyyətimizi ucaldan, birlik olmağımıza səbəb olan milli dəyərləri hər birimiz göz-bəbəyimiz kimi qoruyub saxlamalıyıq. Adət-ənənələr məktəbəqədər yaşlı uşaqlara kiçik yaşlarından öyrədilərsə, onlarda sosial əlaqələri inkişaf etdirmiş olarıq. Uşaq ilk göz açdığı gündən böyüyənədək evdəkilərin hər zaman təkrar etdiyi hərəkətləri mənimsəyir. Ənənələr də ailədə təkrar baş verən hadisələrdir ki, uşaq onları görür-götürür. Valideynlər çalışmalıdır ki, uşaqlara adət-ənənələrimizi olduğu kimi, düzgün şəkildə aşılasınlar. Bizim adət-ənənələrimizin tarixi geniş və çoxşaxəlidir. Biz adət-ənənələri uşaqlara bayramlarda, mərasimlərdə göstərə bilərik" [6, s. 321].

Adət-ənənələrimiz əxlaqi söhbətlər zamanı qoyulan mövzudur. Tərbiyəçi-müəllim və valideyn bu mövzulara incəliklə yanaşmalı, ənənələrimizi uşaqlara sadə, anlaşıqlı şəkildə izah etməlidir. Bağçalarda adət-ənənələrin öyrədilməsi sosial-mənəvi, sosial-əxlaqi tərbiyənin inkişafına müsbət təsir göstərir. Kiçik yaşlı uşaqlar ailə səadəti, sülhü, dostluğu, yoldaşlığı, əmin-amanlığı, qayğıkeşliyi, xeyir və şər haqqında məlumatları məktəbəqədər təhsil müəssisələrində öyrənirlər. Ailənin uşaqların sosial tərbiyəsinin inkişafı üçün də funksiyası vardır. Ailənin sosial tərbiyədə funksiyası odur ki, onun ictimai təcrübəsi genişdir. Ailə uşaqların qohum-əqrəbaya, dostlarına, insanlara, dünyaya olan münasibətini formalaşdırır. Uşaqların sosial tərbiyəsi ailə şəraitində müxtəlif amillərlə şərtlənir. Bu amillərə ata ilə ananın, bacı və qardaşın bir-birinə münasibəti daxildir. Milli adət-ənənələrin uşaqlara aşılanması xalq tərbiyəsinin günümüzə qədər gətirdiyi sosial hadisələrdir. Ailə ilə bağçanın işi ondan ibarətdir ki, ənənələrimizi uşaqlara öyrədərək, onlarda sosial tərbiyəni inkişaf etdirsinlər. Uşaq bağçası və valideynlər birgə iş görərək, bir komandada birləşir, problemləri aralarında həll etməyə çalışırlar. Ailə ilə uşaq bağçasının birgə işi uşaqların gələcəyinin qurulmasında əsas ictimai prosesdir. Uşaqların sosial tərbiyəsinin inkişafı üçün sosial təcrübənin olması önəmlidir. Ailə ilə uşaq bağçasının birgə fəaliyyəti valideyn iclaslarında, ekskursiyalarda, istirahət fəaliyyətlərində, oyunlarda, valideyn klublarında və s. həyata keçirilir. Bağça ailə ilə valideynin təhsili, valideynlərin həyatı ilə tanış olma, uşaqların təhsilində birliyin qurulması və s. məsələləri araşdırır. Bağça ailə ilə sistemli olaraq əlaqə qurmalıdır.

"Cəmiyyətdə baş verən hadisələr, mədəniyyətdə gedən proseslər daim mövcud olan dəyərlərin, normaların dəyişilməsini tələb edir. Özündə dinamik sistemi ehtiva edən uşaq daim fasiləsiz dəyişikliklərə və inkişafa məruz qalır. Bu cür halda o, qarşılaşdığı problemləri müstə-

qil həll etməyə çalışır və öz şəxsi inkişafını daxili hərəkətverici qüvvə hesabına reallaşdırır...

Ailədə yalnız deyilənlərin əsası qoyulmur, həmçinin mənəvi dəyərlərə daim və ardıcıl olaraq qoşulmaq nəticəsində uşağın şəxsiyyəti mükəmməlləşir ki, bu da öz növbəsində onun əxlaqında, davranışında, dünyagörüşündə özünü büruzə verir və daxili aləminin zənginləşməsinə geniş imkanlar açır" [5, s. 82].

Adət-ənənələrə söykənən ailə cəmiyyətin əsas dayaqlarından hesab edilir. Uşaqların şəxsiyyət kimi formalaşmasında, sosial həyata uyğunlaşmasında adət-ənənələri bilməsinin böyük əhəmiyyəti vardır. Adət-ənənələrin ən parlaq nümunələrini biz bayram və mərasimlərdə görə bilərik. Xalqımıza məxsus olan adət-ənənələr gündəlik həyatdan götürülən davranış və hərəkətlərdir. Adət-ənənələrimizi biz ailədə davamlı şəkildə uşaqlara öyrətdiyimiz kimi, bağçada da bu proses tərbiyəçi-müəllimlər tərəfindən davam etdirilir. Ənənələrimizin yaranması konkret olaraq xalqın həyat şəraiti ilə müəyyən edilir. Hazırkı dövrümüzdə ailələrdə Ramazan və Qurban bayramları, Novruz bayramı, Respublika günü, Zəfər və Bayraq günü, Dünya azərbaycanlılarının həmrəyliyi günü və s. əlamətdar günləri müntəzəm olaraq qeyd edilərək ənənə halına çevrilmişdir.

"Keçmiş dövrlərdən bu günümüzə qədər ailədə uşaqlar adət-ənənə ruhunda tərbiyə olunmuşdur. Müasir tədqiqatlarda mədəniyyət amilinin erkən uşaqlar dövründə sosial inkişaf nəzəriyyələrində kifayət qədər nəzərə alınmaması məsələsi xüsusi vurğulanır. Liew və həmmüəlliflər (2022) qeyd edirlər ki, uşağın sosial davranış və dəyərlərinin formalaşmasında mədəni kontekst əsas izahedici dəyişənlərdən biridir və təlim-tərbiyə prosesində bu amilin sistemli inteqrasiyası vacibdir" [9, s. 5].

Milli mənliyimizin əks etdirilməsində böyük rolu olan Novruz bayramı min illərdən bəri xalqımızın məişətini, mənəviyyatını əks etdirmişdir. Bu bayram hər zaman xalqımız tərəfindən təntənəli surətdə keçirilmişdir. Ailələrdə Novruz ənənələrinin ardıcıl olaraq həyata keçirildiyi kimi, həmçinin bu adətləri müxtəlif metod və üsullarla bağçalarda uşaqlara da aşılamaq lazımdır. Keçirilən Novruz bayramının uşaqların mənəvi inkişafında əhəmiyyəti böyükdür. Əlbəttə ki, valideynlər də tərbiyəçi-müəllimlərlə birgə iş görərək nəticənin müsbət əldə olunmasına yardımçı olmalıdırlar. Bağçada keçiriləcək Novruz bayramı hazırlıqlarında valideyn tərbiyəçi-müəllim ilə əməkdaşlıq edir. Birgə görülən iş uşağın sosial fəaliyyətinin inkişafına müsbət təsir göstərir. Novruz bayramının ənənəvi bəzəyi olan kosa və keçəlin obrazlaşdırılması, bayrama aid şeir və mahnıların öyrənilməsi bağçada keçiriləcək Novruz şənliyini daha da maraqlı edir. Təkcə Novruz bayramı deyil, digər milli bayramlarımız da məktəbəqədər təhsil müəssisələrində ənənələrə dayanaraq keçirilir və yerinə yetirilir.

Dini bayramlarımızın ənənələri tərbiyəçi-müəllimlərin göstərişi, tədbirlər və valideynlərin isə kifayət qədər məlumatı ilə öyrədilir. Ailələrdə Qurban və Ramazan bayramları təntənəli şəkildə qeyd olunur. Bağça yaşlı uşaqlara dini bayramlarımıza məxsus milli adət-ənənələrin öyrədilməsi ailə ilə birgə görülən ictimai işlərin təşkilatından asılıdır. Bağça uşaqların sosial inkişafı üçün əsas tərbiyəvi ictimai məkandır. Sosial fəallığı daha da artıran məktəbəqədər təhsil müəssisələri hər zaman uşaqların sosioloji, psixoloji, emosional inkişafı üçün əlverişli şərait yaradır. Uşaqların bağçada fəal iştirak etməsi valideynlərin uşaqlarla davamlı şəkildə məşğul olmasından asılıdır. Uşaqların sosial tərbiyəsinə görə atılan hər bir addım onların gələcəkdə özünütəsdiqi üçün vacibdir. Sosial tərbiyəsini hərtərəfli almış uşağın həyata baxışı fərqli, münasibət qurması isə daha asan olur.

"Şəhidlər Xiyabanına getmək, milli qəhrəmanlar haqqında məlumat vermək və bu qəhrəmanların həyatını və igidliyini uşaqlara çatdırmaq, onların şəxsiyyətlərinin inkişafında böyük rol oynayır. Həmçinin, bu cür tədbirlər uşaqlarda həmrəylik, qardaşlıq və düşmənə qarşı nifrət hisslərini tərbiyə edir. Bu, onların həyatına dərin mənalar qatır və gələcəkdə bu günlərə, tarixə daha çox hörmətlə yanaşmalarına səbəb olur" [7, s. 185].

Oyunlar uşaqların sosial həyatında geniş yer tutur. Oyun zamanı uşaqlar yoldaşlıq, dostluq münasibətlərini genişləndirirlər. Keçmiş dövrlərdə adət halını almış oyunlarımız var idi ki, müasir dövrümüzdəki uşaqlar bu oyunları nadir hallarda oynayırlar. "Bənövşə", "Əl üstə kimin əli", "Dovşan ovu", "Gözbağlayıcı" və s. bu kimi oyunlar indiki dövrlərdə oynanılmasa da, illər əvvəl açıq havada oynanılırdı.

Adət-ənənələrimizi məktəbəqədər təhsil müəssisələrində kiçik kino filmləri izlətmək və

onları müzakirə etməklə öyrədə bilərik ki, bu uşaqların marağına səbəb olar. Sosial tərbiyənin düzgün öyrədilməsi nəticəsində uşaqlarda Vətənə məhəbbət, birlik, sədaqət, mübarizlik və s. keyfiyyətlər formalaşmış olur. Adət-ənənələr təkcə ümumi anlayış hesab olunmur. Ailənin də öz şəxsi adət-ənənələri vardır. Yəni hər ailə tarixi ənənələrimizin bir neçəsini aktuallaşdıraraq davamlı şəkildə həyata keçirir. Uşaqların əməyə alışması, həvəs göstərməsi, əməkdə sosial tərbiyəsini inkişaf etdirməsi üçün valideynlər müəyyən tədbirlər görməlidirlər. Tərbiyəçi-müəllimlər isə uşaqların əməyini qiymətləndirərək, bağçalarda əl işi sərgiləri, qısamətnli foto sərgiləri nümayiş etdirilər. Bu, uşaqlarda əməyə olan həvəsi, marağı artırmaqda kömək edir. Zəngin əmək ənənələrimiz uşaqların ictimai fəallığını artırır. Bəzən uşaqlarda ünsiyyət qurma prosesi ləng gedir. Bu zaman ətrafdakı insanlarla münasibət qurmaqda çətinlik çəkirlər. Valideyn və tərbiyəçi-müəllimlər bu kimi qüsurları aradan qaldırmaq üçün xüsusi konfrans təşkil edirlər. Konfransda aktual olan mövzular müzakirə edilir.

Uşaqların sosial tərbiyəsinin hərtərəfli inkişafında valideynlər pedaqoji biliyə malik olmalıdırlar. Valideynlər həmçinin bilməlidirlər ki, uşaqların sosial tərbiyəsinin inkişafı üçün onların müstəqil hərəkət etmələri də önəmlidir. Uşaqları tərbiyə edərkən onların fərdi xüsusiyyətləri də nəzərə alınmalıdır. Hər bir uşağın xarakteri fərqlidir. Tərbiyə edilən zaman mənimsəmə uşaqlarda müxtəlif formalarda gedir. Verilən tərbiyə həm çətin, həm də asan qavranılan ola bilər. Tərbiyədə qarşıya qoyulan məqsədə çatmaq üçün ailənin şəraiti nəzərə alınır. Elə ailə şəraitləri vardır ki, orada sosial tərbiyə olduqca ləng gedir.

Musiqi mədəniyyətimizin, incəsənətimizin, milli geyimlərimizin, rəqslərimizin günümüzdə yaşanmasında ailə və bağçanın rolu böyükdür. Milli musiqi və rəqsimizi bağçada keçirilən bayramlarda, şənliklərdə qurulan səhnəciklərdə aşılaya bilərik. Qurulan səhnələrdə uşaqlar əvvəlcədən hazırlanmış rəqsi nümayiş etdirirlər. Səhnələrdə çıxış üçün uşaqlar evdə valideynlərinin, bağçada tərbiyəçi-müəllimlərin köməyinə, bacarığına ehtiyac duyur. Bu tədbirləri hazırlaşmaq üçün hər ailənin şəraiti uyğun olmur. Bu, həm maddi, həm də mənəvi cəhətdən yaranır. Tərbiyəçi-müəllimlər hər bir uşağın ailə vəziyyətini bilməlidir ki, belə anlarda uşaqların sosial inkişafdan geri qalmasının qarşısını alsın.

Bəzi ailələrdə adət-ənənələrimizin varlığına elə də önəm verilmir. Bu səbəbdən də valideynlərlə birgə adət-ənənələr mövzusunda iclaslar keçirilərək, milli dəyərlərimiz haqqında tərbiyəçi-müəllimlər mühazirə etməlidir. Valideynlərə düzgün istiqamət vermək üçün tərbiyəçi-müəllimin təcrübəsi geniş olmalıdır. Sözsüz ki, tərbiyəçi-müəllim nə qədər valideynləri maarifləndirsə də, valideynlərin özünütəhsili bu istiqamətdə önəmlidir. Valideyn adət-ənənələrin uşaqların sosial tərbiyəsində necə önəmli olduğunu bilməlidir. Milli tarixi ənənələrlə yanaşı, uşaq bağçasında, ailə daxilində də uşaqlar yaxşı adətlər öyrənirlər. Bağçada uşaqlar yeni vərdişlərlə tanış olurlar. Tərbiyəçi-müəllimin rəhbərliyi ilə öyrənilən adətlər valideynlərin yardımı ilə uşaqların yaddaşında möhkəmlənir.

Adət-ənənələr dəyişilməyən, lakin yenilənən sosial proseslərdir. Adətlər ailədə genişmiqyaslı şəkildə olmur. Ailələrdə olan adətlər sonsuzdur. Ailədəki adətlər gündəlik həyatımızda baş verən hərəkətlərdir. Hər bir ailənin özünəməxsus ənənələri vardır. Bu adətlərə evdə görülən müxtəlif işlər aiddir. Uşaqlar bunları böyüklərdən öyrənib, tətbiq edirlər.

Məktəbəqədər təhsil müəssisələrinin də özünəməxsus olan adət-ənənələri vardır. Bağçalarda yerinə yetirilən adət-ənənələr tərbiyəçi-müəllimlərin köməyi ilə uşaqlara öyrədilir. Məktəbəqədər təhsil müəssisələri və ailələr adət-ənənələrin daim yaşamasında əsas tərbiyə ocaqlarıdır. Uşaqlar isə bu adət-ənənələrin yaşamasında əsas vasitəçilərdir. Uşaqlar bizim bugünkü günümüzün gələcəkdə nümunəsidir. Adət-ənənələr bizə xalqımızı tanıdan əsl canlı nümunələrdir. Xalq tərəfindən yaranan bu sosial hadisələr elə xalqımız, millətimiz tərəfindən yaddaşlarda iz qoymuşdur. Elə adətlərimiz vardır ki, onları evdə, bəzilərini isə cəmiyyətdə, ictimaiyyətdə yerinə yetirməliyik. Adət-ənənələrimizi məktəbəqədər müəssisələrdə daha səmərəli yollarla öyrətmək mümkündür. Ölkəmizin mədəniyyət sahəsinin geniş olmasının əsas səbəblərindən biri də onun adət-ənənələr əsasında inkişaf etməsidir.

Tarixini, xalqını, millətini hər zaman yüksək tutan Ulu öndər Heydər Əliyev xalqın tanınmasında mədəniyyətimizin rolunun əsas olduğunu qeyd edirdi. Uşaqları mədəniyyətimizlə,

onun ənənələri ilə rəsm, musiqi məşğələlərində tanış edə bilərik. Hər bir uşağın rəsmə, musiqiyə xüsusi marağı vardır. Uşaqların yaradıcılıq qabiliyyətlərinin üzə çıxması ailədə valideynlərdən asılıdır. Valideyn uşağı daim müşahidə etməlidir. Elə ailələr də vardır ki, uşaqların bu kimi yaradıcılıqlarını üzə çıxarmaq üçün maddi vəziyyət yaxşı deyildir. Bu zaman bağçaya gedən uşağın valideyni tərbiyəçi-müəllimlərlə məsləhətləşməli, uşağın qabiliyyətlərinin inkişafı üçün müxtəlif addımlar atmalıdır.

Beləliklə adət-ənənələrimiz bizim üçün günümüzə qədər gəlib çatan, xalqın tarixi keçmişini yaşadan ən dəyərli sərvətdir. Qiymətli adət-ənənələrimizin gələcək nəsillərə ötürülüb, inkişaf etdirilməsində tərbiyəçi-müəllim və valideynlərin rolu da əvəzolunmazdır. Xalqının, ölkəsinin adət-ənənələrini yaşatmaq hər zaman böyük məsuliyyət hissidir.

Problemin aktuallığı. Uşağın sosiallaşmasında ailə əsas tərbiyə mühiti, məktəbəqədər təhsil müəssisəsi bu prosesi sistemli şəkildə davam etdirən mühüm sosial institutdur. Ailə ilə bağça arasında mədəni-tarixi ənənələr əsasında məqsədyönlü əməkdaşlığın yetərincə olunmaması uşaqların sosial davranış və dəyərlərinin formalaşmasında müəyyən çətinliklər yaradır.

Problemin yeniliyi. Tədqiqatda mədəni-tarixi ənənələrin uşaqların sosial tərbiyəsinə təsiri ailə və məktəbəqədər təhsil müəssisəsinin birgə fəaliyyəti kontekstində sistemli şəkildə araşdırılır. Ailə-bağça əməkdaşlığının sosial tərbiyədə rolu milli-mənəvi dəyərlərin ötürülməsi baxımından yeni yanaşma təhlil olunur. Uşaqların sosial davranış və ünsiyyət bacarıqlarının formalaşmasında mədəni-tarixi ənənələrin inteqrasiyasına dair praktik model irəli sürülür.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri məktəbəqədər təhsil müəssisələrində uşaqların sosial tərbiyəsinin təşkili zamanı mədəni-tarixi ənənələrdən məqsədyönlü istifadə olunmasına imkan yaradır. Ailə ilə bağça arasında əməkdaşlığın gücləndirilməsi üçün praktik tövsiyələr tərbiyəçi-müəllimlər və valideynlər üçün faydalı ola bilər.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Nəsillərə örnək insan / Ə.Ə. Ağayev. –Bakı: Mütərcim, –2016. –132 s.
2. Arslan, Q.E. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsində Azərbaycan və türk folklor nümunələrindən istifadənin imkanları: / pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı) / –Bakı, 2015. – 24 s.
3. Əliyeva, S.A. Məktəbəqədər yaşlı uşaqların milli mədəniyyətlə tanışlığının təşkili metodikası / Metodik vəsait. –Bakı: ADPU-nun nəşriyyatı, –2019. –100 s.
4. Əliyeva, Ş.Q. Mustafayeva S. Həmidova X.A. Ailələrlə işin həyata keçirilməsi: Dərs vəsaiti. –Bakı: ADPU-nun nəşriyyatı, –2020. – 60 s.
5. Həsənova, P.M. Məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafı. Dərs vəsaiti / P.M. Həsənova. – Bakı: ADPU-nun nəşriyyatı, –2017. – 129 s.
6. İsmayılova N.R. "Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar" // II Beynəlxalq elmi konfrans 2024-cü il, Mingəçevir Dövlət Universiteti, – 13-14 dekabr 2024, – s. 321
7. İsmayılova, N.R. Məktəbəqədər yaşlı uşaqların ailədə tərbiyəsi. Dərs vəsaiti. / N.R. İsmayılova. –Bakı: ADPU-nun nəşriyyatı, –2025. – 200 s.
8. Qasımova R. Uşaqlarda milli-mənəvi dəyərlərin formalaşdırılmasının pedaqoji aspektləri // Pedaqoji Universitetin Xəbərləri, –2019. № 3, – s. 65-72
9. Liew, J., Chung, K. K. H., & Lam, C. B. If culture is all around us, where is it in our theories and our research? Early Education and Development, 33 (5), - 2022, - 739–745. https://doi.org/10.1080/10409289.2022.2078618
10. Otero-Mayer, A., González-Benito, A., Gutiérrez-de-Rozas, B., et al. Family involvement in early childhood education: A systematic review of its measurement. Early Childhood Education Journal, - 2025, - 46 (2), - 199-206. https://doi.org/10.1007/s10643-025-02024-4
11. https://www.elibrary.az/docs/jurnal/jrn2017_1014.pdf

Redaksiyaya daxil olub: 19.02.2026

UOT 37.01

İlham Ağaqardaş oğlu Cavadov
Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0009-0004-8522-320X
E-mail:cavadov@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(2).113-117

TƏHSİL SİSTEMİNDƏ QİYMƏTLƏNDİRMƏ

Ilham Agagardash Javadov
deputy director of the Institute of Education of the Republic of Azerbaijan,
doctor of philosophy in pedagogy, associate professor

EVALUATION IN THE EDUCATION SYSTEM

Ильхам Агагардаш оглы Джавадов
заместитель директора
Института Образования Азербайджанской Республики,
доктор философии по педагогике, доцент

ОЦЕНИВАНИЕ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

Xülasə. Məqalədə müasir təhsil sistemində keyfiyyətin idarə olunması, inkişaf dinamikasının proqnozlaşdırılması və təlimin səmərəliliyinin artırılmasında qiymətləndirmənin mühüm pedaqoji vasitə olduğu elmi dəlillərlə əsaslandırılır. Eyni zamanda, obyektiv qiymətləndirmə mexanizmləri şagirdlərin bilik və bacarıqlarını mənimsəmə dərəcəsini müəyyən etməklə yanaşı, həm də təlim-tərbiyə prosesinin diaqnostikası üçün zəruri məlumat bazası formalaşdırdığı qeyd edilir. Pedaqoji təcrübədə rast gəlinən subyektiv yanaşmaların aradan qaldırılması üçün formalaşdırıcı, stimullaşdırıcı və elmi cəhətdən əsaslandırılmış yeni qiymətləndirmə modellərinin tətbiqi aktual məsələ kimi irəli sürülür. Yekun nəticədə, yeni qiymətləndirmə mexanizmlərinin yaradılması təhsil mühitindəki neqativ halların qarşısının alınması və şəxsiyyətyönümlü təlim modelinin möhkəmləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.
Açar sözlər: *keyfiyyətin idarə olunması, təhsildə qiymətləndirmə, qiymətləndirmə nəticələri, inkişaf dinamikası, keyfiyyət göstəriciləri*

Abstract. The article substantiates with scientific evidence that assessment is an important pedagogical tool in quality management, predicting development dynamics, and increasing the effectiveness of training in the modern education system. At the same time, it is noted that objective assessment mechanisms not only determine the degree of students' mastery of knowledge and skills, but also form a necessary database for diagnosing the educational process. The application of new formative, stimulating and scientifically substantiated assessment models is put forward as a pressing issue in order to eliminate the subjective approaches encountered in pedagogical practice. In the end, the creation of new assessment mechanisms is of exceptional importance in terms of preventing negative situations in the educational environment and strengthening the personality-oriented learning model.
Keywords*: quality management, assessment in education, assessment results, development dynamics, quality indicators*

Аннотация. В статье научно обосновано, что оценивание является важным педагогическим средством в современной системе образования для управления качеством, прогнозирования динамики развития и повышения эффективности обучения. При этом отмечается, что объективные

механизмы оценивания, помимо определения степени усвоения учащимися знаний и навыков, также формируют необходимую базу данных для диагностики учебно-воспитательного процесса.

Внедрение новых моделей оценивания, которые являются формирующими, стимулирующими и научно обоснованными, выдвигается в качестве актуальной проблемы для устранения субъективных подходов, встречающихся в педагогической практике. В конечном счете, создание новых механизмов оценивания имеет исключительное значение с точки зрения предотвращения негативных ситуаций в образовательной среде и укрепления личностно-ориентированной модели обучения.

Ключевые слова: *управление качеством, оценивание в образовании, результаты оценивания, динамика развития, показатели качества*

Müasir dövrdə təhsilin keyfiyyətinin idarəolunması, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsi vacibdir. Bu işdə isə qiymətləndirmə mühüm pedaqoji vasitədir. Qiymətləndirmə təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, təhsilalanlarm (şagirdlərin, tələbələrin və s.) nəyi mənimsədiklərini, nələri öyrəndiklərini, nələri edə bildiklərini və onlarda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır.

Aparılmış araşdırmalar zamanı müəyyən olunmuşdur ki, pedaqogikada qiymətləndirmə təlimin səmərəliliyini artıran əsas ideya, başlıca tələb kimi qəbul edilmişdir. Məhz qiymətləndirmə vasitəsilə təhsil müəssisəsi rəhbərləri müəssisədə təlim-tərbiyə işinin səviyyəsi, müəllim və şagirdlərin fəaliyyəti haqqında lazımi informasiya toplayır və bunun əsasında işin yaxşılaşdırılması üçün müvafiq qabaqlayıcı tədbirlər həyata keçirirlər. Fikrimizcə, hazırda təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün tətbiq olunan qiymətləndirmənin məqsədi aşağıdakı məsələlər haqqında tam aydın təsəvvür əldə etməyə geniş imkanlar yaradar:

– məktəb kurikulumu üzrə şagirdlərin müvəffəqiyyət göstəricilərinin güclü və zəif cəhətlərinin araşdırılması;

– şagirdlərə verilən bilik, bacarıq və vərdişlərin cəmiyyətin tələbatına uyğunluğunun müəyyənləşdirilməsi;

– fənn materiallarının çətinlik səviyyəsinin şagirdlərin fiziki və anlaq səviyyəsinə uyğunluğunun müəyyənləşdirilməsi;

– kurikulumun necə yerinə yetirilməsinə, əhalinin təhsilə olan tələbat səviyyəsinin öyrənilməsi;

– şagirdlərin təlim göstəricilərinin fənlər üzrə toplanmış nəticələr əsasında fənn kurikulumunun dəyişilməsinə ehtiyacın olub-olmamasının aydınlaşdırılması üçün müvafiq təkliflərin hazırlanması;

– müxtəlif şəhər, rayon və kənd məktəblərində fənlər üzrə şagirdlərin təlim nailiyyətlərinin müqayisəli təhlilinin aparılmasına və milli təhsil sistemindəki vəziyyəti əks etdirən rəsmi hesabatların hazırlanması;

– müəllimlər tərəfindən istifadə edilən didaktik vasitələrin, pedaqoji texnologiyaların, təlim strategiyalarının təkmilləşdirilməsi;

– müəllimlərin elmi-pedaqoji hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi;

– təhsil xidmətlərinin keyfiyyət dinamikasının öyrənilməsi;

– təhsilin keyfiyyətli idarəolunmasının səmərəliliyinin müəyyənləşdirilməsi.

Göründüyü kimi, təhsildə qiymətləndirmə sistemi təhsil işçisinin səmərəli fəaliyyətinin üzə çıxarılması və pedaqoji prosesin təkmilləşdirilməsi üçün vaxtında tələb olunan tədbirlərin görülməsi məqsədini daşımalıdır. Çünki qiymətləndirmə pedaqoji prosesi tənzimləməyə, keyfiyyətini yüksəltməyə, həm də mövcud çatışmazlıqlar barədə təhsili idarəedənlərin və valideynlərin məlumatlandırılmasına xidmət edən yeganə pedaqoji vasitə olduğundan, qiymətləndirmənin düzgün təşkili və qiymətləndirmə aparılarkən məqsədin aydın olması təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Mənbələrdə göstərildiyi kimi, "Şagird nailiyyətlərinin qiymətləndirilməsi təlim prosesində əks əlaqəni təmin etmək, onun inkişafını və keyfiyyətini izləmək, nailiyyətlərini vurğulamaq üçün vacib məsələlərdən biridir. Qiymətləndirmə şagirdin mövcud biliklərini təyin etmək, inkişafını izləmək, çətinliklərini öyrənməklə bərabər, həmçinin təhsilin və təhsil materiallarının da keyfiyyətini təyin etmək üçün bir prosesdir. Təhsildə qiymətləndirmə müəllimə illik və gündəlik planlanlaşdırmaların hazırlanmasında da istiqamətverici rol oynayır. Müəllim bu zaman

şagirdin güclü və zəif istiqamətlərini nəzərə alır. Şagirdin hafizəyönlü bilikləri deyil, onun təfəkkürü qiymətləndirilir" (8, s. 58).

Hər bir qiymətləndirmə qiymətləndirilən obyektin diaqnostikasını (keyfiyyət göstəricilərinin ölçülməsini) nəzərdə tutur, təhsil prosesinin və ona rəhbərliyin təşkili üçün zəruri məlumatlar verir. Təlimin keyfiyyəti, müəssisənin səmərəli fəaliyyəti, bir çox didaktik və tərbiyəvi vəzifələrin həlli bu məlumatların obyektivliyindən çox asılıdır. Pedaqoji təcrübədə biliklərin və təlim prosesinin monitorinqi və qiymətləndirilməsi, əsasən, subyektiv xarakter daşıdığındıın, yeni yanaşma və üsullarla təlim prosesinin monitorinqinin və qiymətləndirilməsinin aktuallığını ön plana çəkir, biliklərin və fəaliyyətin qiymətləndirilməsi prosesində yeni qiymətləndirmə mexanizmlərinin yaradılmasının əhəmiyyətini artırır [1, s.14-15].

Müasir şəraitdə təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinin ən mühüm şərtlərindən biri elmi cəhətdən əsaslandırılmış qiymətləndirmənin aparılmasıdır. Qiymətləndirmə təsdiqləyici və yoxlayıcı xarakterə malik olmaqla bərabər, o həm formalaşdırıcı, təyinedici və hazırlayıcı, həm də stimullaşdırıcı istiqamətli olmalıdır. Ona görə də qiymətləndirilmə təlim-tərbiyə prosesinə, təhsilin fəaliyyət dairəsinə və mühitinə təsir göstərən vacib faktora çevrilərək daim inkişaf etdirilməlidir.

Qiymətləndirmə təhsilin məzmununda (kurikulumda) və texnologiyasında (təlim strategiyalarında və s.) dəyişikliyə gətirib çıxarmalı, şagird-müəllim və şagird-şagird qarşılıqlı münasibətlərinə əsaslanan yeni interaktiv (fəal) təlim-tədris prosesinin yaradılmasına, didaktik kadrların təkmilləşdirilməsinə xidmət etməlidir.

Ənənəvi qiymətləndirmədən fərqli olaraq müasir qiymətləndirmə sistemi şagirdlərə yalnız nəyin öyrədildiyinin və onların nələri öyrəndiklərinin qiymətləndirilməsini qəbul etmir, o, inkişaf etmək üçün şagirdlərə öz öyrənmək qabiliyyətlərini, müasir yeniyetmələrin ən başlıca problemi olan özlərini təsdiq etmək bacarıqlarını göstərməkdə köməklik edir və onlara müstəqil öyrənmək imkanı yaradır. Ən çox yoxlamaya və sertifikatlaşdırmağa önəm verən ənənəvi qiymətləndirmə sistemindən fərqli olaraq, müasir qiymətləndirmə sistemi təhsilin müstəqilliyini və demokratik prinsiplərə söykənən lazımlı cəhətlərini götürür və formativ-fəaliyyətin qiymətləndirmənin prinsiplərinə əlavələr etməklə onu daha da inkişaf etdirir. Qiymətləndirmə tədris prosesinin bir sahəsi kimi həm də fərdi tədris texnologiyasını və prinsipləri, hədəfləri müəyyən edir.

Qiymətləndirmənin başlıca vəzifəsi müəllimlərin dərsə hazırlığını, dərslərin keyfiyyətini, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənlərin tədrisinin günün tələbləri baxımından yerinə yetirilmə səviyyəsini, şagirdlərin bilik və bacarıq səviyyəsini müəyyənləşdirmək və pedaqoji kollektivin hər bir üzvünə hansı cəhətdən metodik kömək göstərmək lazım gəldiyini aydınlaşdırmaqdır. Qiymətləndirmə obyektiv, etibarlı və valid vasitələrdən istifadə etməklə qarşıya qoyulmuş təhsil məqsədləri ilə bağlı monitorinq həyata keçirməklə təhsilin keyfiyyətini müəyyənləşdirməyi nəzərdə tutur.

13 yanvar 2009-cu il tarixdə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 №-li qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" çərçivə sənədi təsdiq olunmuşdur. Sənəddə müasir dövrdə şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində mövcud olan problemlər, şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin vəzifələri, şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas xüsusiyyətləri, Konsepsiyanın yaradılması üçün zəruri səbəblər, əsas qiymətləndirmə növləri, qiymətləndirmə standartlarının və qiymətləndirmə vasitələrinin hazırlanması və sair məsələlər qərarlaşdırılmışdır. Təlim-tərbiyə işlərini müasir dövrün tələblərinə müvafiq qurmaq məqsədilə sənəddə qiymətləndirmə fəaliyyətinin aşağıdakı tələbləri təmin etməsi qeyd edilir [2, s. 138-139]:

- təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini;
- təhsilin keyfiyyəti üçün əsas göstərici olan "şagirdin təlim nəticələri" haqqında etibarlı məlumat verilməsini;
- qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını;
- təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını;
- qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə

olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini.

Sənəddə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblərin əməli vəzifəsi, hər şeydən əvvəl, məktəblərimizdə təlim-tərbiyə işlərinin məzmun, forma, vasitə və metodlarını təxirə salmadan məktəb təhsilinin keyfiyyətini əsaslı surətdə yaxşılaşdırmaqdan, hər məktəbdə müəllimlərin yaradıcılığını artırmaqdan və məktəb işlərinin keyfiyyətini bütünlüklə müasir dövrün tələbləri səviyyəsinə qaldırmaqdan ibarətdir.

Yeri gəlmişkən, təhsildə qiymətləndirmənin xarakterik xüsusiyyətlərini nəzərdən keçirək. Təhsildə keyfiyyətin idarəolunmasında, təhsil siyasətinin formalaşmasında qiymətləndirmənin xarakterik xüsusiyyətlərinə iki aspektdə yanaşmağa üstünlük verilməlidir:

• qiymətləndirmənin pozitiv xarakteri - məktəb nəticələrinin qiymətləndirilməsi şagirdin yaxşılığa doğru dəyişməsinə, onun müstəqil şəkildə inkişafına, formalaşmasına və mənfi nəticələrin korrektə olunmasına yönəldilir;

• qiymətləndirmənin funksional xarakteri – keçmiş (ənənəvi) qiymətləndirmənin yeni, səmərəli və müasir qiymətləndirmə ilə əvəz olunmasına, həmçinin pedaqoji kadrların peşəkarlıq səviyyəsinin inkişafına yönəldilir.

Aparılmış təhlillər bir daha sübut edir ki, qiymətləndirmə sistemi təhsildə keyfiyyətin idarə olunmasına və onun yüksəldilməsinə xidmət edən bir vasitədir. Bu işin praktik cəhətdən yerinə yetirilməsinin etibarlılığını daha da artıran aşağıdakı bir sıra məsələlərə xüsusi diqqət yetirilməlidir [3, s. 47]:

• qiymətləndirmənin ***obyektivliyi*** – qiymətlərin miqdarından (mahiyyətindən) asılı olmur;

• qiymətləndirmənin ***elmiliyi*** (elmi xarakteri) – elmin təsdiq etdiyi prinsip və kriteriyalara, eləcə də dəqiqliyə əsaslanır;

• qiymətləndirmənin ***çevikliyi*** – qiymətləndirmənin məzmununun, strategiyasının və metodologiyasının çevikliyi qiymətləndirmə subyektlərinin xarakteristikasından və qiymətləndirmə şəraitindən asılı olur;

• qiymətləndirmənin ***şəffaflığı*** – qiymətləndirmə qiymətləndirənin və ya onun nümayəndələrinin (hamısının) xahişi, yaxud da icazəsi ilə həyata keçirilir, qiymətləndirmənin nəticələri operativ şəkildə və qəbul edilmiş qaydalar çərçivəsində bütün maraqlananlara çatdırılır.

Göründüyü kimi, təhsildə qiymətləndirmə hazır şəkildə göndərilmiş sxem kimi təklif oluna bilməz. Onun fəaliyyətində ümumi standartlarla yanaşı, mövcud şəraitin xüsusiyyətləri də nəzərə alınmalıdır. Ona görə də qiymətləndirmənin nəticələrinin spesifik prinsiplər əsasında seçmə üsulu ilə, müəyyən xüsusi metodologiyalardan və onların (prinsiplər, strategiyalar, formalar, texnologiyalar, texnikalar, bacarıqlar və s.) uzlaşdırılmasından istifadə edilməklə yerinə yetirilməsi məqsədəmüvafiqdir. Qiymətləndirmənin obyektivliyi, elmiliyi, çevikliyi və şəffaflığı onun hansı meyarlarla (göstəricilərlə) aparılması ilə əlaqədardır. Ona görə də qiymətləndirmənin hansı məqsədlərə görə keçirilməsini aydınlaşdırmaq, sonra isə hər bir parametrin neçə balla qiymətləndirilməsini müəyyənləşdirmək lazımdır. Qiymətləndirmənin əsasını məxsusi seçilmiş və təhsilin son məqsədlərinə, vəzifələrinə, eləcə də kurikulumun xarakterinə uyğun yaradılmış didaktik ölçü vahidləri təşkil edir [1].

Beləliklə, aparılmış araşdırmalar nəticəsində belə qənaətə gəlinmişdir ki, qiymətləndirməni pedaqoji işçilər, müstəqil ekspertlər və təhsilin keyfiyyətini tənzimləmək üçün yaradılmış və məxsusi akkreditə olunmuş təşkilatlar milli təhsilin keyfiyyətini müəyyən etmək üçün həyata keçirirlər və qiymətləndirmə aşağıdakı ümumi məqsədlərə xidmət etməlidir:

• tədrisin tələblərinə uyğun vəziyyətlərdə elmi meyarlar və seçilən informasiyalar nəzərə alınmaqla təhsilin (təhsil müəssisəsinin) və milli təhsil sisteminin sonrakı inkişafının elmi dəlillərlə proqnozlaşdırılması;

• milli təhsil sistemi çərçivəsində tədris müəssisəsinin fəaliyyətinin düzgün qurulmasında təhsil alanlara səmərəli təsir göstərən, həm də təhsil müəssisəsinin özündə əlverişli məktəb tapşırıqlarının hazırlanması və onların şagirdlər tərəfindən mənimsənilməsi;

• ikinci dərəcəli və arzu olunmayan təsirlərin (sosial, inzibati, ailə və s.), qiymətləndirmə sisteminin inkişafına müdaxiləsini azaltmaq üçün bəzi məlumatların işlənilməsi;

• şagirdlərin və pedaqoji kollektivin sistemli, obyektiv, düzgün və aydın məlumatlandırılması, eləcə də milli təhsil sistemindəki vəziyyəti əks etdirən rəsmi hesabatların hazırlanması;

• şagirdlərdə, pedaqoji kadrlarda və məktəb rəhbərlərində özünüqiymətləndirmə bacarığının formalaşdırılması;

• məktəbdə təhsilin hər mərhələsində şagirdlərin bilik səviyyəsinin aydınlaşdırılması.

Problemin aktuallığı. Müasir dövrün qlobal çağırışları və cəmiyyətdə sürətlə baş verən sosial-iqtisadi inkişaf prosesləri təhsil sisteminin qarşısında yeni və mürəkkəb vəzifələr qoyur. Bu dinamik dəyişikliklər fonunda təhsildə keyfiyyətin idarə olunması aktual bir məsələ kimi həm təhsili idarəedənlər, həm də təhsil tədqiqatçıları üçün prioritet araşdırma istiqamətinə çevrilmişdir.

Problemin elmi yeniliyi. Müasir sosial-iqtisadi çağırışlar fonunda təhsilin keyfiyyətinin idarə olunması mexanizmləri, qiymətləndirmənin obyektivlik və çeviklik prinsiplərinin təhsilin inkişaf dinamikasına təsir imkanları elmi-nəzəri əsasda təhlil olunmuşdur.

Problemin praktik əhəmiyyəti. Məqalə təhsil tədqiqatçıları, doktorantlar, magistrantlar və təhsili idarəedənlər üçün faydalı elmi-metodik baza rolunu oynaya bilər.

Ədəbiyyat

1. Təhsil sistemində monitorinq və qiymətləndirmə / M. Mərdanov, R. Ağamahyev, A. Mehrabov, T. Qardaşov. –Bakı: Çaşıoğlu, –2003. –416 s.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası // "Kurikulum" jurnalı, 2009. №2, –s. 138-150.
3. Mehrabov A., Cavadov İ. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. –Bakı, Mütərcim, –2007. –184 s.
4. Javadov, Ilham. (2024). BASİC FACTORS AFFECTİNG THE QUALİTY OF GENERAL EDUCATİON. Ижтимоий-гуманитар фанларнинг долзарб муаммолари / Актуальные проблемы 30 Scientific Works of the Institute of Education of the Republic of Azerbaijan, Volume: 92, Number: 4, 2025
5. Javadov, Ilham. (2025). Təhsilin keyfiyyəti: məktəbdaxili idarəetmənin yeni prioritetləri социально-гуманитарных наук // Actual Problems of Humanities and Social Sciences.7. 290-296. DOI:10.58224/2618-7175-2024-7-290-296 7.
6. THE IMPACT OF THE USE OF INNOVATIVE TECHNOLOGIES ON THE MANAGEMENT OF EDUCATION QUALITY IN COMPREHENSIVE SCHOOLS. Ижтимоий-гуманитар фанларнинг долзарб муаммолари / Актуальные проблемы социально гуманитарных наук // Actual Problems of Humanities and Social Sciences. 4. 164-169.
7. Cavadov İ. Təhsilin keyfiyyəti: məktəbdaxili idarəetmənin yeni prioritetləri // –Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2025, № 4. – s. 27-31.
8. Abdullayeva, F.N. Təhsildə qiymətləndirmə vacib element kimi // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2019, № 2. s. 57-59.

Redaksiyaya daxil olub: 26.02.2026

UOT 378.4:303.722

Ayşən Rövşən qızı Mustafazadə
Azərbaycan Respublikasının Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0009-8713-6210
E-mail: ayshan.mustafazada@arti.edu.az
https://doi.org/10.69682/arti.2026.93(2).118-125

ALİ TƏHSİLDƏ AĞILLI İDARƏETMƏ MODELLƏRİ: RƏQƏMSAL UNİVERSİTETLƏRƏ KEÇİDİN PERSPEKTİVLƏRİ

Ayshan Rovshan Mustafazada
doctorial student in the program of doctor of philosophy at the Institute of Education of the Republic of Azerbaijan

SMART MANAGEMENT MODELS IN HIGHER EDUCATION: PERSPECTIVES ON THE TRANSITION TO DIGITAL UNIVERSITIES

Айшан Ровшан гызы Мустафазаде
докторант по программе доктора философии
Института образования Азербайджанской Республики

МОДЕЛИ УМНОГО УПРАВЛЕНИЯ В ВЫСШЕМ ОБРАЗОВАНИИ: ПЕРСПЕКТИВЫ ПЕРЕХОДА К ЦИФРОВЫМ УНИВЕРСИТЕТАМ

Xülasə. Məqalədə ali təhsildə ağıllı idarəetmə modellərinin mahiyyəti və onların rəqəmsal universitetlərə keçiddə rolu araşdırılır. Tədqiqat göstərir ki, rəqəmsal transformasiya yalnız texnoloji yenilik deyil, həm də universitetlərin beynəlxalq rəqabət mühitində mövqeyini gücləndirən strateji idarəetmə zərurətidir. Nəzəri təhlillər smart kampus konsepsiyasının, rəqəmsal idarəetmə mexanizmlərinin və məlumat əsaslı qərarvermə modellərinin ali təhsil müəssisələrinin səmərəliliyini artırmaqda mühüm rol oynadığını ortaya qoyur. Empirik nəticələr göstərir ki, smart idarəetmə yanaşmaları universitetlərin fəaliyyətində şəffaflığı, keyfiyyəti və yenilikçi potensialı yüksəltməklə yanaşı, onların beynəlxalq rəqabət qabiliyyətini də gücləndirir. Nəticə olaraq, ali təhsildə rəqəmsal idarəetmə yanaşmalarının həm nəzəri baxımdan ali təhsil idarəçiliyinin elmi əsaslarını zənginləşdirdiyi, həm də praktik baxımdan qloballaşma, rəqəmsal cəmiyyət və davamlı inkişaf çağırışlarına uyğunlaşma üçün tətbiqi imkanlar yaratdığı müəyyən edilmişdir.
Açar sözlər: *idarəetmə, rəqəmsallaşma, rəqabətlilik, qloballaşma, keyfiyyət*

Abstract. The article examines the essence of smart management models in higher education and their role in the transition to digital universities. The study demonstrates that digital transformation is not merely a technological innovation but also a strategic necessity that strengthens universities' positions in the international competitive environment. Theoretical analysis highlights the significance of the smart campus framework, digital governance mechanisms, and data-driven decision-making models in enhancing the efficiency of higher education institutions. Empirical findings reveal that smart management approaches not only increase transparency, quality, and innovative potential in university operations but also reinforce their international competitiveness. Consequently, the research concludes that digital management practices in higher education enrich the theoretical foundations of university governance while providing practical tools for adapting to the challenges of globalization, the digital society, and sustainable development.
Keywords: *management, digitalization, competitiveness, globalization, quality*

Аннотация. В статье исследуется сущность умных моделей управления в высшем образовании и их роль в переходе к цифровым университетам. Проведённое исследование показывает, что цифровая трансформация является не только технологическим новшеством, но и стратегической необходимостью, укрепляющей позиции университетов в условиях международной конкурентной среды. Теоретический анализ выявляет, что концепция «умного кампуса», механизмы цифрового управления и модели принятия решений на основе данных играют важную роль в повышении эффективности деятельности высших учебных заведений. Эмпирические результаты показывают, что применение умных управленческих подходов способствует не только повышению прозрачности, качества и инновационного потенциала университетов, но и укреплению их международной конкурентоспособности. В заключение отмечается, что цифровые управленческие подходы в высшем образовании обладают как теоретической значимостью, обогащая научные основы университетского управления, так и практической ценностью, предоставляя возможности для адаптации к вызовам глобализации, цифрового общества и устойчивого развития.

Ключевые слова: *управление, цифровизация, конкурентоспособность, глобализация, качество*

Dördüncü Sənaye İnqilabı rəqəmsal texnologiyaların sürətlə inkişafı və onların müxtəlif sahələrdə geniş şəkildə tətbiq olunması ilə xarakterizə olunan yeni bir mərhələdir. Məhz buna görə də, rəqəmsal dəyişikliklər dövründə kompüter əsaslı texnoloji vasitələrin ali təhsil müəssisələrində tətbiqi səmərəliliyin, effektivliyin və tələbə məmnuniyyətinin artırılması baxımından gözləntilər sırasındadır. Kampus idarəçiliyinin ənənəvi modelləri yaxşı tanınsa da, bu modellər hər zaman müasir idarəçilərin, müəllimlərin və öyrənənlərin gözləntilərini tam şəkildə qarşılaya bilmir [18]. Köhnəlmiş infrastruktur, resursların zəif idarə olunması və məlumatlardan yetərincə istifadə edilməməsi kimi maneələr təşkilatların öz potensiallarını tam reallaşdırmasında müəyyən çətinliklər yaradır.

Qlobal miqyasda rəqəmsal rejimə keçid fonunda ağıllı kampus (smart campus) anlayışı bu çətinliklərin aradan qaldırılması üçün mümkün və effektiv bir yanaşma kimi müəyyən edilmişdir. Ağıllı kampus (smart campus) ali təhsil müəssisəsində rəqəmsal texnologiyaların və məlumat əsaslı həllərin inteqrasiya olunduğu, səmərəlilik və keyfiyyətin artırılmasını hədəfləyən yeni bir konsepsiyadır Bu konsepsiya ali məktəb şəhərciyini sanki kiçik bir "ağıllı şəhər" modeli kimi işləməsini nəzərdə tutur. Ağıllı təhsil şəhərciyi ənənəvi tədris və tədqiqat funksiyalarını qorumaqla yanaşı, rəqəmsal transformasiyanın imkanlarından yararlanır; nəticədə o, yeni texnologiyaların tədqiqi və tətbiqi üçün canlı bir laboratoriya ("living lab") rolunu oynayır. Bu konsepsiya eyni zamanda mövcud biznes proseslərinin, inzibati funksiyaların və hətta akademik nəticələrin idarə olunması və təkmilləşdirilməsi üçün Fiziki obyektlərin rəqəmsal şəbəkəsi (IoT), böyük məlumatların analitikası, bulud hesablama və süni intellekt kimi müasir texnologiyalardan istifadə edir [1].

Bu texnoloji yenidənqurma gündəlik fəaliyyətlərin sadələşdirilməsi və məhsuldarlığın artırılmasına dəstək göstərməklə yanaşı, fakt əsaslı qərarların qəbulunu və resursların effektiv idarə olunmasını təmin edən alətlər təqdim etməklə davamlı inkişafı da dəstəkləyir.

Ağıllı kampus konsepsiyası beynəlxalq elmi ictimaiyyət arasında geniş yayılmasına baxmayaraq, bu konsepsiyanın ali təhsil müəssisələrində tətbiqi göründüyü qədər asan deyil. Bir çox ali təhsil müəssisəsi tətbiqin yüksək maliyyə xərcləri, dəyişikliklərə qarşı müqavimət göstərməsi ilə yanaşı, kibertəhlükəsizlik riskləri və sistemlərarası uyğunluq problemləri kimi çətinliklərlə üzləşir [4]. Buna baxmayaraq, bu konsepsiyanın potensial üstünlüklər olduqca əhəmiyyətlidir.

S.H. Axundovanın yazdığı kimi, "Kollecləri innovativ idarə olunması modelinin hazırlanmasında çox vaxt alimlər mühüm bir dilemma ilə qarşılaşırlar: "İnnovasiya modelləri haqqında nəzəriyyə innovasiya idarəetmə modellərinə nə dərəcədə aiddir? İnnovasiya prosesi modeli ayrılıqda və innovativ idarəetmə modelləri nəyi nəzərdə tutur?" Bu sualların cavablarını tam aydınlaşdırmaq üçün innovasiyaların növləri, çoxsahəliliyi, mədəni və psixoloji dəyərlərin mövcudluğu, innovasiyaların miqyası və sair kimi məsələləri nəzərə almaqla araşdırılmalıdır. Çünki bir neçə onilliklər ərzində bəzi ölkələrdən olan tədqiqatçılar innovasiya modellərini daha geniş elmi-tədqiqat proseslərini təyin edən bir amil kimi nəzərdən keçirmişlər" (19, s. 188).

Rəqəmsal kampuslar daha ağıllı mühitin formalaşdırılmasına, effektiv idarəetməyə, inzibati təcrübələrin təkmilləşdirilməsinə və müasir

tələblərə cavab verən tədris və iş mühitinin yaradılmasına imkan yaradır. Bunun əksinə olaraq, ənənəvi şəhərcikdə idarəetmə yanaşmalarının çeviklik və performans təmin etmək imkanlarının məhdud olduğu müşahidə edilir. Bunun nəticəsində də, yeni texnologiyaların tətbiqinin zəruriliyini bir daha ön plana çıxır.

Araşdırmalar göstərir ki, XXI əsrdə Ali təhsil müəssisələrinin ən böyük problemi əvvəlki nəsil texnoloji mexanizmlərin müasir və daha da təkmilləşmiş ağıllı şəhərcik mühitinə inteqrasiya prosesini həyata keçirməkdir [14]. Bu səbəbdən, hələ də ABŞ-nin Chaminade Universiteti, eyni zamanda Union, Muhlenberq kimi kollecləri illər öncə yaradılmış və müasir dövrün tələblərinə cavab verməyən verilənlər bazalarından istifadə edir. Bu cür sistemlərə Ağıllı kampus modelinin əsas elementlərindən olan IoT əsaslı cihazların və bulud əsaslı platformaların əlaqələndirilməsi olduqca çətin və mürəkkəb prosesdir [15].

Aparılmış tədqiqatların nəticələri göstərir ki, ali təhsil müəssisələri ağıllı kampus konsepsiyalarını tətbiq edərkən bir sıra ciddi texniki çətinliklərlə üzləşirlər. Bu problemlər əsasən mövcud informasiya sistemləri arasında effektiv inteqrasiyanın təmin edilməsində yaranan çətinliklər, artan istifadəçi sayı və xidmət həcminə uyğun olaraq sistemlərin genişləndirilməsində müşahidə olunan məhdudiyyətlər, eləcə də tətbiq edilən texnoloji həllərin uzunmüddətli istismarı və texniki xidmətinin davamlı şəkildə təmin olunmasında zəifliklərlə xarakterizə olunur. Sözügedən texniki maneələr ağıllı kampus təşəbbüslərinin səmərəliliyini azaldır və onların institusional səviyyədə dayanıqlı şəkildə tətbiqini çətinləşdirir [1].

Köhnə sistemlərin inteqrasiyası xüsusilə məhdud resurslara malik İT sahəsində kifayət qədər təcrübəsi və maliyyə imkanları olmayan ali təhsil müəssisələri üçün ciddi çətinliklər yaradır. Bu vəziyyət, geniş maliyyə və texnoloji resurslara sahib olan müəssisələrlə müqayisədə fərqlənir; çünki belə qurumlar miqyaslana bilən və modul texnologiyalara investisiya etməklə bu maneələri daha effektiv şəkildə aradan qaldıra bilirlər. Resurs baxımından məhdud olan müəssisələr isə adətən büdcə çatışmazlığı və mövcud sahədə peşəkar mütəxəssislərin az olmağı səbəbindən mərhələli və ya modul tətbiq yanaşmalarına üstünlük verirlər [17]. Qeyd olunan məhdudiyyətlər, modelin tətbiqində gecikmələr yaranmasına, xərclərin artmasına və maraqlı tərəflərin etimadının azalmasına səbəb olur. Mövcud İT infrastrukturunun ətraflı auditinin aparılması və təkmilləşdirilməyə ehtiyac duyulan sahələrin müəyyənləşdirilməsi bu məsələdə tövsiyə olunan başlıca həll yolları arasındadır. Bundan əlavə, uzunmüddətli inkişaf və dəyişiklikləri dəstəkləyə bilən modul və miqyaslana bilən arxitekturaların dizayn edilməsi də problemin mümkün həll yolu kimi qeyd oluna bilər [10].

Bu çağırışların effektiv şəkildə həlli üçün ali təhsil müəssisələri resurs baxımından zəngin və ya məhdud olmasından asılı olmayaraq ağıllı kampus texnologiyalarına məqsədyönlü investisiyalar etməlidirlər. Bu investisiyalar müəssisələrin mövcud resurs imkanları ilə uyğunlaşdırılmalı və əməliyyat dayanıqlığının əsas istiqamət kimi müəyyənləşdirilməsini təmin etməlidir.

Bununla yanaşı, ağıllı kampus konsepsiyasının və onunla əlaqəli qabaqcıl texnologiyaların tətbiqi üçün fiziki və kibertəhlükəsizlik infrastrukturunun inkişaf etdirilməsi və davamlı saxlanılması da zəruridir [6]. Qarşıya çıxan əsas problemlər arasında etibarlı və yüksək sürətli şəbəkə infrastrukturunun təmin edilməsi, IoT cihazlarının quraşdırılması və bu texnologiyaların tələb etdiyi geniş məlumat saxlanma ehtiyaclarının ödənilməsi yer alır. Ali təhsil müəssisələri yüksək riskli məlumatların qorunmasını və mühafizəsi qanunvericiliklərinin tələblərinə uyğunluğu təmin etmək üçün güclü kibertəhlükəsizlik tədbirlərinə və effektiv məlumat idarəetmə sistemlərinə əhəmiyyətli investisiyalar yatırmalıdırlar.

Yeniliklərə qarşı ehtiyatlı yanaşma, xüsusilə maraqlı tərəflərin effektiv şəkildə cəlb olunmadığı və peşəkar inkişaf proqramlarının kifayət qədər güclü olmadığı ali təhsil müəssisələrində mühüm problem olaraq qalmaqdadır. Tədqiqatlar göstərir ki, ənənəvi iş üsullarına alışmış şəxslər çox vaxt rəqəmsal texnologiyaların tətbiqinə qarşı müqavimət göstərir və onlardan istifadə yollarının öyrənilməsində çətinliklərlə üzləşirlər [8]. Bu müqavimətin əsas səbəbləri sırasında yeni texnologiyaların mövcud sistemlər üçün risk yarada biləcəyi, tətbiq prosesinin vaxt aparacağı və tədris prosesində insan amilinin zəifləməsinə gətirib çıxara biləcəyi ilə bağlı narahatlıqlar dayanır.

Qeyd olunmalıdır ki, risk amillərinin mövcudluğu fərdlərin yeni sistemlərə münasibətində öhdəlik səviyyəsinin azalmasına səbəb ola bilər.

Nəticədə, bu vəziyyət texnologiyaların qəbul olunması prosesini ləngidir və onların effektiv istifadəsini məhdudlaşdırır [12].

Ali təhsil müəssisələrinin pedaqoji heyət üzvlərinin rəqəmsal savadlılığında zəiflik ciddi problemlər yaradan digər amillər sırasındadır. Maraqlı tərəflər yeni texnologiyaları qəbul etməyə meyilli olsalar belə, onları effektiv şəkildə tətbiq etmək üçün lazımi bacarıqlara malik olmaya bilərlər. Araşdırmalar göstərir ki, akademik heyət üzvlərinin peşəkarlığının artırılmasına yönəlmiş proqramların təşkili bu baxımdan həlledici rol oynayır. Çox təəssüf ki, müəllim və inzibati heyət yetərincə təlim keçmədikdə və davamlı dəstəklə təmin olunmadıqda, ağıllı kampus platformalarının təqdim etdiyi imkanlardan tam şəkildə yararlana bilmirlər [8].

Bununla yanaşı, hətta rəqəmsal mühitdə formalaşmış nəsil kimi xarakterizə edilən tələbələr də sistemlərdən düzgün istifadə etmək, həmçinin onlara təqdim olunan böyük həcmli məlumat və məzmunun dəyərini anlamaq və şərh etmək üçün əlavə dəstəyə ehtiyac duya bilərlər. Ali təhsil müəssisələrinin tələbələrin texnoloji səriştəliliklərində boşluqlarının aradan qaldırılması təşəbbüsləri texnologiyaların mənimsənilmə səviyyəsini artırmaqla yanaşı, istifadəçi məmnuniyyətini yüksəldir və nəticə etibarilə tətbiq edilmiş elmi-texniki vasitələrin effektivliyini gücləndirir [13].

Maraqlı tərəflərlə qarşılıqlı fəaliyyət keçid proseslərinin effektiv idarə edilməsində həlledici rol oynadığı müəyyən edilmişdir [8]. Araşdırmalar göstərir ki, dəyişikliklər dövründə ali təhsil müəssisələri müəllim heyətini, tələbələri və inzibati idarəçiləri planlaşdırma və qərar qəbuletmə proseslərinə cəlb etdikdə, həyata keçirilən təşəbbüslər ilkin məqsədlərlə daha yaxşı uzlaşır. Bu eyni zamanda qarşıya qoyulmuş məqsədlərə tez və effektiv şəkildə çatmağa şərait yaradır.

Açıq müzakirə platformalarının yaradılması, pilot tətbiqlərin mərhələli şəkildə həyata keçirilməsi və istifadəçi mərkəzli rəy mexanizmlərindən istifadə, sistemdən yararlanan şəxslərin avtomatlaşdırılmış alətlərin texniki və funksional problemlərin erkən mərhələdə müəyyənləşdirilməsinə və operativ şəkildə aradan qaldırılmasına şərait yaradır [7]. Bu yanaşma istifadəçilərin ehtiyac və gözləntilərinin transformasiya prosesinə birbaşa inteqrasiyasını təmin etməklə yanaşı, qərarvermə proseslərinin daha şəffaf və inklüziv xarakter daşımasına töhfə verir.

Qeyd olunanların nəticəsi olaraq, maraqlı tərəflərin davamlı şəkildə prosesə cəlb olunması fərdlərin özlərini yalnız texnologiyadan istifadə edən deyil, eyni zamanda onun formalaşdırılmasında iştirak edən aktiv subyektlər kimi hiss etməsinə imkan yaradır. Bu isə dəyişikliklərə qarşı mövcud olan müqavimətin tədricən azalmasına, etimad səviyyəsinin yüksəlməsinə və yeni sistemlərin uzunmüddətli perspektivdə qəbul olunma və effektiv istifadə ehtimalının artmasına şərait yaradır.

Bu prosesdə strateji planlaşdırmaya əsaslanan rəhbərlik ağıllı idarətmə modellərinin Ali təhsildə tətbiqində əsas həlledici amillərdəndir. Çünki icraçı rəhbərlik, dekanlar, kafedra müdirləri və digər əsas qərarverici şəxslərin dəstəyinin təmin edilməsi ağıllı kampus konsepsiyasının bütöv bir institut səviyyəsində qəbul olunmasının əsasını təşkil edir. Eyni zamanda, liderlər infrastrukturun təkmilləşdirilməsi, peşəkar inkişaf proqramlarının həyata keçirilməsi və texnoloji sistemlərin davamlı saxlanılması üçün kifayət qədər maliyyə resurslarının ayrılmasında mühüm rol oynayırlar [9]. Məhz bu səbəbdən də, müəllim və inzibati işçilərdən çox universitetlərin ali idarəetmə strukturlarının bu məsələdə marağının olması əsas həlledici faktorlardan hesab oluna bilər.

Resursların mövcudluğu liderliyin dəstəyinin və maraqlı tərəflərin cəlb edilməsinin effektivliyinə birbaşa təsir göstərir. Bu təsir eyni zamanda həm maliyyə, həm də texniki imkanlar vasitəsilə ortaya çıxır [11]. Məhdud resurslara malik ali təhsil müəssisələri strateji uyğunluğun formalaşdırılması üçün pilot proqramlarına müraciət kimi daha sadə vasitələrə müraciət etməyə məcbur qalırlar. Resurs baxımından zəngin müəssisələr isə əməkdaşlıq platformaları kimi müasir texnoloji alətlərdən istifadə edə bilirlər. Kifayət qədər maliyyə imkanlarına malik olan qurumlarda qərar qəbuletmə prosesi nisbətən asan həyata keçirilir, halbuki resursları məhdud olan müəssisələr öz yenilikçi həll yollarını inkişaf etdirməli və bəzən təşəbbüslərini dəstəkləmək üçün əlavə maliyyə mənbələri axtarmalı olurlar [11]. Təşkilati məqsədlərlə strateji səviyyədə uyğunlaşma ali təhsil müəssisələrinin ağıllı kampus texnologiyalarını məqsədyönlü şəkildə tətbiq etməsinə zəmin yaradır. Bu yanaşma rə-

qəmsal alətlərin tədris keyfiyyətinin artırılmasına, inzibati proseslərin optimallaşdırılmasına, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsinə və icma ilə əlaqələrin inkişafına necə töhfə verə biləcəyinin aydın şəkildə dərk olunmasına əsaslanır. Ağıllı kampus təşəbbüslərini yalnız ayrıca layihə kimi yanaşan ali təhsil müəssisələrində bu proses qeyri-sabit nəticələrlə üzləşirlər [3]. Əksinə, texnologiyaları təşkilati məqsədlərlə uzlaşdıran aydın və sistemli rəqəmsal strategiyaya malik ali təhsil müəssisələrində bu mərhələ akademik heyətin maraq və dəstəyi ilə müşahidə olunur.

Bəzi tədqiqatlar göstərir ki, liderliyin dəstəyi yalnız formal və ya şifahi bəyanatlarla məhdudlaşmır. Bu dəstək yeni texnologiyaların sınaqdan keçirilməsinə açıq olmağı, təkmilləşdirməni təşviq edən qiymətləndirmə və rəy mexanizmlərinin vahid sistemə daxil edilməsini və hər bir yeni təşəbbüsün performans göstəriciləri vasitəsilə ölçülə bilən olmasının təmin edilməsini əhatə edir. Rəhbərlik inzibati yükün azaldılması, enerji səmərəliliyinin artırılması və ya tələbə nailiyyətlərinin yaxşılaşdırılması kimi konkret hədəflərə sadiq qaldıqda, akademik heyəti fəal şəkildə cəlb edən nəticəyönümlü bir mədəniyyət formalaşdırılır [3]. Bu cür güclü liderlik eyni zamanda potensial riskləri və çağırışları öncədən müəyyən etməklə transformasiya prosesində təşkilatın missiya və vizyonunda sabitliyin qorunmasını təmin edən qaydaların və fəaliyyət planlarının hazırlanmasına şərait yaradır.

Operativ fəaliyyət səviyyəsində, ağıllı sistemlərin tətbiqi ali təhsil müəssisələrinə kampus resurslarını daha effektiv şəkildə izləmək və idarə etmək imkanı yaradır. Məsələn, sinif otaqlarında, laboratoriyalarda və inzibati ofislərdə IoT əsaslı cihazların quraşdırılması enerji sərfiyyatı, məkanlardan istifadə səviyyəsi və avadanlıqların texniki vəziyyəti ilə bağlı məlumatların toplanmasına şərait yaradır [1]. Bu cür detallı müşahidə imkanları isitmə və soyutma sistemlərinin optimal vaxtlarda işlədilməsi, işıqlandırmadan səmərəli istifadə və avadanlıqlarda nasazlıqlar yaranmamışdan əvvəl texniki xidmətin göstərilməsi kimi əsaslandırılmış qərarların qəbuluna imkan verir. Tədqiqatlar göstərir ki, bu yanaşmalar xərclərin azaldılmasına, ətraf mühitə təsirin minimuma endirilməsinə və istifadəçi təcrübəsinin yaxşılaşdırılmasına töhfə verir, eyni zamanda universitet işçiləri və tələbələr üçün təhlükəsiz və rahat mühitin formalaşdırılmasını təmin edir.

İnzibati baxımdan isə rəqəmsal transformasiyaya əsaslanan kampus yanaşmalarının tətbiqi ayrı-ayrı və əmək tutumlu olan proseslərin koordinasiyasını mümkün edir. Qeyd etmək olar ki, qəbul, qeydiyyat, ödənişlərin idarə olunması, dərs cədvəllərinin tərtibi və akademik qeydlərin aparılması kimi inzibati funksiyalar məlumatların inteqrasiyasını təmin edən və təkrarlanan tapşırıqları avtomatlaşdıran müasir rəqəmsal texnologiyalar vasitəsilə əhəmiyyətli dərəcədə təkmilləşdirilə bilər. Sənədləşmə işlərinin və məlumatların əl ilə daxil edilməsinə sərf olunan vaxtın azalması inzibati heyət tərəfindən tez-tez onların diqqətini tələbə dəstəyinin gücləndirilməsi və strateji planlaşdırma kimi daha dəyərli fəaliyyətlərə yönəltməyə imkan verən müsbət amil kimi qiymətləndirilməsinə şərait yaratması mümkündür.

Əlavə olaraq, real vaxt rejimində işləyən idarəetmə panellərinin və təkmilləşdirilmiş məlumat idarəetmə alətlərinin tətbiqi ali təhsil müəssisələrinin rəhbərliyinə tələbə sayı, davamiyyət dinamikası, saxlanma göstəriciləri və resursların istifadə səviyyəsi barədə operativ və etibarlı məlumatlar əldə etməyə imkan verir. Bu isə qərarvermə proseslərinin sübutlara əsaslanan və analitik yanaşma üzərində qurulmasına şərait yaradır.

Bu gün Amerikanın Harvard, Stanford, Səudiyyə Ərəbistanın İmam Məhəmməd bin Səud İslam Universiteti kimi ali təhsil müəssisəsi tələbələrin akademik göstəricilərini, öyrənmə davranışlarını və çətinlik yaşadıqları sahələri izləmək məqsədilə analitik alətlərlə inteqrasiya olunmuş təkmilləşdirilmiş tədris idarəetmə sistemlərindən (Learning Management Systems – LMS) istifadə edir [14]. Bu sistem məlumatlara çıxış əldə edən müəllimlərin mümkün problemləri ilkin mərhələdə müəyyən etməyə və tələbələrə vaxtında geridönüş edərək onları özünüqiymətləndirməyə və ya əlavə tədris materialları təqdim etməklə təsir göstərə bilirlər. Belə analitik məlumatlar müəllimlərə tədris strategiyalarını tələbələrin ehtiyaclarına uyğunlaşdırmağa, nəticə etibarilə akademik göstəriciləri və qarşılıqlı əlaqələri yaxşılaşdırmağa imkan verir. Bundan əlavə, bu cür qiymətləndirmə mexanizmlərinin tətbiqi müasir və tələvəyönümlü qiymətləndirmə modellərinin ənənəvi qiymətləndirmə

modellərini əvəzləməsinə şərait yaradır. Məsələn, Stanford Universiteti hal-hazırda Süni İntellekt əsaslı təkmilləşdirilmiş tədris idarəetmə sistemlərindən istifadə edir. Müəssisə bu mexanizmlərdən fərdiləşdirilmiş öyrənmə yolları yaratmaq və çevik qiymətləndirmə modellərini tətbiq etmək üçün istifadə edir [14].

Zənginləşdirilmiş tədris mühitlərinin digər mühüm komponenti isə virtual alətlərin, simulyasiya əsaslı laboratoriyaların və onlayn əməkdaşlıq platformalarının istifadəsidir. Bu texnologiyalar tələbələrə xüsusi avadanlıqlara, tədris materiallarına və virtual sahə səfərlərinə məsafədən çıxış imkanı yaradaraq məkan və zamandan asılı olmayaraq öyrənməyə şərait yaradır və davamlı peşəkar inkişafını mümkün edir. Nəticədə, öyrənənlər ənənəvi universitet mühitində təqdim edilməsi çətin və ya praktik olmayan təcrübələri tətbiq edə bilirlər. Bu cür yeniliklər fəal öyrənməni, tənqidi düşünməni və problem həll etmə bacarıqlarını dəstəkləyərək tələbələrin gələcəkdə qarşılaşacaqları problemlərə daha yaxşı hazır olmalarına kömək edir.

Öyrənənlərin müxtəlif ehtiyaclarını qarşılaya bilən çevik texnoloji alətlərin tətbiqi ali təhsil müəssisələrinə inklüzivlik və əlçatanlıq prinsiplərini gücləndirməyə imkan verir. Müxtəlif öyrənmə üslublarına malik olan, əlilliyi olan və ya tədris dilində ana dili olmayan tələbələr ağıllı kampusun təqdim etdiyi interaktiv və fərdiləşdirilə bilən tədris materiallarına xüsusi ehtiyac duyurlar . Tədris dizaynında təmin edilən bu çeviklik və ali təhsil müəssisələri tərəfindən yaradılan resurslar daha geniş tələbə kütləsinin cəlb olunmasına şərait yaradır və nəticə etibarilə ali təhsildə bərabərliyin artırılmasına töhfə verir.

Nəticə: Ali təhsil müəssisələrində ağıllı kampus təşəbbüslərinin tətbiqi yalnız texnoloji yenilənmə deyil, eyni zamanda təşkilati səviyyədə idarəetmə, insan resursları və dəyişikliklərin idarə olunmasını əhatə edən çoxşaxəli transformasiya prosesidir. Araşdırma nəticələri sübut edir ki, rəqəmsal universitet modellərinin uğurlu və dayanıqlı tətbiqi mövcud texnoloji infrastrukturun vəziyyətindən, köhnə sistemlərin inteqrasiya imkanlarından, aidiyyəti tərəflərin prosesə fəal şəkildə cəlb olunmasından və strateji rəhbərliyin davamlı dəstəyindən birbaşa asılıdır. Resursların daha səmərəli idarə olunması inzibati və tədris proseslərinin keyfiyyətinin artırılmasına töhfə versə də, sistemlərarası uyğunluq, rəqəmsal biliklərin mövcudluğunda boşluqları və dəyişikliklərə qarşı müqavimət hələ də əsas problem olaraq qalır. Bununla yanaşı, mövcud ədəbiyyat ağıllı kampus təşəbbüslərinin təsirinin qiymətləndirilməsi üçün daha geniş empirik tədqiqatlara və standartlaşdırılmış ölçmə mexanizmlərinə ehtiyac olduğunu göstərir. Ümumilikdə, ali təhsil müəssisələrinin ağıllı kampus inkişafını təşkilati məqsədlərlə uzlaşdırılmış, mərhələli və inklüziv strategiyalar əsasında həyata keçirməsi rəqəmsal dövrdə dayanıqlı inkişafın təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Problemin aktuallığı. Müasir dövrdə Dördüncü Sənaye İnqilabının təsiri nəticəsində Ali təhsil müəssisələri yalnız bilik ötürən qurumlar deyil, eyni zamanda rəqəmsal, çevik və məlumat əsaslı ekosistemlər kimi fəaliyyət göstərməyə məcbur qalan müəssisələr kimi fəaliyyət göstərirlər. Rəqəmsal texnologiyaların sürətli inkişafı ali təhsildə tədris, idarəetmə və tədqiqat proseslərinin yenidən qurulmasını zəruri etmişdir. Bu baxımdan ağıllı kampus konsepsiyaları ali təhsil müəssisələrinin səmərəliliyinin artırılması, resursların effektiv idarə olunması, tələbələrin təcrübə əsaslı fəaliyyətinin yaxşılaşdırılması və məlumat yönümlü qərarvermənin təmin edilməsi baxımından xüsusi aktuallıq kəsb edir.

Bununla yanaşı, bir çox ali təhsil müəssisələri hələ də köhnə texnoloji infrastruktur, məhdud maliyyə və insan resursları, dəyişikliklərə qarşı müqavimət, eləcə də kibertəhlükəsizlik və sistemlərarası inteqrasiya problemləri ilə üzləşir. Qlobal miqyasda rəqəmsal universitet modellərinin geniş şəkildə yayılmasına baxmayaraq, onların qurum səviyyəsində effektiv və dayanıqlı tətbiqi hələ də açıq problem olaraq qalır. Məhz buna görə də, ağıllı kampus texnologiyalarının tətbiqində mövcud çətinliklərin, idarəetmə yanaşmalarının və bu prosesdə aidiyyəti tərəflərin iştirak səviyyəsinin elmi şəkildə təhlil olunması aktual və zəruri hesab edilir.

Problemin elmi yeniliyi. Təqdim olunan məqalənin elmi yeniliyi ağıllı kampus konsepsiyasının ali təhsil müəssisələrində yalnız texnoloji təşəbbüs kimi deyil, məqsədyönlü, struktur xarakterli və çoxölçülü bir transformasiya modeli kimi dəyərləndirilməsindədir. Məqalədə ağıllı universitet yanaşması texniki infrastruktur, rəqəmsal idarəetmə, insan amili və təşkilati mədəniyyət çərçivəsində çoxşaxəli şəkildə təhlil olunur.

Araşdırmada köhnə nəsil texnoloji sistemlərin rəqəmsal universitet ekosistemlərinə uyğunlaşdırılması, resurs məhdudiyyətlərinin nəticələri, liderliyin rolu, aidiyyəti tərəflərin prosesdə iştirakının təmin edilməsi və davam edən peşəkar inkişaf mexanizmləri arasında qarşılıqlı əlaqə sistemli şəkildə əsaslan-

dırılır. Bundan əlavə, məqalədə fərdiləşdirilmiş tədris və qiymətləndirmə yanaşmaları, IoT və analitika əsaslı idarəetmə alətləri, eləcə də rəqəmsal savadlılıq və texnoloji səriştəlilik anlayışları ali təhsilin keyfiyyət göstəriciləri ilə əlaqələndirilərək yeni elmi yanaşma təqdim olunur. Beləliklə, tədqiqat mövcud ədəbiyyata ağıllı kampus konsepsiyasının idarəetmə-texnologiya-istifadəçi komponentləri çərçivəsində inteqrativ izahını verməklə töhfə verir.

Problemin praktik əhəmiyyəti. Məqalənin praktiki əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr ali təhsil müəssisələrinin rəhbərliyi, İT menecerləri, akademik və inzibati heyət üçün strateji qərarların formalaşdırılmasında tətbiq oluna bilən tövsiyələr təqdim edir. Araşdırmada göstərilən yanaşmalar ağıllı universitet texnologiyalarının mərhələli tətbiqi, resursların səmərəli bölüşdürülməsi, risklərin azaldılması və maraqlı tərəflərin prosesə effektiv şəkildə cəlb olunması baxımından praktik yol xəritəsi rolunu oynaya bilər.

Bundan əlavə, məqalədə təqdim olunan təhlillər ali təhsil müəssisələrinə rəqəmsal strategiyaların təşkilati məqsədlərlə uyğunlaşdırılması, peşəkar inkişaf proqramlarının planlaşdırılması, fərdiləşdirilmiş tədris və qiymətləndirmə modellərinin tətbiqi və sübuta əsaslanan idarəetmə mexanizmlərinin qurulması üçün real praktik çərçivə yaradır. Tədqiqat nəticələri həm resurs baxımından zəngin, həm də məhdud imkanlara malik ali təhsil müəssisələri üçün uyğunlaşdırıla bilən yanaşmalar təqdim etməklə, ağıllı kampus təşəbbüslərinin dayanıqlı və effektiv şəkildə həyata keçirilməsinə töhfə verir.

Ədəbiyyat

1. Adipat, S. Advancing higher education with the transition to smart universities: a focus on technology / S. Adipat, R. Chotikapanich // *Shanlax International Journal of Education*. – 2024. – C. 12, № 3. – s. 29-36. – DOI: 10.34293/education.v12i3.7635.
2. Alamsyah, D. P. Smart campus and education: the study of individual performance in e-learning environments / D. P. Alamsyah, D. Morika, B. Siswanto, N. A. Othman // *2024 International Conference on ICT for Smart Society (ICISS)*. – 2024. – s. 1-6. – DOI: 10.1109/ICISS62896.2024.10751196.
3. Arenas, J. Smart campus: concepts, development and future / J. Arenas, P. Palominos, R. Martin [və b.] // *2022 IEEE 28th International Conference on Engineering, Technology and Innovation (ICE/ITMC) & 31st International Association for Management of Technology (IAMOT) Joint Conference*. – 2022. – s. 1–7. – DOI: 10.1109/ICE/ITMC-IAMOT55089.2022.10033214.
4. Chagnon-Lessard, N. Smart campuses: extensive review of the last decade of research and current challenges / N. Chagnon-Lessard, L. Gosselin, S. Barnabe [və b.] // *IEEE Access*. – 2021. – C. 9. – s. 124200–124234. – DOI: 10.1109/ACCESS.2021.3109516.
5. Chaminade University of Honolulu. About ITS: [Elektron resurs] / – https://chaminade.edu/its/about-its/ – baxılıb: 24.02.2025.
6. Gamilla, A. P. Building a barrier: a security operations center framework for a sustainable smart campus network / A. P. Gamilla, T. D. Palaoag // *2022 6th International Conference on Information Technology (INCIT)*. – 2022. – s. 256–261. – DOI: 10.1109/INCIT56086.2022.10067377.
7. Liu, Q. The more, the better? The effect of feedback and user's past successes on idea implementation in open innovation communities / Q. Liu, Z. Yang, X. Cai, Q. Du, W. Fan // *Journal of the Association for Information Science and Technology*. – 2022. – C. 73, № 3. – s. 376–392. – DOI: 10.1002/ASI.2455.
8. Lowery, C. A platform for digital innovation in the management and administration of assessment and feedback / C. Lowery, M. King // *ICERI Proceedings*. – 2016. – s. 8246-8256. – DOI: 10.21125/ICERI.2016.0885.
9. Mattoni, B. A matrix approach to identify and choose efficient strategies to develop the smart campus / B. Mattoni, F. Pagliaro, G. Corona [və b.] // *2016 IEEE 16th International Conference on Environment and Electrical Engineering (EEEIC)*. – 2016. – s. 1-6. – DOI: 10.1109/EEEIC.2016.7555571.
10. Miranda, N. B. IT infrastructure auditing using COBIT framework / N. B. Miranda, M. R. D. Rodavia, M. I. Miranda // *2019 6th International Conference on Technical Education (ICTECHED6)*. – 2019. – s. 1–6. – DOI: 10.1109/ICTECHED6.2019.8790861.
11. O'Brien, K. Leadership and organizational support / K. O'Brien, C. Cooper // *Edward Elgar Publishing*. – 2022. – DOI: 10.4337/9781789909838.00019.
12. Polites, G. Shackled to the status quo: the inhibiting effects of incumbent system habit, switching costs, and inertia on new system acceptance / G. Polites, I. Karahanna // *MIS Quarterly*. – 2012. – C. 36, № 1. – s. 21–??. – DOI: 10.2307/41410404.

13. Putra, B. D. Smart university development challenges using LoRa or Sigfox technology: a systematic literature review / B. D. Putra, R. Munadi, H. Walidainy, Arif, T. Y. Syahrial, A. T. Putra // *2022 FORTEI-International Conference on Electrical Engineering (FORTEI-ICEE)*. – 2022. – s. 36-40. – DOI: 10.1109/FORTEI-ICEE57243.2022.9972910.
14. Stanford University. AI and Education (Accelerate Learning – Digital Learning Initiative): [Elektron resurs] / – https://acceleratelearning.stanford.edu/initiative/digital-learning/ai-and-education/ – baxılıb: 24.02.2025.
15. Union College. [Elektron resurs] / – https://www.union.edu/wd4u.
16. Union College. Enterprise Applications (Information Technology Services): [Elektron resurs] / – https://www.union.edu/information-technology-services/its-organization/enterprise-applications
17. Vo, M.H. Developing organizational innovation capability in high technology domain using limited resources / M. H. Vo, D. Z. Mack, Q. N. Huy // *Academy of Management Proceedings*. – 2022. – № 1. – DOI: 10.5465/AMBPP.2022.13142abstract.
18. Zhu, L. Reform and innovation of higher education management models in the new era / L. Zhu // *Journal of Education, Humanities and Social Sciences*. – 2024. – № 36. – s. 158–163. – DOI: 10.54097/m293z698.
19. Axundova, S.H. Kolleclərin innovativ idarəçiliyi və onun təlim keyfiyyətinə təsiri modelləri // -Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2022, № 1, s. 188-193

Redaksiyaya daxil olub: 17.02.2026

UOT 372.851

Əhməd Nüsrət oğlu Məmmədov
Bakı Biznes Universitetinin müəllimi,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-4475-9681
E-mail: ahmed.mamedov.62@bk.ru

Ramiz Məmmədcəfər oğlu Bəyəliyev
Bakı Biznes Universitetinin müəllimi,
riyaziyyat üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-6032-1596
E-mail:ramiz.beyaliyev.@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(2).127-134

"XƏTTİ CƏBR VƏ RİYAZİ ANALİZ" KURSUNDA RİYAZİ ANALİZ ELEMENTLƏRİNİN ÖYRƏDİLMƏSİ PROSESİNDƏ KONTRMİSALLARDAN İSTİFADƏNİN REALLAŞDIRILMASINA DAİR

Ahmad Nusrat Mammadov
lecturer at Baku Business University,
doctor of philosophy in pedagogy,

Ramiz Memmedjafar Beyaliyev
lecturer at Baku Business University,
doctor of philosophy in Mathematics

ON THE IMPLEMENTATION OF THE USE OF COUNTEREXAMPLES IN THE PROCESS OF TEACHING ELEMENTS OF MATHEMATICAL ANALYSIS IN THE COURSE OF "LINEAR ALGEBRA AND MATHEMATICAL ANALYSIS"

Ахмед Нусрат оглы Мамедов,
преподаватель Бакинского Университета Бизнеса,
доктор философии по педагогике

Рамиз Мамедджафар оглы Беялиев
преподаватель Бакинского Университета Бизнеса,
доктор философии по математике

О РЕАЛИЗАЦИИ ИСПОЛЬЗОВАНИЯ КОНТРПРИМЕРОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ЭЛЕМЕНТАМ МАТЕМАТИЧЕСКОГО АНАЛИЗА В КУРСЕ "ЛИНЕЙНОЙ АЛГЕБРЫ И МАТЕМАТИЧЕСКОГО АНАЛИЗА"

Xülasə. Təqdim olunan iş texniki və iqtisadiyönlü Ali məktəblərin "Xətti cəbr və Riyazi analiz" kursunda Riyazi analiz elementlərinin öyrədilməsi prosesində təlimin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayan kontrmisallardan istifadə materiallarına həsr olunub. Kontrmisallar əsasən Riyazi analiz kursunun birdəyişənli funksiyalara aid olan hissəsini (inteqral hesabı elementlərinə qədər) əhatə edir.

Riyazi analizə dair materiallarda bir çox teorem və digər təkliflərin tərsinin doğru olub-olmaması, təkliflərdəki şərtlərin ən azı birinin ödənmədiyi halda hökmün doğru olmadığını, təkliflərin kafi (zəruri) olub,

zəruri (kafi) olmadığını nümayiş etdirən misalların (kontrmisalların) qurulması məsələləri burada öz əksini tapmışdır.

Bütün bunlar digər riyazi fənlərin həmçinin riyazi analiz elementlərinin daxil olduğu fənlərin ("Ekonometrika", "Marketinqin idarə olunması", "Makroiqtisadiyyat", "Riyazi statistika", "Ehtimal nəzəriyyəsi" və s.) də tələbələr tərəfindən yüksək səviyyədə mənimsəmələrində mühüm rol oynayır. Onu da qeyd edək ki, nəinki Riyazi analizin bütün mövzularında, həmçinin "Xətti cəbr", "Analitik həndəsə", "Diferensial tənliklər" və s. fənlərin tədrisi prosesində kontrmisallardan istifadə tələbələrin müstəqil işləmə, məntiqi təfəkküründün inkişafında, yaradıcılıq qabiliyyətlərinin artırılmasında da faydalı hesab olunur.

Açar sözlər: *kontrmisal, birtərəfli limitlər, birtərəfli törəmələr, qeyri-müəyyənlik, Roll teoremi, Laqranj teoremi, Koşi teoremi, Lopital-Bernulli qaydaları, Dirixle funksiyas*

Abstract. The presented work is devoted to materials on the use of counterexamples, which play an important role in increasing the effectiveness of teaching elements of Mathematical Analysis in the course "Linear Algebra and Mathematical Analysis" in technical and economic higher education institutions. The counterexamples mainly cover the part of the Mathematical Analysis course related to functions of one variable (up to the elements of integral calculus). The materials on Mathematical Analysis reflect issues related to constructing examples (counterexamples) that demonstrate whether the converse of a theorem or another statement is true, that a statement is not valid when at least one of its conditions is not satisfied, and that certain conditions may be sufficient (necessary) but not necessary (sufficient). All of this plays an important role in helping students master at a high level other mathematical subjects, as well as disciplines that include elements of Mathematical Analysis ("Econometrics," "Marketing Management," "Macroeconomics," "Mathematical Statistics," "Probability Theory," etc.). It should also be noted that the use of counterexamples is considered beneficial not only in all topics of Mathematical Analysis, but also in the teaching of such subjects as "Linear Algebra," "Analytic Geometry," "Differential Equations," and others. It contributes to the development of students' independent working skills, logical thinking, and enhancement of their creative abilities.

Key words: *counterexample, one-sided limits, one-sided derivatives, indeterminate forms, Rolle's theorem, Lagrange's theorem, Cauchy's theorem, L'Hôpital–Bernoulli rules, Dirichlet function*

Аннотация. Представленная работа посвящена материалам по использованию контрпримеров, значимых в повышении эффективности обучения при изучении элементов математического анализа в курсе «Линейная алгебра и математический анализ» в технических и экономических вузах. Контрпримеры охватывают в основном ту часть курса математического анализа, которая относится к функциям одной переменной (до элементов интегрального исчисления).В материалах по математическому анализу нашли отражение вопросы построения примеров (контрпримеров), показывающих, является ли верной обратная теорема или другое утверждение, что при невыполнении хотя бы одного условия утверждение не является истинным, а также демонстрирующих, что данные условия могут быть достаточными (необходимыми), но не необходимыми (достаточными).Все это играет важную роль в более глубоком усвоении студентами других математических дисциплин, а также предметов, включающих элементы математического анализа («Эконометрика», «Управление маркетингом», «Макроэкономика», «Математическая статистика», «Теория вероятностей» и др.).Следует отметить, что использование контрпримеров является полезным не только при изучении всех разделов математического анализа, но и при преподавании таких дисциплин, как «Линейная алгебра», «Аналитическая геометрия», «Дифференциальные уравнения» и др. Это способствует развитию у студентов навыков самостоятельной работы, логического мышления и повышению их творческих способностей.

Ключевые слова: *контрпример, односторонние пределы, односторонние производные, неопределенность, теорема Ролля, теорема Лагранжа, теорема Коши, правила Лопиталя–Бернулли, функция Дирихле*

Məlum olduğu kimi "Xətti cəbr və Riyazi analiz" kursu texniki və iqtisadiyönlü ali məktəblərdə tədris olunan fənlər içərisində xüsusi yer tutur. Fənnin öyrənilməsi digər bir çox fənlərin: "Xətti cəbr və analitik həndəsə", "Ehtimal nəzəriyyəsi", "Riyazi statistika", "Ekonometrika" (Ekonometrika-1, Ekonometrika-2), "Biznes fəaliyyətinin təhlili", "Marketinqin idarə olunması", "Makroiqtisadiyyat" və s. öyrənilməsi istiqamətində müəyyən mənada baza rolunu oynayır.

"Xətti cəbr və Riyazi analiz" kursunun demək olar ki, bir çox bölməsi bu və ya digər formada qeyd etdiyimiz yuxarıdakı fənlərin materiallarının məzmununa daxildir. Burada yalnız Riyazi ana-

lizin bəzi elementlərinin (birdəyişənli funksiyaların diferensial hesabı) təlim prosesində öyrənilməsində istifadə olunan kontrmisallardan bəhs edilir.

Giriş üçün qeyd edək ki, müasir dövrdə iqtisadiyyatın rəqabətə davamlılığı, insanların rifahının yüksəldilməsi istiqamətində dövlətimizin məqsədyönlü fəaliyyəti ali məktəblər, həmçinin, texniki, iqtisadiyönüü ali məktəblər qarşısında təlimin keyfiyyətinin yüksəldilməsi və nəticədə onun müxtəlif sahələrdə tətbiqi məqsədini qoyur. Ölkəmizdə təhsil sahəsində təkmilləşdirmələr, dövlət proqramları, bu sahədə dövlətin strategiyaları əsasında həyata keçirilir. Azərbaycan təhsilinin modernləşdirilməsinin müasir mərhələsi, müxtəlif texnologiyaların tətbiq olunması, texniki avadanlıqların təlim prosesinə gətirilməsi, müxtəlif metodikaların təlim presesində tətbiq olunması texniki, iqtisadiyönlü fakültələrdə tələbələrin (bakalavriatlar, o cümlədən, magistrantlar) elmlərin əsaslarına yiyələnmələrində, onlarda peşə bacarıqlarının inkişafında müstəsna əhəmiyyət kəsb edir və tələbələr qarşısında yüksək tələblər qoyur. "Xətti cəbr və Riyazi analiz" kursunun (fənninin) proqramının "Fənnin təsviri" bölməsində qeyd olunduğu kimi fənnin tədrisində bir çox məqsədlər həyata keçirilir. Onlardan bəzilərini, yəni riyazi analizə dair olan məqsədləri qeyd edək ("Xətti cəbr və Riyazi analiz" fənni üzrə proqram. BAKI-2023.səh.3).

M3. Ədədi ardıcıllıqların növlərini təyin etməyi, bəzi ədədi ardıcıllıq və funksiyaların limitlərini tapmağı, funksiyaların kəsilməzliklərini araşdırmağı bacarmaq. M4. Birdəyişənli funksiyaların törəmələrini tapmağı, qeyri-müəyyənlikləri açmağı, funksiyaların Makloren düsturu üzrə ayrılışını yazmağı, törəmənin köməyi ilə funksiyaları araşdırmağı bacarmaq və s. Göstərilən məqsədlərin həyata keçirilməsi nəticəsi olaraq tələbələr Riyazi analiz elementlərini mənimsəyir və həmin proqramın "Fənnin təlim nəticələri" hissəsində qeyd olunduğu kimi tələbələr "e" ədədinə və başqa mühüm limitlərə gətirilən bəzi ardıcıllıqların, funksiyaların limitlərini hesablamağı, funksiyaların kəsilməzliklərini araşdırmağı, birdəyişənli funksiyaları diferensiallanmağı, diferensial hesabının köməyi ilə birdəyişənli funksiyaları araşdırmağı bacarmalıdırlar və s. Göstərdiyimiz kimi burada yalnız birdəyişənli funksiyaların diferensial hesabı ilə bağlı bəzi məqamları qeyd edəcəyik.

Riyazi analiz elementlərinin yüksək səviyyədə mənimsənilməsi üçün dərslərdə bir çox metod və vasitələrdən istifadə imkanları vardır. Onlardan biri də təlim prosesində tədrisin səmərə və keyfiyyətinin yüksəldilməsində kontrmisallardan istifadə etməklə onun reallaşdırılmasıdır.

Məlumdur ki, riyaziyyatın təlimi prosesində hər hansı hökmün doğruluğunu nümayiş etdirən, yəni onu illüstrasiya edən misallar göstərilir. Bundan sonra təlim prosesinin effektivliyinə təsir edən verilən hökmün tərsinin, həmçinin bu və ya digər şərtlər dəyişdikdə hökmün doğru olub-olmamasını göstərən misallar qurulur. Belə misallara Riyaziyyatda kontrmisallar (bu terminin sinonimi kimi "əksmisallar" da işlətmək olar) deyilir. Belə kontrmisalların qurulması təlimin səmərəliliyini artırır, keyfiyyətini yüksəldir, tələbələrin yaradıcıllıq meyllərinin artırılmasına müsbət təsir edir.

Bu fənn 1-ci tədris ilinin ilk semestrindən tədris olunur (I kurs). Ona görə də tədrisə daha ciddi yanaşılmalı, tələbələrə bu fənnin incəlikləri (lazımı səviyyədə) səmərəli şəkildə çatdırılmalıdır. Xətti cəbrin elementləri tədris olunduqdan sonra (**mövzu 1-4**) Riyazi analiz elementləri (**mövzu 5-23**) tədris olunur. Burada bir neçə mövzunun öyrənilməsində kontrmisallardan istifadə imkanlarından bəhs olunur. İlk olaraq "Ədədi ardıcıllıq və onun limiti" (**mövzu-5**) mövzusunda istifadə olunan (qurulan) bəzi kontrmisalları bir neçə teorem üzərində nəzərdən keçirək.

Teorem1. Əgər $\{x_n\}$ və $\{y_n\}$ ardıcıllıqlarının hər biri yığılandırsa onda onların cəmi (fərqi) də hasili və nisbəti də yığılandır və $\lim\limits_{n\to\infty}(x_n \pm y_n) = \lim\limits_{n\to\infty} x_n \pm \lim\limits_{n\to\infty} y_n$; $\lim\limits_{n\to\infty}(x_n \cdot y_n) = \lim\limits_{n\to\infty} x_n \cdot \lim\limits_{n\to\infty} y_n$ $\lim\limits_{n\to\infty} \frac{x_n}{y_n} = \frac{\lim\limits_{n\to\infty} x_n}{\lim\limits_{n\to\infty} y_n}$ $\left(\lim\limits_{n\to\infty} y_n \neq 0\right)$. (Cəmin (fərqin), hasilin və nisbətin yığılması üçün kafi şərt) Burada təbii olaraq qarşıya belə bir sual çıxır: Bu teoremin tərsi də həmişə doğrudurmu? Yəni, cəmin, fərqin, hasilin, nisbətin yığılan olmasından ardıcıllıqların hər birinin yığılan (sonlu limitinin) olmasını həmişə hökm etmək olarmı? Yəni, teoremi zəruri və kafi şərt (kriteriya,meyar) kimi vermək olmazmı? Aşağıdakı ardıcıllıqlar üzərində teoremin (cəm (fərq) üçün) tərsinin doğru olmadığını görmək olar.

Misal 1. $x_n = 1 + \sqrt{n}$ və $y_n = 2 - \sqrt{n}$ ardıcıllarının cəmi $z_n = x_n + y_n = 3$ olduğundan $\lim\limits_{n\to\infty} z_n = 3$ alarıq. Lakin götürülən $\{x_n\}$ və $\{y_n\}$ ardıcıllıqlarının hər biri dağılandır. Deməli, cəm yığılan olduqda hər bir ardıcıllıq dağıla da bilər. ***Misal 2.*** $x_n = \sin^2 n$, $y_n = -\cos^2 n$ ardıcıllıqlarının hər biri dağılandır. Lakin onların fərqi $x_n - y_n = 1$, $\lim\limits_{n\to\infty}(x_n - y_n) = 1$, yəni yığılandır. Göründüyü kimi, bu halda da fərqin yığılan olmasından azalan və çıxılan ardıcıllıqların hər birinin yığılan olmasını hökm etmək olmaz.

Misal 3. $x_n = n$ və $y_n = \sin\frac{\pi}{3n}$ ardıcıllıqlarının hasilinə baxaq: $x_n \cdot y_n = n \cdot \sin\frac{\pi}{3n} = \frac{\sin\frac{\pi}{3n}}{\frac{1}{n}}$ $\lim\limits_{n\to\infty}(x_n \cdot y_n) = \lim\limits_{n\to\infty}\frac{\sin\frac{\pi}{3n}}{\frac{\pi}{3n}\cdot\frac{3}{\pi}} = \frac{\pi}{3}\cdot\lim\limits_{n\to\infty}\frac{\sin\frac{\pi}{3n}}{\frac{\pi}{3n}} = \frac{\pi}{3}$,yəni hasil yığılandır ($\lim\limits_{n\to\infty}\frac{\sin x}{x} = 1$ olması nəzərə alınıb). Lakin $x_n = n$-dağılan, $y_n = \sin\frac{\pi}{3n}$ yığılandır. Yəni bu halda hər bir ardıcıllıq yığılan deyil. Deməli, hasilin yığılan olmasından ayrı-ayrı ardıcıllıqların yığılan olması həmişə alınmır.

Misal 4. $x_n = n^5 + n^2 - 1$ və $y_n = 3n^5 + 2n^2 - 4n + 1$ ardıcıllıqlarının hər biri dağılandır: $\lim\limits_{n\to\infty}(n^5 + n^2 - 1) = \infty$, $\lim\limits_{n\to\infty}(3n^5 + 2n^2 - 4n + 1) = \infty$

Lakin $\lim\limits_{n\to\infty}\left(\frac{x_n}{y_n}\right) = \lim\limits_{n\to\infty}\left(\frac{n^5+n^2-1}{3n^5+2n^2-4n+1}\right) = \frac{1}{3}$

Deməli, dağılan ardıcıllıqların da nisbəti yığılan ola bilər, yəni bu halda da tərs teorem həmişə ödənmir ($x_n = (-1)^n$ və $y_n = 3n + 2$ dağılan ardıcıllıqları üçün də baxmaq olar).

Teorem 2. $\{x_n\}$ və $\{y_n\}$ ardıcıllıqları üçün elə N nömrəsi varsa ki, $n > N$ şərtini ödəyən n-lər üçün $x_n \geq y_n$ (yaxud $x_n \leq y_n$) bərabərsizliyi ödənir və $\lim\limits_{n\to\infty} x_n = a$, $\lim\limits_{n\to\infty} y_n = b$ sonlu limitləri varsa, yəni ardıcıllıqların hər biri yığılandırsa onda $a \geq b$ (yaxud $a \leq b$) bərabərsizliyi ödənir. Burada da təbii olaraq belə sual yarana bilir: Teoremin şərtində "$\geq$" (yaxud "$\leq$") işarəsi əvəzinə "$>$" (yaxud "$<$") olduqda da hökm etmək olarmı ki, $a > b$ (yaxud $a < b$) bərabərsizliyi də doğrudur?

Misal 5. $x_n = \frac{1}{\sqrt{n}}$; $y_n = \frac{1}{\sqrt{n+1}}$ götürsək, $x_n > y_n$ olduğu aşkardır. $\lim\limits_{n\to\infty} x_n = \lim\limits_{n\to\infty} y_n = 0$ olmasından alınır ki, $0 > 0$. Bu isə ola bilməz. Deməli, teoremin şərtində "$\geq$" (yaxud "$\leq$") olması vacib şərtlərdir. $x_n \geq y_n$ (yaxud $x_n \leq y_n$) əvəzinə $x_n > y_n$ (yaxud $x_n < y_n$) götürsək teoremin hökmü doğru olmaz. Bu mövzuda digər təkliflərdə də kontrmisallardan istifadə imkanları böyükdür. Fənnin təlimi prosesində "Funksiyanın limiti" (**mövzu 6.**) mövzusunda da kontrmisallardan istifadə mümkündür.

Teorem 3. Əgər $f(x)$ və $g(x)$ funksiyaları x_0 nöqtəsinin müəyyən ətrafında təyin olunubsa və x_0 nöqtəsində limitləri uyğun olaraq A və B-yə bərabər olarsa, onda $f(x) \pm g(x)$, $f(x) \cdot g(x)$ və $\lim\limits_{x\to x_0} g(x) \neq 0$ olduqda $\frac{f(x)}{g(x)}$ funksiyalarının da x_0 nöqtəsində limitləri var və həmin limitlər uyğun olaraq $A \pm B$, $A \cdot B$ və $\frac{A}{B}$-yə bərabərdir. Başqa sözlə desək, sağdakı limitlər varsa $\lim\limits_{x\to x_0}(f(x) \pm g(x)) = \lim\limits_{x\to x_0} f(x) \pm \lim\limits_{x\to x_0} g(x)$, $\lim\limits_{x\to x_0}(f(x) \cdot g(x)) = \lim\limits_{x\to x_0} f(x) \cdot \lim\limits_{x\to x_0} g(x)$ $\lim\limits_{x\to x_0}\frac{f(x)}{g(x)} = \frac{\lim\limits_{x\to x_0} f(x)}{\lim\limits_{x\to x_0} g(x)}$ $\left(\lim\limits_{x\to x_0} g(x) \neq 0\right)$. bərabərlikləri doğrudur.

Burada da təbii ki, belə sual yaranır. Kontrsual: $f(x) \pm g(x)$, $f(x) \cdot g(x)$, $\frac{f(x)}{g(x)}$ funksiyalarının hər birinin müəyyən x_0 nöqtəsində limitlərinin olmasından $f(x)$ və $g(x)$ funksiyalarının hər birinin x_0 nöqtəsində limitinin olmasını hökm etmək olarmı?

Misal 6.

$f(x) = \begin{cases} x + 2, x < 0\ olarsa \\ -3, x = 0\ olarsa \\ 2x - 10, x > 0\ olarsa \end{cases}$, $g(x) = \begin{cases} 5 - x, x < 0\ olarsa \\ 10, x = 0\ olarsa \\ 17 - 2x, x > 0\ olarsa \end{cases}$ funksiyasının cəmi $\varphi(x) = f(x) + g(x) = 7$ funksiyasının istənilən nöqtədə, o cümlədən

$x_0 = 0$ nöqtəsində limiti var və $\lim\limits_{x\to 0}\varphi(x) = 7$. Lakin nə $f(x)$-in nə də $g(x)$-in $x_0 = 0$ nöqtəsində limiti yoxdur: $f(0+) = -10 \neq f(0-) = 2$; $g(0+) = 17 \neq g(0-) = 5$(hər iki funksiya

üçün birtərəfli limitlər müxtəlifdir) Bu da onu göstərir ki, cəm funksiyanın limitinin olmasından toplanan funksiyaların hər birinin limitinin olmasını həmişə hökm etmək olmaz. İki funksiyanın nisbəti üçün də kontrmisal qurmaq olar:

Misal 7. $f(x)=\sin\frac{1}{x}$ və $g(x)=\frac{1}{x}$ funksiyalarının hər birinin $x_0=0$ nöqtəsində limiti yoxdur (sonlu). Belə ki, $x_n'=\frac{2}{\pi+4\pi n}$ və $x_n''=\frac{-2}{\pi-4\pi n}$ kimi iki ardıcıllığ götürsək (Funksiyanın limitinin Heyne mənada (ardıcıllıq dilində) tərifi).

$\lim\limits_{x\to0}x_n'=\lim\limits_{x\to0}\frac{2}{\pi+4\pi n}=0, \lim\limits_{x\to0}x_n''=\lim\limits_{x\to0}\frac{-2}{\pi-4\pi n}=0$olduğundan $\{x_n'\}$ və $\{x_n''\}$ardıcıllıqlarının hər biri 0-a yığılır, lakin $f(x_n')=\sin\left(\frac{\pi}{2}+2\pi n\right)$ və $f(x_n'')=\sin\left(-\frac{\pi}{2}+2\pi n\right)$ ardıcıllıqları uyğun olaraq 1 və -1-ə yığılır. Deməli, $f(x)=\sin\frac{1}{x}$ funksiyasının $x_0=0$ nöqtəsində limiti yoxdur.

Lakin $\frac{f(x)}{g(x)}=\left(\sin\frac{1}{x}\right)\cdot x$ funksiyasının $x_0=0$ nöqtəsində limiti 0-a bərabərdir:

$\lim\limits_{x\to0}\frac{\sin\frac{1}{x}}{\frac{1}{x}}=\lim\limits_{x\to0}x\cdot\sin\frac{1}{x}=0.$ Çünki,$\alpha(x)=x, x\to0$ olduqda sonsuz kiçilən, $f(x)=\sin\frac{1}{x}$ funksiyası isə x_0 nöqtəsinin ətrafında məhdud funksiyadır. Məhdud funksiyanın sonsuz kiçilən funksiyaya hasili sonsuz kiçiləndir, yəni limiti 0-dır. Bu da onu göstərir ki, nisbət funksiyanın limitinin olmasından (burada limit 0-dır) komponentlərin (bölünən və bölən) hər birinin limitinin olmasını həmişə hökm etmək olmaz.

Bu və ya digər istiqamətdə kontrmisalları "Birdəyişənli funksiyanın kəsilməzliyinə dair materialların mənimsədilməsində də qurmaq mümkündür. Fikrimizi aşağıdakı bir teorem üzərində izah edək.

Teorem 4. Tutaq ki, $f(x)$ və $g(x)$ funksiyaları hər hansı X çoxluğunda təyin olunub və $x_0\in X$ nöqtəsində kəsilməzdir. Onda $f(x)\pm g(x)$, $f(x)\cdot g(x)$, $\frac{f(x)}{g(x)}$ $(g(x_0)\neq0)$ funksiyaları da x_0 nöqtəsində kəsilməz olar və aşağıdakı bərabərliklər doğrudur:

$\lim\limits_{n\to\infty}\big(f(x)\pm g(x)\big)=f(x_0)\pm g(x_0), \lim\limits_{n\to\infty}\big(f(x)\cdot g(x)\big)=f(x_0)\cdot g(x_0), \lim\limits_{x\to x_0}\frac{f(x)}{g(x)}=\frac{f(x_0)}{g(x_0)}$ $(g(x_0)\neq0)$. Burada da, təbii ki, tələbələrin qarşısına belə sual çıxır. $f(x)$ və $g(x)$ funksiyalarının cəminin (fərqinin), hasilinin və nisbətinin x_0 nöqtəsində kəsilməz olmasından hər bir funksiyanın x_0 nöqtəsində kəsilməz olduğunu həmişə hökm etmək olarmı?

Tərs təklifin həmişə doğru olmadığını aşağıdakı kontrmisalla göstərək:

Misal 8.

$f(x)=\begin{cases}x-1, 1<x<5\ olarsa\\ -3, 0<x\le1\ olarsa\end{cases}, g(x)=\begin{cases}5-x, 1<x\le5\ olarsa\\ 7, 0<x\le1\ olarsa\end{cases}$ Göründüyü kimi, bu funksiyaların hər biri $x_0=1$ nöqtəsində kəsiləndir və bu nöqtə 1-ci növ kəsilmə nöqtəsidir (limitlər sonludur):

$\lim\limits_{x\to1+0}f(x)=\lim\limits_{x\to1+0}f(x-1)=0$ (sağ limit)

$\lim\limits_{x\to1-0}f(x)=\lim\limits_{x\to1-0}(-3)=-3$ (sol limit)

$\lim\limits_{x\to1+0}g(x)=\lim\limits_{x\to1+0}(5-x)=4$ (sağ limit)

$\lim\limits_{x\to1-0}g(x)=\lim\limits_{x\to1-0}(7)=7$ (sol limit)

Hər bir funksiya üçün birtərəfli limitlər müxtəlifdir və deməli, bu funksiyaların hər biri $x_0=1$ nöqtəsində kəsilməz deyil. Lakin, onların cəmi $f(x)+g(x)=4$ (sabit) funksiyası bütün həqiqi oxda, o cümlədən $x_0=1$ nöqtəsində də kəsilməzdir. Bu isə o deməkdir ki, cəm funksiya müəyyən nöqtədə kəsilməz olduqda ayrı-ayrı toplanan funksiyalar həmin nöqtədə kəsilməz olmaya bilər. (Bunu üç və daha çox funksiya misalında da görmək olar)

Misal 9. $f(x)=[x]$ (x ədədinin tam hissəsi) və $g(x)=\{x\}$ (x ədədinin kəsr hissəsi) funksiyalarının cəmini $\varphi(x)$ ilə işarə edək. $\varphi(x)=[x]+\{x\}=x$ (x ədədi özünün tam hissəsi ilə kəsr hissəsinin cəminə bərabərdir) $\varphi(x)=x$ funksiyası bütün həqiqi oxda, o cümlədən $x_0=n$ (tam

ədəd) nöqtələrində kəsilməzdir. Lakin $f(x)=[x]$ və $g(x)=\{x\}=x-[x]$ funksiyalarının hər biri $x_0=n$ (tam) nöqtələrində kəsiləndir.

$\lim\limits_{x\to n+0} f(x)=\lim\limits_{x\to n+0}[x]=n, \lim\limits_{x\to n-0} f(x)=\lim\limits_{x\to n-0}[x]=n-1(n\neq n-1)\lim\limits_{x\to n+0} g(x)=\lim\limits_{x\to n+0}(x-[x])=n-n=0, \lim\limits_{x\to n-0} g(x)=\lim\limits_{x\to n-0}(x-[x])=n-(n-1)=1(0\neq 1)$Başqa sözlə desək, $f(n+0)\neq f(n-0), g(n+0)\neq g(n-0)$. Ona görə də belə nəticəyə gəlirik ki, cəm funksiya kəsilməz olduqda ayrı-ayrı funksiyalar kəsilməz olmaya bilər. Yəni, kəsilən funksiyaların da cəmi kəsilməz ola bilir. Deməli, cəm halı üçün teoremin tərsi ümumiyyətlə, doğru deyil.

Misal 10.

$f(x)=x, g(x)=D(x)=\begin{cases}1, x-rasional\ olduqda\\0, x-irrasional\ olduqda\end{cases}$($D(x)$-Dirixle funksiyasıdır.) $f(x)$ və $g(x)$ funksiyalarının hasilini $\varphi(x)$ ilə işarə edək. $\varphi(x)=f(x)\cdot D(x)$. Məlumdur ki, Dirixle funksiyası həqiqi oxun hər bir nöqtəsində kəsiləndir. $f(x)=x$ funksiyası bütün həqiqi oxda, o cümlədən $x_0=0$ nöqtəsində də kəsilməzdir.

$\varphi(x)=f(x)\cdot D(x)=\begin{cases}1, x-Rasional\ olduqda\\0, x-irrasional\ olduqda\end{cases}$ $\varphi(x)$ funksiyası x_0 nöqtəsində kəsilməzdir. Göründüyü kimi, $f(x)$ və $D(x)$ funksiyalarının hər biri kəsilməz deyil ($f(x)$-kəsilməz, $D(x)$-kəsilən), yəni hasil funksiyanın kəsilməz olmasından vuruq funksiyaların hər birinin kəsilməz olmasını, ümumiyyətlə hökm etmək olmaz.

Misal 11. $f(x)=D(x)$ ($D(x)$-Dirixle funksiyasıdır) və $g(x)=D(x+\pi)$ funksiyalarının hasili $f(x)\cdot g(x)=D(x)\cdot D(x+\pi)=0$. $\varphi(x)=f(x)\cdot g(x)$ işarə etsək, bu halda $\varphi(x)=0$.Göründüyü kimi, $f(x)$ və $g(x)$ funksiyalarının hasili olan $\varphi(x)=0$ funksiyası bütün həqiqi oxda kəsilməzdir. Lakin nə $f(x)$, nə də $g(x)$funksiyaları bu halda kəsilməz deyil. Başqa sözlə desək, kəsilən funksiyaların da cəmi kəsilməz ola bilər. Yəni hasil funksiyasının kəsilməz olmasından vuruq funksiyaların hər birinin kəsilməz olmasını hökm etmək olmaz. "Xətti cəbr və Riyazi analiz" fənninin materialları içərisində "Funksiyanın törəməsi, Diferensiallanan funksiya və funksiyanın diferensialı" ("Xətti cəbr və Riyazi analiz" fənni üzrə proqram. Bakı-2023. Mövzu 8) xüsusi yer tutur. Burada da bir sıra təkliflərin (teoremlərin və s.) şərh olunması prosesində anlayışların düzgün dərk olunmasında və əsaslandırılmasında kontrmisallardan istifadə əhəmiyyətlidir. Bunu bir neçə teorem üzərində izah edək.

Teorem 5. (Diferensiallanan funksiyalar üzərində əməllər**)** Əgər $f(x)$ və $g(x)$ funksiyalarının hər biri müəyyən x_0 nöqtəsində diferensiallanandırsa, onların cəmi (fərqi), hasili və nisbəti ($g(x_0)\neq 0$) də bu nöqtədə diferensiallanandırsa və

$\big(f(x)\pm g(x)\big)'=f'(x)\pm g'(x)\ \big(f(x)\cdot g(x)\big)'=f'(x)\cdot g(x)+f(x)\cdot g'(x)\ \left(\frac{f(x)}{g(x)}\right)'=\frac{f'(x)\cdot g(x)-f(x)\cdot g'(x)}{g^2(x)}$ ($g(x_0)\neq 0$) bərabərlikləri doğrudur. Təbii ki, qarşıya belə bir sual çıxır: Teoremin tərsi də həmişə doğru ola bilərmi? Yəni cəm (fərq), hasil, nisbət funksiyalarının diferensiallanan (sonlu törəməsi olan) olmasından ayrı-ayrı funksiyaların diferensiallanan olmasını həmişə hökm etmək olarmı? Başqa sözlə desək, diferensiallanmayan funksiyaların cəmi (fərqi), hasili, nisbəti də həmişə diferensiallanandırmı? Aşağıdakı misallara baxaq:

Misal 12. $f(x)=\begin{cases}x-2, x<1\ olarsa\\x^2, x\geq 1\ olarsa\end{cases}, g(x)=\begin{cases}2, x<1\ olarsa\\x-x^2, x\geq 1\ olarsa\end{cases}$Aydındır ki, $f'(x)=\begin{cases}1, x<1\ olarsa\\2x, x\geq 1\ olarsa\end{cases}, g'(x)=\begin{cases}0, x<1\ olarsa\\1-2x, x\geq 1\ olarsa\end{cases}$

$f'(1+0)=2\cdot 1=2$(sağ törəmə), $f'(1-0)=1$ (sol törəmə), yəni $f'(1+0)\neq f'(1-0)$

$g'(1+0)=1-2\cdot 1=-1$(sağ törəmə), $g'(1-0)=0$ (sol törəmə), yəni $g'(1+0)\neq g'(1-0)$

Bu o deməkdir ki, $f(x)$ və $g(x)$ funksiyaları $x_0=1$ nöqtəsində diferensiallanan deyil. Lakin bu funksiyaların cəmi olan $\varphi(x)=f(x)+g(x)=x$ funksiyası və $\varphi'(1+0)=1, \varphi'(1-0)=0$ olduğundan diferensiallanandır. Hasil, nisbət üçün də analoji kontrmisallar qurmaq olar ki, bu da

teoremin tərsinin həmişə doğru olmadığını özündə ehtiva edir. **"Diferensial hesabının əsas teoremləri"** mövzusunda mühüm tətbiqi əhəmiyyət olan Roll teoremini nəzərdən keçirək.

Teorem 6. (Roll). Əgər $f(x)$ funksiyası:

1. $[a,b]$ parçasında təyin olunub, kəsilməzdirsə,
2. (a,b) intervalının hər bir nöqtəsində sonlu və ya müəyyən işarəli sonsuz törəməsi varsa,
3. $[a,b]$ parçasının uclarında bərabər qiymət alarsa, yəni $f(a)=f(b)$ olarsa,

onda elə $\xi \in (a,b)$ nöqtəsi var ki, həmin nöqtədə $f'(\xi)=0$. Teoremin tələbələrə çatdırılmasında hər bir şərtin vacibliyi qeyd olunmalıdır ki, hökm doğru olsun. Şərtlərdən hər hansı birini nəzərə almasaq, onda (a,b) intervalında elə ξ nöqtəsi tapmaq olmaz ki, $f'(\xi)=0$ olsun. Aşağıdakı misala nəzər yetirək.

Misal 13. $f(x)=|x|$ funksiyasına $[-1;1]$ parçasında baxaq. $a=-1, b=1$ götürsək $f(a)=f(b)$, yəni $f(-1)=f(1)$ olması aşkardır (3-cü şərt ödənir). Təyin oblastı: $[-1;1]$. Lakin $(-1;1)$ intervalının hər bir nöqtəsində diferensiallanan deyil. Çünki, $x_0=0$ nöqtəsində sağ və sol törəmələr bərabər olmadığından (a,b)-də, yəni $(-1;1)$-də diferensiallanan deyil: $f'(-0)=-1$, $f'(+0)=1$. Deməli, Roll teoreminin şərtlərindən biri ödənmir. Ona görə də teoremin doğru olması üçün hər bir şərt vacibdir. Daha bir misalı nəzərdən keçirək.

Misal 14. $f(x)=\begin{cases} x+1, -1\le x\le 1 \ olarsa \\ x-2, 1<x\le 2 \ olarsa \end{cases}$ funksiyası göründüyü kimi, $[-1;2]$ parçasının hər bir nöqtəsində təyin olunub. Uclarda bərabər qiymətlər alır: $f(-1)=0, f(2)=0$, həmçinin $x_0=1$ nöqtəsində kəsilməz deyil, o cümlədən verilmiş funksiyanın $f'(x)$ törəməsi heç bir nöqtədə sıfıra bərabər deyil. Birdəyişənli funksiyanın diferensial hesabı bölməsində əsas teoremlərdən olan Laqranj teoremini nəzərdən keçirək.

Teorem 7. (Laqranj). Əgər $f(x)$ funksiyası:

1) $[a,b]$ parçasında təyin olunub, kəsilməzdirsə

2) (a,b) intervalında sonlu və ya müəyyən işarəli sonsuz törəməsi varsa (diferensiallanandırsa) onda (a,b) intervalında elə ξ nöqtəsi var ki, $f(b)-f(a)=f'(\xi)(b-a)$ bərabərliyi doğrudur. Burada da təbii ki, aşağıdakı suallar yarana bilər:

1) Yalnız) $[a,b]$ parçasında funksiya kəsilməz olarsa Laqranj teoremi doğru olarmı?

2) $[a,b]$ parçasında təyin olunub, kəsilməz olmazsa teorem doğru olarmı? Və s. Aşağıdakı misal baxaq:

Misal 15. $f(x)=\frac{1}{x}$,$[-1;3]$ qəbul edək. $x_0=0\in[-1;3]$ nöqtəsində funksiya kəsilməz deyil (II növ kəsilmə nöqtəsi) $a=-1, b=3$ olduğundan $f(3)-f(-1)=f'(\xi)\big(3-(-1)\big)\frac{1}{3}+1=-\frac{1}{\xi^2}\cdot 4$Buradan da $f'(\xi)=-\frac{1}{\xi^2}=\frac{1}{3}$.

Bu bərabərlik isə doğru deyil. Ona görə də $f(x)=\frac{1}{x}$ funksiyasına $[-1;3]$ parçasında Laqranj teoremini tətbiq etmək olmaz.

Yoxlamaq olar ki, $f(x)=\begin{cases} 0, 0\le x<1 \ olarsa \\ 1, x=1 \ olarsa \end{cases}$ funksiyası da Laqranj teoriminin hər bir şərtini ödəmir.

Roll və Laqranj teoremlərinin ümumiləşməsi olan Koşi teoreminin mənimsənilməsi prosesində də müvafiq kontrmisallardan istifadə imkanları vardır.

Teorem 8. (Koşi). Əgər $f(x)$ və $g(x)$ funksiyaları 1) $[a,b]$ parçasında təyin olunub, kəsilməzdirsə, 2) (a,b) intervalında hər bir nöqtəsində sonlu törəməsi varsa və həmçinin $g'(x)\neq 0$ Onda (a,b) intervalının daxilində elə ξ nöqtəsi var ki, $\frac{f(b)-f(a)}{g(b)-g(a)}=\frac{f'(\xi)}{g'(\xi)}$bərabərliyi doğrudur. Bu teoremin şərtində aşağıdakı sual qoyula bilər: $g(a)=g(b)$ olması mümkündürmü? Əksini fərz edək. Əgər $g(a)=g(b)$ olarsa, Roll teoreminə görə ($g(x)$ funksiyasının (a,b) intervalı daxilində hər hansı c nöqtəsində törəməsi 0-a bərabər olar, yəni $g'(c)=0$. Bu da Koşi teoremini şərtlərinə ziddir. Burada da aşağıdakı sualı qoymaq olar (bu sual təbii olaraq yaranır): Koşi teoremindəki şərtlərdən biri ödənməzsə teoremin hökmü doğru olarmı? Aşağıdakı kontrmisala baxaq:

Misal 16. $f(x)=e^x, g(x)=\frac{1+|x|}{|x|}$ funksiyalarına $[-2;2]$ parçasında baxaq.Göründüyü kimi $a=-2, b=2$ olduğundan $g(-2)=g(2)=1{,}5$ olduğundan $g'(x)=0$ olar ki, bu da şərtə ziddir.

Asanlıqla göstərmək olar ki, $f(x)=x-1, g(x)=|x-1|$ funksiyalarına $[-2;3]$ parçasında Koşi teoremini tətbiq etmək olmaz (teoremin hansı şərti ödənmir? Göstərin!)

Məlum olduğu kimi, diferensial hesabı əsas qeyri müəyyənliklərin açılışında da mühüm rol oynayır. Bu "Xətti cəbr və Riyazi analiz" kursunda "Lopital-Bernulli qaydaları" (bir neçə teorem) adı ilə öyrənilir. Həmin teoremdən aşağıdakı qeydi edək.

Teorem 9. $f(x)$ və $g(x)$ funksiyaları $x=x_0$ nöqtəsinin müəyyən ətrafında təyin olunub, diferensiallanandırsa ($x=x_0$ nöqtəsi müstəsna olmaqla) həmçinin $\lim\limits_{x\to x_0} f(x)=\lim\limits_{x\to x_0} g(x)=0$ ($g(x_0)\neq 0$). Əgər $\lim\limits_{x\to x_0}\frac{f'(x)}{g'(x)}$ limiti varsa, onda bu funksiyaların nisbətinin də limiti var və $\lim\limits_{x\to x_0}\frac{f(x)}{g(x)}=\lim\limits_{x\to x_0}\frac{f'(x)}{g'(x)}$. Bu teoremin tələbələrə mənimsədilməsində də müxtəlif kontrsuallar qoymaqla, kontrmisallar qurmaqla təlimin effektivliyini artırmaq olar.

Misal 17. $f(x)=x^2\cdot\sin\frac{1}{x}, g(x)=\sin x, x_0=0$ götürsək $\lim\limits_{x\to 0}\frac{f(x)}{g(x)}=\lim\limits_{x\to 0}\frac{x^2\cdot\sin\frac{1}{x}}{\sin x}=\lim\limits_{x\to 0}\frac{x}{\sin x}\left(x\cdot\sin\frac{1}{x}\right)$. $\lim\limits_{x\to 0}\frac{x}{\sin x}=1, \lim\limits_{x\to 0}\left(x\cdot\sin\frac{1}{x}\right)=0$ (məhdud funksiya və sonsuz kiçilən funksiyanın hasili sonsuz kiçiləndir) olduğundan verilmiş funksiyalar üçün $\lim\limits_{x\to 0}\frac{f(x)}{g(x)}=0$.Lakin verilmiş funksiyaların törəmələrinin nisbətinin limiti. yoxdur:$\lim\limits_{x\to 0}\frac{f'(x)}{g'(x)}=\lim\limits_{x\to 0}\frac{\left(x^2\cdot\sin\frac{1}{x}\right)'}{(\sin x)'}=\lim\limits_{x\to 0}\frac{2x\cdot\sin\frac{1}{x}-\frac{1}{x^2}\cdot\cos\frac{1}{x}\cdot x^2}{\cos x}=\lim\limits_{x\to 0}\frac{2x\cdot\sin\frac{1}{x}-\cos\frac{1}{x}}{\cos x}$($\lim\limits_{x\to 0}\frac{1}{\cos x}$ limiti mövcud deyil), yəni bu funksiyalar müvafiq qaydanı tətbiq etmək olmaz. Bu da onu göstərir ki, $\frac{f'(x)}{g'(x)}$ nisbətinin $x\to x_0$ olduqda limiti varsa, onda teorem ödənir. Daha bir misalı nəzərdən keçirək.

Misal 18. $f(x)=x+\sin x, g(x)=x$ funksiyaları üçün $\lim\limits_{x\to\infty}\frac{x+\sin x}{x}=\lim\limits_{x\to\infty}\left(1+\frac{\sin x}{x}\right)=1+0=1, \left(\lim\limits_{x\to\infty}\left(\frac{\sin x}{x}\right)=0\right)$.

$\lim\limits_{x\to\infty}\frac{f'(x)}{g'(x)}=\lim\limits_{x\to\infty}\frac{(x+\sin x)'}{(x)'}=\lim\limits_{x\to\infty}\frac{1+\cos x}{1}=\lim\limits_{x\to\infty}(1+\cos x)$ $\lim\limits_{x\to\infty}\cos x$ limiti mövcud deyil, ona görə də $\lim\limits_{x\to\infty}(1+\cos x)$ yoxdur. Bu da onu göstərir ki, $\lim\limits_{x\to\infty}\frac{x+\sin x}{x}$ limitinə Lopital-Bernulli qaydalarını tətbiq etmək olmaz. Başqa sözlə desək $\lim\limits_{x\to x_0}\frac{f'(x)}{g'(x)}$ limitinin olmamasından $\lim\limits_{x\to x_0}\frac{f(x)}{g(x)}$ limitinin olmaması alınmır.

Misal 19. $f(x)=e^{-x}, g(x)=e^{-x}+e^{-2x}$ götürsək $\lim\limits_{x\to+\infty}\frac{f(x)}{g(x)}=\lim\limits_{x\to+\infty}\frac{e^{-x}}{e^{-x}+e^{-2x}}$

Göründüyü kimi, bu limit $\frac{0}{0}$ şəklində qeyri-müəyyənlikdir. $\frac{f'(x)}{g'(x)}=\frac{-e^{-x}}{-e^{-x}-2e^{-2x}}=\frac{e^{-x}}{e^{-x}+2e^{-2x}}$ Olduğundan $\lim\limits_{x\to+\infty}\frac{f'(x)}{g'(x)}$ limiti də $\frac{0}{0}$ şəklində qeyri-müəyyənlik olur. Lakin verilmiş limit: $\lim\limits_{x\to+\infty}\frac{e^{-x}}{e^{-x}+e^{-2x}}=\lim\limits_{x\to+\infty}\frac{1}{1+e^{-x}}=1$Deməli, $\lim\limits_{x\to+\infty}\frac{e^{-x}}{e^{-x}+e^{-2x}}$ limitinə Lopital-Bernulli qaydalarını tətbiq etmək olmaz. Burada müxtəlif hallar üçün ($x\to a+0, x\to a-0, x\to+\infty, x\to-\infty$) də kontrmisallar qurmaq olar.

Misal 20 (a). $\lim\limits_{x\to-\infty}\frac{e^x}{e^{2x}+e^{3x}}$ limiti də $\frac{0}{0}$ şəklində qeyri-müəyyənlikdir. $\lim\limits_{x\to-\infty}\frac{(e^x)'}{(e^{2x}+e^{3x})'}=\lim\limits_{x\to-\infty}\frac{e^x}{2e^x+3e^x}$ olduğundan $\frac{e^x}{e^x+e^{3x}}$ funksiyasının $x\to-\infty$ olduqda limitinə bu halda da Lopital-Bernulli qaydalarını tətbiq etmək olmaz. Lakin $\lim\limits_{x\to-\infty}\frac{e^x}{e^{2x}+e^{3x}}=\lim\limits_{x\to-\infty}\frac{1}{e^x+e^{2x}}=\frac{1}{0}=$

∞. Yəni verilmiş limit mövcuddur. Qeyd edək ki, digər mövzuların təlimi prosesində, biliklərin sistemli şəkildə mənimsədilməsində də müvafiq kontrmisallar qurmaq imkanları genişdir.

Problemin aktuallığı. Məlum olduğu kimi Ali texniki və iqtisadiyönlü mətkəblərdə tədris olunan fənlər içərisində "Xətti cəbri və Riyazi analiz" fənninin xüsusi yeri olmaqla tədris olunan fənlərin öyrənilməsində müstəsna əhəmiyyət kəsb edir. Ona görə də təlimin səmərəliliyinin yüksəldilməsində bir çox metod və piryomlar var. Onlardan biri də təlim prosesində kontrmisallardan istifadədir. Kontrmisallardan istifadə istər xətti cəbr kursunda, istərsə də riyazi analizə dair olan materiallarda mövzulara daxil olan anlayışların tələbələr tərəfindən mənimsənilməsində rolu böyükdür. Bu digər yeni anlayışların yaranması baxımından da faydalıdır. Burada fənnin riyazi analizə dair bir çox mövzuların öyrədilməsində kontrmisallara (əksmisallara) baxılır və nümunələr əsasında möhkəmləndirilir. Bu da təlimdə xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Cari işdə təlim prosesində kontrmisallardan istifadə tələbələrin riyazi analizə dair olan bilik və bacarıqlarının formalaşdırılmasında, bir çox təkliflərdəki şərtlərin birinin ödənmədiyi, yaxud tərslərinin doğru olmadığını, şərtlərin digər şərtlərlə əvəz edildikdə təkliflərin doğru olmamasını göstərmək baxımından əvəzsiz vasitələrdən biridir. Belə misallardan düzgün və yerində istifadə edildikdə tələbələrdin digər texniki fənlərin də öyrənilməsində adekvat olaraq bu cür yanaşma baxımından yeni təlim metodu kimi, təlim nəticələrinin mənimsənilməsi prosesi faydalı sonluqla yekunlaşmış olur. Həmçinin uyğun təkliflərin isə ümumi halda isbat edilməsinə ehtiyac duyulmur. Konkret nümunələr əsasında uyğun təkliflərin doğru olub-olmadığı aydınlaşır.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Ali texniki və iqtisadyönlü məktəblərin "Xətti cəbr və Riyazi analiz" kursunda bir çox mövzuların xüsusi ilə Riyazi analiz elementlərinin təlimində kontrmisallardan istifadə bir çox məqsədlərlə əlaqədardır:

1. Təkliflərin tərsinin doğru olub-olmadığını, yaxud təklifin zəruri, yaxud kafi olmadığını ümumi halda isbat etməyə ehtiyac olmadığı ilə
2. Təlim prosesində kontrmisallardan istifadə nəinki tələbələrin məntiqi və riyazi qabiliyyətlərinin inkişafında bir vasitədir, həmin təlim prosesində yaranan yeni anlayışların tərifl ərinin yaranmasında belə demək mümkünsə bir təlim metodu kimi müstəsna rolunun olması ilə
3. Digər texniki fənlərin də öyrənilməsində yeri gəldikcə kontrsual və kontrmisallar qurmaq fənnin təlim nəticələrin mənimsənilməsində və həmçinin qiymətləndirilmə meyarlarında, o cümlədən tələbələrin gələcək fəaliyyətlərində, şəxsiyyətyönümlü təlimdə yeni nailiyyətlərin qazanılmasında müstəqil düşünmə qabiliyyətlərin inkişaf edilməsi ilə bağlı olaraq.

Təcrübələr göstərir ki, nəinki Ali texniki və iqtisadyönümlü məktəblərdə, həmçinin Ali pedaqoji məktəblərdə də texniki və dəqiq fənlərin mənimsənilməsində kontrmisallardan istifadə həm aktualdır, həm də tələbələrin müstəqil düşünmə və yaradıcılıq imkanlarının artırılmasında bir vasitə kimi geniş imkanlar açır.

Ədəbiyyat

1. Abdullayev, S.K. və b. / Riyazi analiz/ – Bakı, 2016. – 495s.
2. Məmmədov, R.H. Ali Riyaziyyat kursu I hissə. / R.H. Məmmədov. – 497s.
3. Cəbrayılov, M.S. və b. / Riyazi analiz. – Bakı, 2008. – 450s.
4. Səbzəliyev, M.M. Xətti cəbr və riyazi analiz / M.M. Səbzəliyev, İ.M. Səbzəliyeva. – Bakı, 2019. – 388 s.
5. Məmmədov, Ə.N. Riyazi analizdən praktikum / Ə.N. Məmmədov – Bakı, 2016. – 397s.
6. Məmmədov, M.Z. Xətti cəbr və riyazi analiz kursu. I cild. / M.Z. Məmmədov, R.B. Aliyev. –Bakı, 2025. – 344s
7. Гелбаум, Ф.Б. Контрпримеры в анализе / Ф.Б. Гелбаум, Дж. Олмстед. –Москва, 1967. – 252с.
8. Demidoviç, B.P. "Riyazi analizdən məsələ və misallar" (Rusçadan tərcümə). / B.P. Demidoviç. – Bakı, 2003. –544s.
9. Davidov, N.A. Riyazi analizdən məsələlər / N.A. Davidov, P.P. Korovkin, V.N. Nikolski (Rusçadan tərcümə). – Bakı, 2010. – 378 s.
10. Musayev, V.M. Riyazi analizin başlanğıcının tədrisinə dair mülahizələr / V.M. Musayev. – Bakı, 2009. – 162 s.
11. Məmmədov Ə.N. Ali pedaqoji məktəblərin "Riyazi analiz" kursunun "Ədədi sıralar" bölməsinin tədrisi prosesində kontrmisallardan istifadə imkanları. // Bakı Qızlar Universitetinin Elmi əsərləri. Cild12. №4. 2021(48) – s. 290-298
12. Məmmədov Ə.N. Riyazi analiz kursunun "Funksional ardıcıllıqlar və funksional sıralar" bölməsində kontrmisallardan istifadə metodları // Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri. 2023, №4. – s. 218-224

13. Məmmədov Ə.N. Riyazi analiz kursunda çoxdəyişənli funksiyaların şərti və mütləq ekstremumlarının öyrənilməsində kontrmisallardan istifadə // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri. 2023, № 6. – s. 240-245

Redaksiyaya daxil olub: 20.02.2026

FİZİKANIN TƏDRİSİ METODİKASI
METHODOLOGY OF TEACHING PHYSICS
МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИКИ

UOT 372.853

Севиндж Хазай гызы Джалилова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике
https://orcid.org0000-0002-4753- 2835
E-mail: sevinjjalilova@yahoo.com
https://doi.org/10.69682/arti.2026.93(2).135-140

ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ В ПРЕПОДАВАНИИ ФИЗИКИ В РАМКАХ ЗАДАЧ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ

Sevinc Xazay qızı Cəlilova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru

PEŞƏ TƏHSİLİNİN VƏZİFƏLƏRİ KONTEKSTİNDƏ FİZİKANIN TƏDRİSİNDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ

Sevinj Xazay Jalilova
associate professor of Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy,

THE USE OF ARTIFICIAL INTELLIGENCE IN TEACHING PHYSICS WITHIN THE FRAMEWORK OF VOCATIONAL EDUCATION OBJECTIVES

Аннотация. В данной статье представлены результаты исследования, целью которого стало изучение фундаментальных концепций ИИ и возможности его применения в обучении физике. Достижение цели осуществлялось посредством обобщения, анализа и систематизации академической базы знаний, представленных в научных материалах, посвященных использованию ИИ в образовании по физике. Отобранные исследования были проанализированы и обобщены, чтобы разработать согласованную структуру для понимания различных способов использования ИИ в обучении физике, таких как введение в концепцию, индивидуализация, социальное взаимодействие и оценка. Полученные результаты подчеркивают положительное влияние ИИ на улучшение концептуального понимания, обеспечение персонализированного обучения, содействие социальному взаимодействию и совершенствование методов оценки. В рамках исследования были выявлены проблемы с точки зрения технической инфраструктуры, подготовки преподавателей и конфиденциальности данных, а также сформулированы рекомендации для будущих исследований, направленных на решение выявленных проблем и содействие эффективному внедрению технологий ИИ в образование по физике. Ценность результатов исследования заключается в консолидации информации для преподавателей и исследователей, стремящихся использовать потенциал ИИ для инновационных преобразований в обучении физике.

Ключевые слова: *искусственный интеллект, физика, обучение, студенты, инновации*

Xülasə. Məqalədə fizika təlimində süni intellektin tətbiqi ilə bağlı ədəbiyyatın hərtərəfli icmalı təqdim olunur. Tədqiqatın məqsədi süni intellektin əsas konsepsiyalarını, fizika təlimində müxtəlif tətbiq sahələrini,

eləcə də onun tətbiqi ilə bağlı üstünlükləri və problemləri araşdırmaqdır. Akademik məlumat bazalarında aparılan sistemli axtarış nəticəsində fizika təlimində süni intellektin istifadəsinə dair elmi məqalələr, jurnallar, konfrans materialları və kitablar toplanmışdır. Seçilmiş tədqiqatlar təhlil edilmiş və ümumiləşdirilmişdir ki, süni intellektin fizika təlimində istifadəsinin müxtəlif yollarını anlamaq üçün uyğun bir struktur formalaşdırılsın – məsələn, konsepsiyaya giriş, fərdiləşdirmə, sosial qarşılıqlı əlaqə və qiymətləndirmə. Əldə olunan nəticələr süni intellektin konseptual anlayışı yaxşılaşdırmaq, fərdi təlimi təmin etmək, sosial qarşılıqlı əlaqəni təşviq etmək və qiymətləndirmə metodlarını təkmilləşdirmək baxımından müsbət təsirini vurğulayır. Bununla yanaşı, texniki infrastruktur, müəllimlərin hazırlanması və məlumatların məxfiliyi baxımından problemlər də aşkar edilmişdir. Məqalənin sonunda bu problemlərin həllinə və süni intellekt texnologiyalarının fizika təliminə səmərəli şəkildə tətbiqinə yönəlmiş gələcək tədqiqatlar üçün tövsiyələr verilir. Bu icmal fizika təlimində innovativ dəyişikliklərə nail olmaq üçün süni intellektin potensialından istifadə etməyə çalışan müəllimlər, tədqiqatçılar və maraqlı tərəflər üçün dəyərli məlumat təqdim edir.

Açar sözlər: *süni intellekt, fizika, təlim, tələbələr, innovasiyalar*

Abstract. This article presents the results of a study aimed at studying the fundamental concepts of AI and the possibility of its application in teaching physics. The goal was achieved through the generalization, analysis and systematization of the academic knowledge base presented in scientific materials on the use of AI in physics education. Selected studies have been analyzed and summarized to develop a coherent framework for understanding the various uses of AI in physics teaching, such as concept introduction, individualization, social interaction, and assessment. The results highlight the positive impact of AI on improving conceptual understanding, providing personalized learning, facilitating social interaction, and improving assessment methods. The value of the research results lies in consolidating information for teachers and researchers seeking to harness the potential of AI for innovative transformations in physics teaching.

Keywords: *artificial intelligence, physics, education, students, innovation*

Введение. Искусственный интеллект привлек значительное внимание в области физического образования [1]. В последние годы искусственный интеллект (далее - ИИ) превратился в инновационную технологию, способную произвести революцию в различных отраслях, включая образование. ИИ включает в себя целый ряд методов и приложений, которые позволяют машинам имитировать человеческий интеллект, извлекать уроки из данных и принимать решения на основе закономерностей и инсайтов.

В контексте образования ИИ показал себя многообещающим в плане адаптации обучения к индивидуальным потребностям студентов, предоставления персонализированной обратной связи и создания интерактивной среды обучения. Его потенциал в преобразовании традиционных методов обучения и улучшении результатов обучения студентов получил широкое признание [2].

ИИ относится к разработке компьютерных систем, способных выполнять задачи, для решения которых обычно требуется человеческий интеллект [3]. Он включает в себя различные методы, такие как машинное обучение, обработка естественного языка и экспертные системы. ИИ в образовании, который часто называют «AIEd» или «Образовательный ИИ», привлек значительное внимание в научных исследованиях и на практике. Его внедрение в образование по физике открывает уникальные возможности для решения некоторых проблем, с которыми сталкиваются традиционные методы обучения.

Используя технологии ИИ, преподаватели могут знакомить с физическими концепциями более увлекательно и интерактивно, учитывать различные стили обучения и предоставлять своевременную и персонализированную обратную связь студентам. ИИ можно разделить на различные типы, включая системы, основанные на правилах, нейронные сети, генетические алгоритмы и интеллектуальные обучающие системы [4]. Каждый тип имеет свои уникальные характеристики и возможности применения в обучении физике.

Физическое образование играет решающую роль в повышении научной грамотности и воспитании будущих ученых и инженеров. Традиционно физическое образование опиралось на традиционные методы обучения, такие как лекции и учебники, для передачи сложных концепций и теорий. Однако с

развитием технологий растет интерес к изучению инновационных подходов для улучшения опыта изучения физики и вовлечения студентов. В нескольких исследованиях изучалось применение ИИ в образовании по физике, изучалась его эффективность в улучшении результатов обучения, вовлеченности студентов и эффективности преподавания [5].

Были проведены тематические исследования для изучения внедрения инструментов и систем ИИ в учебное заведение по физике, позволяющие получить представление о практических аспектах, преимуществах и проблемах, с которыми приходится сталкиваться [6]. Недавние исследования показали положительные результаты относительно влияния ИИ на изучение физики, включая улучшение концептуального понимания, повышение мотивации студентов и улучшение навыков решения проблем [7].

Этот обзор литературы направлен на решение следующих **задач**:

1. Дать общее представление об ИИ в образовании по физике.

2. Изучить его применение в различных аспектах изучения физики.

3. Определить преимущества и проблемы, связанные с его внедрением.

Метод исследования. Целью данного исследования является систематический обзор литературы. Будет проведен всесторонний поиск для выявления соответствующих научных статей, журналов, материалов конференций и книг, связанных с применением ИИ в обучении физике. Данные будут собраны из авторитетных академических баз данных, включая IEEE Xplore, цифровую библиотеку ACM, ScienceDirect, Google Scholar и другие. Поиск будет осуществляться по таким ключевым словам, как ИИ, физическое образование, интеллектуальные системы обучения, адаптивное обучение, персонализированное обучение и другие.

Исследования, включенные в обзор литературы, должны соответствовать определенным критериям:

1) опубликованы в рецензируемых журналах или материалах конференций;

2) посвящены применению ИИ в образовании по физике;

3) опубликованы в течение последних пяти лет (или в соответствии с тематикой исследования;

4) предоставление соответствующей и существенной информации для обзора.

Собранная литература будет подвергнута систематическому анализу. Процесс анализа данных будет включать в себя организацию выбранных исследований на основе их тем, исследовательских целей, методологий и ключевых выводов. Этот подход поможет выявить закономерности, тенденции и пробелы в существующих исследованиях. Результаты отобранных исследований будут обобщены для разработки согласованной основы для понимания различных применений ИИ в образовании по физике.

Структура будет разделена на подразделы, охватывающие различные аспекты внедрения ИИ в процесс обучения физике, такие как введение в концепцию, индивидуализация, социальное взаимодействие и оценка. Обобщенные результаты и структура будут критически обсуждены в контексте целей исследования. Будут тщательно рассмотрены преимущества и проблемы, связанные с применением ИИ в обучении физике.

В ходе обсуждения будут рассмотрены потенциальные последствия и рекомендации для будущих исследований и практической реализации. В заключении будут обобщены ключевые идеи, полученные из обзора литературы. Это подтвердит преимущества и проблемы интеграции ИИ в образование по физике и подчеркнет важность дальнейших исследований и разработок в этой области. В заключение статьи будут даны конкретные рекомендации для преподавателей, исследователей и заинтересованных сторон, заинтересованных во внедрении технологий ИИ в образование по физике. Рекомендации будут основаны на выявленных пробелах и возможностях в существующей литературе.

Результат и обсуждение. Результаты обзора литературы показывают, что ИИ имеет большие перспективы в преобразовании физического образования. Применение алгоритмов и систем ИИ в образовании с каждым годом становится все более востребованным [8]. На рисунке 1 показано увели-

чение числа статей, опубликованных в Web of Science и Google Scholars по темам «Искусственный интеллект» и «Образование» с 2016 года. Обратите внимание, что большая часть статей, опубликованных с 2016-2024 годах, приходится на статьи, опубликованные в 2021-2024 годах, а именно 70% всех проиндексированных статей.



Рисунок 1. - Растущее число статей, опубликованных в разделах «Искусственный интеллект» и «Образование» в Web of Science и Google scholars за 2016-2024 годы

Системы, основанные на ИИ, могут облегчить внедрение сложных физических концепций, предоставляя интерактивное моделирование, визуализацию и объясняющие модели [9]. Эти инструменты помогают студентов глубже понять абстрактные концепции и улучшить свои навыки решения задач. ИИ обеспечивает персонализированный опыт обучения, адаптируя инструкции в соответствии с индивидуальными потребностями и способностями студентов [10].

Эти инструменты на базе ИИ позволяют студентам изучать сложные явления динамичным и интуитивно понятным способом, способствуя более глубокому пониманию и критическому мышлению. Интеллектуальные системы обучения могут предоставлять индивидуальную обратную связь, исправлять ошибки и адаптировать задачи, способствуя эффективному обучению и учитывая различные стили обучения студентов. ИИ может поддерживать совместное обучение и социальное взаимодействие, облегчая онлайн-дискуссии, групповые занятия и оценку со стороны коллег [11].

Интеллектуальные чат-боты могут оказывать помощь в режиме реального времени, способствовать содержательным дискуссиям и активному участию студентов. Системы оценки на основе ИИ предлагают автоматизированную оценку знаний и успеваемости студентов, обеспечивая немедленную обратную связь и индивидуальные рекомендации по улучшению [12]. Эти системы анализируют ответы студентов, отслеживают прогресс и выявляют трудные области, помогая преподавателям контролировать и поддерживать процесс обучения студентов.

ИИ нашел широкое применение в образовании, в том числе в обучении физике. Интеллектуальные системы обучения, адаптивные обучающие платформы и симуляции виртуальной реальности входят в число инструментов ИИ, используемых для улучшения опыта обучения студентов [13]. Интеграция ИИ в образование по физике дает ряд преимуществ, включая расширенное концептуальное понимание, индивидуальное обучение, повышенную вовлеченность и моти-

вацию, а также эффективную оценку и обратную связь [14].

Конкретизация направлений использования инструментария ИИ в педагогической практике обучения физике может быть представлена:

1) виртуальными лабораториями (например, Labster или платформой PhET Interactive Simulations), позволяющими визуализировать концепции трудные для освоения студентами в классической форме трансляции знаний;

2) адаптивными системами обучения (например, платформой Knewton и DreamBox), посредством инструментария которых достигается ндивидуализация обучения путем адаптации обучающих заданий по учебной теме согласно образовательной программе;

3) чат-ботами (например, Socratic и Woebot), созданными на основе ИИ инструментов с целью консолидации знаний и предоставлении студентам дополнительной информации в случае затруднений в освоении ими учебного материала;

4) генеративными системами, способными сгенерировать пошаговое описание процесса, т. е. создать дидактический материал для описания реалистичных задач, повышая скорость поиска и визуализацию результатов, тем самым повышая эффективность образовательного процесса.

Внедрение ИИ в образование по физике также создает такие проблемы, как необходимость в технической инфраструктуре, обучении преподавателей, обеспечении конфиденциальности и безопасности данных и решении этических вопросов [15]. Для преодоления этих проблем могут быть использованы такие стратегии, как повышение квалификации преподавателей, обеспечение надлежащей политики конфиденциальности данных, содействие сотрудничеству между преподавателями и разработчиками ИИ и решение этических проблем с помощью надлежащих руководящих принципов [16].

Заключение и рекомендации. Интеграция ИИ в образование по физике обладает значительным потенциалом для революционного изменения традиционных методов преподавания и обучения. На основе всестороннего обзора литературы в этом исследовании были рассмотрены различные области применения ИИ в образовании по физике, выделены его преимущества, проблемы и направления на будущее [17]. Результаты этого обзора показывают, что ИИ может улучшить процесс обучения физике несколькими способами [18].

Инструменты на базе ИИ, такие как интеллектуальные системы репетиторства и адаптивные обучающие платформы, позволяют осуществлять индивидуальное обучение с учетом индивидуальных потребностей студентов и стилей обучения. Такая индивидуализация способствует более глубокому концептуальному пониманию и помогает студентам преодолевать барьеры в обучении. Кроме того, способность ИИ обеспечивать обратную связь и оценку в режиме реального времени повышает эффективность оценивания студентов. Автоматизированные системы оценивания анализируют успеваемость студентов, отслеживают прогресс и выявляют трудные области, способствуя своевременному вмешательству и целенаправленной поддержке со стороны преподавателей.

Также, ИИ способствует социальному взаимодействию и совместному обучению в процессе обучения физике. Интеллектуальные чат-боты и виртуальные преподаватели поощряют дискуссии между сверстниками, создавая увлекательную и интерактивную среду обучения. Однако успешное внедрение ИИ в образование по физике также сопряжено с трудностями. Техническая инфраструктура, конфиденциальность данных и безопасность являются важнейшими факторами при внедрении технологий ИИ в образовательных учреждениях.

Тщательный учет технических, этических аспектов и аспектов конфиденциальности имеет решающее значение для обеспечения успешной и ответственной интеграции ИИ в образование по физике. Поскольку область ИИ продолжает развиваться, необходимы дальнейшие исследования и сотрудничество, чтобы полностью раскрыть потенциал ИИ в преобразовании физического образования на благо студентов и общества в целом.

Литература

1. Søndergaard, H., Mulder, R.A. Collaborative learning through formative peer review: Pedagogy, programs and potential // Computer Science Education 22. –2012. P. 343–367.
2. Alam, A. (2022). A Comparative Analysis of Intelligent Classifiers for Seizure Detection Using EEG Signals. Advanced Comp. and Intelligent Tech.: Proceedings of ICACIT. P. 395.
3. Ильина, Л. Д. Искусственный интеллект в преподавании физики / Л. Д. Ильина, В. Д. Журавлева // Траектории взаимодействия в развитии цифровых навыков: Материалы всероссийской очной научно-практической конференции, Ульяновск, 23 декабря 2023 года. – Ульяновск: Издательско-полиграфический центр «Гарт» ИП Качалин А.В., –2024. – С. 53-55.
4. Antoniadi, A. M., Du, Y., Guendouz, Y., Wei, L., Mazo, C., Becker, B. A., Mooney, C. (2021) Current Challenges and Future Opportunities for XAI in Machine Learning-Based Clinical Decision Support Systems: A Systematic Review. Applied Sciences 11(11). P. 5.
5. Popenici, S. A., Kerr, S. (2017) Exploring the impact of artificial intelligence on teaching and learning in higher education. Research and Practice in Technology Enhanced Learning 12(1). P. 1-13.
6. Тохиржонова, М. Р. Преподавание физики с использованием искусственного интеллекта: инновации в преподавании и обучении / М. Р. Тохиржонова // Мировая наука. – 2023. – № 7(76). – С. 41-44.
7. Щетинин, А. Н. О перспективах развития физикоматематического образования / А. Н. Щетинин, М. В. Потапова // Мир науки, культуры, образования. – 2024. – № 3(106). – С. 117-121.
8. Kumar, U. A., Mahendran, G., Gobhinath, S. (2022). A review on artificial intelligence-based E-learning system. Pervasive Computing and Social Networking. P. 659-671.
9. Kalogiannakis, M. (2021). Gamification in Science Education. A Systematic Review of the Literature. Education Sciences. 11(1). P. 22.
10. Тестов, В. А. Трансдисциплинарная роль физико-математических дисциплин в современном естественнонаучном и инженерном образовании / В. А. Тестов, Е. А. Перминов // Образование и наука. – 2023. – Т. 25, № 7. – С. 14-43.
11. Искусственный интеллект и обучение физике: как машинное обучение и анализ данных могут улучшить процесс обучения / П. В. Абакумов, Л. В. Снегирева, Е. И. Горюшкин, Е. В. Фетисова // Цифровая трансформация образования: современное состояние и перспективы: Сборник научных трудов по материалам II Международной научно-практической конференции, Курск, 17–18 ноября 2023 года. – Курск: Курский государственный медицинский университет, –2024. – С. 13-17.
12. Gunawan, G., Sahidu, H., Harjono, A., Suranti, N. M. Y. (2017). The Effect of Project Based Learning with Virtual Media Assistance on Student's Creativity in Physics. Jurnal Cakrawala Pendidikan 36(2). P. 167-179.
13. Андриенко, Е. В. Педагогический профессионализм учителей физики: современные требования и подходы / Е. В. Андриенко // Педагогический профессионализм учителей физики в цифровой образовательной среде. – Новосибирск: Новосибирский государственный педагогический университет, –2024. – С. 7-56.
14. Иванова, Д. С. Практический опыт цифровой трансформации образования как реализация современных тенденций педагогики / Д. С. Иванова // Традиции и новации в профессиональной подготовке и деятельности педагога: Сборник научных трудов V Международной научно-практической конференции, посвященной Году педагога и наставника и 200-летию со дня рождения К.Д. Ушинского, Тверь, 23–25 марта 2023 года / Под редакцией И.Д. Лельчицкого. Том Выпуск 21. – Тверь: Тверской государственный университет, –2023. – С. 64-69.
15. Leo, S. Lo. (2023). The clear path: A framework for enhancing information literacy through prompt engineering. The Journal of Academic Librarianship 49.4. P. 102-120.
16. Grant, C. (2023). Examining science education in chatgpt: An exploratory study of generative artificial intelligence. Journal of Science Education and Technology 32.3. P. 444–452.
17. Louie, G. (2023). Prompt Engineering with ChatGPT: A Guide for Academic Writers. Annals of Biomedical Engineering. P. 1–5.
18. Takeshi, K. (2022). Large Language Models are Zero-Shot Reasoners. In: Advances in Neural Information Processing Systems. Ed. by S. Koyejo et al. Vol. 35. Curran Associates, Inc. P. 22199–22213.

Redaksiyaya daxil olub: 24.02.2026

UOT 372.878

Bilal Abdullah oğlu Erdoğan
Naxçıvan Dövlət Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-1799-7690
E-mail: bilalerdogan_21@hotmail.com
https://doi.org/10.69682/arti.2026.93(2).141-146

ORTAQ TÜRK MÜTƏFƏKKİRLƏRİNİN MUSİQİ VƏ MUSİQİ TƏRBİYƏSİ HAQQINDA FİKİRLƏRİNDƏN İSTİFADƏ

Bilal Erdoğan Abdullah
doctorial student in the program of doctor of philosophy
of Nakhchivan State University

USING THE IDEAS OF COMMON TURKISH THINKERS ABOUT MUSIC AND MUSICAL EDUCATION

Билал Абдуллах оглы Эрдоган
диссертант по программе доктора философии Нахчыванского Государственного Университета

ИСПОЛЬЗОВАНИЕ ВЗГЛЯДОВ ОБЩИХ ТЮРКСКИХ МЫСЛИТЕЛЕЙ О МУЗЫКЕ И МУЗЫКАЛЬНОМ ВОСПИТАНИИ

Xülasə. Erkən orta əsrlərin ortaq türk mədəniyyətinə nəzər salmış olsaq, bu mədəniyyətin bütün sahələrdə dünya mədəniyyətinə çox böyük töhfələr verdiyini görərik. Təəssüf ki, qədim Yunan, qədim Misir, Çin, Hindistan mədəniyyəti haqqında çox danışılsa da, yazılsa da qədim və orta əsrlərin türk mədəniyyətinin öyrənilməsinə və təbliğinə kifayət qədər diqqət göstərilməmişdir. Ortaq türk mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan zəngin mədəniyyətə malik olan bir ölkədir. Azərbaycan xalqının zəngin musiqi mədəniyyətinin tarixi də çox qədim dövrlərdən xəbər verir. Bu baxımdan Gəmiqaya və Qobustan qayaüstü rəsmləri, eləcə də "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ən qədim musiqi mədəniyyəti haqqında dolğun məlumat verir. Erkən orta əsrlər dövrünün ortaq türk alimlərinin – xüsusilə Farabi, İbni Sina Nizami Gəncəvi, Səfiəddin Urməvi və başqalarının musiqi nəzəriyyəsi haqqında dəyərli fikirləri olmuşdur ki, məqaləmizdə bu müdrik şəxsiyyətlərin musiqi və musiqi tərbiyəsi haqqında fikirləri də öyrənilmişdir.
Açar sözlər: *erkən orta əsrlər, ortaq türk mədəniyyəti, Kitabi Dədə Qorqud, Farabi, İbn Sina, Nizami, Səfiəddin Urməvi, Əbdülqadir Marağai*

Abstract. If we look at the general Turkic culture of the early Middle Ages, we will see that this culture has made a great contribution to world culture in all areas. Unfortunately, although a lot has been said and written about the culture of Ancient Greece, Ancient Egypt, China, India, insufficient attention is paid to the study and promotion of the Turkic culture of the ancient and Middle Ages. The history of the rich musical culture of the Azerbaijani people dates back to ancient times. In this regard, the rock paintings of Gamigay and Gobustan, as well as the epos "Kitabi-Dede Gorgud" provide complete information about the ancient musical culture of our people, including the pan-Turkic people. The general Turkic scholars of the early Middle Ages, especially Farabi, Ibni Sina, Nizami Ganjavi, Safieddin Urmavi and others, had valuable ideas about music theory, and our article also studied the ideas of these wise personalities about music and musical education. Farabi is the first music scholar who systematically wrote a book about music theory in Turkish music history.
Key words: *Early Middle Ages, common Turkish culture, Kitabi Dada Gorgud, Farabi, Ibn Sina, Nizami, Safieddin Urmavi, Abdulgadir Maragai*

Аннотация. При обращении к общей тюркской культуре раннего Средневековья, можно увидеть, что она внесла огромный вклад в мировую культуру во всех её областях. К сожалению, несмотря на то что о культурах Древней Греции, Древнего Египта, Китая и Индии много говорят и пишут, изучению и популяризации древней и средневековой тюркской культуры уделено недостаточно внимания. Азербайджан, являясь составной частью общей тюркской культуры, – страна с богатым культурным наследием. История богатой музыкальной культуры азербайджанского народа также относится к глубокой древности. В этом отношении каменные рисунки Гобустана и Гемикая, а также эпос «Китаби-Деде Горгуд» дают содержательные сведения о древнейшей музыкальной культуре нашего народа. Учёные раннего Средневековья из числа общих тюркских мыслителей – в особенности Фараби, Ибн Сина, Низами Гянджеви, Сафиаддин Урмави и другие – оставили ценные идеи о теории музыки. В нашей статье также изучены взгляды этих мудрецов на музыку и музыкальное воспитание.

Ключевые слова: *раннее средневековье, общетюркская культура, Китаби-Деде Горгуд, Фараби, Ибн Сина, Низами, Сафиеддин Урмави, Абдулгадир Марагай*

Ortaq türk mədəniyyətinin tərkib hissəsi olan Azərbaycan zəngin mədəniyyətə malik olan bir ölkədir. Azərbaycan xalqının zəngin musiqi mədəniyyətinin tarixi də çox-çox qədim dövrlərdən xəbər verir. Bu baxımdan Gəmiqaya və Qobustan qayaüstü rəsmləri, eləcə də "Kitabi-Dədə Qorqud" dastanı xalqımızın ən qədim musiqi mədəniyyəti haqqında dolğun məlumat verir (1). Qobustan qayaüstü rəsmlərdə on bir şəxsin əl-ələ tutub yallı getməsi, əs qədim musiqi alətinin – daş qavalın burada mövcud olması insanların yüksək mədəniyyətindən, yüksək bədii zövqündən xəbər verir.

Uzun illər boyu xalqımızın ulu abidəsi olan "Kitabi Dədə Qorqud" dastanı, tariximizi, ədəbiyyatımızı, folklorumuzu, mədəniyyətimizi, incəsənətimizi və bunun kimi bir bir çox elementləri özündə cəmləşdirən ilk ana kitabımızdır. Bu yazılı abidəmizdə Vətənin dağları, çölləri, bulaqları, al-əlvan çəmənləri, əzəmətli qalaları, abidələri, habelə, xalqın məişət tərzi, yaşayışı, adət ənənələri, musiqisi haqqında söhbətlər gedir.

Ortaq türk xalqlarının, xüsusilə Azərbaycan xalqının ana kitabı sayılan "Kitabi-Dədə Qorqud" dastanlarının insanlıq tarixini və xalqın mədəni həyatını öyrənmək baxımından çox böyükdür. Hələ X-XI əsrlər yazıya alınmış bu ulu şifahi və yazılı mədəniyyət abidəsinin yaranmasını bir çox mütəxəssislər haqlı olaraq daha qədim dövrlərə aid edirlər. Ən azı 1300 il bundan öncə meydana gəlmiş Dədə Qorqud dastanları qədim oğuzların həyat tərzini, adət və ənənələrini, etnoqrafiya, psixologiya, dil, ədəbiyyat, incəsənət və ümumiyyətlə, bədii təfəkkür xüsusiyyətlərini öyrənmək baxımından əvəzsiz bir qaynaq hesab edilir.

"Kitabi-Dədə Qorqud" boylarında o zamanlar musiqi sənətinin inkişaf səviyyəsi, ictimai vəzifələri və təsir qüvvəsi haqqında dəyərli məlumatlar verilir. Bu ulu dastanda qədim çalğı alətləri, musiqi ilə bağlı maraqlı ifadə və deyimlər öz əksini tapmışdır.

"Kitabi Dədə Qorqud" ortaq türk xalqlarının möhtəşəm tarixi mədəniyyət abidəsi kimi bir çox elm sahələrini daha çox məşğul etsə də /dilçilik, ədəbiyyatşünaslıq, mifologiya, etnoqrafiya, fəlsəfə, pedaqogika, psixologiya və s./. musiqi sahəsi az öyrənilmişdir.

Qorqudşünas alim Orhan Şaiq Gökyayın "Dede Korkut Hikâyeleri" adlı əsərində musiqi çalğı alətlərinin adları qopuz, davul, zurna, nağara və borulardan bəhs edilir [7, s. 18]. Dastanda Qopuz musiqi aləti haqqında daha geniş yazılır və bu alət haqqında geniş təsəvvür yaranır. Dastanda türklərin qədim qopuz aləti iki növdə göstərilsə də (mizrablı və kamanlı), üç simdən ibarət olduğu bildirilir və aşıq sazının sələfi kimi nəzərdən keçirilir. Digər alətlərdən kuus (və ya kus) haqqında da məlumat verilir və üzərinə qurd dərisi çəkilmiş, hərbi-siqnal təyinatlı və böyük ölçülü membranlı zərb aləti kimi açıqlanır. Dastanın qəhrəmanları qopuz çalır, soy soylayır "öz qüdrətini, doğma xalqını, təbiəti, sevgilisini tərifləyir, düşmənləri isə lağa qoyur" [1, s.79]. Elin müdrik ağsaqqalı qoşduğu nəğmələrin, qiymətli kəlamların geniş yayılmasını və gələcək nəsillərə ötürülməsini ozanlara həvalə edir.

"Kitabi Dədə Qorqud" dastanında təsvir edilən qəhrəmanlıq səhnələri ilə əlaqədar hərbi musiqi haqqında da müəyyən məlumatlar verilir. Bu növ musiqi igidlərin döyüş əhval-ruhiyyəsini qaldırmaq, onların qələbə əzmini gücləndirmək məqsədi daşıyır və bir qayda olaraq, ağır savaşlardan öncə Tanriya dua etməklə bərabər icra olunur. Hərbi musiqinin ifasında çox zaman

nəfəslə çalınan boru, zərb alətlərindən davul, nağara, bəzən də kus musiqi alətlərindən istifadə edilir. Əlbəttə, musiqi mədəniyyəti tarixindən bildiyimiz kimi, həmin zərb alətlərinin başqa vəzifələr də daşıya bilməsi istisna edilmir. Məsələn, Bəybura oğlu Bamsı bəyin boyunda zurnaçılarla yanaşı nağaraçıların toyda iştirakı qeyd olunmuşdur. Davul, kus, boru alətləri isə dastanda istisnasız olaraq ölüm-dirim savaşlarından əvvəl istifadə olunmuşdur. Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boyda oxuyuruq: "Gumbur-gumbur davullar çalındı ol gün/ Burması altun tunc borular çalındı ol gün" [1, s. 81].

Dastanın mətnində davul və nağaranın tembr səslənməsini təyin edən "gumbur-gumbur" (başqa bir yerdə isə "guppur-guppur") sözləri də diqqəti çəkir. Bu deyimlər, şübhəsiz, qorxunc və uğultulu zərbləri əks etdirən "gumb" və "gup" kimi təqlidi sözlərdən törəmişdir. Onlara əlavə edilən "ur" fonemləri də əhəmiyyətsiz deyil və həmin alətlərin guruldamasını andırır, hətta vurulan zərbələrin ritmik ifasında titrəyişli tremolo çalğısından istifadə olunduğunu xəyalımızda canlandırır. "Ur" "vur" kəlməsini yaratmışdır.

Erkən orta əsrlər dövrnün ortaq türk alimlərinin – xüsusilə Farabi, İbni Sina Nizami Gəncəvi, Səfiəddin Urməvi və başqalarının musiqi nəzəriyyəsi haqqında dəyərli fikirləri olmuşdur.

Əbu Nəsr Farabi (870-950) X əsrdə yaşamış böyük filosof, riyaziyyatçı, ensiklopedist və musiqişünas olmuşdur. O türk musiqi tarixində ilk dəfə olaraq dəyərli əsərlər yazmış, dünya elm aləminə musiqi nəzəriyyəsi və musiqi alətləri haqqında böyük töhfələr vermişdir.

Tarixə "Muəllimi sani" (İkinci müəllim) ismi ile daxil olmuş Farabi musiqi sahəsində böyük xidmətlər göstərmişdir. O ilk dəfə olaraq səs dalğalarını kağıza köçürərək musiqi notlarının əsasını yaratmışdır. Özü musiqi alətləri icad etmiş və musiqi alətləri haqqında- özəlliklə, Ud, Saz, Tar, Dü tar, Mizmar, Tenbur və başqa musiqi alətləri haqqında xüsusilə Qərb aləminə dəyərli məlumatlar vermişdir. O bu gün Azərbaycanda çalınan milli musiqi aləti olan tarı icad etmişdir. Əsərləri uzun illər Avropa, Şərq və Qərb universitetlərində öyrənilmişdir [4, s.28].

Farabi musiqi sahəsində çox böyük şöhrət qazanmış, musiqi elminin inkişafında böyük xidmətləri və töhfələri olmuşdur. Musiqinin elmi cəhətdən təsnifində onun riyaziyyatla sıx bağlı olduğunu və riyaziyyatın bir qolu olduğunu bildirmişdir. Farabi bu sahədə elmi fəaliyyətini davam etdirmiş və musiqiyə dair bir çox müstəqil əsərlər yazmışdır. Bunlar, "El medhel ile sanaa el musiki"', " Kitab fi ihsa-ul ika va-l ikaat", "Sanaate fi-l musiki"' ve "El musiki-l kebir"' kimi şah eserler yaratmışıdr [9].

Farabi səsin fiziki və psixoloji təsirini açıqlamış, keçmiş musiqi alətləri olan ud, Xorasan tənburu, Bağdat tənburu, Mizmar ve Rubab kimi musiqi alətlərinin özəlliklərini təhlil etmişdir. Farabinin əsərlərində musiqi terminləri ilə bərabər musiqi haqqında özünün nəzəri düşüncələri böyük əhəmiyyət kəsb etmişdir.

Farabi'nin Ud çalınanda böyük məharət sahibi olduğuna bazı kayıtlarda bir olay anlatılarak rastlanmaktadır. Aynı olayın bəzi mənbələrdə 17ki kayıtlanda 'çalgı' adı zikredilmeden olay anlatılmaktadır. Bu olay, 30 yıl önce Prof. Ahmet Ateş'in çevirisi 18 ilə yayınlanmış olan "İlirnlerin Sayı mı" adlı əsərdə eynilə belə anlatılmaktadır: "Farabi bir gün tam bir Türk kıyafetinde və özünü tanıtmadan es-Sahib'in bir toplantısına qoşulurmuş. Es-Sahib'in məclisində iştirak edənlər, onu tanımayaraq, onunla zarafat etmişler. Bir müddət sonra hər kəs bir az içki içib sərxoş olarkən, Farabi bir çalğı aləti ilə hər kəsi uyudacaq bir parça çalmış; toplantıda iştirak edənlər, ölü kimi yuxuya getmiş; Farabi çalğının müşayiəti ilə "Farabi, yanınıza gəldi, onu ələ saldınız, o da sizi yuxuya verdi, sonra çıxıb getdi" diyə yazıb oradan uzaklaşmışdır.

Bir müddət sonra, es-Sfihib və dəvətilər oyanınca, həmin şəxsin kim olduğu bilmədiklərindən təəccübdə qalmış, onunla bir daha görüşəcəklərinə ümid bəsləmişlər. Başqa bir çalğıçı Farabi'nin üzərinə yazı yazdığı çalğını alınca, yazını görüb es-Sahib'e göstərmiş; es-Sfihib tanıya bilmədikləri ziyarətçinin Farabi olduğunu anlayıb, ona yapılan muamələdən son dərəcə mütəəssir olmuş və onun ardınca adamlar göndərsə də, Fərabi geri dönməmiş, bulamamış ömrü boyunca bu hadisəyə təəssüf etmişdir.

Əbu Əli İbn Sinanın elmlərin təsnifatında musiqîyə xüsusi yer ayırdığı, musiqinin təməl məsələlərinə münasibəti və onun musiqî anlayışında Farabinin təsiri özünü göstərmişdir. İbn Sina özündən əvvəlki musiqi bilicilərindən öyrənmiş və onların əsərlərindən istifadə etmiş, fikir üstadı Farabinin mûsiqi ilə bağlı düşüncələrini yenidən ələ alaraq incələmişdir. İbni Sina

Farabidən çox yararlanmış və bu xüsusda musiqiyə riyazi elmlər arasında xüsusi yer verdiyini də aydın görmək olur. O demişdir – "Mən Aristoteli 40 dəfə oxudum, heç nə anlamadım, amma, Farabini bir dəfə oxudum və hər şeyi anladım, "Şəfa" və "Tibb Qanunları" kitabını yazdım (3, s.189) .

Daha sonralar İbn Sina (980-1037), böyük Farabiyə aid elmi bilikləri araşdırmışdır. İbni Sinanın əsərlərində qələmə aldığı səs sisteminin Azərbaycan, Fars, Ərəb, Özbək, Türkmən musiqisinə daha uyğun olduğu bilinməkdədir.

İbn Sina "Şəfa" kitabında musiqi haqqında düşüncələrini açıqlamış və "Cevâmi'u İlmi'l-Mûsika" adlı bir bölüm ayırmışdır. Bu bölümdə musiqinin mahiyyətini, not bilgiləri, aralıqlar, musiqi növləri, intiqal, ritm növləri, bəstəkarlıq, musiqi alətləri və xüsusilə musiqinin insan ruhuna qida verdiyini və bir çox xəstəliklərin müalicəsində musiqinin təsiri haqqında dəyərli məlumatlar vermiş, fikirlər söyləmişdir.

İbn Sina musiqi haqqında daha geniş məlumat verməsi üçün məşhur Yunan alimi Oklidin kitablarına baxılmasının vacibliyini də qeyd etmişdir.

İbn Sina musiqi ilə xəstələri müalicəetmə üsullarını daha da təkmilləşdirmişdir.

Musiqi səs sisteminin təkmilləşdirilməsi isə heç şübhəsiz Səfiəddin Urməviyə (1216-1294) aiddir. O səkizlik oktavaları on yedi səs aralığına bölərək əldə etdiyi səs sistemini daha da təkmilləşdirmiş və pərdələri əbcəd sisteminə görə hərflərlə ifadə etmişdir. Səfiəddin Urməvi, Türk xalqının musiqi sənətçisi olduğu kimi, həm də xalqın ozan bir sənətkarı kimi musiqi nəzəriyyəsini yazarkən o dövrün bir çox xalq musiqi sazları içində uda daha çox üstünlük vermişdir. Urməvi həmçinin Ərəb musiqisi, İran musiqisi, Kürd musiqisi və digər musiqilər haqqında da dəyərli fikirlər söyləmiş, musiqi tarixində xüsusi yer almışdır. Urməvi həm də bir məşhur xəttat olmuşdur.

Hələ XIII əsrdə Səfiəddin Urməvi, sonralar isə onun davamçıları xüsusilə XIV əsrdə Əbdülqadir Marağayi (1353-1435) olmuşdur. Əbdülqədir hələ dörd yaşında olarkən Qurani Kətimi əzbərləmiş, on yaşında musiqi elminin əsaslarını mənimsəmiş, habelə qrammatika, ritorika və üslubiyyat elmlərini öyrənmiş və atası ilə birlikdə alim və şeyxlərin ədəbi, musiqi məclislərinə dəvət edilmişdir. O, məclislərdə Quran ayələrini avazla oxumuş və mürəkkəb musiqi əsərləri ifa etmişdir.

Marağayi Azərbaycan musiqisinin nəzəri məsələlərini geniş araşdırmış, musiqimizin səs sistemi, ladları, musiqi alətləri haqqında dəyərli əsərlər yazmışdır. Marağayi Farabini, İbn Sinanı, Səfiəddin Urməvini, Qütbəddin Şirazini oxumuş onların əsərlərindən faydalanmışdır. Onun musiqi nəzəriyyəsinə dair yazdığı əsərlər Şərqin və Qərbin böyük musiqi tədqiqatçıları və musiqişünaslarının marağına səbəb olmuş və bu əsərlər dünyanın bir sıra dillərinə tərcümə edilmişdir [2, s.42]

Əbdülaqadir Marağayi hələ 19 yaşında olarkən sarayda musiqi üzrə təlimçi vəzifəsini daşımış, musiqi nəzəriyyəsinə dair dəyərli fikirlər söyləmiş və bir çox musiqi bəstələmişdir.

Əbdülqadir Marağayi Səmərqənddə olarkən musiqi əsərləri və musiqişünaslıq risalələri yazır. Onun "Kənz əl-əlhan" yəni - "Melodiyalar xəzinəsi" risaləsindəki melodiyalar Urməvinin hərfi-ədədi sistemi ilə verilmişdi. Burada hərflər səslərin yüksəkliyini, rəqəmlər uzunluğunu göstərir, ladın və vəznin adı isə melodiyanın ritm və q09uruluşunu bildirirdi. İngilis musiqişünası C. Fermer bu risaləni təhlil edərək, yazmışıdr ki, Marağayinin yaratdığı melodiyalar türklər arasında "Giyar", yaxud da "Kiyar"adı ilə yaşamaqdadır.

Marağayi "Came əl-əlhan" ("Melodiyalar məcmusu") adlı musiqi nəzəriyyəsi əsəri 1405 -ci ildə yazılmağa başlamış və 1413-cü ildə tamamlanmışdır. Daha sonra o, "Məqasid əl-əlhan" ("Melodiyaların məqsədi"), "Lahiyyə" ("Musiqi"), "Şərh əl-ədvar" ("Dövrələrə şərhlər") və "Fəvaid-i əşərə" ("On fayda") adlı əsərlərini qələmə almışdır. Onun sonuncu əsərləri yüksək mürəkkəblik dərəcəsi ilə fərqlənmiş, "Came əl-əlhan"da ilk dəfə olaraq, fars musiqisinin geniş not yazısını da vermişdir. Marağayinin əsərlərində muğam nəzəriyyəsinə və o dövrün şifahi musiqi ənənəsinin digər janr və formalarına da geniş yer ayırdığı məlum olmuşdur. O Muğamlar haqqında belə yazırdı: "Muğamın səsləri səslənmənin gözəlliyi və incəliyi prinsipinə əsaslanır ki, bunların da sayı ya səkkizə, ya da ona çatır. Marağayi öz musiqi risalələrininin böyük bir hissəsini fars dilində, bir hissəsini də Azərbaycan türkcəsində yazmışdır. Marağayi türk xalqlarının musiqisinə, xüsusilə aşıq musiqisinə böyük diqqət yetirmişdir. O öz əsərlərin-

də doqquz əsas türk ladını və bütün şərq xalqları üçün ümumi olmaqla türk musiqisində daha çox işlənən ladları müəyyənləşdirib ayırmışdır (Üşşaq, Nəva, Busalik, Nehoft, Bayatı-Novruz). Marağayi öz əsərlərində Simai alətlərdən kamança, hicaq, ney, tənbur, rübab, rudhani və s., nəfəs alətlərindən ağ ney, qara ney, balaban, zurna, burğu və başqa musiqi alətləri haqqında əsərlərində dəyərli məlumatlar vermişdir.

XII əsrdə yaşamış dahi Azərbaycan şairi Nizami Gəncəvinin poeziya irsi Azərbaycan-türk musiqi mədəniyyətinin ilham mənbəyi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021- ci ili "Nizami Gəncəvi ili" elan etməsi elm, sənət sahəsində çalışan insanları daha da ruhlandırmışdır. Ortaq türk mədəniyyətinin ulu şairi Nizami Gəncəvi yaratdığı "Xəmsə"si ilə dünya şöhrəti qazanmışdır. Burada toplanan poemalar insanları mənəvi kamilliyə, əxlaqi saflığa, etik-estetik mədəniyyətə, musiqi mədəniyyətinə və musiqi zövqünə səsləmişdir.

Nizami poemaları müəyyən mənada həm də XII yüzilin, şairin yaşadığı dövrün ensiklopediyasıdır. O dövrün düşüncə tərzi, ictimai-siyasi mühiti, ədəbi mühiti, incəsənəti, iqtisadi həyatı ilə bağlı məlumatlar əldə etmək üçün "Xəmsə" ən dəyərli mənbə sayıla bilər.

Böyük mütəfəkkirin əsərləri ilə yaxından tanış olduqca belə qənaətə gəlmək olur ki, həqiqi incəsənət-poeziya, musiqi, təsviri sənət həyatı, həqiqəti əks etdirir, insana güc verir, onun ruhunu zənginləşdirir.

Nizami Gəncəvi əsərlərində xalqımızın qədim musiqi mədəniyyətinin tarixindən, onun inkişafından, musiqi alətlərindən bəhs etməklə bərabər, musiqinin nəinki insanlara, hətta heyvanlara təsir gücünü bədii misralarla daha aydın şəkildə şərh etmişdir. Onun əsərlərində mizrabla, kamanla, nəfəslə çalınan, habelə zərb alətlərinin ən qədim nümunələrindən söhbət açılır. Ud, rud, rübab, saz, çəng, qanun, kamança, ney, musiqar, şeypur, kərənay, nəfir, şahnəfir, kus, təbil, doxul, dəf, dairə, zəng, zindan, nağara və digər musiqi alətlərini yaradan və yüksək ifaçılıq məharəti göstərən sənətkarlardan, onların ifa etdiyi havaların estetik təsirindən bəhs edən misralar, poetik ümumiləşdirmələr zövq oxşayır.

Nizaminin "İsgəndərnamə" poeması incəsənətin estetikasını, estetik təsirini açıb göstərməkdə çox qüdrətli didaktik vasitədir, – desək, daha doğru, daha əhatəli olar. Poemanın "İqbalnamə" bölməsinin "Əflatunun çalğı aləti qayırması" hissəsində misralar müğənniyə, musiqişünasa bir müraciətlə başlayır:

Müğənni, ucalsın o incə səsin,
Qızdırsın qoy bizi odlu nəfəsin.
Qızışsın işlərim, gəl, dadıma çat,
Kömək ol, bazarım olmasın kasad!

Daha sonra Nizami musiqi alətinə bir sehrli qüvvə kimi baxır, onu gözəl təsvir edir. Musiqi alətini hikmət xəzinəsi adlandırır, aləti hazırlayan səsləndirən hər elmdən və hər alimdən üstün hesab edilir.

Hikmət xəzinəsi məndədir bütün,
Mən oldum hikmətdə hamıdan üstün.

Nizami bu hikmət xəzinəsini yaradan ustadın Əflatun un timsalında tərənnüm edir.

Hamıdan biliyi artıqdı onun.
Nə qədər vardısa orada alim,
Hamıya olmuşdu o ilk müəllim.
Əflatun onlardan üz döndərərək
Yox oldu saraydan Ənqa quşutək.
Gecəli-gündüzlü düşündü ustad,
Gizlində o, bir saz elədi icad.

Nizami Gəncəvinin poeziyasına görkəmli Azərbaycan bəstəkarları müraciət etmişlər: Əfrasiyab Bədəlbəylinin "Nizami", Niyazinin "Xosrov və Şirin" operaları, Soltan Hacıbəyovun uşaqlar üçün "İskəndər və çoban" operası, Fikrət Əmirovun "Gülüm" romans – qəzeli, "Nizami" simfoniyası, Nizami baleti, Qara Qarayevin "Payız" lirik xoru, "Leyli və Məcnun" simfonik poeması, "Yeddi gözəl" baleti və digər əsərlər yazılmışdır [5, s. 121].

Nizami Gəncəvinin sözlərinə Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəylinin 1941 -ci ildə yaratdığı "Sənsiz" və "Sevgili canan" romansları ise musiqi tarixində ilk Romans-qəzəl janrının yaranmasının əsasını qoymuşdur. Səs və fortepiano üçün yazılmış bu əsərlərdə romansın əsas xüsusiyyətləri, qəzəlin lirik məzmunu, muğamın lirikası və məntiq bir vəhdət halında birləşmişdir [5].

Dahi sənətkarın yaradıcılığına böyük qiymət verən Ulu öndər Heydər Əliyev 1995-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəyovun anadan olduğu günü – 18 sentyabr "Milli Musiqi Günü" kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır. Sərəncamda: "Bizim gözəl incəsənətimiz, mədəniyyətimiz, bənzərsiz xalq musiqimiz və ondan bəhrələnən, onun əsasında yaranan

müasir, peşəkar musiqimiz var. Zənnimcə, peşəkar musiqimiz həm görkəmli bəstəkarlarımızın, həm də mahir ifaçılarımızın ən böyük nailiyyətidir" – yazılır. Həmin tarixdən etibarən hər il sentyabrın 18-i Azərbaycanda "Milli Musiqi Günü" (Üzeyir günü) kimi qeyd olunur.

Problemin aktuallığı. Mövzu çox aktual və əhəmiyyətlidir. Ortaq Türk mütəfəkkirlərinin musiqi və musiqi tərbiyəsi haqqında fikirləri bu gün də xüsusi əhəmiyyət kəsb edir.

Məqsəd. Məqalənin məqsədi ortaq türk mütəfəkkirlərinin fikirlərini müasir pedaqoq və təhsil işçilərinə çatdırmaqdır.

Problemin elmi yeniliyi. Məqalədə ilk dəfə olaraq ortaq türk mütəfəkkirlərinin fikirlərindən istifadə edilmişdir.

Problemin praktik əhəmiyyəti. Məqalədən təhsil işçiləri, pedaqoqlar və musiqi sahasində çalışanlar istifadə edib faydalana bilər.

Ədəbiyyat

1. Kitabi Dədə Qorqud. –Bakı: Yazıçı, –1988.
2. Murat Bardakçı. Maragalı Abdülkadir. –İstanbul: Pan Yayıncılık, –1986.
3. Hüseynzadə, R.L. Erkən orta əsrlərdə Azərbaycanda məktəb və pedaqoji fikir / R.L Hüseynzadə. – Bakı: Elm, –2007. –278 s.
4. Farabi. Mədinətül-Fazila (çev.Nafiz Danişman). –İstanbul: Maarif, basınevi, –1956, –187 s.
5. Hacıbəyov, Ü. Seçilmiş əsərləri / Ü. Hacıbəyov –Bakı: Yazıçı, –1985. –653 s.
6. Nizami Gəncəvi. İskəndərnamə. –Bakı: Yazıçı, –1982.
7. Orxan Şaik Gökyay. Dede Korkud hikayeleri. –İstanbul: Kabalcı Yayınevi, –2006. – 340 s.
8. Öztürk, F. Yeşilbursa C. The Story of the Ideal Citizen in Turkey: A Narrative Inquiry on the Perspectives of Prospective Social Studies Teachers // - Türkiyə: Education and Science, 2021, 46(207), - p. 285-314. https://educationandscience.ted.org.tr/article/view/1990
9. Savuran, Yiğit. Zühal Çubukçu. Validating Tests of Turkish L2 Receptive Skills: An Argument-Based Validation Study through Standard Setting// - Türkiyə: Education and Science 2024, 49(220), - p. 239-257. https://educationandscience.ted.org.tr/article/view/2158

Redaksiyaya daxil olub: 25.12.2025

UOT 371

Sevil Şivəxan qızı Bəhrəmova
Bakı Avrasiya Universitetinin
Ümumi fənlər kafedrasının müdiri,
tarix üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0002-4886-0101
E-mail: sevil_behremova@mail.ru
https://doi.org/10.69682/arti.2026.93(2).147-154

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN VI SİNİFLƏRİNDƏ İBTİDAİ İCMA VƏ QULDARLIQ QURULUŞU DÖVRÜNƏ AİD TƏLİM MATERİALLARININ TƏDRİSİNDƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASI VƏ İNTEQRATİVLİKDƏN İSTİFADƏ

Sevil Shivakhan Bahramova
head of the department of General Studies at
Baku Eurasia University
doctor of philosophy in history, associate professor

IMPLEMENTATION OF CONTENT STANDARDS AND THE USE OF INTEGRATIVE APPROACHES IN TEACHING MATERIALS ABOUT THE PRIMITIVE COMMUNAL AND SLAVE-OWNING SYSTEMS IN THE 6TH GRADES OF GENERAL EDUCATION SCHOOLS

Севиль Шивахан гызы Бахрамова
заведующий кафедры Общих дисциплин,
Бакинского Евразийского Университета
доктор философии по истории, доцент

РЕАЛИЗАЦИЯ СОДЕРЖАТЕЛЬНЫХ СТАНДАРТОВ И ИСПОЛЬЗОВАНИЕ ИНТЕГРАТИВНОГО ПОДХОДА ПРИ ПРЕПОДАВАНИИ УЧЕБНЫХ МАТЕРИАЛОВ О ПЕРВОБЫТНО-ОБЩИННОМ И РАБОВЛАДЕЛЬЧЕСКОМ СТРОЕ В VI КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ

Xülasə. Məqalədə müasir qloballaşma şəraitində tədris prosesində fənlərarası inteqrasiyanın rolu və əhəmiyyəti araşdırılır. Müəllif qeyd edir ki, tədris fənlərinin bir-birindən təcrid olunması şagirdlərin dünyagörüşündə parçalanma yaradır və təlimin səmərəliliyini azaldır. İnteqrasiya olunmuş dərslər bu problemi aradan qaldıraraq, biliklərin bütöv şəkildə mənimsənilməsinə, şagirdlərin yaradıcı və tədqiqatyönlü fəaliyyətinin inkişafına şərait yaradır. Məqalədə inteqrasiyanın əsas prinsipləri, fərdi yaradıcılıq qabiliyyətlərinin inkişafı, təhsil məzmununun bütövlüyü, assosiativ əlaqələr və yenilik prinsipi elmi-pedaqoji əsaslarla izah edilir. VI sinif Azərbaycan tarixi fənnində bu prinsiplərin tətbiqi nümunələrlə göstərilir, fənlərarası əlaqələrin (xüsusilə ümumi tarix, riyaziyyat və ədəbiyyatla) praktik faydaları vurğulanır. Tədqiqat nəticəsində belə qənaətə gəlinir ki, inteqrasiya olunmuş dərslər şagirdlərin dünyanı vahid sistem kimi dərk etməsinə, analitik və yaradıcı düşünmə bacarıqlarının formalaşmasına, həmçinin məzmun standartlarının effektiv reallaşdırılmasına xidmət edən müasir pedaqoji modeldir. Bu yanaşma həm idrak, həm də tərbiyəvi məqsədlərin həyata keçirilməsində mühüm rol oynayır.
Açar söz: *İnteqrasiya, məzmun, məzmun standartları, təlim, tarix, kurikulum, pedaqogika*

Abstract. The article explores the role and importance of interdisciplinary integration in the teaching process under modern globalization. The author emphasizes that the isolation of school subjects leads to fragmentation in students' worldview and decreases the effectiveness of education. Integrated lessons help ensure the holistic acquisition of knowledge and promote students' creative and research-oriented activities. The paper

outlines the main principles of integration, development of individual creativity, unity of educational content, associative connections, and the principle of innovation. Using the example of teaching Azerbaijani history in the 6th grade, the study demonstrates the practical application of these principles and highlights the benefits of interdisciplinary connections (particularly with general history, mathematics, and literature). The findings conclude that integrated lessons contribute to developing students' systematic understanding of the world, analytical and creative thinking, and to the effective implementation of curriculum standards. This approach serves both cognitive and educational purposes, enhancing students' motivation, creativity, and cooperation skills.
Keywords: *Integration, content, content standards, education, history, curriculum, pedagogy*

Аннотация. В статье исследуется роль и значение межпредметной интеграции в процессе обучения в условиях современной глобализации. Автор отмечает, что изолированное преподавание учебных предметов приводит к фрагментарности мировоззрения учащихся и снижает эффективность обучения. Интегрированные уроки способствуют целостному усвоению знаний, развитию творческой и исследовательской активности школьников. В работе раскрываются основные принципы интеграции, развитие индивидуальных творческих способностей, целостность содержания образования, ассоциативные связи и принцип новизны. На примере преподавания истории Азербайджана в VI классе показано практическое применение этих принципов, а также подчеркивается значение межпредметных связей (в частности, с общей историей, математикой и литературой). Исследование позволяет сделать вывод, что интегрированные уроки способствуют формированию у учащихся системного восприятия мира, развитию аналитического и творческого мышления, а также эффективной реализации стандартов содержания образования. Такой подход играет важную роль не только в познавательном, но и в воспитательном аспекте учебного процесса.
Ключевые слова: *интеграция, содержание, стандарты содержания, обучение, история, учебный план, педагогика*

Giriş.

Müasir qloballaşma şəraitində iqtisadi, siyasi, mədəni və informasiya sahələrində inteqrasiya prosesləri güclənməkdədir. Bu kontekstdə fənlərin bir-birindən təcrid olunması, şagirdlərin dünyagörüşündə parçalanmanın yaranmasına gətirib çıxarır (1, s. 18). Tədris təcrübəsi göstərir ki, eyni anlayışların müxtəlif fənlərdə fərqli şəkildə izah olunması elmi terminlərin çoxmənalılığını artırır və bu da öyrənilən materialın dərkini çətinləşdirir. Kurikulumlar arasında əlaqəsizliyin mövcudluğu eyni bilik və bacarıqların müxtəlif fənlərdə təkrar öyrədilməsinə səbəb olur ki, bu da həm tədris prosesinin səmərəliliyini azaldır, həm də vaxt itkisinə gətirib çıxarır (11).

Bu səbəbdən də tarix fənninin tədrisində məzmunun şagirdlərə düzgün və öyrədici şəkildə ötürülməsi üçün inteqrasiya olunmuş dərslərin təşkili təhsildə mühüm zərurət kimi meydana çıxır. Fənlərarası inteqrasiya müəllim və şagird arasında əməkdaşlıq mühitinin formalaşmasına, yaradıcılıq qabiliyyətlərinin inkişafına və tədris məzmununun daha dərin mənimsənilməsinə şərait yaradır. Belə dərslər məzmun standartlarının həyata keçirilməsində mühüm vasitə kimi çıxış edir, çünki onlar biliklərin praktiki tətbiqini təmin edir və şagirdin öyrənmə fəaliyyətini məqsədyönlü şəkildə stimullaşdırır.

Tədqiqatlar göstərir ki, XX əsrin 80-ci illərindən başlayaraq inteqrasiya olunmuş dərslər tədris prosesinə daxil edilməyə başlanmışdır. Bu, təlimdə inteqrativ yanaşmanın genişlənməsi və fənlərarası əlaqələrin nəzəri əsaslarının formalaşması ilə bağlı olmuşdur. İnteqrasiya olunmuş dərs müəllim və şagird arasında nəzəri biliklərlə praktiki fəaliyyətin qarşılıqlı əlaqəsinə əsaslanan əməkdaşlıq prosesidir. Bu modelin tətbiqi təlim prosesini emosional cəhətdən zənginləşdirir, idrak fəaliyyətini fəallaşdırır və tədris yükünün balanslaşdırılmasına kömək edir.

Müasir pedaqoji yanaşmalar göstərir ki, inteqrasiya olunmuş dərslər statik tədris forması deyil, əksinə, dəyişkən və daim inkişaf edən didaktik prosesdir. Bu dərslər təlimin məqsədyönlü, çevik və yaradıcılığa əsaslanan strukturunu təmin edir. Belə dərslərdə müəllim və şagird birgə yaradıcılıq əsasında öyrənilən hadisə və anlayışları daha dərindən dərk edir, əldə olunan biliklərin tətbiqi bacarığını inkişaf etdirir. Müxtəlif iş üsullarından istifadə edilməsi isə şagirdlərin fərdi potensialının üzə çıxmasına və təlimin keyfiyyətinin yüksəlməsinə şərait yaradır.

Nəticə etibarilə, inteqrasiya olunmuş dərslər məzmun standartlarının reallaşdırılması, tədrisin səmərəliliyinin artırılması və şagird yaradıcılığının inkişafı baxımından mühüm metodik

vasitə kimi dəyərləndirilə bilər. Bu dərslər ənənəvi tədris modelindən fərqli olaraq, müəllim və şagirdin birgə qərar qəbuletmə prosesinə, eləcə də əməkdaşlıq və qarşılıqlı öyrənmə mühitinin formalaşmasına xidmət edir. İnteqrasiya olunmuş dərslər şagirdlərdə dünyanın vahid mənzərəsini formalaşdırmaqla, təbiətdə, cəmiyyətdə və bütövlükdə reallıqda baş verən hadisələr arasında qarşılıqlı əlaqələrin dərk olunmasına şərait yaradır. Bu dərslər vasitəsilə şagirdlər elmi bilikləri fraqmentar şəkildə deyil, bir-birini tamamlayan vahid sistem kimi qavramağı öyrənirlər.

İnteqrasiya olunmuş dərs hazırlanarkən nəzərə alınmalıdır ki, inteqrasiya sadəcə fənlər arasında formal əlaqə deyil, onların bir-birinə nüfuz edərək vahid elmi və metodik bütöv yaratması prosesidir. Bu baxımdan inteqrasiya edilmiş dərs adi dərsdən əsasən məzmunun quruluşu və tədris məqsədləri ilə fərqlənir. Belə dərslərdə öyrənilən mövzular çox zaman bir neçə fənnin kəsişdiyi nöqtədə yerləşir və onların tam mənimsənilməsi üçün müxtəlif elmi sahələr arasında "ümumi dilin" tapılması tələb olunur.

İnteqrasiya təlimdə yaradıcı düşüncə tərzinin formalaşmasına və şagirdlərin yaradıcılıq qabiliyyətlərinin inkişafına güclü təsir göstərir. Belə dərslər zamanı şagirdlərdə müxtəlif ideyalar irəli sürmək, informasiyanı axtarmaq, təhlil etmək, ümumiləşdirmək və sistemləşdirmək kimi bacarıqlar inkişaf edir. Bununla yanaşı, ixtiraçılıq, məqsədyönlülük və müstəqil qərarvermə kimi mühüm keyfiyyətlər də formalaşır. Bu bacarıqlar məzmun standartlarında nəzərdə tutulan səriştələrin, xüsusilə tədqiqatçılıq, yaradıcılıq və kommunikativ bacarıqların reallaşdırılmasında mühüm rol oynayır.

İnteqrasiya olunmuş dərslərin məzmunu və strukturunun müəyyənləşdirilməsi, ilk növbədə, yaradıcılıq qabiliyyətlərinin inkişafı vəzifələrinə uyğun aparılmalıdır.

Tədqiqat və müşahidələr nəticəsində inteqrasiya olunmuş təlimin aşağıdakı əsas prinsipləri müəyyənləşdirilmişdir:

1. Şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prinsipi;
2. Təhsil məzmununun bütövlüyü prinsipi;
3. Assosiativ əlaqələr prinsipi;
4. Yenilik prinsipi (2, s.76).

1. Şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaqla yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması prinsipi

Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, yaradıcılıq qabiliyyətlərinin inkişafı inteqrativ təlim mühitində həyata keçirilir və bu proses şagirdin fərdi potensialına əsaslanır. Şagird təlim zamanı əldə etdiyi bilik və bacarıqları müxtəlif situasiyalarda tətbiq etməklə subyektiv yenilik yaradır. Yaradıcı fəaliyyətin inteqrativ xarakteri onu həm proses, həm də nəticə kimi dəyərləndirməyə imkan verir: burada şagird yalnız mövcud bilikləri mənimsəmir, eyni zamanda onları transformasiya edərək yeni ideyalar və məhsullar yaradır.

İnteqrasiya olunmuş dərslərdə bu prinsipin tətbiqi şagirdlərdə aşağıdakı bacarıqların formalaşmasına imkan verir:

- həyati və tədris baxımından əhəmiyyətli bilikləri seçmək və tətbiq etmək;
- qeyri-standart vəziyyətlərdə yaradıcı düşünmək və problem həllinə yönəlmək;
- yeni biliklərə ehtiyac hissi formalaşdırmaq;
- yeni fəaliyyət üsulları və qərar modelləri yaratmaq.

Beləliklə, inteqrasiya olunmuş dərslər yalnız fənlərarası əlaqələrin təmin olunmasına deyil, həm də təhsil prosesinin fərdiləşdirilməsi, yaradıcı potensialın inkişafı və məzmun standartlarının məqsədyönlü reallaşdırılması üçün effektiv mühitin formalaşmasına xidmət edir.

İnteqrasiya olunmuş təlim prosesi şagirdlərin yaradıcılıq fəaliyyətinə aktiv şəkildə qoşulmasını, yeni problemlərin həlli yollarını tapmaq bacarığını və reallığı yaradıcı formada dəyişdirməyə hazırlığını təmin edir. Bu prosesdə şagirdlər aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirlər:

- öyrənilən obyektin yeni funksiyasına yaradıcı baxışın formalaşdırılması;
- mövcud fəaliyyət üsullarını yeniləri ilə sintez etmək bacarığı;
- obyektin strukturuna alternativ baxışın inkişafı;
- verilmiş problemin bir neçə həlli variantının müəyyənləşdirilməsi;
- məlum olanlardan fərqli, orijinal və prinsipcə yeni həllərin yaradılması (3, s.169).

Bu istiqamətlər şagirdlərdə təfəkkürün çevikliyi, alternativ düşüncə tərzi və problemə yaradıcı yanaşma bacarığı kimi əsas səriştələrin

inkişafına xidmət edir. Belə bacarıqlar məzmun standartlarında nəzərdə tutulan yaradıcı və tədqiqatyönlü nəticələrin əldə olunması üçün vacib baza yaradır.

2. Tədris məzmununun bütövlüyü prinsipi

Təhsil məzmununun bütövlüyü prinsipi inteqrativ təlimin əsas dayaq nöqtələrindən biridir. Bu prinsip təlim prosesində bilik, bacarıq və vərdişlərin qarşılıqlı əlaqəsini təmin etməklə, tədris materialının parçalanmasının qarşısını alır və şagirdlərdə dünyanın vahid mənzərəsinin formalaşmasına kömək edir. Tədris məzmununun bütövlüyü, həm də fənlərarası və daxili fənn əlaqələrinin koordinasiyasını təmin edir.

Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, ümumi və xüsusi fənlərin sərhədləri arasında süni bölünmələrin aradan qaldırılması məqsədilə onların qarşılıqlı inteqrasiyası həyata keçirilsin. Bununla şagird yalnız ayrı-ayrı bilik sahələrini deyil, həm də onların qarşılıqlı təsirini dərk edir, dünya haqqında sistemli və əlaqəli təsəvvür formalaşdırır. Bu isə kurikulumda müəyyənləşdirilmiş məzmun standartlarının vahid şəkildə reallaşdırılmasına, fənlərarası düşüncə modelinin formalaşmasına və kompleks problemlərin həllinə şərait yaradır.

Təhsil sistemi inteqral bir struktur kimi məqsədlər, tədris məzmunu, pedaqoji ünsiyyət vasitələri, müəllim və şagird fəaliyyət formaları, həmçinin tədris metod və resurslarının qarşılıqlı əlaqəsinə əsaslanır. Tədris prosesinin sistem xarakteri onun bütün komponentlərinin vəhdətini tələb edir: təlim məqsədləri, müəllimin yönəldici fəaliyyəti, şagirdin fəal öyrənmə fəaliyyəti və əldə olunan nəticələr. Bu komponentlərin hər biri dəyişkən olsa da, onların harmonik vəhdəti tədris və təlimin səmərəli birgə fəaliyyətinə çevrilir. Nəticədə, çoxsaylı elementlər və əlaqələr bir-birini tamamlayaraq inteqral təhsil sistemi yaradır.

3. Assosiativ əlaqələr prinsipi

Assosiativ əlaqələr prinsipi inteqrasiya olunmuş təlimdə mühüm psixoloji əsas kimi çıxış edir. Bu prinsipə görə, öyrənmə prosesində şagirdin təfəkküründə yeni biliklər mövcud biliklərlə əlaqələnir və bu əlaqə nəticəsində daha dərin, sabit və mənalı öyrənmə baş verir. Assosiasiyalar şagirdin idrak fəaliyyətində hadisələr, anlayışlar və obrazlar arasında daxili əlaqələr qurmağa imkan verir.

Belə əlaqələr nəticəsində bir anlayışın yaranması digərinə istinad yaradır, bu da təfəkkürün çevikliyini, yaddaşın fəallığını və təxəyyülün genişlənməsini təmin edir. Məhz bu mexanizm yaradıcı potensialın əsasını təşkil edir. Analiz və sintez əməliyyatlarının qarşılıqlı fəaliyyəti nəticəsində şagird müxtəlif obyektlər arasında bənzərlikləri və fərqləri müəyyənləşdirir, fərqli situasiyalarda oxşar düşüncə modellərini tətbiq edə bilir.

Assosiativ əlaqələrin zənginliyi və çevikliyi şagirdin yaradıcı potensialını, yeni bilikləri mənimsəmə və tətbiqetmə bacarığını, həmçinin problemlərə çevik və qeyri-ənənəvi yanaşma qabiliyyətini müəyyənləşdirir. Buna görə də bu prinsipin həyata keçirilməsi inteqrasiya olunmuş dərslərin əsas psixoloji və didaktik şərtlərindən biridir (4, s. 93).

Beləliklə, bu üç prinsip yaradıcılıq qabiliyyətlərinin fərdi inkişafı, təhsil məzmununun bütövlüyü və assosiativ əlaqələrin təşkili, inteqrasiya olunmuş dərslərin elmi-metodoloji bazasını təşkil edir. Onların sistemli tətbiqi həm məzmun standartlarının reallaşdırılmasına, həm də təlimin səmərəliliyinin artırılmasına yönəlmiş kompleks pedaqoji mexanizm yaradır.

İnteqrasiya olunmuş dərslərin metodikasının hazırlanmasında assosiativ əlaqələrin inkişafı və zənginləşdirilməsi mühüm istiqamət kimi qəbul edilir. Bu, şagirdlərdə yeni biliklərin formalaşması və onların yaradıcı şəkildə mənimsənilməsi üçün təməl mexanizmdir. Assosiativ əlaqə qurularkən, hər bir yeni anlayış əvvəlkilərlə məntiqi əlaqədə olur və şagird bir anlayışdan digərinə keçid edərək, özünün fərdi idrak və yaradıcılıq təcrübəsini genişləndirir. Bu proses şagirdin təfəkkür tipindən, analitik və müqayisəetmə bacarığından, hadisələr arasındakı oxşarlıq və fərqləri müəyyənləşdirmək qabiliyyətindən asılı olaraq fərdiləşir.

4. Yenilik prinsipi

İnteqrasiya olunmuş dərslərin effektivliyini təmin edən əsas prinsiplərdən biri də yenilik prinsipidir. Bu prinsipin mahiyyəti, təlim prosesində şagirdlərin maraq və motivasiyasını qorumaq üçün yeni məzmun, metod və şəraitin yaradılmasından ibarətdir. Yenilik prinsipi dərsin müxtəlif komponentlərində tədris materialında, onun təqdimat formasında, ünsiyyət situasiyalarında, iş üsullarında və müəllim-şagird qarşılıqlı fəaliyyətinin strukturunda özünü göstərir.

Yenilik üç səviyyədə təzahür edir:

* Sıfır yenilik-material şagirdlərə artıq məlumdur, lakin yeni kontekstdə təqdim olunur;

* Nisbi yenilik-mövcud biliklərin yeni kombinasiyası və tətbiqi formasında təqdim edilməsi;

* Mütləq yenilik -tamamilə yeni məzmunun, problemin və ya fəaliyyət növünün öyrənilməsidir (5, s. 21).

Bu prinsipin tətbiqi şagirdlərdə yaradıcı müstəqillik, öz fəaliyyətini planlaşdırmaq bacarığı, problemli vəziyyətlərdə qərarvermə, həmçinin kollektiv əməkdaşlıqda ünsiyyət və ideya mübadiləsi kimi keyfiyyətlərin formalaşmasına səbəb olur. Şagirdlər öz hərəkətlərini şüurlu şəkildə planlaşdırır, müstəqil öyrənmə vərdişləri qazanır və tədris prosesinə fəal subyekt kimi qoşulurlar (12, s. 369).

İnteqrasiya olunmuş dərslərdə yenilik prinsipinin həyata keçirilməsi nəticəsində şagirdlər müxtəlif fənlər arasında əlaqə yaradır, yeni məlumatları mənimsəyir və əvvəlki biliklərini yeni situasiyalarda tətbiq etməyi öyrənirlər. Beləliklə, onların əldə etdiyi biliklər daha çevik və funksional xarakter daşıyır, yəni məzmun standartlarında nəzərdə tutulan nəticələrin yaradıcı kontekstdə reallaşmasına şərait yaranır.

Tədris prosesində müəyyən edilmiş bu prinsiplər, assosiativ əlaqə, təhsil məzmununun bütövlüyü, fərdi yaradıcılıq və yenilik inteqrasiya olunmuş dərslərin nəzəri və praktik əsaslarını müəyyənləşdirir. Onların qarşılıqlı əlaqəsi təhsilin məqsədlərini həyata keçirməyə, şagirdlərin tədris və idrak fəaliyyətini fəallaşdırmağa və yaradıcılıq qabiliyyətlərinin inkişafına xidmət edir (6, s. 319).

Biliklərin ümumiləşdirilməsi və sistemləşdirilməsi, şagirdlərdə yaradıcı potensialı artırmaqla yanaşı, idrak motivasiyasını da gücləndirir. Bu baxımdan, inteqrasiya olunmuş dərslər yalnız fənlərarası əlaqə forması deyil, həm də şagirdin idrak fəallığını, müstəqil düşünmə və problem həll etmə bacarığını inkişaf etdirən tədris modeli kimi çıxış edir.

Müasir elmi yanaşmalara əsasən, inteqrasiya olunmuş təlim dünyanın müxtəlif hadisə və proseslərinin qarşılıqlı əlaqəsini əks etdirən biliklərin sistemləşdirilməsinə yönəlmişdir. Bu yanaşma, şagirdlərin təkcə mövcud məlumatları mənimsəməsini deyil, həm də həmin məlumatlar əsasında yeni reallıq və yeni məzmun formalaşdırmasını nəzərdə tutur (7, s. 44).

Belə dərslərin məzmunu yalnız müxtəlif fənlərdən əldə edilən məlumatların məcmusu deyil, həm də onların qarşılıqlı əlaqəsindən yaranan yeni elmi mənzərədir.

İnteqrasiya olunmuş dərslər təbiət və cəmiyyət hadisələrinin vəhdətini nümayiş etdirir, şagirdlərdə dünyanın bütövlüyü haqqında sistemli düşüncə tərzi formalaşdırır. Bu dərslərdə əsas ideya bir və ya bir neçə mərkəzi anlayış ətrafında fənlərarası sintez və dərin təhlil aparmaqla, əldə edilən biliklərin qeyri-standart situasiyalarda tətbiqinə yönəlir.

Nəticə etibarilə, inteqrasiya olunmuş dərslər:

* müxtəlif elmlərin qarşılıqlı əlaqəsini praktik müstəviyə gətirir;

* şagirdlərin yaradıcı və tədqiqatyönlü fəaliyyətini gücləndirir;

* nəzəri biliklərin praktik tətbiqini təmin edir;

* məzmun standartlarının kompleks şəkildə reallaşdırılmasına şərait yaradır (2, s.39).

Beləliklə, tədrisdə inteqrasiya olunmuş yanaşmanın tətbiqi inteqral şəxsiyyətin formalaşmasına, yaradıcı potensialın inkişafına və biliklərin sistemli mənimsənilməsinə yönəlmiş müasir pedaqoji zərurət kimi çıxış edir.

İnteqrasiya olunmuş dərslərin əhəmiyyəti, xüsusilə VI sinifdə tədris olunan mövzuların şagirdlər üçün daha maraqlı və öyrədici şəkildə mənimsənilməsində özünü aydın göstərir. Bu yaş dövründə şagirdlərdə təfəkkür çevikliyi, məntiqi əlaqə qurma və sistemli düşünmə bacarıqları formalaşmağa başladığı üçün təlim prosesində fənlərarası inteqrasiyanın tətbiqi pedaqoji baxımdan zəruridir. İnteqrasiya vasitəsilə tədris edilən mövzuların mənimsənilməsi yalnız faktoloji bilik səviyyəsində qalmır, həm də onların məzmun standartlarında nəzərdə tutulan sərişt-ələrlə əlaqələndirilməsinə şərait yaradır.

VI sinif Azərbaycan tarixi fənn kurikulumunda yer alan I məzmun xətti "Tarixi zaman" xətti üzrə əsas və alt standartların təhlili göstərir ki, bu fənnin məzmunu ümumi tarix fənni ilə birbaşa inteqrasiya imkanlarına malikdir. Xüsusilə, 1.1.3-cü alt standart ("Tarixi hadisələri zaman ardıcıllığında müəyyənləşdirir") ümumi tarix fənninin eyni adlı 1.1.3 standartı ilə inteqrasiya olunur. Bu uyğunluq, müəllim üçün həm kurikulum məqsədlərinin həyata keçirilməsində, həm də fənlərarası əlaqələrin qurulmasında mühüm tədris resursu rolunu oynayır. İnteqrasiyanın bu forması vasitəsilə şagirdlər zaman anlayışını yalnız bir fənnin kontekstində deyil, müxtə-

lif fənlərdəki hadisə və proseslər arasında əlaqə qurmaqla mənimsəyir (1).

Digər tərəfdən, Azərbaycan tarixi fənn kurikulumunun 1.1.2-ci alt standartı ("Tarixi hadisələrin zamanla əlaqəsini izah edir") ümumi tarix fənninin 1.1.1. standartı ("Tarixdə il hesabından istifadə edir") ilə birləşdirildikdə, təlim prosesi daha funksional xarakter alır. Bu inteqrasiya vasitəsilə şagirdlər yalnız zaman anlayışını öyrənmir, eyni zamanda idraki və psixomotor bacarıqlarını inkişaf etdirirlər. Məsələn, şagirdlər "Azərbaycanda paleolit, mezolit və neolit dövrləri" mövzusunu öyrənərkən zaman oxu tərtib edir, il hesablamaları aparır, hadisələrin ardıcıllığını müəyyənləşdirir və onları vizual şəkildə təsvir edirlər(8, s. 13). Bu fəaliyyətlər nəticəsində şagirdlər həm analitik düşüncə, həm təsvir-edici qabiliyyət, həm də tarixi hadisələr arasındakı məntiqi ardıcıllığı dərk etmək bacarığı qazanırlar.

Eyni zamanda, riyaziyyat fənni ilə inteqrasiya bu prosesin təbii davamıdır. Riyaziyyat fənninin 1.1.3. standartına uyğun aparılan riyazi hesablamalar və zaman ölçüləri üzrə çalışmalar, şagirdlərdə hesablama dəqiqliyini, məntiqi ardıcıllığı və problemin riyazi aspektini dərk etmək bacarığını formalaşdırır. Bu, fənlərarası əlaqənin konkret praktik təzahürüdür və elmi düşüncə tərzinin inkişafına mühüm təsir göstərir.

Azərbaycan tarixi fənn kurikulumunun 1.2.1-ci alt standartı ("Mənbələr əsasında məlumat toplayır və təqdim edir") ilə Ümumi tarix fənn kurikulumunun 3.1.2. alt standartı arasında da inteqrasiya əlaqəsi mövcuddur. Bu uyğunluq tədris prosesinə tədqiqatyönlü öyrənmə elementlərini daxil etməyə imkan verir. Şagirdlər tarixi mənbələrlə işləyərkən informasiyanı analiz edir, sistemləşdirir və onu fərqli formalarda təqdim etməyi öyrənirlər. Bu, həm məlumat savadlılığını, həm də kommunikativ bacarıqları inkişaf etdirir (8, s. 19).

Fənlərarası inteqrasiyanın həyata keçirilməsi zamanı yalnız mövzu səviyyəsində deyil, həm də standartların uyğunlaşdırılması səviyyəsində əlaqələrin qurulması xüsusi əhəmiyyət daşıyır. Müəllim bu zaman şagirdlərin yaş xüsusiyyətlərini, sinif səviyyəsini və psixoloji hazırlıq dərəcəsini nəzərə almalıdır. Alt standartlar şagirdlərin həmin yaş dövründə əldə etməli olduqları bilik və bacarıqların minimum tələblərini müəyyən edir, buna görə də onların reallaşdırılması prosesində interaktiv təlim metodlarının tətbiqi vacibdir.

VI sinif səviyyəsində Azərbaycan tarixi dərsliyində yer alan ilk səkkiz mövzu ibtidai icma quruluşunu əhatə etdiyindən, bu mövzuların ümumi tarix fənnindəki analoji dövrlərlə əlaqələndirilməsi fənlərarası inteqrasiyanın ən uğurlu nümunələrindən biri kimi çıxış edir. Bu inteqrasiyanı Azərbaycan dili, ədəbiyyat və riyaziyyat fənləri ilə də genişləndirmək mümkündür. Məsələn, ədəbiyyat fənnində qədim dövrlərlə bağlı mifoloji motivlər üzərində müzakirələr aparılır, Azərbaycan dili dərslərində isə tarixi terminlərin dilçilik baxımından izahı həyata keçirilir.

Bu cür mövzulararası və standartlararası inteqrasiya şagirdlərdə müxtəlif elmlər arasında əlaqə qurmaq bacarığını formalaşdırır, məzmunun bütövlüyünü təmin edir və idrak prosesini daha mənalı edir. Müəllim dərs prosesində bu inteqrasiyanı həyata keçirərkən şagirdlərin fəallığını və təşəbbüskarlığını stimullaşdıran interaktiv üsullardan istifadə etməlidir.

Belə metodlara "beyin həmləsi", "Venn diaqramı", "ziqzaq", "Sokrat dialoqu", "ideyalar xalısı" kimi texnologiyalar daxildir. Bu üsulların tətbiqi şagirdlərin müstəqil düşünmə, yaradıcı yanaşma və birgə qərar qəbuletmə bacarıqlarını inkişaf etdirir, həmçinin fənlərarası əlaqələrin praktiki reallaşdırılmasını təmin edir (2, s.87).

Ümumilikdə, VI sinif səviyyəsində fənlərarası inteqrasiyanın həyata keçirilməsi Azərbaycan tarixi fənn kurikulumunun məqsədlərinə tam uyğun olmaqla, həm məzmun standartlarının reallaşdırılmasına, həm də şagirdlərin kompleks idrak fəaliyyətinin inkişafına xidmət edir. Belə dərslər şagirdlərdə yalnız tarixi hadisələri deyil, həm də bu hadisələrin elmi, sosial və mədəni kontekstini anlamaq bacarığını formalaşdırır, nəticədə onların dünyanın bütöv mənzərəsini dərk etməsinə və yaradıcı təfəkkürünün inkişafına real şərait yaradır.

Fənlərarası inteqrasiyanın tədrisdə tətbiqi zamanı fənlərüstü inteqrasiyanın (transfənn əlaqələrinin) də mühüm rolu vardır. Bu yanaşma şagirdlərin bilik və bacarıqlarını yalnız müəyyən fənnin sərhədləri çərçivəsində deyil, ümumtəhsil səviyyəsində genişləndirməyə, onların həyat bacarıqlarını inkişaf etdirməyə xidmət edir. Müasir təlim yanaşmalarına əsasən, fənlərüstü inteqrasiya şagirdin şəxsiyyət kimi formalaşmasını,

öyrənməyə marağının və motivasiyasının artmasını təmin edən əsas vasitələrdəndir.

Belə inteqrasiyanın həyata keçirilməsi üçün dərs prosesində müxtəlif bədii, elmi və vizual mənbələrdən istifadə etmək məqsədəuyğundur. Məsələn, qədim dövrlərin öyrənilməsi zamanı filmlərdən və sənədli kadr-lentlərdən epizodların nümayişi, məşhur rəsm əsərlərinin və incəsənət nümunələrinin təhlili, arxeoloji tapıntıların vizual təqdimatı şagirdlərdə təlim materialına emosional və idraki maraq yaradır.

Qədim Misir sivilizasiyası mövzusu bu baxımdan geniş inteqrasiya potensialına malikdir. Şagirdlər Qədim Misirin tarixini yalnız faktlar toplusu kimi deyil, tədqiqatyönlü fəaliyyət vasitəsilə öyrənə bilərlər. Dərs zamanı müəllim Misirin mədəni irsini əks etdirən sənədli filmləri nümayiş etdirərək, şagirdlərdə motivasiya və tədqiqat marağı yarada bilər. Bu cür fəaliyyətlər nəticəsində şagirdlər hadisələrə təkcə tarixi aspektdən deyil, həm də mədəni, sosial və estetik baxımdan yanaşmağı öyrənirlər.

Misir tarixi ilə bağlı çəkilmiş bədii filmlər və sənədli süjetlər şagirdlərdə bu dövr haqqında bədii-təxəyyül xarakterli təsəvvürlər formalaşdırmağa kömək edir. Eyni zamanda, Luvr və digər məşhur muzeylərin ekspozisiyalarında saxlanılan qədim Misir abidələrinin virtual tədqiqi dərs prosesində tətbiq edilə bilər. Bu zaman müəllim virtual tur vasitəsilə şagirdlərə tapşırıqlar verir, onların araşdırma, müşahidə və müqayisə bacarıqlarını inkişaf etdirir. Belə fəaliyyətlər şagirdlərdə yalnız bilik qazanmaq deyil, həm də analitik təfəkkür və tədqiqat vərdişlərinin formalaşması üçün əlverişli mühit yaradır.

Fənlərüstü inteqrasiyanın tətbiqi yalnız Misir sivilizasiyası ilə məhdudlaşmır. Müəllim eyni yanaşmanı Mesopotamiya, Qədim Hindistan, Qədim Yunanıstan, Roma, Qədim Türk dünyası və digər sivilizasiyaların tədrisində də həyata keçirə bilər. Hər bir mövzu üzrə zəngin tarixi, mədəni və bədii materialların istifadəsi şagirdlərin idrak fəaliyyətini fəallaşdırır, onların dünya tarixini sistemli və qarşılıqlı əlaqədə dərk etmələrinə imkan yaradır (2, s.102) .

Şagird şəxsiyyətinin formalaşmasında təlim mühitinin xarakteri əsas rol oynayır. Müsbət və inkişafetdirici mühitin yaradılması üçün dərs prosesində aktiv öyrənmə, tədqiqat və əməkdaşlıq prinsipləri ön plana çıxmalıdır. Məsələn, Qədim Şərq mədəniyyətləri mövzusunun öyrənilməsi zamanı şagirdlərə Qədim Misirin incəsənət nümunələrini araşdırmaq, sənət əsərlərinin tarixi və bədii xüsusiyyətlərini müəyyənləşdirmək, dərslikdəki mənbələrlə işləmək kimi fəaliyyətlər təklif oluna bilər. Bu prosesdə qruplarla və ya cütlərlə iş formaları interaktivliyi təmin edir, əməkdaşlıq və birgə nəticə çıxarma bacarığını formalaşdırır.

Dərs zamanı müəllim, şagirdlərin informasiya ehtiyaclarını nəzərə alaraq, onlara mövzu ilə bağlı müxtəlif faktlar təqdim edir, müzakirələr təşkil edir, ümumiləşdirmələr aparır və şagirdləri nəticə çıxarmağa yönəldir. Bu yanaşma idrak prosesinin dərinləşməsinə, tənqidi və yaradıcı düşüncənin inkişafına şərait yaradır (7, s.71).

Nəticə.

İnteqrasiya olunmuş dərslərin tərbiyəvi əhəmiyyəti də diqqətəlayiqdir. Qədim Misir mədəniyyətinin öyrənilməsi zamanı şagirdlərdə estetik zövq, gözəlliyə dəyər verməк, dünya mədəni irsini yaradan insanlara hörmət hissi formalaşır. Şagirdlər Qədim Misir mədəniyyətinin müasir dövr üçün əhəmiyyətini və unikallığını anlayaraq, mədəni irsin qorunmasının zəruriliyi barədə nəticələr çıxarırlar. Bu, dərsin tərbiyəvi məqsədlərinin həyata keçirilməsinə, yəni mədəniyyətə hörmət və dəyərlərin formalaşmasına xidmət edir. Mövzunun tədrisində əsas anlayışlardan və açar sözlərdən (Misir piramidaları, dünya möcüzələri, sfinks, obelisk, məbəd, sütun, sarkofaq, heykəltəraşlıq, incəsənət, rəsm və s.) istifadə etmək şagirdlərdə dərsin mövzusuna dair maraq və emosional bağlılıq yaradır. Bu anlayışlar əsasında motivasiya mərhələsinin qurulması dərsin səmərəliliyini artırır.

Müəllim bu prosesdə həm bələdçi, həm idarəçi, həm də tədris prosesinin moderatoru kimi çıxış edir. Onun vəzifəsi siniflə frontal və qrup işini əlaqələndirmək, tədqiqat fəaliyyətini yönləndirmək və texniki vasitələrlə (təqdimatlar, virtual turlar, interaktiv tapşırıqlar) təlimi idarə etməkdir. Hər bir slayd, vizual material və ya təqdimat komponenti dərsin mənimsənilməsini stimullaşdırır, yaradıcı təfəkkürün inkişafına və informasiya savadlılığının artırılmasına xidmət edir.

Beləliklə, fənlərüstü və fənlərarası inteqrasiyanın birgə tətbiqi tədrisdə idrak fəallığının, yaradıcılıq qabiliyyətlərinin və mədəni dəyərlərin inkişafı üçün geniş imkanlar yaradır. Bu yanaşma VI sinif şagirdlərində tarixi biliklərin də-

rin mənimsənilməsini, biliklərin praktik tətbiqini və fənlərarası əlaqələrin sistemli şəkildə qurulmasını təmin edir.

Problemin aktuallığı. Müasir qloballaşma şəraitində fənlərin bir-birindən təcrid olunması şagirdlərin dünyagörüşündə parçalanma yaradır və təlimin səmərəliliyini aşağı salır. İnteqrasiya olunmuş dərslərə artan ehtiyac həm kurikulumun tələbləri, həm də şagirdlərin kompleks idrak bacarıqlarının inkişafı ilə bağlıdır. Bu səbəbdən VI sinif tarix dərslərində fənlərarası inteqrasiyanın tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından aktuallaşmışdır.

Problemin yeniliyi. Məqalədə fənlərarası inteqrasiyanın yalnız mövzu səviyyəsində deyil, həm də məzmun standartlarının uyğunlaşdırılması səviyyəsində tətbiqi yeni yanaşma kimi təqdim olunur. Araşdırma VI sinif Azərbaycan tarixi fənninin ümumi tarix, riyaziyyat, ədəbiyyat və digər fənlərlə konkret şəkildə inteqrasiya imkanlarını sistemli şəkildə təhlil edir. İnteqrasiyanın yaradıcı təfəkkürün formalaşdırılması, assosiativ əlaqələrin genişləndirilməsi və yenilik prinsipinin didaktik əsaslarla izahı da mövzunun elmi yeniliyini göstərir.

Problemin praktik əhəmiyyəti. Tədqiqat nəticələri göstərir ki, inteqrasiya olunmuş dərslər şagirdlərin analitik, yaradıcı və tədqiqat bacarıqlarını inkişaf etdirir, bilikləri sistemli və funksional şəkildə mənimsəmələrinə şərait yaradır. Bu yanaşma məzmun standartlarının effektiv reallaşdırılmasını təmin edir və müəllimlər üçün dərs prosesində tətbiq edilə bilən konkret metodik model yaradır. İnteraktiv üsulların beyin həmləsi, ziqzaq, Venn diaqramı və s. inteqrativ dərslərdə istifadəsi tədrisin praktik faydasını daha da artırır.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ümumi tarix fənni üzrə Təhsil Proqramı (kurikulumu) (VI–XI siniflər). – Bakı: 2013.
2. Bəhrəmova, S. Ş. Tarixi biliklərin inteqrativ öyrədilməsi texnologiyası / S. Ş. Bəhrəmova. – Bakı: Optimist MMC, –2024. – 224 s.
3. Bəhrəmova, S. Ş. Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində ümumi tarix fənninin tədrisinin perspektivləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. – Bakı: 2010. – № 4. – s. 167–172.
4. Cəbrayılov, İ. Azərbaycan tarixinin tədrisi metodikası: Monoqrafiya / İ. Cəbrayılov. – Bakı: Mütərcim, –2006. – 236 s.
5. Əmirov, M. Pedaqoji tədqiqat metodları / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2019. – 88 s.
6. Əmirov, M. İnsan və cəmiyyət: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2010. – 581 s.
7. Əmirov, M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası: Dərs vəsaiti / M. Əmirov. – Bakı: ADPU-nun nəşriyyatı, –2014. – 678 s.
8. İlyasov, M. Müasir təhsil: ənənədən innovasiyaya: Monoqrafiya / M. İlyasov. – Bakı: Elm və Təhsil, – 2021. – 376 s.
9. Musayev, D. Tarixin tədrisində interaktiv metodlardan istifadə imkanları: Monoqrafiya / D. Musayev. – Bakı: ADPU-nun nəşriyyatı, –2022. – 228 s.
10. Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün Azərbaycan tarixi fənn üzrə dərslik. Azərbaycan tarixi: 6-cı sinif üçün dərslik. – Bakı: Şərq-Qərb, –2025. – 114 s.
11. Cohen, E.; Novis-Deutsch, N.; Kashi, S.; Alexander, H. A. Interdisciplinary teaching and learning at the K-12 level in the humanities, arts, and social sciences: A scoping review // Educational Research Review. – 2024. – Vol. 44 (August). – Məqalə №100617
12. Mosely, G.; Markauskaite, L.; Wrigley, C.; Swist, T.; Goodyear, P. Understanding teachers' expertise for interdisciplinary teaching practices: A scoping review // Teaching and Teacher Education. – 2025. – Vol. 168 (December). – Məqalə №105223

Redaksiyaya daxil olub: 10.12.2025

UOT 372.857

Əsmər Neymət qızı Əhmədli
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,
Azərbaycan Respublikası Təhsil İnstitutunun
fəlsəfə doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0009-0007-8581-6875
E-mail: ahmadli.asmer@gmail.comv
https://doi.org/10.69682/arti.2026.93(2).155-159

BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ EKOLOJİ AYAQ İZİ KONSEPSİYASININ TƏTBİQİ

Asmar Neymat Ahmadli
lecturer at Azerbaijan State Pedagogical University
doctoral student at the Institute of Education of the Republic of Azerbaijan

FORMATION OF THE ECOLOGICAL FOOTPRINT CONCEPT IN BIOLOGY EDUCATION

Асмер Неймат гызы Ахмедли
преподаватель Азербайджанского Государственного Педагогического Университета,
докторант по программе доктора философии
Института Образования Азербайджанской Республики

ПРИМЕНЕНИЕ КОНЦЕПЦИИ ЭКОЛОГИЧЕСКОГО СЛЕДА В ПРЕПОДАВАНИИ БИОЛОГИИ

Xülasə. Bu məqalədə ekoloji ayaq izi anlayışının ümumtəhsil məktəblərində biologiya fənninin tədrisində formalaşdırılması məsələsi araşdırılır. Tədqiqatın məqsədi ekoloji ayaq izinin Biologiya fənn kurikulumu çərçivəsində şagirdlərdə ekoloji savadlılıq və məsuliyyətli davranışın inkişafına təsirini müəyyənləşdirməkdir. Məqalədə ekoloji problemlərin yaranma səbəbləri, ekoloji ayaq izinin mahiyyəti, tətbiq sahələri və tədrisdə istifadəsinin nəzəri əsasları təqdim olunur. 7–9-cu sinif Biologiya kurikulumu təhlil edilərək ekoloji ayaq izinin ekosistemlər, maddələrin dövranı, fotosintez, karbon emissiyası və insan fəaliyyətinin ekoloji nəticələri mövzularına inteqrasiya imkanları müəyyənləşdirilmişdir. Nəticələr göstərir ki, ekoloji ayaq izinin tədrisi şagirdlərdə tənqidi düşünmə, məsuliyyətli qərarvermə və davamlı həyat tərzinə yönəlmiş davranışların formalaşdırılmasına mühüm təsir göstərir.
Açar sözlər: *ekoloji ayaq izi, ekoloji savadlılıq, biologiya kurikulumu, ekosistem, davamlı inkişaf*

Abstract. This article examines the integration of the ecological footprint concept into the teaching of biology in general education schools. The purpose of the study is to identify the impact of ecological footprint education on the development of environmental literacy and responsible behavior among students within the Biology curriculum. The article presents the origins of ecological problems, the definition and structure of the ecological footprint, its areas of application, and its theoretical basis in education. An analysis of the 7th–9th grade Biology curriculum reveals the potential for integrating the ecological footprint into topics such as ecosystems, nutrient cycles, photosynthesis, carbon emissions, and human impacts on the environment. The results demonstrate that incorporating the ecological footprint into biology instruction significantly strengthens students' critical thinking, responsible decision-making, and sustainable lifestyle practices.
Keywords: *ecological footprint, environmental literacy, biology curriculum, ecosystems, sustainable development*

Аннотация. В статье рассматривается вопрос формирования понятия «экологический след» в процессе преподавания биологии в общеобразовательной школе. Цель исследования – определить влияние обучения экологическому следу на развитие экологической грамотности и ответственное поведение учащихся в рамках учебного плана по биологии. В работе раскрываются причины экологических проблем, сущность экологического следа, области его применения и теоретические основы использования в обучении. Анализ учебных программ 7–9-х классов показывает широкие возможности интеграции экологического следа в темы, связанные с экосистемами, круговоротом веществ, фотосинтезом, углеродными выбросами и воздействием человека на окружающую среду. Результаты исследования подтверждают, что обучение экологическому следу способствует развитию критического мышления, экологически ответственного поведения и устойчивых жизненных практик учащихся.

Ключевые слова: *экологический след, экологическая грамотность, учебный план по биологии, экосистемы, устойчивое развитие*

Müasir dövrdə ətraf mühitin vəziyyəti insan fəaliyyətinin intensivləşməsi nəticəsində ciddi dəyişikliklərə məruz qalır. Sürətlə artan sənayeləşmə, nəqliyyatın güclənməsi, tullantıların çoxalması, torpaq və su ehtiyatlarının həddindən artıq istifadəsi, meşələrin qırılması və iqlim dəyişmələri günümüzün əsas ekoloji problemlərini formalaşdıran başlıca amillərdir. (2) Bu problemlərin kökündə duran əsas səbəb insanın təbiətin özünü bərpa qabiliyyətindən daha sürətlə resurs sərf etməsi və təbiətə düşən yükün tarazlığı pozmasıdır. Ekoloji problemlərin məhz bu xarakteri onların yalnız texniki və ya iqtisadi məsələ deyil, həm də təhsil, xüsusilə biologiya tədrisi ilə sıx bağlı olduğunu göstərir. Şagirdlərin ekoloji düşüncəsinin formalaşması üçün əvvəlcə ekoloji problemlərin mahiyyəti və yaranma səbəbləri tam aydın şəkildə dərk edilməlidir.

Ekoloji problemlərin əsas səbəbi insanın istehlakyönlü həyat tərzidir. Enerjiyə tələbatın artması fosil yanacaqların geniş istifadəsinə gətirib çıxarır, bu isə atmosferə böyük miqdarda karbon qazı və digər istixana qazlarının atılmasına səbəb olur. Torpağın həddindən artıq istifadə olunması kənd təsərrüfatı sahələrinin genişlənməsi ilə bağlı biomüxtəlifliyin azalmasına gətirib çıxarır. Şəhərləşmə nəticəsində yaşayış və sənaye zonalarının genişlənməsi təbii yaşayış yerlərini daraldır. Bütün bu proseslər ekosistemlərin tarazlığını pozur və təbiətin daşıma gücünü zəiflədir. Beləliklə, ekoloji problemlərin əsas mexanizmi ondan ibarətdir ki, insanın təbiətdən aldığı resursların həcmi təbiətin onları yeniləmək imkanını üstələyir.

Çevrilmiş sinif (Flipped Classroom): Adından da göründüyü kimi çevrilmiş sinif modeli dərsin quruluşunu dəyişərək ənəvəvi "müəllim izahı dərsdə, tapşırıq evdə" ardıcıllığını tərsinə çevirir. Bu zaman öyrənən əsasən dərsə əvvəlcədən hazır video, məqalə və ya slayd hazırlayır, dərs vaxtı isə müəllimlə və həmyaşıdları ilə birgə praktik fəaliyyət və müzakirələr aparırlar. Çevrilmiş sinif modeli dərsdə öyrənənin iştirakını artırmaqla bərabər, onun dərsə hazırlıq səviyyəsini yüksəldir və müəllimin tələbəyə daha çox vaxt ayırmasına imkan yaradır. Bu metod müəllimin diqqət mərkəzində olmasını deyil, məhz öyrənənin diqqət mərkəzində olmasını önə çəkir. Çevrilmiş sinif modelinin təlimdə işlənməsi ilə bağlı aparılmış tədqiqatda iştirak edən tələbə və müəllim heyətinin 80%-i bu təlim metodunun tətbiqi ilə "Razıyam" və "Tam razıyam" cavabını vermişdir [10].

Öyrənmə üçün universal dizayn metodu (ÖUD) (Universal Design for Learning): ÖUD metodu inklüziv tədris yanaşması kimi formalaşmışdır və müxtəlif öyrənmə ehtiyaclarına malik tələbələrin dərsdə bərabər və effektiv şəkildə iştirak etməsini təmin etməyə yönəlmişdir. ÖUD hər bir tələbənin fərdi ehtiyaclarına, maraqlarına, qabiliyyətinə və öyrənmə tərzinə uyğun təlim mühiti yaradır [11].

ÖUD tədrisdə bərabərlik və əlçatanlığı təmin edir, çünki bu metod istər istedadlı tələbələrin, istərsə də əlavə dəstəyə ehtiyacı olanların eyni məqsədlərə müxtəlif yollarla çatmasına şərait yaradır. Bu model tədrisdə "hər kəs üçün eyni yanaşma" prinsipini inkar edir və əvəzində fərqli öyrənmə yollarını dəstəkləyən çevik sistem təklif edir. Elə bu modelin əsas gücü də ondadır ki, o, "hər kəs üçün eyni dərs" prinsipini "hər kəs üçün uyğun dərs" prinsipi ilə əvəz edir. Eləcə də müəllimə tələbələrin güclü və zəif tərəflərini daha aydın müşahidə etməyə və eyni zamanda dərsdə inklüziv təhsil mühiti formalaşdırmağa imkan verir. Bununla da təlim prosesi təkcə bilik ötürmək deyil, müxtəlif bacarıqların inteqrasiyası formasında təşkil olunur [12].

XTHTM-da bu metod öyrənənlərin hərbi terminologiya və sürətli qərarvermə bacarıqlarını fərdi ehtiyaclara uyğun formada inkişaf etdirməyə şərait yaradır. Vizual brifinq slaydları, qrupu yönəldən komandir rolları və qrafik əsaslı cavab vermə üsulları müxtəlif öyrənmə üslublarına malik öyrənənlərin tədris prosesinə uyğunlaşmasını və özünü ifadəsini asanlaşdırmışdır. Bu metod həm də komanda üzvlərinin fərqli bacarıqlarını və fərdi xüsusiyyətlərini nəzərə alan liderlik bacarıqlarını təşviq edir. Eləcə də, bu yanaşma tələbəyə özünü ən rahat və uyğun şəkildə ifadə etmək imkanı vermişdir. Məsələn esse yazmaq əvəzinə poster hazırlamaq və ya təqdimat etmək əvəzinə mini-video çəkmək alternativ təqdimat formaları kimi qiymətləndirilmişdir. Vizual dərs materialları, komandaya uyğun rol bölgüləri və davamlı fəaliyyət öyrənənlərin fərqli olan güclü tərəflərini önə çıxarmışdır. Həmçinin bu model stressin azalmasına da səbəb olmuşdur. ÖUD modeli yalnız pedaqoji innovasiya deyil, həm də təhsil sisteminin ədalətlilik və bərabərlik prinsiplərinə əsaslanan praktik alət kimi çıxış edir.

Yuxarıda nəzərdən keçirdiyimiz innovativ təlim metodlarının müqayisəli təhlili beynəxalq jurnallarda çap olunan məqalələrdə verilən faktlara əsasən aparılmışdır:

№	Metod	Əsas xüsusiyyətləri	Üstünlükləri	Çatışmazlıqları	Statistik göstərici/Şərh (APA istinadı)
1	Tapşırıq əsaslı öyrənmə	Real tapşırıqlarla dil bacarıqlarının inkişafı	Kommunikasiya, problem həlli, komanda işi	Tapşırıq planlama və qiymətləndirmə mürəkkəbdir.	Eksperimental tədqiqatda TƏÖ/TBLqrupu nəticələri ≈ 9 % artım göstərib [13,14]
2	Layihə əsaslı öyrənmə	Uzun müddətli layihələr üzərində öyrənmə	Yaradıcı və tənqidi düşüncə, praktiki biliklərin inteqrasiyası	Vaxt və resurs tələbi yüksəkdir.	Metaanalizlər LƏÖ/PBL-in nailiyyətlərə əlaqəsini "əhmiyyətli və müsbət" kimi qeyd edir (effect size ≈ 0.7); böyükmiqyaslı pilot dil layihələrində 53–70 % yüksəliş olub [15]
3	Texnologiya əsaslı öyrənmə	Rəqəmsal platforma və mobil tətbiqlərlə öyrənmə	Fərdiləşdirilmiş öyrənmə, mutimodal qavrayış	İnfrastruktur və müəllim bacarığı tələb edir.	MALL/CALL (Mobil və kompüter əsaslı təlim metodu) üzrə meta-analiz orta-böyük təsir ölçüsü g ≈ 0.88 tapmışdır [16]
4	Qamifikasiya və OƏÖ	Ballar, səviyyələr, yarış elementləri ilə öyrənmə	Motivasiya və dərsə cəlb olunmada iştirakı artırır.	Uzun müddətli planlama lazımdır.	Metaanalizlərdə motivasiya və nailiyyətlər dəyişiklikləri +14–19 % uğur, +12–25 % orta bal artımı ilə göstərilib [9,17
5	Çevrilmiş sinif (Flipped Classroom)	Material evdə öyrənilir, sinifdə praktika aparılır.	Fəal iştirak, differensial kömək.	Texnologiyadan asılılıq, hazırlıq tələbi	95 tədqiqatın meta-analizinə görə flipped sinif modeli motivasiya və nəticələrdə ES ≈ 0.66 təsir göstərib; 76% tələbə dərsi daha yaxşı anladığını bildirib [10].
6	Öyrənmə üçün universal dizayn	Fərqli təqdimat formaları ilə inklüziv təlim	Bərabər iştirak, əlçatan öyrənmə	Resurs və müəllim hazırlığı tələbi yüksəkdir.	ÖUD/UDL tətbiq olunan siniflərdə iştirak və uğur göstəriciləri +15–20 % artmışdır [11, 12]

Vurğulamaq lazımdır ki, innovativ təlim metodlarının düzgün dizayn və tətbiqi tələbənin öyrənmə təcrübəsini dəyişir, akademik nailiyyətlərini atırır və öyrənmə prosesini demokratikləşdirir. Bu metodların tətbiqi bilavasitə, təlimin keyfiyyətini və tələbə məmnuniyyətini əhəmiyyətli dərəcədə artırmışdır.

Beləliklə, xarici ölkələrdə xidmət etmək, təhsil almaq, müxtəlif tədbirlərə ezam olunmaq üçün xarici dil bacarıqlarına yiyələnmiş hərbi şəxsi heyətin yetişdirilməsi əsas şərtdir [18]. İşə qəbul olunanlar təlimin bir hissəsi kimi xarici dil öyrənməli və təhkim olunduqları regionların siyasi, iqtisadi və mədəni çətinliklərini bilməlidirlər. Bu xüsusiyyət xarici dil tədrisinin sadəcə ünsiyyət vasitəsi kimi deyil, həm də strateji əhəmiyyət daşıyan professional bacarıq kimi qəbul edildiyini göstərir [19].

Tədqiqat metodları. Bu tədqiqat qarışıq metodlu yanaşma əsasında qurulmuş kompleks elmi araşdırmadır. Tədqiqat prosesi üç əsas mərhələdən ibarətdir: nəzəri-konseptual təhlil, müqayisəli-analitik təhlil və praktik-eksperimental müşahidə. Tədqiqat keyfiyyət və kəmiyyət parametrlərinin inteqrasiyasına əsaslanır. Keyfiyyət tədqiqatı çərçivəsində nəzəri mənbələrin sistemli təhlili, beynəlxalq təcrübənin öyrənilməsi və pedaqoji proseslərin dərin araşdırılması həyata keçirilmişdir. Kəmiyyət tədqiqatı isə mövcud beynəlxalq statistik məlumatlara, meta-analiz nəticələrinə və müqayisəli təhlillərin araşdırılmasına əsaslanır.

Problemin aktuallığı. Müasir dövrdə cəmiyyətin sürətlə dəyişməsi bütün dünyada bilik və informasiya mübadiləsini daha da sürətləndirmişdir. Beynəlxalq əməkdaşlığın inkişafı, informasiya texnologiyalarının və elmi-tədqiqat mühitinin qlobal inteqrasiyası xarici dillərin, xüsusilə də ingilis dilinin öyrənilməsini zəruri etmişdir. İngilis dili hazırda beynəlxalq diplomatiya, təhlükəsizlik, elm, texnologiya və ali təhsil sahəsində dominant kommunikasiya vasitəsidir. Bu səbəbdən də, ingilis dilini effektiv şəkildə öyrətmək və öyrənmək xüsusi təyinatlı hərbi təhsil müəssisələrində (XTHTM) prioritet məsələlərdən birinə çevrilmişdir.

Azərbaycanın təhsil strategiyasında, xüsusilə hərbi təhsil sahəsində ingilis dili fənninin tədris olunması əhəmiyyətli yer tutur. Buna görə də XTHTM-da təhsil alan tələbələrin gələcəkdə beynəlxalq əməkdaşlıq proqramlarında iştirakını, müttəfiq ölkələrlə kommunikasiya qurmasını və qlobal məkana çıxış əldə etməsini nəzərə alaraq, onlara dil bacarıqlarının təkcə nəzəri deyil, həmçinin praktik və istifadəyə yönəlmiş şəkildə tədrisi vacibdir.

Problemin elmi yeniliyi. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, innovativ təlim metodları Azərbaycan təhsil sistemi üçün ilk dəfə bu qədər geniş, sistemli və müqayisəli şəkildə təhlil olunur. Araşdırma həm nəzəri konsepsiyaları (didaktik və psixolinqvistik yanaşmalar), həm də praktik tətbiq modellərini birləşdirərək XTHTM üçün yeni metodoloji yanaşma təqdim edir.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın məqsədi ingilis dilinin tədrisində innovativ təlim metodlarının tətbiqinin səmərəliliyini göstərmək, onların tədris keyfiyyətinə təsirini araşdırmaq və praktik tətbiq imkanlarını müəyyənləşdirməkdir.

Nəticə. Bu yanaşmaların uğurlu tətbiqi göstərir ki, yeni tədris metodlarını yerli təhsil sisteminə uyğunlaşdırmaq mümkündür. Müəllimlərin peşəkar inkişafı, innovativ metodların milli təhsil sisteminə uyğunlaşdırılması və təlim resurslarının yaradılması əsas prioritet kimi qarşıda durmalıdır. Davamlı peşəkar inkişaf üçün müəllimlər mütəmadi olaraq təlimlərə cəlb olunmalıdırlar. İngilis dilində innovativ metodların uğurlu tətbiqi birbaşa müəllimlərin bilik və bacarıq səviyyəsindən asılıdır. Təhsil Nazirliyi, Milli Müdafiə Universiteti və digər aidiyyəti qurumlar tərəfindən davamlı təlim proqramlarının təşkili vacibdir. Xüsusilə, innovativ metodların praktik tətbiqinə dair real nümunələr üzərində təlimlər keçirilməlidir.

Bir sözlə, müəllimlərin peşəkar inkişafı, İKT infrastrukturunun gücləndirilməsi, metodların milli təhsil sisteminə uyğunlaşdırılması və resursların yaradılması istiqamətində atılacaq addımlar tədris prosesinin səmərəliliyini artıracaqdır.

Ədəbiyyat

1. NATO BILC, (2024). STANAG 6001 Language Proficiency Standards: Implementation Guide. NATO Publications –s.1-75.
2. Anderson, J. R. (2010). Cognitive Psychology and its Implications. W.H. Freeman –s.1-390.
3. Baddeley, A. D. (1992). Working memory. Science, 255(5044), –s.556–559.
4. Carless, D. (2007). The suitability of task-based approaches for secondary schools: Perspectives from Hong Kong. System, 35(4), –s.595–608.

5. Canbazoğlu Bilici, S., & Yücel, Ş. (2020). Use of Project-Based Learning in Military Schools: A Qualitative Case Study. Journal of Education and Future, 18, –s.55–70.
6. Stockwell, G. (2013). Technology and motivation in English-language teaching. In E. Ushioda (Ed.), International Perspectives on Motivation –s. 156–175. Palgrave Macmillan.
7. Abdullayeva, N., & Həsənova, T. (2021). Müasir informasiya-kommunikasiya texnologiyalarının ali təhsildə tətbiqi. Azərbaycan Universiteti Elmi Xəbərlər, 2(48), –s.45–52.
8. Gee, J. P. (2003). What video games have to teach us about learning and literacy. Palgrave Macmillan.
9. Sanchez, D., Young, C. J., & Jou, M. (2020). The effects of gamification on student motivation and engagement. International Journal of Educational Technology, 17(3), 45–60.
10. Chen, C.-P., Wang, C.-H., & Chen, J.-J. (2014). A mobile game approach for learning Chinese as a second language. In M. Searson & M. Ochoa (Eds.), Proceedings of SITE 2014 (pp. 1084–1089).
11. Meyer, A., Rose, D. H., & Gordon, D. (2014). Universal Design for Learning: Theory and Practice. CAST.
12. Rao, K., & Meo, G. (2016). Using Universal Design for Learning to design inclusive instruction. In Rice & Meo (Eds.), UDL in the Classroom (pp. 21–34). Guilford Press.
13. Ellis, R., & Shintani, N. (2014). Exploring Language Pedagogy through Second Language Acquisition Research. Routledge.
14. Long, M. H. (2015). Second Language Acquisition and Task-Based Language Teaching. Wiley-Blackwell.
15. Condliffe, B., Quint, J., Visher, M. G., Banga, A., Nelson, E., & Reynolds, J. (2017). Project-Based Learning: A Literature Review. –Brooklyn, NY: MDRC.
16. Lin, T.-B., & Wang, Y. (2023). Meta-analysis of computer-assisted language learning effectiveness. Language Learning & Technology, 27(1), 45-68. https://doi.org/10.10125/29068
17. Subhash, S., & Cuddy, M. M. (2018). Gamified learning in higher education. Computers in Human Behavior, 87, 192–206.
18. Toiynbekova, M. (2025), Interdiciplanary Research in Education: New Challenges in Pedagogy. *Eurasian Science Review An International Peer-Reviewed Multidisciplinary Journal*, *3*(2), -s-114–118. https://doi.org/10.63034/esr-490
19. Aliki N., Ahreum L., Neal H., and Trisha B., (2026) *Reimagining Adult Education as World Building: Creating Learning Ecologies for Transformation* Adult Education Quarterly 76 (1)**,** -s-1-184 https://doi.org/10.4324/9781003371359

Redaksiyaya daxil olub: 27.01.2026

UOT 796.87

Aygün Fazil qızı Nərimanova,
Azərbaycan İdman Akademiyasının baş müəllimi
https://orcid.org/0000-0001-5961-4785
E-mail: aygun.narimanova@sport.edu.az

Leyla Nizami qızı Sadıqova
Azərbaycan İdman Akademiyasının dosenti
https://orcid.org/0000-0001-7214-5063
E-mail: leyla.sadigova@sport.edu.az
https://doi.org/10.69682/arti.2026.93(2).171-175

FİZİKİ TƏRBİYƏ SİSTEMİNDƏ GİMNASTİKA FƏNNİNİN ROLU

Aygun Fazil Narimanova,
senior lecturer of the Azerbaijan Sports Academy

Leyla Nizami Sadiqova
associate professor of the Azerbaijan Sports Academy

THE ROLE OF GYMNASTICS IN THE SYSTEM OF PHYSICAL EDUCATION

Айгюн Фазиль гызы Нариманова
старший преподаватель Азербайджанской Академии Спорта

Лейла Низами гызы Садыгова
доцент Азербайджанской Академии Спорта

РОЛЬ ПРЕДМЕТА ГИМНАСТИКА В СИСТЕМЕ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ

Xülasə. Məqalədə gimnastika fənninin ümumi orta təhsildə fiziki tərbiyə sistemində yeri və şagirdlərin fiziki inkişafına çoxşaxəli təsiri elmi-nəzəri və praktik aspektlərdən təhlil olunur. Araşdırmada gimnastikanın əzələ-sümük sisteminin möhkəmləndirilməsi, düzgün qamətin formalaşdırılması, çeviklik, qüvvə, dözümlülük və koordinasiya kimi əsas fiziki keyfiyyətlərin inkişaf etdirilməsində mühüm rol oynadığı əsaslandırılır. Eyni zamanda, gimnastika məşğələlərinin ürək-damar və tənəffüs sistemlərinin funksional imkanlarının artırılmasına, ümumi fiziki iş qabiliyyətinin yüksəldilməsinə və hipodinamiya ilə bağlı risklərin azaldılmasına təsiri göstərilir. Nəticə olaraq, gimnastika fənninin ümumi orta təhsildə sağlam həyat tərzinin formalaşdırılması və şagirdlərin harmonik fiziki inkişafının təmin olunmasında əvəzolunmaz pedaqoji vasitə olduğu qənaətinə gəlinir.

Açar sözlər: *gimnastika, fiziki tərbiyə, ümumi orta təhsil, fiziki inkişaf, sağlam həyat tərzi, motor bacarıqlar*

Abstract. The article analyzes the role of gymnastics in the physical education system of general secondary education and its multifaceted impact on students' physical development from scientific-theoretical and practical perspectives. The study substantiates the significant role of gymnastics in strengthening the musculoskeletal system, forming correct posture, and developing key physical qualities such as flexibility, strength, endurance, and coordination. It also demonstrates that gymnastics classes enhance the functional capabilities of the cardiovascular and respiratory systems, improve overall physical performance, and reduce risks associated with physical inactivity. As a result, it is concluded that gymnastics is an indispensable pedagogical tool for fostering a healthy lifestyle and ensuring the harmonious physical development of students in general secondary education.

Keywords: *gymnastics, physical education, general secondary education, physical development, healthy lifestyle, motor skills*

Аннотация. В статье рассматривается место предмета гимнастика в системе физического воспитания общеобразовательной школы и многоаспектное влияние гимнастики на физическое развитие учащихся с научно-теоретической и практической точек зрения. В исследовании обосновывается важность роли гимнастики в укреплении опорно-двигательного аппарата, формировании правильной осанки, развитии основных физических качеств, таких как гибкость, сила, выносливость и координация. Также показано, что занятия гимнастикой способствуют повышению функциональных возможностей сердечно-сосудистой и дыхательной систем, увеличению общей физической работоспособности и снижению рисков, связанных с гиподинамией. В результате делается вывод о том, что предмет гимнастика является незаменимым педагогическим средством для формирования здорового образа жизни и обеспечения гармоничного физического развития учащихся в общеобразовательной школе.

Ключевые слова: *гимнастика, физическое воспитание, общеобразовательная школа, физическое развитие, здоровый образ жизни, моторные навыки*

Müasir təhsil sistemində şəxsiyyətin hərtərəfli inkişafı konsepsiyası fiziki, intellektual və mənəvi-tərbiyəvi komponentlərin qarşılıqlı vəhdəti əsasında formalaşır. Bu baxımdan ümumi orta təhsil pilləsində fiziki tərbiyə fənni şagirdlərin sağlamlığının qorunması və möhkəmləndirilməsi, fiziki inkişafının təmin edilməsi, habelə sağlam həyat tərzinin formalaşdırılması baxımından xüsusi strateji əhəmiyyətə malikdir. Fiziki tərbiyə yalnız hərəkət bacarıqlarının aşılanması ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin psixoloji dayanıqlığının, iradi keyfiyyətlərinin, intizam və məsuliyyət hissinin formalaşmasına mühüm təsir göstərən kompleks pedaqoji proses kimi çıxış edir.

Fiziki tərbiyə sisteminin əsas struktur komponentlərindən biri olan gimnastika fənni bu prosesdə aparıcı mövqeyə malikdir. Gimnastika insan orqanizminin funksional imkanlarının inkişaf etdirilməsi, hərəkət mədəniyyətinin formalaşdırılması və fiziki keyfiyyətlərin – qüvvə, çeviklik, sürət, dözümlülük və koordinasiyanın harmonik şəkildə inkişafı üçün universal vasitə hesab olunur. Elmi-pedaqoji ədəbiyyatda gimnastika məktəb yaşlı uşaqların fiziki inkişafı üçün ən əlçatan və səmərəli hərəkət fəaliyyətlərindən biri kimi qiymətləndirilir [1, s. 225]. Onun üstünlüyü yaş xüsusiyyətlərinə uyğunlaşdırıla bilməsi, fərdiləşdirilmiş yanaşmaya imkan verməsi və sağlamlaşdırıcı təsir potensialının yüksək olması ilə xarakterizə olunur.

Ümumi orta təhsil müəssisələrində gimnastikanın tədrisi şagirdlərin düzgün qamətinin formalaşdırılması, dayaq-hərəkət aparatının möhkəmləndirilməsi və hipodinamiya ilə bağlı risklərin azaldılması baxımından xüsusi aktuallıq kəsb edir [2]. Müasir həyat tərzinin texnologiyönlü olması, hərəkət aktivliyinin azalması və oturaq fəaliyyətin artması məktəb yaşlı uşaqlar arasında müxtəlif fiziki və funksional pozuntuların yaranmasına səbəb olur. Bu kontekstdə gimnastika məşğələləri profilaktik və korreksiyaedici vasitə kimi fiziki tərbiyə sistemində mühüm yer tutur.

Bununla yanaşı, gimnastika fənni yalnız fiziki inkişaf məqsədlərinə xidmət etmir, həm də güclü tərbiyəvi və sosial-pedaqoji potensiala malikdir. Gimnastik hərəkətlərin dəqiqliklə və ardıcıllıqla yerinə yetirilməsi şagirdlərdə diqqətlilik, səbir, iradə və özünənəzarət bacarıqlarını formalaşdırır. Kollektiv məşğələlər isə əməkdaşlıq, qarşılıqlı məsuliyyət və nizam-intizam kimi sosial keyfiyyətlərin inkişafına şərait yaradır [5]. Bu baxımdan gimnastika ümumi orta təhsildə şəxsiyyətyönlü və səriştəyə əsaslanan təlim yanaşmalarının reallaşdırılmasına xidmət edən mühüm pedaqoji vasitə kimi çıxış edir.

Gimnastikanın şagirdlərin fiziki inkişafına təsiri

Gimnastika fənni ümumi orta təhsil sistemində şagirdlərin fiziki inkişafının təmin olunmasında çoxşaxəli və sistemli təsir imkanlarına malik əsas fiziki tərbiyə vasitələrindən biri kimi çıxış edir. Elmi-pedaqoji tədqiqatlarda fiziki inkişaf anlayışı insan orqanizminin morfoloji və funksional xüsusiyyətlərinin yaş mərhələlərinə uyğun dəyişməsi və təkmilləşməsi prosesi kimi izah olunur. Bu prosesə bədənin boy və çəki göstəriciləri, əzələ-sümük sisteminin vəziyyəti, daxili orqanların funksional imkanları, habelə əsas fiziki keyfiyyətlərin inkişaf səviyyəsi daxildir [3, s.83].

Gimnastika məşğələləri məhz bu komponentlərin kompleks şəkildə inkişafına yönəlmiş məqsədyönlü hərəkətlər sistemi olduğuna görə

məktəb fiziki tərbiyəsində xüsusi əhəmiyyət kəsb edir.

Məktəb yaşlı uşaqlarda orqanizmin intensiv inkişaf mərhələsində olması gimnastikanın təsir imkanlarını daha da artırır [4]. Bu yaş dövründə sümük toxuması hələ tam möhkəmlənmədiyindən, əzələ və bağ aparatının elastikliyi yüksək olduğundan düzgün seçilmiş gimnastik hərəkətlər skelet sisteminin sağlam formalaşmasına əlverişli şərait yaradır. Tədqiqatlar göstərir ki, gimnastika elementlərinin müntəzəm tətbiqi onurğa sütununun fizioloji əyriliklərinin normal inkişafına, düzgün qamətin formalaşmasına və skolioz, kifoz kimi postural pozuntuların qarşısının alınmasına mühüm təsir göstərir [9, s. 84]. Bu baxımdan gimnastika məktəb mühitində profilaktik xarakter daşıyan əsas fiziki fəaliyyət növlərindən biri hesab olunur.

Gimnastikanın şagirdlərin fiziki inkişafına təsiri ilk növbədə əzələ-sümük sisteminin möhkəmləndirilməsi ilə özünü göstərir. Gimnastik hərəkətlər zamanı müxtəlif əzələ qrupları – həm böyük, həm də kiçik əzələlər aktiv şəkildə işə cəlb olunur. Bu isə əzələlərin simmetrik inkişafını, əzələ tonusunun tənzimlənməsini və hərəkət aparatının ümumi funksional vəziyyətinin yaxşılaşmasını təmin edir. Xüsusilə statik və dinamik yüklənmələrin optimal şəkildə növbələşdirilməsi əzələlərin güc və dözümlülük xüsusiyyətlərinin mərhələli şəkildə artmasına imkan yaradır. Elmi mənbələrdə qeyd olunur ki, gimnastika ilə sistemli məşğul olan şagirdlərdə əzələ gücünün artımı ilə yanaşı, hərəkətlərin koordinasiyası və dəqiqliyi də əhəmiyyətli dərəcədə yüksəlir [6, s.78].

Gimnastika məşğələlərinin mühüm təsir istiqamətlərindən biri də çeviklik və elastikliyin inkişafıdır. Çeviklik insanın oynaqlarda geniş amplitudlu hərəkətləri sərbəst yerinə yetirmə qabiliyyətini ifadə edir və bu keyfiyyət məktəb yaşlarında xüsusilə intensiv inkişaf edir. Gimnastik hərəkətlərdə tətbiq olunan dartılma, əyilmə, dönmə və tarazlıq elementləri oynaqların hərəkətliliyini artırmaqla yanaşı, bağ və vətərlərin elastikliyini də yüksəldir. Mütəxəssislərin fikrincə, erkən yaşlardan gimnastika ilə məşğul olan uşaqlarda oynaqların funksional imkanları daha uzun müddət qorunur və gələcəkdə travma riski azalır [7, s.63].

Gimnastikanın fiziki inkişaf prosesinə təsiri təkcə dayaq-hərəkət aparatı ilə məhdudlaşmır, eyni zamanda ürək-damar və tənəffüs sistemlərinin funksional vəziyyətinin yaxşılaşmasında da özünü göstərir. Gimnastika məşqləri zamanı orqanizmin oksigen tələbatı artır, tənəffüsün dərinliyi və ritmi tənzimlənir, ürək yığılmalarının tezliyi fizioloji norma daxilində yüksəlir. Bu isə qan dövranının yaxşılaşmasına, toxumaların oksigenlə təminatının artmasına və maddələr mübadiləsinin intensivləşməsinə səbəb olur. Aparılan elmi araşdırmalar göstərir ki, müntəzəm gimnastika məşğələləri şagirdlərin ümumi fiziki iş qabiliyyətini artırmaqla yanaşı, onların yorğunluğa davamlılığını da yüksəldir [10, s. 48].

Koordinasiya qabiliyyətinin inkişafı gimnastikanın şagirdlərin fiziki inkişafına təsirinin mühüm göstəricilərindən biri kimi qiymətləndirilir. Koordinasiya mürəkkəb hərəkətlərin dəqiq və məqsədyönlü şəkildə yerinə yetirilməsini təmin edən əsas motor qabiliyyətlərdən biridir. Gimnastik elementlərin öyrədilməsi zamanı şagirdlər bədənin müxtəlif hissələrinin eyni vaxtda və uyğun şəkildə idarə olunmasını mənimsəyirlər ki, bu da sinir-əzələ əlaqələrinin təkmilləşməsinə şərait yaradır. Elmi ədəbiyyatda qeyd olunur ki, yüksək koordinasiya qabiliyyəti sonrakı yaş mərhələlərində digər idman növlərinin mənimsənilməsini də əhəmiyyətli dərəcədə asanlaşdırır [6, s. 44-45].

Gimnastika məşğələlərinin fiziki inkişaf baxımından mühüm təsir sahələrindən biri də sürət və reaksiya qabiliyyətinin formalaşdırılmasıdır. Xüsusilə çevik hərəkətlər, sürətli keçidlər və ritmik kombinasiyalar şagirdlərin hərəkət sürətini və reaksiya vaxtını yaxşılaşdırır. Bu keyfiyyətlər gündəlik həyat fəaliyyətində, eləcə də digər fiziki və idman fəaliyyətlərində mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, gimnastika ilə məşğul olan şagirdlərdə motor reaksiyaların çevikliyi və dəqiqliyi daha yüksək səviyyədə formalaşır [9, s. 66].

Məktəb fiziki tərbiyəsində gimnastikanın fiziki inkişaf üçün əhəmiyyətli olmasının əsas səbəblərindən biri onun fərdiləşdirilmiş tətbiq imkanlarının geniş olmasıdır. Müəllim şagirdlərin yaş, cins, fiziki hazırlıq və sağlamlıq səviyyəsini nəzərə alaraq gimnastik yüklənməni tənzimləyə bilir. Bu isə fiziki inkişaf prosesinin təbii və təhlükəsiz şəkildə həyata keçirilməsinə imkan yaradır. Xüsusilə zəif fiziki hazırlığa malik və ya sağlamlıq imkanları məhdud olan şa-

girdlər üçün gimnastika digər idman növlərinə nisbətən daha əlverişli hesab olunur.

Gimnastikanın fiziki inkişaf üzərində təsiri uzunmüddətli və davamlı xarakter daşıyır. Mütəxəssislər qeyd edirlər ki, məktəb yaşlarında gimnastika vasitəsilə formalaşan düzgün hərəkət vərdişləri və fiziki keyfiyyətlər sonrakı həyat mərhələlərində də qorunub saxlanılır [9, s. 83]. Bu isə ümumi sağlamlıq səviyyəsinin yüksəlməsinə, əmək və idman fəaliyyətində məhsuldarlığın artmasına müsbət təsir göstərir. Eyni zamanda, gimnastika məşğələləri fiziki inkişafla yanaşı, bədənin funksional ehtiyatlarının artırılmasına və adaptasiya imkanlarının genişlənməsinə xidmət edir.

Elmi-nəzəri təhlil əsasında qeyd etmək olar ki, gimnastika fənni şagirdlərin fiziki inkişafına sistemli, çoxşaxəli və davamlı təsir göstərən universal fiziki tərbiyə vasitəsidir. Onun əzələ-sümük sisteminin möhkəmləndirilməsində, əsas fiziki keyfiyyətlərin inkişafında, orqanizmin funksional imkanlarının artırılmasında və sağlamlığın qorunmasında rolu danılmazdır. Bu baxımdan gimnastikanın ümumi orta təhsil sistemində fiziki tərbiyə fənninin əsas məzmun komponentlərindən biri kimi saxlanılması və daha da təkmilləşdirilməsi elmi-pedaqoji baxımdan tam əsaslandırılmış hesab olunur.

Gimnastika fənni fiziki inkişafla yanaşı, şagirdlərin psixoloji hazırlığının və mənəvi keyfiyyətlərinin formalaşmasında da mühüm rol oynayır. Hərəkətlərin dəqiqliklə yerinə yetirilməsi diqqətin, yaddaşın və iradi səylərin inkişafını stimullaşdırır. Bundan əlavə, gimnastik tapşırıqların mərhələli şəkildə mənimsənilməsi şagirdlərdə özünəinam və məsuliyyət hissini gücləndirir.

Kollektiv gimnastika məşqləri isə sosial bacarıqların – əməkdaşlıq, qarşılıqlı hörmət və nizam-intizamın formalaşmasına müsbət təsir göstərir. Bu baxımdan gimnastika fənni məktəb tərbiyə sisteminin ayrılmaz tərkib hissəsi kimi çıxış edir.

Ümumi orta təhsildə gimnastikanın tədrisi didaktik prinsiplərə – sistemlilik, ardıcıllıq, əlçatanlıq və fərdiləşdirmə prinsiplərinə əsaslanmalıdır. Müəllim şagirdlərin fiziki hazırlıq səviyyəsini və sağlamlıq göstəricilərini nəzərə alaraq məşqlərin intensivliyini tənzimləməlidir.

Metodik baxımdan gimnastika dərslərində oyun elementlərinin, vizual vasitələrin və müasir pedaqoji texnologiyaların tətbiqi təlimin səmərəliliyini artırır. Bu yanaşma şagirdlərin dərsə marağını yüksəldir və hərəkət fəaliyyətinə motivasiyanı gücləndirir.

Məktəb yaşlarında formalaşan sağlam vərdişlər insanın sonrakı həyat mərhələlərində də davamlı xarakter daşıyır. Gimnastika fənni şagirdlərdə gündəlik fiziki aktivliyə ehtiyacın yaranmasına, düzgün qamət və hərəkət mədəniyyətinin formalaşmasına xidmət edir.

Mütəxəssislərin fikrincə, erkən yaşlardan gimnastika ilə məşğul olan uşaqlarda hipodinamiya ilə bağlı risklər azalır, ümumi sağlamlıq göstəriciləri isə əhəmiyyətli dərəcədə yüksəlir [10, s.35].

Müasir təhsil konsepsiyaları çərçivəsində gimnastika inklüziv təhsilin tələblərinə cavab verən çevik fənn kimi də dəyərləndirilir. Fərqli fiziki imkanlara malik şagirdlərin fiziki fəallığa cəlb olunmasında gimnastikanın adaptiv formaları mühüm rol oynayır. Bu yanaşma ümumi orta təhsildə fiziki tərbiyənin sosial inteqrasiya və sağlamlığın qorunması funksiyalarını gücləndirir [8].

Aparılan elmi-nəzəri təhlil göstərir ki, gimnastika fənni ümumi orta təhsildə fiziki tərbiyə sisteminin əsas və əvəzolunmaz komponentlərindən biridir. Gimnastika şagirdlərin fiziki inkişafının təmin edilməsində, psixoloji dayanıqlığının artırılmasında və sağlam həyat tərzinin formalaşdırılmasında kompleks pedaqoji vasitə kimi çıxış edir.

Bu fənnin tədrisinin elmi əsaslara söykənən metodik yanaşmalarla təşkili fiziki tərbiyə dərslərinin səmərəliliyini artırmaqla yanaşı, məktəb təhsilinin ümumi keyfiyyətinə də müsbət təsir göstərir. Nəticə etibarilə, gimnastikanın ümumi orta təhsildə fiziki tərbiyə sistemində rolunun gücləndirilməsi müasir təhsil strategiyalarının prioritet istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

Problemin aktuallığı. Müasir dövrdə məktəb yaşlı uşaqlar arasında fiziki passivliyin artması, sağlamlıq göstəricilərinin zəifləməsi və düzgün qamət pozuntularının geniş yayılması ilə şərtlənir. Ümumi orta təhsildə fiziki tərbiyə sistemində gimnastikanın elmi əsaslarla və sistemli şəkildə tətbiqi bu mənfi tendensiyaların qarşısının alınmasında ən təsirli pedaqoji vasitələrdən biri kimi çıxış edir. Bu baxımdan gimnastika fənninin şagirdlərin fiziki inkişafına təsirinin elmi cəhətdən araşdırılması və praktik tövsiyələrin hazırlanması xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Gimnastika fənninin ümumi orta təhsil şəraitində şagirdlərin fiziki inkişa-

fına kompleks və sistemli təsirinin müasir pedaqoji yanaşmalar əsasında təhlil edilməsində ifadə olunur. Eyni zamanda, gimnastik vasitələrin yaş və fərdi xüsusiyyətlərə uyğun tətbiq mexanizmlərinin elmi cəhətdən əsaslandırılması tədqiqatın yenilik aspektini müəyyən edir.

Problemin praktik əhəmiyyəti. Gimnastika fənninin ümumi orta təhsil müəssisələrində fiziki tərbiyə dərslərinin məzmununun təkmilləşdirilməsində və tədris prosesinin səmərəliliyinin artırılmasında istifadə olunma imkanları ilə müəyyən olunur. Əldə olunan nəticələr fiziki tərbiyə müəllimləri üçün gimnastik məşqlərin yaş və fiziki hazırlıq səviyyəsinə uyğun planlaşdırılmasında metodik tövsiyə xarakteri daşıyır. Tədqiqat materialları sağlam həyat tərzinin formalaşdırılması və şagirdlərin fiziki inkişafının davamlı təmin edilməsi məqsədilə təhsil praktikasında tətbiq oluna bilər.

Ədəbiyyat

1. Abdinova, N.İ. Ümuminkişaf hərəkətləri: Tədris vəsaiti. / N.İ. Abdinova, S.S. Bağırov, E.V. Abdinov. – Bakı: ADBTİA-nın mətbəəsi, –2018. – 320 s.
2. Babanlı, Y. Yuxarı sinif şagirdlərinin fiziki tərbiyə fənnindən fəaliyyətlərinin qiymətləndirilməsi yolları // -Bakı: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. – 2011. – № 1. – s. 97–99.
3. Бальсевич, В.К. Теория и методика физического воспитания / В.К. Бальсевич. – Москва: Физкультура и спорт, –2012. – 256 с.
4. İlhan, O., Odabaş; Kıstak Altan, B. Comparison of Swimmers' Health-Related Fitness Parameters in General and Special Preparation Periods // Research in Sport Education and Sciences. – 2025. – Vol. 27, No. 2. – P. 88–98.
5. İsmayılov, X. Fiziki keyfiyyətlərin formalaşmasında fiziki tərbiyənin rolu // -Bakı: Qədim Diyar. – 2025. – Cild 7, Sayı 1. – S. 19–28.
   – URL: https://aem.az/uploads/posts/2025/01/Q%C9%99dim%20Diyar%20-%207.1-13-22.pdf
6. Кузнецов, А.В. Физическое воспитание школьников / А.В. Кузнецов. – Санкт-Петербург: Питер, –2018. – 312 с.
7. Лебедихина, Т.М. Гимнастика: теория и методика преподавания: учебное пособие. / Т.М. Лебедихина. – 2017. – 298 с.
8. Məmmədzadə, M. Əlilliyi olan şəxslərin fiziki tərbiyə dərslərində mövcud vəziyyəti və imkanları // "İnklüziv təhsil: nailiyyətlər və qarşıda duran vəzifələr" I Respublika Elmi Konfransının materialları. – Naxçıvan, 4–5 mart 2025. – S. 275–279. – URL: https://konfrans.ndu.edu.az/media/publication-pdf/%C4%B0nkluziv_t%C9%99hsil_07.10.2025.pdf
9. Nərimanov, B.Ə. İdman gimnastikası / B.Ə. Nərimanov, S.Ə. Əliyeva, E.Ə. Nərimanov. – Bakı, 2004. – 283 s.
10. World Health Organization. Guidelines on physical activity and sedentary behaviour. – Geneva: WHO, –2020. – 65 p.

Redaksiyaya daxil olub: 22.01.2026

UOT 378

İlhamə Həmid qızı Sultanova
Bakı Biznes Universitetinin
Humanitar elmlər kafedrasının dosenti,
psixologiya üzrə fəlsəfə doktoru
E-mail sultanova.ilhame@bbu.edu.az
https://orcid.org/0000-0002-5485-7830

Lamiyə Elşad qızı Qasımova
Bakı Biznes Universitetinin müəllimi,
Yalova Universitetinin fəlsəfə doktoru proqramı üzrə doktorantı
E-mail qlamiye@142.gmail.com
https://orcid.org/0009-0004-8838-2564

Gülnar Məzahir qızı Abbasova
Bakı Biznes Universitetinin
Humanitar elmlər kafedrasının müəllimi
https://orcid.org/0009-0001-2925-3015
E-mail: gulnar.abbasova111@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(2).176-184

AHILLARLA SOSİAL İŞ FƏNNİNİN TƏDRİSİNDƏ İNTERAKTİV METODLARDAN İSTİFADƏ

Ilhama Hamid Sultanova
associate professor of the department of Humanities at Baku Business University
doctor of philosophy in psychology

Lamiya Elshad Gasimova
lecturer, of Baku Business University
doctorial student in the program of doctor of philosophy at Yalova University

Gulnar Mezahir Abbasova
lecturer at the department of Humanities at Baku Business University

APPLICATION OF INTERACTIVE METHODS IN TEACHING THE DISCIPLINE SOCIAL WORK WITH OLDER PEOPLE

Ильхама Гамид гызы Султанова
доцент кафедры Гуманитарных наук Бакинского Университета Бизнеса,
доктор философии по психологии

Ламия Эльшад гызы Гасымова
преподаватель Бакинского Университета Бизнеса,
докторант по программе доктора философии Яловского университета

Гюльнар Мезахир гызы Аббасова
преподаватель кафедры Гуманитарных наук Бакинского Университета Бизнеса

ПРИМЕНЕНИЕ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ В ПРЕПОДАВАНИИ ДИСЦИПЛИНЫ СОЦИАЛЬНАЯ РАБОТА С ПОЖИЛЫМИ ЛЮДЬМИ

Xülasə. Məqalədə ahıllarla sosial iş fənninin tədrisində interaktiv təlim metodlarının tətbiqinin əhəmiyyəti araşdırılmışdır. Müasir dövrdə əhalinin yaşlanması fonunda sosial iş mütəxəssislərinin praktik bacarıqlara, empatiyaya və etik qərarvermə qabiliyyətinə malik olmasının vacibliyi vurğulanmışdır. Araşdırmada rol oyunları, situasiya təhlili, simulyasiya və qrup müzakirələri kimi interaktiv metodların tələbələrin peşəkar hazırlığına müsbət təsiri elmi mənbələr əsasında təhlil edilmişdir. Azərbaycan, Rusiya, Türkiyə və Qərb ölkələrinin elmi ədəbiyyatı müqayisəli şəkildə analiz edilərək interaktiv tədrisin ümumi və fərqli cəhətləri müəyyən edilmişdir. Nəticə olaraq, interaktiv təlim metodlarının ahıllarla sosial iş üzrə ixtisaslı və rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasında əsas didaktik vasitə olduğu qənaətinə gəlinmişdir.

Açar sözlər: *ahıllarla sosial iş, interaktiv təlim metodları, sosial iş təhsili, empatiya, simulyasiya və rol oyunları, peşəkar hazırlıq, gerontologiya, praktik bacarıqlar*

Abstract. The article examines the importance of applying interactive teaching methods in the instruction of the course “Social Work with the Elderly.” In the context of population aging in the modern era, the necessity for social work professionals to possess practical skills, empathy, and ethical decision-making abilities is emphasized. Based on scholarly sources, the study analyzes the positive impact of interactive methods such as role-playing, case analysis, simulation, and group discussions on students’ professional training. Academic literature from Azerbaijan, Russia, Turkey, and Western countries is comparatively analyzed to identify both common and distinctive features of interactive teaching practices. As a result, the study concludes that interactive teaching methods serve as a key didactic tool in training qualified and competitive specialists in social work with the elderly.

Keywords: *social work with the elderly, interactive teaching methods, social work education, empathy, simulation and role-playing, professional training, gerontology, practical skills*

Аннотация. В статье исследуется значение применения интерактивных методов обучения в преподавании дисциплины «Социальная работа с пожилыми людьми». В современный период на фоне старения населения подчёркивается важность наличия у специалистов по социальной работе практических навыков, эмпатии и способности к этическому принятию решений. В исследовании на основе научных источников проанализировано положительное влияние таких интерактивных методов, как ролевые игры, анализ ситуаций, симуляции и групповые обсуждения, на профессиональную подготовку студентов. Научная литература Азербайджана, России, Турции и западных стран была проанализирована в сравнительном аспекте, что позволило выявить общие и отличительные особенности интерактивного обучения. В результате сделан вывод о том, что интерактивные методы обучения являются основным дидактическим средством в подготовке квалифицированных и конкурентоспособных специалистов по социальной работе с пожилыми людьми.

Ключевые слова: *социальная работа с пожилыми людьми, интерактивные методы обучения, образование в области социальной работы, эмпатия, симуляция и ролевые игры, профессиональная подготовка, геронтология, практические навыки*

Müasir dövrdə dünya miqyasında demoqrafik dəyişikliklər, xüsusilə də əhalinin yaşlanması tendensiyası sosial rifah sistemlərinin qarşısında yeni çağırışlar yaratmışdır. BMT-nin hesabatlarına əsasən, 2050-ci ilə qədər dünya əhalisinin təxminən 22%-ni ahıllar təşkil edəcək və bu, sosial xidmətlərin, səhiyyə sistemlərinin və sosial müdafiə mexanizmlərinin daha çevik, kompleks və peşəkar yanaşma tələb etdiyini göstərir. Bu reallıq sosial iş ixtisasının ahıllarla iş sahəsində ixtisaslaşmış mütəxəssislərə olan tələbatını artırır. Ahılların fiziki, psixoloji, sosial və emosional ehtiyaclarının doğru qiymətləndirilməsi və onlara adekvat xidmətlərin göstərilməsi yalnız yüksək səviyyədə hazırlanmış sosial işçilərin fəaliyyəti nəticəsində mümkündür. Bu baxımdan ali və orta ixtisas təhsili müəssisələrində “Ahıllarla sosial iş” fənninin səmərəli şəkildə tədrisi xüsusi əhəmiyyət daşıyır. Ənənəvi tədris metodları tələbələrin yalnız nəzəri biliklər əldə etməsinə şərait yaradır, lakin sosial iş sahəsinin praktikyönlü olması nəzərə alındıqda, bu biliklərin real şəraitdə tətbiqi bacarıqlarının formalaşdırılması üçün kifayət etmir. Ahıllarla iş zamanı geniş spektrli sosial problemlərlə – yaşlanma sindromu, sosial təcrid, ailə münasibətlərində dəyişikliklər, psixoloji və emosional çətinliklər, sosial xidmətlərə çıxışın

məhdudluğu – qarşılaşmaq mümkündür. Bu səbəbdən tələbələrin yalnız məlumatlı deyil, həm də kommunikativ bacarıqlara sahib, empatik yanaşmanı mənimsəmiş peşəkarlar kimi yetişdirilməsi mühüm məqsəddir. Son illərdə pedaqoji tədqiqatlar və tədris modelləri göstərir ki, interaktiv təlim metodlarının tətbiqi tələbələrin öyrənmə prosesinə aktiv qoşulmasını təmin edir və onların sosial bacarıqlarını əhəmiyyətli dərəcədə inkişaf etdirir. Xüsusilə ahıllarla sosial iş kimi humanitar sahələrdə bu metodlar empatiyanın formalaşması, sosial situasiyaların analiz edilməsi, ünsiyyət bacarıqlarının inkişafı və etik qərarvermə kimi peşə kompetensiyaların gücləndirilməsi üçün olduqca əlverişlidir. Tədrisdə interaktiv metodlardan istifadə həm tələbələrin motivasiyasını artırır, həm də onların real iş şəraitində qarşılaşa biləcəyi situasiyaları dərindən anlamağa şərait yaradır. Rol oyunları, *case-study*, simulyasiya məşğələləri, video-analiz, debatlar kimi metodlar tələbələrə ahıllarla işləyərkən ortaya çıxan konkret problemləri modelləşdirmək, alternativ həll yolları tapmaq və peşəkar davranış standartlarını mənimsəmək imkanı verir. Bu baxımdan interaktiv təlim sosial iş üzrə mütəxəssislərin formalaşmasında əvəzolunmaz didaktik vasitə hesab olunur. Beləliklə, ahıllarla sosial iş fənninin tədrisində interaktiv metodlardan istifadənin aktuallığı həm cəmiyyətin sosial-iqtisadi reallıqları ilə, həm də sosial iş peşəsinin tələbləri ilə şərtlənir. Ahıllarla sosial işin tədrisi və bu prosesdə interaktiv metodlardan istifadə mövzusu müxtəlif elmi aspektdə geniş araşdırılmışdır. Müxtəlif ölkələrdə bu sahənin inkişaf səviyyəsi və sosial iş təhsili modelləri fərqli olduğundan, mövcud ədəbiyyatın müqayisəli təhlili həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyət daşıyır. Aşağıda Azərbaycan, Rusiya, Türkiyə və Qərb (ABŞ–Avropa) elmi mənbələri əsasında mövzuya dair sistematik analiz təqdim olunur. Azərbaycan elmi mühiti son illər sosial iş ixtisasının inkişafı ilə bağlı tədris metodologiyasına daha çox diqqət ayırır. Rəşad Əliyev və Məryəm Hüseynova (8, s. 114–117) simulyasiya əsaslı təlimin rolunu vurğulayır. Onlar hesab edirlər ki, simulyativ məşğələlər ahıllarla sosial iş praktikası üçün tələb olunan "situativ düşüncə", "psixoloji uyğunlaşma" və "etik qərarvermə" kimi bacarıqları ən yüksək səviyyədə inkişaf etdirir. Azərbaycanın müəllim–tələbə münasibətlərinə xas olan ənənəvi hierarxik modeldə interaktiv metodlara keçidin müəyyən çətinlik yaratması da bu tədqiqatlarda qeyd olunur. A. Süleymanova (10, s. 34) bildirir ki, "İnteraktiv metodlar təlim prosesində tələbələrin aktiv iştirakını təmin edir, onların yaradıcılıq və kommunikativ bacarıqlarını inkişaf etdirir və dərs materiallarının praktik kontekstdə mənimsənilməsini gücləndirir."Eyni zamanda, Azərbaycanda yaşlı insanların əmək qabiliyyətinin azalması və sosial münasibətlərin zəifləməsi sosial xidmət subyektlərinin fəaliyyətini genişləndirməyi zəruri edir və ahılların sosial müdafiəsi üçün sosial xidmətlərin səmərəliliyinin artırılmasına diqqət yetirilməlidir (9, 2023, s. 7–10). Ümumilikdə Azərbaycan ədəbiyyatı göstərir ki, interaktiv metodlar ahıllarla sosial iş fənninin:

- praktikyönlüyünü artırır,
- tələbələrdə empatiyanı gücləndirir,
- sosial situasiyaların analizini real kontekstə yaxınlaşdırır,
- müəllimlərin metodik hazırlığı ilə sıx bağlıdır

Rus dilli ədəbiyyatda gerontologiya və interaktiv tədris ənənəsi. Rusiya elmi məktəbi gerontologiya, sosial iş psixologiyası və tədris metodikası sahələrində zəngin ənənəyə malikdir. Lyudmila Volkova (12) yazır ki, ahıllarla sosial iş üzrə tədris metodları tələbələrin psixoloji hazırlığını inkişaf etdirməyə fokuslanmalıdır və bu xüsusən interaktiv metodlarla mümkündür. Onun araşdırmasına görə, tədris prosesində dramlaşdırma və dialoq əsaslı məşğələlər tələbələrin ahıllarla ünsiyyətdə yaranan emosional çətinlikləri daha yaxşı başa düşmələrinə kömək edir. Tatyana Zeleneva və Olga Petrova (13.) sosial iş təhsilində situasiya təhlilinin (case-study) tətbiqini təhlil edərək onun çətin etik situasiyalarda doğru qərarvermə bacarığını inkişaf etdirdiyini göstərirlər. Ahıllarla iş zamanı ən çox rast gəlinən beş fəaliyyət dilemması bu tədqiqatda geniş analiz olunur: ahılların hüquqlarının qorunması, ailədaxili zorakılıq, sosial təcrid, iqtisadi istismar və səhiyyə xidmətlərinə çıxış. Elena Şubina (14) isə diqqəti kommunikativ bacarıqların inkişafına yönəldir. O, video-analizin tələbələrin öz davranış modellərini və ahıllarla ünsiyyət zamanı ortaya çıxan emosional reaksiyalarını daha obyektiv qiymətləndirməsinə şərait yaratdığını qeyd edir.

Rus ədəbiyyatı ümumilikdə interaktiv tədrisin:

• refleksiv-məntiqi düşüncəni gücləndirdiyini,

• empatiya və şəxsi münasibətləri şüurlu şəkildə idarə etməyi öyrətdiyini,

• tədrisin psixoloji ölçülərini nəzərə alan kompleks metodlar tələb etdiyini vurğulayır

Türk tədqiqatlarında modelləşdirmə və empatiya mərkəzli yanaşma Türkiyə sosial xidmət elmi son illərdə ahıllarla sosial iş mövzusuna xüsusi diqqət yetirir. Bu ölkənin ədəbiyyatında interaktiv tədris ən çox empatiya, çətin hallarla işləmə və praktik modelləşdirmə aspektlərində araşdırılır. Ayşe Güngör və Selin Karataş (4.) interaktiv təlimin sosial xidmət tələbələrinin "peşəkar empatiya səviyyəsini" əhəmiyyətli dərəcədə artırdığını eksperimentlə sübut etmişdir. Onların araşdırmasında rol oyunlarının psixososial vəziyyətləri anlamaqda ən təsirli metod olduğu qeyd edilir. Hakan Yıldırım (11) ahıllarla sosial iş dərslərində istifadə edilən "rol oynamanın üç səviyyəsini" müəyyən edir:

• müşahidə mərhələsi,

• hissi-identifikasiya mərhələsi,

• davranış modeli yaratma mərhələsi. Bu model türk ədəbiyyatında geniş tətbiq edilir. Zeynep Arslan (1) *case-study* metodunun ahılların sosial problemlərinin real həyat kontekstində öyrədilməsinə imkan verdiyini qeyd edir. Araşdırma göstərir ki, türk tələbələr mədəni dəyərlərə (ailə bağları, yaşlıya hörmət) əsaslanaraq qərar verməyə meyllidirlər və bu, interaktiv təlim zamanı müzakirələrin mədəni aspektini gücləndirir.

Türkiyə tədqiqatları göstərir ki:

• tələbələr real hadisələr üzərində işləməyə motivasiya olunur,

• praktiki situasiyaların canlandırılması peşəkar özünəinamı artırır,

• empatiya interaktiv təlimin əsas hədəfi kimi çıxış edir

İngilis dilli (Qərb) ədəbiyyatda təcrübəyönlü sosial iş təhsili Qərb ölkələrində interaktiv tədris, xüsusilə sosial iş təhsilində, uzun illərdir əsas metodoloji xətt hesab olunur. Malcolm Knowles (5) andragoji nəzəriyyəsi yetkin öyrənənlərin fəal iştirak, təcrübə və özünüidarə olunan öyrənmə prinsiplərinə əsaslanır. Bu nəzəriyyə interaktiv metodların sosial iş təhsilində tətbiqinə elmi əsas yaradır. Li və Lee (6) tərəfindən aparılan tədqiqatda müəyyən edilmişdir ki, gerontologiya və ahıllarla sosial iş üzrə tədrisdə təcrübəyönlü və interaktiv metodların, xüsusilə etnoqrafik müsahibələrə əsaslanan öyrənmənin tətbiqi tələbələrin yaşlanma prosesini real sosial kontekstdə dərk etməsinə, empatiya səviyyəsinin yüksəlməsinə və ahıllarla peşəkar işləməyə hazırlıq bacarıqlarının əhəmiyyətli dərəcədə inkişafına səbəb olur. Stephen Brookfield (2) qeyd edir ki, "kritik refleksiya" sosial iş təhsilinin mərkəzi elementidir və interaktiv müzakirələr tələbələrə öz peşəkar davranışlarını tənqidi qiymətləndirmək imkanı verir. John Mayer və Luis Rodriguez (7) simulyasiya əsaslı təlimin sosial iş tələbələrində:

• qeyri-müəyyən situasiyalarda qərarvermə,

• stressli hadisələrə psixoloji adaptasiya,

• etik dilemmlərin qiymətləndirilməsi kimi bacarıqları inkişaf etdirdiyini göstərir

James Cavanaugh və Frauke Blanchard-Fields (3) ahıllarla işdə emosional zəkaya xüsusi önəm verərək interaktiv təlimin tələbələrin emosional reaksiyalarını idarə etmə bacarığını artırdığını vurğulayır. İngilis dilli tədqiqatlar bu sahədə ən geniş və dərin nəzəri baza yaradır. Burada interaktiv metodlar yalnız tədris üsulu kimi deyil, həm də peşəkar sosial işçinin formalaşmasının əsas komponenti kimi təqdim olunur. Beləliklə ümumiləşdirərək demək ola ki, Malcolm Knowles (5. s. 25–40) Andragoji nəzəriyyəyə əsaslanaraq yetkin öyrənənlərin fəal iştirak və təcrübəyə əsaslanan öyrənmə prinsiplərini vurğulayır. Li və Lee (6) göstərirlər ki, etnoqrafik müsahibələrə əsaslanan təcrübəyönlü təlim gerontologiya və ahıllarla sosial iş üzrə tələbələrin empatiya səviyyəsini artırır və peşə-kar bacarıqlarını inkişaf etdirir. Brookfield (2. s. 50–75) "kritik refleksiya"nın əhəmiyyətini, Mayer və Rodriguez (7. s. 235–249) simulyasiya təliminin bacarıq inkişafını, Cavanaugh və Blanchard-Fields (3. s. 310–325) isə interaktiv təlimin emosional zəkaya təsirini vurğulayır.

Araşdırılan tədqiqatlar göstərir ki, Azərbaycan - mədəni dəyərlər, ailə modelləri və sosial müdafiə sistemi kontekstində interaktiv tədris araşdırılır. Rusiya – gerontologiya və psixoloji hazırlıq üzərində fokuslanır. Türkiyə – empatiya və modelləşdirmə əsas öyrənmə mexanizmi kimi qəbul edilir. Qərb – nəzəri metodologiya, simulyasiya və refleksiya əsas öyrənmə strukturu kimi təqdim olunur. Bütün ölkələrdə interaktiv metodlar sosial iş təhsilinin key-

fiyyətini artıran əsas vasitə kimi tanınır. Rol oyunları, situasiya təhlili və simulyasiya ən çox tövsiyə edilən metodlardır. Ahıllarla işləməyi öyrətmək üçün empatiya, ünsiyyət, etik qərarvermə və praktiki bacarıqların inkişafı əsas hədəfdir. İnteraktiv tədrisin effektivliyi müəllimin pedaqoji hazırlığından və texniki imkanlardan asılıdır.

Metodologiya

Bu tədqiqat ahıllarla sosial iş fənninin tədrisində interaktiv metodlardan istifadənin effektivliyini qiymətləndirmək məqsədilə aparılmışdır. Araşdırma qarışıq metodlu (mixed-method) tədqiqat çərçivəsində həyata keçirilmiş və həm keyfiyyət, həm də kəmiyyət məlumatları əsasında nəticələr çıxarılmışdır. Tədqiqat üç əsas mərhələdən – müşahidə, sorğu və müsahibə mərhələlərindən ibarət olmuşdur.

Tədqiqat Bakı Biznes Universitetində sosial iş ixtisasında aparılmışdır. İştirakçılar aşağıdakı qruplardan ibarət olmuşdur:

- 112 nəfər sosial iş ixtisası tələbəsi (II–IV kurs)
- 9 nəfər sosial iş fənlərini tədris edən müəllim
- 3 nəfər tədris metodikası üzrə ekspert

İştirakçılar könüllü əsaslarla tədqiqatda iştirak etmiş və məlumatlar etika prinsiplərinə uyğun toplanmışdır. Araşdırmanın ilkin mərhələsində fənnin tədris olunduğu 18 dərs müşahidə edilmişdir. Müşahidə strukturlu formatda aparılmış və aşağıdakı indikatorlar əsasında qiymətləndirilmişdir:

- İnteraktiv metodların dərs planına uyğun tətbiqi
- Tələbələrin fəallıq və iştirak səviyyəsi
- Müəllimin interaktiv metodları idarəetmə bacarığı
- Tələbələrarası əməkdaşlıq və qrup dinamikası
- Praktik bacarıqların nümayiş etdirilməsi

Müşahidə zamanı həm audio, həm də qısa qeydlər istifadə olunmuş, dərs prosesində tələbə və müəllim fəaliyyətlərinin intensivliyi ayrıca kodlaşdırılmışdır.

Tədqiqat çərçivəsində tələbələr arasında xüsusi olaraq hazırlanmış 30 suallıq yarı-strukturlaşdırılmış sorğu anketi tətbiq edilmişdir. Sorğu aşağıdakı alt-bölmələrdən ibarət olmuşdur:

- İnteraktiv metodlara münasibət
- İnteraktiv dərslərin motivasiya səviyyəsinə təsiri
- Ahıllarla sosial iş üzrə praktiki bacarıqların qiymətləndirilməsi
- Rol oyunları, debatlar və simulyasiyaların səmərəliliyi
- Multimedia resurslarının dərsin yadda qalmasına təsiri

Sorğu Likert şkalası (1–5) əsasında hazırlanmış və nəticələr kəmiyyət analizi üçün kodlaşdırılmışdır. Sorğunun etibarlılığı Cronbach Alpha ($\alpha = 0.87$) ilə təsdiqlənmişdir ki, bu da yüksək etibarlılıq göstəricisidir.

Keyfiyyət məlumatlarının toplanması üçün müəllimlərlə və metodistlərlə yarı-strukturlaşdırılmış müsahibələr keçirilmişdir. Müsahibə sualları aşağıdakı istiqamətləri əhatə etmişdir:

- İnteraktiv metodların tədrisdə tətbiq təcrübəsi
- Ahıllarla sosial iş fənninin spesifik çətinlikləri
- Tələbələrin interaktiv dərslərə reaksiyası
- Texniki və metodik ehtiyaclar
- İnteraktiv metodların tədris nəticələrinə təsiri

Məlumatlar tematik kodlaşdırma metodu ilə təhlil edilmiş və 5 əsas aspekt müəyyən edilmişdir: motivasiya, empatiya, kommunikasiya bacarıqları, tətbiqi bilik, müəllim hazırlığı.

3. Analiz edilən interaktiv metodlar

Tədqiqat zamanı interaktiv metodların hər biri həm müşahidə, həm sorğu, həm də müsahibələr əsasında ayrıca qiymətləndirilmişdir. Aşağıda bu metodların tədqiqatda necə analiz olunduğu geniş şəkildə izah olunur:

İnteraktiv metodların təhlili

№	İnteraktiv metod	Analiz zamanı diqqət yetirilən aspektlər	Tətbiq səviyyəsi Effektivlik
3.1	Rol oyunları və dramlaşdırma	• Rol bölgüsünün psixoloji və sosial məzmunu • Tələbələrin emosional reaksiyaları • Empatiya səviyyəsinin dəyişməsi • Konflikt situasiyalarının həll bacarığı	Müşahidə olunan dərslərin 64%-də tətbiq edilmiş, tələbələr tərəfindən ən

			effektiv metod hesab olunmuşdur
3.2	Qrup işləri və beyin həmləsi	• Fikir müxtəlifliyinin müzakirəyə təsiri • Qrupun özünüidarəetmə bacarığı • Tələbələrin aktivlik dərəcəsi • Problemlərin kollektiv həlli	"Ahılların sosial problemlərinin xəritələndirilməsi" tapşırıqlarında geniş tətbiq edilmişdir
3.3	Case-study (situasiya təhlili)	• Hadisələrin real praktikaya yaxınlığı • Tələbələrin situasiyanı analiz etmə bacarığı • Alternativ həll yollarının müəyyən edilməsi • Etik dilemmlərə yanaşma	Tələbələrin tənqidi düşünmə səviyyəsini artıran ən təsirli metodlardan biri kimi qiymətləndirilmişdir
3.4	Simulyasiya məşğələləri	• Tələbələrin real reaksiyaları • Stress altında qərarvermə bacarığı • Peşəkar davranış standartlarına uyğunluq • Simulyasiyadan sonra refleksiya	"Real situasiya təcrübəsi" hissini formalaşdırdığı üçün yüksək qiymətləndirilmişdir
3.5	Debatlar və müzakirələr	• Arqumentlərin məntiqi quruluşu • Qarşı tərəfin rəyinə münasibət • Ahıllarla bağlı stereotiplərin dağıdılması	Tələbələrin kritik düşünmə bacarığını nəzərəçarpacaq dərəcədə gücləndirmişdir
3.6	Multimedia vasitələri və video-analiz	• Videomaterialların emosional təsiri • Real həyat nümunələrinin yadda qalma səviyyəsi • Video-analiz əsasında tələbə refleksiyası • Ahıllarla bağlı empatiya səviyyəsinin yüksəlməsi	Tələbələrin həm emosional, həm də koqnitiv öyrənmə prosesinə güclü təsir göstərmişdir

İnteraktiv Metodların Effektivliyi üzrə Cədvəl

Metod	Orta Bal	İştirakçı sayı
Rol oyunları	4.6	112
Qrup işi	4.2	112
Case-study	4.4	112
Simulyasiya	4.7	112
Debat	4.1	112
Multimedia	4.5	112

Aşağıdakı diaqram İnteraktiv Metodların Effektivliyi üzrə tələbələrin verdiyi Orta Bal göstəricilərini müqayisəli şəkildə əks etdirir. Burada hər metod 1–5 Likert şkalasında qiymətləndirilib.



Diaqramda göstərilən nəticələrdən görünür ki, müxtəlif interaktiv tədris metodları tələbələr tərəfindən fərqli effektivlik dərəcəsinə malik kimi qiymətləndirilmişdir. Metodlar arasında həm praktikyönlülük, həm də emosional təsir gücü baxımından fərqlər müşahidə olunur.

1. Ən yüksək nəticə – Simulyasiya məşğələləri (4.7 bal)

Diaqramda ən yüksək orta bal simulyasiya metoduna məxsusdur. Bunun səbəbləri:

- Real iş şəraitinin modelləşdirilməsi
- Tələbədə "peşəkar situasiyada iştirak etmə" hissinin yaranması
- Ahıllarla işləyərkən qərarvermə və kommunikasiya bacarıqlarının praktiki şəkildə sınaqdan keçirilməsi
- Emosional və koqnitiv öyrənmənin birlikdə aktivləşməsi

Bu nəticə simulyasiyanın sosial iş ixtisası üçün ən uyğun metodlardan biri olduğunu təsdiqləyir.

2. Rol oyunları (4.6 bal) – Yüksək empatiya və sosial bacarıqlar

Rol oyunları diaqramda ikinci yüksək nəticəni göstərir. Səbəblər:

- Ahıl rolunu canlandıran tələbədə empatiya formalaşır
- Sosial situasiyaları canlı şəkildə təcrübədən keçirmək imkanı yaranır
- Kommunikasiya və emosional bacarıqlar inkişaf edir
- Rol oyunlarının yüksək bal qazanması onların sosial-humanitar sahələrdə effektivliyini təsdiqləyir.

3. Multimedia vasitələri (4.5 bal) – Vizual öyrənmənin gücü

Multimedia və video-analiz tələbələr tərəfindən yüksək qiymətləndirilmişdir. Bunun səbəbi:

- Real həyat nümunələrinin emosional təsir yaratması
- Ahıllarla bağlı sosial problemlərin vizual olaraq daha aydın başa düşülməsi
- Yaddaşda uzun müddət qalma üstünlüyü

Bu, göstərir ki multimedia materialları ahıllarla sosial iş kimi fənlərdə mühüm didaktik vasitədir.

4. Case-study (4.4 bal) – Analitik təfəkkürün inkişafı

Case-study orta səviyyədən yüksək nəticə göstərir. Tələbələr bu metod vasitəsilə:

- real hadisələri təhlil edir
- alternativ həll yolları hazırlayır
- tənqidi düşünmə bacarıqlarını inkişaf etdirirlər

Bu metod daha çox analitik yönlü olduğundan emosional təsiri simulyasiya və rol oyunlarına nisbətən zəifdir, lakin yenə də yüksək effektivdir.

5. Qrup işi (4.2 bal) – Orta səviyyədən yuxarı, lakin tam lider deyil

Qrup işinin digər metodlara nisbətən bir qədər aşağı qiymətləndirilməsi göstərir ki:

- Qrup dinamikası bəzən qeyri-bərabər olur
- Aktiv tələbələr daha çox iştirak edir, digərləri passiv qalır
- Effekt müəllimin idarəetmə bacarığından çox asılıdır

Bununla belə, qrup işi sosial əməkdaşlıq bacarıqlarını artırdığı üçün ümumilikdə müsbət dəyərləndirilir.

6. Debat (4.1 bal) – Ən aşağı, amma yenə də müsbət nəticə.

Debat metodu diaqramda ən aşağı balı alıb, lakin bu göstərici yenə də müsbət (4 baldan yuxarı) olaraq qalır. Bu fərqi izah edən səbəblər:

- Debat prosesinə bütün tələbələr bərabər səviyyədə qoşula bilmir
- Bəzi tələbələr müzakirə zamanı öz fikrini ifadə etməkdə çətinlik çəkir
- Sosial iş fənnində debat daha çox nəzəri səviyyədə qalır, praktik elementləri azdır

Beləliklə, diaqramdan göründüyü kimi:

✓ Praktik və emosionalyönlü metodlar ən yüksək nəticə göstərir: Simulyasiya → Rol oyunları → Multimedia

✓ Analitik və nəzəriyönlü metodlar orta-yüksək nəticə verir: Case-study → Qrup işi

✓ Daha abstrakt və müzakirəyönlü metod ən aşağı nəticəyə malikdir: Debat

Bu nəticələr sosial iş kimi praktik sahələrdə interaktiv metodların seçiminin tələbələrin motivasiyasına və öyrənmə keyfiyyətinə ciddi təsir etdiyini təsdiqləyir.

Nəticə

Ahıllarla sosial iş fənninin tədrisində interaktiv metodların tətbiqi tələbələrin professional hazırlığını əhəmiyyətli dərəcədə gücləndirir və onların real iş şəraitinə adaptasiyasını asanlaşdırır. Aparılan tədqiqat və müşahidələr göstərir ki, interaktiv tədris yalnız nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də tələbələrin sosial və emosional bacarıqlarının inkişafına şərait yaradır. Konkret olaraq:

Tədrisin keyfiyyətinin yüksəlməsi: İnteraktiv metodlar tələbələrin dərs prosesində fəal iştirakını təmin edir, diqqət və marağını artırır. Diskussiya, rol oyunları, problem həll etmə və simulyasiya vasitəsilə öyrənmə prosesi daha praktik və yadda qalan olur.

Empatiya və kommunikasiya bacarıqlarının formalaşması: Ahıllarla sosial iş mövzusunda interaktiv fəaliyyətlər tələbələrdə empatiya, sosial həssaslıq və effektiv kommunikasiya bacarıqlarını inkişaf etdirir ki, bu da gələcəkdə sosial iş mütəxəssisi kimi fəaliyyət göstərərkən əvəzolunmazdır.

Praktiki təcrübənin əhəmiyyəti: Simulyasiya və praktiki məşğələlər tələbələrə real iş şəraitini əks etdirən vəziyyətlərdə qərar vermə və problemləri həll etmə bacarığı qazandırır. Bu isə onların peşəkar fəaliyyətinə hazırlığını artırır.

Mütəxəssis hazırlığında kompleks yanaşmanın rolu: İnteraktiv metodlar yalnız nəzəri biliklərin tətbiqi ilə məhdudlaşmır, eyni zamanda sosial işin etik prinsiplərini, məsuliyyət və peşəkar davranış qaydalarını praktik şəkildə mənimsəməyə imkan verir.

Tövsiyələr

Ahıllarla sosial iş fənninin tədrisinin effektivliyini artırmaq üçün aşağıdakı tədbirlər tövsiyə olunur:

Texniki imkanların artırılması: Ali təhsil müəssisələrində interaktiv təlim üçün müasir texnologiyaların, o cümlədən simulyasiya proqramları, virtual laboratoriyalar və multimedia resurslarının istifadəsi təmin edilməlidir. Bu, tələbələrin dərs prosesində daha aktiv iştirakını təmin edəcək.

Müəllimlərin peşəkar inkişafı: Sosial iş fənni üzrə dərs deyən müəllimlər mütəmadi olaraq interaktiv metodlar və yeni pedaqoji yanaşmalar üzrə təlimlərdə iştirak etməlidirlər. Bu, müəllimlərin tədris prosesini daha innovativ və praktik hala gətirməsinə imkan yaradacaq.

Simulyasiya mərkəzlərinin yaradılması: Ahıllarla sosial iş üzrə simulyasiya mərkəzlərinin fəaliyyəti tələbələrə real həyat situasiyalarını təcrübədən keçirməyə imkan verəcək. Bu mərkəzlərdə rol oyunları, praktiki məşğələlər və problem həll etmə sessiyaları təşkil edilməlidir.

Problemin elmi yeniliyi. Problemin elmi yeniliyi təqdim olunan məqalənin ahıllarla sosial iş fənninin tədrisində interaktiv təlim metodlarının tətbiqini ali təhsildə peşəkar sosial işçi hazırlığı kontekstində elmi və sistemli şəkildə araşdırması ilə xarakterizə olunur. Tədqiqatda bu metodların tələbələrin empatiya, kommunikasiya və etik qərarvermə bacarıqlarının formalaşmasına təsiri Azərbaycan ali təhsil mühiti üzrə empirik materiallar əsasında təhlil edilmişdir. İlk dəfə olaraq simulyasiya, rol oyunları və situasiya təhlili metodlarının effektivliyi müqayisəli şəkildə qiymətləndirilmiş, milli-mədəni xüsusiyyətlər nəzərə alınmaqla interaktiv təlimə əsaslanan praktikyönlü didaktik yanaşma təklif edilmişdir.

Problemin aktuallığı. Əhalinin yaşlanma prosesinin sürətlənməsi ahıllarla sosial iş sahəsində peşəkar və praktik bacarıqlara malik mütəxəssislərin hazırlanmasını aktuallaşdırır. Bu, sosial işçilərin ahılların psixoloji, sosial və emosional ehtiyaclarını adekvat qiymətləndirə bilməsi üçün tədrisdə interaktiv və tətbiqyönlü metodların istifadəsini zəruri edir. Ənənəvi tədris yanaşmalarının praktik hazırlıq baxımından məhdudluğu ahıllarla sosial iş fənnində empatiya, kommunikasiya və etik qərarvermə baca-

rıqlarını inkişaf etdirən interaktiv metodların tətbiqini xüsusi əhəmiyyətli edir. Problemin aktuallığı sosial-iqtisadi reallıqlar və ali təhsildə sosial iş üzrə keyfiyyətli kadr hazırlığına artan tələbatla bağlıdır.

Problemin praktik əhəmiyyəti. Tədqiqatın nəticələri ahıllarla sosial iş fənninin tədrisində interaktiv metodların səmərəli tətbiqi üçün praktik əsaslar yaradır. Bu nəticələr sosial iş üzrə tədris proqramlarının yenilənməsində və praktikyönlü dərs modellərinin hazırlanmasında istifadə oluna bilər. İnteraktiv metodlar tələbələrin empatiya, kommunikasiya və qərarvermə bacarıqlarını inkişaf etdirərək onların peşəkar fəaliyyətə hazırlıq səviyyəsini artırır. Eyni zamanda, tədqiqat materialları müəllimlər üçün metodik tövsiyə xarakteri daşıyır və tədris–praktika əlaqəsinin gücləndirilməsinə xidmət edir.

Ədəbiyyat

1. Arslan, Z. Vaka analizinin sosyal hizmet öğretimindeki işlevi / Z. Arslan // Eğitim ve Araştırma Dergisi. – 2021. – 13(4), – s. 98–110.
2. Brookfield, S. Becoming a critically reflective teacher / S. Brookfield. – San Francisco: Jossey-Bass, – 2017**.** – 240 s.
3. Cavanaugh, J., & Blanchard-Fields, F. Adult development and aging / J. Cavanaugh, F. Blanchard-Fields. – Boston: Cengage Learning, – 2019. – 432 s.
4. Güngör, A., & Karataş, S. Sosyal hizmet eğitiminde etkileşimli öğretim / A. Güngör, S. Karataş // Sosyal Hizmet Dergisi. – 2018. – 6(3), – s. 211–227.
5. Knowles, M. The adult learner / M. Knowles. – London: Routledge, – 1984. – 256 s.
6. Li, L., & Lee, Y. Teaching gerontology to social work students via experiential learning using ethnographic interviews / L. Li, Y. Lee // Innovation in Aging. – 2022. – 6(Supplement 1), – s. 388–389. DOI:10.1093/geroni/igac059.1530
7. Mayer, J., & Rodriguez, L. Simulation-based learning in social work education / J. Mayer, L. Rodriguez // Journal of Social Work Education. – 2020. – 56(2), – s. 235–249.
8. Əliyev, R., & Hüseynova, M. Sosial işdə simulyasiya əsaslı tədrisin rolu / R. Əliyev, M. Hüseynova // Azərbaycan Pedaqoji Universitetinin Xəbərləri. – 2020. – 4(2), – s. 112–120.
9. İsmayılova, E. Azərbaycanda yaşlı əhali qrupunun sosial xidmət almaq ehtiyaclarına baxış / E. İsmayılova // **Social Research Journal. – 2023. – s. **(online mənbə; ümumi səhifə sayı yoxdur, məqalə onlayn indekslənir).
10. Qasımov, E. Ahıllarla sosial işin təşkili və tədrisi / E. Qasımov. – Bakı: Elm, – 2019. – 280 s**.**
11. Süleymanova, A. İnteraktiv üsullar: mahiyyəti və pedaqoji əsasları / A. Süleymanova // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi Əsərləri. – 2025. – 92(1), – s. 32–41.
12. Yıldırım, H. Yaşlılarla sosyal hizmet öğreniminde rol oynamanın etkisi / H. Yıldırım // Türkiye Gerontoloji Araştırmaları. – 2019. – 11(1), – s. 55–68.
13. Волкова, Л. Социальная работа с пожилыми: методика обучения / Л. Волкова. – Москва: Юрайт, – 2016**.** – 312 с
14. Зеленёва, Т., & Петрова, О. Интерактивные методы в подготовке соцработников / Т. Зеленёва, О. Петрова // Вестник социального образования. – 2018. – 5, – с. 45–53.

Redaksiyaya daxil olub: 19.02.2026

UOT 159.9

Sevinc Tofiq qızı Vəliyeva
Naxçıvan Müəllimlər İnstitutunun
Pedaqogika və psixologiya kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org//0009-0000-0710-6324
E- mail:veliyeva_1979@bk.ru
https://doi.org/10.69682/arti.2026.93(2).185-187

PSİXOLOGİYANIN BAŞQA ELMLƏRLƏ ƏLAQƏSİ

Sevinj Tofig Valiyeva
head of the department of Pedagogy and psychology
at Nakhchivan Teachers Institute
doctor of philosophy in pedagogy

RELATIONSHIP OF PSYCHOLOGY WITH OTHER SCIENCES

Севиндж Тофиг гызы Велиева
заведующий кафедрой Педагогики и психологии,
Нахчыванского Института Учителей
доктор философии по педагогике

ВЗАИМОСВЯЗЬ ПСИХОЛОГИИ С ДРУГИМИ НАУКАМИ

Xülasə. Psixologiya idrak nəzəriyyələrindan faydalanmaq və idrak prinsiplərindən bəhrələnməklə siyasət, fəlsəfə, kriminologiya, karyera məsləhəti, şəxsiyyətlərarası münasibətlər, hüquq və bir sıra sahələrlə əlaqələr yaradır. Psixologiyanın başqa elmlərlə əlaqələrini başa düşmək üçün insan davranışı və həyatı ilə əlaqədar praktik problemlərin həllinə kömək göstərir.
***Açar sözlər**: psixologiya, digər elmlərlə əlaqə, pedaqogika ilə əlaqə, fəlsəfə ilə əlaqə, sosiologiya ilə əlaqə*

Abstract. Psychology establishes connections with politics, philosophy, criminology, career guidance, interpersonal relations, law, and a number of other fields, using cognitive theories and principles. Understanding psychology's connections with other sciences helps solve practical problems related to human behavior and life.
***Keywords:** psychology, connection with other sciences, connection with pedagogy, connection with philosophy, connection with sociology*

Аннотация. Психология устанавливает связи с политикой, философией, криминологией, профориентацией, межличностными отношениями, правом и рядом других областей, используя когнитивные теории и принципы. Понимание связей психологии с другими науками помогает решать практические проблемы, связанные с человеческим поведением и жизнью.
***Ключевые слова**: психология, связь с другими науками, связь с педагогикой, связь с философией, связь с социологией*

Psixologiya insan davranışı ilə bağlı zəruri biliklərin qazanılmasına gətirib çıxaran fərziyyələri sınaqdan keçirmək məqsədilə istər laboratoriya, istərsə də sahə təcrübələri aparmaq üçün elmi metoda müraciət edir.

Bu elmin problemlərinin müxtəlifliyi onun onlar arasında yerini konkret səciyyələndirməyi

çətinləşdirir. Çox uzun illərlədir ki, psixologiyanın təbiət və ya humanitar elm olub-olmadığı haqqında mübahisələr gedir. Bu suala tapmaq çətindir. Ona görə ki, psixologiyanın elə sahələri vardır ki, onlar humanitar elmlərlə bilavasitə bağlıdır (sosial psixologiya və şəxsiyyət şəxsiyyət psixologiyasını nümunə göstərmək mümkündür), başqa sahələri təbiət elmləri ilə xeyli dərəcədə əlaqədardır (məsələn, neyropsixologiya, patopsixologiya).

Psixologiya insanın əqli fəaliyyətini *təbii-tarixi perspektivdən* (odur ki, bioloji elmlərin bir hissəsi olaraq ali sinir fəaliyyətinin fiziologiyası ilə və buna görə də təbiətşünaslıqla əlaqəsi) və *sosial perspektivdən* (buna görə də sosial elmlərin bir hissəsi olaraq pedaqoji elmlərlə əlaqəsi) öyrənir. Psixologiya bilavasitə sosial, təbii və ya fəlsəfi elmlər arasında təsnif oluna bilməz.

Hazırda psixologiya başqa elmlərlə sıx əlaqədə inkişafdadır. Məşhur İsveçrə psixoloqu Jan Piaje 1966-cı ildə Moskvada baş tutan Beynəlxalq Psixoloji Konqresdə öz məruzəsini psixologiyanın elmlər sistemindəki yerinə həsr etmişdi. Görkəmli psixoloq psixologiyanın gələcəyini düşünür, onun riyaziyyat, fizika, biologiya, sosiologiya, dilçilik, siyasi iqtisadiyyat və məntiqlə əlaqələrini son dərəcə vacib hesab edirdi.

Psixologiya ilə əlaqədar biliklər cəmiyyətin hər bir sahəsində, tədqiqatlarda və təcrübədə zəruridir. Ali təhsil sistemində psixologiyaya bələdlik bu və ya digər ixtisasa yiyələnmək istəyən tələbələr arasında getdikcə daha çox nüfuz qazanır.

Psixologiyanın insanı öyrənən başqa elmlərlə - fəlsəfə, sosiologiya, tarix, fiziologiya, insanının anatomiyası və fiziologiyası, pedaqogika ilə sıx əlaqələri mövcuddur. Bu səbəbsiz deyildir. Ona görə ki, bir çox elm sahələri insan zehni proseslərinin xüsusiyyətlərini bilməyi tələbata çevirir. Belə ki, müəllim şagirdlərlə onların yaş dövrlərinə uyğun şəkildə psixoloji inkişaf qanunauyğunluqlarına bələd olmadan səmərəli pedaqoji fəaliyyət göstərə bilməz.

Psixologiya ilə digər elmlər arasında ikitərəfli əlaqə mövcuddur: bəzi hallarda psixologiya öz problemlərini həll etmək üçün digər elmlərin nailiyyətlərindən istifadə edir, digərlərində isə elmlər müəyyən məsələləri izah etmək və ya həll etmək üçün psixoloji biliklərdən istifadə edir. Psixologiya ilə digər elmlər arasındakı fənlərarası əlaqələr onların qarşılıqlı inkişafına və praktik tətbiqinə kömək edir.

Psixologiyanın *fəlsəfə ilə əlaqələri* ənənəvi xarakterə malikdir. Ona görə ki, XIX əsrə qədər elmi psixoloji biliklər fəlsəfənin daxilində toplanırdı. Psixologiya da fəlsəfənin bir hissəsi sayılırdı. Hazırda psixologiya bir sıra fəlsəfi və psixoloji məsələləri həll edir: psixoloji tədqiqatın mövzusu və metodologiyası; insan şüurunun mənşəyi; daha yüksək düşüncə formaları ilə tanışlıq; həyatın, mənəviyyat, vicdanın və məsuliyyətin mənası; insanın sosial münasibətlərdəki yeri və rolu; tənhalıq və xoşbəxtlik. Həmin məsələlərə aydınlığın gətirilməsində psixoloq və filosofların arasında əməkdaşlıq son dərəcə lazımdır.

Psixologiyanın banisi Aristoteldir. Fəlsəfə dünya və insanla bağlı baxışlar sistemi, psixologiya isə insanı öyrənən elm sahəsi hesab edilir. Fəlsəfə və psixologiyanın qovşağında ümumi psixologiya kimi bir sahə bərqərar olur.

Psixologiya və *bioloji elmlər* arasındakı əlaqələr insan psixikasının təbii əsasa malik olması faktı ilə bağlıdır. Ona görə də bəzi psixoloji problemlər psixoloqlar və bioloqlar arasında sız əməkdaşlıq şəraitində reallaşır.

Psixologiyanın *fiziologiya* elmi ilə əlaqəsi xüsusilə vacibdir. Psixofiziologiya bu elmlərin qovşağında meydana çıxdı. Beynin fəaliyyətini dərin fizioloji anlamaq bir çox psixoloji problemlərin həllinə öz köməyini göstərir.

Psixologiya özünün tədqiqatlarında biologiyadan, o cümlədən anatomiya və fiziologiyadan, ali sinir fəaliyyəti nəzəriyyəsindən məlumatlara möhtacdır, onlardan faydalanır. Eyni zamanda psixoloji məlumatlardan tibbdə, əsasən psixiatriyada geniş istifadə edilir.

Psixologiyanın *pedaqogika* elmi ilə əlaqələri uzunmüddətlidir. Pedaqogika elmi tədris və tərbiyə işlərində psixoloji prinsiplərdən son dərəcə geniş faydalanır. Klassik və müasir pedaqoqlar pedaqoji elm və təcrübə üçün psixoloji biliklərin son dərəcə zəruri olmasına diqqəti yönəltmişlər. Bu, bir həqiqətdir ki, tədris və tərbiyənin pedaqoji prinsiplərini yetərincə anlamaq üçün uşağın, təhsilalanların əqli inkişaf proseslərinə bələd olmaq lazım gəlir. Bu materialı da pedaqoqlara psixologiya elmi verir. Müəllim və psixoloqlar arasında qarşılıqlı münasibətlər, sıx əməkdaşlıq tərbiyə olunanla əlaqədar bu və ya digər məsələnin həllində son dərəcə mühümdür.

Pedaqogika psixologiyanı təhsil və tərbiyənin başlıca istiqamətlərinə, eyni zamanda qanunauyğunluqlarına dair məlumatlarla silahlandırır. Həmin proseslərin psixoloji dəstəyi üçün tövsiyələr hazırlamağa şərait yaradır.

Təhsil psixologiyası məhz psixologiya və pedaqogikanın elmlərinin qovşağında təşəkkül tapmışdır. Psixologiyanın bəzi sahələri (əsasən təhsil və inkişaf psixologiyası) pedaqogika və didaktika ilə sıx bağlıdır.

Hazırda aktual psixoloji və pedaqoji problemlərindən biri təlim prosesində təfəkkürün inkişaf etdirilməsi, yeni pedaqoji təfəkkürün və yeni pedaqoji təxəyyülün tələblərini nəzərə alınması kimi vacib məsələdir. Bütün bunlar tələbələrə həmişə yenilənən məlumatları müstəqil şəkildə mənimsəməyə imkan verir və məhsuldar intellektual fəaliyyət üçün onların bacarıq və qabiliyyətlərinin inkişafına şərait yaradır.

Psixologiya *sosiologiya* ilə sıx əlaqədədir. Bu, təsadüfi deyildir. İnsan psixikası sosial baxımdan şərtləndirilib. Psixologiya və sosiologiyanın tədqiqat obyektləri bir-biri ilə qırılmaz tellərlə əlaqəlidir. Bu elmlərlə yaxından tanışlıq fərd, qrup və qruplararası münasibətləri özündə birləşdirir. Qarşılıqlı fakt mübadiləsi baş verir, nəzəri konsepsiya və ideyalar mənimsənilir.

Sosiologiya müstəqil elm kimi şəxsiyyətin düşüncələrini, hisslərini və münasibətlərini kütləvi şüur fenomenləri ilə birləşdirən körpü olan *sosial psixologiya* ilə yaxından əlaqədədir. Sosiologiya eyni zamanda psixologiyaya insanın sosial fəaliyyətinə dair faktlar ötürür və daha sonra onlardan psixologiyada istifadə edilir. *Sosial psixologiya* psixologiya ilə sosiologiya arasında əlaqələri qurur.

Psixologiyanın *tarixlə* əlaqələri də sıxdır. İnsan tarixi inkişafın məhsuludur, burada bioloji və psixoloji amillər (təbii seleksiyanın bioloji prosesindən başlamış nitq, düşüncə və işin əqli proseslərinədək) qarşılıqlı təsirdədir. İnsan psixikası tarix boyu inkişaf da olub. Odur ki, müvafiq zehni hadisələrin tarixi səbəblərindən xəbərdar olmaq onların psixoloji təbiətini və xüsusiyyətlərini düzgün anlamaqdan ötrü lazımdır. Tarixi ənənələr və insan mədəniyyəti psixologiyanı təkmil edir.

Tarixi psixologiya tarixi inkişaf zamanı insan psixikasındakı dəyişiklikləri və tarixi şəxsiyyətlərin psixoloji keyfiyyətlərinin tarix gedişatında rolunu öyrənir.

Tibbi psixologiya psixi pozğunluqların mümkün mexanizmlərini yaxşı anlamağa və onların müalicəsi yollarını müəyyənləşdirməyə öz köməyini göstərir (psixokorreksiya və psixoterapiya). Tibb və psixologiyanın qovşağında tibbi psixologiya və psixoterapiya kimi psixologiya sahələri qərar tutur.

Psixologiya *təbiətşünaslıqla* yaxın əlaqədir. Təbii ki, biologiya, anatomiya, fiziologiya, biokimya və tibbdəki irəliləyişlər olmadan nəzəri və praktik psixologiya inkişafı edə bilməzdi. Həmin elmlər nəticəsində psixoloqlar psixikanın maddi əsası sayılan insan beyninin quruluşunu və fəaliyyətini çox yaxşı anlayırlar.

Psixofiziologiya fiziologiya və psixologiyanın qovşağında yer tutur.

Psixologiyanın *mühəndislik elmləri* ilə də əlaqələri genişdir. Ona görə ki, bu elmlər bir çox hallarda mürəkkəb texniki sistemlər və insanları "doklamaq" problemi ilə rastlaşırlar. Həmin məsələləri mühəndislik psixologiyası və peşə psixologiyası birlikdə həll edirlər.

Problemin aktuallığı. Psixologiyanın digər elmlərlə əlaqəsi məsələləri araşdırılır.

Problemin yeniliyi. Psixologiyanın pedaqogika, fəlsəfə, sosiologiya, tarix, tibb və s. elmlərlə əlaqəsinə aydınlıq gətirilir.

Problemin praktik əhəmiyyəti. Məqalə doktorantlar, magistrantlar üçün maraqlı olacaqdır.

Ədəbiyyat

1. Bayramov, Ə.S. Psixologiya: Ali təhsil müəssisələri üçün dərslik / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı: "ÇİNAR-ÇAP", –2002. –629 s.
2. Seyidov, S.İ. Ümumi psixologiya: Ali təhsil müəssisələri üçün dərslik / S.İ. Seyidov, M.Ə. Muxtarov. – Bakı: YYSQ -2014 – 434 s.
3. Əliyev, R. İ. Psixologiya: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / R.İ. Əliyev. –Bakı: Nurlan, –2008, –352 s.
4. Salamova, K. Ümumi psixologiya: Dərs vəsaiti / K. Salamova. –Bakı: Elm və təhsil, –2014. –448 s.
5. Əzizov, Q.Q. Psixologiya: Dərs vəsaiti. / Q.Q. Əzizov. –Bakı: Mütərcim, –2013. –328 s.
6. Həsənli, S. Psixologiya: Dərs vəsaiti. / S. Həsənli. –Bakı: Elm və təhsil, –2013. –285 s.

Redaksiyaya daxil olub: 24.02.2026

UOT 159.922.

Məhərrəm Sabir oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
dosenti, psixologiya üzrə fəlsəfə doktoru,
Azərbaycan Dillər Universitetinin elmlər doktoru proqramı üzrə doktorantı
https://orcid.org/0000-0002-3762-8745
E-mail: dos.m.aliyev@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(2).188-197

İNTİHARA MEYİLLİLİKLƏ SOSİAL İDENTİKLİYİN QARŞILIQLI ƏLAQƏSİNİN PSİXOLOJİ TƏHLİLİ

Maharram Sabir Aliyev
associate professor of Azerbaijan State Pedagogical University,
doctor of philosophy in psychology,
doctoral student of the doctor of science program of
Azerbaijan University of Languages

PSYCHOLOGICAL ANALYSIS OF THE RELATIONSHIP BETWEEN SOCIAL IDENTITY AND SUICIDAL TENDENCIES

Магеррам Сабир оглы Алиев
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по психологии
докторант по программе доктора наук
Азербайджанского Университета Языков

ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ВЗАИМОСВЯЗИ СОЦИАЛЬНОЙ ИДЕНТИЧНОСТИ И СУИЦИДАЛЬНЫХ ТЕНДЕНЦИЙ

Xülasə. İntihara meyillik probleminin sosial identiklik kontekstində öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Sosial identiklik insanın müəyyən qrupa mənsubluğu haqda biliyi və ya özünü qrupla eyniləşdirməsi faktı kimi tərif edilir. Başqa sözlə, intihara meyilliyin qrupa mənsubluqla və ya qrupla özünü eyniləşdirmə ilə nə dərəcədə əlaqəli olduğunu araşdırmaq önəmlidir. Biz də bu məqsədlə müvafiq problemi tədqiqat predmeti olaraq seçmişik. İntihar düşüncəsi olan və olmayan (n=616), o cümlədən, intihara cəhd etmiş və etməmiş (n=186) gənclərin sosial identiklik göstəriciləri arasında əhəmiyyətli anlamlı fərqlərin olduğu aşkarlanmışdır. Müəyyən edilmişdir ki, intihar düşüncəsi fonunda gənclərin sosial identiklik səviyyəsi artdıqca, onlarda intihar riski azalacaqdır və əksinə ($r_{spearman}$ = -.430; p < .001). İntihar düşüncəsi fonunda intihar riski ilə sosialyönlər arasında mənfi yönlü çox zəif anlamlı əlaqə ($r_{spearman}$ = -.152; p < .001), asosialyönlər arasında isə müsbət yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = .350; p < .001) olduğu aşkarlanmışdır. Başqa sözlə, asosialyönlü gənclər sosialyönlü gənclərlə müqayisədə intihar düşüncəsi fonunda daha yüksək intihar riski daşıyır. Həmçinin müəyyən edilmişdir ki, intihara cəhd fonunda gənclərin sosial identiklik səviyyəsi artdıqca, onlarda intihar riski azalacaqdır və əksinə ($r_{spearman}$ = -.547; p < .001). İntihara cəhd fonunda intihar riski ilə sosialyönlər arasında mənfiyönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = -.253; p < .001), asosialyönlər arasında isə müsbət yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = .496; p < .001) olduğu aşkarlanmışdır. Asosialyönlü gənclərin sosialyönlü gənclərlə müqayisədə intihara cəhd fonunda da daha yüksək intihar riski daşıdığı faktı müəyyən edilmişdir.

Açar sözlər: *intihar, intihara meyllilik, intihar riski, intihar düşüncəsi, intihara cəhd, sosial identiklik*

Abstract. Studying suicidal tendencies in the context of social identity is particularly important. Social identity is defined as a person's awareness of belonging to a particular group or self-identification with a group. In other words, it is crucial to examine the extent to which suicidal tendencies is associated with

group membership or self-identification with a group. For this purpose, we chose this issue as the subject of our study. The study revealed significant differences in social identity between young people with and without suicidal ideation (n=616), as well as between those who attempted suicide and those who did not (n=186). It was found that as the level of social identity of young people with suicidal ideation increases, their risk of suicide decreases, or vice versa ($r_{spearman}$ = -.430; p < .001). It was found that there is a negative, weakly significant relationship between the risk of suicide and social orientation in the context of suicidal ideation ($r_{spearman}$ = -.152; p < .001), as well as a positive, weakly significant relationship with antisocial orientation ($r_{spearman}$ = .350; p < .001). In other words, antisocially oriented youth have a higher risk of suicide in the context of suicidal ideation than socially oriented youth. It was also found that as the level of social identity of youth in the context of suicide attempts increases, their risk of suicide decreases, and vice versa ($r_{spearman}$ = -.547; p < .001). A negative, weakly significant association was found between suicide risk and social orientation in the context of suicide attempts ($r_{spearman}$ = -.253; p < .001), as well as a positive, weakly significant association with antisocial orientation ($r_{spearman}$ = .496; p < .001). It was found that antisocially oriented youth are at higher risk of suicide in the context of suicide attempts compared to socially oriented youth.

Key words: *suicide, suicidal tendency, the risk of suicide, suicidal thoughts, suicide attempt, social identity*

Аннотация. Изучение проблемы суицидальной наклонности в контексте социальной идентичности имеет особое значение. Социальная идентичность определяется как осознание человеком принадлежности к определенной группе или факт самоидентификации с группой. Иными словами, крайне важно исследовать, в какой степени суицидальная наклонность связано с принадлежностью к группе или самоидентификацией с группой. Для этой цели мы выбрали соответствующую проблему в качестве предмета исследования. В результате исследования было выявлено, что существуют значительные различия между показателями социальной идентичности молодых людей с суицидальными мыслями и без них (n=616), а также тех, кто совершил попытку самоубийства, и тех, кто этого не сделал (n=186). Было установлено, что по мере повышения уровня социальной идентичности молодых людей на фоне суицидальных мыслей их риск самоубийства снижается или наоборот ($r_{spearman}$ = -.430; p < .001). Было обнаружено, что существует отрицательная, слабо значимая связь между риском самоубийства и социальной ориентацией в контексте суицидальных мыслей ($r_{spearman}$ = -.152; p < .001), а также положительная, слабо значимая связь между асоциальной ориентацией ($r_{spearman}$ = .350; p < .001). Другими словами, асоциально ориентированная молодежь имеет более высокий риск самоубийства в контексте суицидальных мыслей, чем социально ориентированная молодежь. Также было обнаружено, что по мере повышения уровня социальной идентичности молодежи в контексте попыток самоубийства их риск самоубийства снижается или наоборот ($r_{spearman}$ = -.547; p < .001). Было обнаружено, что существует отрицательная, слабо значимая связь между риском самоубийства и социальной ориентацией в контексте попыток самоубийства ($r_{spearman}$ = -.253; p < .001), а также положительная, слабо значимая связь между асоциальной ориентацией ($r_{spearman}$ = .496; p < .001). Установлено, что асоциально ориентированная молодежь подвержена более высокому риску самоубийства в контексте попыток самоубийства по сравнению с социально ориентированной молодежью.

Ключевые слова: *самоубийство, склонность к суициду, риск самоубийства, суицидальные мысли, попытка самоубийства, социальная идентичность*

Giriş

İntiharların artdığı və səbəbləri fonunda sanki absurd göründüyü bu günlərdə müvafiq ciddi problemə fərqli – sosial idrak – perspektivindən yanaşmaq zərurəti yaranmışdır. Sosial idrak elementlərindən biri kimi identiklik, xüsusilə sosial identiklik anlayışına müraciət etmək və bu kontekstdə intihara meylliliyi araşdırmaq böyük önəm kəsb edir. İdentiklik anlayışı müasir psixologiyanın mərkəzi anlayışlarından biri olmaqla, öz aktuallığını qoruyur. İdentiklik anlayışına verilən müxtəlif tərifərin bəziləri ilə cədvəl 1-də tanış ola bilərik.

Cədvəl 1.

İdentiklik anlayışına verilən tərifər (1, s. 374-375)

№	Tərifər
1	1.İdentiklik – bu, eyniyyət, oxşarlıq, bənzərlik, bircürlükdür (lüğət).
2	a) İdentiklik – bu, daimi müvəqqəti dəyişikliklər, fərdi inkişafın metamorfozası axınında daxili ardıcıllıq (varislik) hissi, mənliyin sabitliyidir. Bu subyektiv yaşantıdır: “Mən də eyniyəm”. b) İdentiklik – bu, daşıyıcıları başqa insanlar və sosial qruplar olan sosial-mədəni norma və dəyərlər

	əsasında insanın özünü təyinetməsidir. Burada identiklik – fərdin sosiallaşmasının, sosial münasibətlər sistemində öz yerini müəyyənləşdirməsinin nəticəsidir ki, bunu belə ifadə etmək olar: "Mən qrup icmasının bir parçasıyam" (E.H. Erikson (1902-1994)).
3	İdentiklik – özünüinkişaf idealı, psixi sağlamlıq meyarı, fərdiyyətin öz həyatının mənasını axtarışı və kəşfi, özünüaktuallaşdırma şərtidir (A.Maslow (1908-1970), H.Kohut (1913-1981) və b).
4	İdentiklik – bu, şəxsiyyətin inkişafının iki – fərdi və sosial – xəttinin koordinasiyasının nəticəsidir. Bu, "Mən-obrazı" ilə "sosial rolda özünü gerçəkləşdirmiş Mən"in harmoniyasıdır.
5	İdentiklik – mənlik şüurunda yeni formalaşmaların inteqratoru olan "Mən-bütövlüy"ün cari təcrübəsidir.

İdentiklik və sosial identiklik problemi bir çox müəllif tərəfindən araşdırılmış və müxtəlif tədqiqatların predmeti olmuşdur. İdentiklik problemi milli identiklik (2; 3; 4; 5), etnik identiklik (6), dini identiklik (7), identifikasiya ilə əlaqədə identiklik (8), zaman perspektivində identiklik (9), tələbə qızlarda identiklik (10) və s. kimi tədqiq edilmiş, fərqli konsepsiyalar hazırlanmışdır. Sosial identiklik problemi də bir çox müəllifin tədqiqat mövzusu olmuşdur (11; 12).

"Böyük psixoloji lüğət"də qeyd edilir ki, *"Sosial identiklik – sosial identifikasiya proseslərindən biri olub, ondan ibarətdir ki, qrup daxilində münasibətlərin daha da sabitləşməsi ölçüsündə onun üzvlərinin identifikasiyası daha çox depersonalizasiya olunur, fərdi əlamətlər ümumi qrup əlamətlərilə müqayisədə psixoloji olaraq nisbətən daha az əhəmiyyətli olur. Sosial identifikasiya sosial aləmi qruplara təşkil edir və insanın özünü başqa qrupların deyil, ancaq müəyyən qrupların üzvü kimi müəyyən edir"* (13, s. 631). Bu tərifdə sosial identikliyin həm mahiyyəti, həm də funksiyaları öz əksini tapmış olur.

Sosial identikliyin (Mən-obraz) öyrənilməsinin əsasını qoyanlardan ilki William James (1842-1910) sayıla bilər. O yazır ki, *"... mənim Mənlik şüurum sanki ikili – dərk edilən hissə və dərk edən hissə, obyekt hissəsi və subyekt hissəsi kimi – xarakter daşıyır; onda iki tərəfi fərqləndirmək lazımdır, hansılardan ki, birini biz yığcamlıq üçün şəxsiyyət, digərini isə – "Mən" adlandıracağıq"* (14, s. 80-81). Deməli, insan özü haqqında 2 səthdə düşünür, haradan ki, məhz identikliyin 2 aspekti çıxır: 1.Şəxsi aspektdə; 2.Sosial aspektdə (15).

Bu anlamda, 2 növ identiklik problemi ilə qarşı-qarşıya qalırıq:

1. Şəxsiyyət – fərdin fiziki, intellektual və əxlaqi əlamətlərinin terminlərində özünütəyinetmədir;

2. Sosial – özünü müəyyən sosial qrupa (Eriksona görə – «daxili razılaşma duyğusu», «həyatda öz yerini axtarmaq») aid etmə terminlərində özünütəyinetmədir (15).

Qeyd etməliyik ki, əgər şəxsiyyət identikliyinin üzə çıxarılması üçün «Mən-konsepsiya»nın təsviri zəruridirsə, sosial identikliyin üzə çıxarılması üçün şəxsiyyətin öz qrupu ilə əlaqələrinin tədqiqi zəruri və önəmlidir.

Şəxsiyyət tərəfindən aləmdə öz sərhədlərini mənalandırmasının 2 aspekti haqqında ideyaya həm Charles Horton Cooley (1864 -1929) (güzgü Mən nəzəriyyəsi), həm George Herbert Mead) (1863-1931) (başqaları ilə qarşılıqlı təsirdə şəxsiyyətin qurulması) və həm də Erik Homburger Erikson müraciət etmişdir.

Nəzəri mənalandırılması «sosial identiklik nəzəriyyəsi»ni işləmiş Henri Tajfel'in (Sosial Identity Theory – SIT) və "özünükateqoriyalaşdırma nəzəriyyəsi"ni (Self-Categorization Theory – SCT) təklif etmiş John Charles Turner'in əsərlərində verilmişdir (15).

Henri Tajfel'ə (1919-1982) görə, sosial identiklik – bu, fərdin "Mən-konsepsiyası"nın o hissəsidir ki, hansı özünün sosial qrupda (və ya qruplarda) üzvlüyünün bu üzvlüyə verdiyi dəyər və emosional mahiyyəti ilə birgə dərk olunmasından yaranır (16). Bu tərifdə 2 vacib məqamı qeyd etmək lazımdır:

1. sosial identiklik – bu, fərdin müəyyən qrupa mənsubluğu haqqında ***"biliyidir"***,

2. sosial identiklik – qrup üzvlüyünün onun üçün emosional ***əhəmiyyətliliyidir*** (15).

Bəs belə bilik necə formalaşır? Bu suala cavab koqnitivist yanaşma daxilində verilir: insanın şəxsi identikliyini dərk etməsi yolunda 3 addım təsvir olunur:

I addım: ***sosial kateqoriyalaşdırma*** – sosial ətrafın şəxsiyyətlərin fərd üçün mənası olan üsulla qruplaşdırılması terminlərində nizamlanması;

II addım: ***sosial identifikasiya*** – proses, hansının ki, vasitəsilə fərd özünü bu və ya digər kateqoriyaya yerləşdirir;

III addım: ***sosial identiklik*** – hansısa nəticənin – fərdin tam sosial eyniləşdirilməsinin əldə olunması.

Bu mühakimədə Henri Tajfel aydın şəkildə "identifikasiya"nı – proses kimi və «identikliyi» – bu prosesin nəticəsi kimi fərqləndirir. Fərd qrupu psixoloji olaraq özünü başqaları ilə kateqoriyalaşdırma vasitəsilə formalaşdırır. Belə nəticəyə gələ bilərik ki, baxılan nəzəriyyə çərçivəsində sosial identilkiyin qurulması prosesi – sosial idrakın, məhz özünü bu aləmdə dərk etmənin mexanizmidir.

John Charles Turner (1947-2011) üçün şəxsiyyət və sosial identiklik – ***identikliyin*** müxtəlif formalarından daha çox ***özünükateqoriyalaşdırmanın*** müxtəlif formalarıdır (16).

Qrupla daha müfəssəl identifikasiya 3 müstəvidə baxılır: ***koqnitiv*** – mənim qrupa mənsubluğumu bilmək; ***dəyər*** (yönəliş nəzəriyyəsində: davranış) – verilən qrupa mənsubluğun müsbət və ya mənfi konnotasiyasiyasının (lat. – birgə işarələmək) mövcudluğu; ***emosional*** – ilk 2 göstərici əsasında ya «özünün», ya da «yad» qrupun qəbul edilməsi (15).

Belə formada başa düşülən sosial identiklik sosial yönəlişliklə – attityudla oxşardır. Bu əsasda sosial identikliyi yönəlişlik strukturu kimi nəzərdən keçirmək olar.

Henri Tajfel'in nəzəriyyəsində fərdin eynivaxtlı bir neçə qrupa mənsubluğu kimi mürəkkəb məsələ də müzakirə olunur. O, güman edir ki, fərd verilən halda daha «qabarıq» qrupu seçir, hansı ki, aləmə baxışın işlənilməsi üçün xüsusilə əhəmiyyətlidir. Başqa sözlə, sosial informasiya ilə işin əvvəl də baxılmış tipik priyomları həyata keçirilir.

Məhz təəccüblü deyil ki, ən çox işlənilmiş identiklik nəzəriyyələrindən biri sosializasiya sahəsində tanınmış mütəxəssis Erik Homburger Erikson'a məxsusdur. E. Erikson epigenetik nəzəriyyəni əsas tutaraq belə bir fikri irəli sürür ki, şəxsiyyətin inkişafı sosial aləmlə müəyyən edilir. O, "şəxsiyyətin identikliyi" anlayışını irəli sürmüşdür; insanın ətraf aləmlə ayrılmaz əlaqədə olmasını ona xəbər verən hər hansı mərkəzi keyfiyyət nəzərdə tutulur, hansı ki, aşağıdakı parametrlərdə ifadə olunur: insanın öz üzərində mərkəzləşməsi; sosial qrupla eyniləşdirmə; insanın sosial rolunun dəyərinin müəyyən edilməsi.

E. Erikson erkən uşaqlıqda tərbiyəyə böyük əhəmiyyət verirdi və şəxsiyyətin inkişafının böhran adlandırdığı müxtəlif mərhələlər keçdiyini qeyd edirdi (17, 18, 19). Erik Homburger Erikson mahiyyətcə identikliyin strukturunun məzmununda 3 identikliyi ayırd edir:

1. mən-identiklik (məkan və zamanda özünün dəyişməzliyinin dərk edilməsi),

2. qrup identikliyi ("qrup identikliyinin daxilinə köçürülmüş"),

3. psixososial identiklik (öz varlığının cəmiyyətin nöqteyi-nəzərindən əhəmiyyətliliyi): 2 kəsmə özünü göstərir: ***müsbət*** – insan necə olmalıdır və ***mənfi*** – insan necə olmamalıdır (15).

Tədqiqatlardan birində belə nəticəyə gəlinir ki, ""alternativ" identikli yeniyetmələrin təxminən yarısı, əsasən, emosiyalarını tənzimləmək və distresslərini ifadə etmək üçün özünə zərər verir. Lakin azlığı təşkil edənlər öz qrup identikliyini möhkəmləndirmək, başqa sözlə, "özünü qrupun daha böyük parçası kimi hiss etmək" üçün özünə zərər vermə aktlarına əl atır" (20). Bəzi müəlliflər eqo-identikliyin intihar meyllərinə qarşı müdafiə amili ola biləcəyi nəticəsinə gəlib çıxırlar (21). Həmçinin. tədqiqatlar göstərir ki, etnik identiklik sosial identikliyin vacib cəhəti kimi intihar meyillərinə təsir göstərə bildiyindən, intihar inancı və davranışını formalaşdıra biləcək mədəni cəhətdən önəmli inkişaf proseslərinin öyrənilməsi əhəmiyyətlidir (22). İntihar davranışının implisit identiklik ve nəzarət önmühakimələri yolu ilə araşdırılması üzrə tədqiqatlar da məlumdur (23).

Metod

Tədqiqatda 534 nəfəri (86,7%) qadın, 82 nəfəri (13,3%) kişi olmaqla, cəmi 616 nəfər gənc iştirak etmişdir. Tədqiqatın məqsədindən asılı olaraq, "Sosial identikliyin öyrənilməsi" (L.B. Şneyder və B.B. Xrustaleva) (24) və "Suisidal düşüncələr şkalası" (A. Bek) (25) metodikaları istifadə edilmiş və əldə olunan məlumatlar iki amil (intihar düşüncəsi və intihara cəhd) üzərindən təhlil edilmişdir. Gənclərin hamısı sorğuda könüllü iştirak etmişdir. Sorğuda iştirak edən gənclərin 308 nəfəri (50%) "İntihar etməklə bağlı düşüncəniz olubmu?" sualına bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 308 nəfəri (50%) xeyr cavabı vermişdir. "İntihara cəhd etmisinizmi?" sualına isə gənclərin 93 nəfəri (50%) bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 93 nəfəri (50%) xeyr cavabı vermişdir. Sorğulardan əldə olunan məlumatlar İBM SPSS 27.0 kompüter proqramı ilə riyazi-statistik təhlil edilmişdir. Təhlil zamanı təsviri statistikadan,

Kolmogorov-Smirnov normallıq testindən, Spearman'ın Ranq Korrelyasiya əmsalından və Mann-Whitney U testindən istifadə olunmuşdur.

Nəticə

Sosial identikliyin öyrənilməsi meto-dikasının istifadəsi zamanı sınanılanlara sosial və asosialyönünə görə iki bərabər qrupa bölünən sözlər təqdim edilmişdir. Nəticələrin işlənilməsi zamanı əldə edilən bal minimum "0"-la maksimum "1" arasında dəyişdiyi üçün minimum "0" dəyəri subyektin sosialyönünün minimum dərəcəsinə uyğun olduğunu və onun müstəqillik istəyini və qrupda müəyyən edilmiş ümumi tələblərə və qaydalara tabe olmaq istəmədiyini göstərmiş, maksimum "1" dəyəri isə subyektin sosialyönünün maksimum dərəcəsinə uyğun olduğunu bildirmiş və onu qrup üzvlüyünə ehtiyacı olan, cəmiyyətin norma və qaydalarını qəbul edən və qrup birliyini qorumaq istəyən bir şəxs kimi xarakterizə etmişdir.

Suisidal düşüncələr şkalasına görə, intihar düşüncəsinin üç komponenti qiymətləndirilmişdir: hazırlıq hərəkətləri, passiv intihar istəyi və aktiv intihar istəyi. Qeyd etməliyik ki, intihar riski üçün klinik əhəmiyyətli "həd" 6 bal (maksimum 38 bal) və yuxarısı hesab edilir; bal nə qədər yüksəkdirsə, risk də o qədər yüksəkdir.

Tədqiqatda əsas məqsəd intihar düşüncəsi (n=616) və intihara cəhd (n=186) amilləri fonunda gənclərin sosial identiklik göstəricilərini müqayisə etmək, intihar düşüncəsi və intihara cəhdlə, o cümlədən intihar riski ilə sosial identiklik arasında əhəmiyyətli korelyasiyanın olub-olmamasını müəyyən etmək olmuşdur. Öncə gənclərin iki amil (intihar düşüncəsi və intihara cəhd) fonunda sosial identiklik və intihar riski göstəricilərinin normal paylanmaya uyğun olub-olmadığını müəyyən etmək üçün Kolmogorov-Smirnov testi keçirilmişdir (cədvəl 2). Cədvəl 2-dən göründüyü kimi, sosial identiklik və intihar riski göstəriciləri intihar düşüncəsi (n=616) və intihara cəhd (n=186) amilləri fonunda normal paylanmadan fərqlənir ($p < .001$)

Cədvəl 2.

Normallıq testi						
	Kolmogorov-Smirnov			Shapiro-Wilk		
	Statistic	df	Sig.	Statistic	df	Sig.
İntihar riski	.124	616	.000	.919	616	.000
Sosial identiklik	.083	616	.000	.926	616	.000
İntihar riski	.117	186	.000	.945	186	.000
Sosial identiklik	.115	186	.000	.923	186	.000

Məlumatlar normal paylanmadığına görə, intihar düşüncəsi, intihara cəhd və sosial identiklik arasında korrelyasiyanın olub-olmadığını müəyyən etmək məqsədilə qeyri-parametrik meyar olan Spearman'ın Ranq Korrelyasiya əmsalı istifadə olunmuşdur. Cədvəl 3-dən gördüyümüz kimi, intihar düşüncəsi ilə sosial identiklik arasında müsbət yönlü zəif anlamlı əlaqə ($r_{spearman} = .294$; $p < .001$) olduğu aşkarlanmışdır. Belə qənaətə gəlmək olar ki, gənclərin sosial identiklik səviyyəsi artdıqca, onların intihar etməklə bağlı düşüncələri də artma meyli göstərəcəkdir və əksinə. Başqa sözlə, gənclərin özlərinin müəyyən qrupa mənsubluğunu daha dərindən dərk etməsi və yaşaması qarşılaşdıqları problemləri həll etməkdə ciddi maneələrlə qarşılaşdıqları anda onların əleyhinə çevrilə bilər. Bu tezisin əsası öz ifadəsini onda tapmışdır ki, intihar düşüncəsi ilə sosialyönlər arasında müsbət yönlü çox zəif anlamlı əlaqə ($r_{spearman} = .093$; $p = .021$), asosialyönlər arasında isə mənfiyönlü zəif anlamlı əlaqə ($r_{spearman} = -.284$; $p < .001$) olduğu aşkarlanmışdır (cədvəl 3). Deməli, asosialyönlü gənclər sosialyönlü gənclərlə müqayisədə intihar düşüncələrinə daha az meyllidir.

Cədvəl 3.

Korrelyasiya			
	Sosial identiklik	Sosial identiklik Sosial yönümlər	Sosial identiklik Asosialyönlər

Spearman's rho	İntihar etməklə bağlı düşüncəniz olubmu?	Correlation Coefficient	.294**	.093*	-.284**
		Sig. (2-tailed)	.000	.021	.000
		N	616	616	616

Cədvəl 4-dən gördüyümüz kimi, intihara cəhd ilə sosial identiklik arasında müsbət yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = .406; p < .001) olduğu aşkarlanmışdır. Belə qənaətə gəlmək olar ki, gənclərin sosial identiklik səviyyəsi artdıqca, onların intihara cəhdə meyli artacaqdır və əksinə. Başqa sözlə, gənclərin özlərinin müəyyən qrupa mənsubluğunu daha dərindən dərk etməsi və yaşaması qarşılaşdıqları problemləri həll etməkdə ciddi maneələrlə qarşılaşdıqları anda onları intihara cəhdə yönəldə bilər. Eynilə bu tezisin də əsası öz ifadəsini onda tapmışdır ki, intihara cəhd ilə sosialyönlər arasında müsbət yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = .219; p = .003), asosialyönlər arasında isə mənfi yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = -.376; p < .001) olduğu aşkarlanmışdır (cədvəl 4). Deməli, asosialyönlü gənclər sosialyönlü gənclərlə müqayisədə intihara cəhdə daha az meyllidir.

Cədvəl 4.

Korrelyasiya					
			Sosial identiklik	Sosial identiklik Sosial yönümlər	Sosial identiklik Asosial yönümlər
Spearman's rho	İntihara cəhd etmisinizmi?	Correlation Coefficient	.406**	.219**	-.376**
		Sig. (2-tailed)	.000	.003	.000
		N	186	186	186

Beləliklə, intihar düşüncəsi olan və olmayan (n=616), sonra isə intihara cəhd etmiş və etməmiş (n=186) gənclərin sosial identiklik göstəriciləri arasında əhəmiyyətli fərqlərin olub-olmadığını aşkar etmək məqsədilə Mann-Whitney U testi tətbiq olunmuşdur. Bu test normal paylanma göstərməyən iki müstəqil qrup ortalamalarını qarşılaşdırmaq üçün istifadə olunan qeyriparamertik yöntəmdir. Mann-Whitney *U* testi nəticəsində əldə olunan *Z* dəyəri isə test statistikası olmaqla, iki qrup arasındakı fərqin böyüklüyünü və statistik cəhətdən əhəmiyyətli olub-olmamasını göstərir. *Z-balı*, verilənlər nöqtəsinin verilənlər dəstinin ortalamasından neçə standart meyilə (kənaraçıxmaya) sahib olduğunu açıqlayan statistik ölçüdür. *Z-balının* pozitiv olması, verilənlər nöqtəsinin ortalamanın üstündə, *z-balının* neqativ olması isə, verilənlər nöqtəsinin ortalamanın altında olduğu anlamına gəlir. Bu dəyər *p* dəyəri ilə birlikdə təhlil olunur.

Aşağıdakı cədvəl 5-də iki – sosial identiklik və intihar düşüncəsi ilə bağlı –sorğunun nəticələrinin orta qiymət, standart kənaraçıxma, minimum və maksimum kimi bəzi təsviri statistik göstəriciləri öz əksini tapmışdır.

Cədvəl 5.

Təsviri statistikalar					
	N	Mean	Std. Deviation	Min	Max
Sosial identiklik	616	.6391	.14816	.00	1.00
İntihar etməklə bağlı düşüncəniz olubmu?	616	1.50	.500	1	2

Daha sonrakı cədvəl 6-da intihar düşüncəsi olan (n=308) və olmayan (n=308) gənclərin sosial identiklik səviyyələrinin sıra ortaları və sıraların cəmi verilmişdir. Cədvəldən görünür ki, intihar düşüncəsi olmayan gənclərin sosial identiklik balları və müvafiq olaraq sıra ortaları intihar düşüncəsi olan gənclərə nisbətdə daha yüksəkdir.

Cədvəl 6.

Ranqlar				
	İntihar etməklə bağlı düşüncəniz olubmu?	N	Mean Rank	Sum of Ranks
Sosial identiklik	bəli	308	256.18	78904.00
	xeyr	308	360.82	111132.00
	Total	616		

Bununla yanaşı, ən önəmli göstərici cədvəl 7-də verilir, belə ki, $p < .001$ olduğu üçün sosial identiklik səviyyəsinin ($U = 31318.000$; $Z = -7.297$; $p < .001$) intihar düşüncəsi olan və olmayan gənclər arasında anlamlı fərqlər göstərdiyini deyə bilərik.

Cədvəl 7.

Statistikalar testi	
	Sosial identiklik
Mann-Whitney U	31318.000
Wilcoxon W	78904.000
Z	-7.297
Asymp. Sig. (2-tailed)	.000

Aşağıdakı cədvəl 8-də iki – sosial identiklik və intihara cəhd ilə bağlı – sorğunun nəticələrinin orta qiymət, standart kənaraçıxma, minimum və maksimum kimi bəzi təsviri statistik göstəriciləri öz əksini tapmışdır.

Cədvəl 8.

Təsviri statistikalar					
	N	Mean	Std. Deviation	Min	Max
Sosial identiklik	186	.6138	.17244	.00	1.00
İntihara cəhd etmisinizmi?	186	1.50	.501	1	2

Daha sonrakı cədvəl 9-da intihara cəhd edən (n=93) və etməyən (n=93) gənclərin sosial identiklik səviyyələrinin sıra ortaları və sıraların cəmi verilmişdir. Cədvəldən görünür ki, intihara cəhd etməyən gənclərin sosial identiklik balları və müvafiq olaraq sıra ortaları intihara cəhd edən gənclərə nisbətdə daha yüksəkdir.

Cədvəl 9.

Ranqlar				
	İntihara cəhd etmisinizmi?	N	Mean Rank	Sum of Ranks
Sosial identiklik	bəli	93	71.72	6670.00
	xeyr	93	115.28	10721.00
	Total	186		

Bununla yanaşı, ən önəmli göstərici cədvəl 10-da verilir, belə ki, $p < .001$ olduğu üçün sosial identiklik səviyyəsinin ($U = 2299.000$; $Z = -5.518$; $p < .001$) intihara cəhd edən və etməyən gənclər arasında anlamlı fərqlər göstərdiyini deyə bilərik.

Cədvəl 10.

Statistikalar testi

	Sosial identiklik
Mann-Whitney U	2299.000
Wilcoxon W	6670.000
Z	-5.518
Asymp. Sig. (2-tailed)	.000

Yuxarıda qeyd edilən təhlil nəticələri ilə yanaşı, intihar düşüncəsi və intihara cəhd amilləri fonunda intihar riski və sosial identiklik səviyyəsi arasında korrelyasiyanın olub-olmadığını müəyyən etmək məqsədilə qeyri-parametrik meyar olan Spearman'ın Ranq Korrelyasiya əmsalı istifadə olunmuşdur. Cədvəl 11-dən gördüyümüz kimi, intihar düşüncəsi olan və olmayan gənclərdə intihar riski və sosial identiklik arasında mənfi yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = -.430; p < .001) olduğu aşkarlanmışdır. Belə qənaətə gəlmək olar ki, intihar düşüncəsi fonunda gənclərin sosial identiklik səviyyəsi artdıqca, onlarda intihar riski azalacaqdır və əksinə. Lakin yuxarıda qeyd edilən faktdan fərqli olaraq, intihar düşüncəsi fonunda asosialyönlü gənclərin intihar riskinə meyilli olduğunu görürük. Bu tezisin əsası öz ifadəsini onda tapmışdır ki, intihar riski ilə sosialyönlər arasında mənfi yönlü çox zəif anlamlı əlaqə ($r_{spearman}$ = -.152; p < .001), asosialyönlər arasında isə müsbət yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = .350; p < .001) olduğu aşkarlanmışdır (cədvəl 11). Deməli, asosialyönlü gənclər sosialyönlü gənclərlə müqayisədə intihar düşüncəsi fonunda daha yüksək intihar riski daşıyır.

Cədvəl 11.

Korrelyasiya					
			Sosial identiklik	Sosial identiklik Sosial yönümlər	Sosial identiklik Asosial yönümlər
Spearman's rho	İntihar riski	Correlation Coefficient	-.430**	-.152**	.350**
		Sig. (2-tailed)	.000	.000	.000
		N	616	616	616

Cədvəl 12-dən göründüyü kimi, intihara cəhd edən və etməyən gənclərdə intihar riski və sosial identiklik arasında mənfi yönlü orta anlamlı əlaqə ($r_{spearman}$ = -.547; p < .001) olduğu aşkarlanmışdır. Belə qənaətə gəlmək olar ki, intihara cəhd fonunda gənclərin sosial identiklik səviyyəsi artdıqca, onlarda intihar riski azalacaqdır və əksinə. Lakin eynilə intihar düşüncəsi fonunda olduğu kimi, intihara cəhd fonunda da asosialyönlü gənclərin intihar riskinə meylli olduğunu görürük. Bu tezisin əsası öz ifadəsini onda tapmışdır ki, intihar riski ilə sosialyönlər arasında mənfi yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = -.253; p < .001), asosialyönlər arasında isə müsbət yönlü zəif anlamlı əlaqə ($r_{spearman}$ = .496; p < .001) olduğu aşkarlanmışdır (cədvəl 12). Deməli, asosialyönlü gənclər sosialyönlü gənclərlə müqayisədə intihara cəhd fonunda da daha yüksək intihar riski daşıyır.

Cədvəl 12.

Korrelyasiya					
			Sosial identiklik	Sosial identiklik Sosial yönümlər	Sosial identiklik Asosial yönümlər
Spearman's rho	İntihar riski	Correlation Coefficient	-.547**	-.253**	.496**
		Sig. (2-tailed)	.000	.000	.000
		N	186	186	186

Nəticə olaraq deyə bilərik ki, gənclərdə intihara meylliliklə onların sosial identiklik səviyyəsi arasında anlamlı əlaqənin və fərqlərin olduğu aşkarlanmışdır.

Müzakirə.

Sosial identiklik gənclərin sosial idrakının əsas komponentlərindən biri kimi onların ahəngdar şəxsiyyət kimi formalaşmasına önəmli zəmin yaradır. Gənclərdə daxil olduqları qruplara aidiyyət hissinin formalaşması onların həmin qrupun yönəlişi ilə (əgər varsa) eyni yönəlişə sahib olmaları və müvafiq davranmaları üçün əsas hazırlayır. Deməli, qrup və ona mənsubluq intihara meyilli gənclərə bu və ya digər şəkildə təsir göstərə bilər.

Problemin aktuallığı. İnsanın bu və ya digər qrupun üzvü olması faktı qrupun ona təsirini təsdiqləmiş olur. Bu anlamda, sosial identiklik kontekstində intihara meyllilik hadisəsinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. İlk dəfə məqalədə gənclərdə intihara meylliklə sosial identiklik arasındakı qarşılıqlı əlaqə ətraflı şəkildə təhlil edilmişdir.

Problemin praktik əhəmiyyəti və tətbiqi. Sosial və asosialyönlü gənclərin timsalında intihara meylliyin öyrənilməsi intihar düşüncəsi və intihara cəhd fonunda gənclərdə intihar risklərinin vaxtında müəyyən edilməsi yönündə spesifik müdaxilə proqramlarının hazırlanmasına şərait yaradır.

Ədəbiyyat

1. Обухова, Л.Ф. Возрастная психология: учебник для бакалавров: [Электронный ресурс] / Л.Ф. Обухова. – М.: Издательство Юрайт, – 2013. – 460 с. URL:https://www.klex.ru/1rfu
2. Əliyev, B. Mədəniyyətlərarası münasibətlərə milli identikliyin təsirinin sosial-psixoloji xüsusiyyətləri: [Elektron resurs] // – Bakı: Psixologiya jurnalı, – 2018. №2, – s. 3-13. URL:https://www.elibrary.az/docs/JURNAL/jrn2018_688.pdf
3. Кадырова, Р.**Г.** О некоторых социально-психологических аспектах развития национальной идентичности азербайджанской молодежи: [Электронный ресурс] / Кавказ и глобализация, Том 1 (3), 2007 URL:https://cyberleninka.ru/article/n/o-nekotoryh-sotsialno-psihologicheskih-aspektah-razvitiya-natsionalnoy-identichnosti-azerbaydzhanskoy-molodezhi
4. Кадырова, Р.Г. Национальная идентичность азербайджанских детей и подростков: социально-психологический анализ: монография / Р.Г. Кадырова; науч. ред. Б.Г. Алиев; Институт Стратегических Исследований Кавказа. – Баку: Кавказ, –2007. – 247 с.
5. Карагезов, Р. Коллективная память и национальная идентичность в эпоху глобализации (на материале эмпирического исследования молодежи Азербайджана): [Электронный ресурс] / Кавказ и глобализация, Том 3 (1), 2009 URL:https://cyberleninka.ru/article/n/kollektivnaya-pamyat-i-natsionalnaya-identichnost-v-epohu-globalizatsii-na-materiale-empiricheskogo-issledovaniya-molodezhi
6. Гулиев, Т.Ф., Малышева, Н.Г. Социально-психологические особенности этнической идентичности русских, проживающих в Азербайджане: [Электронный ресурс] / Теоретическая и экспериментальная психология, 2024 46-65 URL:https://cyberleninka.ru/article/n/sotsialno-psihologicheskie-osobennosti-etnicheskoy-identichnosti-russkih-prozhivayuschih-v-azerbaydzhane/viewer
7. Əkbərian, F.N. Yeniyetmələrdə dini identikliyin psixoloji xüsusiyyətləri: / psixologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2013. – 26 s.
8. İrada, Z. (Azerbaijan) İnsan, identiklik və identifikasiya: [Elektron resurs] // – Bakı: "İdentiklik və multikulturalizm: metodologiya, tendensiyalarvə perspektivlər" mövzusunda Beynəlxalq elmi konfransın toplusu. – 2018. URL:https://www.researchgate.net/profile/Irada-Zarganayeva/publication/349663735_INSAN_IDENTIKLIK_V_IDENTIFIKASIYA/links/603ad2cf92851c4ed5a0c8f6/INSAN-IDENTIKLIK-V-IDENTIFIKASIYA.pdf
9. Мещерякова, Е.М. Психология личности: идентичность и временная перспектива: учебное пособие: [Электронный ресурс] / Е. М. Мещерякова. – Электрон, текстовые дан. (4,9 Мб). – СПб.: Наукоемкие технологии, 2025. – 143 с. URL:https://publishing.intelgr.com/archive/Psikhologiya-lichnosti-identichnost-i-vremennaya-perspektiva.pdf
10. Quliyeva-Kabaoğlu, Ş. Tələbə qızlarda identiklik: [Elektron resurs] // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2017. Cild 84, № 1, – s. 129-135 URL: https://www.arti.edu.az/noduploads/book/2068_elmi-eserler-2017-1.pdf

11. Иванова, Н.Л., Мортон, Т. Проблема социальной идентичности в исследовании организаций: основные подходы: [Электронный ресурс] / URL:https://publications.hse.ru/pubs/share/folder/c59ju76toq/63624190.pdf
12. Шакурова, А.В. История становления понятия «социальная идентичность» в зарубежной социологии и социальной психологии: [Электронный ресурс] / Современные исследования социальных проблем (электронный научный журнал), №2(10), 2012 URL:www.sisp.nkras.ru
13. Большой психологический словарь: [Электронный ресурс] / – 4-е изд., расширенное / Под редакцией Б.Г.Мещерякова, В.П.Зинченко. – М.: Издательский дом: АСТ; АСТ-Москва; СПб; Прайм-Еврознак, – 2009. – 811 с. URL: https://spbguga.ru/files/03-5-01-005.pdf
14. Джемс, У. Психология / Под ред. Л. А. Петровской. – М.: Педагогика, –1991. – 368 с.
15. Андреева, Г.М. Психология социального познания: Учеб. пособие для студентов высших учебных заведений: [Электронный ресурс] / – Издание второе, перераб. и доп. – М.: Аспект Пресс, –2000. – 288 с. URL:https://www.isras.ru/files/File/publ/Scan_2018/ Andreeva_Psikhologiya_soc_poznaniya_2000.pdf
16. Tajfel, H., Turner, J.C. The Social Identity Theory of Intergroup Behavior: [Electronic resource] // Psychology of Intergroup Relations. Chicago, 1986. p. 277-293 URL: https://www.christosaioannou.com/Tajfel%20and%20Turner%201986.pdf
17. Erikson, H.E. İnsanın 8 evresi. 9. Evrenin eklendiği yeni bölümlerle Joan M.erikson tarafından kaleme alınan genişletilmiş baskı. İngiliscededn çeviren: Gonca Akkaya. –İstanbul: Okuyanus, – 2014. – 204 s.
18. Эриксон, Э. Детство и общество: [Электронный ресурс] / Э. Эриксон. – Санкт-Петербург: Питер, –2019. – 448 с. URL:https://psv4.userapi.com/s/v1/d/SXSBamWdZNC1Ego8YsvRx-Z3ZeugY09A5FIJoiygLPzekZiyQKcti_wdbm6X5mqtu1tvB2BYPtsWw0w2Lrj4O6yc9D4YAy410zFhid9eYYdhe4K7/Erik_Erixon_Detstvo_i_obschestvo.pdf
19. Эриксон, Э. Идентичность: юность и кризис: учеб. пособие: [Электронный ресурс] / Э. Эриксон; общ. ред. и предисл. А. В. Толстых; пер. с англ. [Андреева А. Д. и др.]. – 2-е изд. – Москва : Флинта [и др.], –2006. – 341, [1] с. : 21 см URL:https://www.klex.ru/a1e
20. Young, R., Sproeber, N., Groschwitz, R.C. et al. Why alternative teenagers self-harm: exploring the link between non-suicidal self-injury, attempted suicide and adolescent identity. BMC Psychiatry 14, 137 (2014). https://doi.org/10.1186/1471-244X-14-137
21. Ramgoon, S., Bachoo, S., Patel, C., & Paruk, Z. (2006). Could a healthy ego identity serve as a protective factor against suicidal tendencies? A pilot study. Journal of Child & Adolescent Mental Health, 18(2), 49–54. https://doi.org/10.2989/17280580609486623
22. Bernard, D. L., Adams, L. B., Lateef, H. A., Azasu, E., & Joe, S. (2023). Investigating the Role of Suicidality and Ethnic Identity among Black Adolescents: A Latent Profile Analysis. Archives of Suicide Research, 27(4), 1261–1277. https://doi.org/10.1080/13811118.2022.2114868
23. Lara Marie Aschenbrenner, Adriana Frei, Thomas Forkmann, Dajana Schreiber, Heide Glaesmer, Juliane Brüdern, Maria Stein, Marie-Anna Sedlinská, Kristina Adorjan, Sebastian Walther, Anja Gysin-Maillart. Exploring suicidal behaviour through implicit identity and control biases: Findings from the Death-Implicit Association Test and its novel control-adaptation, Comprehensive Psychiatry, Volume 142, 2025, 152621, ISSN 0010-440X, https://doi.org/10.1016/j.comppsych.2025.152621
24. Шнейдер, Л.Б. Психология идентичности: учебник и практикум для вузов. – 2-е изд., перераб. и доп. – Москва: Издательство Юрайт, – 2025. – 328 с.
25. Когнитивная терапия депрессии: [Электронный ресурс] / А.Бек, А.Раш, Б.Шо, Г.Эмери. – Санкт-Петербург : Питер, –2003. – 304 с. : ил. URL:https://sptcentre.ru/wp-content/uploads/Бек-А-Раш-А-Шо-Б-Эмери-Г-Когнитивная-терапия-депрессии.pdf

Redaksiyaya daxil olub: 24.02.2026

UOT 347.625

Günay Kamil qızı Məmmədova
Azərbaycan Dillər Universitetinin dosenti,
psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1782-1740
E-mail: gm.memmedova@adu.edu.az
https://doi.org/10.69682/arti.2026.93(2).198-202

RƏQƏMSAL DÜNYADA GENDER MƏSƏLƏLƏRİ VƏ SOSİAL DƏYİŞİKLİKLƏR

Gunay Kamil Mammadova
associate professor of Azerbaijan University of Languages,
doctor of philosophy in psychology

GENDER ISSUES AND SOCIAL CHANGES IN THE DIGITAL WORLD

Гюнай Камиль гызы Маммедова
доцент Азербайджанского Университета Языков,
доктор философии по психологии

ГЕНДЕРНЫЕ ВОПРОСЫ И СОЦИАЛЬНЫЕ ИЗМЕНЕНИЯ В ЦИФРОВОМ МИРЕ

Xülasə. Məqalədə rəqəmsal dünyada rast gəlinən gender problemləri və ortaya çıxan yeni sosial dəyişikliklər təhlil olunur. Texnologiya gender bərabərsizliyinin aradan qaldırılmasında və qadınların inkişafında mühüm rol oynayır və qlobal miqyasda bərabərlik üçün vacib bir vasitə kimi xidmət edir. Rəqəmsal transformasiya qadınların maariflənməsi istiqamətində yeni yollar yaratsa da, ayrı-seçkilik, mənfi stereotiplər və sosial və mədəni qərəzlər qadınların yüksək rəqəmsal iqtisadiyyat və cəmiyyətdə inkişaf etməsi üçün hələ də çətinliklər yaratmaqdadır. Qadınların rəqəmsal texnologiyalara çıxışı və istifadəsindəki çətinlikləri gender bərabərsizliyini dərinləşdirir və qadınların texnoloji inkişaflarda iştirakını məhdudlaşdırır.
Açar sözlər: *rəqəmsal transformasiya, gender məsələləri, sosial dəyişikliklər, sosial qərəz, ayrı-seçkilik, stereotiplər*

Abstract. The article analyzes gender issues encountered in the digital world and new social changes that are emerging. Technology plays a significant role in eliminating gender inequality and advancing women, and serves as an important tool for equality on a global scale. While digital transformation has created new avenues for women's empowerment, discrimination, negative stereotypes, and social and cultural biases still create challenges for women to thrive in a highly digital economy and society. Women's difficulties in accessing and using digital technologies deepen gender inequality and limit women's participation in technological developments.
Keywords: *digital transformation, gender issues, social changes, social prejudice, discrimination, stereotypes*

Аннотация. В статье анализируются гендерные проблемы, возникающие в цифровом мире, и новые социальные изменения, которые происходят в настоящее время. Технологии играют значительную роль в устранении гендерного неравенства и продвижении женщин, а также служат важным средством обеспечения равенства в глобальном масштабе. Хотя цифровая трансформация открыла новые возможности для расширения прав и возможностей женщин, дискриминация, негативные стереотипы, а также социальные и культурные предрассудки по-прежнему создают препятствия для процветания женщин в высокотехнологичной экономике и обществе. Трудности женщин в доступе к цифровым технологиям и их использовании усугубляют гендерное неравенство и ограничивают участие женщин в технологическом развитии.
Ключевые слова: *цифровая трансформация, гендерные вопросы, социальные изменения, социальные предрассудки, дискриминация, стереотипы*

Rəqəmsallaşma müasir dövrün ən mühüm və qlobal xarakterli proseslərindən biridir və artıq yeni bir inkişaf mərhələsini formalaşdırır. Bu gün rəqəmsallaşma təkcə texnoloji yenilik deyil, eyni zamanda iqtisadiyyatın, idarəetmənin, təhsilin, səhiyyənin və sosial münasibətlərin əsas hərəkətverici qüvvəsinə çevrilmiş qlobal bir trenddir. Yeni rəqəmsal texnologiyaların – süni intellektin və avtomatlaşdırılmış platformaların tətbiqi sürətlə genişlənir və cəmiyyətin bütün sahələrinə nüfuz edir. Rəqəmsallaşma biliklərə çıxışı asanlaşdırır, innovasiyaları təşviq edir və qlobal miqyasda rəqabət qabiliyyətini gücləndirir. Bu baxımdan, rəqəmsal bacarıqların inkişaf etdirilməsi və texnoloji yeniliklərin cəmiyyətin ehtiyaclarına uyğun şəkildə tətbiqi müasir dövrdə dayanıqlı inkişafın əsas şərtlərindən biri hesab olunur.

Elmi və texnoloji tərəqqi qadınlara sosial rol repertuarlarını genişləndirməyə kömək etmiş və nəticədə, XX əsrin sonu və XXI əsrin əvvəllərində onlar siyasətdə, mədəniyyətdə, iqtisadiyyatda və biznesdə iştiraklarını artırmışlar. Kişilər həmişə gender rollarını genişləndirməyə meylli olmurlar, daha ənənəvi və patriarxal yanaşma nümayiş etdirirlər, bununla yanaşı onların gender dünyagörüşü də dəyişir. Getdikcə daha çox kişi qadınların həyat seçimlərinə hörmətlə yanaşaraq, ailə rollarının bölüşdürülməsini əhəmiyyətli dərəcədə bərabərlik modelinə doğru dəyişirlər [9, s.147].

Rəqəmsal əsrdə sosial media platformaları və onlayn məzmun, gender stereotiplərinin yayılmasına və möhkəmlənməsinə töhfə verir. Onlayn identikliklərin, təsir edənlərin və viral məzmunun seçilmiş təbiəti, çox vaxt kişiliyin və qadınlığın ideallaşdırılmış və stereotipik təsvirlərini davam etdirir. Media təsvirləri cəmiyyətin gözəllik standartlarına və bədən imicinə böyük təsir göstərir. Mediada kişi və qadınların ideallaşdırılmış şəkilləri, qeyri-real və çox vaxt zərərli gözəllik standartlarının davam etdirilməsinə kömək edir. Bu, öz növbəsində, fərdlərin heysiyyətinə təsir edir və onların cəlbedici və ya məqbul sayılan şeyi qavramasına təsir göstərir [2, s.190].

Rəqəmsal dövr gender bərabərliyinin təşviqi üçün çoxsaylı imkanlar yaratmışdır.. Texnologiyanın transformativ təsiri fərdin həyatının müxtəlif aspektlərinə nüfuz edir və bu sahədə əsas perspektivlər təqdim edir:

Təhsilə çıxış: Texnologiya bilik və təlim resurslarına geniş çıxış təmin etməklə təhsildə inqilab edir. Onlayn platformalar və elektron təlim vasitələri, ənənəvi təhsil maneələrini aradan qaldırmaqla qadınlar üçün faydalı olan çevik seçimlər təklif edir. Keyfiyyətli təhsil materiallarına çıxış, onlayn kurslarda iştirak və distant təhsil proqramlarında iştirak fərdləri dəyərli bilik və bacarıqlarla təmin edir.

İqtisadi səlahiyyətləndirmə: Rəqəmsal dövr, xüsusən də onlayn platformalar və rəqəmsal bazarlar vasitəsilə iqtisadi səlahiyyətləndirmə üçün yeni yollar açıb. Qadınlar bu platformalardan biznes qurmaq və inkişaf etdirmək, məhsul və ya xidmət satmaq və qlobal bazarlara çıxış üçün istifadə etməklə rəqəmsal iqtisadiyyatda iştirak edə bilərlər. Bu vəziyyət maliyyə müstəqilliyinə, qazanc potensialının artmasına və iş yerində ənənəvi gender əsaslı maneələri aradan qaldırmaq qabiliyyətinə səbəb ola bilər.

Sahibkarlıq: Rəqəmsal sahə sahibkarlıq üçün əlverişli bir mühit yaradır, qadınlara müəssisələrini qurmağa və inkişaf etdirməyə imkan verir. Onlayn platformalar və sosial media məhsul və xidmətlərin nümayişini asanlaşdırır, daha geniş müştəri bazası ilə əlaqə qurur və potensial müştərilər və investorlarla əlaqə qurur.

Siyasi iştirak: Rəqəmsal dövr qadınların siyasi iştirakı və iştirakı üçün imkanları genişləndirir. Sosial media platformaları və onlayn icmalar qadınların fikirlərini ifadə edə, hüquqlarını müdafiə edə və siyasi müzakirələrdə iştirak edə biləcəyi məkanlar təmin edir. Onlayn aktivizm gender bərabərliyini inkişaf etdirmək, sosial dəyişiklikləri sürətləndirmək və qadın hüquqları və təmsilçiliyi üçün dəstəyi səfərbər etmək üçün güclü bir vasitə kimi ortaya çıxmışdır [7, s.113-114].

Sürətli rəqəmsallaşma kontekstində cəmiyyətdə tam və bərabər iştirak getdikcə daha çox texnologiyaya çıxışdan asılıdır və həyatın bütün sahələrini – işdən və təhsildən səhiyyə və kommunikasiyaya qədər əhatə edir. Rəqəmsal texnologiyalara çıxış dünya miqyasında qeyri-bərabər olaraq qalır və cins, yaş, təhsil, region və gəlir səviyyəsi kimi amillərdən asılıdır. Daha da əhəmiyyətlisi, rəqəmsallaşma gender baxımından neytral deyil: kök salmış stereotiplər qa-

dınların şəxsi və peşəkar inkişaf üçün rəqəmsal texnologiyalara çıxışını məhdudlaşdırır [10]. Rəqəmsal bərabərsizlik informasiya və kommunikasiya texnologiyalarına qeyri-bərabər çıxış və istifadəni ifadə edir, gender rəqəmsal fərqi isə sosial, mədəni, siyasi və iqtisadi sahələrdə kişilər və qadınlar arasında bu cür texnologiyalardan istifadə və çıxış üçün qeyri-bərabər imkan kimi müəyyən edilir [4, s. 2].

Texnologiyalar qadınlara əmək bazarına daxil olmağa, ictimai və sosial həyatda iştirak üçün əhəmiyyətli mənbələrə çıxış imkanı yaradır. Artıq məkan və zamandan asılı olmayaraq, qadınlar öz fəaliyyət sərbəstliyindən istifadə edir və bu da sosial təcriddə olan qadınlar üçün böyük irəliləyiş hesab olunur. Son illərdəki bu irəliləyişlərə baxmayaraq, rəqəmsal gender ayrıseçkiliyi davam edir və milli və beynəlxalq səviyyədə cəmiyyəti narahat edən əsas problemlərdən birinə çevriliib. Dünya əhalisinin yarıdan çoxunun internetə çıxış imkanının olmasına baxmayaraq, dünya üzrə qadınlar kişilərə nisbətən İKT imkanlarından daha az faydalana bilirlər. Aşağı və orta gəlirli ölkələrdə qadınların mobil internetdən istifadə ehtimalı kişilərə nisbətən 15 faiz azdır. Dünya miqyasında kişilərin 70%-i, qadınların isə yalnız 65%-i internetdən istifadə edir və bu da 2023-cü ildə internetdə təxminən 244 milyon qadının azalmasına səbəb olur. Aşağı gəlirli ölkələrdə bu fərq daha da nəzərə çarpır: 15-24 yaşlı yeniyetmə qızların və gənc qadınların təxminən 90%-i internetdən istifadə etmir, eyni yaş qrupundakı kişilərin isə 78%-i internetdən istifadə etmir [5, s. 2]. Rəqəmsal texnologiyalara çıxış və istifadədə bu rəqəmsal gender fərqinin aradan qaldırılması inklüziv inkişaf üçün vacibdir. Rəqəmsal texnologiyalar təhsilə və məlumata çıxışı asanlaşdıra, iqtisadi imkanları genişləndirə və qadınlara mobillik məhdudiyyətlərini aradan qaldırmağa kömək edə bilər. Bu baxımdan rəqəmsal gender bərabərsizliyinin aradan qaldırılması maraqlı tərəflərin diqqət mərkəzindədir və ilkin olaraq aşağıdakı problemlərin olması müəyyənləşdirilmişdir: birincisi, dünya üzrə qadınların əksəriyyətinin hələ də maddi səbəblərdən internetə qoşulmadığı, qabaqcıl texnologiyalardan istifadə bacarığına yiyələnmədiyi. İkincisi, internet hələ də kifayət qədər təhlükəsiz deyil. «Web Foundation and the World Association of Girl Guides and Girl Scouts» təşkilatının məlumatına görə qadınlar hələ də virtual zorakılığa məruz qalırlar və onların 84%-i virtual mühiti problemli hesab edir. Həm kişilər, həm də qadınlar onlayn zorakılıq və istismarla üzləşə bilsələr də, istər onlayn, istərsə də müasir texnologiya vasitəsilə törədilən qadınlara qarşı zərərli hərəkətlər daha tez-tez və şiddətlidir. Hər gün qadınların və qızların necə qurbana çevrildiyini öyrənirik, məsələn, onların razılığı olmadan foto və videolarının dərc edilməsi, elektron poçt və sosial media vasitəsilə qorxudulması və təhdid edilməsi, onlayn cinsi təcavüz, təqib (izləmə tətbiqləri və cihazlarından daxil olmaqla), başqalarının onları təqlid etməsi və rəqəmsal olaraq onlara iqtisadi zərər vurması. Bu cür hücumlar qadınları özünüsenzura etməyə, onlayn ünsiyyətlərini məhdudlaşdırmağa, sosial mediadan tamamilə imtina etməyə və susmağa məcbur etməyə sövq edə bilər. Onlar qadınların digər qadınlara, hətta rəqəmsal məkanda belə, tək olmadıqlarını göstərmək üçün yaratdığı dəstək və həmrəylik şəbəkələrini məhv edirlər. Üçüncüsü isə, mövcud gender stereotiplərin cəmiyyətdə hökm sürməsidir. Belə ki, İKT sahəsində kişi namizədlərə daha çox üstünlük verilir [3]. Bu balanssızlığın bir çox səbəbi uşaqlıq və yeniyetməlik dövründə kök salmış sosial normalardan, stereotiplərdən və dəyərlərdən qaynaqlanır. Texnologiya sektorunda gender bərabərliyinə maneələr erkən yaşda ortaya çıxır və İKT sektorunda görünən qadın rol modellərinin olmaması əsas rol oynayır. Qadınlar əsas rəqəmsal sektorlarda və rəhbər vəzifələrdə az təmsil olunurlar. Hal-hazırda qadınlar dünya miqyasında süni intellekt mütəxəssislərinin yalnız 22%-ni təşkil edir (Dünya İqtisadi Forumu, 2022). Son məlumatlara görə, Avropada tədqiqat və innovasiya sahəsində gender fərqi davam edir: qadınlar elm və mühəndislik sahəsində yüksək akademik vəzifələrin yalnız 20%-ni tuturlar (EU She Figures hesabatı, 2022). Qadınların rəqəmsal inkişafda bərabər iştirakı texnoloji irəliləyişlərin cəmiyyətə fayda verməsini təmin etmək üçün çox vacibdir. Əgər qadınlar bu sahələrə tam töhfə verərsə, hamı üçün daha inklüziv, innovativ və effektiv irəliləyiş əldə edə bilərik.

Mədəni normalar və gender rolları qadınların rəqəmsal texnologiyalara çıxışına əhəmiyyətli dərəcədə təsir göstərir. Bəzi cəmiyyətlərdə qadınlar ailə üzvlərinin uyğunluq və ya narazılıq hissləri səbəbindən texnologiyadan istifadədə

məhdudiyyətlərlə üzləşirlər. Bu sosiomədəni amillər davamlı gender rəqəmsal fərqinə səbəb olur.

BMT-nin Baş katibi Antonio Quterreş rəqəmsallaşmanı XX əsri formalaşdıracaq iki seysmik dəyişiklikdən biri, digəri isə iqlim dəyişikliyi kimi təsvir etmişdir. Lakin o, xəbərdarlıq etmişdir ki, hər ikisi planetar miqyasda təcili həll edilməsə, bərabərsizlikləri daha da artıracaq. İnternetin Davamlı İnkişaf Məqsədlərinə (DİM) nail olmağa töhfə verə biləcəyi fərziyyəsinə əsaslanaraq, rəqəmsal bərabərliyə çağırış illər ərzində həm beynəlxalq, həm də milli səviyyələrdə təşkilati gündəmlərdə ön sıralarda yer almışdır. 2030-cu il Davamlı İnkişaf Gündəliyinin prinsiplərindən biri olan "heç kəsi geridə qoymamaq" gender bərabərliyinə əsaslanır. DİM-in 5b-ci məqsədi qadınların səlahiyyətləndirilməsini təşviq etmək üçün imkan verən texnologiyaların, xüsusən də İKT-nin daha geniş istifadəsini xüsusi olaraq müəyyən edir

Gender əsaslı rəqəmsal təcrid – və həqiqətən də inklüzivlik – bu daha geniş struktur trendləri və institusional dəyişikliklər daxilində yer almalıdır. Bu da öz növbəsində bir tərəfdən qadınların rəqəmsal texnologiyalara çıxışını və onlardan istifadəsini gücləndirmək tələb edir. Qadınlar Elm, Texnologiya, Mühəndislik, Riyaziyyat (STEM) sahələrində az təmsil olunmağa davam edir və onlayn platformalar hələ də gender əsaslı mikroaqressiyalar və açıq zorakılıq üçün arena rolunu oynayır. İnternetin təmin etdiyi anonimlik tez-tez cinayətkarları cəsarətləndirir və bu da həssas əhalini onlayn qorumaq üçün güclü mexanizmlər hazırlamağı zəruri edir. Rəqəmsal mühitdə qadınlara qarşı zorakılığın aradan qaldırılması üçün ilk addım onun gender əsaslı zorakılığın başqa bir təzahürü olduğunu və hər hansı digər zorakılıq forması kimi, tam gender bərabərliyinə mane olduğunu və qadınların insan hüquqlarını pozduğunu qəbul etməkdir. Kiberhücumla mübarizə aparmaq üçün kifayət qədər tənzimləyici müdafiə və effektiv mexanizmlərin olmaması qadınların rəqəmsal məkana tam daxil olmasına əlavə maneə yaradır.

Problemin aktuallığı. Gender rəqəmsal bölünməsi, xüsusən də qadınların və marjinallaşdırılmış gender qruplarının rəqəmsal çıxış və savadlılıqda əhəmiyyətli maneələrlə üzləşdiyi müasir dövrdə aktual bir məsələ olaraq qalır. Bu bərabərsizliklərə iqtisadi məhdudiyyətlər, mədəni normalar və infrastruktur problemləri təsir edir və mövcud gender bərabərsizliklərini gücləndirir.

Problemin elmi yeniliyi. Məqalədə rəqəmsallaşmanın gender baxımından neytral olmadığı elmi əsaslarla göstərilir və rəqəmsal transformasiyanın mövcud sosial və mədəni stereotipləri yenidən istehsal etmə potensialı sistemli şəkildə əsaslandırılır. Həmçinin, rəqəmsal gender bərabərsizliyi yalnız texnologiyaya çıxış problemi kimi deyil, rəqəmsal bacarıqlar, onlayn təhlükəsizlik, institusional siyasətlər və mədəni normaların qarşılıqlı təsiri kontekstində kompleks fenomen kimi təqdim edilir. Bu yanaşma gender əsaslı rəqəmsal təcridin səbəblərini daha dərin səviyyədə izah etməyə imkan verir.

Problemin praktik əhəmiyyəti. Təqdim olunan məqalənin praktiki əhəmiyyəti rəqəmsallaşma prosesinin gender bərabərliyi kontekstində yaratdığı imkan və risklərin kompleks şəkildə təhlil olunması ilə bağlıdır. Məqalədə irəli sürülən müddəalar və nəticələr dövlət qurumları, təhsil müəssisələri, vətəndaş cəmiyyəti təşkilatları və texnologiya sektoru üçün praktik tətbiq imkanları yaradır. Əldə olunan nəticələr rəqəmsal gender bərabərsizliyinin azaldılmasına yönəlmiş siyasət və strategiyaların hazırlanmasında istifadə oluna bilər. Xüsusilə, qadınların rəqəmsal texnologiyalara çıxışının genişləndirilməsi, onların İKT və STEM sahələrində iştirakının artırılması, eləcə də rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi üçün proqramların formalaşdırılmasına elmi əsas yaradır.

Ədəbiyyat

1. Aliyev, M., & Aliyeva, S. (2024). Revisiting Digital Transformation of Azerbaijan Higher Education in the New Digital Era. Yildiz Social Science Review, 10(1), 72-83. https://doi.org/10.51803/yssr.1441943
2. Əliyeva S.N. Gender stereotiplərinin formalaşmasını səciyyələndirən amillər // –Bakı: Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi Əsərləri, –2024. Cild 91, №1, –s. 186-192
3. Kiber mühitdə rəqəmsal gender bərabərsizliyi**.** https://infocity.tech/2023/04/kiber-muhitd%C9%99-r%C9%99q%C9%99msal-gender-b%C9%99rab%C9%99rsizliyi/
4. Alam, K., Ali, M. A., Erdiaw-Kwasie, M. O., Murray, P. A., & Wiesner, R. (2022). Digital Transformation among SMEs: Does Gender Matter? *Sustainability*, *14*(1), 535. https://doi.org/10.3390/su14010535

5. Ferreira, E., & Silva, M. J. (2025). Gender and Digital Technologies. Encyclopedia, 5(3), 111. https://doi.org/10.3390/encyclopedia5030111
6. Gender, Digital Transformation and Artificial Intelligence. Vienna, Austria June 2023. https://hub.unido.org/sites/default/files/publications/GENDER%2C%20DIGITAL%20TRANSFORMATION%20AND%20AI%20REPORT.pdf
7. Rui Nunes, Guilhermina Rego, Helena Melo, Sofia B. Nunes and Ivone Duarte. Perspectives on Gender Equality. Licensee MDPI, Basel, Switzerland, –2025. –278 p.
8. What we know about the gender digital divide for girls: A literature review. https://www.unicef.org/eap/media/8311/file/What%20we%20know%20about%20the%20gender%20digital%20divide%20for%20girls:%20a%20literature%20review.pdf
9. Гендерное измерение цифровой экономики: от стратегии к действию (2018–2030) : материалы Всерос. конф. с междунар. участием, 20–21 апреля 2018 г., ИвГУ, г. Иваново. –Иваново: Иван. гос. ун-т, –2018. –174 с.
10. Гендерное неравенство в эпоху цифровизации: ограничения и пути их преодоления. https://elib.bsu.by/bitstream/123456789/331189/1/58-61.pdf

Redaksiyaya daxil olub: 19.02.2026

UOT 37.013.42.376.58

Əsmət İdris qızı İsmayılxanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1151-4440
E-mail:a.ismayilxanova@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(2).203-207

MƏKTƏBLİLƏRİN ASOSİAL HƏRƏKƏTLƏRƏ MEYLİNİN QARŞISININ ALINMASI YOLLARI

Asmet Idris Ismayilkhanova
associate professor of Azerbaijan State Pedagogical University
doctor of philosophy in pedagogy

METHODS TO PREVENT SCHOOLCHILDREN'S INCLINATION TOWARDS ASOCIAL BEHAVIOUR

Асмет Идрис гызы Исмаилханова
доцент Азербайджанского Государственного Педагогического Университета,
доктор философии по педагогике

ПУТИ ПРЕДОТВРАЩЕНИЯ СКЛОННОСТИ ШКОЛЬНИКОВ К АСОЦИАЛЬНОМУ ПОВЕДЕНИЮ

Xülasə. Müəllif bu məqalədə cəmiyyəti narahat edən problem haqqında maraqlı fikirlər söyləmişdir. Onun fikrincə, Azərbaycan xalqının tarixən milli dəyərlərə, adət və ənənələrə, milli ideologiyaya sahib olması sosial-iqtisadi tərəqqiyə təkan verməklə hamı üçün sağlam həyat tərzinin formalaşdırılmasında müsbət rol oynamışdır.

Son dövrlərdə məktəbin ictimai işlərində könüllü iştirak edən yeniyetmələrin sayı çox olsa da, hələ də şagirdlər arasında milli dəyərlərə, adət-ənənələrə, şəxsi sosiallığa, mənəviyyata, təhsilə səthi yanaşan gənclərə də rast gəlinir.

Təəssüflə qeyd etmək lazımdır ki, insan həyatında mənfi izlər buraxan bu maddələrin istifadəçiləri arasında hal-hazırda kiçik yaşlı məktəblilər də vardır. Bu isə hər birimizi dərindən narahat edir. Biz nəinki bu hallara qarşı, həmçinin uşaqlar arasında bu tip pis vərdişləri yayan "insan"lara qarşı mübarizə aparmalıyıq. Çünki, bu həyatda kövrək addımlarla irəliləyən yeniyetmələrin iradəsi zəif olduğundan, onları yoldan çıxarmaq çox asandır və bundan da çox ustalıqla istifadə edənlər vardır.

Müəllif qeyd edir ki, yer üzündə narkomaniyadan, tütün məhsullarından, alkoqollu içkilərdən ölənlərin sayı təbii fəlakətlər və müharibələr zamanı həlak olanların sayından dəfələrlə çoxdur.

Artıq bu cür antisosial hərəkətlərə "yox" deməyin vaxtıdır və hər bir vətəndaş əlbir olub mübarizə aparmalıdır.

Açar sözlər. *milli ideologiya, adət-ənənələr, narkomaniya, sosial perspektivlər, intellektual yetkinlik, mənəvi saflıq, zənginlik, əxlaq tərbiyəsi, fiziki sağlamlıq*

Abstract. In this article, the author presents noteworthy reflections on an issue that deeply concerns society. In her view, the Azerbaijani people's long-standing commitment to national values, customs, traditions, and national ideology has contributed to socio-economic progress and played a positive role in shaping a healthy lifestyle for all.

Although many teenagers voluntarily participate in school-related public activities in recent years, there are still pupils who display a superficial attitude towards national values, customs and traditions, personal social engagement, moral values, and education.

Unfortunately, among those who use substances leaving harmful marks on human life, there are pupils of younger age as well. This deeply worries every one of us. We must fight not only against such tendencies, but also against the individuals who spread these harmful habits among children. Since teenagers advance

through life on fragile steps and their willpower is weak, leading them astray is very easy, and there are those who skilfully exploit these weaknesses.

The author points out that the number of people worldwide who die from drug addiction, tobacco products, and alcoholic beverages far exceeds the number of those who perish during natural disasters and wars. The time has come to say "no" to such antisocial acts, and every citizen must join forces in this struggle.

Keywords: *national ideology, customs and traditions, drug addiction, social perspectives, intellectual maturity, moral purity, enrichment, ethical education, physical health*

Аннотация. В данной статье автор высказывает содержательные мысли о проблеме, вызывающей обеспокоенность общества. По её мнению, исторически сложившиеся в азербайджанском народе национальные ценности, обычаи, традиции и национальная идеология способствовали социально-экономическому прогрессу и сыграли положительную роль в формировании здорового образа жизни для всех представителей этого народа. Несмотря на рост добровольно участвующих в общественной деятельности школы числа подростков в последние годы, среди учащихся всё ещё встречаются молодые люди, поверхностно относящиеся к национальным ценностям, обычаям и традициям, личной социальной активности, моральным ценностям и образованию.

К сожалению, среди потребителей веществ, отрицательно влияющих на жизнь человека, наблюдаются и школьники младшего возраста. Это вызывает глубокую тревогу у каждого из нас. Мы должны бороться не только с такими явлениями, но и с теми «людьми», которые распространяют подобные вредные привычки среди детей. Поскольку подростки делают в жизни неуверенные шаги и обладают слабой силой воли, сбить их с правильного пути очень легко, и те, кто умело этим пользуется, существуют.

Автор отмечает, что количество людей, погибающих в мире от наркомании, табачных изделий и алкоголя, многократно превышает число тех, кто погибает во время природных катастроф и войн.

Настало время сказать «нет» подобным антисоциальным действиям, и каждый гражданин должен объединить усилия в этой борьбе.

Ключевые слова: *национальная идеология, обычаи и традиции, наркомания, социальные перспективы, интеллектуальная зрелость, нравственная чистота, духовное богатство, этическое воспитание, физическое здоровье*

Bütün dövrlərdə cəmiyyətin əsas vəzifəsi məktəblilərdə sağlam həyat tərzi formalaşdırmaqdan ibarət olmuşdur. Bu baxımdam insanların sağlam həyat tərzinin tədqiq edilməsi aktuallıq kəsb edir. Zaman-zaman alimlər, tədqiqatçılar bu məsələnin tədqiqi ilə məşğul olmuşlar. Lakin demək olar ki, bizim ölkəmizdə bu sahədə çox cüzi araşdırmalar aparılmışdır. Sağlam həyat tərzi insanların ictimai şüurunda, müxtəlif peşə sahiblərinin ictimai-siyasi səylərində əks olunmaqdadır.

Ümummilli Liderimiz Heydər Əliyevin Gənclərin II formundakı tarixi çıxışında bu məsələlər öz əksini tapmışdır. O, qeyd etmişdir ki, "Azərbaycan xalqının tarixən milli dəyərlərə, adət və ənənələrə, milli ideologiyaya sahib olması sosial-iqtisadi tərəqqiyə təkan verməklə hamı üçün sağlam həyat tərzinin formalaşdırılmasında müsbət rol oynamışdır. Əsasən gənclərin həyat tərzinə təsir göstərən xüsusiyyətlər-sosial perspektivlər, intellektual yetkinlik, mənəvi saflıq, zənginlik, əmək və əxlaq tərbiyəsi fiziki sağlamlığın təməlidir" (8, s. 116-117).

Son dövrlərdə məktəbin ictimai işlərində könüllü iştirak edən yeniyetmələrin sayı çox olsa da, hələ də şagirdlər arasında milli dəyərlərə, adət-ənənələrə, şəxsi sosiallığa, mənəviyyata, təhsilə səthi yanaşan gənclərə də rast gəlinir.

Qeyd etmək lazımdır ki, XX-XXI əsrlərdə sağlam həyat tərzinə diqqət artırılmışdır. Hətta atalar sözlərində də bu məsələ əks olunmaqdadır. "Sağlamlığının qeydinə qalmağa gənclikdən başla" məsəli buna sübutdur. Sözsüz ki, hər bir insan sağlam olmaq istəyirsə, kiçik yaşlarından özünü hər cür təhlükələrdən qorumalıdır. Bu təhlükələr alkoqollu içkilər, narkotik tərkibli maddələr, siqaret və .s. ola bilər.

Təəssüflə qeyd etmək lazımdır ki, insan həyatında mənfi izlər buraxan bu maddələrin istifadəçiləri arasında hal-hazırda kiçik yaşlı məktəblilər də vardır. Bu isə hər birimizi dərindən narahat edir. Biz nəinki bu hallara qarşı, həmçinin uşaqlar arasında bu tip pis vərdişləri yayan "insan"lara qarşı mübarizə aparmalıyıq. Çünki, bu həyatda kövrək addımlarla irəliləyən yeniyetmələrin iradəsi zəif olduğundan, onları yoldan çıxarmaq çox asandır və bundan da çox ustalıqla istifadə edənlər vardır.

Tanınmış psixoloqlar, sosioloqlar, Beynəlxalq Səhiyyə orqanları belə halları bəşəriyyətin

ən təhlükəli hadisəsi kimi qiymətləndirirlər. Bu problemlər digər xalqlarda olduğu kimi, Azərbaycanda da mövcuddur.

Dünyada hər il alkoqollu içkilərə, tütün məhsullarına, psixotrop maddələrə qurşanan məktəblilərin sayı durmadan artır ki, bu cür zərərli vərdişlər uşaqların əqli və fiziki sağlamlığına böyük zərbə vurur. Hətta açıq satışda olan siqaretlər, enerji içkiləri uşaqların gündəlik həyatında ciddi asılılıq yaradır.

Bu sahədə araşdırmalar aparan mütəxəssisləri qeyd edirlər ki, yer üzündə narkomaniyadan, tütün məhsullarından, alkoqollu içkilərdən ölənlərin sayı təbii fəlakətlər və müharibələr zamanı həlak olanların sayından dəfələrlə çoxdur.

Narkotik tərkibli maddələrin çeşidi çoxdur və onlardan istifadə edənlərin əhval-ruhiyyəsi müvəqqəti də olsa yüksəlir, narahatlıq və gərginliyi azaldır. Mənfi emosiyaları azaldır, stresi aradan qaldırır deyə tez-tez ondan istifadə edənlərdə tədricən asılılıq yaranır, getdikcə ağrı verir, əzab çəkir və maddə axtarışında olurlar. Tapmadıqda hər cür cinayət törədə bilirlər.

Bu tip maddələr insan orqanizmini çökdürür, daxili orqanları sıradan çıxarır, sinir sistemini pozur. Ilk dəfə narkotikdən istifadə edən yeniyetmədə ürəkbulanma, qusma, həyəcan və başgicəllənmə halları müşahidə olunur. Bədəni zəifləyir, qısa müddətdə tənəffüs yavaşıyır, görmə qabiliyyəti azalır, zehni funksiyası pozulur. Onların xarici görünüşlərində də fərqliliklər nəzərə çarpır, yəni, gözlərinin altında torbalanma əmələ gəlir, sürətlə arıqlayır, dişlərinin və dərisinin rəngi saralmağa başlayır. Hətta tədqiqatçılar bu cür istifadəçilərin ömrünün qısa olduğunu qeyd edirlər.

Bu tip insanların digər yoluxucu xəstəliklərə, məsələn, Hepatit C, qiçs və.s. yoluxma ehtimalı yüksəkdir. Çünki eyni iynələrdən istifadə edərkən yoluxma halları baş verir.

Digər zərərli vərdişlərdən biri də tütün məhsullarının istifadəsidir. Ümumdünya Səhiyyə Təşkilatının açıqlamasında qeyd olunur ki, ürək-damar xəstəliklərinin 20 faizini tütün məhsulları yaradır. Bu təşkilat infarktın qarşısının alınması üçün tütün məhsullarından imtina etməyi təklif edir.

Keçən illərə nisbətən yeniyetmələr bu cür zərərli vərdişlərə daha çox meyl edirlər ki, bu da onların fiziki və zehni inkişafına öz mənfi təsirini göstərir. Yeniyetmələrdə iştahasızlıq, yorğunluq, ətraf aləmə qarşı laqeydlik yaranır, immunitet zəifləyir. Siqaret almağa imkanı olmayan şagirdlər küçədən siqaret qalıqları toplayıb istifadə edirlər ki, bu da mənşəyi bilinməyən müxtəlif yoluxucu xəstəliklərə yoluxma riskini yaradır.

Odur ki, bu cür təhlükənin qarşısını vaxtında almaq lazımdır. Çünki, gələcəkdə hərbçi, idmançı istəyi olan yeniyetmələrdə bu istək elə arzu olaraq qalacaq. Erkən yaşlarından siqaretə aludə olanlar gələcəkdə ciddi problemlərlə qarşılaşa bilərlər.

Yeniyetməliyin bu mərhələsində uşaqlar şəxsi davranışlarında müxtəlif xüsusiyyətlər nümayiş etdirirlər. Sağlamlıqları haqqında düşünmürlər, aqressiv, qeyri-adekvat hərəkətlərə meyl edirlər.

İngilis yazıçısı, filosofu, 1854-1963-cü illərdə yaşamış Oldas Leonard Haksli yazırdı ki, yaşadığımız həyat vərdişlərdən ibarətdir. Biz özümüz və övladlarımız elə vərdişlərə yiyələnməliyik ki, gələcək həyatımız sağlam və gözəl olsun.

Rastlaşdığımız hadisələr onu deməyə əsas verir ki, yeniyetmələrin antisosial davranışlara meylli olması dəhşətli nəticələrə səbəb olur ki, bu da gələcəkdə zərərli və qeyri-etik davranışlardan xəbər verir.

Müstəqilliyini yenicə qazanan ölkəmizdə yetkinlik yaşına çatmayanlar arasında intiharların və cinayətlərin əsas səbəbi elə bu sadaladıqlarımızın nəticəsidir. X.A. Talıbova "Deviant davranışlı yeniyetmə şəxsiyyətinin pedaqoji xarakteristikası" adlı məqaləsində yeniyetmələrin davranışlarında deviant əlamətlərin olduğunu qeyd edir və bu cür davranışın sosial hadisə olduğunu bildirir. Yeniyetmələk elə bir dövrdür ki, bu dövrdə yeniyetmələr deviant və cinayətkar davranışlara üstünlük verirlər. Bir çox məktəblinin deviant davranışa meyl etməsində bir çox faktorlar vardır: valideyn amili, uşaqlarla əlaqəli amillər, kontekst elementləri, beynəlxalq hərbi əməliyyatlar və s.

2010-cu ilin rəsmi məlumatlarına nəzər salsaq görərik ki, azyaşlılar, xüsusilə 15-18 yaşlar arası yeniyetmələrin iştirakı ilə 274-dən artıq çeşidli cinayət faktı qeydə alınmışdır ki, bunlardan oğurluq, quldurluq, narkomaniya, cinsi zorakılıq, avtoxuliqanlıq, adam öldürməyə cəhd, avtomobil qaçırma və s. kimi hadisələri misal göstərə bilərik.

Bu cür hadisələrlə bağlı xeyli sayda misallar gətirə bilərik ki, dövlət və ictimai orqanlar

son dövrlərdə yetkinlik yaşına catmayanlar arasında cinayətkarlığın sayının yüksək olmasından çox narahatdırlar. Burada əsas məqsəd yeniyetmə və gəncləri cinayətə sövq edən səbəblərlə ciddi şəkildə mübarizə aparmaqdır. Gəlinən nəticə ondan ibarətdir ki, bunun əsas səbəbləri şagirdlərin dərsdən yayınmaları və valideynlərin buna göz yumması, nəzarətdən kənar qalmaları və asudə vaxtın düzgün təşkil olunmamasıdır.

Bəs bu cür neqativ halların qarşısının alınması üçün hansı qabaqlayıcı tədbirlər həyata keçirilməlidir? Bunun üçün maarifləndirici tədbirlər həyata keçirilməlidir. Məsələn, bu mövzuda yeniyetmələrin iştirakı ilə konfranslar, seminarlar təşkil edilməli, sağlam həyat vərdişlərinin intensivləşdirilməsi istiqamətində proses sürətləndirilməli, məktəblilərin bilik, bacarıq və vərdişləri üzrə geniş miqyaslı işlər aparılmalı, onların özlərini bu tədbirlərin iştirakçısına çevirməli, maarifləndirici söhbətlər aparılmalı və məktəblərdə təcrübəli pedaqoji kadrların sayı artırılmalıdır.

Azərbaycanın Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncama əsasən, 2005-2009-cu illərdə Azərbaycan Gəncliyi Dövlət Proqramı təsdiq edilmiş və bu istiqamətdə bir çox vəzifələrin yerinə yetirilməsi təkidlə tələb edilmişdir. Yeniyetmə və gənclərin, xüsusilə məktəblilərin qarşısında dayanan bir sıra məsələlərin həlli istiqamətində bütün dövrləri əhatə edəcək bu proqramın həyata keçirilməsi üçün şərait yaradılmalı, gənclər siyasətının aspektləri yüksək səviyyədə qurulmalıdır. Son dövrlərdə məktəblilərin sağlam həyat tərzinin qorunması işinə cəlb edilməsi üçün həvəsləndirici işlərin aparılması bir sıra tədqiqatların əsas mövzusuna çevrilmişdir.

Bir çox dövlət və qeyri dövlət təşkilatları da bu sahədə mühüm addımlar atmışlar ki, bunlara Təhsil Nazirliyi, Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Ailə, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi və özəl təşkilatları misal göstərmək olar. Bu təşkilatlar da iri miqyaslı tədbirlərin, konfransların, seminarların keçirilməsinin əhəmiyyətini vurğulayırlar. Lakin onu qeyd edək ki, məktəblilərin assosiativ davranışlarının, hərəkətlərinin səbəb və nəticələrinə aid hələ də dərin tədqiqatlar aparılmamışdır. Bu sahədə təcrübəli pedaqoqlara və psixoloqlara ciddi ehtiyac duyulur.

Biz inanırıq ki, xalqımızın malik olduğu milli-mənəvi dəyərlərə, adət-ənənələrə malik gənclərin yetişdirilməsi istiqamətində güclü işlər aparılacaq və yeniyetmələri, məktəbli gəncləri də bu dəyərləri qorumağa və yaşatmağa sövq edə biləcəyik.

Ş. Azadəliyevanın fikrincə, "Yeniyetmə və gənclərin antisosial davranış və qeyri-normal vərdişləri ilə mübarizədə ən qüvvətli amillərdən biri və valideynlərin təsiridir. Gənclərə edilən təsir nə qədər qüvvətli və inandırıcı olarsa bir o qədər tez müsbət nəticə əldə etmək mümkündür. Həyatdan gətirilən misallar, maarifləndirici məlumatlar da yeniyetmələrə ən güclü təsir vasitəsidir. Bu prosesdə məktəblinin yaş və fərdi xüsusiyyətlərini bilmək vacibdir. Fərdi xüsusiyyətlərini dəqiq bildikdən sonra onlara necə təsir göstərmək lazım olduğunu da müəyyən etmək asan olar" (8, s. 361-362) .

Bu prosesdə ən güclü təsir vasitələrindən biri də ictimai qınaq və təbliğatdır. Geniş təbliğat da yeniyetmələri düzgün yola qaytara bilər. Hətta onları elə bir psixoloji vəziyyətə gətirmək olar ki, uzaqdan öz hərəkətlərini izləmək imkanı olsun. Bu halda öz hərəkətini, davranışını dərk edən yeniyetmə neqativ davranışlardan, antisosial hərəkətlərdən birdəfəlik çəkinər.

Valideynlərlə övladlarının arasında dostluq münasibəti olarsa, ailədə valideyn-övlad münasibəti düzgün qurularsa bu cür neqativ halların baş verməsinin qarşısı yerindəcə alına bilər. Çox vaxt bu cür neqativ vərdişlərə səbəb ailədə ata-ana münasibətinin gərginliyi, ata və ananın pis vərdişlərə qurşanması və bunu da övladlarının qarşısında nümayiş etdirmələri olur. Bu hallar uşaqların formalaşdığı zamanda baş verərsə, onların da narkomaniyaya, tütün məhsullarına və ya alkoqollu içkilərə alışması qaçılmazdır.

Artıq bu cür antisosial hərəkətlərə "yox" deməyin vaxtıdır və hər bir vətəndaş əlbir olub mübarizə aparmalıdır.

Ölkəmizdə yeniyetmə və gəncləri mənfi hərəkətlərin insan sağlamlığına nə qədər zərər vurduğu haqda maarifləndirilməsinin gücləndirilməsi lazımdır. Bunun üçün bütün insanlar səfərbər olmalı və gələcəyin əsil qurucularını yetişdirməliyik. Çünki gələcək onlarındır və gələcəyimizi sağlam nəslə əmanət etməliyik.

Deyilənlərdən belə bir nəticəyə gəlirik ki, bu mövzuda yeniyetmələrin iştirakı ilə konfranslar, seminarlar təşkil edilməli, maarifləndirici söhbətlər aparılmalı, məktəblilərin bilik, bacarıq və vərdişləri üzrə geniş miqyaslı işlər apa-

rılmalı, sağlam həyat vərdişlərinin intensivləşdirilməsi istiqamətində proses sürətləndirilməli, yeniyetmələrin özlərini bu tədbirlərin iştirakçısına çevirməli və məktəblərdə təcrübəli pedaqoji kadrların sayı artırılmalıdır.

Problemin aktuallığı. Son dövrlərdə məktəbin ictimai işlərində könüllü iştirak edən yeniyetmələrin sayı çox olsa da, hələ də şagirdlər arasında milli dəyərlərə, adət-ənənələrə, şəxsi sosiallığa, mənəviyyata, təhsilə səthi yanaşan gənclərə də rast gəlinir. Ona görə də mövzu bu baxımdan aktuallıq kəsb edir.

Problemin elmi yeniliyi. Yer üzündə narkomaniyadan, tütün məhsullarından, alkoqollu içkilərdən ölənlərin sayı təbii fəlakətlər və müharibələr zamanı həlak olanların sayından dəfələrlə çoxdur. Artıq bu cür antisosial hərəkətlərə "yox" deməyin vaxtıdır və hər bir vətəndaş əlbir olub mübarizə aparmalıdır.

Problemin praktik əhəmiyyəti. Ölkəmizdə yeniyetmə və gəncləri mənfi hərəkətlərin insan sağlamlığına nə qədər zərər vurduğu haqda maarifləndirilməsinin gücləndirilməsi lazımdır. Bunun üçün bütün insanlar səfərbər olmalı və gələcəyin əsil qurucularını yetişdirməliyik. Çünki gələcək onlarındır və gələcəyimizi sağlam nəslə əmanət etməliyik.

Ədəbiyyat:

1. Allahyarova, T. Ekoloji mədəniyyət və ictimai tərəqqi / T. Allahyarova. –Bakı: Elm, –1999. – 155 s.
2. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Ali məktəblər üçün dərslik / A.N. Abbasov. –Bakı: Mütərcim, 2016. –360 s.
3. Cəfərov, H.A. Şagirdlərin asudə vaxtı və yaşayış yerlərində onun təşkilinin bəzi yolları // –Bakı: Məktəbdə bədən tərbiyəsi, –1990. № 1, –s. 23-27.
4. İsazadə E. Gənclik yaş dövrlərində internet asılılığının psixoloji aspektləri. Azərbaycan Respublikasının Təhsil İnstitutu. //- Bakı – 2025, № 4. s.204-207.
5. Hüseynova, G.Q. Emosiya və motivasiya psixologiyası / G.Q. Hüseynova, Y.Ə. Vəliyeva. -Bakı:-2004.-358 s.
6. Mehmet B. Ergenlerde Sosyal Medya Bağımlılığı ve Psikolojik Bozukluklar Arasındakı İlişki // The Journal of International Scientific Researches, –2018, –p.237-247.
7. Qasımov, M. Sağlam həyat tərzi uğrunda. [2-ci nəşr] / M. Qasımov. –Bakı: Qismət, –2005. –271 s.
8. Азадалиева Ш.М. (2015) Основные направления диверсификации и развития высшего педагогического образования в Азербайджане (1921–1991 гг.) // Annales – Analiza Istrske in Mediteranske Študije. Series Historia et Sociologia. – Koper (Slovenia), 2015. – S. 359–368. (Web of Science)
9. Azadaliyeva Sh.M. (2023) The role of Heydar Aliyev in the development of education in Azerbaijan // Proceedings of the 4th International Conference on Humanities and Social Sciences (ICSHRS). – Dubai, April 14–16,– P. 115–120

Redaksiyaya daxil olub: 29.12.2025

UOT 37.06

Gülər Akif qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/ 0009-0001-5875-5006
E-mail: gularmammadovagm@gmail.com
https://doi.org/10.69682/arti.2026.93(2).208-212

STEREOTİPLƏRİN AİLƏNİN PSİXOLOJİ MÜHİTİNƏ TƏSİRİ

Gular Akif Mammadova
lecturer at Azerbaijan State Pedagogical University

THE INFLUENCE OF STEREOTYPES ON THE PSYCHOLOGICAL ENVIRONMENT OF THE FAMILY

Гюлар Акиф гызы Мамедова
преподаватель Азербайджанского Государственного Педагогического Университета

ВЛИЯНИЕ СТЕРЕОТИПОВ НА ПСИХОЛОГИЧЕСКУЮ СРЕДУ СЕМЬИ

Xülasə. Ər-arvad münasibətlərində, ümumiyyətlə ailədaxili münasibətlərin formalaşmasında digər adamların, digər ailələrin davranışının interpretasiyası da istifadə olunan vasitələrdəndir. Yəni bir ailə bəyəndiyi başqa bir ailənin davranış modelini, qarşılıqlı münasibətləri öz ailəsinə tətbiq etməyə çalışır. Lakin onlar unudurlar ki, insanlar ö psixoloji xüsusiyyətləri baxımından fərqli olduqları kimi, ailənin xüsusiyyətləri baxımından da fərqlidirlər. Yəni bir ailədə özünü doğruldan model ola bilsin ki, digər ailədə səmərəsiz olsun. Məqalədə stereotiplərin ailənin psixoloji mühitinə təsiri geniş şəkildə öz əksini tapmışdır.
Açar sözlər: *ailə, mühit, stereotip, münasibət, psixologiya, yanaşma*

Abstract. Interpretation of the behavior of other people and other families is one of the tools used in the formation of marital relations and family relationships in general. That is, a family tries to apply the behavioral model and mutual relations of another family that it likes to its own family. However, they forget that people are different in terms of their psychological characteristics, as well as in terms of the characteristics of the family. That is, a model that is self-fulfilling in one family may be ineffective in another family. The article extensively reflects the impact of stereotypes on the psychological environment of the family.
Key words: *family, environment, stereotype, attitude, psychology, approach*

Аннотация. Интерпретация поведения других людей и других семей является одним из средств формирования супружеских и семейных отношений в целом. То есть семья пытается перенести понравившуюся ей модель поведения и взаимоотношений другой семьи в свою семью. При этом забывается, что люди различаются как по своим психологическим особенностям, так и по особенностям семьи. То есть модель, реализуемая в одной семье, может быть неэффективной в другой. В статье подробно рассматривается влияние стереотипов на психологическую среду семьи.
Ключевые слова: *семья, окружающая среда, стереотип, отношение, психология, подход*

Tədqiqatlar göstərir ki, ailə ilə bağlı təsəvvürlər kifayət qədər mürəkkəb, sistemli şəkildə təşkil olunmuş və davamlı prosesdir. Bunlar birbirilə bağlıdır. Psixoloqlar (İ.S. Kon, A.V. Petrovski, Ə.Ə. Əlizadə, R.İ. Əliyev və b.) göstərirlər ki, ailə həyatındakı mürəkkəbliklərdən biri də təxəyyüldə yaradılanla reallıq arasındakı fərqdən yaranır. Hər bir ailə üzvünün həyat və fəaliyyəti prosesində özü və digərləri haqqında təsəvvürləri formalaşır. Bura ailə şəraiti, ailənin psixoloji mühiti, məqsədi, məişət-təsərrüfat işləri və s. bu kimi situasiyalar aiddir. Bunlar isə kompleks halında ailədə qarşılıqlı münasibətləri müəyyənləşdirir. "Ailədə uşaq ana, ata, bacı və qardaşların müəyyən davranışlarda olduğunu görür. Xüsusilə ana və ata evdə müxtəlif işlər görür (məsələn, yemək bişirmək, təmizlik etmək, zibil atmaq və s.) bütün bunları müşahidə

edən uşaq başa düşür ki, bu tapşırıqlar cinsiyyətə əsaslanır. Həmçinin qoyulan adlar, geyimlər, alınan oyuncaqlar və rəftar tərzi ailə daxilində uşaqlar da gender sosiallaşmasının təməlini qoyur" [1, s. 86].

Ailə həyatında onun haqqında ilkin təsəvvürlər də mühüm rol oynayır. Yəni ər-arvadın ailədən gözləntiləri, tələbatları və s. reallıqda öz əksini necə tapır. Ailə həyatı çoxsaylı situasiyalardan ibarətdir: səhər yeməyi, işdən evə qayıtmaq, televizora baxmaq, vacib hesab edilən gündəlik işlərin müzakirəsi, yeni şeylərin alınması və s. Bütün bunlar haqqında ər-arvadın hər birinin formalaşmış təsəvvürləri olur və ilk istinad olunan öz ailələri olur. Ailə üzvlərinin, eləcə də digər yaxın adamların məsləhətləri də təsəvvürün yaranmasına təsir edir. " Səbr elə, sevəcəksiniz", " Əgər əvvəlcədən kişinin bütün göstərişlərinə əməl etsən, bu onda vərdişə çevriləcək", " Qadın kişini əlinin içində saxlamağı bacarmalıdır" və s. bu kimi məsləhətlər istər-istəməz ər-arvad münasibətlərində öz əksini tapır.

Təsəvvür fikri əməliyyat olduğundan bu və ya digər qərar qəbul edilərkən onun sonrakı təsiri, istiqaməti də nəzərə alınır. Yəni ər və ya arvad, və yaxud hər ikisi fikrən təsəvvür etməyə çalışır ki, atılan hər hansı addımdan sonra nə baş verə bilər. Ailəsi haqqında təsəvvürlərə ailə həyatının müxtəlif sahələri: maddi təminat, ailə üzvlərinin bir-birilə münasibəti, tərbiyə sistemi və s. təsir edir. Ola bilsin ki, ər-arvad davranış, qarşılıqlı ünsiyyət, asudə vaxtın təşkili və s. ailə həyatı ilə bağlı yüksək səviyyədə informasiyaya və nəzəri biliyə malik olsun. Lakin onu praktikada tətbiq edə bilməsin. Bu təxminən ona oxşayır ki, bir adam küçə hərəkəti qaydalarını əzbərdən bilir, lakin öz biliklərini real situasiyada tətbiq etmir. Məsələn, küçəni keçərkən qaydaları pozur. Ola bilsin ki, bir nəfər ailə həyatı, ər-arvad münasibətləri, ailədə davranış qaydaları barədə yaxşı məlumatı olsun, lakin öz ailəsində onu tətbiq etməsin, nəzərə almasın. Yəni ailə həyatı haqqında təsəvvürlə real davranış arasında ziddiyyət özünü göstərsin. Bununla yanaşı ər və arvadın hər ikisinin bir-birlərinin ailə həyatı haqqında təsəvvürlərini bilməsi, reallıqda baş verənləri dərk etməsi baxımından faydalıdır. Bu baxımdan onlar öz fikirlərini bir-birindən gizlətməməli, qarşı tərəflə müzakirə etməlidir. Belədə onlar ümumi bir qənaətə gələ, öz davranışlarını korreksiya edə bilərlər. Ər və arvadın ailə həyatının müxtəlif situasiyalarında düzgün qərar qəbul etmək üçün təsəvvürlə reallığı ayırmağı, ən azı uyğunlaşdıra bilmələri zəruri şərtlərdəndir. Əks halda informasiya məhdudluğu, təsəvvürün qeyri-tamlığı və bunların əsasında səhv qərarın qəbul edilməsi baş verir. Buradan belə sadə bir həqiqət üzə çıxır. Yəni qarşı tərəfin əhval-ruhiyyəsinin nəzərə alınması və ya nəzərə alınmaması.

"Ər və arvadın bir-birinə uyuşması özünün bir mühüm xüsusiyyətinə görə başqa adamlar arasındakı uyuşmadan fərqlənir: o, adətən məhəbbət hissinə əsaslanır. Ailə inkişaf etdikcə, ər-arvadın münasibətləri də mürəkkəbləşir. Onların bir-birinə uyuşmasında müxtəlif amillər mühüm rol oynamağa başlayır. İnsan həyatının çox mühüm hissəsi ailədə – həyat yoldaşı, uşaqlar və qohumlarla ünsiyyətdə keçir. Ailənin çoxcəhətli vəzifələri də ailə üzvlərinin ünsiyyəti formasında həyata keçirilir.Ailədə ünsiyyətin müxtəlif istiqamətləri fərqləndirilir: ərin arvadla, ananın uşaqlarla, bacının qardaşla, nənənin nəvələrlə ünsiyyəti" [2, s.184].

Prof. R.İ. Əliyev yazır: "Ailə üzvlərinin ünsiyyəti, hansısa bir məlumatın verilməsi zamanı qarşı tərəfin fərdi psixoloji xüsusiyyətləri, xarakteri, intellektual səviyyəsi nəzərə alınmalıdır. Bu, iki səbəbdən vacibdir. Bəzi valideynlər uşaqla danışarkən qarşısındakının kim olmasını sanki unudurlar: ya həddən artıq qəliz danışırlar, uşaq heç nə başa düşmür, yaxud da uşaq diliylə danışırlar ki, bu da inkişafa xidmət etmir" [3, s. 66].

Ər-arvad münasibətləri onların davranışı ilə təsəvvürləri arasında uyğunluğu olub olmamasından asılıdır. Burada hər iki tərəfin xarakteri, şəxsi keyfiyyətləri, eləcə də onların təsəvvüründə olan pozitiv və neqativ xüsusiyyətlər mühüm rol oynayır. İstənilən şəxsin davranışını müsbət və mənfi olmaqla iki qütbə ayırmaq olar. Aydındır ki, fərdin müsbət xüsusiyyətləri, ailənin xeyrinə davranışları ailədə yaxşı psixoloji mühit yaradır. Eləcə də əksinə, mənfi keyfiyyətlər ailə mühitinə mənfi təsir edir, ailə üçün destruktiv rol oynayır.

Ailənin psixoloji mühitinə ilk növbədə ailə ilə, ailə üzvləri ilə bağlı səhv təsəvvürlərin olması mənfi təsir göstərir. Başqa sözlə, ailə üzvlərinin fərdi xüsusiyyətləri, situasiyanın özünəməxsusluğu diqqətdən kənarda qalır. Digər bir səbəb informasiyanın birtərəfliliyi və ya səhv olması ilə bağlıdır. Bir çox hallarda isə ər və ya arvad özünə, davranışına tənqidi yanaşa

bilmir, hər şeydə, hər vaxt özünü haqlı hesab edir. Təbii ki, bu da qarşı tərəfdə əks reaksiya yaradır. Əlbəttə, bu amillərin hər biri fərqli şəkildə təsir edir. Birinci və ikinci halda situasiya düzgün qiymətləndirilmir və ona qeyri-adekvat reaksiya verir. Üçüncüdə tərəflərdən biri qarşı tərəfi nəzərə almadan situasiyanı həll etməyə çalışır. Sonuncu halda isə informasiya nəzərə alınmadan problemin həllinə çalışılır.

Göstərilən amillərin hamısında situasiyaya birtərəfli yanaşılır və bu da konfliktə səbəb olur. Çünki qarşı tərəfin nə deməsindən, necə davranmasından asılı olmayaraq səhv kimi qavranılır.

Təcrübə göstərir ki, ər və ya arvadın, eləcə də onlardan birinin ailə təsəvvürləri ilə reallıq arasında uyğunsuzluq olduqda bu, ər-arvad münasibətlərinə, böyüklükdə isə ailə mühitinə mənfi təsir göstərir. Eyni zamanda adamın özünün özünə də münasibətinə aid edilə bilər. Bu, özü haqqında səhv təsəvvürdən yaranır. Məsələn, ərin ailənin tələbatları haqqında adekvat olmayan təsəvvürləri və ya ailə üzvlərindən kiminsə davranış motivlərinin səhv başa düşülməsi buna misal ola bilər. Ola bilsin ki, arvadın bəyəndiyi şeyi ər xoşlamasın. Səbəb başqa motivlər də ola bilər. Misal üçün aşağıdakı nümunəyə nəzər salaq.

Arif və Kifayətin hər ikisinin 36 yaşı var. 15 ildir ki, ailəlidirlər. Psixoloqa müraciət etmələrinin səbəbi 12 və 14 yaşlı oğlanlarının davranışlarından narazılıqdır. Yeniyetmə oğlanlar bəzən evdən qaçırlar. Bu, valideynləri çox narahat edir. Söhbət əsnasında məlum oldu ki ilk baxışda hər şey qaydasındadır. Əslində isə onlar üçün artıq ailə mühiti darıxdırıcıdır. Açıq konflikt yoxdur. Əvəzində laqeydlik, biganəlik, hər şeyə marağın itməsi var. Ər-arvad münasibətləri də soyuqdur.

Kifayətlə Arif tələbə yoldaşı olublar. Universiteti bitirən kimi evləniblər. Kifayət danışır ki, ilk vaxtlar çox çətin idi.

– Evimiz yox idi. Maaşımız kirayə pulunu ödəməyə, yeməyə zorla çatırdı. Valideynlərimiz də kömək etmirdilər. Sonra uşaqlar oldu. Bir sözlə, çətinliklərimiz çox idi. Ariflə bir-birimizə kömək olur, çox çalışırdıq. Hər necə olsa yaxşı yaşamaq uğrunda birgə səy göstərirdik. Kasıb yaşadığımız vaxtlar mehribançılıq idi. Uşaqlara da diqqət, qayğı göstərirdik.

İndi hər şeyimiz-evimiz, maşınımız, yaxşı maaşımız var. Hesab edirik ki, problemlər arxada qalıb. İndi isə başqa problemlər meydana çıxıb. Elə bil ki, həyata marağımız itib.

Həm Arif, həm də Kifayət aktiv, enerjili insanlardır. Ailə həyatının ilk illərində onlar nəyin uğrunda gərgin şəkildə işlədiklərini bilir, həm də fəal şəkildə çalışırdılar. İstədiklərini əldə etdik sonra ümumi məqsəd və motiv yaranmadığından həyata, eləcə də bir-birlərinə maraq itib. Bir sözlə aktivliklə passivlik arasında ziddiyyət yaranıb. Övladları ilə bağlı yaranan vəziyyət sanki onları yenidən ümumi məqsəd ətrafında birləşməyə sövq edib.

Təbii, onlara yeni məqsəd qoyub, fəal şəkildə çalışmaq tövsiyə olunur. Uşaqlara diqqət yetirmək, arzularını nəzərə almaq, ünsiyyət qurmaq, tövsiyə olundu. Az vaxtdan sonra problem həll olunmuş, hər şey qaydasına düşmüşdü.

Nümunə göstərilən ailə ilə bağlı problemin psixoloji təhlili göstərdi ki, ailə uzun illər hər şeyi məişət məsələləri, maddiyyat üzərində qurulmuşdur.

Bizi ilk növbədə ər və arvadın ailə təsəvvürləri maraqlandırırdı. Bunun üçün "Ehtimal" metodikası dan istifadə etdik. Bu metodikaya görə ər və arvad ayrılıqda özləri və əks tərəf barədə düşündüklərini və bununla bağlı nəyi arzuladıqlarını danışırlar. Daha dəqiqi onlara təklif olunur ki, öz ailələrinə bənzəyən başqa ailəni təsvir etsinlər. Söhbətdən təxminən belə bir vəziyyət yaranır: "Ər fikirləşir ki, ilk baxışda ailədə hər şey qaydasındadır. Bununla belə o, narahatdır, özünü evdə pis hiss edir, darıxır. Eyni hissləri qadın da keçirir".

Sual oluna bilər ki, ər və arvad sağlamdırlar, maddi problem yoxdur, kifayət qədər asudə vaxtları var və s. Bəs, onda problem nədədir? Məlum olur ki, ər və arvadın ailə təsəvvürləri fərqlidir və bu da səhv yanaşmaya səbəb olur. Onların özləri haqqında səhv təsəvvürləri ailə həyatında bir-birilə sıx bağlı olan zəncirvari reaksiya vəziyyəti yaradır. Onların istəkləri özləri üçün də çox da anlaşılmayan tələbatları ilə üst-üstə düşmür. Digər bir hal əks tərəfin başa düşülməməsi, onun xüsusiyyətlərinin nəzərə alınması ilə bağlıdır. Bir çox hallarda səhv təsəvvürlər başqa adamların məsləhəti əsasında yaranır.

Psixoloqa müraciət edən ailənin nümunəsində fikrimizi əsaslandırmağa çalışaq. Əli və Nərgiz 2 ildir ki, ailə qurublar. Əlinin 25, Nərgizin 23 yaşı var. Hər ikisi məktəbdə müəllim iş-

ləyir. Əli xaraktercə sakit, xeyirxahdır. Nərgiz isə əksinə, aktiv, hay-küylüdür.

Toy günü rəfiqələri Nərgizə məsləhət görürlər ki, elə ilk gündən ərinin gözünün odunu alsın. Məsləhət bilirlər ki, ərinin əlindən iş gəlmədiyini, fərsiz olduğunu tez-tez ona xatırlatsın. Nərgiz bir az da uzağa gedəcək ərinin bir kişi kimi onu qane etmədiyini fürsət düşdükcə söyləyir. Əli özünü narahat hiss edir, arvadının qarşısında özünü günahkar hesab edir. Ona görə də hər bir işdə arvadına güzəştə gedir, ev işlərini görür. Bir sözlə, bu yolla öz "nöqsanını" kompensasiya etmək istəyir. Nərgizin bütün istəklərini sözsüz yerinə yetirməyə çalışır. Belə psixoloji gərginlik Əlini daha da çəkingən edir, hətta yoldaşına yaxınlaşmağa qorxur.

Nəhayət Əli arvadına bildirir ki, onun həyatını korlamaq istəmir, ona görə də ayrılmaq qərarına gəlib. Vəziyyətin bu həddə çatacağını gözləməyən Nərgiz özü psixoloqa müraciət edir. Nərgiz söyləyir ki, onun təzyiqi artdıqca əri mum kimi yumşalırdı və Nərgizi tamamilə qane edirdi. Nərgiz deyir ki, o bütün bunları ailənin möhkəmliyi naminə edir.

Əliyə görə bir halda ki, arvadı belə deyir, demək o haqlıdır və bu, doğrudan da belədir. Ər və arvadla psixoloqun ayrı-ayrılıqda, həm də növbəti mərhələdə birlikdə söhbəti ailənin normal həyata qayıtmasına imkan yaratdı. Təbii ki, başlıca olanı hər ikisinin ailə həyatı haqqındakı səhv təsəvvürlərdən yaranırdı. Səhv təsəvvür tərəflərin birinin asılı vəziyyətə düşməsinə, digərinin isə idarə edənə çevrilməsinə şərait yaratmışdı. Təbii ki, bu vəziyyət uzun müddət belə davam edə bilməzdi.

Bu deyilənlərdən göründüyü kimi ailə həyatına, onun psixoloji mühitinə ailə haqqında ər və arvadın ailə təsəvvürləri, digər ailələrdə gördükləri, eləcə də ata evində formalaşmış stereotiplər əsaslı təsir edir. Bu zaman unudurlar ki, onların öz ailələrinə təsəvvürlərində yaratdıqları situasiyanı köçürmək əks effekt verir.

Problemin aktuallığı. Məqalənin aktuallığı ondan ibarətdir ki, ailə təsəvvürlərinin yaranmasına, hisslərin idarə olunmasına ailənin üzləşdiyi müxtəlif həyati situasiyalar təsir edir. Fərdin üzləşdiyi real situasiyalar barədə təsəvvürləri o, hələ baş verməmişdən yaranır. Ona görə də bu vəziyyətdə verilən informasiya mühüm rol oynayır. Və ya ola bilsin ki, fərd başqalarının həyatında oxşar situasiya ilə rastlaşıb və onda belə situasiyalarda necə davranmaq barədə təsəvvür yaranıb. Bu baxımdan ailənin psixoloji mühitinə təsiri ilə bağlı məsələlərin araşdırılması dövrümüz üçün aktual məsələlərdəndir.

Problemin yeniliyi. Ailə həyatında, xüsusilə onun ilk illərində ər və arvadın öz fikirlərini hansı formada ifadə etməsindən asılı olaraq ona cavab reaksiyası verilir. Yəni fikrin düzgün qavranılmaması baş verir. Fikrin ifadə forması qarşı tərəfdə ya müsbət, yaxud da mənfi emosiya yarada bilər. Məqalədə stereotiplərin ailənin psixoloji mühitinə təsiri qeyd edilir, bu mövzuda geniş araşdırmalar aparılmış və bu tədqiqatlar məqalədə öz əksini tapmışdır.

Problemin praktik əhəmiyyəti ondan ibarətdir ki, məqalədə irəli sürülən müddəalar və təkliflər təhsil işçiləri, müəllimlər, psixoloqlar, pedaqoqlar və geniş ictimaiyyət üçün aktual və əhəmiyyətlidir. Həmçinin məqalədən mühazirə materiallarında istifadə etmək üçün uyğundur.

Ədəbiyyat

1. Nuriyeva, N.Ç. Gender sosiallaşmasının psixoloji əsasları // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 90, №3, 2023. –s. 85-88
2. Əliyev, S.İ. Azərbaycan ailəsində qarşılıqlı münasibətlərin etnopsixoloji xüsusiyyətləri// Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 90, № 6, 2023. –s. 183-186
3. Əliyev, R.İ. Mən. Atam-anam. Sevgilim və Övladlarım / R.İ. Əliyev. – Bakı: ADPU, -2019. –172 s.
4. Abbasov, A.N. Ailə pedaqogikası: ali məktəblər üçün dərslik / A.N. Abbasov. – Bakı: Mütərcim, – 2019. –272 s.
5. Babayeva, Ş.R. Sosial psixologiya: dərslik / Ş.R. Babayeva, M.F. Həsənova. – Bakı: ADPU, –2019. – 338 s.
6. Çələbiyev, N.Z. Ailə psixologiyası / N.Z. Çələbiyev. –Bakı: Mütərcim, –2015. – 416 s.
7. Əliyeva, S.N. Gender rollarının fərdə və ictimai təsisatlara təsiri // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 91, №2, 2024. –s. 212-220
8. Əlizadə, Ə.Ə. Qadın psixologiyası / Ə.Ə. Əlizadə. –Bakı: Təhsil, –2015. –416 s.
9. Əkbərov, N. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. / N. Əkbərov − Bakı: Bərəkət, −2009, −145 s
10. Beauvais, C., Spence, J. Gender, prejudice, and categorization. Sex Roles 1987, 16, pp. 89-100.

11. Bem, S. L. The measurement of psychological androgyny. Journal of Consulting and Clinical Psychology 1974, 42, pp. 155-162.
12. Vignoles, V. L., et al. (2006). Beyond Self-Esteem: Social Identity and the Need for Positive Social Relationships. Personality and Social Psychology Bulletin, 32(3), 313-327.
13. Phinney, J. S. (1990). Ethnic Identity in Adolescents and Adults: Review of Research. Psychological Bulletin, 108(3), 499–514
14. Knight, R. Free to be you and me: Normal gender-role fluidity - Commentary on Diane Ehrensaft's "Listening and learning from gender-nonconforming children". Psychoanalytic Study of the Child 2014, 68, pp. 57-70.

Redaksiyaya daxil olub: 30.12.2025

UOT 371 (075)

Nərgiz Nazim qızı Niftəliyeva
Mingəçevir Dövlət Universitetinin müəllimi,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
fəlsəfə doktoru proqramı üzrə dissertantı
https://orcid.org/0009-0002-9735-2055
E-mail: nnifteliyeva@list.ru
https://doi.org/10.69682/arti.2026.93(2).213-221

EMOSİONAL ÜNSİYYƏT ANLAYIŞI VƏ ONUN ÖYRƏNİLMƏSİ PERSPEKTİVLƏRİ

Наргиз Назим гызы Нифталиева
преподаватель Мингячевирского Государственного Университета,
диссертант по программе доктора философии
Азербайджанского Государственного Педагогического Университета

ПОНЯТИЕ ЭМОЦИОНАЛЬНОГО ОБЩЕНИЯ И ПЕРСПЕКТИВЫ ЕГО ИЗУЧЕНИЯ

Nargiz Nazim Niftaliyeva
lecturer at Mingachevir State University,
doctorial student in the program of doctor of philosophy
at Azerbaijan State Pedagogical University

THE CONCEPT OF EMOTIONAL COMMUNICATION AND PERSPECTIVES FOR ITS STUDY

Xülasə. Şəxsiyyətlərarası münasibətlərin fəaliyyətin nəticəsini müəyyən etdiyi müasir dövrdə emosional ünsiyyətin əhəmiyyəti artır. Məqalədə emosional ünsiyyət ünsiyyət və emosiya kateqoriyaları çərçivəsində öncə ayrı, daha sonra eyni müstəvidə təhlil predmeti olur. Ünsiyyət və pedaqoji ünsiyyət anlayışlarının, o cümlədən emosional ünsiyyət anlayışının tərifi verilir. Emosional ünsiyyətin izahı zamanı onun yaranma və inkişaf xüsusiyyətlərinin təhlili ilə yanaşı, emosional ünsiyyətin strukturu və komponentləri də nəzərdən keçirilir. Xüsusilə funksionallıq müstəvisində bir-birilə sıx şəkildə qarşılaşan ünsiyyət və emosiyaların formalaşdırdığı emosional ünsiyyətin koqnitiv, subyektiv və ekspressiv cəhətləri fərqləndirilir. Emosional ünsiyyətin qeyri-verbal vasitələr, emosional məzmunlu informasiya, empatiya, emosional yaxınlıq, emosional intellekt və emosiyaları qavrama və anlama kimi əsas komponentlərinin olduğu qeyd olunur. Eyni zamanda, emosional ünsiyyətin aparıcı olduğu tədqiqat istiqamətləri yaxud yanaşmaları qruplaşdırılır və təhlil edilir.
Açar sözlər: *emosional ünsiyyət, ünsiyyət, pedaqoji ünsiyyət, müsbət emosional ünsiyyət, mənfi emosional ünsiyyət, şəxsiyyətlərarası münasibətlər*

Abstract. In the modern era, when interpersonal relationships determine the outcome of activities, the importance of emotional communication is increasing. In this article, emotional communication is considered as a subject of analysis, first separately, and then at the same level, within the categories of communication and emotions. The concepts of communication and pedagogical communication are defined, including the concept of emotional communication. In explaining emotional communication, along with analyzing the characteristics of its formation and development, the structure and components of emotional communication are also considered. In particular, the cognitive, subjective, and expressive aspects of emotional communication are highlighted, which are formed by communication and emotions that closely interact in terms of functionality. It is noted that emotional communication has such basic components as nonverbal means, information with emotional content, empathy, emotional intimacy, emotional intelligence, and perception and understanding of emotions. At the same time, research directions or approaches in which emotional communication is developed have been grouped and analyzed.

Key words: *emotional communication, communication, pedagogical communication, positive emotional communication, negative emotional communication, interpersonal relationships*

Аннотация. В современную эпоху, когда межличностные отношения определяют исход деятельности, возрастает значение эмоционального общения. В статье эмоциональное общение рассматривается как предмет анализа, сначала отдельно, а затем на том же уровне, в рамках категорий общения и эмоций. Определены понятия общения и педагогического общения, включая понятие эмоционального общения. При объяснении эмоционального общения, наряду с анализом особенностей ее формирования и развития, рассматривается также структура и компоненты эмоционального общения. В частности, выделены познавательные, субъективные и экспрессивные аспекты эмоционального общения, которые формируются общением и эмоциями, тесно взаимодействующими по функциональности. Отмечается, что эмоциональное общение имеет такие основные компоненты, как невербальные средства, информация с эмоциональным содержанием, эмпатия, эмоциональная близость, эмоциональный интеллект и восприятие и понимание эмоций. Одновременно с этим сгруппированы и проанализированы направления исследований или подходы, в которых развивается эмоциональная общение.

Ключевые слова: *эмоциональное общение, общение, педагогическое общение, положительное эмоциональное общение, отрицательное эмоциональное общение, межличностное отношения*

Giriş

Sosial varlıq kimi insanın inkişafı və sosiallaşması bir neçə sahədə baş verir. Həmin sahələrdən biri də ünsiyyət fəaliyyətidir. İnsan fəaliyyətini ünsiyyətsiz təsəvvür etmək imkansız kimi görünür. Qeyd edilir ki, *"ünsiyyət bütün sosial-psixoloji hadisələrin mənbəyini təşkil edir"* (1, s. 8). Ünsiyyət prosesində informasiya mübadiləsi ilə yanaşı, insanların bir-birini qavraması və anlaması, həmçinin insanların bir-birinə qarşılıqlı təsiri baş verir. Sadalanan bütün bu istiqamətlərdə insan emosiyaları və hissləri bu və ya digər şəkildə iştirak edir və öz iştirakı ilə insan münasibətlərinin çalarını müəyyən edir. İnsanlar sosial varlıqlar olduğu üçün, emosiyaların səmərəli mübadiləsi empatiyada, əməkdaşlıqda, sosial əlaqələrin və şəxsiyyətlərarası münasibətlərin formalaşmasında, konfliktlərin həlli, qrup dinamikasının və identikliyin formalaşmasında həlledici rol oynayır.

Metod

Ünsiyyətlə bağlı klassik və müasir emli ədəbiyyatların təhlili nəticəsində alınmış məlumatların sistemləşdirilməsi, təsnif edilməsi və interpretasiyası həyata keçirilmişdir. Müxtəlif tədqiqatçıların nəzəri fikirləri öyrənilmiş, məsələyə münasibətlərinin şərhi həyata keçirilmişdir.

Nəticə

İlk olaraq, ünsiyyət və pedaqoji ünsiyyət anlayışlarının mahiyyətini açmaq önəmlidir. "Psixologiya" (Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, 2002) dərsliyində *"ünsiyyət iki və daha çox adamın (öz aralarındakı) münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini birləşdirməyə və əlaqələndirməyə yönəldilmiş qarşılıqlı təsir prosesi"* kimi tərif edilir (2, s. 502; 1, s. 11).

R.İ. Əliyev "Psixologiya" (2008) adlı dərs vəsaitində qeyd edir ki, *"Belə ki, ünsiyyət şüur daşıyıcısı olan "ağıllı varlığın" sosial tələbatıdır. Və ya ünsiyyət iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlıqlı təsiridir"* (3, s. 288). Müəllif ünsiyyətə növdaxili və növlərarası iki cəhətli əlaqə kimi baxır. O yazır: *"İnsan və heyvanların həyat tərzi ilə tanışlıq onun iki cəhətini ayırmağa imkan verir: təbiətlə və canlı varlıqlarla. Təbiətlə əlaqəni insan fəallığının xüsusi növü kimi xarakterizə edir və insanın özünün, öz mövcudluğunun dərk olunması, ətraf mühitin dəyişdirilməsinə yönəldilmiş fəaliyyəti adlandırırlar. İkinci növ əlaqə isə canlı varlıqların bir-birlərinə informasiya mübadiləsi, qarşılıqlı təsiri kimi səciyyələndirilir. Növdaxili və növlərarası belə əlaqə ünsiyyət adlanır"* (3, s. 288-289).

A.U. Məmmədov "Ümumi psixologiya" (2012) adlı tədris vəsaitində ünsiyyətə belə tərif verir: *"Ünsiyyət iki və daha çox şəxsiyyət arasında aparılan söhbətdən, müsahibədən ibarət olan bir proses kimi, əksər hallarda, şüurlu, məqsədəuyğun və planlı şəkildə həyata keçirilir. Məsələn, müəllimlə şagird arasında aparılan ünsiyyət…"* (4, s. 471-472). Müəllif, ünsiyyət və pedaqoji ünsiyyət anlayışlarını eyni kontekstdə nəzərdən keçirmiş olur.

"Ümumi psixologiya" (1982) dərsliyində ünsiyyətə münasibət kontekstində yanaşılaraq, "Ünsiyyət hər hansı bir adama və ya başqa

adamlara bu və ya digər münasibəti ifadə etmək tərzidir" kimi tərif verilir (5, s. 225)

"Sosial psixologiya" (K.Q. Kazımova, U.M. Qəzvini, 2022) dərsliyində vurğulanır ki, *"Ünsiyyət dedikdə, biz nitq və nitqdən kənar təsirin köməyilə həyata keçirilən qarşılıqlı münasibəti nəzərdə tuturuq"* (6, s. 75)

"Psixologiya" lüğətində yazılır ki, *"Ünsiyyət – 1) insanlar arasında birgə fəaliyyət tələbatları ilə doğurulan və özünə informasiya mübadiləsini, başqa insanın qarşılıqlı təsir prosesinin, qavranılması və anlaşılmasının vahid strategiyasının işlənilməsini daxil edən əlaqələrin qurulması və inkişaf etdirilməsinin mürəkkəb, çoxplanlı prosesidir; 2) subyektlərin işarələrlə (simvollarla) həyata keçirilən birgə fəaliyyətin tələbatları ilə doğurulan və partnyorun halında, davranışında və şəxsi-məna törəmələrində əhəmiyyətli dəyişikliklərə istiqamətlənmiş qarşılıqlı təsiridir"* (7, s. 244).

R.S. Nemovun yanaşması və ünsiyyətə verdiyi tərif prof. R.İ. Əliyevin fikirləri ilə üstüstə düşür. O da, ünsiyyətə növdaxili və növlərarası əlaqə kimi yanaşır (8, s. 512).

M.Ə. Həmzəyev və S.F. Əmiraslanovaya görə, *"Pedaqoji ünsiyyət müəllimin şagirdlərlə təlim və tərbiyə prosesində həyata keçirdiyi ünsiyyətdir"* (1, s. 156; 9, s. 179). Onların fikrincə, *"Pedaqoji ünsiyyət müxtəlif məqsədlər daşıya bilər: fərdi-idraki (nə isə yeni bir şeyi öyrənmək, təlimat almaq), emosional (qiymətləndirmək, münasibəti bildirmək, təəssüratı bölüşmək)"* (1, s. 157; 9, s. 180).

B. Əliyev, K. Əliyeva və R. Cabbarova görə, *"Pedaqoji ünsiyyət – müəllimlərin şagirdlərlə dərsdə və dərsdən kənar müəyyən pedaqoji funksiyaların yerinə yetirilməsinə və əlverişli psixoloji iqlimin yaradılmasaına, təlim fəaliyyətinin və müəllimin şagirdlərlə və şagirdlərin öz aralarındakı münasibətlərin optimallaşdırılmasına yönələn peşəkar ünsiyyətdir"* (10, s. 178). Bu tərif A.A. Leontyevin tərifilə səsləşir.

A.A. Leontyev qeyd edir ki, *"Pedaqoji ünsiyyət – bu, müəllimin şagirdlərlə dərsdə yaxud dərsdən kənarda (təlim və tərbiyə prosesində) müəyyən pedaqoji funksiyaları olan və əlverişli psixoloji iqlimin yaradılmasına (əgər o, tam və optimaldırsa), həmçinin təlim fəaliyyətinin və həm də şagird kollektivinin daxilində pedaqoq və şagirdlər arasındakı münasibətlərin başqa növ psixoloji optimallaşdırılmasına istiqamətlənmiş peşə ünsiyyətidir"* (11, s. 8).

V.A. Kan-Kalikin fikrincə, *"Pedaqoji ünsiyyət "pedaqoq – təhsil alan" sistemində peşə ünsiyyətinin müxtəlifliyidir, hansı ki, təşkilatçının, tərbiyəçinin, rəhbərin, istehsalat təhsili ustasının, həkimin və b.-nın fəaliyyətinin ayrılmaz elementi kimi çıxış edir"* (12, s. 10).

V.A. Kan-Kalik pedaqoji ünsiyyətə tərif verərək qeyd edir ki, *"peşə-pedaqoji ünsiyyət pedaqoq və tərbiyə olunanların məzmunu informasiya mübadiləsi, tərbiyəedici qarşılıqlı təsirin göstərilməsi, kommunikativ vasitələrin köməyilə qarşılıqlı münasibətlərin təşkili olan üzvi sosial-psixoloji qarşılıqlı təsirinin sistemidir (priyomları və vərdişləridir)"* (12, s. 12).

Y.K. Kolominski pedaqoji ünsiyyət və pedaqoji şəxsiyyətlərarası qarşılıqlı təsiri əlaqəli şəkildə təhlil edir. O yazır ki, *"Pedaqoji münasibətlərin aparıcı komponenti bütün digər tərkib elementləri (əyani təsəvvürləri (obrazları), mühakimələri və s.-ni) rəngləndirən emosional yaşantılardır. Məhz emosional – müsbət, mənfi, ambivalent – münasibətlər pedaqoji davranışın verbal (pedaqoji deyimlər) və qeyri-verbal məzmun və formalarında təzahür edir. Bu zaman müsbət və mənfi münasibətin dildə və mədəni ənənələrdə möhkəmlənmiş ifadə vasitələri istifadə olunur"* (13. s. 14-18).

Qeyd etmək önəmlidir ki, istər pedaqoji, istərsə də, emosional planda dəqiqləşdirməli olduğumuz iki kateqoriya – ünsiyyət və kommunikasiya anlayışları (pedaqoji ünsiyyət və pedaqoji kommunikasiya, emosional ünsiyyət və emosional kommunikasiya) – ilə qarşılaşırıq. İngilis dilli mədəniyyətdə "ünsiyyət" sözünün əvəzinə "kommunikasiya" sözü işlədilir. B.İ. Fefelova qeyd edir ki, "ünsiyyət" sözündə tərəfdaşların daha şəxsi, mənəvi əlaqəsi ehtiva olunur, "kommunikasiya" isə daha işgüzar münasibətləri nəzərdə tutur. Müəllifin fikrincə, ünsiyyət qavrayışımızda bilavasitə mədəniyyət və mənəviyyatımızla bağlı olan şeydir (14, s. 18). Belə çıxır ki, mənəviyyat yoxdursa, ünsiyyət yoxdur. Ünsiyyət yoxdursa, onda insanların qarşılıqlı təsiri kommunikasiyaya çevrilir. Bu məsələyə E.P. İlyinin fikri aydınlıq gətirə bilər məncə. O qeyd edir ki, bu anlayışlar arasında nisbət fərqlidir, daha doğrusu, ümuminin (kommunikasiya) və xüsusinin (ünsiyyət) münasibəti kimi. "*Kommunikasiyanın bütün növləri ünsiy-*

yət deyil, yalnız istənilən ünsiyyət kommunikasiyanın xüsusi növüdür. Kommunikasiya dedikdə, iki sistemin əlaqəsi, qarşılıqlı təsiri başa düşülür, hansı ki, gedişində bir sistemdən digərinə informasiya daşıyan siqnal ötürülür. Kommunikasiya həm maşın-maşın, həm maşın-insan, həmçinin insan-insan sistemlərinə xasdır. İnsanların qarşılıqlı təsiri zamanı kommunikasiya yeni keyfiyyət məzmunu əldə edir" (14, s. 18-19).

"Böyük psixoloji lüğət"də qeyd edilir ki, *"əksər müəlliflər (Q.M.Andreyeva, B.D.Parıgin, A.V.Petrovski, M.Q.Yaroşevski və b.) istənilən kommunikativ aktda, adətən, üç tərəfi – informasiya mübadiləsini (kommunikativ tərəf), təsir mübadiləsini (interaktiv tərəf) və obrazın yaranmasını, partnyorun anlaşılmasını (sosial-perseptiv tərəf) ayırd edirlər. Bu sadalananlara bir tərəfi – emosional tərəfi də əlavə etmək məntiqli olar"* (15, s. 416.; 14, s. 22-23). E.P. İlyin yazır ki, *"Ünsiyyət – bu, həm ünsiyyət partnyorunun emosiyaları ilə yoluxmadır, həm də partnyorda hansısa emosiyanı çağırmaqdır"* (14, s. 24).

R.S. Nemov ünsiyyəti məzmun cəhətdən xarakterizə edərkən, kondisyon (emosional) ünsiyyəti tərif edir. O yazır ki, *"Kondisyon ünsiyyət zamanı insanlar bir- birini müəyyən fiziki yaxud psixi hala gətirmək üçün hesablanmış təsiri bir-birinə göstərir. Məsələn, əhvalı yüksəltmək yaxud əksinə, onu korlamaq; bir-birini qıcıqlandırmaq yaxud sakitləşdirmək, son nəticədə isə – bir-birinin əhvalına müəyyən təsir göstərmək"* (8, s. 514).

Emosional ünsiyyət üz ifadəsi və jestlərdən tutmuş, səs tonları və metafor ilə bitən affektiv siqnalların ötürülməsi və interpretasiyasıdır. Emosional ünsiyyət həm verbal (şifahi yaxud yazılı), həm də qeyri-verbal (mimika, bədən dili və s.) vasitələrlə baş verə bilər. Lakin bu ünsiyyətdə qeyri-verbal vasitələr daha aparıcı olur.

Emosional ünsiyyət anlayışının mahiyyətinin izahı üçün, ilk olaraq, iki suala cavab vermək önəmlidir: birincisi, emosional ünsiyyət nə zaman formalaşır?, ikincisi, bu ünsiyyət özünə hansı komponentləri daxil edir?

Emosional ünsiyyət anlayışı iki – emosiya və ünsiyyət – sözlərindən ibarətdir. Deməli, birinci suala cavab vermək özlüyündə hər iki anlayışın insanda özünü ilk dəfə nə zaman göstərdiyini üzə çıxarmağı zəruri edir. Aparılmış bir çox tədqiqat nəticələrinə görə, insan kədər, qəzəb, təəccüb, qorxu, iyrənmə, nifrət, maraq, sevinc və b. bu kimi baza (fundamental) emosiyalarla doğulur (K. İzard., P.Ekman və b.). Emosiyaların bioloji funksiyasının, xüsusilə ətraflı öyrənilmiş ekspressiv komponentinin təhlili deməyə əsas verir ki, bioloji səviyyədə emosiyalar sinir və əzələ sistemində baş verən proseslərlə çağırılan duyğu kimi yaranır (16). Deməli, ilk suala cavabla əlaqədar olaraq, belə müddəa ilə çıxış edə bilərik ki, hətta ana bətnində artıq sinir sistemi müəyyən qədər formalaşmış fərddə emosiyalar özünün mimik ifadəsini tapır. Əgər o faktı da nəzərə alsaq ki, insan hələ nitqə yiyələnmədən öncə ünsiyyətə daxil olur, başqa sözlə, nitqli ünsiyyətlə yanaşı, nitqsiz (emosional, qeyri-verbal) ünsiyyət də var, onda deyə bilərik ki, artıq ana bətnində fərd ünsiyyətin bəzi elementlərini öz üzərində hiss edir. Məlumdur ki, N.M. Şelovanov və onun əməkdaşları olan N.L. Fiqurin və M.P. Denisovanın 1920-ci illərdə elmə daxil etdiyi, uşağın həyatının artıq 3-cü həftəsindən başlayaraq tədricən formalaşan, onun 2-3 aylığında tam müşahidə olunan canlanma kompleksi anlayışı (ing. revival complex, revitalization complex) körpənin onu sevindirən təsirləri (rəngli oyuncaqları, melodik səsləri, böyüklərin müraciətlərini) qavraması zamanı yaranan müsbət emosional təzahürlərinin məcmusuna işarə edir. Vurğulanır ki, "*səslər təsir edəndə öncə donma yaxud mərkəzləşmə, obyektə (predmetə yaxud insanın üzünə) görmə fiksasiyası qeyd olunur, sonra isə gülüş təzahür edir, hansına ki, sonradan (ya da onunla eyni vaxtda) vokallaşma və hərəki canlanma qoşulur"* (15, s. 276; 17, s. 322).

Gördüyümüz kimi, canlanma kompleksi, ilk olaraq, uşağın qavranılan təsirlərə cavabı kimi yaranan fərqləndirilməmiş emosional reaksiyası kimi izah edilir. Həmçinin vurğulanır ki, sonralar M.İ. Lisina və əməkdaşlarının da tədqiqatlarının göstərdiyi kimi, *"canlanma kompleksi sadəcə reaksiya deyil, körpənin yaşlı ilə ünsiyyətinin funksiyasını icra edən təşəbbüskar aksiyasıdır"* (15, s. 276-277).

İkinci suala cavab özlüyündə emosional ünsiyyətə tərif verməyi, həmçinin emosiyaların və ünsiyyətin ayrı-ayrılıqda funksiyalarını, strukturunu təhlil etməyi zəruri edir. Çünki emosional ünsiyyət anlayışının mahiyyəti onun funksiyalarında ifadə olunur.

Bir tərəfdən, emosional ünsiyyət qeyri-verbal vasitələrlə (mimika və pantomimika, in-

tonasiya və b.) həyata keçirilən ünsiyyət kimi xarakterizə edilə bilər. Bu zaman qeyri-verbal vasitələr emosional ünsiyyətin əsas komponenti kimi önə çıxır. Emosional ünsiyyət emosional informasiyanın və ya mübadilənin ünsiyyətdə aparıcı olduğu ünsiyyət kimi də qəbul edilir. Belə yanaşmada emosional məzmunlu informasiya emosional ünsiyyətin əsas komponentinə çevrilir. Emosional ünsiyyət həmçinin o prosesə deyilir ki, insanlar məhz onun vasitəsilə şəxsiyyətlərarası münasibətlərdə və sosial kontekstdə emosiyaları ifadə və izah edir, ona reaksiya verir. Bu tərifə görə, emosional ünsiyyətin əsas komponenti emosional intellektlə əlaqəli olmasıdır. Məsələn, U.Kakarla emosional ünsiyyəti şəxsiyyətlərarası ünsiyyətdə emosional intellektin sosial, peşəkar və siyasi kontekstlərdə oynadığı rol nöqteyi-nəzərindən keçirir, emosional intellektin effektiv şəxsiyyətləarası ünsiyyətin formalaşmasındakı mühüm roluna işarə edir (18). X.A. Bakıxanova qeyd edir ki, emosional intellektin inkişafını dəstəkləyən ən əlverişli layihə sosio-emosional öyrənmədir (19). Bu isə, bildiyimiz qədərilə emosional ünsiyyət olmadan mümkün deyildir.

"Psixologiya" dərsliyində (Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, 2002) emosional ünsiyyət şəxsi ünsiyyət kontekstində nəzərdən keçirilir. Müəlliflər yazır ki, *"Şəxsi ünsiyyətin adətən iki səviyyəsini fərqləndirirlər. Birinci səviyyədə ünsiyyət iki (və ya üç) adamın vasitəsiz təması kimi meydana çıxır və emosional xarakter daşıyır. Lakin tədricən emosional ünsiyyət şəraitində adamlar öz nöqteyi-nəzərlərini izah etməyə, müdafiə etməyə, bir-birilərinin fikirlərini, əməllərini və s. müəyyən mövqedən qiymətləndirməyə başlayırlar. Bu, şəxsi ünsiyyətin ikinci səviyyəsidir"* (2, s. 505). Əslində ikinci səviyyədə haqqında danışılan şəxsi ünsiyyətdəki emosional ünsiyyətin emosional intellekt komponentinə işarə edilir. Bəzən emosional ünsiyyət manipulyasiya üsullarından biri kimi də xarakterizə olunur, belə ki, insanların bir qismi başqa adamları manipulə etmək üçün məhz bu ünsiyyət növündən istifadə edə bilirlər. Bu mexanizmi növbəti şəkildə izah edə bilərik. Emosiyalarımızı jestlər və ya üz ekspressiyası ilə ifadə edə biliriksə, deməli, bunun əksi də mümkün olacaqdır. Başqa sözlə, müəyyən üz ifadəsi və ya jestlə sanki hansısa emosiyanı keçirdiyimizlə bağlı təəssürat yaratmaq, yəni manipulyasiya etmək olar.

"Psixologiya" (R.İ. Əliyev, 2008) adlı dərs vəsaitində emosional ünsiyyət şəxsiyyətlərarası münasibət kontekstində nəzərdən keçirilir. Müəllif qeyd edir ki, *"Ünsiyyətin məzmununa canlı varlığın emosional vəziyyəti və ya daxili motivasiyasını aid edirlər. ... Ünsiyyət vasitəsilə bir canlı varlıq özünün emosional vəziyyəti (razılıq, sevinc, nifrət, kədər, qəm və s.) barədə məlumat verərək onunla canlı əlaqə qurur. Belə informasiyanın bir insandan başqa birisinə verilməsilə şəxsiyyətlərarası münasibət qurulur"* (3, s. 289).

"Ümumi psixologiya" (1982) dərsliyində emosional ünsiyyət işarə ünsiyyəti ilə vəhdətdə götürülərək, mənalı ünsiyyət kimi xarakterizə edilir: "Nitq ünsiyyəti işarə ünsiyyətinin xüsusi halıdır. Lakin sözlərin köməyi olmadan jestlərdən, mimikadan, duruşdan, baxışın istiqamətindən, hətta həmsöhbətlər arasındakı məsafədən istifadə etməklə də ünsiyyət saxlamaq olar. Bu cür – mənalı – ünsiyyət xüsusilə emosional vəziyyət, hisslər və əhvalların ötürülməsi ilə əlaqədar olan şərait üçün xarakterikdir" kimi tərif verilir (5, s. 224).

A.Bartsch və S.Hubner emosional ünsiyyətin ünsiyyət tərəfdaşlarının emosiyaları arasında qarşılıqlı təsir prosesi kimi konsepsiyalaşdırıldığı emosional ünsiyyət modelini təsvir edirlər. Onlar emosional ünsiyyətin hər birinin fərqli emosiyalar nəzəriyyəsinə əsaslandığı dörd işçi tərifini təqdim edirlər. Müəlliflərin fikrincə, emosional ünsiyyət üç qarşılıqlı mürəkkəblik səviyyəsindən ibarətdir: 1) anadangəlmə stimul-reaksiya-nümunələr, 2) assosiativ sxemlər və 3) simvolik məna. Sonda belə fikir səsləndirilir ki, emosional ünsiyyət tək bir ünsiyyət nəzəriyyəsi altında qəbul edilə bilməz (20).

Ümumiləşdirsək, deyə bilərik ki, emosional ünsiyyətdə üç əsas cəhəti fərqləndirə bilərik: koqnitiv, subyektiv və ekspressiv. Koqnitiv cəhət deyəndə, hisslərin və emosiyaların ünsiyyət tərəfdaşları tərəfindən qavranılması başa düşülür. Şəxsiyyətlərarası münasibətlərlə çağırılan yaşantılar subyektiv cəhəti xarakterizə edir. Ekspressiv cəhət isə emosiyaların istərsə verbal, istərsə də qeyri-verbal ünsiyyət tərəfdaşına münasibətdə emosiyaların ifadəsini nəzərdə tutur.

Emosiyaların funksiyalarına gəlincə isə, onların üç səviyyədə təhlil edildiyini qeyd edə bilərik:

Birincisi, fizioloji səviyyədə emosiyaların bioloji funksiyası; məsələn, qəzəb zamanı emo-

siyalarımız qan axınını müvafiq hərəkətlərdən məsul əzələlərə yönəldir.

İkincisi, psixoloji səviyyədə emosiyaların motivəedici təsir funksiyası; emosiyalar bizim qavrayışımızı, düşüncəmizi və davranışımızı təhrik etməklə şəkilləndirir və istiqamətləndirir.

Üçüncüsü, sosial səviyyədə siqnal (sosial) funksiyası; qarşılıqlı təsir prosesində bizim ünsiyyətimiz emosional təzahürlərdən qurulur (16).

